ƏŞİR BƏŞİROĞLU

CƏSUR QARDAŞLAR

Bakı “Təknur” 2013

Bu kitabı yazarkən mənə dəyərli məlumatlar topladığına görə oğlum Şamilə dərin minnətdarlığımı bildirirəm.

Redaktor: **Bəhram Salman oğlu Avilov, fəlsəfə doktoru**
Korrektor: **Zərifə İsmayıl qızı Rzayeva,**
filologiya elmləri namizədi, dosent

Əşir Bəşiroğlu
Cəsur qardaşlar
Bakı: "Təknur" nəşriyyatı, 2013, səh

Şair-publisist Əşir Bəşiroğlu iri həcmli 12 kitab yazıb oxuculara təqdim edilmişdir. "Cəsur qardaşlar" adlanan bu kitab şairin oxucularla 13-cü görüşüdür. Kitabda vətənə sevgi və elə məhbbət hissi aşılanır. Eyni zamanda milli düşmənimiz olan ermənilərə nifrət hissi tövsiyyə olunur.

Əşir Bəşiroğlu 2013

TARİXİN QAN YADDAŞI

Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir.

1. Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi – 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km
2. Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990). Sahəsi: 19 kv.km
3. Laçın (17 may 1992). Sahəsi: 1835 kv.km
4. Kəlbəcər (3-4 aprel 1993). Sahəsi: 1936 kv.km
5. Ağdam (23 iyul 1993). Sahəsi: 1094 kv.km
6. Cəbrayıl (18 avqust 1993). Sahəsi: 1059 kv.km
7. Füzuli (23 avqust 1993). Sahəsi: 1386 kv.km
8. Qubadlı (31 avqust 1993). Sahəsi: 802 kv.km
9. Zəngilan (30 oktyabr 1993). Sahəsi: 707 kv.km

Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur. Mən əminəm ki, bizim qəhrəman milli ordumuz tezliklə bu torpaqları düşmən tapdağından azad edəcəkdir. Siz də əmin olun, mənim istəkli həmvətənlərim! Amin...

MÜƏLLİF HAQQINDA



Şair-publisist Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində kolxozçu ailəsində anadan olub. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-1969-cu illərdə Sumqayıt şəhərindəki Alüminium zavodunda fəhlə, növbə rəisi və sex partiya komitəsinin katibi işləmişdir. Dəfələrlə Sumqayıt şəhər Sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir.

İşdən ayrılmadan təhsilini davam etdirmişdir. O, əvvəlcə Bakı Statistika Texnikomunu, sonra isə V.İ.Lenin adına APİ-ni bitirmişdir. Elə həmin illərdə də Qubadlı rayonunun Aşağı Mollu kənd orta məktbində müəllim işləmişdir. İndi o məktəb Sumqayıt şəhrində yerləşir.

3 noyabr 1970-ci ildə Aşağı Mollu kəndindəki Qaçaq Nəbi adına kolxozun İdarə heyyətinə sədr seçilmişdir. İşlədiyi müddətdə kolxoz keçici qırmızı bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunmuşdur. 25 dekabr 1975-ci ildə səhhəti ilə əlaqədar olaraq işdən çıxmışdır. O, yenə də Aşağı Mollu kənd məktəbində müəllimlik etmişdir.

Əşir Bəşiroğlu "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalısı", "Azərbaycan bayrağı", "H.Z.Tağıyev", "H.B.Zərdabi" və "Şərəf" media mükafatları fəxri diplomları ilə təltif olunmuşdur.

Azərbaycan KİVİHİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüdür.

Şairin iri həcmli 12 kitabı nəşr olunub oxuculara təqdim edilmişdir. Onun əvvəlki kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Ümüdvarıq ki, "Cəsur qardaşlar" adlanan bu 13-cü kitab da oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.

ÖN SÖZ

1988-ci ilin fevralında böyük münaqişə başlandı – sonralar o, ölkənin kütləvi informasiya vasitələrində "Dağlıq Qarabağ vilayətində və onun ətrafında hadisələr" adlandırıldı.

Elə bir dövr idi ki, hələ yenidənqurma prosesləri çoxminli insan kütlələrini şəhər və qəsəbələrin küçə və meydanlarına çıxarmamışdı. SSRİ xalq deputatlarının bütün ölkəni iki həftəliyə işdən ayıran, uşaqdan tutmuş böyüyədək hamını televizor ekranlarına cəlb edən birinci qurultayı keçirilməmişdi, alkoqolizm əleyhinə qanunveriliyin qüvvəyə minməsinin iqtisadi təsiri özünü göstərməmişdi, ölkənin müxtəlif güşələrində zəhmətkeşlərin çıxışlarının güclü dalğasını qaldıran, iqtisaiyyatı durğunluq vəziyyətindən çıxarıb böhran burulğanına atan şaxtaçı tətilləri başlanmamışdı.

DQMV-ə dair 1988-ci il martın 23-də qəbul edilmiş ilk sənədlərdən birində deyilirdi ki, "...SSRİ Ali Sovetinin Rəyasət heyəti SSRİ Konstitusuyasının 81-ci maddəsini rəhbər tutaraq qərara alır..." Sonra maddələr gəlirdi...

O zaman çoxları fikir vermədi ki, Rəyasət heyətinin qərarı ümumən Konstitusiyanın məhz 81-ci maddəsi ilə əlaqədar qəbul edilmişdir. Bəs həmin maddədə nədən danışılır? "Müttəfiq respublikaların süveren hüquqları SSR İttifaqı tərəfindən qorunur".

Məlumdur ki, Azərbaycan heç vaxt və heç kəsə ərazi iddiasında olmamışdır. Əksinə, Ermənistan DQMV ərazisinə malik olmaq iddiasını irəli sürmüşdür. Lakin ölkənin ali hakimiyyəti Azərbaycanın hüquqlarının mühafizəsinin tamamilə dəqiq qanunvericilik əsasını göstərsə də bu cür mühafizəni təmin etmədi.

1988-ci il martın 24-də "1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı qəbul olundu.

Qərarda deyilirdi: "Beşilliyin yalnız son üç ili ərzində vilayətdə sənaye istehsalının həcmi üç dəfədən çox, kənd təsərrüfatı məhsulları istehsalı 1,5 dəfə çoxalmışdır. Respublika və Ümumittifaq əmək bölgüsündə vilayətin iştirakı xeyli artmışdır, inteqrasiya prosesləri güclü inkişaf edir. Əhalinin yaşayış sahələri, xəstəxanalar, kitabxanalar, klublar ilə təminatı yaxşılaşmışdır".

Sonra bir sıra nöqsanlar göstərilirdi, onların tezliklə aradan qaldırılması üçün vilayətin iqtisadiyyatına iri investisiyalar yönəldilməsi, digər sosial və iqtisadi tədbirlər görülməsi tələb olunurdu. Təəssüf ki, iki ildən çox vaxt keçməsinə baxmayaraq, qərarın yerinə yetirilməsinə hələ başlanmamışdır. Əslində DQMV-nin erməni əhalisinin və qonşu Ermənistanın buna hər cür mane olduqları bir vaxtda qərarın yerinə yetirilməsinə başlamaq mümkün idimi?

Göstərilən qərarın üçüncü maddəsini xüsusi qeyd etmək lazımdır. Orada deyilirdi: "SSRİ Mədəniyyət Nazirliyi və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR-də yaşayan erməni əhalisinin arzusunu nəzərə alaraq Bakı şəhərində Erməni dram teatrının yaradılması məsələsini nəzərdən keçirsin". Görünür, kimlərəsə elə gəlirdi ki, ərazi iddialarına bu yolla son qoymaq mümkündür. Hadisələrin gedişi isə ona gətirib çıxardı ki, 1989-cu ilin dekabrında Bakıda erməni kilsəsi yandırıldı. Yerevanda müsəlman məscidi bundan çox qabaq yandırılmışdı.

Lap əvvəldən təqsirkarları axtarırdılar. Onların sırasında respublikaların keçmiş rəhbərlərinin, yenidənqurma əleyhdarlarının və korrupsiyaya qurşanmış ünsürlərin adları çəkilirdi. Lakin iki qonşu respublikada rəhbərliyin bir neçə dəfə dəyişməsinə baxmayaraq, yenidənqurmanın əleyhdarları açıq-aydın azlıq təşkil edir, onların səsləri heç eşidilmir... İstər Azərbaycan, istərsə də Ermənistan tərəfdən korrupsiyaya qurşanmış ünsürlərə gəlincə, regionumuzun hüdudlarından kənarda bazara gedən hər kəs öz gözləri ilə görüb yəqin edər ki, onlar nəinki dinc yanaşı yaşayır, həm də sıx əməkdaşlıq edirlər.

Deməli təqsirkar kimsə başqasıdır, tarix məhz kimin təqsirkar olduğunu göstərəcək. Hələlik isə "erməni xalqının milli ləyaqəti" uğrunda mübarizəni özlərinə peşə eləmiş adamlarda baş verən bir sıra qəribə dəyişikliklərə oxucunu cəlb etməyi vacib bilirik.

Az məhşur olan adi publisisti görkəmli yazıçı adlandırdılar. Stepanakertin və Yerevanın qəbristanlarına əl verən qiymətlərlə baş daşları göndərən kiçik əyalət zavodunun direktoru, cəfakeş insan şöhrəti qazandı. Üzümçülük və şərabçılıq komitəsinin sevimli işindən məlum qərarla ayrılmış keçmiş sədri vilayətdə partiya lideri oldu və hadisələrin gedişinə özünə layiq töhfəsini verib Moskvaya getdi. Moskvanın elmi tədqiqat institutlarından birinin heç kəs tərəfindən tanınmayan

əməkdaşı geniş auditoriyaya ömründə məşğul olmadığı sahənin mütəxəssisi – millətlərarası məsələlər üzrə mütəxəssis kimi təqdim edildi... Onlar – yalnız onlarmı? – deputat olub zəkalara hakim kəsilirdilər!...

Münaqişə dəhşətli və faciəli tərzdə genişlənirdi, vəziyyət getdikcə ağırlaşırdı. Amma bu adamların nitqlərində heç nə dəyişmirdi. Kostyumları isə dəyişirdi, xüsusilə qadınların paltarı daha bahalı olurdu...

Aylar, illər keçdi – ölkənin bir regionunda söndürülməyən millətlərarası münaqişə yanğını başqa regionlara yayıldı. Bir çox diyarlarda qan axıdılır. Bəs ölkəmizin nə qədər güşəsində millətlərarası münaqişələr közərir və münaqişələrin necə cərəyan edəcəyinə kim təminat verə bilər?...

Mərkəzdə qərarlar qəbul etmək səlahiyyətinə malik olan adamlar, görünür, bu cür münaqişələrin tarixi köklərini, üstəlik, özlərinin çıxışlarının nəticələrini aydın təsəvvür eləmirdilər.

Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR-in prezidenti Ayaz Niyazi oğlu Mütəllibov Sov.İKP XXVIII qurultayında çıxış edərkən demişdir: "Açıq deyək: mərkəzin funksionerləri məsələnin tarixini bilmədən, vəziyyətə bələd olmadan, özlərini zəhmətə salıb münaqişənin səbəblərini obyektiv təhlil etmədən əslində Azərbaycanı düşünülməmiş qərarların sınaqdan çıxarıldığı meydana çevirdilər. Bəs nəticəsi? Nəticəsi odur ki, qarşıdurma davam edir, insanlar həlak olurlar. İş o yerə çatıb ki, ölkənin ərazisində iki respublika arasında sərhəd zonası yaradılıb. Ermənistanda respublikanın qeyri-formal hakimiyyət orqanlarının başçılıq etdikləri 140 min nəfərlik milli ordu təşkil olunub".

Yenilik nədir? Çoxdan unudulmuş köhnəlik. Çoxlarının yadındadırmı ki, "Qarabağ məsələsi" adlandırılan məsələ erməni məsələsinin yalnız bir hissəsidir. Erməni məsələsi isə Şərq məsələsinin bir hissəsidir. XIX əsrin axırlarında – XX əsrin əvvələrində bu məsələlərə əsərlər həsr olunub. Təəssüf ki, çoxu unudulub.

Tarixçi V.Qurko-Kryajinin 1926-cı ildə nəşr edilmiş Böyük Sovet Ensiklopediyasında dərc olunan məqaləsi bu əsərlər sırasına aiddir. Müəllif o qədər dəqiq və parlaq şəkildə yazmışdır ki, Stalin tarixşunaslığı onun adının unudulmasına çalışırdı. Lakin, görünür, ensiklopediyanın redaksiya heyəti – baş redaktoru O.Y.Şmidt, akademiklərdən N.İ.Buxarin, Q.M.Kpjijanovski və başqaları həmin işə V.Qurko-Kryajini nahaq yerə cəlb etməmişdilər.

Amma tarixçi də aldanmışdı – o, ümidvar olduğunu bildirirdi: "...erməni mühacirləri arasında ən vicdanlıları özlərinin əvvəlki istiqamətini dəyişir və keçmişdən əl çəkərək, təqsirlərini boyunlarına alıb Vətənə qayıdırlar. Sovet çevrilişindən sonra Daşnaksütyün, şübhəsiz, tam ölümə məhkumdur..."

Biz oxucuların diqqətini həmin məqalənin bəzi məqamlarına cəlb etməyi lazım bilirik.

Bildiyimiz kimi ermənilər ən çox ruslara bel bağlayırdılar. 1877-ci il müharibəsinədək Türkiyədə ermənilər böyük səlahiyyətə malik idilər. Onlar mühüm dövlət vəzifələri tutmuşdular. Lakin 1877-ci ildə Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi bağlanarkən Türkiyə ermənilərinin başda patriarx Nerses olmaqla Rusiya hökümətinə müraciət etməsi və ondan kömək istəməsi Türk dövlətini ermənilərə qarşı çevirdi. Rusların ermənilərə kömək məqsədilə dağlıq ərazilərə qədəm qoymaq cəhdi İngiltərə tərəfindən dəf edildi.

Berlin konqresinin qərarları ermənilərə böyük dövlət yaratmaq ümüdü verirdi. Bu xam xəyal ermənilərə "dənizdən dənizədək" (Qara dənizdən Aralıq dənizinədək) böyük dövlət yaratmaq istəyi İngilislər tərəfindən qızışdırılırdı. Ermənilərin bu istəyi puça çıxdı, Rusiyadan onların özləri imtina etmişdi, ingilislərə isə o lazım idi ki, ruslar özlərinin yaxın şərq siyasətində ermənilərdən istifadə edə bilməsin. İngiltərə Türkiyəni Rusiyadan qorumaq üçün Kipr adasını aldı. Beləliklə o, ermənləri Türkiyənin ixtiyarına buraxdı.

Türkiyə dövləti isə ermənilərin xəyanətinə cavab olaraq onları cəzalandırmağa başladı. Ermənilər Türklərə qazdıqları quyuya özləri düşdü.

İllər əsrlər bir-birini əvəz edir, siyasətlər dəyişir, yeni dövlətlər yaranır, köhnələr dağılır, lakin ötən illər keçmişdə qalan zamanlar, süqut edən dövlətlər, dünyadan köçən sərkərdələr yenidən yad edilir, yer üzündə onların izləri, həyat və fəaliyyətləri araşdırılır, qiymətləndirilir, çünki gələcək bütün böyüklüyü və gözlənilməzliyi ilə keçmişinin sarsılmaz özülü üzərində dayanır.

Bu baxımdan "Cəsur qardaşlar" kitabı araşdırmalar nəticəsi olaraq, çoxlu sayda tarixi mənbələr əsasında ərsəyə gəlmiş, Azərbaycanın qədim toraqlarından olan Sultan bəyin və qardaşı – Qarabağın general-qubernatoru, Azərbaycan Xalq Cumhuriyyətinin ilk Müdafiə Naziri Xosrov bəyin qəhrəmanlığına həsr olunur.

Kitabda Azərbaycanın ən qəddar düşmənlərindən biri olan, ermənilərin isə inam bəslədikləri Andranik üzərindəki qələbə, Sultan bəylə, Xosrov bəyin 1919-cu il 21-30 martında Əsgəran döyüşündə daşnak generalı Dronu məğlub etməsi, Laçına basqının qarşısının alınması, hərb tariximizin çox şərəfli səhifələrindən biri hesab olunur.

Eyni zamanda Azərbaycan Xalq Cumhuriyyəti zamanı bölgədəki ictimai-siyasi vəziyyət araşdırılmış, 1920-ci ildən sonra Zəngəzurun Sovet Ermənistanına qeydsiz-şərtsiz verilməsi səbəbləri təhlil edilmişdir.

Kitabın ən uğurlu cəhətlərindən biri də odur ki, Sultan bəy, Xosrov bəy və ataları müdrik el ağsaqqalı Paşa bəyin həyatı, şəxsiyyəti, erməni işğalçı quldurlarına qarşı mübarizəsi barədə oxucuda əyani təsəvvür yaradılmışdır. Bütün bu göstərilən cəhətləri əldə rəhbər tutaraq deyə bilərəm ki, kitab geniş oxucu kütləsinin marağına səbəb olacaq və onlar tərəfindən sevilə-sevilə oxunacaqdır.

I F Ə S İ L

MÜHARİBƏ İLLƏRİNDƏ

Müharibənin qanlı-qadalı günlərində camaatın güzaranı çox ağır keçirdi. Mənim uşaqlıq illərim həmin dövrə düşüb. Müharibə təzə başlayanda atam rəhmətə getdi. Biz iki qardaş bir bacı idik. Yazıq anam olmazın zülmünü çəkirdi. Kolxozda işləyirdi. O vaxt ayrı dolanışıq yeri yox idi. Yazıq anam səhər-səhər yazı düzünə taxıl biçininə gedirdi. Günorta istidə evə gələr, azdan-çoxdan çörək yeyib çəltik alağı etməyə gedərdi. O vaxt mənim 6 yaşım var idi. Mən də anamla birlikdə alağa gedərdim. Həmin o qanlı-qadalı illərdə kəntdə taun xəstəliyi yayılmışdı. O vaxt mənim 6 yaşım, qardaşım Əşrəfin 5 yaşı, bacım Diləfruzun isə 7 yaşı var idi. Anam işə gedəndə bacım həm bizə baxar, həm də ev işlərini görərdi. Mən də atla, eşşəklə yazı düzündən taxıl dərzi daşıyırdım. Günorta çəltik alağı eləməyə gedəndə biz üçümüz də anamızla gedərdik. Mən və bacım Diləfruz anama azdan-çoxdan kömək edərdik. Qardaşımız Əşrəf də yanımızda oynayardı. Taun insanları bir-bir dənləyirdi. Elə gün olurdu ki, kəntdə 2-3 nəfər taundan ölürdü. Taun xəstəliyi bizim ailədən də yan keçmədi. Qardaşım Əşrəf o xəstəliyə tutuldu. Anamın bütün səylərinə, həkimlərin göstərdikləri yardıma baxmayaraq balaca Əşrəfi taun

xəstəliyindən xilas etmək mümkün olmadı. O, uşaq yaşında dünyasını dəyişdi. Oğlunun vaxtsız ölümündən şam kimi əriyən, günü-gündən zəifləyən anamın əli yeganə gəlir mənbəyi olan kolxoz işindən də soyumuş, qəm dəryasına batmışdır. Bu azmış kimi bacım Diləfruz da taun xəstəliyinə tutuldu. Yazıq anam öz dərdini unudub qızının qeydinə qaldı. Həkim, dərman, anamın bütün cəhdlərinə baxmayaraq bacım Diləfruz da dünyasını dəyişdi. Anam bir müddət yas saxladıqdan sonra naəlac qalıb kolxoz işinə getdi. Onun yeganə ümidi, pənahı mən idim. O, mənim qeydimə qalırdı, yeganə balasını itirməkdən qorxurdu. Anam mənim oxumağıma xüsusi diqqət yetirirdi. Mən də dərslərimdən 4-5 qiymət alırdım. Orta məktəbi qurtardıqdan sonra əsgəri xidmətə getdim. Üç il əsgərlik etdikdən sonra doğma kəndimiz olan Molluya qayıtdım, mənim fikrim kəntdə qalıb işləyib anama kömək etmək idi. Ancaq anam təkidlə tələb etdi ki, instituta gir, ali təhsil al. Mənim canım hələ suludur. İşləyib səni saxlayacam. Anamın təkidi ilə mən Bakıya gəlib V.İ.Lenin adına APİ-yə qəbul oldum. Gündüz Sumqayıt Alüminium zavodunda işləyir, axşam isə institutda oxuyurdum. Nəhayət institutu qurtardım, ailə qurdum. Sonra bir-birinin ardınca gələn müsübətlər sinəmə ağır dağ çəkdi. Anamın ölümü, oğlümün faciəli şəkildə öldürülməsi, həyat yoldaşımın ölümü sinəmə çalın-çarpaz dağ çəkdi. Doğulub boya-başa çatdığım, suyu ilə çörəyi ilə ətə qana gəldiyim doğma vətənimin düşmən tərəfindən alınması isə yuxarıda saydığım dərdlərdən qat-qat ağır oldu. İndi mən bütün dərdlərimi unudub ancaq vətən dərdi ilə yaşayıram. Mənim yeganə arzum vətənimin alınmasıdır. Əgər mən doğma vətənimdə torpağa tapşırılsam özümü xoşbəxt sayaram. Qəbir evində rahat yataram.

BALTALA

Budapeşt şəhərində kursda olarkən bayrağımızı təhqir etmiş erməni zabitini öldürən ordumuzun baş leytenantı Ramil Səfərova ithaf edirəm.

Vur düşməni zoruna qurban olum,
İgidə şərəfdi vətənçün ölüm.
Xalqım düşübdü erməni toruna,
Mən bələdəm onların kök-soyuna,

Vur! Baltala! Qurban olum zoruna!

Biz ağladıq, sızladıq, daha bəsdi,
Anaların göz yaşları əbəsdi.
Doğma vətənimi alıbdı yağı,
Baltayla sağalar vətənin dağı,
Vur! Baltala! Qurban olum zoruna!

Vətəndə tapdanıb namus, arımız,
Çapılıb, talanıb, dövlət, varımız.
Ucqar bir ölkədə, uzaq diyarda,
Qisasım qalmasın qansız dığada,
Vur! Baltala! Qurban olum zoruna!

Biz sülh istəyirik, qudurur yağı,
Sinəmə çəkirlər dağ üstdən dağı.
Xocalı dərdini çəkən oğullar,
Düşməni doğrayar, çapar, baltalar.
Vur! Baltala! Qurban olum zoruna!

Kim igid oğlunu qınaya bilər?
Əsəblərin basıb sınaya bilər?
Əşir sevir Ramil kimi nərləri,
Düşməni doğrayıb, tökən ərləri.
Vur! Baltala! Qurban olum zoruna!

ERMƏNİ VƏHŞİLİYİ

2005-ci ilin iyul ayının ortaları idi. Mənim Rusiyada vəhşicəsinə qətlə yetirilmiş oğlum Qabil haqda kitabım təzə çapdan çıxmışdı. Mən yazı masamın axrasında əyləşib yeni kitabım üzərində işləyirdim. Qapı döyüldü. Yoldaşım qapıya gedib tez mənim yanıma gəldi dedi: - Bir cavan oğlandı, səni görmək istəyir. Dedim: - De, gəlsin. Bir azdan sonra uca boylu, qarayanız bir oğlan içəri

daxil olub özünü təqdim etdi. “Mən rəssamam, adım da Aqildi” Dedim: - Buyurun, sizi eşidirəm. O, bir qədər tərəddüd etdikdən sonra: - Əşir müəllim, mən sizin oğlunuz haqda yazdığınız kitabı oxumuşam. Əgər siz razı olarsızsa oğlunuzun portretini çəkərəm. Yazılarınızdan aldığım təəssüratlarım əsasında oğlunuzun sifət cizgilərini vermişəm.

Mən onun sözlərindən tutuldum. Ancaq o əlindəki sumkanı açıb oradan bükülü bir kağız çıxarıb mənə uzatdı. “Baxın, mən sizin kitabınızı oxuya-oxuya, görməzə-bilməzə oğlunuzun sifət cizgilərini çəkmişəm.

Mən yenicə işlənmiş portret cizgilərinə baxıram. Oğlumun şəkilini isə əlimdə saxlamışam. O cizgilərdə necə də oxşarlıq var. O cizgilər həm də mənim sifət cizgilərimə oxşayırdı. Mən oğlumun özümə oxşamasını indiyə qədər belə hiss etməmişdim.

Mən oğlum Qabilin rəsmini rəssam Aqilə verdim. Yağlı boya ilə oğlumun portretini yaratmasını xahiş etdim. O, mənə razılıq edərək getdi. Axı bu onun öz arzusu idi. Təxminən bir aydan sonra həmin cavan oğlan rəssam Aqil axşamüstü bizə gəldi. Biz, yəni mən və həyat yoldaşım Sərmayə xanım rəssam Aqili mehribanlıqla qarşıladıq. O, yağlı boya ilə işlənmiş, böyüdülüb çərçivəyə salınmış oğlum Qabilin portretini salafandan çıxarıb stolun üstünə qoydu. Aman Allah elə bil oğlum canlı idi. Sanki bu saat dil açıb danışacaq idi. Yoldaşım Sərmayə xanım portreti görən kimi qollarını açıb onu qucaqladı. “Can bala bizi atıb hara getmişdin? Sənə anan qurban nə yaxşı ki, gəldin”. Yoldaşım tamamilə özünü itirmişdi. Sanki canlı adam ilə danışırdı. O, özünə gələndə, qarşısındakının oğlumuz Qabil yox onun portreti olduğunu anlayanda qəşş edib yerə yıxıldı, onun ürəyi getdi. Biz onun ürəyinə yaş dəsmal qoyub onu ayıltdıq. Sonra ona dərman içirtdik, bir qədər özünə gəldi. Sonra mən onu yataq otağına aparıb çarpayıya uzadıb, rəssam oğlan Aqilin yanına qayıtdım. Mən minnətdarlıqla rəssama baxdım. Mənə elə gəldi ki, oğlum ölməyib, o, mənim yanımda əyləşib, mənimlə həmsöhbətdir. Oğlum öləndən bəri mən bu qədər sevinməmişdim. Rəssam mərd, cəsur və qorxmaz bir oğul surəti yaratmışdır. Həmin sənət əsərini mən evimdə iş otağımın divarına vurdum. O portret indi də ordadır. Oturub işləyəndə onunla üzbəüz oluram, bu mənə xüsusi ilham verir. Oğlumun dərdinə dözə bilməyən, gecə-gündüz qan-yaş tökən həyat yoldaşım Sərmayə xanım dərdə dözə bilməyib

dünyasını dəyişdi. Biz onu oğlu ilə qoşa dəfn etdik. Onun öz vəsiyyətinə görə baş daşına həkk olunan şəkildə Qabil anasının arxasında dayanıb əllərini onun çiyninə qoymuşdur.

Yəqin oxucular məni daş ürəkli və biganə adam sayırlar. Bu belə deyil mənim istəkli oxucularım. Mən çox həssas adamam. Oğlumun ölümündən sonra ürək xəstəliyi tapmışam. Ancaq məni yaşadan yazılarımdı. Gecə-gündüz yazıb pozuram. Cəmiyyətimizdə olan neqativ halları qələmə alıram. Tüfeyliləri, yaramazları, satqınları, xainləri satira atəşinə tuturam. Bax budur məni yaşadan!

Mənə elə gəlir ki, oxucularıma oğlum haqqında qısa məlumat versəm yerinə düşər. Azərbaycan xalqının böyük oğlu, xalq yazıçısı Süleyman Rəhimov qeyd edir ki, "xoşbəxt o insandır ki, övlad dağı görməyib" Allah heç kəsə övlad dağı göstərməsin. Ən ağır dağ oğul cənazəsinin ata çiynində getməsidir ki, o da mənə qismət olub. Əlbəttə Allah bilən yaxşıdır.

Mənim dörd oğlum var. Onların ən kiçiyi Qabildir. Oğlanlarım Rusiyanın İrkutski vilayətinin İrkutski şəhərində ali təhsil almışlar. Orada da işləyirdilər. Qabil Tibb universitetinin Stomatologiya fakultəsini bitirmişdi. Elə həmin şəhərdə də diş həkimi işləyirdi. Çox incə əl qabiliyyəti var idi. O, orta məktəbi medalla bitirmişdi. Çox savadlı oğlan idi. Onun qardaşları isə kommersiya ilə məşğul olurdu. Qabib boş vaxtlarında qardaşlarına kömək edirdi. Onlar pulu evə gətirirdilər, təkrar malı nəğd pul ilə alırdılar. Müəyyən səbəbə görə bir aya qədər pul yığılıb şirkətdə qalmışdı. Qabil dostu ilə o pulu evə gətirəndə onların xəzinədarı rus qızı gəzdiyi erməni oğlana onun maşın nömrəsini və ev ünvanını verir. Qabilin qardaşlarının da qaz ilə işləyən tapancası var idi. O onlara dövlət tərəfindən sənədlə verilmişdir. Üzbəüz savaşda atırsan dörd saat huşu başından çıxır, ancaq ölmür. Dörd saatdan sonra huşu başına gəlir. Qardaşları bu silahı da Qabilə verirlər ki, hər ehtimala qarşı lazım olar. Qabil dostu Aydın ilə həyətə çatanda onları qaraba-qara izləyən erməni Aşot və Sergey də həyətə çatır. (məhkəmədə onların adı məlum oldu) Qabilgil özlərinə arxayın olaraq silahı götürmürlər. Silah elə oturacağın üstündə qalır. Pulu götürüb çıxarkən bir nəfər əlində silah onlardan pulu tələb edir. Təbiiki onlar pulu vermək istəmirlər. Həmin erməni Aşot Qabili ürəyindən vurur, ona 3 güllə vurmuşdu. Onun dostunu isə

hardan gəldi vurur və pulu götürüb aradan çıxırlar. Oğlum Qabil yerindəcə keçinir, dostu Aydın isə uzun müalicədən sonra ölmədi, yaşadı.

Hörmətli oxucularım yəqin ki, sizi yordum. Tarix boyu bizə düşmən kəsilən, milli düşmənimiz olan ermənilər harda olmalarından asılı olmayaraq bizə pislik edirlər, öz məkirli niyyətlərindən, düşmənçiliklərindən əl çəkmirlər. İndi mənim Qabilimin bir cüt ay parçası kimi qız balası qalıb. Onlar əmilərinin sayəsində yaxşı yaşasalar da atalarının yeri görünür. Oğlumun qətlə yetirilmə tarixi 11 mart 2002-ci ilə təsadüf edir. Oğlumu məzara sallayanda onun anası, bacısı, qardaşları, bəxti qara zövcəsi göz yaşlarından məhv olurdular. Bircə mənim gözümdən yaş çıxmırdı. Bütün varlığım isə daşa dönmüşdü. Qoy o böyük yaradana xoş gəlsin, bəlkə onlar göz yaşları ilə dərddən-qəmdən azad olurdular, mən isə əksinə.

Əlbəttə müqəssirlər qanun qarşısında layiqli cəzalarını aldılar. Ancaq gəlinim həyat yoldaşını, nəvələrim isə atalarını itirdilər. Allah sənə rəhmət eləsin oğul yerin görünür.

BÖYÜK SƏRKƏRDƏLƏR TARİX YAZMASA DA, ÖZLƏRİ TARİX YARADIR.

Əfsanəvi sözünü adların qabağında işlətməkdə bəşər çox "xəsisdir". Məhz belə bir əfsanəvi şəxsiyyətin adının siqləti, əzəməti, əməllərinin işığı bu yazını yazmağımıza səbəb oldu. Elə bir şəxsiyyətin ki, hələ neçə-neçə nəsillər onun adına bağlı qoşmalardan su içib bahadır olacaq.

XIX əsrin sonu XX əsrin əvvəllərində Zəngəzur bölgəsində öz şücaəti, mərdliyi və igidliyi ilə xalq arasında böyük hörmətə və nüfuza malik çoxlu şəxsiyyətlər var idi. Sultan bəy Sultanov da belə şəxsiyyətlərdəndir. Sultan bəy 1871-ci ildə Zəngəzur qəzasının Qasımuşağı obasında anadan olub. Bu ərazi indiki Laçın rayonunun Kürdhacı kəndi idi. Uşaqlıqdan vətənpərvər və ciddi bir insan olan Sultan bəy Gəncə şəhərində gimnaziyada orta təhsilini başa vuraraq Sank-Peterburq Hərbi Akademiyasına daxil olur. Lakin Akademiyada azərbaycanlılara olan münasibət onu qane etmir. Sultan bəy vaxtından əvvəl bu nüfüzlu Akademiyanı tərk edir.

Sultan bəyin milli qəhrəman kimi xalq arasında ad qazanması 1905-1906-cı illər erməni-müsəlman hadisələri ilə başlayır. Cəsur dağlar oğlu ətrafına özü kimi

igidləri yığaraq ermənilər geri oturdur. 1905-1906-cı illərdə, habelə 1918-1919-cu illərdə Sultan bəyin başçılıq etdiyi igidlər ermənilərə ağır zərbə vurur.

1919-cu ilin fevral ayı ermənilərin hər zaman kədərlə xatırlayacağı bir tarixdir. Məhz fevral ayında Sultan bəyin başçılıq etdiyi cəsur oğullar müsəlmanların qatı düşməni olan erməni generalı Andraninkin 30 minlik qoşununu Laçının Zabux dərəsində darmadağın edir. Bununla da ermənilərin Qarabağı, sonra isə Gəncəni tutaraq Stepan Şaumyanın bolşevik-daşnak hərbi hissələri ilə birləşməsinin qarşısı alınır. Ermənilər birləşərək Azərbaycanda erməni dövləti qurmaq istəyirdilər. Lakin Sultan bəy ermənilərin planını onları məğlub etməklə iflasa uğradır. Xalq arasında həmin dərə döyüşlərin miqyasına görə "Qanlı dərə" adlandırılır. Sultan bəylə bərabər, qardaşı Azərbaycan Demokratik Respublikasının ilk hərbi naziri, ikinci hökümətdə əkinçilik naziri və Qarabağın general-qubernatoru vəzifəsində çalışmış Xosrov bəy Sultanov da bu döyüşlərdə iştirak edirdi. Zəngəzur, Qarabağ, Kəlbəcər, Basarkeçər və digər ərazilərimizin qorunmasında bu iki cəsur dağlar oğlunun böyük şücaəti var idi.

Hələ sağılığında əfsanəvi xalq qəhrəmanı adını qazanan Sultan bəy Sovet hakimiyyəti qurulan kimi təqib olunmağa başlayır. O, məcburiyyət qarşısında qalaraq ailəsini burada ataraq mühacir həyatı yaşamağa başlayır. Ermənilər onu hər yerdə arayırdılar. Vaxtilə erməni tarixçilərindən biri yazırdı: - "Ermənilər Zabuxda məğlub olmaqla planlarını bir neçə əsr gecikdirdilər. Sultan bəy bizim Böyük Ermənistan planlarımızı alt-ust etdi"

Mühacirətin ilk illərini İranda yaşayan Sultan bəy erməni emissarları tərəfindən təqib olunduğunu bildikdən sonra 1923-cü ildə Türkiyəyə gedir. Qəhrəman Azərbaycan oğlunun ailəsi isə Qazaxıstana sürgün edilir. Həyat yoldaşı və üç azyaşlı uşağı 1956-cı ilə qədər sürgündə qalır. Sultan bəyə ailəsinə qovuşmaq nəsib olmur, 1955-ci ildə Türkiyədə Qars vilayətində vəfat edir.

Tarix və zaman keçsə də heç bir xalq öz qəhrəmanını unutmur. Unudulmayan və adını Azərbaycan tarixinə qızıl hərflərlə yazan sərkərdələrimizdən biri də düz 140 il öncə anadan olan, xalq qəhrəmanı Sultan bəy Sultanovdur. Biz də babalarımızın qəhrəmanlıq səlnamələrini hər tərəfli öyrənməliyik. Çünki qəhrəmanlar unudulmur. Böyük sərkərdələr tarix yazmasa da, özləri tarix yaradır.

SULTAN BƏYİN ZƏKASI

Tat qırğınının axşamı Andranik Abdallardan Şuşaya keçmək üçün Sultan bəydən yol istəyir. Elçiləri vasitəsi ilə Sultan bəyə çatdırır ki, hərgah Qarabağ yürüşümün təhlükəsizliyini təmin edə bilsən sənə istədiyin qədər qızıl verərəm. Sultan bəy cavabında bildirir ki, hələ bu elin igidləri qeyrətlərini pula satmayıblar.

Xalqı yaranmış vəziyyətdən çıxarmaq üçün ciddi tədbirlər görə biləcək iti zəkaya ehtiyac var idi. Sultan bəy Şuşa quberniyasında işləyən çox ağıllı, müdrik zəkalı qardaşı general Xosrov bəylə təcili məsləhətləşdikdən sonra Andranikə bildirir ki, onun Qarabağ yürüşünün təhlükəsizliyini təmin etmək üçün bir qədər silah lazımdır. (İ.E. " Zəngəzur hadisələri")

Andranik Sultan bəyə 20 qatır yükü silah verir. Sultan bəy Andranikdən aldığı sursatla özünün suvari dəstələrini silahlandırıb Qaladərəsindən Şuşaya gedən yolda, Yeddiqatın ayağında nal şəkilli pusqu yaradır. Andranikə xəbər göndərir ki, yolda şübhə doğurmamaq üçün topları da sökdürsün və mənim işarəmi gözləsin. Andranik də belə edir. Topları sökdürüb, yükləri hazırlatdırır. Əhvalatın üçüncü gününün axşamı Sultan bəy Andranikə xəbər göndərir ki, gecə gəlib keçsin. Andranik xəbəri alandan bir az sonra silah yüklənmiş 170 qatır karvanını Şuşaya yola salır, özü isə sübh çağı ordu ilə getmək qərarına gəlir.

Eyni zamanda həmin gecə Sultan bəy bir neçə atlıya neft dolu tuluqlar verdirib tapşırır ki, Dığa, Xınzirəyə, Gorusa, Sisyana gedib Andranikin gəldiyi yollardakı bir neçə erməni kəndlərinə od vursunlar.

Gecə Andranikin silah aparan karvanı yeddiqata çatanda Sultan bəyin pusquda dayanmış suvariləri meşədən çıxıb silah yüklü qatır karvanının yönünü Kürdhacı kəndinə tərəf döndərirlər. Beləliklə, zəhmli silahlar Andranikin ordusunun əlindən çıxır.

Həmin gecə arxa kəndlərdən tez-tez çaparlar gəlib Andranikə bildirirlər ki, türklər arxadan hücuma keçib kəndləri yandıra-yandıra gəlirlər. Qayıdıb onların qabağını kəsmək lazımdır.

Gecədən xeyli keçmiş Andranikə xəbər verirlər ki, Qarabağa göndərdiyin silah yüklü qatır karvanı keçib Sultan bəyin dəstələrinin əlinə. Bu xəbəri eşidən Andranik buraxılmış səhvin nə ilə nəticələnəcəyini dərk edərək qorxu və həyəcanını gizlədə bilməyib çox bərkdən hönkürərək zarıyır. Sonra orduya geri

qayıtmaq əmri verir. Andranikin ordusu geri dönüb Zabux kəndinin yaxınlığındakı Ərin dərədən Dığ kəndinə keçmək istəyərkən Sultan bəyin dəstələri daşnaqları mühasirəyə alıb onları qabaqdan və arxadan qırırlar.

Tarixdə daşnaqlara ibrət dərsi olsun deyə Sultan bəy quldur ordusunun 30 min əsgərini quzğunlara yedirtdirir, 61 sərkərdəsinin başını kəsdirib Hacısamlı meşəsində saxlatdırdığı şirlərə atdırır. Qocalar danışırlar ki, bir müddət Zabux çayı qan axırmış.

Mükəmməl hərbi biliyə yiyələnmiş Sultan bəyin "Dağlarda tufan", "Güllə ətdən keçib, ətdə soyumalı", "Zərbə dalınca zərbə", "Nalşəkilli mühasirə", "Üçbucaq", "Qəflətən hücum", "Güllədən leysan", "Mövqe seçmək bacarığı" kimi hərbi taktiki nəzəriyyələrindən daşnakların Zəngəzurda əzişdirilməsində çox böyük ustalıqla istifadə edilmişdir.

Andranikin quduz ordusunun Zabux dərəsində məhv edilməsi xəbəri Zəngəzur kəndlərində böyük ruh yüksəkliyinə səbəb olub. Bundan sonra hamı Sultan bəyin dəstələrinə köməyə qalxıb. Sultan bəy Zəngəzura soxulmuş daşnak quldurları təmizləmək məqsədi ilə öz dəstələrinə üç istiqamətdə hərəkət etməyə göstəriş verir:

1. Canqurtaran dağının ətəyində ciddi təlim keçmiş 700 atlıdan ibarət Minkənd alayı Qaragöl, Üçtəpə, Burunkənd, Gorus istiqamətində hərəkət edib Xınzirək kəndinə dolmuş daşnaklara arxadan güçlü zərbə endirilməli, haramı düzündə İrana qaçan daşnak qruplarını mühasirədə saxlayan Güləbirdli Aslanbəyin və Məzməzək igidlərinin köməyinə çatmalı idi.
2. Zabux dərəsində qələbə qazanmış dəstələr Dığ, Xınzirək istiqamətində sürətlə irəliləyib Haramı düzünə köməyə gələn İldırımbəyin dəstələrinə qoşulmalı idi.
3. Malxələf, Fərəcan istiqamətində hərəkət edib Başarat meşəsinə Haral, Xozabird tərəfindən soxulmuş Qarabağ daşnak qruplarına qarşı vuruşan Kişi Tavat, Ovçu Sultan, Pələng Rəsulun dəstələrinə kömək edib meşəni daşnaklardan təmizləməli idi.

ANA ÖVLADINI NİYƏ BOĞUR?

1988-ci ildən başlayaraq Sovet quruluşu dağılmağa başladı. Yenə nankor qonşularımız torpaq iddiasına düşdülər. Bizim birləşə bilməməyimizdən istifadə

edən ermənilər xalqa dalbadal zərbələr vurdular. Qeyrətli oğullarımız Daşaltı əməliyyatında qırıldılar. Onun dalınca ermənilər əsrimizin ən qanlı faziəsi olan Xocalı faciəsini 1992-ci ilin 25 fevralında törətdilər. Həmin gecə 1300 nəfər girov götürüldü, altı yüz yetmiş nəfər uşaq, böyük, qoca, cavan qəddarcasına öldürüldü. Müharibə illərində olduğu kimi 1992-ci ilin qışı Qarabağda, Xocalıda çox şərt keçdi. Adamların meyitləri çöldə donub buz bağladı, Xocalı dünyaya car çəkir. Bütün dünya eşidir. Ancaq Azərbaycan rəhbərliyi eşitmir.

Köməksiz qalmış yazıq xocalılar haradan biləydilər ki, təpədən dırnağa qədər silahlanmış 366-cı rus alayı gecə ikən arvad, uşağı dəstə ilə qarda, çovğunda qıracaqlar. Əhali Ağdama tərəf üz tutur, hamı körpəsini kürəyinə sarıyır, yıxıla-yıxıla gecə ikən meşələrə səpələnir. Bir dəstədə iki yüz nəfərdən çox adam var idi. Burada bir qadın körpəsi ilə yol gedir. Ana 9 aylıq körpəsini belinə sarıyıb yol gedir. Uşaq isə bu faciəni duyurmuş kimi nalə çəkir. Kiçik bir səs ermənilər duyuq sala bilərdi. Bəs ana nə etsin döşünü uşağın ağzına verir, o bir an sakitləşir, sonra yenə ağlamağa başlayır. Qorxu hissi anada övlad hissini üstələyir. Axı o, 200-dən çox adamın ölümünə bais ola bilərdi. Ana özü də bilmədən iki əli ilə körpə Salatını boğur. Uşaq qapqara qaralır, onun səsi kəsilir. Ana uşağını qara atmaq istəyir. Rəfiqələri qoymur. Onlar 3 gün idi yol azmışdılar. Bir yana çıxa bilmirdilər. Yeməkləri isə ancaq ağacların üstündə quruyub qalmış meyvələr idi. Ana öz körpəsinin qatili olduğu üçün imkan axtarırdı ki, özünü körpəsi ilə birlikdə qayadan atsın. Birdən qonşusu Pərzad uşağın qaraldığını görüb onu anadan alır. Qulağını uşağın ürəyinə qoyur. Ürək döyünürdü. Pərzad deyəndə ki, uşaq sağdır, sanki dünyanı anaya bağışlayırlar. Ana döşünü uşağın ağzına salan kimi uşaq əmməyə başlayır. Ananın sevinci yerə-göyə sığmır. Bu an bir neçə yerdən səs gəlir. "Biz Azərbaycanlıyıq, sizə köməyə gəlmişik". Hamı sevinir. Bu zaman onlarla gələn əsgərlər hiss edirlər ki, onlar ermənidir. Onların bir neçəsini qırıb yerə sərirlər. Bizim əsgərlərin patronu yox idi. Ermənilər 200 nəfərdən çox Azərbaycanlını Xankəndinə aparırlar. Onların hamısını bir soyuq otağa salırlar. Sonra uşaqları analarından alıb onların gözü qarşısında işgəncə ilə öldürürlər. Qalanlarının talehi isə hamıya aydındır.

II FƏSİL

SPİTAKDAKI (HAMAMLI) MƏKTƏB HAQQINDA

Vaxtı ilə Spitakdakı (Hamamlı) məktəbdə oxumuş ömrünün qurub çağında səhvini başa düşüb əməlindən peşman olmuş qoca erməni kişisinin dediklərindən:

- Mənim ağlım kəsəndə erməni-müsəlman davası gedirdi. Hər yerdə evlər od tutub yanırdı. Ömür boyu bir obada, bir eldə yaşayan insanlar bir-birinə qənim kəsilmişdi. Bütün bunların hamısını ruslar edirdi. Milli zəmində hamı bir-birinə düşmən idi. Yenicə barışmış iki milləti yenə bir-birinin üstünə qaldırmışdılar. Türk ermənini, erməni türkü qırırdı. Belə zamanədə böyüdüm. Artıq şura da quruldu. Şura qurulduqdan sonra hamı bir-biri ilə qardaş oldu, can deyib can eşitdilər. Sən demə bunlar hamısı yalan imiş, aldadıcı imiş. Mən məktəb yaşına çatanda məni xüsüsi adamlar bir məktəbə apardılar və dedilər: - Bu məktəb erməni xalqının gələcəyidir, ən böyük məktəbdir. Mən də, valideynlərim də sevinirdik ki, mən belə möhtəşəm məktəbə qəbul olunmuşam. Sən demə, mənim sevinə-sevinə getdiyim bu məktəb şeytan yuvası imiş. O məktəbə dərin düşüncəli əqli cəhətdən sağlam inkişaf etmiş uşaqları götürürdülər. Düz dörd il orada, yerin altında heç kəsi görmədən oxuduğumuz vaxt bizə çox yüksək dərəcədə qulluq edir, yaxşı yemək verirdilər. Bizə elə hey deyirdilər ki, biz gələcəkdə hökmən böyük erməni xalqının şərəfi naminə ölsək də bizim üçün şərəfdir. Bizə deyirdilər ki, erməni xalqı min illərdi ki, dövlət yarada bilmir. İndi artıq dövlətin özəlini qurmuşuq. Onu qoruyub saxlamaq bizdən bu məktəbin məzunlarından asılıdır. Hətta bizə deyirdilər ki, bax indidən qabiliyyətinizi göstərin gələcəkdə hansı vəzifəmi tutacaqsınız onu deyək. (Famil Süleymanov "Qu quşunun nəğməsi").

Birimizə Daxili İşlər Naziri, birimizə Müdafiə Naziri, o birimizə dövlət başçısı olacaqsan deyirdilər. Artıq vəzifələrimizi də bölüşmüşdülər. Deyirdilər ki, özünüzü yaxşı aparsanız və tapşırığı layiqincə yerinə yetirsəniz, siz gələcəkdə böyük erməni xalqına rəhbərlik edəcəksiniz. Ulu babalarımızın qanını alıb, öz torpağımıza sahib olaq, bəlkə onda ulularımızın ruhu bizimlə barışar, deyirdilər. Mənimlə birlikdə yüzdən artıq uşağı həmin məktəbə qəbul etdilər və bizim hamımızın beyninə yerləşdirirdilər ki, türklərə qarşı düşmən mövqeyi tutaq. Beləliklə, bizi gələcəyin cinayətkar qrupuna döndərdilər. Ancaq həmin vaxt bizə elə gəlirdi ki, bizdən xoşbəxt adam yoxdur. Biz yerin-göyün sahibiyik. Tez-tez deyidilər: "Hə, yaxşı, hazırlaşın. Sizi əyani surətdə göstərəcəyik ki, türklər babalarımızı necə işgəncə ilə öldürüblər". Biz də həmin günü gözləyirik. Bax,

beləcə bizim beynimizi korlayırdılar. Bəlkə də həmin məktəbə gəlincə bizim bütün daxili aləmimizi korlayan analarımız olub. Axı, onlar bizə döşlərindən süd verəndə hey deyərdilər ki, babalarımızı türklər öldürüb. Göz yaşları südə qarışardı, biz onu əmərdik. Deməli, biz hələ ana bətnində ikən o kiçik şəhə bənzər büllur kimi insan toxumumuzu zəhərləyiblər. Bax, erməni xalqının zəhərlənməsinə səbəb budur. Hələ ana bətnində ikən erməni qadınları əllərini qarın nahiyələrinə çəkərək deyirdilər, hə, bala, böyü, o qaranlıq dünyadan işıqlı dünyaya gələndə dədə-babanın qisasını türklərdən al, yalanlar uydurараq hansısa milləti aldat, onu yurdundan et, torpaq qazan. Qoy öz vətənin olsun. Amma bizim ölkəni idarə edən bəzi rəhbərlər, nazirlər, dövlət idarələrində işləyən məmurlar isə əllərini arvadlarının qarın nahiyəsinə çəkib deyirlər, yox, övladım, qoymaram sən burda anadan olasan. Gərək sən ya Amerikada, ya Fransada, ya da İngiltərədə dünyaya gələsən. O mühitdə doğulub boya-başa çatasan. Bu mühit sənin üçün yaramaz. Bu məmləkətin varını-dövlətini yığıb Amerika, Fransa, İngiltərə banklarına yığacam ki, get, ömür boyu kef et. Pulun, varın olandan sonra sənin vətən nəyinə lazımdır? Sənə vətəndə villalar tikirəm ki, sən istədiyin an satıb pul əldə edə biləsən. Bax, fərq bundadır. Kasıb insanlar isə hey göz yaşı tökürlər. Əgər onlar vətən məfhumu deyirlərsə, qara dubinkalar işə düşür. Ən sərrast dubinka vurana tez bir zamanda dubinka generalı adı verirlər. Həmin generallar elə gəzirlər ki, elə bilirsən ki, bunlar dünyanı fəth ediblər. Necə ki, Şuşanı, Laçını ermənilərə verən insanlara sonralar general adı vermədilər? Həm də utanmaz-utanmaz xalqın qarşısında jurnalist sual verəndə ki, sən niyə Şuşaya girmədin, o dedi: "Yaxşı eləmişəm. Sənə nə var?" Şuşa gedəndən sonra ona general adı verdilər. Bax, budur bizim bədbəxtçiliyimiz.

Yataqda ölümlə əlləşən erməni əllərimi tutub hey diqqətlə baxır. Hiss edirdim ki, o etdiyi əməllərindən xəcalət çəkir. O, bəlkə də bizim içərimizdə gedən prosesləri görürmüş və bizim nə qədər avam olmağımıza ürəyində qəhqəhə çəkib gülür. Əlimi sıxır və bu sıxmaqdan əlimdə bir soyuqluq hiss edirdim. (F.Süleymanov)

- Hə, oğul, bizi yığdılar həmin məktəbə. Yarımız qız, yarımız oğlan idik. Həmin məktəbdə oxuyan oğlan və qızlar arasında eşq macərası ola bilməzdi. Onları yalnız millətin taleyi maraqlandırırdı. Ailə qurmaq məqamı gələndə isə yenə

də bu işə məktəb qarışırdı. Oğlanlar məktəbdən kimi desələr onu alardı, qızlar da həmçinin onların məsləhəti ilə ərə gedərdilər. Bizi başa salmağa çalışırdılar ki, siz çox nüfuzlu bir zədəgan olacaqsınız. Odur ki, həmin məktəbdə oxuyanların həyatda heç bir problemi olmayacaqdı. Elə də oldu. Ancaq o problemlər ki, bizdə oldu, o, təkrarolunmaz və əbədisağalmaz problemlər oldu. İlk andan bizi türklərə qarşı hazırladılar. Dünyəvi elmləri öyrətdilər. Bizə təmiz azərbaycanca danışmağı öyrətdilər. Bizi o dərəcədə öyrətmişdilər ki, qabağımıza küçədə bir türk çıxsaydı imkanımız olsaydı qanını içərdik, yenə də doymazdıq. Həm də hələ gözümüzü dünyaya açandan anamız nəql edərdi ki, 1905-1906-cı illərdə türklər ermənilər qılıncdan keçirdib. Ancaq analarımız hərdən çaşıb deyərdilər ki, vallah, biz yaxşı, mehriban dolanırdıq. Hardansa saqqallılar peyda oldu və bu iki milləti bir-birinə vurdular. Yazıq istər müsəlman, istərsə də erməni xalqının nə idi günahı? Ancaq indi isə bizi başa salırdılar ki, həmin illərdə güya saqqallılar olmasaydı, onda bütün yer üzündə türklər ermənilər məhv edəcəkdi. Bax, bizim gənc beynimizi beləcə korlayırdılar. Spitak məktəbində isə bizə deyirdilər ki, indi də gizli-gizli türklər ermənilər öldürür, məhv edirlər. İlk illərdə bizi gecə praktikasına aparırdılar ki, gəlin gedək, görün türklər ermənilərə necə divan tuturlar. Bizi gecə yarı durquzub aparırdılar. On uşaq, bir təlimçi qaranlıq küçələrlə gedirdik.Qaranlıq zülmətdə tanımadığımız bir həyətə girib zirzəmiyə daxil olanda inilti səsləri eşidilirdi. Yerdə qan içində uzanmış insan bizi görəndə deyirdi: “Sizi and verirəm ananızdan əmdiyiniz südə, mənim qisasımı türklərdən alın. Baxın, kimisi mənim qolumu, kimisi burnumu, kimisi qulağımı kısib”. Bax, beləcə yuxumuza haram qatıb bizi türklərə qarşı düşmən mövqedə hazırlayırdılar. Biz bir qədər çılğınlaşanda təlimatçımız bizə deyərdi, siz çılğın olmamalısınız, səbrli və təmkinli olun. Hər bir işdə siyasətlə qalib gəlmək olar. Türklərə yalnız türklər qalib gələ bilər. Yamanca qorxuya düşmüşdük. Gözümüzü yumanda gözlərimizin önündə atamız, anamız, bacı-qardaşlarımız gəlirdi. Onları da bax beləcə, qanın içərisində görür və yuxudan qışqırıb ayılırdıq. Elə hey onu fikirləşirdik ki, nə vaxt böyüyüb türklərdən qisas alacayıq. Artıq böyümüşdük, hər şeyi dərk edirdik. Çalışırdılar ki, biz bir-birimizlə az ünsiyyətdə olaq. Hətta bizi bir-birimizdən ayırıb ayrı-ayrı otaqlarda dərs keçirdilər. Yeganə üç nəfəri tanıyırdıq. Bir saqqallı bizə islamiyyətdən, Qurani-Kərimdən dərs deyirdi, biri təlimatçı idi, o biri isə ümumi dərsləri deyirdi. İlk

vaxtlar bizim ümumi sayımız iki yüz əlli uşaq idi. Onlardan yüzü oğlan, yüz əllisi qız idi. Təlimatçı bizə deyidi ki, qadın türkləri məhv etmək üçün ən yaxşı vasitədir. Çünki onların hamısını türklərə verəcəyik. Əksər kişiləri döndərib tam şəkildə erməni edəcək. Ondan olan övladı isə tam erməni olub türklərə arxadan zərbə vuracaq və biz onda qələbə qazanacağıq. Artıq mən insanlar üçün, doğmalarım üçün darıxırdım. Saatlarla xəyala dalır, yeddi il öncə ailəmizi, qardaş-bacımı uşaq təfəkkürü ilə xəyalıma gətirir, gecələr hönkür-hönkür ağlayırdım. Hərdən hətta dəli olmaq dərəcəsinə gəlib çıxırdım. Birdən mənim də valideynlərimi türklər məhv edərlər, onda mən necə olaram? Çünki təlimatçı hər gün üç dəfə - səhər, günorta, axşam foto-şəkillər gətirirdi ki, baxın, görün türklər Gorusda bir ailəni, Qafanda başqa bir ailəni necə doğrayıblar, hətta bir qız uşağının bakirəliyini pozub şişə çəkib yeyiblər. Bax, bu hadisə Yerevanda olub. Görün bir ermənini diri-diri təndirə salıb necə öldürüblər. Beləcə, hər gün belə foto-şəkillərdən gətirib bizə göstərir, bizi türklərə qarşı amansız olmağa çağırırdılar.

Artıq demək olar ki, dərslərimizi qurtarırdıq. Yaman darıxırdıq. Ana-atalarımızın, bacı-qardaşlarımızın surətini xəyalımıza gətirirdik. Mən onlarla görüş gününü gözləyirdim. Gözləyirdim ki, nə vaxt bu uzun ayrılığın əvəzini çıxacağam, onları duz kimi yalayacağam, anamın saçlarını sığallayıb onu iyləyəcəyəm, onu qoxlayacağam. Gecələr elə bilirdim ki, anamın kəsilmiş başı və digər bədən üzvləri ilə danışıram. Hövlank yuxudan oyanıb göz yaşları tökürdüm. Bax, beləcə günlər keçirdi. Hər bir saat bir ilə bənzəyirdi.

Bir gecə saat dörd radələrində təlimatçı məni yerimdən durquzub, dur ayağa, gedirik sizin evə, - dedi. Qulaqlarıma inanmadım. Mənə elə gəldi ki, bu yuxudur. Ancaq yox, yuxu deyildi. Cəld geyinib bu on ildə ilk dəfə məktəbdən havaya çıxdım. Elə bil dünya başıma fırlanırdı. Sanki bu kainat məni sıxırdı, tarazlığım pozulurdu. Zindandan açıq kainata çıxdıqda gözlərim qarşısında alov yanırdı. Hər şey mənə yad idi. Hər bir şey məni intiqama səsləyirdi. Qaranlıq yolla gedirdik. Hətta küçələri də yadırğamışdım. Evimizin yerini tapa bilmirdim. Yamanca da tələsirdim ki, tez anamın boynuna sarılam və ona deyəm ki, məni bir daha özündən ayırma. Axı, insan bir dəfə dünyaya gəlir. O, gərək doğmalarının qoynunda pərvazlana, onlarla fəxr edə. Bəs mən nə üçün öz doğmalarımdan ayrılmışam? Nə üçün mən anamın boynuna sarılıb onu doyunca öpməyim? Təlimatçı, hə, çatmışıq,

deyəndə mən öz xəyallarımdan ayıldım. Bir qaranlıq həyətə girmişdik. Mən artıq öz həyətimizi tanıdım. İstədim ki, dizlərimi yerə qoyub torpağı öpəm. Təlimatçı qoymadı. Qolumdan tutub dedi, sən nə edirsən, axı, sən erməni xalqının ən böyük, qüdrətli oğlusan. Belə etmə. Sən yalnız erməni xalqının yaşamasına, onun inkişaf etməsinə fikir verməlisən. Əlimi qapıya üzatdım və hər ikimiz otağa daxil olduq. Qaranlıq otaqdan qan qoxusu gəlirdi, xırıltı səsləri eşidilirdi. Otaqdan vahiməli səslər gəlirdi. Ancaq otaqda göz-gözü görmədiyindən mən bilmədim ki, otaqda nə baş verir. Mən təlimatçının qolundan tutaraq əsirdim. Birdən evdə çıraq yandı və mən bütün ailə üzvlərimizi qan içində gördüm. Anamın, atamın başları, qardaş-bacılarımın qol-qıçları kəsilmişdi. Hamısının gözləri bərələ qalmışdı. Mən dəhşətdən qışqırdım. Təlimatçı tez otağa qaçdı və bütün bu mənzərəyə dəhşətlə baxaraq, bu, türklərin işidir, bu saat onları tapıb məhv etmək lazımdır, dedi. Sonra o yan-bu yana qaçmağa başladı. Bu zaman sanki gözlərimin qarşısında bir alov parladı, elə bil qaranlıq dünyaya düşdüm. Gözümü açanda gördüm ki, məktəbdə tək çarpayıda uzadıblar məni. Təlimatçı əlini başıma qoyaraq mənə təsəlli verməyə başladı. "Eyb etməz, biz bu qanı yerdə qoymarıq. Ailə üzvlərinizin hər birinin əvəzinə minlərlə türkü məhv edərik". Mən isə öz hayımda idim. Özümü öldürmək istəyirdim. Ancaq həmin vaxtlar məni gözdən qoymurdular. Hər dəqiqə, hər saniyə mənim yanıma qaravulçular qoyurdular və məni qana qan, intiqam almağa səsləyirdilər. Bütün bunlar nəhayət ki, mənim beynimə yerləşdi. Qərara aldım ki, özümdə böyük qüvvə toplayacam və ailə üzvümüzün hər birinin əvəzinə on türk öldürəcəm. Təkcə ondan təsəlli tapırdım ki, artıq mənə və bütün erməni uşaqlarına tam mükəmməl azərbaycan dilini və dinini öyrətmişdilər. Qurani-Kərimi başdan-ayağa bilirdik, hətta bizi müsəlman da etmişdilər. Orta məktəbi qurtarıb atestat alanda artıq mənim ad-familiyamı da dəyişib etdilər Məmmədov İbrahim Əliəşrəf oğlu. Pasport və atestatı mənə təqdim edib tövsiyələr verdilər. Tapşırdılar ki, sən özünü tam təmkinli apar və tapşırıqdan kənara çıxma. Sonra da çoxlu pul verib yaxşı yol arzuladılar. Dedilər ki, səni dəmiryol vağzalında qarşılayacaqlar. Deyəcəklər ki, sən onların qardaşı oğlusan. Həmin ailəni də dolandıracaqsan və özün də tam türksən. Başqa şey danışmırsan. Sənə və o ailəyə güclü nəzarət olacaq, deyib məni yola saldılar Bakıya. Yolda xurcunumu açanda gördüm ki, xurcunda bəlkə də on günlük yemək var. Süfrə açıb yanımdakı türklərlə yemək

yedim. Hətta arada bıçaqla onların qarnına vurub hər üçünü məhv etmək istədim. Birtəhər özümü ələ alıb səbrli olmağa çalışdım. Əlimdəki bıçağı qatlayıb cibimə qoydum. Artıq dözə bilmirdim. Türk qanı içmək keçirdi könlümdən. Daxilimdə bir haray qopurdu. Özümü qatardan atmaq istəyirdim. İstəyirdim mən də əzizlərim kimi məhv olam, onlar kimi doğranam. Bu fikirlərlə perrona qarşı gedirdim və perronda təkərlərin səsi daha aydın eşidilirdi. Qapı açıq idi. Açıq qapıdan təmiz hava kütləsi daxil olurdu. Səma tərtəmiz, ulduzlar nə qədər idi göydə. Bir qədər fikirləşdim. İlahi, görən o kainatda insan yaşayır? O insanlar da bir-birinə zülm edir? Nə idi mənim günahım? Əgər günahım çox idisə, məni məhv edə bilməzdimi? Axı, niyə gənc yaşımda mənə zülm etdi? Nə üçün mənim taleyim belə qara gətirdi? Mən hey tələsirdim ki, heç olmasa bircə türk qanını içəm. Bəlkə bir qədər sakitləşərdim. Bu an tamburun qapısı açıldı. Hündür boylu, ziyalı, görkəmli bir nəfər tambura gəlib əlində kağız parçası, cibindən tənbəki kisəsini çıxarıb uzun bir papiros eşdi. Və çaxmaq daşı ilə yandırıb dərin bir qullab vurdu və daxilində olan tüstünü havaya buraxdı. Tambur tüstü əhatəsi ilə örtüldü. Mənə diqqətlə baxıb soruşdu, cavan oğlan, Bakıya gedirsən? Bəli, oxumağa gedirəm. O, əlini uzadıb dedi, gəl, tanış olaq. Mən əlimi uzadıb dedim – İbrahim. O isə dedi: Həsənağa, Sənaye İnstitutunun müəllimi. Sonra tamburdan çölə və ulduzlara baxıb dedi, cavan oğlan, göy nə gözəldir. Artıq qanım coşmuşdu. Bu an bütün qüvvəmi toplayıb arxadan, kürək nahiyyəsindən möhkəm itələdim. Bu an həmin adam təkərlərin altına düşüb vahiməli səs çıxartdı. Hələ o səs mənim qulağımdan getmir. O səs təkərlərin səsinə qarışıb itəndən sonra məndə bir rahatçılıq əmələ gəldi. Ürəyimdə olan yanğılar bir qədər azaldı. Səs tam itdi, təkərlərin səsi idi. Mənim daxilimdə rahatçılıq var idi. Bəlkə də uzun illər idi belə rahat deyildim. Tez tamburu örtüb vaqona daxil oldum. Öz-özümə sevinirdim. İlk ovumun uğurlu olması üçün həddən artıq sevinirdim. Elə bil dünyaya yenidən gəlmişdim. Və artıq hiss edirdim ki, mənim yuxum gəlir. Ata-anamın o nalələri qulaqlarımdan getmədiyinə görə rahat yuxum yox idi. Tələsik küpemə girib çarpayıya uzandım. Uzanmağımla yatmağım bir oldu. Dərin yuxuya getdim. Birdən anamın naləsi mənim qulaqlarımda səsləndi. O, qarşımda diz çöküb deyirdi: "Oğul, nahaq qana əlini bulaşdırdın. Körpə, məsum vaxtında insan qatili oldun, oğul. Qardaşlarım, bacılarım, atam da elə nalə çəkirdi ki, sən bizim qatilimizi tap, Türklər bizim

qatilimiz deyil. Böyü, ərsəyə çat, onda bilərsən bizim qatilimiz kimdir. Yenə də yuxudan ata-anamın naləsinə oyandım. Mənim bəlkə də son vaxtlar yatdığım bu gecə idi. Axı, deyirlər insan öz düşmənindən intiqam alanda rahat olur. Doğrudan da elə imiş. Mən bu rahatlığımdan çox qorxdum. Artıq mən hiss elədim ki, düşməndən qisas almışam. İndi o qisasçılıq hisslərim azalıb. Yox, yox, onda mən ata-anamın ruhu qarşısında borclu qalaram. Onda həmin ruhlar bizi bağışlaya bilməz. Papiros çəkmək üçün ilk qisas aldığım tambura çıxdım. Vaqon bələdçimiz məni geri itələdi və dedi, çox yaxın getmək olmaz, gecə burdan bir adam düşüb.

Mən, 1944-cü ilə qədər həyatımı üğürlu sayırdım. 1944-cü ildən sonra isə özümü insan qatili kimi hesab edirdim. (F.S. "Qu quşunun nəğməsi")

O, mənim əlimi sıxanda hiss etdim ki, əlləri əsir. İlahi, insan qisas alanda nə qədər ürəyi arxayın olarmış. Deməli, ilk ovum çox uğurlu idi. Ancaq məni narahat edən bircə şey mənim yuxum idi. Bəs nə üçün anam mənə yuxuda deyirdi: "Oğul, düşmənini tap. Nahaqdan qan tökmə. Axı, indi mənim güc ilə yadıma gəlir ki, anam mənə gecələr yatanda nağıl danışardı. Bununla bərabər bizə türklərin necə vəhşicəsinə erməni xalqını öldürməsindən və hətta uşaqları diri-diri təndirə salıb qıpqırmızı qızartmalarından və yeməklərindən əyani surətdə göstərirdilər.

Hələ biz Hamamlıda oxuyurduq, son kursda idik. Bir dəfə gecə səs-küy qopdu. Həmin gecə də o qədər qaranlıq idi ki, hamımız vahimələnirdik. Bəlkə də iki yüzə qədər uşaq idik. Hamımızı həyəcanla oyatmışdılar. Heç birimiz də bir-birimizi görə bilmirdik. Hamımızı toplamışdılar bir yerə və bizə izah edirdilər ki, bax, heç kəs səs çıxartmasın. İndi görəcəyiniz səhnə çox nadir bir səhnədir. İndi hamınız görəcəksiniz ki, türklər erməni körpəsini necə yeyir. Çox sakit halda bizə ayağımıza geyinmək üçün keçədən tikilmiş çarıq verdilər ki, keçə səsboğucudur. Hamımız keçə ayaqqabını geyib qaranlıqda sakit-sakit hərəkət etdik. Hamımız cəmləşəndən sonra birdən-birə qarşımızda böyük, işıqlı bina gördük. Binanın içərisində təndir var idi. Təndirin ətrafında isə təqribən on iki nəfər var idi. Hamısı acgözlüklə təndirə baxırdı, hamısının da üzündə çox qorxunc bir vahimə var idi. Həmin vaxt hamı bir-birinin qolundan tutub sıxır və bundan sonrakı dəhşətli mənzərəni gözləyirdi. Birdən təndirdən qıpqırmızı bir körpə uşaq meyidi çıxardıb onun qolunu, başını, budunu tikə-tikə edib əllərinə alaraq bizə sarı baxaraq yeməyə başladılar. Əllərində şərab bir-birlərinə deyirdilər: bax, biz gərək ermənləri beləcə

yeyək. Bütün bunlarla kifayətlənməyib təndirin ağzını yenə də açdılar. Çox gözəl bir qız uşağını (o, sanki gözəllik ilahəsi idi) soyundurub təndirə atdılar. Qız təndirdə nalə çəkirdi. Onlar isə təndirin ətrafında əl çalıb rəqs edirdilər. Biz artıq dözə bilmirdik. Pəncərədəki dəmirləri dişlərimizlə gəmirməyə hazır idik. Biz qışqırdıqca onlar bir az da şənlənirdilər. Biz nalə çəkdikcə onların qəhqəhələri qaranlıq bir kainatda səmaya qalxırdı. Birdən əcaib insanlar bizə sarı irəlilədilər. Bizə tərəf dişlərini qıcayaraq, bax, hamınızı beləcə yeyəcəyik deyir və şən rəqslər edirdilər. Birdən hamısı təndirə tərəf qaçdı və uşağın cəsədini çıxararaq yeməyə başladılar. Hamımız hazır idik ki, bu "türkləri" məhv edək. Bax, oğul, beləcə bizə iyrənc millətçilik öyrədirdilər. Bu səhnələrin hamısını danışsam o qədər çoxdur ki, qorxuram ömür vəfa etməyə, ürəyimdəkiləri o dünyaya aparam. Siz isə yazıq türklər heç bir şey bilmirsiniz. Sizi yeni-yeni faciələr gözləyir, sizin aqibətiniz çox ağırdır. Çünki sizin aranızda mənim kimi insanlar çoxdur. Həmin insanları da hələ ana bətnində ikən aldadıblar.

Bakıda vağzalda düşən kimi məni qarşıladılar və soruşdular, Hamamlıdan gələn İbrahim sizsiniz? Mən təəccüblə dedim, bəli, mənəm. Tez mənim qolumdan tutaraq dedilər, hə gedək, fayton hazırdır. Biz faytona minən kimi faytonçu cilovu çəkib atı harayladı. Fayton küçə ilə getdikcə atın ayaq səsləri ilə arabanın təkərlərindən çıxan səs elə bil musiqi çələngi idi. Bir xeyli getdikdən sonra fayton dar bir küçəyə keçdi. Məni qarşılayan dedi, hə çatdıq. Faytonun pulunu verib birlikdə dar küçə ilə addımladıq. Kiçik bir evə daxil olduq. O, üzünü mənə tərəf tutaraq dedi: "Hə, bacıoğlu sən burda qalacaqsan. Özbaşına da heç bir iş görmə. Dünən gecə çox pis iş görmüsən. Ona görə də mərkəzdən əmr gəlib ki, icazəsiz bir addım belə atmayasan. Çünki sizin hələ görüləcək çox işləriniz var. Bütün bunları dedikdən sonra getdi. Mən bir qədər dincəldim. Bir azdan otağa bir yaraşıqlı qız daxil oldu. – Cavan oğlan, çay hazırdır. İcazə verin, səhər süfrəsini hazırlayıb gətirim. Bu gün mən sizə qulluq edəcəyəm. Məndən razılıq alandan sonra qız çay, çörək, yağ, bal, pendir gətirib stolun üstünə düzdü. Otağı tərk etməzdən əvvəl çox diqqətlə üzümə baxıb, hə, cavan oğlan, günortaya nə hazırlayaq, deyə soruşdu. Mən isə cavabında, nə istəsəniz deyərək süfrəyə yaxınlaşdım. Hər tikəni udduqca gecə qatarın altına atdığım oğlanın səsini eşidirdim, bir də anamın mənə dediyi

sözləri. Heç bilmirdim nə edim. İndi o hadisəyə görə biraz ürəyim rahat olmuşdu. Görün, mən bir xeyli türk qanı içsəm ürəyim necə rahat olar.

Bir neçə dəqiqədən sonra bir cavan oğlan gəldi və mənə dedi: Hə, cavan oğlan, dur, sənədlərini də götür. Universitetin tarix fakultəsinə verəcəksiniz ki, gələcəkdə rayon katibi olasınız, ən azı nazir olasınız ki, xalqınıza xidmət edəsiniz. Necə ki, bizim bəzi nazirlərimiz deyir, mən "öz xalqıma" xidmət edirəm. Bəli, öz xalqıma, Azərbaycan xalqına yox. Deməli hələ bizim aramızda bu cür adamlar var...

Ibrahim danışdıqca o buz kimi əllər sanki isinirdi, üzündə müəyyən dərəcədə qızartı əmələ gəlirdi.

- Hə, mənim sənədlərimi universitetə verdilər və özüm də bilmədən universitetin tarix fakultəsinə daxil oldum. Bizə Məhəmməd Hadi, Hüseyn Cavid və başqa görkəmli ədiblər dərs deyirdilər. Hüseyn Cavid çox vətənpərvər və gözəl ziyalı idi. O qədər türk mədəniyyətindən, türk cəsurluğundan danışırdı ki, məndə elə bil bir türk qorxusu əmələ gəlir və tez bir zamanda türkləri məhv etmək, onların qanını içməyə tələsirdim. Biz Hüseyn Cavidin poeziya dərnəyinə gedirdik. Biz də Məhəmməd Hadi, Hüseyn Cavid kimi böyük dahilərdən Nizami, Füzuli, həmişə yasaq olmuş Nəsimidən öyrənirdik. Mən bütün bunların hamısını türk idrakımın, türk təfəkkürümün inkişafı kimi qiymətləndirirdim.

Mərkəzdən olan xəbərdarlığa baxmadan beynimdə bir fikir gəzirdi. Hüseyn Cavid məktəbdən çıxanda aram-aram addımlayardı. Mən də həmişə onu izləyərdim. Onu arxadan vurmaq istəyirdim. Heç cür imkan olmurdu. Hüseyn Cavid küçə ilə gedəndə yanından ötənlər ona baş əyib salam verdikdən sonra, ona qoşularaq evlərinə qədər onu ötürürdülər. Bir gecə qəti qərara gəldim ki, hökmən Cavid əfəndiyə qəsd edəcəm. Elə bu vaxt qapı döyüldü və içəri tanımadığım iki nəfər daxil oldu. – Siz bilirsiniz ki, Cavid əfəndi sizə türk ədəbiyyatından dərs deyirdi. O, bu gecə hökümət tərəfindən tutulub. Siz gərək məhkəmədə onun türkçülüyü təbliğ etməsi haqda deyəsiniz. Elə bil dünyanı mənə verdilər. Mən o qədər sevindim ki. Deməli, işlərimiz yaxşı gedir. Səbirsizliklə səhərin açılmasını gözləyirdim və fikirləşirdim ki, səhər məhkəmədə nələr deyəcəyəm. Bax, beləcə fikir-xəyal içində sabahı açdım. Universitetə gedəndə eşitdim ki, məni və mənimlə birgə Hüseyn Cavid poeziya məktəbində oxuyan uşaqları universitetin rektoru

çağırıb. Biz hamımız dərsə yox, rektorun otağına getdik. Rektor çox əsəbi idi. Əsəbi halda otaqda var-gəl edərək deyinirdi: "Gör biz neyləmişik. Sən demə, bizim aramızda gürzə ilanlar var imiş. Onlar siz cocuqlara da zəhər verirmişlər ki, gələcəkdə bu zəhəri siz də başqa uşaqlara verəsiniz. Belə edir ki, Şura höküməti dağılsın. Bala, Şura höküməti sizə neyləyib? Hamınız çoban-çoluk uşaqları idiniz. Gətirib universitet tələbəsi edib. Sabah hərəniz bir vəzifə başında olanda vallah, bizi heç adam da saymayacaqsınız. İndi gedin qaranlıq zindana. Hüseyn Cavid poeziyasını, Nəsimi, Xaqani, Hadi poeziyasını dinləyib zindanda çürüyəcəksiniz". Bu an içəri hərbi formada silahlı adamlar daxil oldular. Onlar hamımızın əllərinə qandal vurub sıraya düzdülər və oradan birbaşa məhkəmə zalına apardılar. Bizə ən pis təsir edən o idi ki, bütün universitet tələbələri bizə tamaşa edirdilər. Düzü, mən qorxmurdum. Əgər belə bir türk nəhəngini məhv etsələr, bizim kimilərin iki yüzünə bərabərdir. Budur, artıq məhkəmə zalındayıq. Hamı səbirsizliklə Cavid əfəndini gözləyir. Birdən qapı açıldı. Cavid əfəndi öz qürurunu pozmadan içəri daxil oldu və yenə də dedi, hər vaxtınız xeyir cocuqlar. Biz hamımız ayağa durduq. Həmişəki kimi yenə də baş əydik. Əli ilə işarə etdi ki, oturun. Bir neçə dəqiqədən sonra məhkəmə gəldi. Elan verdilər ki, durun ayağa, məhkəmə gəlir. Hamı durdu. Hüseyn Cavid əfəndi heç halını pozmadan ayağa durmadı və zəncirli əli ilə eynəyini gözündən çıxardıb şüşəsini təmizlədi və yenidən gözünə taxdı. Çox təmkinlə dilləndi:

- "Yoldaş hakim, nədir bu cocuqların günahı?! Mənəm günahkar ki, öz ana dilimdə poeziya öyrənmişəm, öz anamın laylası ilə şeyriyyatı cocuqlara öyrətmişəm. Budurmu mənim günahım?!" Bu sözlərdən sonra məhkəmə də çaşıb qaldı və dedi: - "Müttəhim otur. Şahidlər buyurun". Bir-bir bizi durquzdular. İyirmi nəfər – hamımız bir ağızdan dedik: "Bəli, Cavid əfəndi bizi türkçülüyə sürükləyir". Qalan on nəfərimiz isə "yox, Cavid əfəndi poeziyanın qaynar bulağıdır. Böyük ustaddır". Bunları deyən on nəfəri həbs etdilər və bizim – iyirmi nəfərin gözlərimiz gülürdü, hamımız sevinirdik. Hüseyn Cavidə ömürlük həbs cəzası verildi. Sonra Məhəmməd Hadi də o münvalla həbs edildi. Deməli, Azərbaycanın ən görkəmli insanlarını məhv etmək üçün çox yaxşı fikirləşilmiş bir vasitəyə çevrilmişdik. Hamımız hər əməliyyatdan sonra sevinirdik. Bir neçə gündən sonra bizi tar kursuna qoydular. 1937-ci ilin payızı idi. Bizə tar dərsini o

vaxtlar da ən məhşur olan iki qardaş – Əhməd Bakıxanov və səhv etmirəmsə, Ənvər Bakıxanov keçirdilər. Onlar o qədər gözəl tar çalırdılar ki, onlara qulaq asdıqca insan sanki dərin yuxuya gedirdi. Qəfildən yenə həmin kursda oxuyan uşaqları məhkəmə zalına şahid sifəti ilə apardılar. Hər iki qardaşın üzünə dirəndik ki, onlar İran təranələri çalırdılar. Deməli, İrana meyillidirlər. Niyə Bayatı-Kürd, Bayatı-Şiraz, Bayatı-İsfahan çalmırdılar? Bəli, bizim hamımızı, yəni iyirmi nəfəri onların üzünə dirəndiyimizə görə buraxdılar, qalan on iki nəfəri tutdular. Bax, beləcə illər keçirdi. Hər belə işlərdən sonra gecələr mənə pul mükafatı verirdilər. Mən çox yaxşı yaşayırdım. İntiqam hislərim də get-gedə artırdı. Qəfildən müharibə başlandı və biz müharibəyə getdik.

1941-ci ilin avqust ayı idi. Artıq Biləcəridəydik. Müharibəyə gedirdik. Bizə məxfi tapşırıq var idi – müharibədə ən igid, qoçaq türkləri məhv etmək. Artıq mən bilirdim ki, cəbhə bölgəsində nə edəcəyəm, çünki rus dilini təmiz bilirdim. Arxayın idim ki, türklərdən qisasımı alacağam. Tez-tez tambura çıxırdım. Yenə də kimisə atmaq istəyirdim ki, rahat ola bilim. Ancaq buna imkan olmurdu. Mən bir qədər gözlədim. Artıq gecə yarını keçmişdi. Elə bil ki, pusquda durub ov axtarırdım. Ovu bərəyə gəlməyən ovçu kimi dilxor olub vaqona qayıtdım. Vaqonda ilk tanış olduğum adam kürd Aloy idi. Ağabba mahalından idi. Nədənsə onunla söhbətimiz tutdu. Düz bir həftə yol getdik. Bizi Ukraynanın Çerneqo şəhərində düşürtdülər. Atrıq təlimlər başlayır. Mən narahat idim. Axı, mənə mərkəzdən göstəriş vermirdilər. Mən elə hiss edirdim ki, artıq biz rabitəni itirmişik. Üç gündən sonra mənə bir nəfər yaxınlaşıb mərkəzin məxfi göstərişini verdi. Deməli, hücum zamanı kimləri qətlə yetirməliyəm. Ürəyimdə bir qədər arxayınlaşdım. Artıq hazırlıq dövrü keçməliydim. Hər gün axşamlar yatanda Ağabbalı kürd Aloy ermənilər pisləyir, onların qaniçənliyindən faktlar danışırdı. Mən artıq belə qərara gəlmişdim ki, onu məhv edim. Fikirləşdim ki, bizi hücum xəttinə göndərsələr onu elə oradaca öldürəcəm. Elə bil Allah-Təala mənim sözümü eşitdi. Üç gündən sonra bizi hücuma göndərdilər. Artıq Hitler ordusuna yaxınlaşanda başımın üstündə şimşəklər çaxmağa başladı. Bir anlıq gözümdən alov qalxdı, hüşumu itirib yerə sərildim. Gözümü açanda özümü hospitalda həkimlərin, tibb bacılarının əhatəsində gördüm. Kürd Aloy isə əlini alnıma qoymuşdu. Nə baş verdiyini anlayanda özümə nifrət etməyə başladım. Nifret etdim ona görə ki, imkanım olmadı ki, bu

müsəlmanı öldürüm. Ürəyim bir qədər sakitləşəndən sonra gördüm ki, mənim gözlərimi açmağıma sevinir və deyir, İbrahim, bizi Allah ən böyük bəladan qurtarıb, biz yenidən dünyaya qayıtmışıq. Amma incimə, mən səndən bir az şübhələndim. Sən huşunu itirəndən sonra erməni dilində sayıqlamağa başladın. Sən öz aləmində ana-atana, qardaş-bacılarına müraciətlə deyirdin ki, inanın mənə, sizin qanınızı almışam və yenə də alacağam, rahat yatın. İbrahim, mənə elə gəlir ki, siz casussunuz.

Bu sözləri eşitdikdən sonra mən artıq özümdə deyildim. Özümə qəsd etmək üçün bir yol axtarırdım. O isə susmurdu, danışırdı:

1905-1906, 1918-1919-cu illərdə erməni şovinistlərinin türk millətinə qarşı törətdikləri faciələri, Ağbaba mahalında əsrimizin lap əvvələrində bir erməni obasının belə olmamasını, Hamamlıda (Spitakda) erməni xalqının gələcəyi naminə məktəbin açılmasını və sizin kimilərin oxumasını, türk millətinə qarşı düşmən mövqedə dayanmaq üçün böyüməsini mən artıq bilirəm. Bu sözlərin hamısını sən sayıqlayanda dedin. Buna görə də düz üç gün gecələr yatmadım, səni kürəyimdə gətirdim. Səni ona görə öldürmədim ki, öləndə özünlə o dünyaya biz türklərə və kürdlərə qarşı olan kin-küdurətini aparacaqsan. Sənin qəbrinin üstündən ot çıxacaq, o otu heyvan yeyəcək. Biz isə həmin heyvanın südündən, ətindən qida məhsulu kimi istifadə edəcəyik. Övladlarımız da sizin kimi xəbis bir millət olacaq. Həm də ona görə səni öldürmədim ki, onsuz da səni özününkülər – ermənilər öldürəcəklər. Qoy onların əli qana boyansın. Onsuz da siz qaniçənsiniz. Nə qədər çox qan içirsinizsə, bir o qədər də qudurursunuz. Özü də siz ana bətnindən qaniçən yaranırsınız. Sizdə toxum saf deyil.

Mən yazıq-yazıq onun üzünə baxaraq dedim, axı, bizim işimiz türklərlədir, sizlərlə deyil. Kürd qəzəblə cavab verdi: "Yadında saxla, əgər türk ətdirsə, kürd onun dırnağıdır. Kürd ilə türkü ayırmaq olmaz. Siz ermənilər deyirdiniz ki, bizim türklərə torpaq iddiamız var, kürdlərə isə qan iddiamız. Götürək səni. Sən günahsız bir cocuq idin. Sənin nə günahın var idi ki, sənin bütün ailə üzvlərini məhv etdilər və bununla da sənin ürəyinə nifrət toxumu səptilər. Beləliklə də səni insan qatili, qaniçən etdilər. Bunların hamısını sən özün demisən, huşsuz olduğun vaxtda. İndi artıq dana bilməzsən.".

Mən onun əllərindən tutub yalvardım ki, məni öldürsün. O, isə cavabında dedi: - yox, sənin Allah cəzanı verəcək. Mənim öldürməyim sənin üçün ən yüngül cəzadır.

Mən həmin anda başa düşdüm ki, məni aldadan, qatil edən kimdir. Mən indi bildim ki, kimdir mənim əzizlərimin qatilləri. Onun əlindən tutaraq dedim, mən indiyə qədər bütün bunları hiss edirdim, lakin indi tam surətdə dərk etdim ki, bu, həqiqətən də belədir. Bütün bunları dedikdən sonra gözlərimdən yaz süzüldü. Beləliklə, düz altı ay xəstəxanalarda müalicə olundum. Nəhayət, tam sağalıb yenidən orduya getdim. Yenidən güllə yarası aldım. Bax, beləcə müharibəni başa vurub Bakıya qayıtdım. Burada iki il yaşadım, insanların, xüsusən də türklərin çox gözəl insanlıq xüsusiyyətlərindən məmnun oldum. Lakin etdiyim pisliklərə görə mən orada çox qala bilmədim və bu şəhərə, Soçiyə gəldim. Yenidən öz əsl familiyamı götürdüm – Osepyan Suren Kinkar oğlu. İndi sizin rəhbərliyinizdə mənim kimi adamlar çoxdur. Onları tapıb ifşa etməsəniz vay sizin millətin halına.

NİYƏ DOĞULMUR SULTAN BƏYLƏR?

Deyirlər insan dünyaya cüt gəlir. Hər əsirdə xalqın içərisindən, bir qəhrəman yetişir. Niyə XX əsrdə Sultan bəy kimi bir şəxsiyyət yetişmədi. XX əsrdə gör nə qədər torpaqlarımız getdı. Bu torpaqlarımızı özümüz verdik. Qardaş olub hayıstan mahnısının sədası altında hətta bütün insanların gözü qarşısında ermənilər Dağlıq Qarabağda inkişaf etdi. Hətta Azərbaycanın qeyrət rəmzi, tacı olan Şuşanı da verdik erməni qurumunun tərkibinə. Bununlada bəylərimizin ruhunu təhqir etdik. Pənahəli xanın qəbri buna dözmədi, qəbir daşı paralandı. Bütün dünyadan erməni körpələrini gətirib Şuşanı göstərdilər, baxın, buralar sizin babalarınızın yurdudur. Bu yalan və iftiraları dinləyən rəhbərlərimiz əşi mənə nə var deyib oradan uzaqlaşıblar. Hətta 1905-1918-ci illərdə baş verən faciəni danışan ağsaqqallarımızı da eşitməmişik.

1948-ci ildə güya mal dırnağı dağlarda errozyaya səbəb olur deyə Yerevan şəhərində xüsusi komissiya yaradıldı və Zəngəzur dağları ermənilərə mənsub oldu. Buna narazılıq bildirən sosialist əməyi qəhrəmanı Telli Həsən, Muğanın Bahadırı Qara Hüseyn, Talıb mərkəzi komitəyə şikayət etdikləri üçün 1950-ci ildə güllələndilər. 1934-cü ildə Dərələyəz Şərurdan ayrılıb ermənilərə verildi. 1969-cu

il aprelin 12-si, soyqırıma 8 gün qalmış Nüvədi kəndi ermənilərə verildi. 1984-cü ildə Qazax mahalının ici dərəsi Azərbaycan qəbiristanlığı ilə birlikdə ermənilərə ərmağan edildi.

1986-cı ildə Qubadlının Çayzəmi deyilən bir hissəsi yenə ermənilərə verildi. Bununla əlaqədar Qubadlı xalqı ayağa qalxdı. Üsyanı yatırmaq məqsədilə mərkəzi komitənin I katibi Kamran Bağırov Əyin kəndinə gəldi, Çayzəmi mənə veriləcək adı ilə Çayzəmini ermənilərə bağışladı. Qarabağ savaşında Qarabağdan başqa 8 rayon ermənilərə verildi. Zaman-zaman özümüz ermənilər paya öyrətdiyimiz üçün onlar yenə də torpaq iddiasındadırlar.

TORPAQDAN PAY OLMAZ.

Hörmətli oxucu elə burda bir əfsanə yadıma düşdü. İki padşah var imiş. Biri imkanlı. Yəni həm maddi cəhətdən, həm də hərbi cəhətdən o birindən üstün imiş. O biri padşah isə həm hərbi, həm də maddi cəhətdən zəif imiş. Güclü padşah zəif padşaha elçi göndərir ki, dünyada məhşur olan Kəhər atını ver mənə, əgər verməsən müharibə edəcəm. Padşah vəziri, vəkili, sərkərdələri yığıb məsləhətləşir. Onlar deyirlər: - Vermə, kişi atını verməz. Padşah görür ki, müharibə etsə basılacaq. Atını verir. Bir müddətdən sonra həmin padşah onun papağını istəyir. Deyirlər, ay kişi papaq namusdu, kişi papağını verməz. Amma ağıllı padşah qırğın olmasın deyə papağını da verir. Bir müddətdən sonra həmin güclü padşah zəif padşahın dünya gözəli olan bir arvadını da istəyir. Yenə vəzir vəkil deyirlər: - Ay kişi, sən nə edirsən? Kişi də arvadını verər, arvad namusdur. Ancaq zəif padşah qırğın olmasın deyə arvadını da həmin padşaha verir. Sonra həmin padşah ona elçi göndərir ki, bizim sərhəddə sizin bir parça şoranlıq, bataqlıq torpağınız var. Onu bizə ver. Padşah yenə vəziri, vəkili yığıb məsləhətləşir. Onlar deyirlər ki, o torpaq yararsızdı, ona görə müharibə etməyə dəyməz. Ver getsin. Ancaq padşah vermir. Deyir, at, papaq, arvad mənim idi verdim. Torpaq xalqındı, onu mən verə bilmərəm. Müharibə edəcəm, müharibəyə hazırlaşın.

III FƏSİL

SULTAN BƏY XALQI SİLAHLANDIRIR.

Dünyanın çox qarışıq vaxtı idi. Rus-türk müharibəsi gedirdi. Rusiyada Nikolay yıxıldısa, deməli Rusiyanın özündə qarışıqlıq var idi. Bu rus-türk

müharibəsinin sonu demək idi. Bu qarma-qarışıqlıqdan istifadə edən ermənilər hər yerdə baş qaldırıb yenə də türklərin qanını tökürdü. İranda olan ermənilər kütləvi surətdə ermənistana köçürülürdü, özü də nədənsə hamısı İrəvan tərəfdə yerləşdirilirdilər. Belə söz-söhbət gəzirdi ki, ermənilər Sarıqamışdan keçib yenə də türklərin qanını tökəcəklər. Maldarlıqla məşğul olan Sultan bəy hər yerdə erməni vəhşilərinin qabağını alır, onların dinc əhalini qırmasına imkan vermirdi. O, öz sürüsündən minlərlə erkəkləri seçdirib Naxçıvan bazarında satdırıb həmin pulla silah alıb camaatı, əsasən cavanları silahlandırırdı. (F.Süleymanov "Qu quşunun nəğməsi").

Sarıqamış, İlqar, Ağrı, Ərzrum qan içində idi. Bir tərəfdən Andranikin qoşunu obaları yandıra-yandıra gəlib Karsa, Subasar gölünə çıxmışdı. Andranik fürsət gözləyirdi ki, yerli ermənilər aranı qarışdırsınlar o, da bundan istifadə edib Zəngəzura hücum etsin. Cavanlar döyüşə hazır vəziyyətdə idilər. Sultan bəyin adamları kəndləri gəzir, cavanları döyüşə hazır vəziyyətə gətirirdilər. Cavanlar yaraqlanıb bəzən başqa kəndlərə də gedirdilər. Daşnaq yuvası olan Gorus, Xinzirək, Dığ ermənіləri yaman fəallaşmışdılar. Türkiyədən və İrandan gələn ermənilər hər gün Azərbaycan kəndlərinə silahlı hücumlar edirdilər. Kəndin qız-gəlinini, qocalarını bir sözlə əllərinə keçənləri ermənilər aparıb Gorus türməsinə salırdılar. Bir dəstə qız-gəlini qol-qola bağlayıb aparanda kişi qeyrətli, igid, qorxmaz, cəsur Kəblə Səkinə el gözəli Gülzarı vurdu ki, erməni əlinə düşməsin. Kəblə Səkinə deyərdi: - "Oğul öləndə el yasa batmaz, namusumuz əldən gedəndə el yasa batar". Bir gün Nəsib və Avbalanlı Qoqo Səməd Kəblə Səkinəgilə gəldi. Səməd də, Nəsib də çox qoçaq adamlar idi. Onlar çay-çörəkdən sonra Kəblə Səkinə xanıma dedilər: - Ermənilər Cəbrayılı, İbadullahı və ovçu Balakişini, onlarla birlikdə on nəfəri çay qırağı kəndlərdən tutub aparıblar. Əgər sabah axşama kimi onları türmədən qaçırmasaq birisi gün hamısını güllələyəcəklər. Əgər onlar güllələnsələr ermənilər daha da fəallaşacaqlar. Bax o namərdlər gör kimləri tutublar: - Əlyanlı Qabili, Bocəhi Kili və başqa adlı-sanlı igidlərimizi. İndi biz gedirik görək nə edə bilirik. Onlar Səkinə xanıma - Kəlbalayı sən niyə bikefsən? Qorxma hər şey yaxşı olacaq. Kəblə Səkinə Həbibə müraciətlə: - Atı tövlədən çək mən də gələcəyəm. Həbib Qəmər madyanı gətirib cilovundan tutub Kəblə Səkinəni gözləyirdi. Kəblə Səkinə dağ vüqarlı bir igid kimi geyinib gəldi. Kəblə Səkinə

gedəndə Həbibə dedi: - Sən burda qal, uşaqlardan muğayat ol. Özü də silahsız heç yana getmə. Biz sabah sübh tezdən evdə olacağıq. Dünya yaman qarışıqdır. Ermənilər yaman fəallaşıblar. Çünki Türkiyədən ruslar çəkilib, indi Zəngəzurda ermənilərdən çox ruslar qorxuludur. Onların öldürdüyünə sorğu yoxdur.

Onların hər üçü Kəblə Səkinə, Nəsib və Qoqo Səməd atlanıb yola düşdülər. Atlılar Gorusa tərəf irəliləyirdilər. Axı cəmi bir sutkadan sonra azərbaycanlıları güllələyəcəkdilər. Nəyin bahasına olursa olsun gərək həbsxananın bir işçisini ələ alaq. Qoqo Səməd üç ay Gorus türməsində yatıb. Türmənin baş nəzarətçisi Aniklə dostdur. Qoqo Səməd həmişə motaldan, cəmdəkdən onun evinə aparardı. Yenə bir heyvan, bir qədər pul aparıb açarları ala bilsəydi nə yaxşı olardı. Bu cür fikirlərlə payızın sərt soyuq gecəsində Gorusa sarı üç atlı gedirdi. Xınzirək kəndinin aşağısındakı yoxuşu atlar aram-aram çıxırdı. Əgər atlılar bir qədər səhv etsələr, onda çox qorxunc bir uçuruma yuvarlanardılar. Bunun üçün Nəsib atını qabağa salıb çox ehtiyatla yol seçirdi. Əgər nabələd adam olsa elə hiss edər ki, buralarda adam yaşamır. Ancaq bu təpənin arxasında ermənilər, yəni Xınzirək kəndinin əhalisi var idi, onu yad adamlar seçə bilməzdi. Nəsib atının cilovunu çəkib Qoqo Səmədə dedi: "Hə, Qoqo indi biz bir-birimizdən aralı getməliyik. Çünki üçümüzü də bir güllə ilə vura bilər. Mən qabaqca gedirəm, siz də bir-birinizdən aralı gəlin. Bu zaman Kəblə Səkinə atını qabağa sürüb dedi: -"Yox, mən qabaqda getməliyəm, sonra siz gəlin". Artıq gecikmək olmazdı, çünki dan yeri sökülürdü. Bir azdan şeytan yuvasından gavurlar baş qaldıracaqdılar. Çünki heç vaxt yarasa gündüzlər çölə çıxmır, ona görə ki, onun gözləri gündüzlər görmür. Bir-birindən xeyli aralı üç atlı gəlirdi. Sübhün açılmasına az qalmış bu üç atlı Gorusun başında dayanıb hansı yolla getməyi müzakirə edirdilər. Onlar fikirləşib qərara gəldlilər ki, yol qısa olsun deyə Nəbi səngərindən aşağı düşüb düz Anikin evinə gedək. "Artıq tələsmək lazımdır". –deyərək hər üçü atdan düşüb tələsə-tələsə enişə enməyə başladılar. Atlar çayın qırağına tələsirdilər ki, sudan içib sakitləşsinlər. Onlar su içib otlamağa başladılar.

Sübh tezdən Anikin qapısı döyüldü. Anik tələsik qapını açanda Səmədi görüb heyrətlə: - Ara , ay dəli musurman, sən bilirsən ki, belə vaxt gəlmək olmaz. Bilsələr ki, burda bir türk var, dərisinə saman təpərlər. Məzhəb haqqı, axı qanı niyə mənim evimə tökürsən. Qoqo təmkinini pozmadan: - Ə, gavur, sabah-sabah insan

ruzisini geri qaytarmaz. Anikin arvadı qorxu, həyəcan içində titrəyir, yadından çıxıb ki, yad kişilərin yanındadır. Ağ çitdən olan gecə paltarında döş-başı açıq idi. Birdən Kəblə Səkinə bu hala dözməyib – "Ay qız, get əyninə paltar geyin, gavur olanda nə olar" (F.Süleymanov "Qu quşunun nəğməsi").

Anikin arvadı cəld yataq otağına keçib əynini dəyişdi. Yenə də ərinin yanına gəldi. Səbirsizliklə bu hadisənin nə ilə qurtaracağını gözlədi. Birdən Kəblə Səkinə əlini atıb qoynundan kiçik bir torbanı çıxartdı. Anikə uzatdı və dedi: - "Uzunçuluq eləmə, al bu qızılları götür, qoy uşaqlar üçün çörək pulu olsun. Bizə heç bir şey lazım deyil, bizi türmədə olanlarla görüşdür. Sonra biz çıxıb gedəcəyik, bunu heç kəs bilməyəcək.

Torbanı görən Anikin arvadı Siranuşa sanki dünyanı bağışladılar. Tez torbanı əlinə alıb əri Anikə dedi: -"Ara, ay dəli, ömrün boyu bu qızılı qazanmayacaqsan. Get bunlara türməni göstər gəl. Elə bu pullarla çıxaq bir yerə gedək. Onsuzda bu erməni-musurman davasının axırı yoxdur. Ara yerdə kasıblar ölür. Di tez tərpən. Bir azdan o itlər gələcək. Bax, sən səhv etsən bu qızılları o zatı bilinməyən daşnaqlar alıb gedəcəklər". Anik isə gah torbadakı qızıllara baxırdı, gah da arvadına. Nə isə xəyala dalırdı. Pəncərədə sənət əsəri kimi hörülmüş qayalara tamaşa edirdi. Bu an Kəblə Səkinə torbanın ağzını açıb qızılları stolun üstünə tökdü. Qızıl onluqlar mizin üstünə töküldükcə musiqi səsinə bənzər səslər çıxarırdı. Siranuş acgözlüklə qızılları ovcunda sıxaraq əri Anikə dedi: - "İnsan gərək öz qismətindən keçməsin. Ruzi öz ayağı ilə gəlib. Ay dəli gəl bundan keçmə".

Artıq hava aydınlaşırdı. Küçələrdə fayton təkərlərinin səsi aydın eşidilirdi. Atların ayaqları buzun üstündə möhkəm səs çıxarırdı. Anik bir qədər fikirə gedir və birdən üzünü Qoqoya tutaraq: - " Ə, Səməd, məzhəb haqqı indi getsək sizi də, məni də oradaca güllələyəcəklər. Gəlsənə belə edək. Siz qalın burada, sizə Siranuş yaxşı qulluq etsin, mən də kameraların açarlarını özüm götürüm və növbətçiləri də öz adamlarımdan qoyum. Sizi sərbəst buraxım onlarla danışın, çünki sabah günorta onların hamısını güllələyəcəklər. Kəblə Səkinə dedi: -" Anik, əgər sən hər hansı bir xəyanətə əl atsan, özünü, ailəni ölmüş bil. Biz silahlıyıq, ölümümüzdən də qorxmuruq. Sənin iki balanı və bu dağlar çiçəyi olan arvadını öldürəcəyik. İndi işinə bax". Siranuş artıq qızılların xəyalı ilə yaşayırdı. Elə bil dünya onun idi. Öz-

özünə deyidi: - "Bax bu qızılları götürüb xaricə gedərik. Orada gözəl həyat sürərik. Özümüzə gün-güzaran düzəldərik. Onsuzda bunların axırı yoxdur".

Kərbalayı Səkinə bu oyunun axırının pis qurtaracağını nəzərə alaraq Anikə dedi: - " Anik, sən nəzərə al ki, arvadın və iki uşağın burada girovdu. Əgər bir hiylə işlətsən bu mauzerlə uşaqlarını və arvadını mən özüm qətlə yetirəcəyəm. O, əlini qoynuna aparıb mauzeri çıxarıb Anikə göstərdi. Anik dedi:

-A Səkinə bacı, məzhəb haqqı, biz özümüz də bezmişik, bu köpəklərin əlindən axı. Allah təala bizə çörək gətirib, nə üçün qaçaq. Siz arxayın yeyin-için, istirahət edin. Yuxusuzsunuz yatın dincəlin. Mən də görüm nə edə bilirəm.

Siranuş tez süfrə düzəldib çörək gətirmək istəyəndə Kəblə Səkinə dedi: - Qızım, sən əziyyət çəkmə bizdə hər şey var. Atın tərkində olan əllə toxunma xurcundan çörək, qovurma, yağ, pendir gətirib süfrəyə qoydu və dedi: - Siz çörəyinizi yeyib bir qədər dincəlin, yuxusuzsunuz yatıb yuxunuzu alın. Mən isə Siranuşla danışmalıyam. Bəlkə ağlına bir şey gələr. Kəblə Səkinə Siranuşu gözdən qoymurdu. Oturub onunla söhbət edirdi və deyirdi: - "Bu pullarla bütün qohum-əqrəbanızı dolandıra bilərsiniz. Axşam yoldaşın evə gələndə de ki, gecə ikən türmədəki adamları götürüb sizinlə birlikdə hamısını xilas edək. Onsuz da Rusiyada Şura hökuməti qurulub. Qızım, o pulların da üstünə bir qədər pul verək. Tez əlin qoynuna atıb: - Bax, bu torbadakı pulları da sizə verəcəyik. Sizinlə birlikdə dustaqları da aparaq, oradan sizi İrana ötürərik. Sonra da haranı istəsəniz oraya da gedərsiniz. Qızım, bu xoşbəxtliyi əlinizdən çıxarmayın. Axı pulu olan insan nə istəsə onu edə bilər. Pulsuz pəhləvan da özünü gücsüz bir insan hesab edir. Qızım, yaxşı-yaxşı fikirləşin və ərinə bir ağıl ver. Görürəm sən çox ağıllı qızsan".

Siranuşla Kəblə Səkinə danışdıqca elə bil gözlərində bir ümüd çırağı yanırdı. Axı onun da qohumlarının çoxu bu erməni-müsəlman davasında buraları tərk edib İrana getmişdilər. Onsuzda qohumları təkid edirdilər ki, Siranuşgil də köçüb onlar olan yerə, yəni İrana gəlsinlər. Bu qədər pulu, qızılı isə sanki Allah özü göydən onlara göndərmişdi. Siranuş artıq özünü başqa məmləkətdə görür və bu qızılların rənginə baxdıqca özünü dünyanın ən xoşbəxt insanlarından biri sanırdı. O, Nəsibə baxdıqca daxildən qovrulur, öz-özünə fikirləşirdi: - "Kaş bircə dəfə onun ağuşuna atılıb sinəsinə sıxılaydım. Hətta gedib yatdığı yerdə üzündən öpsəydim özümü

dünyanın xoşbəxt adamı sanardım". İndi Siranuş iki odun arasında qalmışdı, həm qızılın dərdini çəkir, həm də bir neçə saat bundan əvvəl gördüyü o türk kişisinin. Siranuş artıq özünü ələ ala bilmir, tez-tez Nəsibin yatdığı otağa girir, üstlərini örtmək bəhanəsi ilə gözünü Nəsibə dikir, özünü saxlaya bilmir, gözlərindən yaş tökürdü. Öz-özlüyündə Kəblə Səkinəyə nifrət edirdi ki, nə üçün o buradadır və imkan vermir ki, heç olmasa yatmış kişinin üzündən öpəm. Səkinə artıq Siranuşun bu hərəkətlərinin mənasını duyurdu. Ona görə də bir qədər ürəyində rahatlıq tapırdı. Amma ona sanki hər dəqiqə bir il kimi görünürdü, bu saat evin muhasirəyə alınmasından qorxurdu. Ancaq o söz vermişdi ki, əgər elə olarsa, Anikin ailəsini qıracaqdı. Ancaq nədənsə bu hiss ürəyində azalırdı, çünki dünyada canından əziz tutduğu bu Nəsibi erməni qızı Siranuş dəlicəsinə sevirdi. Bax bu sevgi naminə öldürmək istəmirdi. Siranuş artıq mətbəxdə yemək hazırlayırdı. O, istəyirdi ki, evində nə varsa hamısını bişirsin Nəsib yesin. Yedikcə də ona ləzzət versin. "Bax bu yatmış gözəl oğlan desə ki, ürəyini çıxart ver mənə yeyim, onu da edərəm". Ancaq nə olsun hiss edirəm ki, bu ona qismət olmayacaq. Bir azdan Nəsib və Qoqo Səməd yuxudan durdular. Elə bu an Siranuş isti su götürərək Nəsibin qənşərinə gəldi və təmiz azəri ləhcəsində dedi: - "Gəlin əlinizə su töküm". Ey mənə Allah Təala tərəfindən göndərilmiş pay. Nəsib diqqətlə Siranuşun üzünə baxdı, Duyğulu oğlan idi, gözəlliyi qiymətləndirməyi bacarırdı. Ona görə də qəribə bir hisslə qadına baxdı. Baxışları ilə incə belini, geniş sinəsini, şəhvət duyğusu ilə yanan dodaqlarını və can alan gözlərini süzdü. Ancaq ermənilərə intiqam hissi o qədər güclü idi ki, özü-özünü danladı. Axı atası Məmmədrəhim də bu Gorusda diri-diri basdırılmışdı. Bir xeyli fikrə daldı. Atasının yarıya qədər torpağa basdırılmasında daşnaqlara dediyi sözləri: - "Siz məni diri-diri basdırırsınız, bunu bütün türk dünyası yadından çıxartsa belə, mənim qeyrətli Zəngəzur mahalımın övladları heç vaxt yaddan çıxartmaz. Onlar bu cür dəhşətli ölümləri bütün türk dünyasına çatdıracaqlar. Sonra siz, sizin kimi daşnaqlar həmişə olduğu kimi yenə şeytan libasını geyib göz yaşlarınızı tökəcəksiniz. Onda hamı göz yaşına inansa da mənim iki oğlum buna inanmayıb, sizdən mənim qisasımı alacaqdır. Cünki günahsız adamları məhv etmək, insanı xüsusiyyətlərə layıq deyil. Axı insanların hamısını Allah yaradıb. Deyin görək Zəngəzurda bir o qədər kəndlər yandırıb insanlar

qırmısınız. Axı, bunları axirət dünyasında sizdən soruşacaqlar" yadına düşdü. (F.Süleymanov "Qu quşunun nəğməsi").

Daşnaqlar onun sözünü eşitməmək üçün torpağı tez-tez tökürdülər ki, tez səsini kəssin. Bəli, torpaq üç gün elə bil nəfəs alırdı. Üç gün bu hadisədən sonra dəhşətli bir gecədə Nəsib, Kərbalayı Səkinə və Həbib kişinin basdırıldığı yerə gəlib hələ də insan hərarətindən isinmiş torpağı qazıb Məmmədrəhimin meyidini gecə ikən fərməşə qoyub obaya gətirdilər. Bir neçə saat tez gəlsəydilər bəlkə də sağ qalarmış. Hələ də bədənində hərarəti var imiş. Hətta ağzından torpağa qarışmış su da qurumamışdı. Bax, bütün bunları fikirləşdikcə Nəsib özünü danlayır və atasının o əzablarını fikirləşərkən özünü atasının ölümünə bais sanırdı. Özü-özünü danlayırdı: "Axı nə üçün bir gün əvvəl gəlmədim. Kişini xilas edərdim. İndi isə bax bu erməni gözəlini görən kimi ürəyimdə nifrət azalır, rəğbət oyanır. Axı, nə üçün? Mən qisas almalıyam. İndi atamı diri-diri basdıranları tapıb, onları da bu əllərimlə boğmalıyam". Yenə də həmin müdhiş gecədə atasını, iki qardaşını və bir də nənəsini gecə ikən torpaqdan çıxaranda Kərbalayı Səkinənin için-için ağlaması, naləsi yadından çıxmırdı, fikirləşdikcə tükləri biz-biz olurdu. Axı o, oğlunu soyuq məzardan çıxaranda and içdi ki, - "Oğul, mən sənin oğlanlarınla birlikdə mübarizə aparacağam. Əgər sənin hər bir tükünə bir daşnaq öldürməsəm, qoy mənə bu yenicə dən düşmüş birçəyim haram olsun". Gecə yenə üç atlı Arana doğru – obamıza gedirdik. Gorusun Şorsu dərəsinə çatmışdıq ki, Gorus tərəfdən bizə sarı qaraltı gəldiyini gördüm. Burada ehtiyat və cəsarət gərəkdir. Elə etmək lazımdır ki, buradan salamat çıxaq, yoxsa kiçik bir səhv hər üçümüzün məhvi demək idi. Nənəm Kəblə Səkinə tez dilləndi: Atəş açmaq olmaz, burada yalnız ya xəncərlə, ya da boğmaqla öldürmək lazımdır. Hamımız əlimizdəki uzun tiyəli qılıncımızı hazır vəziyyətdə tutub düşmənimizi gözləyirdik. Qaraltı yaxınlaşırdı. Birdən Zəngəzur torpaqlarına qan və bizim el-obaya zülm verən Zəngəzur uyezdinin milis rəisi və iki nəfər də milisi tanıdıq. Artıq gecikmək olmazdı. Nəsib gur səslə: - Əllərinizi qaldırın, siz artıq mühasirədəsiniz! Bu an Kəblə Səkinə atdan düşüb Papaqlı qayanın arxasına keçdi. O da möhkəm səslə: - Əllərinizi qaldırın, silahları atın! Bu səs elə bil Şorsulu dərəsindən hər qayanın arxasından əks-səda verdi. Axı Şorsulu dərəsi hər tərəfdən qayalarla əhatə olunur. Gecələr burada bir nəfər danışsaydı elə bilirdin ki, böyük bir qoşun var. Buralar gecələr elə vahiməli olur ki, tək getmək

mümkün olmur. Səsin çoxluğuna görə qəza milis rəisi səsini belə çıxarmadı. Silahı atıb, sakit dayandı. Bu Zəngəzur mahalını zara gətirən Aruşanyan idi. Onun adı gələndə bütün Zəngəzur mahalı onu lənətləyir, qəddar və qaniçən kimi tanıyırdı. Elə Məmmədrəhimi də bu qaniçən Aruşanyanın dəstəsi tutub əli-qolu bağlı gətirmişdilər. Axı Kərbəlayı Səkinə ellər gözəli olan Gülzarı qətlə yetirəndə Aruşanyana güllə atsa da ona dəyməmiş o aradan çıxmışdır. İndi tale onları yenidən üzbəüz gətirmişdi. Kəblə Səkinə bilirdi ki, əgər onlar güllə atsalar, o saat Gorusdan, Karunzurdan, Dığdan silahlı adamlar tökülәcəklər. Özü heç, nəvələrini məhv edərlər, nəslini kəsərlər. Nəsib bu sakitliyi hiss edərkən yenə: Hə, rəis, başında dəstə olanda özünü basılmaz hiss edirsən. İndi cavab ver. Bax, mən indi gəlmişəm atamın qanını almağa, siz murdarlar atamı diri-diri torpağa basdıranda axı o dedi ki, mənim övladlarım sizdən qanımı alacaqlar, indi cavab ver. Aruşanyan, əgər əlini tərpətsən, səni tikə-tikə edəcəyik. Artıq Aruşanyan hiss edirdi ki, tələyə düşüb. Şirin dilini işə salır: Ara, sən Qaçaq Nəsibsən? Nəsib təmkinini pozmadan: Bəli, mənəm. Məni sizin ədalətsizliyiniz bu dağlara salıb. Gecələr daşlar yastığım, buludlar yorğanım olub. İndi sən cavab ver, silaha əl atsanız özünüzü ölmüş bilin. Əllərinizi yuxarı qaldırın, yoxsa atəş açacağam. Artıq heç bir çıxış yolu olmayan Aruşanyan və müdafiəçiləri əllərini göyə qaldırmışdılar. Hər üçü atdan düşmüş, daş heykəl kimi dayanmışdılar. "İndi sağ-salamat qalmaq istəyirsinizsə, körpə nəvələrinizdən məhrum olmaq istəmirsinizsə, mən əmr edirəm, Aruşanyan sənə izn verirəm, müdafiəçilərinizin əllərini bağlayın, üçünüzdə bizimlə gedib atamın basdırıldığı yeri mənə göstərəcəksiniz, onu yerdən çıxarıb sonra sizi azad edəcəyik". Aruşanyana sanki yeni həyat bəxş etdilər. Tez hər iki müdafiəçisinin əllərini bağladı, özünün və onların silahlarını bir neçə metr kənara atıb: Hə, indi getmək olar – dedi. Kərbəlayi Səkinə möhkəm səslə: "Nəsib, heç birini öldürmə, əlini o murdarların qanına batırma" – dedi. Nəsib: Hə, indi gəl atamın yenicə soyumuş bədəninə bax, gör üç gün torpağın altında qalıb, ölümə can verməyib. Kərbəlayi Səkinə meyitə: "Ay oğul, səni qətlə yetirənlər indi ölmüş, soyumuş cəsədinin qarşısında baş əyirlər. Yox, yox çıxarın meyiti, üzünü qibləyə çevirin, qoyun bir dua oxuyum". Bunu deyib cibindən ülgüc çıxartdı, ağ saçlarını kəsib oğlunun buza dönmüş cəsədinin üstünə tökdü. "Oğul, qoy mənim bu ağ saçlarım da sənlə o haqq dünyaya getsin. İndi bil ki, sənə süd verən ana bax bu

gündən sənin qatillərinə aman verməyəcək. Axı ana üçün ən dəhşətli mənzərə oğlunun buza dönmüş cəsədinə baxmaqdır. Oğul, axı mən səni qodduz ay bətnimdə saxlayıb dünyaya gətimişdim ki, sən məni cənazəyə salıb məzara yollayasan. İndi sən xoşbəxtsən. Ona görə ki, sənin qatillərin sənin buza dönmüş cənazən qarşısında baş əyəcəklər. Oğul, indi səni mən özüm torpağa basdıracağam. Sənin gözünə torpaq tökəcəyəm, çünki sən torpaqda üç gün yaşamısan. Artıq sənin övladların indi cəmiyyət içərisində başlarını dik tutub gəzə bilərlər. Oğul, əgər sənin iki oğlun sənin cəsədini gavur torpağında qoyub, el-oba arasında görünsəydilər onda hamı onları danlayar, onlara nifrət edərdilər". Artıq gecikmək olmazdı. Hər üçünə əmr edir ki, diz çöksünlər. Hər üçü diz çöküb istədilər ki, əllərini və başlarını meyitə tərəf yaxınlaşdırsınlar. O tez: "Toxunmayın meyitə, o, müqəddəsdir, siz isə haram – deyə Kəblə Səkinə qışqırdı. Hə, indi meyiti götürün ata yükləyin. Sonra onlar Arana doğru hərəkət etdilər. Bu an üç qığılcım ay işığında parladı. Bunu Kəblə Səkinə görəndə elə bil ürəyində bir rahatçılıq duydu. Axı oğul qatili yerdə qan içində əziyyətlə öləndə ana bir qədər rahat olur. Artıq elə bil oğul ölmüş ana deyildi Kəblə Səkinə. Artıq atları məhmizləyir, buradan uzaqlaşmağa çalışırdılar. Gərək Xinzirəkdən xoruz banı keçək, gecikmək olmaz. Artıq dan yeri sökülürdü. Bir azdan günəş Tumac dağından boylanacaqdı. İki oğul, bir ana hər atın üstündəki cansız meyitə baxanda hər üçünün qəlbindən qara qanlar keçirdi. Lakin heç biri ağlamırdı. Elə bilirdilər ki, gözlərindəki yaşı görsələr, onlara irad tutarlar, qınayarlar. Axı günəş şüası insan üzünə düşəndə ilk dəfə nəmli gözlərin parıltısı sezilir və gecə qaranlığındakı gözdən süzülən yaşlar da parıldayır. Bunun üçün də hər üçü bir-birindən gizli gözlərini və üzlərindəki o göz yaşlarını təmizləmək istəyirdilər və bunu elə etmək istəyirdilər ki, o biriləri hiss etməsinlər. Elə ki, Xinzirək kəndini keçib Diş ağacına çatdılar, Kərbəlayi Səkinə günəşin yenicə öz şüasını Yazı düzünə səpələdiyi bir vaxtda üzünü Allah təalaya tutub: Allah, sənə şükür ki, sağ-salamat oğlumun meyitini öz torpağımıza gətirdik, düşmən ayağı altında qoymadıq – dedi. Oba əhli yığışıb Məmmədrəhimi dəfn etdilər. Bax, onda Nəsib bu torpağa, bu qəbrə and içdi ki, "ömrüm boyu düşmənlərdən intiqam alacağam". Elə həmin gündən Nəsibin yasdığı daş, yorğanı buludlar oldu. Adı isə Qaçaq Nəsib. Bütün ömrünü dağlarda, qayalarda keçirdi. İndi yenə şeytan yuvasındadır. Yenə nənəsi Kəblə Səkinə ilə, Qoqo Səmədlə

şeytan ovlağına hücum çəkirlər. Qəfəsə salınmış quş kimi narahatdırlar. Ürəkləri çırpınır. Anikin arvadı bir an da olsun gözünü Nəsibdən çəkmir. Elə bil o gözlər Nəsibi ovsunlamaq istəyir. Nəsib də bunu başa düşüb, ona görə Siranuşa baxmır. Bunun üçün də Siranuşun gözləri böyüyür, rəngi qıpqırmızı, lalətək qızarır. Bunların hamısını Kəblə Səkinə görür və dərk edirdi. Siranuş artıq dözmür, mətbəxə keçib, öz içərisində həyəcanını boşaltmaq üçün ağlamağa başlayır, hıçqırtısı otağı başına götürür. Kərbəlayi Səkinə tez mətbəxə keçib: -Hə, nə olub, özündən asılı olmayaraq – qızım, -dedi.

Bundan ürəklənən Siranuş Kərbəlayi Səkinənin hər iki əlini tutub: "Məni bağışla ana, mən dözə bilmirəm. Bax, onu, onu sevirəm. Mən onsuz bir dəqiqə belə yaşamaq istəmirəm. Bax, o iki körpəni öldür, o donuza oxşayan Aniki öldür, təki mən Nəsibin olum. Qabağınızda kəniz olaram. Bu nə bəla idi düşdüm. İlahi, mənə ölüm ver. Mən heç vaxt bu ayrılığa dözə bilmərəm". (F.Süleymanov)

Kərbəlayi Səkinə Siranuşu sakitləşdirib: Bir əncam çəkərəm, qızım – dedi. Onda gərək sən bizə yardımçı olasan. Siranuş sevincək: "Hə, lap mən də kişi paltarı geyinib türməyə gedərəm. Lap o köpək Aniki öldürüb açarları mən özüm götürüb sizinlə gedərəm. Təki razılıq verin. Elə bax o uşaqları da qoyaram burda". Kəblə Səkinə təmkinini pozmadan: Yox, uşaqların günahı nədi, onları da götürüb aparıb böyüdərik. Bu sözləri eşidən Siranuş Kəblə Səkinənin ayaqlarını qucaqlayıb, duz kimi yalamağa başladı.

Hə, indi sən bir az özünü ələ al. İndi mən uşaqlarla danışaram, hər şeyi həll edərik, heç narahat olma.

Kəblə Səkinə əllərini Siranuşun başına çəkib otaqdan çıxdı. Nəsib və Qoqo Səməd narahat idilər. Kəblə Səkinə içəri girən kimi hər ikisi ayağa durdu. Kiçik döşəkçədə Kəblə Səkinə oturub aramla sözə başladı: - Hə. Övladlarım. Hər bir düyümün açarı çox vaxt qadınlarda olur. Hər faciəni də qadınlar törədir. Böyük sərkərdələrə də qadın xəyanət edir. Bu gün də elə bil o günahsız qanlarımızın hesabına bu qadını Allah təala bizə göndərib. Bax, oğul Nəsib, bu erməni gəlini sənə elə vurulub ki, hətta o iki körpəsini də sənə qurban vermək istəyir. Gərək biz ondan məharətlə istifadə edək. Əgər biz ondan məharətlə istifadə etməsək, bəlkə də istədiyimizə nail ola bilməyəcəyik. Nəsib elə bil Kərbəlayi Səkinənin sözlərini eşitmir və gözlərini bir nöqtəyə dikib hey fikirləşirdi və gözünün qabağına hələ

uşaq vaxtı sevib seçdiyi qız gəlirdi. Axı o qızla əhdi-peyman bağlayıblar. Bir də atasının qatilini, gözəl anası Gülzarın qatilini sevmək, onu sevindirmək nə deməkdir. Axı hər gecə evə gedəndə kiçik Həyat və Hümmət: - Qaqaş, bəs Gülzarı niyə gətirmədin? –deyib Nəsibin boynunu qucaqlayıb ağlayırdılar. Körpənin göz yaşları Nəsibin üzünü isladırdı. İndi gəliblər qisas almağa, ancaq Əsli-Kərəm eşqi-məhəbbəti meydana çıxır. Nəsib isə axşamkı döyüşü qəlbindən keçirir. Axı on səkkiz nəfər, Zəngəzurun qartallarını sabah bu vaxtı Gorusun bazar meydanında güllələyəcəklər. Demək, Zəngəzurun düşünən beynini, vuran qolunu məhv etmək istəyirlər. Əgər bunları xilas etsək, Sarıqamışdan gələn o şeytanları məhv edərik ki, bu yazıq el-obanı qıra-qıra Qarabağa keçib, Azərbaycanı məhv etməsinlər. Axı bir neçə gün bundan öncə o, Kürdhacılıda olanda Sultan bəyin o məğrur, qartaltək baxışları ilə rastlaşmışdı. Onun gözlərində nədənsə bir narahatçılıq var idi. O, əlilə əlimi bərk-bərk sıxaraq, bir əlini çiynimə qoyub: - Hə, qardaşoğlu, düşmən çox məkrlidir. Bizimkiləri isə birləşdirmək olmur. Hərəmiz özümüzü bir ağa sayırıq. Gedin obaların yaxşı, qeyrətli oğlanlarını yığın, düşmənə qarşı ölüm-dirim müharibəsi aparmalıyıq. Demək, mən bu gecə on səkkiz nəfər igidi qurtara bilsəm, Sultan bəyin ətrafında birləşib, onunla birlikdə düşməni məhv edə bilərik. Birdən Siranuş içəri girib: - Hə, niyə durmusunuz, bizim padvalda çoxlu silah-sursat var, hamısını yükləyin atlara, gecə məhbusları aparanda onları da özümüzlə apararıq. Bu an Nəsib diksindı: - Sən hara gedirsən?

Mən də sizinlə. Mən bir an sizdən ayrı dura bilmərəm – deyib hönkürtü ilə ağladı. Kərbəlayi Səkinə əlini dodaqlarına aparıb sakitlik işarəsi verdi, sakit olmağı tapşırdı. Bundan istifadə edən Siranuş artıq sözləri hıçqırtı ilə deyirdi: Məni özünə kəniz apar, ömrüm boyu sənə qul olacağam, ancaq özünlə apar. Sakitcə Kərbəlayi Səkinə Siranuşun qolundan tutub: - Qızım, dur ayağa, sən də hazırlaş, səni də özümlə aparacağam – dedi. Nə etmək olar. Yəqin ki, taleh belə imiş. Axı sevənin nə dini, nə də imanı olar. Bütün insanlar millətindən asılı olmayaraq sevib-sevilə bilər. Siranuş tez bunları evin zirzəmisinə apardı. Orada həddindən çox silah-sursat var idi. Siranuş artıq kişi paltarı geyinib çox böyük həvəslə silahları bir yerə yığıb üç at yükü hazır etdi ki, mən də sizinlə getməliyəm. Mən bundan sonra Anik kimi bir donuzla bir yastığa baş qoya bilmərəm. Kərbəlayi Səkinə təmkinlə: Yox, qızım

sən hələ bizə burada lazım olacaqsan. Sən qal burada, biz çox çətin və ölümlü bir işə gedirik. Bir neçə gündən sonra mən özüm gəlib səni aparacağam. Qorxma.

Siranuş məzlum-məzlum Kərbəlayi Səkinənin üzünə baxıb göz yaşı tökdü. Düzü bu səhnəni görən Kərbəlayi Səkinənin ürəyindən qanlar axdı və nəvəsinin bu qədər boylu-buxunlu gözəl bir oğlan olması ilə fəxr etdi. Amma bu qızın vəziyyətinə acıdı. Ancaq nə etmək olar? Bunu Allah təala bizə köməyə göndərib – deyə fikirləşdi. Artıq qaranlıq düşür, hələ Anik gəlib çıxmır. Hər dəfə nəvəsi Nəsibi gördükcə Kərbəlayi Səkinənin ürəyindən qara qanlar axır. Axı bir neçə saatdan sonra ölüm-dirim müharibəsinə getməliyik. Kərbəlayi Səkinə hiss edirdi ki, artıq ürəyi dözmür, az qala yerindən çıxırdı. Birdən Anik içəri girdi. Evdə dünyalar qədər sevdiyi Siranuşu sağ görəndə elə bil dünyanı ona bağışladılar. Ancaq Siranuşu heç vaxt bu qədər gözəl görməmişdi. Axı o, həm gözəl geyinmişdi, həm də üzü lalətək qızarmışdı. Gözləri də o qədər böyümüşdü ki, elə bil dağlar maralı idi. Siranuş da hiss etdi ki, Anik şübhələnir, tez Siranuş Kəblə Səkinənin verdiyi ikinci torba qızılını çıxarıb göstərdi. Bax, Anik. Bu qızılları verdilər ki, bu əməliyyatı bu gecə yerinə yetirək. Özü də biz də buradan bu gecə çıxmalıyıq. Anik gah pula, gah da gözəl-göyçək arvadına baxır və bunun nə dərəcədə təhlükəli olmasını anlayan Siranuşun bir gündə necə dəyişməsini, necə gözəl olmasının səbəbini aydınlaşdırmaq istəyirdi. Tez Nəsib: - Hə, Anik, nə oldu, dillən. Sən tapşırığı yerinə yetirdinmi? Yoxsa, bu saat səni və gözəl-göyçək arvadınla birlikdə öz əllərimlə boğacağam. Anik tez: - Ara, ay dəli musurman, hər şey hazırdır. Məzhəb haqqı elə etmişəm ki, hamı öz adamlarımızdır. Ancaq hələlik köpək deyir ki, mən bu gecə burda qalacağam. Məlumat var ki, bəlkə bu gecə Qarabağın qubernatoru Xosrov adam göndərib qazamata basqın etdi, dustaqları apardı. Gərək aman verməyək. Artıq hər şey məlum idi. Nəsib bir qədər fikirləşdi və Kərbəlayi Səkinəyə üzünü tutub dedi: - Kərbəlayi bu silahlar yaxşı qənimətdir, sən onları yüklə Siranuş ilə çıxın yola, bizi Diş ağacının yanında gözləyin. Biz də dan yeri sökülməndə məhbusları çıxarıb orada olacağıq. Kərbəlayi bir qədər fikirləşib: Yox, oğul oralar qorxuludur. Biz dəlik daşdan keçib Laləzar körpüsündə sizi gözləyərik. Onda gəlin sizi Qurandan keçirim. Sonra siz gedəndən sonra biz də gələrik. Qoynundan Quranı çıxarıb Qoqo Səmədi və Nəsibi Quranın altından keçirtdi. – Di siz gedin, Allah təala amanınızda olsun.

Anik əlindəki bağlamanı Nəsibə uzadıb: Alın, bu jandarm paltarını geyinin və hərəniz də bir mauzer götürün. İndi biz getməliyik türməyə ki, güya Siz İrəvan uezdindən gəlmisiniz. Hər üçü türməyə tərəf getdilər. Kəblə Səkinə ilə Siranuş atları yükləyib Dəlik daşa doğru yollandılar.

ÜÇ NƏFƏR TÜRMƏYƏ TƏRƏF GEDİR.

Gecə saat on ikidir. Gorusun küçələri ilə üç nəfər hərbi geyimli adam irəliləyirdi. Bunlardan iki nəfəri ölümü, özü də mənalı ölümü gözünün altına alıb. Axı dünyada hər adamın axırı ölümdür, çünki daimi heç bir şey yoxdur. Mənalı ölüm! Xalqın, millətin uğrunda ölmək mənalı ölümdür! Vətən torpağı uğrunda ölən insan heç vaxt ölmür. Xalqın malını yığıb xarici banklarda saxlayan, gələcək nəslinə var-dövlət yığan adam elə diri ikən ölüdür. Bu gün bizim cəmiyyətdə dilənçi kökünə düşmüş millətin var-dövlətini xarici banklarda saxlayan adamlar görəsən niyə fikirləşmir ki, onların da bu fani dünyadan apardığı iki metr torpaq və on metr bez olacaq. O da qismət olsa. (F.S. “Anam niyə ağlayırmış”).

Üç nəfər türməyə tərəf addımlayır, türməyə yaxınlaşan zaman Nəsib Anikin yaxasından tutub: - Anik, bax ha, sənin dağlar maralı olan Siranuşun da mənim nənəmin yanında əsirdir. Bizim başımıza bir iş gəlsə, özün bil, ömürlük o gözəl çiçəkdən ayrılacaqsan, yox əgər əməliyyat baş tutsa, demək sənin qucağındadır. Bundan da yaxşı xoşbəxtlik nə olar? Özün bil!

Ara, ay Nəsib, sən nə danışırsan. Vallah mən də bu donuzların əlindən bezmişəm. Axı biz gor qonşusuyuq. Biz həmişə sizinlə dolanmışıq. İndi hər gün tanımadığımız, bilmədiyimiz adamlar gəlir, bizi də sizinlə düşmən edirlər.

Artıq türməyə çatmışdılar. Aniki görən türmə qaravulçuları ona təzim edir, hamı farağat vəziyyətdə dayanırdılar. Anik tez: - Hamınız hazırlaşın, yuxarıdan yoxlama gəlib. İndi məhbusları yoxlayırlar. Sonra sizinlə söhbətlər aparacaqlar.

Hər qapı açıldıqca qapının səsi qaranlıqda vahimə qoparırdı. Nəhayət axırıncı qapı açılanda iyirmiyə yaxın Zəngəzur qartalının oturduğu göründü. Hamısının əli qandallı idi. Cəbrayıl və İbadullah Nəsibi görəndə, ermənilərin onun qabağında necə əmrə tabe olduğunun şahidi olduqda gözlərinə inanmadılar, elə bildilər ki, yuxu görurlər. Ancaq Qoqo Səməd işarə verdi ki, bunların qollarını açsınlar. Onsuz da bunların ömrünə az qalıb. O saat dəmir zəncirlərin səsi otağa yayıldı. Anik əmr

verdi ki, bu məhbusları ayırıb hərəsini başqa-başqa kameraya salsınlar, o biri kamerada yatanları bura yığsınlar. Anik nə deyirdisə, hamısına əməl edirdilər. Artıq gecə saat üç idi. Gecikmək olmazdı. Nəsib Anikə dedi: -"Yola düşmək vaxtıdır" Artıq Nəsib iki mauzeri İbadullaya və Cəbrayıla vermişdi. Dörd nəfər artıq silahlı idi. Ancaq elə etməli idilər ki, burada olan türmə işçiləri bunları bilməsinlər. Bunun üçün Anik əmr verdi ki, bütüb silahlar növbətçinin otağına yığılsın və işçilər hamısı yığışıb bir otaqda dursunlar. Yuxarıdan gələn adamlar onlarla söhbət aparsınlar. Əsirlərin hansı minvalla güllələnməsini öyrədəcəklər. Nəsib Anikə dedi: Yox, bu qatilləri elə indi aparıb Dəlik dağın yanında güllələmək lazımdır. Hamı yığışdı. Yenə iyirmi nəfərin əli bağlı yola düşdülər. Onlar Gorusun yanından keçib çayın axını istiqaməti ilə Dəlik dağa doğru irəliləyirdilər. On beş nəfər həbsxana işçiləri, qalanları isə məhbuslar idi. Artıq şəhərin qutaracağındakı araba yoluna çıxmışdılar. Anik isə türmədə qalan növbətçiyə demişdi ki, Şosu dərəsində güllələyəcəklər. Anik onu da bilirdi ki, hər gün səhərə yaxın türmənin rəisi daşnaq Vartan gəlib yoxlayır. Lakin bu gün, yəqin ki, türməyə tez gələcək. Onun üçün tələsirdilər. Artıq Dəlik dağa az qalmışdı. Nəsib, Cəbrayıl, İbadullah, Qoqo Səməd və Anik silahları hazır tutub qəfildən Eyvazlıya az qalmış qaranlıq qobuda atışmağa başladılar. Ancaq nəzarətçilər bilmirdilər ki, əllərindəki silahın hamısının çaxmağı çıxarılmışdır. Qəflətən Anik əmr verdi "Dayanın!" Bütün həbsdə olan adamları sıraya yığıb erməni jandarmlarına bir daha əmr verdi: - "Silahları tuşlayın, bunları burada gəbərdəcəyik". Bu an daşnaq jandarmlar çoxdan belə fürsət gözləyirmiş kimi, tüfəngi məhbuslara qarşı tuşladılar. Boş çaxmağın səsi eşidildi. Ancaq bir anın içərisində Cəbrayıl, İbadullah, Nəsib, Qoqo Səməd və Anikin güllələri daşnaqları yerə sərdi. İzi itirmək üçün sürətlə axan Gorus çayına onların meyitini atdılar. İyirmi iki nəfər türk və bir erməni Dəlik dağdan keçib Eyvazlı kəndinin üst tərəfindəki qəbristanlığın yanında Bərgüşad çayının axını istiqamətində hərəkət etdilər. Davudlu kəndinə çatanda artıq gecə yarı idi. Hamı acmışdı. Birdən Cəbrayıl dedi: - Davudlu İbrahim bəyin evinə getmək lazımdır.

Gecə yarı İbrahimin qapısını döyəndə İbrahim kişi yoğun səslə: Kimsən?- dedi. Cəbrayıl: - Ə, aç qapını, Cəbrayıldı. İbrahim təəccüb etdi. Düzü səs Cəbrayılın səsi idi. Axı bəylərin bir neçə nəfəri Gorus uezdinin yanında olmuş və bu məhbusları güllələməməyi xahiş etmişdilər. Hətta hər bir məhbusu xilas etmək

üçün bir çanaq qızıl da boyun olmuşdular, lakin uezdin rəisi razılaşmamışdı. Bəs necə olmuşdu ki, bunlar sağ qalmışdır? Bir qədərdən sonra İbrahim bəy geyinib mauzerini çiyninə saldı və çölə çıxdı. Çoxlu adamların olduğunu görüb yenə soruşdu: - Ə, kimsiniz?

Cəbrayıl yenə dedi: - Qorxma, bizik, özümüzünkülərdir –deyib İbrahimlə qucaqlaşdılar. İbrahim tez nökərini çağırıb gecə ikən erkək kəsdirdi, qovurtdurub qonaqların hamısını yedizdirdi. Bir qədər rahatlanın, sonra gedərsiniz deyəndə Nəsib dilləndi: - Yox, bizi Laləzar körpüsündə gözləyəcəklər, xoruz banında orada olmalıyıq. Süfrə yığışdı, hamı bir nəfər kimi ayağa durub Laləzar körpüsünə tərəf getdi. Xoruz banı Laləzar körpüsündə Kərbəlayi Səkinə və Anikin yoldaşı Siranuşla görüşdülər. Kərbəlayi Səkinə hamısını bağrına basıb öpdü və dedi: - Artıq burada qalmaq qorxuludur. Təcili buradan aşmaq Güləbirdə və bu silahı Sultan bəyə aparmaq. Oradan da daşnaqların qarşısını kəsməlisiniz. Laləzar körpüsünü keçib Əliquluuşağı kəndindən Yazı düzünə çıxan dəstə iki yerə ayrıldı. Kərbəlayi Səkinə , Anik və Siranuş Təhlicəyə, Nəsib başda olmaqla silah yüklü atlılar Çoban kolundan enib Məzməzək kəndinə çatdılar. Məzməzək kəndində Abdulla oğlu Hüseynin evində dayanıb dincəldilər. Sonra Kürd Hacılı odasına – Soltanbəyin iqamətgahına çatdılar. Sultan bəy çox narahat idi. Axı ona xəbər gəlmişdi ki, artıq İbadullah və Cəbrayılı Gorus türməsində dünən güllələmişdilər, ancaq dəqiq xəbər tutmamışdı. Subh açılanda nökər Sultan bəyə xəbər gətirdi ki, bəy, Araz tərəfdən bir dəstə atlı gəlir. Sultan bəy isə çapar göndərdi ki, görsün bunlar kimdir. Çapar atı dörd nala çapıb öyrəndi ki, bunlar Cəbrayıl, İbadullah, Qoqo və Nəsibdir. Əmr etdi ki, hər birinin ayağı altında bir qoç qurban kəsilsin. Bax, həmin gün iyirmi qurban kəsildi. Sonra Zəngəzur qartalları birləşib Vətəni – Azərbaycanı, Qarabağı qorudular. (“Qana boyanmış Quran” kitabı F.S.)

XALQ QƏHRƏMANI SULTAN BƏY

Xalq qəhrəmanı Zəngəzur mahalının igid oğlu Sultan bəyin soy-kökü Zəngəzur qəzasının Qurdqajı (Kürdhacı) kəndi ilə bağlıdır. Pənahəli xanın XVIII əsrin ortalarında yaratdığı Qarabağ xanlığında 24 mahaldan biri Qaraçorlu adlanırdı. Pənahəli xan Sarıcalı Cavanşir boş bir sahə olan Qurdqajını Hacışamlı camaatının Qasımuşağı tayfasına verib. Xan onları Həmzə Sultan Qaraçorlunun

dördüncü oğlu Nəbi bəyə bağışlayıb. Qaraçorlu mahalının naibi vəzifəsinə isə Hacısamlı icmasından olan Həmzə Sultanı təyin edib. O, bir müddət mahala başçılıq edib. Vəfat etdikdən sonra oğlanları mahal başçıları olublar. Həmzə Sultanın dörd oğlu var idi. Fətəlixan, Fərzəli Sultan, Əsəd Sultan və Nəbi bəy. Həmzə Sultanın kiçik oğlu Nəbi bəy Qasımuşağı obasının rəhbəri idi. Oğlu Xanmurad bəy Qasımuşağı obasında doğulmuşdu. Yetkinlik yaşına çatanda görüb ki, Qarabağın azadlığı əldən gedir. Pənahəli xanın yurdu ruslar tərəfindn talan edilib, ermənilər fəallıq edirlər. Məcbur olub dağlara çəkilir.

Xanmurad bəyin Mehralı bəy, Şahmurad bəy, Əlipaşa bəy adlı oğulları və Mehribani xanım adlı qızı vardı. Əlipaşa bəy 1837-ci ildə Qasımuşağı obasında dünyaya göz açmışdı. Mədrəsə təhsili alıb maldarlıqla məşğul olmuşdu. Zərif, zarafatcıl kişi imiş. Ən yaxın dostu Bicənişli Aşıq Abbas imiş. Əlipaşa bəy Qarabağın Pərioğlular bəyliyindən Bəyim xanımla evlənmişdi. Sultan bəy, Rüstəm bəy, Xosrov bəy İsgəndər bəy adlı dörd oğlu və Atlas xanım adlı bir qızı olmuşdur.

Zəngəzurda vətənpərvərliyi, səxavəti və mərdanəliyi ilə hörmət və şöhrət sahibi olmuş Sultan bəy Əlipaşa bəy oğlu 1871-ci ildə Zəngəzur qəzasının Qasımuşağı obasında (Kürdhacılı kəndində) anadan olmuşdur. Əlipaşa bəy uşağa özünün ana babasının Əsəd Sultanın adını qoyub. Get-gedə uşağın adındakı Əsəd unudulub Sultan qalıb. Hamı onu Sultan bəy çağırırmış. O, böyüyəndə anasına oxumaq istədiyini bildirir. Bəyim xanım oğlunun istəyini atasına çatdırıb. Əlipaşa bəy obalarının savadlı adamı olan Molla Xudaverdi Tanrıverdi oğluna balaca Sultana dərs verməyi tapşırıb. Bir neçə ildən sonra Əlipaşa bəy oğlunu Şuşa qəza məktəbinə göndərib. Sonra o, Gəncə şəhərində gimnaziyada təhsilini davam etdirib. Oranı bitirəndən sonra isə Sank-Peterburq şəhərinə gedib. Orada Hərbi Akademiyaya qəbul olub. Lakin o, təhsilini yarımçıq qoyub doğma Laçına qayıdıb. Sultan bəy böyük mülk sahibi Teymur bəyin qızı Dilruba xanımla ailə qurub. Onun Ənvər bəy, Çingiz bəy, Yusif-Kamal bəy adlı oğlanları və Bəyimxanım adlı qızı olub. Sultan bəy öz obasında əvvəlcə maldarlıqla məşğul olub. Yerli və xarici cinsdən olan çoxlu inək alıb, dağlarda bəsləyib. Ata-baba peşələri olan qoyunçuluğu daha da inkişaf etdirən Sultan bəy yağ-pendir zavodu tikdirib. O, maldarlıqla yanaşı meşəçiliklə də məşğul olub. Hacısamlı meşələrində taxta istehsal edib, xarici bazarlarda satıb. Sovet dövlət xadimi Nəzər Heydərov

Cəsur qardaşlar

"Zəngəzur dağlarında" əsərində Sultan bəyin meşəçiliklə bağlı fəaliyyətindən də bəhs edir.

Onun təsərrüfatla məşğul olduğu vaxtlardan – 1905-ci ildən erməni vəhşilikləri başlamışdır. Türklərə potensial düşmən olan ermənilər çar məmurlarının dəstəyi ilə qanlı qırğınlar törətmişdilər. Qoca qarı, xəstə və uşaq olmasının fərqinə varmadan, yalnız türk olduqlarına görə əllərinə keçənə işgəncə verən ermənilərə qarşı mübarizəyə başlayan Sultanovlara Əlipaşa bəy başçılıq etmişdir. Əlipaşa bəy nəinki Zəngəzur qəzasının, hətta Qarabağın və Şuşa şəhərinin də müdafiəsinə qalxmışdı. Onun ən yaxın köməkçisi isə böyük oğlu Sultan olmuşdu. 1905-1907-ci illərdə erməni vəhşiliyinə qarşı apardığı qorxmaz mübarizə onu el qəhrəmanına çevirmişdi. Əlipaşa bəyin ikinci oğlu Rüstəm bəy neft sənayesində çalışırdı. Əlipaşa bəyin üçüncü oğlu Xosrov bəy ali-təhsilli həkim idi. AXC dövründə Azərbaycanın ilk hərbi naziri, sonra ikinci hökümətdə əkinçilik naziri və 1919-cu ilin 15 yanvarından isə Qarabağın general-qubernatoru olmuşdur. Əlipaşa bəyin dördüncü oğlu İsgəndər bəy öz obasında yaşamış, maldarlıqla məşğul olmuşdur.

Mir Mövsüm Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində Əlipaşa bəy Xanmurad bəy oğlunun və dəstəsinin erməni quldurlarına qarşı apardıqları mübarizədən geniş bəhs edilib. Erməni hücumlarının qarşısını almaq üçün Bicənis müsəlman kəndindən və başqa kəndlərdən 300 nəfərə qədər igid və qeyrətli cavan toplayan Əlipaşa bəy o vaxt ermənіləri yerində oturtmuşdu.

1914-cu ildə başlayan I dünya müharibəsi və 1917-ci il inqilabları ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları üçün əlverişli şərait yaratmış oldu. 1918-ci ilin martında erməni quldurları Bakıda misilsiz soyqırım törətdi. Aprel-may aylarında erməni-bolşevik quldurları qəzalara hücum edirlər. Onlar Şamaxıda, Qubada, Lənkəranda və başqa bölgələrdə daha kütləvi qırğınlar törətdilər. Bu zaman Sultan bəy yenidən Zəngəzur bölgəsində azğınlaşmış erməni quldurlarına qarşı mübarizə meydanına atıldı. Sultan bəyin torpaqlarımızın qorunması uğrunda göstərdiyi qəhrəmanlığın növbəti hissəsi 1918-ci il hadisələri ilə bağlıdır. Ulu öndər Heydər Əliyev 1996-cı il martın 6-da Laçın və Şuşa ictimaiyyəti ilə görüşü zamanı demişdi: - "Burda Sultan bəyin adı çəkildi. O, cəsur bir qəhrəman olub".

Erməni ordusunun komandanı Andranik nə yolla olursa-olsun, öz silahlı qüvvələrini Gorus, Laçın və Şuşa istiqamətindən Qarabağa daxil etmək istəyirdi. Xosrov bəyin Qarabağın general-qubernatoru təyin edilməsini eşidən Andranik Sultan bəyin qorxusundan Qarabağa keçə bilməyəcəyini yəqin etdi. Buna görə də hiyləyə əl atır. Sultan bəyin kirvəsi Saşa adlı ermənini bir neçə nəfərlə Sultan bəyin yanına danışığa göndərir ki, bəy bizdən nə qədər qızıl istəyirsə verməyə hazırıq, ancaq o Qarabağa keçməyimizə icazə versin. Oradakı ermənilərin təsərrüfat işlərinə kömək etmək istəyirik.

Sultan bəyin isə gizli planlardan xəbəri var imiş. Qardaşı Xosrov bəy onu Andranikin Qarabağa keçmək cəhtindən xəbərdar etmişdi. Sultan bəy Saşanı aldadaraq xəbər verir ki, biz bir-birimizi neçə illərdi tanıyırıq, kirvəlik edirik. Bizim aramızda heç bir qızıl və yaxud alver sözü ola bilməz. Mən Andranikin çoxmilli qoşununu silahla buradan buraxsam camaat mənə nə deyər? Xosrov qardaşım olsa da hökümət adamıdır. Dəliqanlı cavanlardan ehtiyat edirəm, bilsələr qarışıqlıq salarlar. Gərək mən təyin etdiyim adamların iştirakı ilə bütün silah və sursat sökülüb atlara, qatırlara və arabalara yüklənsin. Səhər alaqaranlıqda buradan elə keçsinlər ki, heç kimin xəbəri olmasın. Bizim adamlar Qala dərəsinə qədər bələdçilik edərlər.

Andranik isə gizli yolla Şuşa ermənilərı ilə danışmışdı ki, o gecə vaxtı Şuşaya çatacaq, qala qapısını açsınlar ki, o sakitcə Şuşaya daxil ola bilsin.

Sultan bəy Zabux çayından Qaladərəsinə qədər on beşə qədər silahlı dəstədən ibarət pusqular düzəldir. Beləliklə, Andranikin əliyalın qoşunu soyuq qış gecəsində qəflətən hər tərəfdən hücuma məruz qalır. Yoldan kənarda qərarlaşmış döyüşçülər iri qayaları yellədərək onların üstünə tökür və yolu bağlayırdılar. Bir günlük qanlı döyüşdə Andranikin 30 minlik qoşunu məhv edilir. Silah yüklü arabalar, atlar və qatırlar ələ keçirilir. Döyüş zamanı Andranik demək olar ki, bütün qoşununu itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapır. Döyüş gedən dərə bundan sonra xalq arasında "Qanlı dərə" adlandırılır.

Sultan bəyin igidliyi sayəsində Qaragöl ətrafında toplanan çoxsaylı erməni silahlıları məğlub edilmiş və onlardan 600 nəfər əsir alınmışdır. İrana keçmək istəyən yüzlərlə erməni silahlısı Araz çayı yaxınlığında məhv edilmişdir. Zəngəzurda onlarla kənd erməni silahlılarından təmizlənmişdir. Bu

məğlubiyyətdən sonra daha da azğınlaşmış Andranik Azərbaycanın bu bölgəsində daim sabitliyi pozmaq, Zəngəzur və Qarabağ torpaqlarını işğal etmək üçün bolşevik Rusiyasının dəstəyi ilə yeni silahlı qruplar yaratmışdı. Bütün bunlara baxmayaraq, Andranikin öz daşnaq ordusu ilə Laçının Zabuq dərəsində Sultan bəy tərəfindən sarsıdıcı zərbə almaqla məğlubiyyətə uğraması ilə onun Qarabağı, sonra isə Gəncəni tutmaq, S.Şaumyanın bolşevik-daşnaq hərbi hissələri ilə birləşərək, Şimali Azərbaycanda erməni hakimiyyətini qurmaq planı məhv olmuşdu. Sultan bəyin və Qarabağ general-qubernatoru Xosrov bəyin xalqımız qarşısında xidmətləri misilsizdir. Onlar yalnız Zəngəzur və Qarabağın deyil, Kəlbəcərin, Basarkeçərin və digər ərazilərimizin də erməni quldurlarından qorunmasında hünər və qeyrət göstərmişlər.

1920-ci ildə Azərbaycanda Sovet imperiyası öz hakimiyyətini qurdu. Bu vaxtdan etibarən Azərbaycan bəyləri öz vətənlərində qaçaq vəziyyətdə yaşamağa başladılar. Sultan bəy Sovet hakimiyyətindən qaçaq vəziyyətində Kürdhacı kəndində "Gorgahat"ın meşəsində gizlənirdi. Ermənilərin hiylələri ilə bolşeviklər Sultan bəyə yeni sui-qəsd hazırlayırdılar. Yaranmış vəziyyətin mürəkkəbliyini dərk edən Sultan bəy Azərbaycan İnqilab Komitəsinə müraciət edib. Buradan ümüdverici cavab almadığına görə o, İran şahına üz tutur. İranda Rusiyanın və erməni casuslarının çox və qüvvətli olmasına baxmayaraq şah Sultan bəyin müraciətini qəbul edib. Sultan bəy qardaşları Xosrov bəy və İsgəndər bəylə düşməndən qoruduğu vətəndən mühacirət etməli olub.

Sovet İmperiyasının göndərdiyi xüsusi casuslar İranda da at oynadırdılar. Tez-tez qətillər törədirdilər. Göndərilmiş xüsusi casuslar Sultan bəyin qardaşı İsgəndər bəyi öldürdükdən sonra vəziyyətin pis olduğunu görən İran şahı təhlükəsiz həyat şəraitini təmin edə bilmədiyi üçün Sultan bəyə Türkiyə dövlətinə müraciət etməyi məsləhət görüb. Türk dövləti 1923-cü ildə Sultan bəyi və qardaşı Xosrov bəyi rəsmi keçidlə qarşılayıb. Mustafa Kamal Atatürkün Sultan bəyə böyük hörməti olub. Ona Qars vilayətinin Köçqoy kəndində mülk və malikanə verilərək təhlükəsiz həyat şəraiti yaradılmışdı.

Sultan bəy 1955-ci ildə Köçqoy kəndində vəfat etmişdir. Bu barədə Türkiyə radiosu belə bir məlumat yayıb ki, "Tacirlər-taciri Sultan bəy 1955-ci ildə vəfat etdi. Tanrı ona rəhmət etsin".

Sultan bəy mühacirətdə olarkən onun ailəsi olmazın müsibətlər çəkib. 1923-cü ilə qədər onlar Sultan bəyin Ağdamda olan mülklərinin birində qohumların himayəsində yaşayıblar. 1930-cu ildə qardaşı Rüstəm bəy ailəni Bakıya gətirib. Otuz yeddinci illərin həyəcanlı gecələrinin birində qapı döyülür, NKVD-dən gələnlər onlara bildirirlər ki, evdən heç nə götürmədən həbs olunursunuz. 1937-ci il noyabrın 2-dən 3-nə keçən gecə Sultan bəyin ailə üzvləri, Leninqraddan yenicə qonaq gəlmiş qızı Bəyim xanım və hələ bir yaşı tamam olmamış uşağı həbs olunurlar. Əvvəlcə Bayıl türməsinə, oradan Gəncə türməsinə və bir ay sonra isə Qazaxıstana sürgün olunurlar. Onlar evdən yalnız yatacaq, bir də Sultan bəydən yadigar qalan Quranı və balaca xurcunu götürə bilirlər. Sultan bəyin arvadı, üç oğlu və bir qızı 1956-cı ilə qədər Qazaxıstanda sürgün həyatı keçirdikdən sonra Azərbaycana gələ bilmişlər.

İndiyə qədər Sultan bəy və qardaşı Xosrov bəy haqqında geniş tədqiqat işi və araşdırma aparılmamışdır. Azərbaycan Dövlət Arxivində və yazılı ədəbiyyatda məlum səbəblərdən Sultan bəy haqqında geniş materiallar daha çox yaşlı nəslin nümayəndələrinin söhbətləri və qeydləri əsasında toplanmışdır.

IV FƏSİL

XX ƏSRDƏ ERMƏNİ CANİLƏRİNƏ DİVAN TUTAN SULTAN BƏY ŞƏXSİYYƏTİ

Ənvər Çincizoğlu yazır: “Sultanlıq soydan gəlir” adlı kitab üzərində işləyirəm. Bu kitab Laçın bölgəsində adını tarixə yazdıran Sultan bəy və onun əsli-nəsli haqqındadır.

Sultan bəy Laçın bölgəsinin qəhrəman oğludur.

Bir az Laçın haqqında.

Laçın Azərbaycanın ən dilbər güşələrindən biridir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa, Xocavənd, cənubdan Qubadlı, qərbdən isə Gorus, Sisian (Qarakilsə) rayonları ilə həmsərhəddir. 1992-ci ilin 18 mayınadək o dağların qoynunda 60 min nəfər əhali yaşayırdı. 125 kənddən ibarət olan Laçın həm təbiət etibarilə, həm də qiymətli tarixi memarlıq abidələrinə görə respublikamızın ən

zəngin rayonlarındandır. Laçın rayonunda 54 dünya və yerli əhəmiyyətli tarixi və mədəniyyət abidələri qaldı.

Ötən əsrin 1905-1907, 1915-1918-ci illərində də ermənilər Laçına hücum etmiş, oranı ələ keçirməyə çalışmışlar. Lakin həmişə daşnaqların qarşısı Laçın dağlarında, gədiklərində alınmış, onlar öz istəklərinə çata bilməmişdi. Xüsusilə də xalq qəhrəmanı Sultan bəy Muradovun igidliyi nəticəsində ermənilər ağır itki vermişlər. Sovet hakimiyyəti qurulduqdan sonra Zəngəzur iki yerə parçalandı. Böyük bir hissəsi (Qarakilsə, Gorus, Mehri, Qafan) qondarma Ermənistan dövlətinə verildi. Zəngilan, Qubadlı, Laçın Azərbaycanın tərkibində qaldı. Bununla da həm böyük bir mahalın – Zəngəzurun sinəsinə çalın-çarpaz dağ çəkildi, həm də qədim Naxçıvan öz doğma anasından – böyük Azərbaycandan aralı düşdü. Əslində Sovet hakimiyyəti ermənilərin arzularının böyük bir qismini gerçəkləşdirmiş oldu. Azərbaycan torpaqları üzərində hayların ilk dəfə rəsmi olaraq Ermənistan adlanan dövləti yaradıldı. Amma torpaq iddiasında olan naməd ermənilər "Böyük Ermənistan" xülyasını həyata keçirmək üçün hər an fürsət gözləyirdilər.

İndi isə Sultan bəy haqqında.

Bəzi müəlliflər Sultan bəyi Kürdhacı kəndi ilə bağlayırlar. Kürdhacı kəndi XVII yüzildə boş sahə olub. Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir bu sahəni Xorasan əyalətindən gəlmiş Hacısamlı camaatının Qasımuşağı tayfasına verib. Həmin tayfa orda binə bağlayıb. Xan onları Həmzə Sultan Qaraçolunun döndüncü oğlu Nəbi bəyə rəiyyət kimi bağışlayıb. Nəbi bəyin Xıdır bəy adlı oğlu, Xıdır bəyin Xanmurad adlı oğlu, Xanmurad bəyin Əlipaşa bəy adlı oğlu var idi.

Sultan bəy də məhz Əlipaşa bəyin oğlu olub və 1871-ci ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında doğulub. Molla yanında oxuyub, mədrəsə təsil alıb. Böyük mülkədar olub.

Sultan bəyin yaşam yolu haqqında özəl araşdırmamız var. Həmin araşdırmadan.

1871-ci ildə Zəngəzur qəzasının Qasımuşağı obasında (Hazırkı Laçın bölgəsinin Kürdhacı kəndində), Əlipaşa bəyin ocağında bir oğlan üşağı dünyaya göz açdı. Qohum-qəbilə, tanış-biliş, yaxın-simsar yığılıb gözaydınlığına gəldilər. Adqoydu mərasimində hərə bir isim təklif etdi. Ağsaqqallar bildirdilər ki, ata ad qoysa xeyirdir. Əlipaşa bəy uşağa özünün ana babası Əsəd Sultanın adını verdi.

Yer-yerdən "mübarəkdi", "Allah xeyir versin", "Adı ilə böyüsün" nidaları eşidildi. Toplananlar bişirilənlərdən yeyib-içib dağıldılar.

Get-gedə uşağın adındakı Əsəd unudulub, Sultan qaldı. Obada hamı onu Sultan bəy çağırırdı. Sultan böyüyüb anası Bəyim xanıma oxumaq istədiyini bildirdi. Bəyim xanım oğlunun istəyini atasına çatdırdı. Əlipaşa bəy obalarının savadlı adamı Molla Xudaverdi Tanrıverdi oğlunu çağırıb, balaca Sultanı öyrətməsini tapşırdı. Sultan bəy beləcə bir neçə il Molla Xudaverdidən "əlif-bey"i öyrəndi. Sonra atası onu Şuşa şəhərinə, qəza məktəbinə göndərdi. Sultan bəy öncə qəza məktəbində, sonra Gəncə şəhərində gimnaziyada oxudu. Orta təhsilini tamamlayıb, Sank-Peterburq şəhərinə yollandı. O dövrün ən ünlü hərbi məktəbinə, Sank-Peterburq Hərbi Akademiyasına daxil oldu. O, bu təhsil ocağını tamamlaya bilmədi. Bu natəmamlığın bir neçə səbəsi var idi. Kimi deyir ki, Sultan bəy qiymət üstündə müəllimlə mübahisə edib. Akademiyanın müəllimləri yüksək çinli zabitlər, müdavimləri isə əsgər sayılırdılar. Əsgərin zabit üzünə qayıtması böyük suç sayılırdı. Kimi isə bildirir ki, atası Əlipaşa bəy Xanmurad bəy oğlunun xahişi ilə Akademiyanı yarımçıq buraxıb geri, doğma vətənə dönmüşdü.

Sultan bəy doğma yurda, Qasımuşağı obasına qayıdıb əmək fəaliyyətinə başlayır. Öncə maldarlıqla məşğul olur. Yerli və xarici cinsdən çoxlu inək alıb dağlar qoynunda, çəmənlərdə bəsləyir. Bu qarışıq cins sonralar "Hacısamlı" adlanır. Dədə-baba peşələri olan qoyunçuluğu daha da inkişaf etdirən Sultan bəy Yağ-pendir zavodu tikdirir. Sultan bəy maldarlıqla yanaşı, meşəçiliklə də məşğul olmağa başlayır. Hacısamlı nahiyəsinin ərazisində olan meşələrdən taxta istehsal edib xarici bazarlarda satır. Ünlü Sovet Dövlət xadimi Nəzər Heydərov "Zəngəzur dağları" adlı xatirəsində yazır. "Sultanovlar qiymətli Hacısamlı meşələrini muzdurlara qırdırıb xaricə, Fransaya göndərirdilər"

Sultan bəyin milli qəhrəmana çevrilməsi 1905-ci il hadisələri, erməni olayları ilə bağlıdır. Müsəlmanlara, türklərə potensial nifrət edən ermənilər çar məmurlarının dəstəyi ilə qanlı qırğınlara başlayırlar. Qoca, qarı, xəstə, uşaq demədən, yalnız türk olduqlarına görə əllərinə keçəni şişə taxan ermənilərə qarşı mübarizəyə başlayan Sultanovlara Əlipaşa bəy başçılıq edirdi. Əlipaşa bəy nəinki Zəngəzur qəzasının, hətta Şuşa şəhərinin də müdafiəsinə qalxmışdı. Bu haqq işdə onun ən yaxın yardımçısı böyük oğlu Sultan bəy idi.

TARİXÇİ MİR MÖVSÜM NƏVVABIN YAZDIQLARI.

Səsli tarixçi və təzkiräçi Mir Möhsün Nəvvab «1905-1906-cı illərdə erməni-müsəlman davası» adlı əsərində Əlipaşa bəy Xanmurad bəy oğlunun və dəstəsinin erməni quldurlarına qarşı apardıqları mübarizədən geniş bəhs edib. Həmin əsərdən qeydləri ixtisarla yazımıza köçürürük. Müəllif yazır: «Piçənis müsəlman kəndindən və başqa müsəlman kəndlərindən 300 nəfərə qədər igidlər və qeyrətli cavanlar toplaşaraq Paşa bəy Murad bəy oğlunun sərkərdəliyi ilə atlanıb, Minkəndin üzərinə yeridilər. 160 evdən ibarət olan bu kəndin yarısı müsəlman idi. Paşa bəyin dəstəsi ermənilərin bir qismini öldürdülər və yaraladılar, bir qismi isə qaçıb, dağıldılar. Piçənisli müsəlmanlar bu kənddən qənimət kimi 190 baş qoyun, 70 baş at və qatır apardılar. Bundan sonra onlar 200 evdən ibarət olan Xoznavar kəndinə hücum etdilər. Paşa bəyin dəstəsi bu kəndə də böyük zərbə vurub, qənimət kimi özləri ilə 1010 baş qoyun və 8 at apardılar.

Bir-iki gün keçdikdən sonra həmin dəstə üç yüz erməni evi olan Əliqulu kəndinə hücum etdilər Onlar həmin kəndin bir tərəfindən daxil olaraq onu yarıya qədər dağıtdıqdan sonra əldə etdikləri qənimətlərlə geri döndülər.

Paşa bəyin dəstəsi bir gecə dincəldikdən sonra sabahısı günü Qaladərəsi kəndinə tərəf üz qoydular. Qaladərəsində yaşayan ermənilər qabaqcadan yaxşı silahlanmış və hər tərəfdə səngər qurmuşdular. Onlar Paşa bəyin dəstəsini səngərlərdə silahlanmış, hazır vəziyyətdə qarşıladılar. Bir qədər atışmadan sonra Paşa bəyin dəstəsinin bir hissəsi kəndin kənarında yerləşən 23 evi ələ keçirərək oradan 450 qoyun, 60 qaramal və dörd quyu buğda əldə etdilər. Buğdanı atlara yükləyərək mal-qoyunla birlikdə yola düşdülər. Onlar Qaladərəsi kəndindən uzaqlaşanadək Paşa bəyin dəstəsinin o biri hissəsi ermənilәri məşğul etdilər.

Paşa bəyin dəstəsi bir neçə gün istirahət etdikdən sonra atlanıb, Cavanşir tərəfə hücum etdilər. Əvvəlcə 150 evdən ibarət olan Külədik kəndinin üstünə gəldilər. Ermənilər əllərində silah onların qarşısına çıxdılar. Müsəlmanlar «Ya Allah» deyib ermənilərin üstünə töküldülər və bir neçə saat ərzində onlardan yüz nəfərin qətlə yetirdilər. Bununla bərabər, neçə-neçə yaralananları da var idi. Bundan sonra onlar 250 baş heyvan da qənimət götürüb evlərinə qayıtdılar. Müsəlman kəndləri həmin gecə istirahət etdikdən sonra səhərisi yenə də atlandılar. Bu dəfə onlar 60 erməni evi olan Damğalı kəndinə üz qoydular. Onların az

olmasına baxmayaraq Paşa bəyin dəstəsinin qarşısına çıxaraq atışmağa başladılar. Müsəlmanlar onların üzərinə hücum edərək karıxdırıb və 90 nəfərəcən ermənini qətlə yetirdilər. Yaralananlar da çox idi. Bundan sonra onlar 200-ə yaxın qaramal və keçi qənimət götürərək geri qayıtdılar. Oradan Badara kəndinin üstünə gəldilər. Bu qorxmaz dəstə orada da 16 nəfər erməni öldürdükdən sonra 60 baş qaramal qənimət götürərək kəndlərinə qayıtdılar.

Gecə yatıb, istirahət etdikdən sonra səhər durub, atlarını yəhərləyərək atlandılar və Ballıca kəndinin üstünə hərəkət etdilər. Ermənilər onları hazır vəziyyətdə qorxulu qarşıladılar. Atışma başlandı. Hər iki tərəfin səs-küyü və nərələri dağa-daşa səs salmışdı. Bir qədər atışandan sonra müsəlmanlar 30 nəfər erməni öldürüb, neçəsini də yaraladıqdan sonra qənimət kimi 70 baş qaramal, 12 baş at və çoxlu miqdarda əşyalar əldə edərək geri qayıtdılar.

Səhəri günü Paşa bəyin dəstəsi Xənəzək kəndinə hücum etdi, bu hucumdan əvvəl ermənilər öz ağaları Məmməd ağa Ataxan oğluna nankorluq edərək evini dağıtmış, bağını qırıb, çobanlarını öldürmüşdülər. 400 baş qoyununu isə yığıb aparmışdılar. Buna görə də ermənilər yəqin etmişdilər ki, müsəlmanlar bunun əvəzini çıxacaqlar. Odur ki, kəndə Qaladan çoxlu silah və kömək gətirmişdilər. Müsəlmanların gurultusu eşidilən kimi onlar səngərə, övrət-uşaq isə gizli yerlərə çəkilib çığırışdılar. Müsəlmanlar onları hər tərəfdən mühasirəyə alaraq güllərbaran etməyə başladılar.

Səhəri gün Paşa bəyin dəstəsindən səkkiz nəfər seçmə cavan atlanaraq Dəduq kəndinə tərəf çapdılar. Dəduq kəndinin ətrafında yerləşən dörd ev çox əmin və möhkəm yerdə durmuşdu. Ona görə də burada çoxlu erməni məskən salmışdı. Müsəlmanlar ermənilərin bu evlərdə tutduğu möhkəm möqeyi dağıtmaq üçün hündür bir yerə çıxaraq oradan bu evləri gülləbaran etməyə başladılar. Onlar dörd-beş nəfər qaçmağa başladılar. Müsəlmanlar qaçanları təqib edərək atəşə tutdular. Onlardan bir neçəsini öldürdülər, bir neçəsini də yaraladılar. Sonra evlərə qayıdıb orada olan əşyaları qənimət kimi götürdülər, ermənilər isə əsir kimi apardılar.

Bu olaylar barəsində Zəngəzur qəza polis rəisi rotmistr Fon-Menzenkampf öz raportunda yazırdı: «Xoznavar və Xənəzək kəndlərinə basqında iştirak edən camaatlar: Şahsuvarlı, Qarakişilər, Bayandur, Malıbəyli, Piçənis və Seyidlər. Xalq bu hərakatın başçılarını nişan verir: xoznavarlılardan (Xoznavar qarışıq kənddir)—

Camal bəy Həzrətqulubəyov, Əsgər bəy Rüstəmbəyov, Mənsum Məmmədyar oğlu, qarakişilərdən, Sadunlılar –Məşədi Hüseyn Allahverdi oğlu, Süleyman Kərbəlayi Yusif oğlu, Həmzə Kərim oğlu, Rüstəm Əhməd oğlu, şahsuvarlılardan—Mollaəhmədli Fərəc Aşıq Salman oğlu, Kərim Ağakişi oğlu, Hüseynxan Tanrıverdi oğlu, Ələkbər Məşədi Mövlan oğlu, bayandurlulardan, Bayandur kəndindən—Molla Məhəmmədnuru Xudaverdi oğlu, Rüstəm Cavad oğlu, Nəcəfqulu və Həzi Kərbəlayi Həşim oğulları, Malıbəylidən—Nağı və Tağı Hüseyn oğulları (Nağı 2-ci sahənin pristavı Məlikaslanovun xidmətçisidir, özünün dəstəsi var), Adil bəy Xanlar bəy oğlu, Sarı bəy Sultanov, Xasay bəy Abdulla bəy oğlu, piçənislilər, Qasımuşağı kəndindən—Sultan bəy Muradov və qardaşı Iskəndər bəy Muradov, seyidlər camaatından, Seyidlər-Alxaslı kəndindən, - seyidlər: Seyid İbrahim Seyid Məmməd oğlu və «Cahad»a başçılıq edən Seyid Salman…»

Bəllidir ki, Sultan bəy bir zamanlar Muradov soyadını daşıyıb. Babası Xanmurad bəyin adından götürülən bu familyanı hazırda törəmələri daşıyırlar.

SULTAN BƏYİN QƏHRƏMANLIĞININ İKİNCI HİSSƏSİ 1918-Cİ İL OLAYLARI İLƏ BAĞLIDIR.

Zəngəzur ərazilərində məskunlaşdırılmış ermənilər, azərbaycanlılara qarşı qırğınlar törətməyə, qəzada say baxımından üstün olmağa, beləliklə də bu torpaqlara yiyələnməyə çox ciddi şəkildə cəhd göstəriblər.

Şimali Azərbaycanda, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra ermənilərin düşmənçilik siyasəti daha da gücləndi. Qarabağı və Zəngəzuru mənimsəmək üçün ərazi iddiaları onların törətdikləri kütləvi qırğınlarla müşahidə olunmağa başladı. Bu qırğınlar Laçın bölgəsinin bütün ərazilərində daim müşahidə olunurdu. Erməni ordusunun komandanı Andronik nə yolla olursa- olsun öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa daxil olmaq, oranın erməni əhalisini Azərbaycan hökumətinə qarşı qaldırmaq, təxribatlar törətmək və bölgədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə Andronik bir neçə minlik ordu ilə Zabux kəndini keçərək Laçın istiqamətində irəliləməyə başladı. Bu məsələdən əvvəlcədən xəbər tutan, bölgənin nüfuz sahiblərindən biri, Qarabağın general qubernatoru Xosrov bəy

Sultanovun qardaşı Sultan bəy, öz partizan dəstəsi ilə Laçın-Zabux yolundakı bir dərədə pusqu quraraq Andronikin qoşununu mühasirəyə saldı. Burada təqribən bir günlük çox qanlı döyüşlər getdi. Bu döyüşlər zamanı general Andronik demək olar ki, bütün qüvvəsini itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapdı. Dərə bu döyüşdən sonra xalq arasında "Qanlı dərə" adlandırıldı. (Bu yazıdakı məlumatlar internetdən götürülüb).

Bu məğlubiyyətdən sonra daha da azğınlaşan erməni generalı Andronik Azərbaycanın bu bölgəsində daim sabitliyi pozmaq, Zəngəzur və Qarabağ torpaqlarını işğal etmək üçün Rusiyanın maliyyə dəstəyi ilə yeni-yeni silahlı qruplar yaradırdı.

Andronik öz quldur dəstəsi ilə Zəngəzura hücum edib 50 türk-müsəlman kəndini dağıtmış, onların 60000-dən çox dinc əhalisini dədə-baba torpaqlarından qaçqın salmışdı. Həmin əhali Cəbrayıl və Cavanşir qəzalarında özlərinə sığınacaq tapmışdılar. Andronik öz quldurları ilə Laçının Zabux dərəsindən Qarabağa-Şuşaya soxulmağa cəhd edərkən Qarabağın adlı-sanlı nəslindən olan Sultan bəy Əlipaşa bəy oğlu Muradov tərəfindən ağır sarsıdıcı zərbə alaraq, məğlubiyyətə uğradı. Bu qələbə nəticəsində Andronikin Qarabağı, sonra isə Gəncəni tutaraq S.Şaumyanın rus erməni hərbi hissələri ilə birləşmək, Şimali Azərbaycanda erməni hakimiyyətini gerçəkləşdirmək planı məhv oldu. Həmçinin onu da qeyd edim ki, heç də bu səksəkə əbəs deyildi. Ona görə ki, Bakıda hakimiyyəti ələ keçirən bolşevik-daşnak silahlı birləşmələri 1918-ci ilin mart-aprel aylarında Şamaxıda, Lənkəranda və başqa yerlərdə minlərlə dinc əhalini qanına qəltan etdikdən sonra dəmiryolu boyu Gəncə və Qarabağa doğru hücum planlaşdırmışdılar. Digər tərəfdən, Qarabağda, İrəvandan tutmuş Zəngəzura qədər Qərbi Azərbaycan torpaqlarında ermənilər azərbaycanlılara qarşı soyqırım siyasəti yeridirdilər. Şaumyanın havadarlığından ruhlanaraq, Yevlax, Şəki, Gəncə və digər bölgələrdə məskun olmuş ermənilər də bir tərəfdən baş qaldırmışdı. Hər yerdə tədbirli kişilərin, yerli bəylərin rəhbərliyi altında kəndlərdə könüllülərdən ibarət dəstələr yaradılırdı. Onu da xüsusi vurğulamaq lazımdır ki, hamı çox gözəl başa düşür, dərk edirdi ki, belə olmasa, erməni təhlükəsindən xilas olmaq, müxtəlif basqın və hücumların qarşısını almaq olmayacaq. Ancaq təpədən-dırnağa qədər silahlanmış,

xüsusi təlim görmüş minlərlə daşnak-bolşevik ordusu qarşısında duruş gətirə bilmək çətin idi.

XİLASKAR ORDU

Hamı xilaskar türk ordusunun sərkərdəsi Nuru Paşanın gəlişini böyük bir ümidlə, M.Ə.Rəsulzadənin sözləri ilə desək «göydən enmiş xilaskar mələyin» gəlişi kimi gözləyirdi.

Əsrin əvvəllərində Bahadur bəy Qalabəyov tərəfindən Əyricədən Yevlağa qədər salınan daş yolla hərəkət edən Nuru paşa başının dəstəsi ilə günortaya yaxın Yevlax vağzalına yetişdi. Bəli, bu, o Nuru paşadır ki, gələcəkdə bütün Azərbaycan xalqını, onun dövlətçiliyini xilas edərək azərbaycanlıların xilaskarı adıyla ürəklərdə unudulmaz məhəbbət yuvası quracaq. Əzəmətli, boy-buxunlu Faruq Nuru paşa oynaq yerişli boz kəhər atın belində, onunla yanaşı at belində 6-cı ordunun zabiti Lazım bəy gəlirdi. Sonrakı cərgələrdə hər sırada üç nəfər atlı olmaqla iyirmiyə yaxın hərbi geyimli zabit, arxada isə Osmanlı aynalısı, üçatılan və beşatılanla silahlanmış, tüfənglərini yəhərin üstündə yanpörtü tutmuş on-on beş nəfərdən ibarət suvari mühafizə dəstəsi, bir də Naxçıvandan Kəlbalı xan və Qarabağdan Sultan bəy tərəfindən qoşulmuş bələdçilər gəlirdi.

Qeyd etdiyimiz kimi Şimali Azərbaycanın türk-müsəlman əhalisinə qarşı təcavüz və qırğın siyasətini Bakı Xalq Komissarları Şurasında hakimiyyəti ələ keçirmiş S.Şaumyan başda olmaqla onun erməni və rus silahdaşları həyata keçirmişdilər. Onlar Bakı şəhərində təşkil olunan hərbi hissələrə birinci növbədə Həştərxan, Petrovsk, Krasnovodskdan olan erməni əsgərləri daxil edir və Bakıda saxlayırdılar. S.Şaumyan bolşevik ordusu tərkibinə daxil etdiyi erməni briqadasında polkovnik Avetisov, daşnak Amazaps və digər ermənilər komandir heyətinə daxil edilmişdilər. Erməni hərbi hissələri silahlandırılır, ermənilər yaşayan ərazilərin ətrafında səngərlər qazılır və Çar Rusiyası ordusunda qulluq etmiş türk-müsəlman zabitlər həbs olunurdu. Nəzərdə tutulmuş hazırlıqdan sonra 1918-ci il mart ayının 30-da rus-erməni hərbi hissələri Bakı şəhərinin müsəlmanlar yaşayan məhəllələrini hərbi gəmilərdən və təyyarələrdən atəşə tutdular. Üç gün ərzində ermənilər 30 min nəfərə qədər türk-müsəlmanı qətlə yetirdilər. Erməni bolşevik quldurları bundan sonra qəzalara hücum edərək, Şamaxıda 40000, Qubada 2000, Lənkəranda 4000 türk-müsəlmanı məhv etdilər. Ancaq ermənilər

dörd günlük- iyunun 27-də iyulun 1-dək çəkən Göyçay döyüşündə məğlub olaraq geri çəkilməyə məcbur oldular. Başda Nuru Paşa olmaqla Qafqaz İslam Ordusu Bakı istiqamətində azadlıq yürüşünə başladı. İyul ayının sonuna yaxın S.Şaumyanın başçılıq etdiyi Bakı bolşevik hökuməti istefa verməyə məcbur oldu. Rus-erməni-daşnak-bolşevik hərbi birləşmələri canlı türk-müsəlman ordusunun zərbələri altında geri çəkilirdilər. Qafqaz İslam Ordusu 1918-ci il sentyabr ayının 15-də isə Bakını rus-erməni istilasından azad etdi və erməni terroruna son qoydu.

SULTAN BƏYİN HƏYATINDAN

Bir dəfə qubernatora Əlipaşa bəyin adından Sultan bəyin əleyhinə şikayət ərizəsi yazırlar. Quberniya idarəsindən məmurlar gəlirlər. Yoxlama aparılır. Faklar tutuşdurulur, sənədlər üzləşdirilir. Yazılanlardan heç biri sübuta yetmir. Axırda Sultan bəyin fikrini soruşlar.

Ancaq nə qədər qəribə olsa da Sultan bəy yazılanların hamısını təsdiqləyir. Yoxlayanlar çaşbaş qalırlar:

-Bəy, onda gərək sən tutulasan, bu necə etirafdı belə?! Soltan bəy yarıciddi-yarızarafat deyir:

-Siz də bilirsiniz, mən də bilirəm ki, bunları mənim atam yazmayıb. Hansı namərdsə onun adından yazıb. Bununla belə, orda atamın adı var, onun diliylə deyilən sözləri mən yalan kimi qələmə verə bilmərəm. Bir də yoxlayın, bəlkə düzdü elə bu yazılanlar?

Gələni-gedəni çox olarmış Sultan bəyin. Xahişə gələn, şikayətini bildirən, kömək istəyən və s. Tapşırarmış ki, onu soruşan olanda, evdə olmasa da, heç vaxt deməsinlər ki, Sultan bəy evdə yoxdur. Desinlər ki, buralardadır, gələcək indi. Bu minvalla gələnləri yerbəyer eləsinlər, onlara çay-çörək versinlər. Əgər evdə yoxsa, yoxluğunu bundan sonra bildirsinlər. «Bura dağ yeridir, uzaq yoldan gələn olar, bilməzsiniz, ac qayıdar. Sonra mənəm, sizsiniz».

Sultan bəy 1955-ci ildə Qars ətrafında, Köçkoy kəndində vəfat edib.

Sultan bəy Teymur bəy Həsənbəyovun qızı Dilruba xanımla ailə qurmuşdu. Ənvər bəy, Çingiz bəy, Yusifkamal bəy adlı oğulları və Bəyim xanım adlı qızı vardı.

Cəsur qardaşlar

Ənvər bəy Xalisə xanım Məhəmməd qızı ilə ailə qurmuşdu. Elbrus bəy, Bahadur bəy adlı oğulları, Səriyə xanım, Validə xanım və Maya xanım adlı qızları var.

Elbrus Muradov 1939-cu ildə doğulub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olub. Elektrotexnika fakültəsini bitirib. Hazırda Azərbaycan Metropolitenində baş mühəndis işləyir. Prezidentin fərmanı ilə «Əməkdar mühəndis» adını alıb.

Elburus Muradovun dedikləri.

-Babamın qəbrini axtarmaq üçün uzun illər çalışdım. Dost və qardaş Türkiyəyə gedən hər tanışımdan soraqlamağı xahiş etdim. Gələnlərdən soruşdum. Gördüm deyən olmadı. Nəhayət, internet vasitəsi ilə axtarışlarımı davam etdirdim. Qars vilayətinin Köçqoy kəndində hələ XIX yüzildən laçınlıların məskunlaşdığını öyrəndim. Adil Laçın adlı bir nəfərlə yazışıb, telefon nömrəsini öyrəndim. Zəngləşib vədələşdik ki, mən Türkiyəyə gəlim. 15 may 2006-cı ildə Türkiyəyə uçdum. Adil bəy məni Esenboğa hava limanında qarşıladı. Səhər saat 6-da Qarsa tərəf yola çıxdıq. Maşınla bir neçə saat yol qət etdik. Yolboyu həyacanlıydım. Görəsən, doğurdanmı babamın qəbri ordadır, yoxsa başqa variantlar kimi bu da özünü doğrultmayacaq?!

Sultan bəyin Ərzurumda, Konyada dəfn olunması haqda versiyalar mövcuddur.

Nəhayət, Köçqoy kəndinə yetişdik. Molla çağırıldı. Kənd əhalisinin seçmə ağsaqqalları ilə qəbrstanlığa getdik. Qəbrstanlıqda sadə bir qəbri göstərib «Sultan bəyin məzarıdır» söylədilər. Tutuldum. İnanmamağa əsasım yox idi. Amma qəlbimdə şübhələr vardı. Ağsaqqallar babamı olduğu kimi təsvir edib şübhəmi dağıtdılar.

Qəribədir ki, Köçqoy kəndində yaşayan adamların çoxu bizim soyun insanlarına bənzəyirdilər. Mən hətta öz oxşarımı da orda tapdım.

Elburus Muradov bildirir ki, bu ilin yayında yenidən Türkiyəyə gedəcək. Niyyəti var ki, babasının adına layiq bir başdaşı ucaltsın.

Sultan bəy Azərbaycan xalqının milli qəhrəmanıdır. Fikirləşirik ki, niyə onun qəbri Azərbaycana köçürülmür? Düşüncəmizi Elburus Muradovla bölüşürük. Razılaşmır. Bildirir ki, Sultan bəy çətin vaxtlarında Türkiyəyə pənah aparmışdı.

Ona qucaq açıb nazını çəkmişdilər. Oranı özünə ikinci vətən bilmişdi. Doğmalarının arasında dəfn olunub. Ruhunu incitməyək BÖYÜK BƏYIN!

SULTAN BƏY SULTANOV (1871-1955)

Azərbaycan xalqının igid oğullarından biri, erməni zülmünə qarşı mübarizə aparmış xalq qəhrəmanıdır. Hər bir azərbaycanlı, belə cahangir oğullar haqda məlumata sahib olmalı, onları özünə nümunə bilməlidir.

Sultan bəy 1871-ci ildə Zəngəzur mahalının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında (indiki Laçın rayonunun Kürdhacı kəndi) anadan olub. Atası Əlipaşa bəydir. Bir müddət Muradov soyadını daşıyan Sultan bəyin familiyası babası Xanmurad bəyin adından götürülüb. (Məlumat internetdəndir)

Əsl adı Əsəd Sultan olan, sonralar isə Sultan bəy kimi çağrılan bu Azərbaycan övladı mədrəsədə oxuma-yazmanı öyrəndikdən sonra təhsilini davam etdirmək üçün Şuşa qəzasına orta məktəbə göndərilir. Bir müddət Şuşada təhsil alan Sultan bəy bir neçə il sonra Gəncə şəhər gimnaziyasında orta təhsilini başa vurur. Ali təhsilə yiyələnmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə yollanan Sultan bəy burada dövrün ən tanınmış hərbi məktəbi sayılan Sankt-Peterburq Hərbi Akademiyasına daxil olur. Lakin bir sıra səbəblər ucbatından Sultan bəy akademiyadakı təhsilini tamamlaya bilməyərək, Azərbaycana qayıdır.

Sultan bəy doğma yurdu Qasımuşağı obasına qayıtdıqdan sonra əmək fəaliyyəti ilə məşğul olmağa başlayır. O, əvvəlcə maldarlıq, daha sonra isə qoyunçuluqla məşğul olur. Bu illərdə maldarlıqla yanaşı, meşəçiliklə də məşğul olan Sultan bəy Laçın kəndlilərinin həyat şəraitinin yaxşılaşdırması ilə tanınır.

Qafan mis mədənləri, Bərgüşad çayının axarı boyu inkişaf etmiş kənd təsərrüfatı, Çalbayır maldarlıq mülkləri Sultan bəyin ailəsinin müklü idi. Dinc əməklə məşğul olan Sultan bəyin ailəsinin var-dövlətinin mühafizə etmək üçün çox da böyük olmayan süvari dəstəsi var idi.

Sultan bəyin tarixi şəxsiyyətə çevrilməsi 1905-ci il və daha sonra baş verən hadisələrlə bağlıdır. Belə ki, o, 1905-ci ildən etibarən uzun müddət Zəngəzur mahalında, eləcə də Qarabağın bir sıra rayonlarında azərbaycanlıları yurd-yuvalarından didərgin salmağa çalışan erməni qəsbkarlarına qarşı silahlı mübarizə aparır. Mənbələrdə qeyd olunduğuna görə, dəfələrlə daşnak yaraqlılarının

Azərbaycan kəndlərini işğal etməsinin qarşısını alan Sultan bəy Zabux dərəsində erməni gədəsi Andraniki ağır məğlubiyyətə uğradır.

1918-ci ildə Sultan bəyin başçılıq etdiyi silahlı dəstələrin bölgədəki müsəlman kəndlərinin mühafizə olunmasında mütəsna xidmətləri olmuşdur. Belə ki, Qaragöl ətrafında toplanan çoxsaylı erməni silahlıları məğlub edilmiş və onlardan 600 nəfər əsir alınmış, İrana keçmək istəyən yüzlərlə erməni silahlısı Araz çayı yaxınlığında "Sahil" əməliyyatı ilə məhv edilmiş, habelə, Zəngəzurda onlarla kənd erməni silahlılarından təmizlənmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Sultan bəy 1923-cü ildə qardaşı Xosrov bəy Sultanov ilə Türkiyəyə pənah apararaq, Ərzurum vilayətində yaşayır və 1955-ci ildə Qars vilayətinin Köçkoy kəndində vəfat edir.

Sultan bəy Teymur bəy Həsənbəyovun qızı Dilruba xanımla ailə həyatı qurub, cütlüyün 3 oğlu və bir qızı dünyaya gəlib. Sultan bəyin həyat yoldaşı, üç oğlu və bir qız övladı Sovet hökuməti tərəfindən Qazaxıstan çöllərinə sürgün edilmişdir. Ailə 1956-cı ilə qədər sürgündə qaldıqdan sonra bəraət olaraq yenidən Azərbaycana gəlmişdir.

ERMƏNİLƏRİN AMANSIZ QƏNİMİ.

Xalq arasında Sultan bəy kimi tanınan Sultan bəy Sultanov Azərbaycan xalqının qəhrəman oğullarından biri, erməni zülmünə qarşı mübarizə aparmış xalq qəhrəmanıdır.

Sultan bəy Sultanov 1871-ci ildə Zəngəzur qəzasının Qasımuşağı obasında (Laçın rayonunun Kürdhacı kəndində) anadan olub.

İbtidai təhsil aldıqdan sonra Gəncə gimnaziyasında orta təhsilini tamamlayıb, Sank-Peterburq hərbi Akademiyasına daxil olub. Ancaq naməlum səbəblərə görə məktəbi bitirməyib və doğma kəndinə qayıdıb. Sultan bəy doğma yurdunda heyvandarlıqla və meşəçiliklə məşğul olub, yağ-pendir zavodu tikdirib.

Sutan bəyin milli qəhrəmana çevrilməsi 1905-ci il erməni-müsəlman hadisələri ilə bağlıdır. Müsəlman dəstələrindən birinə Sultan bəyin atası Əlipaşa bəy başçılıq edirdi, onun isə ən yaxın yardımçısı böyük oğlu Sultan bəy idi.

Sultan bəyin sonrakı qəhrəmanlıqları 1918-ci il hadisələrinə təsadüf edir. 1918-ci ildən başlayan erməni-müsəlman müharibəsində Sultan bəyin başçılıq etdiyi silahlı dəstələrin bölgədəki müsəlman kəndlərinin mühafizə olunmasında

müstəsna xidmətləri olmuş, Zabux dərəsində mühasirəyə alınan Andiranikin dəstəsinin əsas hissəsi məhv edilmiş, Qaragöl ətrafında toplanan çoxsaylı erməni silahlıları məğlub edilmiş və onlardan 600 nəfər əsir alınmış, İrana keçmək istəyən yüzlərlə erməni silahlısı Araz çayı yaxınlığında Sahil əməliyyatı ilə məhv edilmiş, Zəngəzurda onlarla kənd erməni silahlılarından təmizlənmişdir. Yazıçı-publisist Ənvər Çingizoğlu yazır: "Sultan bəyin qəhrəmanlığının ikinci hissəsi 1918-ci il olayları ilə bağlıdır. Zəngəzur ərazilərində məskunlaşdırılmış ermənilər azərbaycanlılara qarşı qırğınlar törətməyə, qəzada say baxımından üstün olmağa, beləliklə də bu torpaqlara yiyələnməyə çox ciddi şəkildə cəhd göstəriblər.

Şimali Azərbaycanda 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yaradıldıqdan sonra ermənilərin düşmənçilik siyasəti daha da gücləndi. Qarabağı və Zəngəzuru mənimsəmək üçün ərazi iddiaları onların törətdikləri kütləvi qırğınlarla müşahidə olunmağa başladı. Bu qırğınlar Laçın bölgəsinin bütün ərazilərində daim müşahidə olunurdu. Erməni ordusunun komandanı Andranik nə yolla olursa olsun öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa girərək oranın erməni əhalisini Azərbaycan hökümətinə qarşı qaldırmaq, təxribatlar törətmək və bölgədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə Andranik bir neçə minlik ordu ilə Zabux kəndinə keçərək Laçın istiqamətində irəliləməyə başladı. Bu məsələdən əvvəlcədən xəbər tutan, bölgənin nüfuz sahiblərindən biri, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun qardaşı Sultan bəy, öz partizan dəstəsi ilə Laçın Zabux yolundakı bir dərədə pusqu quraraq Andranikin qoşununu mühasirəyə saldı. Burada təqribən bir günlük qanlı döyüşlər getdi. Bu döyüşlər zamanı Andranik, demək olar, bütün qüvvəsini itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapdı. Dərə bu döyüşdən sonra "Qanlı dərə" adlandırıldı.

Dağlardan uca könlüm, olubdur qəm qalası.

1920-ci ildən sonra Azərbaycanda Sovet imperiyası öz hakimiyyətini qurdu. Bu vaxtdan etibarən Azərbaycan bəyləri öz vətənlərində qaçaq vəziyyətində yaşamağa başladılar. Onlar elə arxalanır, onları el saxlayırdı.

Sultan bəy Sovet Hakimiyyətindən qaçaq vəziyyətdə Kürdhacı kəndində "Gorgahat"ın (çox sıx meşəlik) meşəsində, bir yarğana pənah gətirmiş, yarğanda

gizlənərmiş. Bir gün onunla qarşılaşarkən onu tanımayan və sonradan tanıyıb üzürxahlıq edən həmkəndlisinə aşağıdakı bayatını söyləyir:

Mən aşiqəm yarqana,
Yar sözünü yar qana.
Dünyaya sığmaz başım,
Sığınıbdır yarğana.

Ermənilərin hiylələri ilə qırmızı Ruslar Sultan bəyə yeni sui-qəsd hazırlayırdılar. Yaranmış vəziyyətin mürəkkəbliyini dərk edən Sultan bəy Azərbaycan İnqilab Komitəsinə müraciət edir. Buradan ümidverici cavab almadığına görə Sultan bəy İran şahına üz tutur. Şah İranda Rusiyanın erməni cəsuslarının çox və qüvvətli olmasına baxmayaraq Sultan bəyin müraciətini qəbul edir. Sultan bəy qardaşları Xosrov bəy və İskəndər bəy ilə düşmənlərdən qoruduğu vətəndən xaricə mühacirət etməli olur.

Sultan bəy vətəndən, doğma yurddan, Qasımuşağı obasından ayrılarkən Kürdhacı kəndinin ərazisində ən uca zirvə, "Qarapalçıq" adlanan dağın zirvəsinə qalxır. Oradan Qırxqız yaylaqlarını, dağları son dəfə seyr edir və bir neçə bayatı çağırır:

Mən aşiq qəm qalağı,
Dağların qəm qalağı.
Dağlardan uca könlüm,
Olubdur qəm qalağı.

Mən aşiq, dolan gözüm,
Dol gözüm, dolan gözüm.
Gedərsən, qayıtmazsan,
Vətəni dolan, gözüm.

Sovet imperyasının göndərdiyi xüsusi cəsuslar İranda at oynadıb meydan sulayır, tez-tez qətllər törədirdilər. Göndərilmiş xüsusi cəsuslar Sultan bəyin qardaşı İskəndər bəyi öldürdükdən sonra vəziyyətin pis olduğunu görən İran Şahı təhlükəsiz həyat şəraitini təmin edə bilmədiyi üçün Sultan bəyə Türkiyə dövlətinə müraciət etməyi məsləhət görür. Sultan bəy Türkiyə dövlətinə müraciət etdikdə Türk dövləti 1923-cü ildə hər iki qardaşı – Sultan bəy ilə Xosrov bəyi rəsmi keçidlə qarşılayıb Qars vilayətinin Köçqoy kəndində mülk və malikənə verərək təhlükəsiz həyat şəraiti ilə təmin edir.

Sultan bəy 1955-ci ildə Qars ətrafında, Köçkoy kəndində vəfat etmiş və orada dəfn olunmuşdur.

Bəhs etdiyimiz kimi, Sultan bəyin milli qəhrəman kimi ad qazanması 1905-1906-cı illər erməni-müsəlman hadisələrindən başlayır. Azərbaycan türklərinə qarşı qırğınlar törədən ermənilərə qarşı mübarizə aparan dəstələrdən birinə Sultan bəyin atası Əlipaşa bəy başçılıq etdiyi zamanda, Sultan bəy düşmənin geri oturdulmasında xüsusi rol oynayıb. 1919-cu ilin fevral ayında Sultan bəyin rəhbərlik etdiyi silahlı dəstələr Laçının Zabux dərəsində erməni generalı, müsəlmanların qatı düşməni Andronikin daşnak ordusunu darmaağın edib. Bununla da Andronikin Qarabağı, sonra isə Gəncəni tutaraq, Stepan Şaumyanın bolşevik-daşnak hərbi hissələri ilə birləşərək Şimali Azərbaycanda erməni hakimiyyəti qurmaq planını alt-üst edib.

Onun rəhbərliyi ilə Qaragöl ətrafında toplanan çoxsaylı erməni silahlıları məğlub edilib və onlardan 600 nəfəri əsir alınıb, İrana keçmək istəyən yüzlərlə erməni silahlısı Araz çayı yaxınlığında məhv edilib, Zəngəzur onlarla erməni quldur dəstələrindən təmizlənib.

TÜRKİYƏYƏ SON YOLÇULUQ.

Sultan bəy və onun qardaşı – Azərbaycan Demokratik Respublikasının ilk hərbi naziri, ikinci hökümətdə əkinçilik naziri və Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanovun yalnız Zəngəzur və Qarabağ deyil, Basarkeçər və digər ərazilərimizin də erməni quldurlarından qorunmasında əvəzsiz xidmətləri olub. Sultan bəy sovet hakimiyyəti qurulduqdan sonra mühacir həyatı yaşayıb. Əvvəlcə İranda olub, 1923-cü ildə Türkiyəyə gedib. 1955-ci il Türkiyədə Qars vilayətinin Köçqoy kəndində dünyasını dəyişib. Sultan bəy mühacirətdə olarkən ailəsi müsibətlərlə qarşılaşıb, 1937-ci ildə həyat yoldaşı, üç oğlu və bir qızı Qazaxıstana sürgün edilib. Onlar 1956-cı ilədək sürgün həyatı yaşayıblar. Nəvəsi Elbrus Muradov: - "Babamın qəbrini axtarmaq üçün uzun illər çalışdım. Dost və qardaş Türkyəyə gedən hər tanışımdan soraqlamağı xahiş etdim. Gələnlərdən soruşdum. Gördüm deyən olmadı. Nəhayət İnternet vasitəsi ilə axtarışlarımı davam etdirdim. Qars vilayətinin Köçqoy kəndində hələ XIX yüzildən laçınlıların məskunlaşdığını öyrəndim. Adil Laçın adlı bir nəfərlə yazışıb, telefon nömrəsini öyrəndim. Zəngləşib vədələşdik ki, 15 may 2006-cı ildə Türkiyəyə uçdum. Adil

bəy məni Esenboya hava limanında qarşıladı. Səhər saat 6-da Qarsa tərəf yola çıxdıq. Maşınla bir neçə saat yol qət etdik. Yolboyu həyəcanlıydım. Görəsən, doğrudanmı babamın qəbri ordadır, yoxsa başqa variantlar kimi bu da özünü doğrultamayacaq?! Sultan bəyin Ərzurumda, Konyada dəfn olunması haqda versiyalar mövcuddur. Nəhayət, Köçqoy kəndinə yetişdik. Molla çağırıldı. Kənd əhalisinin seçmə ağsaqqalları ilə qəbiristanlığa getdik. Qəbiristanlıqda sadə bir qəbri göstərib "Sultan bəyin məzarıdır" söylədilər. Tutuldum. İnanmamağa əsasım yox idi. Amma qəlbimdə şübhələr vardı. Ağsaqqallar babamı olduğu kimi təsvir edib şübhəmi dağıtdılar. Qəribədir ki, Köçqoy kəndində yaşayan adamların çoxu bizim soyun insanlarına bənzəyirdilər. Mən hətta öz oxşarımı da orda tapdım. Bakıya qayıdandan sonra məndə olan nəsil şəcərəmizi yoxladıb öyrəndim ki, Adil bəyin ulu babası ilə mənim ulu babam doğmaca qardaşdırlar".

ƏLİPAŞA BƏYİN HƏYATI

Əlipaşa bəyin doğulduğu Kürdhacı kəndi XVIII yüzildə boş sahə olub. Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir bu sahəni Xorasan əyalətindən gəlmiş Hacısamlı camaatının Qasımuşağı tayfasına verib. Həmin tayfa orda binə bağlayıb. Nəbi bəyin Xıdır bəy adlı oğlu, Xıdır bəyin Xanmurad bəy adlı oğlu vardı. Əlipaşa bəy də Xanmurad bəyin oğludur.

Xalq arasında Paşa bəy adı ilə şöhrət tapan bu şəxs sənədlərdə Əlipaşa bəy kimi qeyd olunmuşdur. Əlipaşa Xanmurad oğlu bəy rütbəsi almaq üçün Sultanov familiyasını qəbul edir. Əlipaşa bəy Xanmurad oğlu Sultanovun bəylik alması barədə tarixi sənəd Azərbaycan Dövlət Arxivində saxlanılır. Həmin sənəddə qeyd edilir ki, Şuşa bəy komissiyasının 21 dekabr 1872-ci il 374 saylı protokoluna əsasən Əlipaşa bəy Xanmurad oğlu Sultanovun bəy nəslinə mənsub olması təsdiq edilir. Şuşa bəy komissiyasının çıxardığı bu qərar 1877-ci ildə Qafqaz canişini M.Vorontsov tərəfindən təsdiq edilir və Əlipaşa bəy Xanmurad oğlu Sultanovun adı Yelizavetpol quberniyasının Zəngəzur qəzasının bəyləri siyahısına daxil edilir. Beləliklə Əlipaşa bəy Sultanov Hacısamlı nahiyəsinin bəyi təyin edilir. Əlipaşa bəyə verilən sənəddən məlum olur ki, 1872-ci ildə onun 35 yaşı var imiş.

Ailəsi

Əlipaşa bəyin atası Xanmurad bəy, anası isə Hətəmlər Şahverdinin bacısı Ağapəri olmuşdur. Əlipaşa bəy əvvəlcə Bəyim xanımla ailə qurmuşdur. Bəyim xanım 1844-cü ildə anadan olmuşdur. Bəyim xanımdan Sultan bəy, İsgəndər bəy, Xosrov bəy, Rüstəm bəy və Aftab xanım dünyaya gəlmişdir. Bir müddət sonra Əlipaşa bəy Seyid Mirəzizin qızı Ağaxanımla da evlənir. Ağaxanımdan Bahadur bəy, İsrafil bəy, Zülü bəy, Ziba xanım və Məhbub xanım dünyaya gəlmişdir. (Məlumat internetdəndir)

Əlipaşa bəy öz övladlarının tərbiyəsi ilə ciddi məşğul olmuşdur. Sultan bəy və Xosrov bəyin tərbiyəsinə, onların bir şəxsiyyət kimi yetişmələrinə xüsusi səy və böyük qayğıkeşlik göstərmişdir. Onlara şərqin qəhrəmanlıq və müdrik keçmişini öyrətdirmişdir. Hər zaman el-obanın qayğısına qalmağı, camaatın ağır güzaranını yaxşılaşdırmağı övladlarında tərbiyə etməyə çalışmışdır. Sultan bəyin hərb sənətinə, Xosrov bəyin tibb elminə yiyələnmələrinə hər cür lazımi şərait yaratmışdır.

Mir Mövsüm Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində Əlipaşa bəy Xanmurad oğlu haqqında yazır.

Sultanov Əlipaşa bəy Xanmurad oğlu Zəngəzurda böyük mülkləri olan bəy, bölgədə müdrik kəlamları və qoçaqlığı ilə tanınmışdır. O, Sultan bəy, Xosrov bəy və Rüstəm bəy Sultanovların atasıdır. 1837-ci ildə Zəngəzur qəzası Hacısamlı nahiyəsinin Kürdhacı kəndində (Laçın rayonu) anadan olub. 1915-ci ildə isə elə anadan olduğu kəntdə də vəfat edib.

"Piçənis müsəlman kəndindən və başqa müsəlman kəndlərindən 300 nəfərə qədər igidlər və qeyrətli cavanlar toplaşaraq Paşa bəy Murad bəy oğlunun sərkərdəliyi ilə atlanıb, erməni kəndlərinin üzərinə yeriyir və onlardan qisasımızı alırdılar.

El deyimləri

Əlipaşa bəy həmişə ədalətin, düzgünlüyün, doğruluğun tərəfdarı olmuşdur. Ona görə də Zəngəzurda Əlipaşa bəy böyük rəğbət sahibi, müdrik kəlamlar ustadı, böyük hörmət və şöhrət sahibi, el ağsaqqalı, müdrik, uzaqgörən bir şəxs kimi tanınmışdır. El arasında Əlipaşa bəyə sadəcə Paşa bəy deyildiyindən bütün el

deyimlərində bu adla adlandırılmışdır. Onun müdrik kəlamları bu gün də el arasında deyilməkdədir.

Öl, Molla Şərif, öl

Hacısamlı nahiyəsinin Qorçu kəndində Molla Şərif adlı bir kişi yaşayırmış. Molla Şərif ömrünün son illərini yaşadığını fikirləşir. Düşünür ki, bu bölgələrdə savadlı bir molla qalmayıb. Odur ki, belə vəsiyyət edir ki, "görürəm bu yaxın bölgələrdə yaxşı savadlı bir molla yoxdur ki, məni, şəriətin bütün qayda-qanunlarına riayət etməklə düzgün dəfn etsin. Ona görə də, vəsiyyət edirəm ki, məni Paşa bəy el adəti ilə ədalətli şəkildə dəfn etsin.

Bu vaxtdan bir müddət keçir. Bir gün səhər erkən kəndə xəbər yayılır ki, Paşa bəy dünyasını dəyişdi. Bu xəbəri eşidən Molla Şərif elə hey öz-özünə deyinir:

- Öl, Molla Şərif, öl. Lap heyvan kimi öl! Artıq səni dəfn etməyə heç bir ümid yeri qalmadı.

Bununla Molla Şərif bu itkinin qiymətini verməklə, Paşa bəyin eldən getdiyini bildirmişdir.

Baxdı getdi

Paşa bəyin qayınatası Seyid Mirəziz Hacısamlı nahiyəsinin Seyidlər kəndindən imiş. Seyid Mirəziz olduqca çox xəsis bir kişi idi. Qapısında olan qoyun-keçidən kəsib yeməyə belə qıymazmış. Seyid Mirəzizin bu xüsusiyyəti Paşa bəyi çox narahat edər. O, daim onu bu xasiyyətdən əl çəkməyə çağırsada Seyid Mirəziz öz bildiyindən dönmür. Ona görə də Seyid Mirəzizin xəsisliyinə işarə edərək belə bir kəlam söyləyərmiş:

- Bu dünyadan Ağalar bəy yedi getdi, Paşa bəy daddı getdi, Seyid Mirəziz baxdı getdi.

İki seyid bəs edər

Paşa bəyin həyat yoldaşı Ağaxanım Seyidlər tayfasından olmasına baxmayaraq qayınatası Seyid Mirəzizin xəsisliyindən, eləcə də seyiddən xoşu gəlməzmiş. Ona görə də evdə, həmçinin kiçik yığıncaqlarda qoşun və ya kazakdan söhbət düşəndə deyir:

- Bir kəndi dağıtmağa yüz kazak nə lazım, iki seyid bəs edər. Birini kəndin ayağında, o birini isə kəndin başında məskunlaşdırın. Bununla da iş qurtarsın.

Mərgi xəstəliyi

Əşir Başiroğlu

Qışın əvvəlləri idi. Paşa bəyin qayınatası Seyid Mirəziz onlara qonaq gəlir. Söhbət əsnasında Paşa bəyə deyir:

- Bu il heyvanlar üçün yaxşı ot-ələf toplaya bilməmişəm. Deyirəm bəlkə keçiləri bir təhər bu qış sən saxlatdırasan.

Qayınatasının fikirləri ilə razılaşmayıb imtina etmək istədikdə Aşıq Abbas söhbətə qarışır. Paşa bəydən razılıq alır və keçiləri saxlatdırmaq üçün kəndə gətirtdirir.

Paşa bəy Aşıq Abbasla birlikdə həftə səkkiz, mən doqquz, keçinin birini kəsib yeyirlər. Bir müddət sonra Paşa bəy Aşıq Abbasa deyir:

- Aşıq Abbas, bəs Seyid Mirəzizə nə cavab verəcəyik.

- Bəy, bu işin babalı Aşıq Abbasın boynuna - deyən Aşıq Abbas gülümsündü.

Nəhayyət, bir gün keçilərini yoxlamağa gələn Seyid Mirəzizə deyirlər:

- Seyid, keçilərin içinə bir xəstəlik düşüb , tutan kimi keçi haray-həşir salıb bəyirir, o saatda ölür.

Günorta namazının vaxtı yetişir. Seyid Mirəziz namaza durur. Bu zaman Aşıq Abbas əvvəlcədən hazırlanmış qayda üzrə uşaqlardan birinə keçilərdən birinin qulağını dişlətdirir. Keçi hay-həşir qopararaq bəyirir. Bu vaxt Aşıq Abbas namaz qılan Seyd Mirəzizə yaxınlaşıb deyir:

- Seyid, keçinin birini xəstəlik tutub, nə edək.

Namaz üstə söz danışmaq günah olduğu üçün bir söz deyə bilməyən Mirəziz əli ilə işarə edir ki, keçinin başını kəsin. Keçinin başını kəsirlər.

Aşıq Abbas aşpazı öyrədir ki, bişiriləcək əti keçinin ödünə bulayıb bişirsinlər. Elə də edirlər. Nahar vaxtı Mirəziz ətdən bir tikə ağzına qoyub tez çıxarır və "rədd eləyin, bizi qırar" deyir. Mirəzizə söyləyirlər ki, bax beləcə keçiləri xəstəlik tutub öldürür. Hamısını da basdırdıq. Naəlac qalan Mirəziz soruşur ki, bu xəstəliyin adı nədir? Hazırcavablığı ilə həmişə diqqəti cəlb edən Aşıq Abbas deyir ki, "mərgi" xəstəliyidir. Heç bir sözü olmayan Seyid Mirəziz kor-peşiman evinə dönür. Atalar yaxşı demişdir: "Mal yeməzin malını yeyərlər".

Rəhmətə gedib

Ərikli kəndində yaşayan Hüseyn(el arasında Hüsen kimi çağrılardı) olduqca gopçu kimi tanınardı. Yaxın kəndlərdən birində hansısa yaxşı və ya pis bir hadisə

törədilərdisə Hüseyn o saat deyərdi ki, onu mən etmişəm. Ancaq hansı kəndə qonaq gedərdisə onu süfrənin yaxşı yerində əyləşdirirdilər.

Günlərin bir günü axşamçağı Hüseyn yaxınlıqdakı Bülövlük kəndinə qonaq gedir. Axşam olur, camaat öz evlərinə çəkilir. Ancaq Hüseynin bəzi xasiyyətlərinə görə heç kəs onu qonaq aparmır. Gecəni kənddə bir təhər sərgərdan dolanıb səhər dan yeri sökülməndə Ərikliyə qayıtmaq üçün yola çıxır. Hacısamlı kəndindən keçərkən Paşa bəylə rastlaşır. Paşa bəy onu evə dəvət edir. Hal-əhval tutduqdan sonra ondan haradan təşrif buyurduğunu soruşur. Hüseyn bu gecəni Bülövlük kəndində olduğunu bildiirir. Paşa bəy "Filan" bəy necədir? - soruşduqda Hüseyn çox təmkinlə dillənir.

- Bir xeyli olar rəhmətə gedib.

Paşa bəy bu xəbərdən çox mütəəssir olur. Tez mirzə Bəhməni çağırtdırıb bir "baş sağlığı məktubu" yazdırtdırır. Məktubu çapar ilə Bülövlük kəndinə göndərir. Bir neçə saatdan sonra çapar bir məktubla geri qayıdır və bu xəbərin yalan olduğunu bildirir. Bu xəbərdən Paşa bəy təəccüblənir. Hüseyndən soruşur:

- Hüseyn bu nə işdir, bəs deyirdin "Filan" bəy rəhmətə gedib. İndi bu saat mənə məktub yazıb bildirirlər ki, bu yalan xəbərdir. Bu xəbəri sizə kim söyləyib?

Hüseyn tərəddüd etmədən cavab verir:

- Bəy sağ olsun, əgər o, sağ olsaydı onda mən nə üçün bu gecə kəndin ortasında naəlac qalmazdım.

Paşa bəy işin nə yerdə olduğunu anlayır.

Sənin dərdinə dərman yoxdur

Bir gün Ərikli kəndindən olan Məşədi Şükür bərk xəstələnir. O, həmkəndlisi Hüseyni çağırıb deyir: - Get Paşa bəyə de ki, Məşədi Şükür bərk soyuqlayıb, sətəlcəm olub. Ona dərman lazımdır. Paşa bəydən dərmanı al mənə gətir. Hüseyn razılaşıb yola düşdü. Gəlib Hacısamlı kəndinə yetişdi. Paşa bəyin evinin yüz metrliyində atını saxlayıb Paşa bəyi səsləyir. Nökərlərdən biri cavab verir. Hüseyn deyir: - Paşa bəyə deyin bir mənə tərəf gəlsin, deyiləsi sözüm var. Bu xəbəri nökərlər yatağında uzanan Paşa bəyə çatdırır və deyirlər: -Bəy, icazə ver, o, kimdirsə, döyüb yola salaq.

Paşa bəy razılaşmır və deyir: - O, hər kimdirsə, onun qabına qoyulan o qədərdir. İşiniz olmasın, görək nə istəyir. Yerindən qalxır, çəliyi əlinə alır və

yavaş-yavaş atlıya yaxınlaşır. Hüseyn tanışlıq verib Məşədi Şükür üçün dərmana gəldiyini söyləyir. Paşa bəy atlının Hüseyn olduğunu bildikdən sonra deyir: - Ay Hüseyn, Məşədi Şükürün dərdinə dərman olacaq, amma sənin dərdinə dərman yoxdur. Gözlə dərman göndərim - deyib çəliyinə söykənə-söykənə geri qayıdır. Bu sözlər sonralar xalq arasında "Sənin dərdinə dərman yoxdur" kəlamı kimi işlənmişdir.

Xurma, yoxsa qırma?!

Paşa bəyin mirzəsi Bəhmən adlı bir kişi idi. Bəhmən bir az ağır eşitdiyindən el arasında ona Kar Bəhmən deyərlərmiş. Bir gün Paşa bəyin könlünə xurma düşür. Bəhməni çağırıb deyir: - Bəhmən İrandakı dostlara yaz, bizə bir az xurma göndərsinlər.

Bəhmən məktubu yazıb yola salır. Bir müddət sonra İrandan Paşa bəyə bir neçə at yükü qırma göndərirlər. Qırma yüklü atları görən Paşa bəy çaşıb qalır. Bir az düşündükdən sonra işin nə yerdə olduğunu anlayır. Deməli, Bəhmən xurma sözünü qırma eşidərək məktubda xurma əvəzinə qırma yazıb. Odur ki, Bəhməni çağırır, qırma yükünü göstərib deyir: - Bəhmən, xurma, yoxsa qırma?! Bəhmən, yazdın qırma gəldi, indi də yaz top-tüfəng göndərsinlər.

Mənə canının qədrini bilən insan lazımdır

Bir gün Paşa bəy çobanlari sınağa çəkir ki, görüm bunlar insan kimi öz canlarının qədrini bilirlər, yoxsa yox?!

Axşam mal-qoyun örüşdən qayıtdıqdan sonra çobanlar şam xörəklərini yeyib öz adətləri üzrə yataqlarına uzandılar. Paşa bəy əmr edir ki, çobanların hər birinin çarığına bir az qum atsınlar. Əmr yerinə yetirilir.

Ertəsi gün səhər erkən hamıdan tez yataqdan qalxan Paşa bəy bir az aralıdan oturub çobanların öz çarıqlarını necə geyinmələrini müşahidə edir və görür ki, bir neçəsi çarıqlarını təmizləyib geyindi, bir neçəsi isə çarıqları təmizləməyib necə var, eləcə də geyinib örüşə yollandı. Axşam düşdü. Sürü örüşdən geri qayıtdı. Şam yeməyindən sonra Paşa bəy çobanları yanına çağırtdırıb əhvalatı onlara danışdı. Çarıqlarını təmizləməyib geyinən çobanların adlarını söylədi və dedi: - Siz günü sabahdan özünüzə başqa iş axtarın. Çünki öz canının qədrini bilməyən kəs, mənim malımın qədrini heç bilməz. Mənə canının qədrini bilən insan lazımdır.

V FƏSİL

ANDRANİK OZANYAN

Andranik Ozanyan 1865-ci ilin 25 fevralında Osmanlı imperiyasında anadan olub. Bir müddət "Qnçak" partiyasının sonra isə "Daşnaksütunun" üzvü olub. 1880-ci illərdə Andranik Osmanlı dövlətinə xəyanət etdiyi üçün cəza kimi onun qulağını kəsirlər, bundan sonra ona xalq arasında "birqulaqlı Andranik" deyirlər. Andranik Türkiyədə fəaliyyət göstərən erməni silahlı dəstələri üçün silah qaçaqmalçılığı ilə məşğul olur. 1890-cı illərdə Türk ordusuna qarşı döyüşlərdə iştrak edir. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırdıqdan sonra Andranik Türkiyədən qaçır. Bir müddət Qafqazda olur sonra isə Avropaya yollanır. 1907 ci ildə Bolqarıstanda, Daşnaktütunun IV qurultayında iştrak edir. (Məlumat internetdən götürülüb)

Balkan müharibəsi

1912-ci ildə müharibə başlayanda, Qareqin Njde ilə birlikdə ermənilərdən ibarət könüllü dəstə yaradır. Burada erməni silahlı dəstələri yerli türk əhalisinə qarşı kütləvi qırğınlar törədməklə məşğul idi. Bu döyüşlərdə iştrakına görə Andranik Ozanyan Bolqarıstanın ali dövlət təltifi olan, "İgidliyə görə qızıl xaç" ordeni ilə təltif olunur. Bundan əlavə onu digər mukafatlarla da təltif edirlər, həmçinin Andranik Bolqarıstan vətəndaşlığına qəbul olunur.

Birinci dünya müharibəsi

1914-cü ilin avqustunda Andranik Rusiyanın Qafqaz ordusunun komandanı general Aleksandr Malışayevski ilə görüşür və rus ordusuna öz xidmətlərini təklif edir. Rus ordusu Andranikə erməni hərbi dəstələrini formalaşdırmağı tapşırır. Türk ordusuna qarşı hərbi əməliyyatlarda iştrakına görə rus və fransız ordusunun komandanlığı tərəfindən bir sıra orden və medallarla təltif edilir.

1916-cı ildə çar ordusunun komandanlığı ilə yaranan problemlərə görə cəbhəni tərk edir. Andranikin Türkiyənin şərqində olduğu bütün müddət ərzində, onun başçılıq etdiyi silahlı erməni dəstələri buradakı türk və kürd əhalisinin kütləvi qətilləri ilə məşğul olurdular.

1917-ci ildən sonra

1917-ci il fevral inqlabından sonra Qafqazdakı rus ordusu tədricən dağılmağa başlayır. Yaranmış vəziyyətdən istifadə edən ermənilər, öz silahlı dəstələrini

gücləndirir, çar ordusundan qalmış silah və sursatı mənimsəyirlər. Bu zaman başsız qalmış Rusiyanın Qafqaz ordusunun komandanlığı Andranikə general-mayor rütbəsi verir, lakin qeyd etmək lazımdır ki, yaranmış vəziyyətdə komandanlığın verdiyi rütbələr daha çox rəmzi əhəmiyyət kəsb edirdi. Andranik 1918-ci ildə Ermənistanla Türkiyə arasında imzalanmış müqaviləni tanımaqdan imtina edir. Bu dəfə Andranik bolşeviklərlə əməkdaşlıq etməyə başlayır, o 1918-ci ilin iyulunda Stepan Şaumyana teleqram qöndərir. Teleqramda Andranik bildirir ki, "Naxçıvan qəzası özünü Sovet Rusiyasının bir hissəsi sayır və o öz dəstəsi ilə birlikdə bolşeviklərin tabeliyinə keçməyə hazırdır". Lakin iyulun 19-u türk ordusu Naxçıvanı və Culfanı tutur, Andranik Zəngəzura qaçır. Zəngəzurda Andranikin rəhbərlik etdiyi silahlı dəstələr Azərbaycan kəndlərini dağıtmaqla maşğul idilər. Bu kəndlərin əhalisi kütləvi şəkildə öldürülür, diri-diri yandırılır, qılıncdan keçirilirdi.

Andranikin quldurlarının vəhşiliyi barədə erməni tarixçisi A. Lalayan bunları yazır.: "Andranikin başçılıq etdiyi daşnak dəstələri, türk kəndlərində uşaqların, qadınların və qocaların qətli zamanı "böyük sücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində, sağ adamlar qalmırdı, onlar insan qalıqları ilə dolu, xarabalığa çevrilirdi".

Andranikin silahlı dəstələri 1918-ci ildə Naxçıvan qəzasının Yaycı kəndinə hücum edərək 2500 nəfəri qətlə yetirir, meyitlərini isə Araz çayına atır. 1918-ci ilin sonlarında Andranikin dəstələri Qarabağda bir çox Azərbaycan kəndlərinə hücum edərək kütləvi qətllər törədir, kəndləri talan edir. Rəsmi məlumatlara görə bu dövrdə 115 Azərbaycan kəndi dağıdılmış, əhalisi qətlə yetirilmiş, əmlakları talan edilmişdir.

1919-cu ilin aprelində Andranik Eçmiadzinə gəlir, burada o dəstəsinin böyük hissəsini sərbəst buraxır, bir hissəsini isə özü ilə mühacirətə aparır. Birinci dünya müharibəsindən sonra Türkiyə hökuməti Andraniki hərbi cinayətkar kimi beynəlxalq axtarışa verir. Andranik muhacirətdə Fransada, sonra isə ABŞ-da yaşayır. ABŞ-da Kaliforniya ştatının Fresno şəhərində vəfat edir.

28 may 2011-ci ildə Rusiyanın Soçi şəhərinin yaxınlığındakı Volkonka qəsəbəsində Andranik Ozonyananın abidəsi açılmalı idi. Tədbirdə Krasnodar diyarından 5-6 minə qədər ermənin gələcəyi gözlənilirdi. Ancaq yerli hakimiyyət

orqanları tədbirə etiraz etdilər. Bildirildi ki, ermənilər abidəni sökməlidirlər, yoxsa yerli hakimiyyət onu dağıtmalı olacaqdır.

Erməni milli qəhrəmanı, Bolqarıstan milli qəhrəmanı hərbi cinayətkar olan Adranik Ozanyan 31 avqust 1927- ci ildə Amerikada ölüb. Onun cəsədi 1928-ci ildə Fransaya, 2000-ci ildə isə Yerevana gətirilib.

Musa Urud yazır: "Andranik və yerli erməni quldurlarının başçısı Şahnəzərov Zabux-Qaladərəsi istiqamətində hücum etsələr də, Şuşaya daxil ola bilmədilər. Laçınlı Sultan bəyin başçılıq etdiyi, əsasən Haçışamlı əhalisindən təşkil olunmuş azərbaycanlılar Andronikin dəstəsinə sarsıdıcı zərbə vuraraq onu yenidən geriyə – Gorusa qayıtmağa məcbur etmişdir.

Bu fikir "Azərbaycan" qəzetinin 28 oktyabr, 1918-ci il tarixli sayında və "Müxtəsər Xronoloji Ensiklopediya"da da, öz əksini tapmışdır. Ensiklopediyada göstərilir: "14 dekabr 1918-ci il Zəngəzur. Azərbaycan. Gəncə qubernatorunun 1918-ci il 14 dekabr tarixli 70 saylı teleqramında deyilir ki, cəllad Andranik başda olmaqla erməni quldurlar "Kalandərəsi yaxınlığındakı müsəlman kəndlərinə basqın etmiş, müsəlmanları qırmışlar və vəhşiliklər törətmişlər". Tədqiqatçılar da təsdiqləyərlər: "A.Mikoyanın təhriki ilə məhz tayqulaq Andranikin və Hamazaspin daşnak quldur dəstələri Maku və Xoydan başlayaraq, Zəngəzurdan keçib, Qarabağa quldurcasına basqın etmiş, dinc azərbaycanlı əhalini qırmışlar."

Bu dövrdə Zəngəzurda vəziyyət o yerə çatmışdır ki, Andronik Ozanyan Gorusda möhkəmləndikdən sonra burada "Zəngəzur qubernatorluğu" yaratdığını, Gorusu qubernatorluğun paytaxtı, özünü isə qubernator elan etmişdir.

Azərbaycanın vəziyyəti çox ağır idi. Azərbaycanda da sovetləşmə işləri gedirdi. Lakin, Sovet Rusiyasının Xarici İşlər Komissarının Sovet Azərbaycanının Ermənistandakı fövqəlada nümayəndəsi isə erməni Dövlətov idi.

Zəngəzurda möhkəmlənən və vaxtaşırı öz təxribatçı fəaliyyətini davam etdirən, Azərbaycan kəndlərinə basqınlar edən, Gorusda və Qubadlıda yerləşən qəza şuralarını təhlükədə saxlayan daşnaq Njdenin silahlı qüvvələri, onun Tevan və Tarxan kimi əlaltıları İrəvandan hərbi yardım, maddı və siyasi təminat aldıqları halda, Azərbaycan hökuməti Zəngəzuru erməni basqınlarından qoruyub saxlayan, insanlar arasında böyük güc və nüfuz sahibi olan Sultanov qardaşlarının

imkanlarından istifadə etmədi. Yurdunu və xalqını sevən Sultanov qardaşlarına bir inamsızlıq nümayiş etdirdilər.

1918-ci il sentyabrın 4-dən başlayaraq Andranik Amerika, Fransa, İngiltərə, Yunanıstan və Rusiyanın çox böyük səxavətlə silahlandırdığı ciddi hərbi intizama malik qoşunları ilə Zəngəzurda 115-dən çox türk-kürd kəndlərini dağıtmış, Sisyan və Gorusun 70 kəndində hər 5 nəfərdən birini qətlə yetirmişdi. Gorusu mərkəz seçərək özünü "Zəngəzur qubernatoru" elan etmişdir.

Elə həmin günlərdə Zəngəzurun yuxarı hissəsində azı 80 min insanı yer-yurdundan qovub kəndləri talan etmişdi. 5 mindən çox əhalini qırmışdı. Şuşaya keçmək üçün Zabuğa üç dəfə hücum etsə də Sultan bəy imkan verməmişdi. Sultan bəy Zabux dərəsində Andranikin 30 minlik qoşununu qırmışdı. O, misgin, yazıq görkəmdə Tiflisə, oradan da Avropa və Amerikaya qaçmışdı. (25 mart 1919)

Qafan, Gorus, Mergi hərbi qüvvələrinin ümumi komandanı Njdenin başçılığı ilə 1919-cu il dekabrın biri uç istiqamətdə başlayan hücumda ermənilər insanları gülləyə qənaət etmək üçün xəncərlə doğrayıb, gürzlərlə başlarını əzmişlər. 400-dən çox qadın və uşağı məscidə doldurub içəri qumbara atıb sonra yandırmışlar. Bu kəndin 1400 sakinindən yalnız 10-12 nəfər sağ qalıb. Sabadindən 8 kişi 7 qadın sağ çıxıb. Atqız kəndinin 4 min sakinindən 167-si mühasirədən çıxa bilib, onlardan da çoxu yolda donub ölüb. Çaylıda 900 müsəlman öldürülüb. Mühasirəyə alınmış Mədən, Şəhərcik, Buğacıq, Mollalı, Həkəri, Zəngəzur qəzasının 3-cü sahəsinin (Qubadlı rayonu) Xocalıdan Qaladərəsinə qədər ərazisindəki 48 kəndin əhalisi amansızlıqla öldürülüb, var-yoxları talan edilib.

Halbuki Njdenin bu qırğınından bir həftə əvvəl 23 noyabrda Tiflisdə Ermənistan və Azərbaycan baş nazirləri A.Xatisovla N.Usubəyov arasında Amerika ordusunun baş qərargah polkovnikinin, Gürcüstan Xarici İşlər Nazirinin iştirakı ilə saziş imzalanmışdı və dekabrın sonuna qədər ABŞ, Böyük Britaniya, Fransa, İtaliya hökümətlərinin Qafqazdakı missiya başçılarının iştirakı ilə birgə sülh konfransının keçirilməsi haqda razılıq əldə olunmuşdu.

Budur erməni məkri, hiyləsi və müsəlman-türk sadəlövhlüyü, unutqanlığı. 1918-ci ildə Andranik 50 türk-müsəlman kəndini dağıtmış, o kəndlərdən 60 mindən çox dinc əhalini qırmış, sağ qalanları isə yurd-yuvasından didərgin salmışdır. Njde və Dro Andranikin davamçılarıdır.

SULTANOV XOSROV BƏY PAŞA BƏY OĞLU.

Xosrov bəy Sultanov 1879-cu il may ayının 10-da Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Kürdhacı kəndində (indiki Laçın rayonu) dünyaya göz açıb. Gəncə gimnaziyasını bitirdikdən sonra Odessada ali tibb təhsili almışdır. 1918-ci ilin mayında Tiflisdə Azərbaycan Milli Şurası adından Azərbaycan xalq Cumhuriyətinin elan edilməsi bəyannaməsinə imza atan 26 nəfərdən biri də Xosrov bəy Sultanov olmuşdur. Xalq cumhuriyyətinin həmin gün təşkil edilmiş birinci hökuməti kabinetində Xosrov bəy hərbi nazir postunu tutmuşdur. O, Zaqafqaziya seyminin və Azərbaycan parlamentinin üzvü olmuşdur. (Məlumat internetdəndir)

Xosrov bəy Sultanov 1919-cu ilin 15 yanvarında Qarabağın general-qubernatoru təyin olunmuşdur. Həmin ilin 21 martında erməni-daşnak hərbi dəstələri Qarabağa yeganə keçid olan Əsgəran keçidini tutmuşlar. Amma daşnaq generalı Dronun hərbi dəstələri Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri tərəfindən mayın 30-da darmadağın edilmiş, Xankəndi və Şuşa geri alınmışdır.

Xosrov bəy Paşa bəy oğlu Sultanov 28 may 1918-ci ildən 11 iyun 1918-ci ilə kimi Azərbaycan Xalq Cumhiriyyətinin hərbi naziri, 17 aprel 1918-ci ildən 14 mart 1919-cu ilə kimi əkinçilik naziri, 1919-cu ilin 15 yanvarından isə Qarabağın general-qubernatoru təyin olunmuşdur.

1923-cü ildən general Xosrov bəy Sultanovun həyatında mühacirət dövrü başlamışdır. O, Türkiyədə, İranda (1926) daha sonra Fransa və Almaniyada yaşamış, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışmışdır. Bundan sonra, 1936-cı ildə Türkiyəyə qayıdan Xosrov bəy Sultanov Trabzonda məskunlaşmışdır. Xosrov bəy 1947-ci ildə Türkiyədə vəfat etmişdir.

Sultan bəyin nəvəsi əməkdar mühəndis Elbrus Muradovun (internetdən) dediklərindən məlum olur ki, Xosrov bəy Odessa şəhərində bir nəfər tərəfindən təhqir olunan bir qızı müdafiə etdiyi üçün duelə çağrılır. Dueldə güllə Xosrovun gözünə dəyib zədələyir, üzünün isə bir tərəfini eybəcər hala salır. Ona görə də Xosrov bəyin şəkilləri həmişə bir tərəfli olur. Dueldə ikinci gülləni Xosrov bəy atır və rəqibini qətlə yetirir. Həmin qız Odessa Universitetinin rektorunun qızı olur. Xosrov bəy həmin qızla evlənir və ondan bir oğlu olur, o, oğlunun adını Murad qoyur. Ancaq uşaq elə körpə ikən ölür. Bidiyimiz kimi Xosrov bəy Odessada Tibb

Univesitetini bitirmişdir. Qarabağda işlədiyi müddətdə Xosrov bəy istirahət günlərində Laçına gələr, kəndləri bir-bir gəzər, xəstələri müalicə edərmiş. O, xəstələri dərmanla yox, dağların gül-çiçəkləri ilə müalicə edərmiş.

ELOĞLU

"Ermənilər Qafqazlı deyil. Onlar dünya ölkələrindən qovularkən bu yerlərdə özlərinə sığınacaq tapıblar. Onlar Qafqaza gələndən bəri Qafqaz xalqları narahatdır. Biz ermənilərin Qafqazda qalıb-qalmamalarını Qafqaz xalqları ilə birlikdə müzakirə etməliyik"- deyən Sultan bəy elin yaddaşında ermənilərə qarşı amansız mübariz, xalq qəhrəmanı kimi qalıb. O, 1905-20-ci illərdə Zəngəzurda xalqa amansız divan tutan ermənilər yerində oturtmağı bacarır. (Könül Əhədqızı, "Hərbi and" qəzeti)

Sultan bəy Zəngəzurda böyük hörmət sahibi, el ağsaqqalı kimi tanınan Paşa bəyin oğludur. Paşa bəy övladlarının tərbiyəsinə və təhsilinə böyük qayğıyla yanaşır, onların bir şəxsiyyət kimi yetişmələrinə xüsusi səy göstərirdi. Xalqının tarixini övladlarına aşılayan ata Sultan bəyin hərb sənətinə, Xosrov bəyin tibb elminə yiyələnməsi üçün hər cür şərait yaradır.

Mükəmməl hərbi təhsil alan Sultan bəy rus ordusuna xidmət etməyi qüruruna sığışdırmır. O, Çalbayırda yaşayıb el-obasının qayğısına qalmağı, xalqın güzəranını yaxşılaşdırmağı rus ordusuna xidmətdən üstün tutur. Onun Çalbayır yaylaqlarında on minlərlə qaramalı saxlanılır. Kürdhacıda tikdirdiyi yağ-pendir zavodunda istehsal olunan yağ və pendirin keyfiyyəti hətta digər Şərq və Avropa ölkələrində də danışılırdı. Hacısamlı, Səlvə, Kürdhacı meşələrinin qırmızı palıdını konyak istehsal edən zavodlara daşıtdıran Fransa tacirləri yağ-pendir zavodunun da əsas müştərisinə çevrilir.

Bildiyiniz kimi, həmin dövrdə Rusiya kiçik xalqları əsarət altında saxlamaq siyasəti yürüdürdü. Bu siyasət Azərbaycanda daha dözülməz idi. Rusiya bir tərəfdən ağır vergilərlə xalqı soyur, digər tərəfdən isə onun ziyalılarını Sibir sürgünlərində məhv edirdilər. Onların bu addımı atmaqda yalnız bir məqsədi vardı – müstəmləkəçiliyin ömrünü uzatmaq. Belə ki, artıq cəmiyyətin ziyalı təbəqəsi xalqın azadlığa çıxması fikirlərini təbliğ edirdilər.

Cəsur qardaşlar

Çar Rusiyasının əsiri olan Azərbaycanı qoruyacaq vahid ölkə hələ yox idi. Ayrı-ayrı xanlıqlar, bəyliklər öz mülklərini qorumaq üçün süvari dəstələr saxlayırdı. Sultan bəyin də ailəsini və var-dövlətini qorumaq məqsədilə, çox da böyük olmayan Silahlı süvari dəstə yaradır.

XX əsrin ilk illərindən başlayaraq ermənilər başına toplayıb tez-tez Azərbaycan kəndlərinə basqın edən Andranik Ozanyanın törətdiyi vəhşiliklərin sorağı artıq Zəngəzura da gəlib çatırdı. Bu həmin Andranik idi ki, türk ordusunun sirlərini İngilis kəşfiyyatına salmaq üstündə qulağı kəsilmişdi. Qulağı kəsilən "tayqulaq" Andranik İrəvana gəlib, davakar ermənilər başına toplayaraq silahsız kəndlərə basqınlar təşkil edirdi. Ermənilər azərbaycanlı uşaqları tonqalda yandırır, hamilə qadınların qarnına xəncər soxur, adamların başına mismar çalır, kürəyinə qaynar samavar bağlayır, qız-gəlinlərimizin üzünə sümük və xəncərlə xaç şəkli çəkir, cavanların ayaqlarını nallayırdılar. Onlar kəndləri viran qoyurdu. Qarət etdikləri qənimətlərin hesabına nizami ordu yaradan Andranik Laçın rayonunun Zabux kəndinə hücuma hazırlaşır. Bu hücumda bir gün içində Zabux və Tat kəndlərini dağıdıb, əhaliyə divan tuturlar.

Səbahəddin Eloğlu "Zəngəzur hadisələri" adlı kitabında yazır: "Daşnaq ordusunun əsrin əvvələrində Lənkəranda törətdiyi vəhşiliklərin ən dəhşətlisi Tat qırğınıdır. Andranikin quduzlaşmış ordusunun Tat kəndində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdir.

Bu döyüşdə tatlar balta, yaba və daşlardan istifadə edib sücaət göstərsələr də, qüvvələr nisbəti çox olduğundan düşmənin qarşısını ala bilməyiblər. Daşnaklar əhalinin bir hissəsini odda yandırıblar. Bir dəstə əsiri Zabux kəndinə gətirdikləri zaman erməni dığalar bir gürzə ilanı ağacla götürüb qolları bağlı kişinin ustünə atırlar. İlan dərhal kişinin boğazına dolanıb üz-gözünü gəmirir. Kişi hüşünü itirib yerə yıxılır. Ermənilər yıxılan kişinin başına daş zərbəsi endirib gedirlər. Əsir götürdükləri qadın və qızların saçlarını kəsib çatı toxutdurduqdan sonra onlara işgəncələr verib, çılpaq-çılpaq ağaclardan asırdılar.

Quldurlara xidmət edən bir erməni həkimin göstərişi ilə sağlam kişi və qadınların başlarını kəsib qanlarını qablara yığırlar. 70 uşağın qarnına süngü soxub yol boyu işarə daşları kimi düzürlər. Patrona qənaət etmək məqsədi ilə adamların başını daşların üstünə qoyub gürzlərlə əzərək Zabux çayına tökürlər. Qədim yazılı

ağır bir daşı Ermənistana aparmaq üçün 20 nəfər Tat kişini arabaya qoşurlar. Xumar adlı gözəli Andranikin çadırına apararkən Sərt döngə deyilən yerdən daş götürərək başına vurub özünü öldürür. Xumarın qardaşı İbrahimi isə ermənilər qolu bağlı itlərin qabağına ataraq parçalatdırır, sonra ağaca bağlayaraq sinəsinə bıçaq atırlar.

Daşnaklar törətdikləri vəhşilikləri Zəngəzur camaatı arasında yayıb vahimə yaratmaq üçün bir neçə qadın və kişilərin budlarına, kürəklərinə möhürə bənzər dəmiri qızdıraraq basıb Abdallar kəndinə tərəf buraxırlar. Xəbər Fətəlipəyə, Söyüdlü, Mığıdərə, Malxələf kəndlərinə çatanda camaat sel kimi axışıb köməyə gəlir. Lakin iş-işdən keçmişdi. Kəndlər tamam yandırılmış, əhali qırılıb məhv edilmişdi.

Tat qırğınını törədən Andranik elə həmin axşam elçilərini Sultan bəyin yanına göndərir. O, Sultan bəydən Abdallardan Şuşaya keçmək üçün yol istəyir. Elçilər Sultan bəyə bildirir ki, əgər Andranikin Qarabağ yürüşünün təhlükəsizliyini təmin edə bilsə, ona istədiyi qədər qızıl veriləcək. "Hələ bu ilin igidləri pula satılmayıblar" – cavabını verən Sultan bəy elçiləri qovur.

Belə bir halda əhalini yaranmış təhlükəli vəziyyətdən çıxarmaq lazım idi. Sultan bəy Şuşa quberniyasında işləyən qardaşı Xosrov bəylə təcili məsləhətləşdikdən sonra Andranikə bildirir ki, ermənilərin Qarabağa yürüşünün təhlükəsizliyini təmin etməkdən ötrü ona bir qədər silah lazımdır.

Bu xəbərdən sonra Andranik Sultan bəyə 20 qatır yükü silah göndərir. Sultan bəy ermənilərdən aldığı silahla öz süvarilərini silahlandırır. Qala dərəsindən Şuşaya gedən yolda Yeddiqatın ayağında nal şəkilli pusqu yaradır. Andranikə xəbər göndərir ki, yolda şübhə doğurmamaq üçün topları da sökdürsün və işarəni gözləsin. Andranik onun dediklərinin hamısını yerinə yetirir. Üç gündən sonra Sultan bəy ona gecə gəlib keçməsi üçün xəbər göndərir. Xəbəri alan Andranik Ozanyan silah yüklənmiş 170 qatır karvanını Şuşaya yola salır, özü isə sübh çağı ordu ilə getmək qərarına gəlir.

Gecə Andranikin silah aparan karvanı Yeddiqata çatanda Sultan bəyin pusquda dayanıb gözləyən süvariləri meşədən çıxıb silah yüklü karvanın istiqamətini Kürdhacı kəndinə tərəf yönəldirlər. Bununla da, silahlılar Andranikin ordusunun əlindən çıxmış olur.

Cəsur qardaşlar

Həmin gecə arxa kəndlərdən gələnlər Andranikə çatdırırlar ki, türklər arxadan hücuma keçib. Qayıdıb onların qabağını kəsmək lazım gələcək. Qarabağa göndərdiyi silah karvanının Sultan bəyin əlinə keçdiyini eşidən Andranik dəhşətə gəlir. Səbahəddin Eloğlu bu barədə yazır: "Bu xəbəri eşidən Andranik buraxılmış səhvin nə ilə nəticələndiyini dərk edərək qorxu və həyəcanını ordusundan gizlədə bilməyib çox bərkdən hönkürərək zarıyır"

Orduya geri qayıtmaq əmrini verən Andranik Zabux kəndi yaxınlığındakı dərədən Dığ kəndinə keçəndə Sultan bəyin dəstələri onları mühasirəyə alıb yollarını hər tərəfdən kəsirlər.

Azərbaycanlılara etdikləri vəhşiliklərin müqabilində Sultan bəy quldur ordusunun 30 min əsgərini quzğunlara yedirtdirir. 61 sərkərdənin başını kəsdirib Hacısamlı meşəsində saxlatdırdığı şirlərə atdırır. Hətta yaşlı nəslin danışdığına görə bir müddət Zabux çayından su əvəzinə qan axırmış. Yüksək hərbi biliyə malik olan Sultan bəyin "Güllə ətdən keçib, soyumalı" "Dağlarda tufan", "Zərbə dalınca zərbə", "Nal, şəkilli mühasirə", "Üçbucaq", "Qəflətən hücum", "Güllədən leysan", "Mövqe seçmək bacarığı" kimi hərbi-taktiki üsullardan ermənilərin Zəngəzurdakı vəhşiliklərin məhdudlaşdırılmasında çox böyük ustalıqla istifadə edilib.

Tayqulaq Andranikin ordusunun Zabux kəndində məhv edilməsi əhalidə ruh yüksəkliyi yaradır. Hamı Sultan bəyin dəstəsinə qoşulub, kəndlərini müdafiəyə qalxır. Zəngəzurdan daşnaq qüvvələrini təmizləmək məqsədilə, Sultan bəy öz dəstələrinə 3 istiqamətdə hərəkəti tövsiyə edir.

1. Canqurtaran dağının ətəyində ciddi təlim keçmiş yeddi yüz atlıdan ibarət Minkənd alayı Qaragöl, Üçtəpə, Burunkənd, Gorus istiqamətinə hərəkət etməli və Xınzirək kəndində olan ermənilərə arxadan güclü zərbə endirməlidilər. Sonra Harami düzündən İrana qaçan bir sıra daşnak qruplarını mühasirədə saxlayan Güləbirdli Aslan bəyin və Məzməzək igidlərinin köməyinə çatmalı idilər.
2. Zabux dərəsində qələbə çalan dəstələr Dığ, Xınzirək istiqamətində sürətlə irəliləyib Harami düzünə köməyə gələn İldırım bəyin dəstələrinə qoşulmalıdırlar.
3. Malxələf, Fərəcan istiqamətində hərəkət edib Başarat meşəsinə Haral, Xozabird tərəfdən soxulmuş Qarabağ daşnak qruplarına qarşı vuruşan Kişi Tavat, Ovçu

Sultan Pələng Rəsulun dəstələrinə kömək edib meşəni daşnaklardan təmizləməli idilər.

Göründüyü kimi, hələ XX əsrin əvvəllərində dövlətə və güclü orduya malik olmayan Azərbaycan xalqı öz qüvvəsi ilə erməni quldurlarına qarşı mübarizə aparmağı bacarır. Ermənilər Zəngəzurda və Araz çayı ətrafında olan qədim tarixi abidələri də vəhşicəsinə dağıdırdılar. Daşnaklar bütün bunlarla yanaşı, Qaragöl ətrafında da böyük qüvvə toplayırlar. Məqsədləri yaylaqları tutmaq, Minkənd, Şəlvə istiqamətində hərəkət edərək Dəli dağdan Qarabağa enmək idi. Onların bu təhlükəli planının altında gizli bir siyasət vardı – aranda yaşayan əhalini yaylaqdan məhrum etmək. Belə bir addımla düşmən əhalinin iqtisadiyyatına zərbə vurmaq niyyətində idi. Bu gizli niyyətin qarşısını almaqdan ötrü Sultan bəyin təklifi ilə Qaragöl ətrafında olan bütün bölgələrə könüllü dəstələr yerləşdirilir. Hamı verilən tapşırıqları böyük məsuliyyətlə yerinə yetirməyə çalışırdı.

1917-ci il mayın 10-da Sultan bəyin rəhbərlik etdiyi Qaragöl döyüşü baş verir. Səbahəddin Eloğlu "Zəngəzur hadisələri" adlı kitabında yazır: "Sultan bəy döyüşə rəhbərlik etmək üçün Çınqıllı dağın döşündə tikilmiş alaçığın qabağında atdan düşüb, daşnakların qərargahına və ətrafa bir qədər baxdı. Ona sərkərdələrin gəldiyi və hər şeyin qaydasında olduğu barədə məlumat verildi. Artıq bütün lazımı tədbirlər görülüb qurtarmışdı. Hamı onun işarəsini gözləyirdi. Sultan bəy cib dəsmalını çıxarıb alaçığın qabağındakı daşın üstünə sərdi. Sol döş cibindən Azərbaycan dilinə tərcümə olunmuş "Quran"ı çıxarıb dəsmalın üstünə qoydu və üzü qibleye doğru durub dedi: "Ey Quran", haqq işimizdə bizə kömək elə". Sonra ehtiramla "Quran"ı götürüb cibinə qoydu. Təbəssümlə ətrafındakılara baxıb qaranlıq dərədə yerləşən topçulara tərəf bir fişəng atdı. Bir anda torpağın səsi dağları lərzəyə gətirdi. Sərrast nişanlanmış topların mərmiləri düşdüyü yerlərdə daşnakların bütün sursatlarını göyə sovurdu. Güclü top atəşinə məruz qalan ermənilər səhərin ala qaranlığında nəinki müqavimət göstərməyə imkan tapa bilmir, hətta qaçmağa belə yer tapmırdılar. Hansı səmtə üz tuturdularsa güllə yağışına tuş gəlirdilər. Topların səsinə Gorus şəhərinin və ətraf kəndlərin camaatı da oyanmışdı".

Axşama qədər davam edən döyüşdə Sultan bəy 14 topdan, 40 pulemyotdan, 3 min müxtəlif növ tüfəngdən, 120 qılıncdan, 50-dən çox gürzdən istifadə edir. 9

minə yaxın adamın iştirak etdiyi bu döyüşdə düşmənin əsas hərbi sursatı məhv edilir. 600-dən çox adam əsir götürülür.

Bu döyüşdə qələbənin çalınması Zəngəzur yaylaqıarındakı təhlükəli vəziyyətə son qoydu. Sultan bəy Araz çayı ətrafındakı tərəkəmə ellərinə adam göndərib, yaylağa arxayın köçə biləcəklərini xəbər verdi. Daşnakların Zəngəzurdan qovulub çıxarılmasından sonra müvəqqəti olsa da dinclik yarandı. Yollar təhlükəsizləşdi. Dinc əhali abadlıq işləri aparır, təsərrüfatı canlandırmağa çalışırdı. Amma bu dinc həyat da uzun çəkmir. Daşnakların bəziləri xaricə qaça bilməmişdi. Onlar Gorusda inqilabçıların sıralarında yenə fəallıq göstərirdi. Bu da Zəngəzurda çox təhlükəli vəziyyət yaradırdı. A.Mikoyan, S.Şaumyan Zəngəzur siyasətini həyata keçirməyə başlayır. Bu siyasət Zəngəzurda azərbaycanlıları məhv etməkdən ibarət idi. Minlərlə adam yenidən Gorus türmələrinə salınır. Onlara əzablar verildikdən sonra "inqilab", "yeni cəmiyyət düşmənləri", varlılar, qolçomaqlar və s. adlar qoyaraq özlərinə qəbir qazdırıb saxta hökmlər oxuduqdan sonra güllələyirdilər. Bəzən onlarla adam güllələyib bir xəndəyə tökürdülər. Öldürülənlərin, sürgünə göndərilənlərin sayı-hesabı bilinmirdi. Erməni agentləri rus əsgərlərlə gəlib kəndlərdən mal-qaranı, istədikləri hər şeyi aparırdılar.

Sultan bəydən intiqam almaq istəyən ermənilərin hiyləgərliyi ilə ona dəfələrlə sui-qəsdlər hazırlanır. Qəsdlərin birində atılan güllə çənəsindən dəyərək onu yaralayır. Sultan bəy gələcəkdə vətəni düşmənlərdən xilas etmək üçün xaricə mühacirətə getmək qərarına gəlir. Yaranmış vəziyyətin mürəkkəbliyini dərk edən Sultan bəy Azərbaycan inqilab komitəsinə müraciət edir. Bundan müsbət cavab almayan Sultan bəy İran şahına üz tutur. Şah İranda Rusiyanın erməni agentlərinin çox olduğunu bildirir. Bundan sonra o, Türkiyə dövlətinə müraciət edir. Türkiyə dövləti həm Sultan bəyi, həm də Azərbaycan Xalq Cumhuriyyətinin yaradıcılarından biri olan Xosrov bəyi rəsmi keçidlə qarşılayır. Onlara Ərzurum vilayətində mülk verərək təhlükəsiz həyat şəraiti ilə təmin edir. Sultan bəyin mühacirətindən sonra Laçında qalan ailəsinə burada yaşamağa imkan vermirlər. Bir qədər Qarabağda qohumlarının himayəsində yaşayan ailə sonradan Bakıya köçür. Sultan bəyin xanımı ziyalı qadın idi. O, Qarabağ xanlarının nəslindəndir. Şair Natəvan nəslinin ziyalı qızlarından biri idi. Bakıya gəldikdən sonra o bir sıra məsul vəzifələrdə çalışır. Bir müddət Bakı Şəhər Sovetinin deputatı olur.

30-cu illərin sarsıntılı günləri bu ailənin də faciəsinə gətirib çıxarır. Sultan bəyin qızı Bəyim xanım xatirələrində həmin vaxtı belə yada salır. "Bir gecə qapımız döyüldü. Anam qapını açdı. İcazəsiz evə daxil olan hərbi formalı adamlar evi axtarmağa başladılar. Bir azdan məlum oldu ki, bunlar NKV-də işləyənlərdir. Daşnak agentlər çoxdan bəri evimizi güdürmüşlər. Uzun axtarışdan sonra atamın şəkili, "Quran"ı, lazımı sənədləri, qiymətli əşyalar saxlanan boxçanı yükün arasından tapdılar. Gələnlərdən biri erməni idi. O, atamın şəkilini görən kimi həyəcanla qışqırdı: "Vot, vot Sultan bek". Bir neçə dəqiqədən sonra bizə həbs olunduğumuzu bildirdilər. Əynimizə paltar belə götürmədən Bayıl türməsinə aparıldıq. Burada öyrəndik ki, M.Ə. Rəsulzadənin ailəsi də bu türmədədir. Bizə dedilər ki, 700 azərbaycanlı qadını bu gecə sürgün edəcəklər. Səhərə yaxın bizi yük vaqonlarına doldurub Bakıdan çıxartdılar. Bir aya yaxın yollarda qaldıq. Aclığa, susuzluğa tab gətirməyib ölənləri qatar gedə-gedə hara gəldi atırdılar. Körpələrin vəziyyəti daha ağır idi. Silahlılar azərbaycanlı uşaqlara düşmən uşağı kimi baxırdılar. Azərbaycanlıların məzarları üstündə kimlik yazmağa belə icazə vermirdilər".

Beləcə, yollarda məhv olanlar harda gəldi dəfn olunurdu. Bu hərəkətin altında da gizli bir siyasət yatırdı. Onlar gələcəkdə iz qalmamasından ötrü qəbiristanlıq yaratmağa da qoymurdular.

Həbs düşərgələrində azərbaycanlılara olmazın zülm verirdilər. Çünki əsirlərin ixtiyarı ermənilərin əlində idi. Onlar qadınların üstlərində təsadüfən qalan ziynət əşyalarını açır, qızıl dişlərini isə kəlbətinlə sındırıb çıxarırdılar. Qazaxıstanın bərbad vəziyyətdə olan vilayətləri milyonlarla soydaşımızın zəhməti hesabına abadlaşdırıldı.

Sürgündə olan ziyalılar uşaqlara savad öyrətmək məqsədi ilə dərnək təşkil edirlər. Sultan bəyin həyat yoldaşı da burada müəllim kimi fəaliyyət göstərir.

O, 1948-ci ildə icazə alıb Bakıya gəlir ki, M.Bağırovla görüşsün. Görüş baş tutur. Qadının məqsədi ailənin Bakıya qayıtması idi. Bu fikri eşidən Bağırov bildirir ki, Sultan bəy nəslinin ayağı bir daha Azərbaycan torpağına dəyməyəcək. Qadın qəbulda olanların yanında Bağırova cəsarətlə bu sözləri deyir: "Sultan bəy xalqının qəhrəman oğludur. O, Zəngəzur xalqını daşnaklardan xilas edib. Tarix

bunu heç vaxt unutmayacaq. Amma sən, bu gün Azərbaycan xalqını sürgünlərdə məhv edən xalq cəlladı kimi xalq qarşısında cavab verməli olacaqsan".

Cəsarətli qadın yenidən Qazaxıstana qayıdır. Ailə 1955-ci ilə qədər burada sürgündə qalır. Onlar Azərbaycana qayıdan zaman M.Bağırovun məhkəməsi gedirdi. Vaxtilə öz etiraz səsini ucaldan qadın da bu məhkəməyə dəvət alır. Lakin o, məhkəməyə nədənsə getmir.

Xalqın yaddaşında elinin mərd oğlu, daşnaklara qarşı amansız mübariz kimi qalan Sultan bəy həm də gözəl insan idi. O, xidmətçilərinə tapşırırmış ki, yanına gələnləri yedirtməyincə evdə olub-olmadığını deməsinlər. "Uzaqdan gələnlər bilsə ki, evdə yoxam, ac qayıdıb gedərlər".

Ağanus ətrafında gedən döyüşdə 400 erməni qadını əsir alınır. Sultan bəydən onlarla necə davranmağı soruşduqda deyir: "Buraxın getsinlər. Biz də qadın öldürsək, onda ermənilərdən nə fərqimiz?".

Millətinə xas olan qorxaqlığı özündə təcəssüm etdirən Andranik Sultan bəyin göndərdiyi elçiləri pərdə dalından danışdırarmış ki, onu tanımasınlar. Amma Andranikin göndərdiyi ermənilər Sultan bəy özü mərdi-mərdanə qəbul edərmiş.

Deyilənlərə görə Sultan bəy vətəndən gedərkən Kürdhacı kəndi yaxınlığındakı dağa çıxıb, Zəngəzur dağlarına nigaran-nigaran baxaraq bu bayatını deyib:

Mən aşiq dolan gözüm
Dol gözüm, dolan gözüm.
Gedərsən, qayıtmazsan
Vətəni dolan gözüm.

Bütün bu hadisələrin üstündən illər keçib. Yenə də həmin torpaqlarımız erməni əlindədir. Dağ adamları həsrətlə yenə də dərdini bayatılarda dilə gətirir. Ermənilərin törətdiyi vəhşiliklər nə XX əsrin əvvəllərindən, nə də sonralarından başlayıb. Bu uzun əsrlərdən bəri belə olub. Bütün yaşananlar Qarabağ müharibəsində də yenidən təkrarlandı.

Bunu yenə də eynilə təkrarlayan ermənilər Xocalıda azərbaycanlılara dözülməz işgəncə verərək öldürülənləri xəndəkdə basdırırdılar. Tarixi abidələrimizi məhv etməyə çalışan düşmən indi də bunu davam etdirir. Tarix boyu ruslarla müttəfiq olan ermənilərin törətdiyi dəhşətləri saymaqla qurtaran deyil. Bütün bu həqiqətləri bilə-bilə biz yenə də ermənilərlə torpaqlarımızı bölüşüb

dostluq, qohumluq əlaqələri qurmuşuq. Görəsən bu nədən irəli gəlib? Xalqımızın sadəlövlüyündən, yoxsa unutqanlığındanmı?

Amma biz olub-bitənləri xatırlayıb bir şeyi unutmamalıyıq: "Erməni elə ermənidir. Qundaqda olan körpələrinin qulağına "Türk bizim düşmənimizdir" sözləri pıçıldayan erməni".

VI FƏSİL

ANİKİN VƏ SİRANUŞUN YOLA SALINMASI.

Kərbəlayi Səkinə yaman narahat idi. Axı Əbdürrəhim bəy bu axşam gəlməli idi, çünki jandarımlar bilirdi ki, Anik və onun həyat yoldaşı buradadır. Onda vəziyyət pis olar. Gorus türməsindən qaçan adamları hər yerdə axtarırlar, həm də qonaqlar getsə idi özü də Sultan bəyin yanına gedib vəziyyətlə tanış olardı. Artıq gün batır, o, Həbibi çağırıb atı yəhərləməyi tapşırdı ki, getsin Nəzir obasına Qasımla görüşüb bu vəziyyətin necə olmasından və nə tədbir görülməsindən bir xəbər tutsun. Axı bilirdi ki, Sultan bəyin çaparları tez-tez Qasımgilə gəlib müəyyən xəbərlər verirlər. Axı həmin illər kimin nəyi var idisə satıb silah alır, Sultan bəyin dəstəsinə göndərir, kimi qış üçün saxladığı cöngədən və qoçdan sürülər düzəldib Sultan bəyin dəstələrinə göndərirdilər. Çay qırağı kəndlərdə bu işlə Qasım məşğul olurdu. İlk çəltik elə xırmandan yüklənib Sultan bəyə göndərilirdi ki, vətəni qoruyan övladlarımız yesin. Bax elə o vaxtlar ən yaxşı qoyun növləri Sərxanlı totalar sortlarını yaxşı qaragüllü erkəklər, sürülər yığılardı Nəzir obasına, Qasım da göndərirdi Sultan bəyə. Bəli, o vaxtlar belə idi. İndi isə hamı pullarını xarici banklarda gizlədir, Vətən uğrunda xərcləmir. Vətən isə ağır gündədir. Kərbəlayi Səkinə mauzerini çiyninə salıb Təhlicədən yoxuşu çıxır, at isə elə bil hiss edir ki, buralar uçurumdur, o da ehtiyatla gedir. O Humay düzünə çatanda ay təzəcə çıxmışdı. Bu işıq bu düzlərə, bu dağlara elə gözəllik verirdi ki! Onun şüaları Humay qayasından Ağ oyuğun yalına düşdükcə daşların üzərində olan əlvan metallar işığı əks etdirirdi. Hamısının səbəbi o Allah təalanın bu torpağa, bu məmləkətə verdiyi gözəllikdir. Necə ki, bu kainat var, demək bu torpaqdan heç vaxt müharibələr əksik olmayacaq. Atın cilovunu vurub – Allah Kərimdir – dedi. At qara quzeydən enib Nəzir bulağına tərəf endi. Bulaqdan bir qədər su içib yenidən Nəzir obasına tərəf getdi. Qasım çöldə qonaq gözləyirmiş kimi gəzişirdi.

Axı o bilirdi ki, obaya yad adamlar gəlib-gedir. Hələ Səkinə Nəzir bulaqdan atını ala baş bulağa sarı sürümüşdü. Onun üçün Qasım itlərin qabağına çıxıb itləri sakitləşdirdi. Kərbəlayi Səkinə atdan düşüb Qasımla hal-əhval tutdu. – Hə, Qasım, yaman narahatsan. Uşaqlar necədir? Gəldim görüm nə xəbər var. Sultan bəyə nə kimi köməklik etmək lazımdır. Qasım təmkinlə onu dinləyib: Kərbəlayi, hər şeyi var, görək bu dığaların ağıllarını başlarına qoya biləcəyikmi? Axı od qonşusuyuq. Niyə onlar belə edirlər? – Eyib etməz. Hə, qardaş oğlu, artıq gecdir, gedim görüm Əbdürrəhim bəy kəntdədirmi? Qasım çox təkid etdi ki, qal bir qədər söhbət edək. Kəblə Səkinə: yox, qardaş oğlu, gedim. (F.S. "Anam niyə ağlayırmış")

Qasımın anası Xanpəri də çox minnət etdi ki, Kəblə Səkinə qalsın. Amma olmadı: -Yox, Xanpəri, uşaqlar evdə təkdir. Vallah sizinlə oturub söhbət edəndə elə bil ziyarətə gəlirəm. Allah qoysa gələrəm. Di sağ olun. Qasım qardaşı Şamili çağırıb: Kərbəlayını apar qoy Təhlicə obasına, - dedi. Kərbəlayi nə qədər təkid etsə də, Qasım razılaşmayıb onu Şamil ilə yola saldı. Humay düzündə Kərbəlayi Səkinə: Oğul, qayıt, bax mən enişi enirəm, ora bizim obadır.

-Nə danışırsan, axı Qasım qağam (biz tərəflərdə böyük qardaşa Qağa deyirlər) mənə tapşırıq verib ki, gərək aparam obaya qoyam, sonra qayıdam. Kərbəlayi Səkinə qabaqda, arxada isə Şamil Təhlicəyə enirlər. Artıq obanın itlərinin hürüşmə səsləri eşidilirdi. Bozlar qara nəfəs Kəblə Səkinənin atlarının az qala ayaqlarını yalayır, atılıb düşür elə bil nə isə xəbər vermək istəyir. Kəblə atın cilovunu çəkib: Qardaş oğlu, bax görürsən mənim vəfalı itim mənim yanımdadır. İndi sən qayıt. Naəlac qalan Şamil atın başını döndərib geriyə qayıtdı. Kərbəlayi Səkinə evə çatanda gördü ki, Əbdürrəhim bəy kahanın qabağında onu gözləyir. Onlar salamlaşdılar.

Hə, bibi, mən gəlmişəm. Səni evdə görməyəndə yaman narahat oldum. İstədim sənin arxanca gəlim, ancaq Telli getməyimə razı olmadı. – Mən səndən yaman narahat idim. Sultan bəydən nə xəbər var? Allaha çox şükür olsun ki, sağ-salamat gəlmisən. Bir qədər söhbətdən sonra: - Kəblə Səkinə mən gərək gedəm. Sultan bəyin bir qədər tapşırığı var, gərək çatdıram Süleyman bəyə, Şamil bəyə, çünki ay Kərbəlayi Vətən dardadır. Biz bir iş görməsək, millət ayaq altında tapdalanar. İndi ver əmanəti aparıb yerinə çatdıraram. Kərbəlayi Səkinə: - Hə, Həbib, get o gavurlara denən hazırlaşsınlar, yola salaq getsinlər. Həbib tez gedib

Aniklə Siranuşun atlarını hazırlayıb hər ikisinə xəbər verdi. Anik və Siranuş Kərbəlayi Səkinənin qarşısında durub: Bəlkə biz getməyək – deyə Anik dilləndi.

-Yox, nə danışırsınız, axı sizə mən cavabdehəm. Siz burada qalsanız, iy bilmişlər gəlib burada sizi görərlər və burada sizi asarlar. Siranuş Kərbəlayi Səkinənin ayaqlarını qucaqlayıb: Yox, mən getmirəm! Ölsəm də burada öləcəyəm. Sakit ol qızım, hər şey yaxşı olacaq. Narahat olma- deyib Siranuşu sakitləşdirdi. Artıq Əbdürrəhim bəy Siranuşu sakitləşdirib: - Arxayın ol qızım, sizi və bax bu iki torba qızılı hara desəniz ora aparıb sağ-salamat çatdıracağam, çünki siz mənim qeyrətli bibimin əmanətlərisiniz – deyib atını Araza sarı sürdü. Bunlar gedəndən sonra Kərbəlayi Səkinə bir qədər sakitləşdi. Ancaq ürəyi Nəsibin yanında idi. Axı o bilirdi ki, Vətənin, elin-obanın qeyrətli oğlanları hamısı yığışıb Sultan bəyin ətrafına, indi ölüm-dirib savaşı olmalıdır. Bax bunun üçün darıxırdı. Öz-özünə fikirləşir ki, bəlkə sübh açılanda yola düşüm, gedim Sultan bəyin görüşünə, ancaq hər gecə-gündüz jandarmlar gəlib Nəsibi axtarır. Birdən Həbibi apararlar, tufağım dağılar. Bəlkə bir qədər gözləyim belə fikirlərlə Kəblə Səkinənin nə gecəsi, nə də gündüzü var idi. Ancaq obalara artıq səs düşmüşdü ki, Zabux dərəsində qanlı döyüşlər gedir, bir də Çayqırağında Həkəri çayının ətrafında hər gün erməni meyitlərini yığıb basdırırlar. (“Qana boyanmış Quran, səh. 17) artıq savaş qurtarıb, Sultan bəyin qoşunları bütün Zəngəzurdan Andranikin dəstəsini qovub, Sarıqamışa qədər onlara qan utdurub. Sonra isə Çayqırağına yığışan qaçqınlar öz obalarına gedib bir qədər rahat nəfəs aldılar. Kərbəlayi Səkinə hər gecə nəvələrini başına yığıb: - Qaqam nə vaxt gələcək? – sualını eşidəndə elə bil arvadın boğazına qızdırılmış şiş soxurdular. O, hətta udquna da bilmirdi. Kiçik, dörd yaşlı Həyatı bir qoltuğuna, iki yaşlı Hümməti isə bir qoltuğuna alıb başlarını sığallayırdı. Elə bil bu uşaqların yanında o günahkar idi. Axı o, iyirmi üç baharını yaşamış dağların Ceyranını özü öz əliyilə vurmuşdu, belə gözəlin namusu gavurların əlinə düşməsin deyə. (F.S.“Qana boyanmış Quran”, səh. 15) hər dəfə o hadisəni yadına salanda bu uşaqların üzünə baxa bilmir, tez Tellini çağırıb: “Qızım, bunların anasının qatili mənəm. Səni and verirəm Allaha bu uşaqlara elə bax ki, qoy anasızlıqlarını hiss etməsinlər”. Anasına bənzər dörd yaşlı Həyat hər gün nənəsinin qucağına girib: Nənə bəs dədəm Məmmədrəhim və Gülzar nə vaxt gələcəklər? – sualını verəndə yenə Kərbəlayinin daxilində elə bil vulkan püskürür və: “Hə, qızım, gələcək,

fikirləşmə" – deyərək körpənin qəlbini ovudurdu. On üç yaşlı bacısı Fatimə həm Həyatın həm də Hümbətin əllərindən tutub yanında gəzdirib, gül-çiçək toplayıb onların xatirinə oynayırdı. Artıq bu obada hamı bu uşaqların nazı ilə oynayır, kimin əlinə nə düşürdüsə Həyat ilə Hümbətə verirdi. Hamı kimi bunlar da körpə tələffüzü ilə: "Qaqam nə vaxt gələcək" –deyirdilər. On üç yaşlı Fatimə də: "Hə qaqaş, sən yekələcəksən, bax onda Nəsib qaqam gələcək". Bu an üzünü onlar görməsin deyə, yana çevirib göz yaşları tökürdü. Demə, mənim anam hələ çox gənc ikən, on üç yaşlarından ağlayırmış və bununla da ürəyini sakitləşdirirmiş. Deyirlər insan ağlayanda onun daxili bir qədər sakitləşir. Ancaq zəmanənin sərt, amansız qalmaqalı məcbur etdi ki, gizli yox, artıq ellərə obalara fəryadını çatdırmaq üçün gənc yaşlarında böyük qadınlar kimi ağılar deyib, göz yaşı töksün, ürəyi sakitləşsin. On üç yaşında ata nəvazişini itirmiş, o illərin sevimlisi olan gözəl Gülzarı itirmiş, gecə-gündüz qardaşı Nəsibin qartal tək qayalarda yatmasını fikirləşdikcə göz yaşlarını tökən Anam demə hələ körpə vaxtlarından ümidini göz yaşlarına tikibmiş. Demə, anamın göz yaşları bütün Azəri analarının fəryadı və göz yaşı imiş. (F.Süleymanov) İndi bunu duymaq və dərk etmək lazımdır. İnsan heç vaxt ölənlə ölmür, lakin gənc yaşlarından ürəyinə xallar düşür və kövrək olur. Onun qəlbi həssas və qayğıkeş olur. Demə, mənim anam ona görə həm qayğıkeş, həm də həssas imiş ki, o hadisələri gözü ilə görüb, onunla yaşayıb. Demək, bütün Türk dünyasının anaları beləcə həssas və kövrək olurlarmış. Nəsib artıq Zəngəzurda Dövlər tərəfindən ən qorxulu Qaçaq adlandırılırdı, onu tutmaq üçün hər yerdə pusquda durmuşdular. Ancaq Nəsibi tapa bilmirdilər. Harada bir erməni daşnakı var idisə, Nəsibin qorxusundan çölə çıxa bilmirdi. Bunun hesabına Zəngəzurun qoçaq oğlanlarını hər gecə aparıb Gorus qazamatxanasına salır və Nəsibin yerini deməyi tələb edirdilər. Artıq başqa yerdə olduğu kimi, bu bölgələrdə də Şura hökuməti qurulurdu. Nökərə, çobana –hərəyə bir firqə bileti verib varlılara, bəylərə qarşı amansız mübarizəyə qaldırırdılar. Nəsib gecələr evə gəlir, ailəni kimlər incidirdisə, onlarla haqq-hesab çəkirdi. (F.S. "Anam niyə ağlayır")

Bir gün gecənin sakitliyini atəş səsləri pozdu. Təhlicə obası, Nəzir obası mühasirədə idi. Obaların üstünə güllə yağdırırdılar. Həm Qasımgilin obasına, həm də Kərbəlayi Səkinənin obasına hücum etmişdilər. 1923-cü il idi. Qasımın kiçik

qardaşı Cəbi yenicə evlənmişdi. Gələnlər tələb edirdilər ki, Nəsibin yerini deyin. Qasım təmkinini pozmadan irəli yeriyib dedi: -Nə istəyirsiniz, oğul? Mən lazımam məni çağırın. Bu arvad-uşağın günahı nədir?

-Hə, o vaxtlar Sultan bəyin dəstəsini silahla, ərzaqla təmin edib yola salanda bilmirdin ki, hökümət gələcək? Hökümət əleyhinə beş il dağlarda heç kimə tabe olmayan Nəsibin bacısını özünüzə gəlin gətirəndə nə düşünürdünüz bəs? İndi hamınızın əlini-qolunu bağlayıb o Gorus qazamatına aparıb orada güllələyəcəyik. Onda Nəsib gələr və sizi o türmədən qurtarar – deyb Qasımın əllərini bağladılar. Qasımın kiçik qardaşı Şamil də çölə çıxan kimi onun da qollarını bağladılar. Bu vaxt ailənin kiçik oğlu Cəbi isə qara quzeydə Mollayı yaylağında idi. Cəbi artıq onların danışıqlarını eşidir, birnəfəsə Günbəzə sarı çapırdı. Axı o bilirdi ki, Nəsib gecələr Çömçəli bulaqda, Qara gahada qalırdı. O kahıya yüzlərcə adam gəlsəydi belə, tək hamısı ilə döyüşə bilərdi.

Təhlicə obasında Kərbəlayi Səkinəni, qolları bağlı Həbibi Nəzir obasına sarı apararkən beş yaşlı Hümbət nənəsinin tumanından tutaraq – "Mən də gedirəm" – deyə nalə çəkirdi. Uşaq heç cürə ayrıla bilmirdi. Kənarda duran erməni milisi tüfəngin qundağı ilə uşağın başından elə vurdu ki, uşaq başı kəsilmiş toyuq kimi yerində çabalamağa başladı. Kərbəlayi Səkinə uşağa sarı əyiləndə, onu yenə də qundaqla vurdular, "tez, irəli" – deyərək əmr etdilər. Ancaq Kəblə Səkinə özünü uşağın üstünə sərib başından axan qanı yalayır və elə bil qan çıxan yerə dilini sıxaraq qan fontanının qabağını alırdı. Güclü əllər Kərbəlayi Səkinədən yapışıb onu atın üstünə qoyub sarıdı və tez hərəkət etməyə başladılar. Çınqıllıya çatanda Qasımla Şamilin əli-qolunu bağlı gördülər. Hər tərəfi əli silahlı jandarmlar əhatə etmişdi. Üç kişi və bir qadını Gorusa tərəf aparırdılar. Həmin gün, yəni on səkkiz yaşlı anamın yenicə həyat qurduğu həmin gecə, (F. Süleymanov) 1923-cü ilin soyuqlu noyabr gecəsi o, ayağıyalın, başıaçıq soyuqlu bir ruzigarda atasının elindən atışma səsini eşidərək, Nəzir obasına kimi göz yaşları tökə-tökə qaçırdı. Bədənindəki ağrıları belə hiss etmədən tələsir. Axı oralar başdan-başa qara tikan kolluğu ilə doludur. Kolluq sıx meşələr kimidir. Kollar onun bədənini, ayaqlarını dağıdır o, hiss etmir, bədənindən qan axır, fərqinə varmır, tələsir ki, Təhlicəyə - öz obalarına çatsın. Bu zaman anası Tellininin naləsini eşidir. Bu səsin içərisində üç körpə səsini də aydınca eşidirdi. Daş kahada zəif çıraq yanır, o çırağın zəif şöləsi

yerdə uzanmış beş yaşlı Hümbətin çox zəif səslə: - "Anama gedirəm. Bəs deyirdiniz mənim anam Gülzar çox gözəldir. Axı niyə məni ona vermirsiniz?" sözləri eşidilir. Bu an mənim anam yenicə gəlin gəlmiş, əlləri hələ də hənalı idi, qara quzeyin daşları üstdəki mamırlardan hazırlanmış hənanın rəngi solmamış və iyi çəkilməmiş əlləri ilə o gözəl üzünü dırnaqları ilə cırır, şivən qoparır, qan üzündən süzülür, özünü Hümbətin üstünə atır. Elə bil uşaq huşa gəlir və ən çox sevdiyi bacısını – Fatmanı görür. – Bacı sən gəldin? Bəs mənim gözəl Gülzarım hanı? Mənim nənəmi də bax mənim kimi vurdular, yəqin nənəm öldü. Bax, gəlinbacı, mən ölürəm, özü də indi, bilirəm ki, gedirəm gözəl Gülzarın yanına. Gəl səni öpüm, gəlinbacım – deyə rəngi solmuş, bənizi, üzü qanlı, anama sarı əyildi. Ancaq taqəti çatmadı, əlini anamın əlinə qoyan zaman artıq əli buz tək soyuq idi. Son sözünü deyən beş yaşlı körpə bir çigin idi. Kişi kimi can verirdi:

-Bax, mən ölməsəm, yekələndə bu intiqamı yerdə qoymaram – deyən Hümbətin gözləri bərələ qalıb həyatla vidalaşdı. Dörd bacı, bir ana körpəni duz kimi yalamağa başladılar. Telli: - "Nə etmək olar, bizimki də belə gətirdi" – deyərək qara kələğayını buza dönmüş cəsədin üstünə sərib, həzin-həzin göz yaşları axıdırdı. Gecənin sakitliyini Alabaş pozurdu. Tez Telli çırağı söndürüb it hürən tərəfə çıxdı. Araz tərəfdən bir atlı gəlirdi. Tanıdı, qardaşı Əli idi.

-İlahi, sən insanları darda qoyma-deyərək o qardaşının qabağına yeridi. Axı insan dar gündə olanda həmişə özünə arxa axtarır. Elə bil Telliyə dünyanı verdilər. O, hadisəni Əliyə danışdı, sonra kahıya keçdilər. Əli tez çırağı yandırıb, qara Şamaxı kələğayısını qaldıranda Hümbəti yatmış bilib tez dedi: - Bacı, bu uşaq ölməyib ki, tez bir şüşə qırıntısı ver. "Ay qardaş, şüşəni haradan alım" – deyəndə tez Fatma qoynundakı kiçik bir güzgünü çıxarıb dayısı Əliyə uzatdı. Əli güzgünü uşağın ağzında bir qədər saxlayıb: Hə bacı, bax tərlədi güzgü. Həzin-həzin nəfəs alır. Bunu deyəndə elə bil bacılara həyat verdilər. Əli diqqətlə uşağın yarasına baxıb, yəqin buralarda haradasa qar var. Hə bacıqızı dur, atın tərkinə min gedib qar gətirməliyik. Bu uşağın başını qara basdırmalıyıq. Tez Əligil atlanıb, Qara Quzeyə qar gətirməyə getdilər.

Cəbi xəbərə qaçır.

Qara Quzeydən Nəzir obasındakı hadisəni və Təhlicədəki atışmanı ermənilərin obanı dağıtmağını, qardaşlarının və Həbibin, Kəblə Səkinənin

qollarının bağlanıb, Gorus türməsinə aparıldığını görərək, Nəsibə çatdırmaq üçün Çömçəli bulağa atlı çapır. Atın ayaq səsinə oyanan Nəsib tez kahadan çıxıb qara qayaya söykənir. Gələn adamın kim olduğunu öyrənmək istəyir. Nəsib gələnin Cəbi olduğunu görərkən nəsə bir hadisə olduğunu anladı və tez: "nə xəbər?" – dedi. Cəbi tələşlə: - "Camaatın əl-qolunu bağlayıb Gorusa aparırlar." Nəsib tez yanındakı Məzməzəkli Mehtiqulunu, Qoqo Səmədi götürdü və Cəbi ilə birlikdə dördnala çapıb Diş ağacının yanındakı təpənin üstündə uzandılar. Artıq gecə yarı idi. Təkgünbəz tərəfdən gələn yolda ay işığında qaraltı görünürdü. Bu qaraltı get-gedə yaxınlaşırdı. Nəsib pıçıltı ilə -"hazır olun, ancaq biz seçməliyik ki, kim atın üstündədir. Birdən bizimkiləri ata mindirərlər ha. Ehtiyatlı olun. Hamısı köpək tək gəbərməlidirlər. Bizimkiləri sağ aparmalıyıq, ancaq qaranlıqdır, seçmək mümkün olmur." Qaranlıq idi, hamısını da ata mindirib əl-qolunu bağlamışdılar. Heç cürə bunları ayırmaq mümkün deyildi. Nəsib hərənin bir tərəfə getməyini tapşırdı. "Mən dillənməmiş heç kəs bir kəlmə də olsun danışmasın." Artıq dəstə yaxınlaşırdı. Qəflətən Nəsib: "Əlləri yuxarı qaldırın və silahları yerə atın!" əmrini verdi. "Hamınız məhv olacaqsınız." Hər tərəfdən Nəsibgil atəş açdılar. Artıq mühasirəyə düşmüş ermənilər uduzduqlarını görüb yalvarmağa başladılar. Nəsib yenə əmr edir: "Hamınız silahları yerə atın və bir neçə addım geri çəkilin! Əlləri bağlı adamlardan geri durun, yoxsa yenə atəş açacağıq. Əgər bizim dediklərimizi yerinə yetirsəniz, onda sizi evinizə salamat buraxacağıq." (F.Süleymanov "Anam niyə ağlayırmış")

Bu an Təkgünbəzdən iki atlı dördnalla çapırdı. Ay işığında atlar elə gəlirdi ki, ayaqları altından sanki alov püskürürdü. Artıq atlar yaxınlaşırdı. Nəsib atlını tanıdı. O, Mollu kəndindən olan Qara Hüseyn idi. (Qaçaq Nəbinin əmisi oğlu) Axı onu da Zəngəzur milis rəisi axtarırdı. Həm də onların başına qızıl pul qoymuşdular. Onlar isə ancaq gecələr bir-biriləri ilə əlaqə saxlayırdılar. Demək gecələr obaya gəlir, Səkinəgildə Əli ilə görüşür və Əli bütün hadisələri ona danışır. Belə qərara gəlirlər ki, köməyə getmək lazımdır. Əli də Mollaburan kəndindən idi. Məmmədrəhimin yoldaşının qardaşı, yəni Tellinin qardaşıdır. Artıq Nəsib dayısını və Qara Hüseyni tanıdı. Qara Hüseyin Gorusun təzə milis rəisinin müavini Aşotu tanıyan zaman: Hə, Aşot, özündən küs. Axı bir neçə dəfə diz çöküb "məni burax" demişdin, indi yenə buraxardım, ancaq o beş yaşlı uşağın nə idi günahı ki, onu o hala salmısan?

İndi o can verir. Bir də ki, kişi kişini tutar. Bəs bu arvadın günahı nə idi. İndi cavab verməlisən. Artıq milis işçilərini elə mühasirəyə almışdılar ki, onlar bir kəlmə də olsun danışa bilmirdilər. Tez Əli Qasımın, Şamilin, Kəblə Səkinənin, Həbibin əllərini açdı, ermənilərin tüfənglərini onlara verib: Hə, indi vurun bu köpəkləri, bir də bu yerlərə hərlənməsinlər. Qasım təmkinlə dedi: Yox, öldürmək lazım deyil. Buraxın qoyun getsinlər, yəqin ki, onlar da öz paylarını götürərlər. Qara Hüseyn:- Nə danışırsan, ə, sən o körpəni görsən, bunları diri-diri soyarsan, Qasım – deyərək elə oradaca hər birinə bir güllə açdı. Hər üçü yeri cırmaqlayırdılar. Lakin milis rəisinin müavini dizin-dizin sürünüb Kəblə Səkinənin ayaqlarına tərəf gəldi: - "Sənə qurban olum, ay Kərbəlayi Səkinə, mənə kömək et". Hümbətin ölümünü eşidən Kəblə Səkinə mauzeri çıxarıb düz Aşotun gicgahına atəş açdı. Sübhün açılmasına az qalmış hamısı Təhlicə obasına getdilər. Kahaya girəndə Hümbətin saralmış bənizini və güclə nəfəs aldığını görən Kəblə Səkinə: Nənəm sənə qurban, oğul – deyib soyuq dodaqlarından, üzündən öpdü. Mənəm, nənən Kəblə Səkinəyəm, gözünü aç, yadigarım. Elə bil uşağa qüvvət verildi. Gözünü açan zaman uşaq təbəssümü ilə gülüb: - Hə, nənə, sənsən, gəldin. Mən elə bilirdim gavurlar səni də öldürdü. Bəs gözəl Gülzarı niyə gətirmədin? Nənə, əgər gətimisənsə, qoy mən onun ağuşuna gedim. Hər gözümü yumanda yuxu görürəm. Görürəm ki, o Ağ Yoxuşun başında durub hey yalvarır ki, gəl körpəm, gəl mənim ağuşuma. Axı səni doyunca iyləməmişəm. Səni doyunca öpməmişəm hələ. Əgər gətirməmisənsə, məni rahat burax, mən gedirəm öz gözəl Gülzarımın qucağına. Mənə ora rahatdı deyib gözlərini adamlara sarı tutdu və birdən öz doğma bacısı Həyata sarı dönüb: "Gəl bacı, gəl. Mən artıq dünyadan köçürəm, sən isə tək qalırsan. Axı hər dəfə sən məni qucağına alanda deyirdin ki, gəl səni iyləyim. Axı səndən gözəl Gülzarın iyi gəlir. Gəl, gəl axırıncı dəfə məni iylə, qoxla" deyib gözlərini əbədi yumdu. Artıq hamı ağlayırdı. Bu uşaq elə bil böyük adamlar tək danışırdı. Təhlicədən Nəzirə gedən yolun qırağında məzar qazıb onu orada dəfn etdilər. Mən həmişə mal nobatına gedəndə, anam da mənimlə gedirdi. Həmin kiçik məzarın başına fırlanıb şivən qoparırdı. Sən demə, anam bax bu dilli-dilavər Hümbət üçün ağlayırmış. (F.Süleymanov)

Deyirlər torpağın üzü soyuq olur. Bax, bu dilli-dilavər uşağı soyuq torpağa qoyandan sonra elə bil rahatlıq oldu. Artıq şivən etmirdilər, ancaq öz daxillərində

ağlayırdılar. Hamı süfrədə oturub çörək yeyəndə obaya tanış olmayan atlı gəldi. Kərbəlayi Səkinə uşaqlar bilməsin deyə, özünü Tənəki dərəyə salıb atlının kim olduğunu bilmək istəyirdi. Atlı Kərbəlayi Səkinəyə yaxınlaşıb "Məmmədrəhimin obası buradadırmı?" –deyə soruşdu.

-Oğul, buradır. Xeyir ola.

-Ana, siz kimsiniz? –deyə şübhəli-şübhəli soruşdu.

-Oğul mən elə o obadanam. De görüm nə olub?

-Ana, mənə Nəsib lazımdır, ona vacib sözüm var.

Kərbəlayi Səkinə təmkinini pozmadan: - De, oğul.- dedi.

-Yox, ana, bu mümkün deyil. Mənim özümün ona deyilməli sözüm var. Mənə tapşırıblar ki, ancaq özünü tapıb deməlisən.

-Hə, oğul, de görək kim deyib? Atlı yan yörəsinə baxıb, sakitcə: "Məni bu bölgənin, yəni Kürdüstan bölgəsinin milis rəisi Baba göndərib, təcili söz deməliyəm". Ani olaraq Kərbəlayi Səkinə fikrə getdi: - Hə, oğul, Baba qeyrətli adamdır. Onun sözü bizə lazımdır. Gəl obaya gedək.

-Yox, onun özünü bura çağırın. Bu çox məxfidir.

-Hə, oğul, sən bu bulaqda əl-üzünü yu, mən də sənə çörək gətirim. Elə buradaca danışın. Mən də o daşın üstündə oturub sizi güdəcəyəm, qorxmayın. Tez obaya gəlib Telliyə dedi: -Bir süfrə çörək hazırla, aparım Tağlı bulaqda qonağımız gəlib, ona verim. İçəri keçib Nəsib, bir dəqiqə çölə çıx, sənlə işim var – dedi. Qara Hüseyn mauzerini istəyəndə: Yox qardaş, sən otur. Beş dəqiqəyə Nəsib gəlir. Hacı sakitləşdi: Nəsib çölə çıxanda: Baba qardaş sənin yanına adam göndərib. Deyir ki, vacib işim var gedək görək nə deyir. Kərbəlayi Səkinə süfrəni qoltuğuna vurub Nəsiblə Tənəkli dəyərə getdilər. Nəsib həmin adamla görüşüb, eşidirəm deyərək dilləndi.

-Bilirsən, Gorusdan bir teleqraf gəlib ki, bəs Qara Hüseyn Türkiyədən gəlib Nəsibin dəstəsi ilə birləşib. Zəngəzurda ermənilərı qırır. Baba dedi ki, hələlik o Qara Hüseyni götürüb müvəqqəti yenə Türkiyəyə getsin. Görək ara sakitləşsə, onda özüm xəbər göndərərəm. Çünki Mərkəzə xəbər veriblər. Yəqin ki, ya sabah, uzağı biri gün hökmən ruslarla erməni milisləri gələcək. Axı elə qeyrətli oğlanlar olmasa indi Zəngəzurun obalarının hamısı məhv olardı. Daha mən ləngiməyim – deyib çörək süfrəsini də atın tərkinə bağlayıb qəzaya getdi. Nəsib evə qayıdanda

hamı narahat idi. Nəsib isə heç nə olmamış kimi süfrədə oturub bir qədər söhbətdən sonra Qara Hüseyini saxladı. "Sən qal sənlə işim var." – dedi. Hər ikisi kənara çəkilib gizli söhbət etməyə başladılar. Gecə yarısı anası, Telli və Kərbəlayi Səkinəyə vəziyyəti danışdılar: "Bir müddət Vətəndən getməliyəm".

Qara Hüseyn 1914-cü ildən ta 1920-ci ilə qədər İqdırda Ərzurumun Ağrı döyüşlərində ermənilərə qarşı mübarizə aparmışdı. Elə ki, eşitdi Vətən dardadır, doğulduğu el-obası yağı düşmən tapdağındadır, 1918-ci ildən ta 1923-cü ilə qədər o da Nəsiblə birlikdə dağlarda yaşadı, gavurlarla döyüşdü.

Nəsib, Baba inanılmış adamdır. Yəqin ki, bir şey bilir. Demək bu gecə çıxmalıyıq, ancaq haradan Arazı keçməliyik? Demək, Mincivana gedib oradan adlamalıyıq İrana, sonra Türkiyəyə getməliyik. Gedək görüşək, gedək.

Qara Hüseyngil 1896-cı ildə Nəbi öldürüləndən sonra köçüb Naxçıvanda yaşayırdılar.

-Yox, Nəsib, biz mədənə gedib oradan Göyçəyə, sonra isə Ordubada, Naxçıvandan isə İqdıra keçməliyik. Ən sakit yol oradır. Həm qısa, həm də sakit. Gecə ikən hər ikisi yemək götürüb yola düşdülər. Həm Hümbətin ölümü, həm də Nəsibin qəflətən gedişi obada vəziyyəti gərginləşdirmişdi. Hamı ağlayır, şivən qoparırdı. Sonralar da anam bunları həmişə xəyalına gətirib aglayırmış. Bu rəssam nə qədər qəddar imiş. O, çəkdiyi əsərdə də anamı ağlayan vermişdi. (F.Süleymanov)

1999-cu il, otuz yanvar, gecə saat ikidir. Oturub düşüncələrimi ağ kağıza köçürürəm. Anam xəyalıma gəlir, durub rəssamın yenicə çəkdiyi portretin önündə dayandım: - "Ana, sən necə insan imişsən ki, bu faciələrə dözmüsən." Anamın portreti dilə gəlib: - "Yox oğul, mən ömrüm boyu daxilimdə ağlamışam. Hələ faciələrimizi yazmamısan, oğul. Bizim nəslin faciəsi ilə bir neçə əsər yazmaq olar. Danışdıqlarım təkcə bizim nəslin deyil oğul, bu bütün Türk dünyasının faciəsidir. Bax, mən özümlə haqq dünyasına apardığım o gümüşü papağı əlli beş il iylədim. Dünyamı dəyişəndə də ürəyimin üstünə qoydum ki, qardaşım Nəsibin qoxusu məndən getməsin, oğul. Axı sizi bir qarnı ac, bir qarnı tox yatızdırıb gümüş papağı hər an burnuma tutub iyləyib ağlayırdım. Sizi yatızdırıb o Təhlicə obasındakı tənha məzara ziyarətə gedib, o körpə qəbrinin başına dolanardım, sizə mərvcan yığıb gətirərdim. Hər gecə qardaşım Həbibgilə gedəndə Nəsibin qəbrinin üstünə dizin-

dizin sürünüb üzümü soyuq məzara qoyanda elə bil Nəsiblə danışırdım, oğul.” Bu sözləri elə bil anam deyirdi mənə. Mən sevinirəm ki, anamla danışıram. Onun səsini eşidirəm. Bax beləcə yenə anamdan ayılıb yazı masasının arxasında oturur, yazıram. Yox, yorulmuram. Mən yazmasaydım, əzablı bir ömür yaşayardım, bəlkə də dünyamı dəyişərdim. (F.Süleymanov)

Axtarış gedir.

Baba Məmmədova məxfi surətdə bildirmişdilər ki, Nəzir və Təhlicə obalarında axtarışlar gedəcək, çünki Nadirlə Qasım bu bölgədə Sultan bəyin ən yaxın silahdaşları idi. Onun iki qardaşı Şamil və Cəbi Zabuq əməliyyatında iştirak etmişdilər. Fəal döyüşçülər olublar. Qaçaq Nəsib həm Zabux əməliyyatının təşkilatçılarından olub, həm də Gorus türməsini yarıb. Sonra Qaçaq olub. Çoxlu erməni qırıb. Həmin məxfi məktublarda göstərilir ki, ən qatı cinayətkarı obalarda gizlədib ələ vermirlər. 1918-ci ilin payızında Gorus yaxınlığındakı Şorsu dərəsində bir neçə jandarm qılıncla qətlə yetirilib. Gorus türməsinin ən qatı, təhlükəli cinayətkarları azad olunublar, iyirmiyə yaxın dövlət məmurunu qətlə yetiriblər. Yazı düzündə bir neçə dövlət adamını, türmənin müavini Aniki öldürüblər və onun arvadı Siranuşu götürüb dağlara qaçıblar. Məktubda dinc adamların qətlə yetirildiyi də yazılırdı. Axırda yazırlar ki, onu təcili tapıb Gorusa təhvil verməlisiniz, əks təqdirdə siz müqəssir hesab olunacaqsınız. Yanınıza bu adamları göndəririk ki, onlarla birlikdə axtarış aparasınız, onların təhlükəsizliyini sizlərə həvalə edirəm. Baba əlləri ilə saçlarını qarışdırıb nə edəcəyini bilmirdi. Ən inandığı adamı Təhlicəyə göndərdi ki, Nəzir obasının ən yaxın qohumu aradan çıxsın. Çünki axtarış olacaqdı. O vaxtlar troyka deyilən (üçlük) bir qurum var idi ki, əgər o üçlük birinin haqqında ölüm aktına qol çəkirdisə, demək o adam güllələnməli idi. Axı Qulu ilə bax o Nəzir obasında nə qədər quzu soyutması yemişik. Onda Qulu Əsədov çox fəxrlə deyirdi ki, Baba, bura mənim dayımın elləridir. İndi isə çörək kəsdiyim adamları öz əllərimlə ölümə göndərməliyəm? Bu olmaz! – deyərək atını minib İşıqlıya gəlir. Qulu Əsədovla bir qədər söhbət edib hadisəni təfsilatı ilə danışır və “indi nə edəcəyik, Qulu?” deyir. Fikirlərini deyib Quludan uzaqlaşır. Qulu gecə ikən Nəzirə gəlib Qasımgilin obasında nə qədər silah-sursat var idisə hamısını ata yükləyib öz evinə gətirir və Qasıma tapşırır ki, hamısını köhnə, cındır, yamaqlı şalvara büksünlər. Şamil və Cəbi mala getsin,

təkcə obada bir sən, bir də Cahanın yoldaşı Kərbəlayi İsa qalsın. Görək bu bəladan necə yaxa qurtara bilərik. Qulu gecə ikən silahları aparıb öz evində gizlətdi. Sübh tezdən rayona gedib Baba Məmmədovun iş otağında söhbət edərkən əlliyə yaxın atlının gəldiyini görür. Babaya bildirdilər ki, bir neçə milis işçisi götürüb Nəzir və Təhlicə obasına getsin. Sonra Avdalanlı obasını mühasirəyə alsın, əhalinin hamısının əlini-qolunu bağlayıb Gorus türməsinə aparsın, daha sonra orada kimin günahkar olmasını aydınlaşdırarıq. (F.S. "Anam niyə ağlayırmış")

Hiss olunurdu ki, onların böyükləri yüksək rütbəli rus zabitidir. Ermənilər bu rus zabitinin yanında dəridən-qabıqdan çıxırdılar. Rus zabiri Babadan tələb edirdi ki, yazsın görək, Nəsib bu bölgədədir, ya yox. Qulu Əsədov rus dilini yaxşı bildiyi üçün dilmanclıq edirdi. Baba heç nədən çəkinmədən: Nəsib bu bölgədə yoxdur – deyərək rus zabitinə yazılı şəkildə iltizam verdi. Axırı bu cümlə ilə qurtardı: – "Əgər Nəsibi bu bölgədə tapsanız, buna görə mən məsuliyyət daşıyıram". Ermənilər isə elə hey deyirdilər ki, ola bilməz, Nəsib buradadır. Atlanıb Nəzir və Təhlicə obasına getdilər. Artıq hər iki oba mühasirədə idi. Təhlicədə altmış beş yaşlı qoca Kərbəlayi Səkinə, Telli və üç körpə qız, bir də Həbib idi. Bütün damların altını da axtarırdılar, ancaq əl taxtasından başqa bir şey tapa bilmirdilər. Rus zabiti "Nəsibi verin", deyərək əmr edirdi. Telli və Kərbəlayi Səkinə dedilər: – Nəsibin ya ölüsünü, ya da dirisini verənə biz dünya malından istədiyini verərik, ay oğul. Nəsibin budur, beş sinnidir ki, (beş il) üzünü görmürük. Biri deyir ölüb, qarğa-quzğun dağıdıb, biri deyir İrandadır, kimisi deyir Türkiyədədir. Vallah, ay oğul, əgər ölsəydi torpağa qoyardım, ürəyimiz arxayın olardı. İndi kim harada bir iş tutur, gəlib bax bizim tifillərin ürəyini partladırlar. Ya bizi elə buradaca güllələyin, ya Nəsibi tapın göndərin Sibirə, ya da öldürün, ölüsünü verin bizə basdıraq. Bununla da bu bir çətən külfəti bağrıdalaq etməyin, biz də axı yazığıq. İnsafınız olsun. Ə, Baba, axı bir ildir ki, bizim evə qaravulçu qoymusan. Sizə and verirəm o Allaha bu körpələrin ürəyini qırmayın. Balamın atasını Gorusda ermənilər diri-diri torpağa basdırdılar. Nədir bu körpələrin günahı?

Qulu Əsədov Kərbəlayinin dediklərini rus zabitinə tərcümə edir. Rus zabitinin sanki ürəyinə bir rəhm gəlir. Əgər belədirsə, bunları rahat buraxın və Babaya dedi:

-Bunlarla işiniz olmasın! Atları Nəzir obasına sürürlər. Nəzir obası artıq mühasirədə idi. Mühasirənin iri atlı dəstəsinin bütün üzvləri patrondaşla dolu idi.

Hərəsinin böyründən iri bir korda asılmışdı. Əmr vermişdilər ki, Nəzir obasının heç bir üzvü iki saatdan artıq bir yerə çıxmasınlar. Gözləyin, indi böyük naçalnik gələcək, onda bilərsiniz. Bax, yaxın gəlməyin, yoxsa bu korda ilə sizi doğrayarıq.

Artıq böyük naçalniklər Nəzir obasına yaxınlaşırdılar. Qulu Əsədov isə rus zabiti ilə şirin-şirin danışır, nəyi isə izah edirdi. Artıq yüksək zabitlər Qasımı, Şamili, Kərbəlayi İsanı danışdırır, onların sözlərini Qulu Əsədov tərcümə edirdi. Nəsib haradadır, nə vaxt görmüsünüz? Bunu soruşanda Qasım təəccüblə soruşdu: Nəsibdən bir xəbər var? Vallah onun bacısı bizim gəlindir. O, bir ildir ki, bizim evdədir. Yazıq həm atasının diri-diri Gorusda basdırılmasından, həm də Nəsibin bu beş ildə qeybə çıxmasından, həm də, nəçəlnik, ermənilərin beş gün bundan əvvəl tüfəngin qundağı ilə beş yaşlı uşağı vurub öldürməsindən ağlamaqdan başı ağarıb, gözlərinə qara su gəlib. Əgər Nəsibdən bir xəbər varsa deyin o gəlinə, o da bir qədər yüngülləşsin. Axı o da insandır, onun da ürəyi var. Axı insan bu qədər dərd çəkməz. Qulu Əsədov olduğu kimi tərcümə edir. Artıq rusun rəngi ağarmışdır. Qulu Əsədov əlavə etdi ki, yoldaş naçalnik, bu ailə mənim dayım evidir, özü də təmiz rəncbərdirlər, çox çörəkli adamlardır. Bunlar dövlətin əleyhinə işləməz, milli məsələyə qarışan adam deyillər. Bunların kasıb dolanışığını görürsən. Birinin paltarının sapını çəksən əyinlərindəki paltar tökülər. Bunlarınkı yer əkmək, mal-heyvan otarmaqdır. Tez Şamilin əlindən tutub: - Bax, naçalnik, görün bu əl heç tüfəng tuta bilərmi? Elə bil illərlə su dəyməyən torpaqdır. Ürəyiniz arxayın olmaq üçün əmr verin, qoyun evləri gəzsinlər əgər silah çıxarsa, mən ona cavabdehəm. Rus zabiti bir qədər fikrə gedib əmr verdi ki, obanı axtarsınlar. Bütün evləri axtardılar, hər kahanı, hətta gərmə tayalarını uçurub onun içərisini axtardılar. Heç bir silah tapa bilmədilər. Erməni zabiti rus zabitinə dedi: Yoldaş naçalnik, bax Sultan bəyə silah və ərzağı bax bu - əlini Qasıma sarı uzadıb, bu kişi yola salırdı. Qasım təmkinini pozmadan: - Günah işlətmə, axı biz hamımız insanıq, gavur olanda nə olar? Bax mənim obama dost da gəlsə, düşmən də gəlsə hökmən burada çörək kəsməlidir. Onda mən haradan bilərdim ki, sən döyüş adamısan, yoxsa Andranikin dəstəsindənsən? Bizim obaya gəlmisənsə, mənim çörəyimi kəsməlisən. Olduğu kimi də tərcümə edildi. Ancaq erməni zabitləri təkid edirdilər ki, hökmən Qasımı aparıb "dopros" etmək lazımdır. Onda həqiqət meydana çıxar. Ancaq rus zabiti artıq əsəbləşib, əlini yellədi, ermənilərə müraciətlə: - Bəsdir, bu zəhmətkeş

insanlardan nə istəyirsiniz? Görmürsünüz ki, bunlar ancaq bir tikə çörək üçün işləyirlər? Onda anam evin kiçicik pəncərəsindən baxıb göz yaşları tökürdü. O, fikirləşirdi ki, həm qardaşını, həm atasını, indi də gəlin gəldiyi evin kişisini yəqin ki, əllərini bağlayıb ölümə aparacaqlar. Onun silahı ancaq göz yaşları idi. Bir qədərdən sonra əllərində silah olan adamlar yığışıb Təkgünbazara sarı getdilər. Babanın dəstəsi isə atlarını Araza sarı sürüb getdi. Yalnız Qulu obada qaldı. Qasımla bir qədər söhbət edib qucaqlaşıb-görüşüb ayrıldılar. Bax onda anamın ürəyində bir qədər sakitlik yarandı. (F.Süleymanov)

Çöl-bayır yaylaqarından xalqın qeyrətli oğulları Sultan bəy, Cəbrayıl, İbadullah, Paşa bəy, Çayqıraqlı Qasım, Qaçaq Nəbi, Həcər, Erkək Tavat, Müseyib bəy, Tovuzlu Eynulla bəy, Tovuzun Xatun obasında Xatun oğlu Qurd İsmayıl, Qaçaq Nəbinin əmisi oğlu Naxçıvanın Cəhri kəndindən Qara Hüseyn, Culfalı Baxşəli bəy, Zaqatala bölgəsindən Əfəndi, Aran bölgəsindən iki ürəkli Aslan bəy yığışıb vətəni necə azad etmək haqqında fikirləşirdilər. Sultan bəy hirslənib dedi: "Axı mən daşnaq Andraniki bu dərəyə buraxmadım. Qardaşım Xosrov bəy Qarabağda bir ermənini baş qaldırmağa qoymadı. Bütün ermənlər hamısı ərizə yazmışdılar ki, biz buradan köçürük. Bunu görən çar məmurları türklərdən silahları yığdı, bunun əksinə olaraq isə ermənilərin hamısını silahlandırdı. Bunula belə Xosrov yenə də Qarabağda bir ermənini ayağa qalxmağa qoymadı. Çünki 1905-ci ildə ermənilər rus jandarmlarının köməyi ilə Qarabağda türkləri az qala məhv etmişdilər. İndi, oğul, Sultan bəyin qəhramanlığını öyrənin. Onda qalib gələrsiniz. İndi qulaq as gör hadisə necə olub. Çünki bu minval ilə də vətən torpağına yağı düşmənin ayağı dəymədi.

1918-ci ildə ermənilər tərəfindən bütün Zəngəzur evləri talan edilirdi. Hürriyyətçilik dövrü başlamışdı (Yəni hakimiyyətsizlik dövrü). Bir tərəfdən ermənilər, digər tərəfdən qaçaq-quldurlar kasıb camaatın olan-olmazını da əllərindən alır, özlərini də öldürürdülər. Əlaç ona qalmışdı ki, hər kənd, hər oba silahlı dəstə düzəldib özlərini qorusunlar. Başqa çür mümkün deyildi. Bir gün xəbər gəldi ki, Andranik Türkiyədən - Sarıqamış tərəfdən keçib iki istiqamətdə hücuma hazırlaşır. Bir neçə gün sonra eşitdik ki, Andranik Zəngəzura, o biri dəstə isə Naxçıvana hüçum edib kəndləri, obaları tarmar edir, insanları vəhşicəsinə qırır. Biz çox narahat olduq. Böyük qardaşım Qasım bu obanın ağsaqqalı idi. Bir axşam

bütün oba qardaşımgilə yığışıb bu bəladan necə qurtarmağı müzakirə edirdi. Bu vaxt evə bir adam daxil oldu. Məlum oldu ki, o Sultan bəyin adamıdır. Sultan bəy Qasıma yazıb bildirdi ki, "ermənilər təpədən dırnağa qədər silahlanıb müsəlmanları qırır, evləri yandırır, talan edilər. Zəngəzuru çalıb-çapırlar. Düşmənin məqsədi Qarabağa getməkdir. Bunun qarşısı alınmalıdır. Bütün obaların cavanlarını bir yerə yığın, at da məndən olaçaq, silah da, yemək də. Yığışın bu azğınların dərsini verək, heç olmasa arvad-uşağımızın namusunu tapdanmağa qoymayaq.

Beləlklə, çavanlar yığışıb Sultan bəyin hüzurna getdilər. Qardaşım Qasım isə Sultan bəyə belə bir namə göndərdi: "Hörmətli Sultan bəy, əgər lazım gəlsə qadınlar da kişi paltarı geyinib Vətəni müdafiə edərlər. Buna Sizin razılğınız lazımdır".

Gedənlər özləri ilə silah və ərzaq da götürmüşdülər. Onların sayı mın nəfərdən çox idi. Dəstələr yola düzəlib gedəndə bir ucu Araz, bir ücü Muradxalıya çatırdı. Sultan bəy qoşunu görəndə sevinçi yerə-göyə sığmır. – "Ey vətən övladları! El-oba ağır gündədir. Evin, var-dövlətin getməsinə dözmək olar, namusun tapdalanmasına yox! İndi sizi görəndə bildim ki, belə övladları olan Vətən basılmaz". Sultan bəy belə deyib nəmli gözlərini sildi və tapşırdı ki, siz bir neçə gün təlim keçəcəksiniz. Sərkərdəniz də Cəbrayıl və İbadullah qardaşlarıdır. Döyüşə yaxşı hazırlaşın. Vətən yolunda ölmək şərəfdir! Kim arxadan vurulsa, o, bu vətənin övladı deyil".

Cəbrayil və İbadullah qardaşları Bərgüşad çayının sol tərəfindəki Ağdabanlı obasından idilər. Qoçaq, mərd adamlardılar. Onlar bizi onbaşı və yüzbaşı deyilən dəstələrə böldülər. Mən və dayım oğlu Qulu Əsədov yüzbaşı təyin olunduq. Meşədə bir ay yaxşı təlim keçdik. Həmin müddətdə Andranik Sultan bəyin yanına adam göndərib: "Sultan bəy icazə ver sizin ərazinizdən keçim və Sizi Gürcüstan əyalətinin padşaıhı təyin edim. Bizim məqsədimiz Qarabağa getməkdir. Bunun əvəzində sizə iki qatır yükü qızıl göndərəcəyəm".

Vaxtı udmaq lazım idi. Odur ki, Sultan bəy təmkinlə çapara qulaq asır və deyir: "Andranik paşaya mənim şəxsi salamımı söyləyin və bildirin ki, mənə deməmiş gəlib buradan keçməsin".

O, elçilərə qonaqlıq verib ədəb-ərkanla yola salır. Bir neçə gündən sonra yenə elçi gəlib Andranikin sözünü Sultan bəyə çatdırır. Soljtan bəy cavabında: - Bu

dərələrdə gədə-güdə çoxdur. Andranik paşaya deyin ki, silahı yığsın arabalara. Dığ kəndindən ensin Zabuxa, oradan da Laçın yolu ilə sakitcə keçsin Şuşa qalasına. Qoşunun arxasınca özüm də gəlib onun pişvazına çıxacağam.

Bir neçə gün idi ki, Dərələyəzdən, Sisyandan türklər Həkəri, Bərgüşad kəndlərinin ətrafına gəlib orada törədilmiş faciəli hadisələri öz gözləri ilə görürdülər. Daşnaklar adamları diri-diri təndirə salıb yandırırdılar. Bunları eşidən kənd camaatı silahlanıb Laçın-Zabux yolunda səngər düzəldərək düşməni gözləyirdi. Bir gecə əmr gəldi ki, səngərdə hazır durmalıyıq. Heç kəs Cəbrayılın işarəsi olmadan atəş açmamalıdır. İcazəsiz kim atəş açsa, yerindəcə güllələnəcək. Hələ xoruz banı eşidilməmiş hamımız səngərdə idik. Tez-tez bizə pıçıltı ilə çatdırırdılar ki, "ayıq olun".

Sultan bəy çox narahat idi, tez-tez bayıra çıxıb durbinlə Gorusa tərəf baxır, öz-özünə deyirdi: "Əgər Andranik Laçından keçib Qarabağa getsə, Azərbaycan məhv olar". Siltan bəy bilirdi ki, indi Bakıda qan su yerinə axır, erməni millətçiləri başda Şaumyan olmaqla Bakının, Qubanın, Hacıqabulun kəndlərini dağıdır, adamları məhv edir.

Belə xəbərlər onsuzda vahimə içində olan adamları bir az da qorxuya salır, hətta Sultan bəyə buradan köçməyi təklif edənlər də olurdu. Onun isə belə fikri yox idi: "Kişi dar gündə torpağını atmaz", - deyirdi.

Sultan bəy nə isə fikirləşib nökəri yanına çağırdı. Ona bir məktub verib tapşırdı ki, bunu apar çaktdır Bayram bəyə, cavabını da al gətir. Sonra yanındakı adamlara tərəf dönüb ah çəkdi:

-Mərd adamla dost olmaq şərəfdir, namərdlə dost olmaq şərəfsizlik. Bayram bəy mərd adamdır. O, torpaq naminə övlad dərdini unudar, Vətəni darda qoymaz.

Sultan bəylə Bayram bəy düşmən idilər, araya qan düşmüşdü. Vaxtilə onlar möhkəm dost olmuşdular, xeyir-şərləri də bir olmuşdu. Bir gün Sultan bəylə Bayram bəyin oğlanları ova çıxırlar. Çoxlu turac, kəklik vurub evə dönən zaman bir ceyrana rast gəlirlər, ikisi də güllə atıb ceyranı vurur. Sonra məlum olur ki, ceyrana bir güllə dəyib. O deyir, mən vurmuşam, bu deyir, mən. Mübahisə uzanır, Sultan bəyin oğlu mauzeri çəkib Bayram bəyin oğlunu vurur. Beləliklə, iki dost düşmənə çevrilir.

...Elçilər atlanıb Çağazura yollanırlar. Sübh namazında Bayram bəyə deyirlər ki, Sultan bəyin elçiləri gəlib, Sizi görmək istəyirlər. Bayram bəy fikirləşir: "Xeyir ola". İndiyədək Sultan bəy barışıq üçün çox elçilər göndərmiş, o isə qəbul etməmişdi. Bu dəfə gələnləri qəbul edib: "Eşidirəm", -dedi. Elçilər naməni açıb oxudular: - "Hörmətli Bayram bəy! Özüzünüzün yükü əyilib, gəl onu düzəldək. Sonra yenə küsülü olarıq". Bayram bəy çox fikirləşmədən Sultan bəyə belə bir cavab yazdı: Hörmətli Sultan bəy! Çox sağ olun ki,Vətənin belə dar günündə məni yada salmısınız. Əgər torpağımıza yağı duşmən sahib çıxarsa, oğul-uşaq kimə lazımdır. Vətənsiz qalmaqdansa, ölmək şərəfdir. Bütün rəhbərliyi üzərinə götür, müdafiə işlərini yoluna qoy. Mən və qohumlarım sübh tezdən Sizin hüzurunuzda hazır olacağıq".

Bayram bəy bütün mahala çapar göndərdi. Səhər tezdən min nəfərədək atlı ilə birlikdə yola düşdü.

Sultan bəy Bayram bəyi duz-çörəklə qarşıladı. Sonra bütün planlarını, o cümlədən ermənilərlə "bağladığı müqavilə"ni ona söylədi. Onlar qoşunu müdafiədə yerləşdirilib "hörmətli qonaqlar"ı gözləməyə başladılar. Tam sakitlik yaranmışdı. Məzmərəkli Hüseyn səngəri gəzib hamının yerində olmasını təmin edir. Cəbrayıl və İbadullaha səngərlərdəki vəziyyət haqqında məlumat verildi.

Sübhün sakitliyini Həkəri çayının həzin şırıltısı və bülbüllərin insanı heyrətə salan neçə dildə, şirin-şirin ötmələri pozurdu. Sanki Həkəri çayı pəsdən "Bayatı-kürd" oxuyur, bülbüllər isə tarı, kamanı əvəz edirdi. Sahildəki qayalar sübhün alatoranında həm ecazkar, həm də vahiməli görünürdü.

Laçın qayası, Hocaz qayası – bu qayaların hərəsi bir alınmaz qala idi. Əli bulağının Lay-lay deyə-deyə Həkəriyə tökülməsi, Minkənddən Qırxqız bulaığının axıb Liləpurun suları ilə Zabuxda qovuşması sanki min ayrılıqdan sonra əmələ gələn vüsal idi. Bu vüsal yüz illər boyu tikanlı məftillərlə "sevgilisindən" ayrı düşmüş Xan Arazda tamamlanırdı.

Biz səngər qayalara süğınıb gözləyirdik. Uca dağın başında qoca qartal oturmuşdur. Qanadlarını gərib yerə baxırdı. Birdən əcaib səs bizi lərzəyə saldı. Qayanın ortasında bayquş ulayırdı – elə bil qarşıdakı döyüşdə töküləcək qanlardan xəbər verirdi. Qəfildən qartallardan biri bayquşun üstünə şığıdı, bir göz qırpımında onu göyə qaldırıdı. Sonra parçalalyıb yeməyə başladı. Bunu görən Qulu dedi:

-Dayıoğlu, bu açılan şəhər bizə qələbə gətirəcək.

-Nədən bildin?

-Əzizim, bayquş həmişə istəyir ki, xarabalıq olsun, o da baxıb sevinsin. Qartal isə onu tutub parçaladı. Bu, bizim niyyətimizə aydınlıq əlamətidir. Allah qoysa, işimiz lap yaxşı olacaq. Biz də "qonaq"larımızı elə parçalayacağıq.

Bu, mənə bir az da ruh verdi. Bizim silahımız əlimizdə idi, amma patrondaşımız yox idi.

-Bibioğlu, bəs bizim köməkçilərimiz niyə gəlmədilər?

Onlar bizə patron gətirməliydilər.

Qulu:

-Sultan bəy çox ağıllı adamdır, hələlik patron vermir ki, kiminsə əlində açılar, "qonaq"larımız da duyuq düşüb tələyə yaxın gəlməzlər.

Günəşin çıxmasına az qalmış hər birimizə əlli patron payladılar və dönə-dönə tapşırdılaır ki, işarə olmadan heç kəs atəş açmasın. Vaxt uzanırdı, artıq gün çıxmışdı. Birdən araba təkərılərinin səsini eşitdik, gördük ki, yüzə qədər araba qatarı Zabuxa sarı gəlir. Bizimkilərdən biri aramızda gəzə-gəzə hamıya pıçıltı ilə deyirdi:

-Səsiniz çıxmasın.

Araba qatarının bir ucu Laçından keçib beş verst kənarda olanda, o biri ucu "Laçın postu" deyilən yerdə idi. Zabuxdan Dığa qədər üç kilometrdən artıq yeri bizim səngərlər əhatə etmişdi. Xəbər gəldi ki, "hörmətli qonağımız" Andranik Dığ kəndinin hündür yerində çadır qurub durbinlə arabaların qoşunun necə keçməsinə baxır. Yəqin düşünür ki, Sultan bəy Laçın postunda onun ayağı altında qurban kəsib deyəcək: "Ey bizim xilaskarımız, sən bu torpağa xoş gəlmisən!" Belə xəyallarda olduğu üçün özündən çox razı idi.

Bir az ötmüş Cəbrayılın əmri gəldi: "Hamı birdən atəş açsın, heç kəsin gülləsi boşa getməməlidir". İlk atəş açılanda elə bil dağlar lərzəyə gəldi, əks-səda ətrafı bürüdü. Qartallar başımızın üstündə dövrə vururdu. Daşnaklar çaşıb qalmışdılar, qışqırırdılar.

-Ara, Sultan bəy, bizim dostumuzdur, atmayın!

Çox keçmədi məsələni başa düşdülər:

-Ara, Sultan bəy başımıza nə oyun açdı?

Döyüş bir neçə saat davam etdi. "Qonaq"ların "qonaqlığını " verib Gorus istiqamətinə getdik. Yerli camaatla işimiz olmadı. Andraniki qova-qova Sarıqamışa qədər ötürüb geri qayıtdıq. Qayıdan zaman Zəngəzur qəzasının yandırılmış kəndlərindən keçirdik. Dığalar tərəfindən öldürülən uşaqları, qadınları, qocaları torpağa basdırıb el-obanı öz yerlərinə qaytarırdıq.

Dərələyəzdə bir kənd var idi – Ərkəz kəndi. O kənd üç ay mühasirədə qalıb, ancaq təslim olmayıb. Qaçaq Mürsəlqulu deyilən bir nəfər eli başına yığıb kəndi qoruyub. Naxçıvanı isə Məmmədrza bəy, Əli bəy, Kazım bəy, Kərbəlayı Muxtar və başqa mərd kişilər qoruyurdu.

... Atam danışdıqca, xatirələri təzələnir, o illərin ağrısını elə bil yenidən yaşayırdı. O, sözünə davam etdi: (F.Süleymanovun atası)

-İşğalçıları məhv edərkən qıçamdan yaralandım. Hələ də bu yara sağalmır, Andranik yarasıdır, -deyib köksünü ötürdü. – Oğul neçə illərdi ki, bu yara məndədir. Mən bunu heç kəsə açıb deyə bilməmişəm ki, bizi sürgün edərlər.

Təəccüblə dedim:

-Axı nə üçün? Məgər torpağı, vətəni, xalqı qorumaq üstündə adamı sürgün edərlər?

Atam ah çəkib:

-Oğul, sən belə işlərə qoşulma.

-Axı, nə üçün? Siz ki, vətəni yağı düşməndən, nankor ermənilərdən qorumusunuz. Nə üçün Sultan bəyin, Cəbrayılın, İbadullahın, Məmmədrza byin, Əli bəyin adları bu gün bizim tariximizdə olmasın?

O, yenə də ah çəkib dedi:

-Ay oğul, Naxçıvanı müdafiə edən Məmmədrza bəy, Əli bəy 1936-cı ildə bütün ailəsi ilə birlikdə Qazaxıstana sürgün olunublar. Onlar hələ də Vətənə həsrətlə baxırlar. Eh, ay oğul, sən hələ uşaqsan, belə şeyləri başa düşməzsən. İndi sənin on üç yaşın var,dediklərimi yadında saxla, vaxt gələr həqiqəti yazarsan. Çünki indi elə qələmə verirlər ki, guya Sultan bəy, Cəbrayıl, İbadullalah, Məmmədrza bəy, Əli bəy və s. igidlər xalqın düşməni olublar. Onu da bil ki, əgər elə qeyrətli oğullarımız olmasaydı, indi nə Zəngzurda, nə Naxçıvanda, nə də Qarabağda bir nəfər də azərbaycanlı qalmazdı, hamısını məhv edərdilər.

-Oğul, təki sən yaşa, qoy məni sürgün etsinlər. Ürəyimdə heç bir gizli söz saxlamayacağam. Biz Laçında olarkən eşidirdik ki, düşmən qoşun hazırlayır, tezliklə bir tərəfdən Hadrut istiqamətində, o biri tərəfdən də Mədən (Qafan) istiqamətində Araz boyu hücum edəcək. Bunu bilən Bəhlul Behsəti bütün Xanlıq, Dəmirçi, Dundarlı,Qəzyan camaatını başına yığıb cihad elan etdi ki, sayıq dayanın, ermənilər bizi qırmağa gəlirlər. Əliyanlı camaatına da xəbər göndərdi. Qaçaq Qəbil başda olmaqla hücumun qarşısı alındı və ermənilər darmadağın olundular. İllər keçdi... Bəhlul Behcəti kimi alimi məhv etdilər, heç sümükləri də bilinmədi haradadır. Qəbil isə baş götürüb Vətəndən getdi. On səkkiz nəfər igidi isə dərədə, gözümüzün qabağında güllələdilər.

VII FƏSİL

QƏZƏR STEPANYANSIN ÖLDÜRÜLMƏSİ

Mən Zəngəzur mahalında boya-başa çatmışam. Əsrin əvvələrində erməni millətçiləri, onların havadarları orada yaşayan azərbaycanlıları sığışdırır, terror yolu ilə qətlə yetirirdilər. 1905-ci il. Zəngəzurda məhşur olan "Stepan davası", yüzminlərlə soydaşımızın qətlə yetirilməsi, daşnak Qəzər Stepanyansın göstərişilə olmuşdur. (Əvəz Mahmud Lələdağ "Yaddan çıxmaz günlərim")

800 evli Ağdu kəndi Zəngəzurun ən qədim kəndlərindəndir. Ululariмızın ruhları bu gün qərib-qərib dolaşır, Ağdu kəndində qədim günbəzlər, qəbir daşları, qoç daşları o kəndin qədimliyindən xəbər verir. Ağdu kəndi Sisiyan rayonunun şərqində yerləşir. Biz rayonun mərkəzinə gedəndə Ağyazıdan keçib Qəzər ölənə, Yellicəyə və Qarabulağa çatırdıq. "Qəzər ölən" dərənin yaranma tarixini Uzun Paşa belə danışırdı. Kəndin camaatı əkin-biçinlə, maldarlıqla məşğul idi. 1905-ci ildə başlayan erməni-müsəlman davası müsəlmanların qələbəsi ilə qurtardı. Kənddə qorxubilməz, qurdürəkli oğullar vardı, bala. Stepanın dəstəsi kəndi mühasirəyə almışdı. Artıq ölüm və ya ölüm vəziyyətinə düşmüşdü kəndin camaatı. Ermənilərin 20-ci əsrin əvvəlində Zəngəzura ilk hücumu birinci rus inqilabı başlanana təsadüf edir. 1905-ci ildə Ağdu kəndinə hücum edən Qəzər Stepanyans olmuşdu. O vaxt Ağdunun igidləri ermənilərə qarşı igidliklə vuruşaraq kəndi erməni tapdağından qurtara bilmişdilər. Qəzər Stepanyansın hücumu, kəndin düşdüyü vəziyyət Cəfərli Səmədi narahat edir. O, əvvəlcədən hazırladığı təndir şişinin ucunu iti neştər kimi edir. Gedir yolun kənarındakı qayanın arxasında

gizlənir. Qəzər gəlib keçəndə qəflətən tullanır sərkərdənin üstünə və şişi onun boynunun ardından nə təhər pərçimləyirsə, şişin ucu Qəzərin ağzından çıxır. Cəfərli Səməd onun beşaçılanını götürüb başlayır ermənilər qırmağa. Erməni əsgərləri çaş-baş qalırlar. Atılan güllələr Qəzər Stepanyansın səngərindən atılırdı. Beləliklə Ağdu igidləri böyük qəhrəmanlıq göstərir və düşmənə qalib gəlirlər. Məşədi İbrahim uşağından İnfilin (Məmməd Arazın atası) dəstəsi, Kərbəlayı Mürsəl oğlu Səttarın dəstəsi bu döyüşdə xüsusi ilə fərqlənirlər. Qəzər Stepanyans plan çəkmişdi ki, Ağdunu, Vağadını, Urudu, Şamı, İrmisi, Bəhlulu kəndlərini işğal edib Darabasda nahar edəcəyini vəd etmişdi. Onun planı baş tutmadı, arzusu gözündə qaldı. Cəfərli Səməd Qəzərin başını kəsir, taxır şişin ucuna gətirir kəndə. Stepanyansın işğalçı siyasətinin həyata keçmədiyini görən camaat bayram edir, saz tutub, söz qoşurlar.

Ağdu igidləri bir qurğu qurdu,
Daşnak Stepanyanı başından vurdu.
Hayın getdi vayın qaldı Stepan,
Butulkada payın qaldı, Stepan.

Stepanyans Qəzərin kəlləsini sonra Şuşa qalasına göndərirlər. İndi həmin səngər qaya "Qəzər ölən" adlanır.

1905-1907-ci illərdə çar Rusiyasının hakim dairələrindən hərtərəfli yardım alan erməni quldur dəstələri İrəvanda, Göyçədə, Naxçıvanda, Qarabağda və s. bölgələrdə də qanlı qırğınlar törətmişlər. Daşnak quldurları iyrənc fəaliyyətlərini davam etdirərək 1914-1915-ci illərdə Türkiyənin bir çox yerlərində -Şərqi Anadoluda, Ərzurumda, Qarsda, Vanda, Sarıqamışda, Adanada, Ərdahanda və s. yerlərdə türklərə və azərbaycanlılara qarşı insan ağlına sığmayan vəhşiliklər etmiş, soydaşlarımıza divan tutmuş, şəhər, qəsəbə, kəndləri yandırmış, yerlə yeksan etmişdirlər.

1918-ci ildə Andranik Ozanyanın Zəngəzura hücumu böyük faciələr törədir. Ağudu, Vağadi, Urud, Şam, İrmiş, Bəhlul, Darabas, Qalacıq, Hotüyüz, Zabazadır, Böyük Ərəfsə, Sofulu, Murxuz, Dəstəgert, İşıqlar, Şəki, Qarakilsə, Qızılcıx, Ərikli, Şükar, Şükarlı kəndlərini yerlə yeksan edib, əhalisini vəhşiliklə qırıb, Andranik Ozanyanın dəstəsi. Ağdu kəndini xüsusi qəddarlıqla məhv edib daşnak. Ona görə ki, Qəzər Stepanyans Ağdu igidləri tərəfindən öldürülmüşdü. Kəndin ortasında 400

nəfər tutan məsciddə, ibadət evində saysız-hesabsız soydaşlarımız, uşaq, xəstə, qoca, qadın ağır işgəncələrlə qətlə yetirilib, kəndin əhalisinə divan tutublar, 1377 nəfəri Miriğın qayasından töküb qırıblar. Qəddarlar türkə məxsus olan dilsiz-ağızsız heyvanları da məhv ediblər. Örüşdə, çöldə otlayan atları, ulaqları, həyətdə gəzən itləri güllələyiblər. Lakin başı zəncirli itləri, ayağı hörükllü atları öldürməyiblər. Yazıq heyvanlar işgəncə ilə ölsünlər deyə, onlara güllə atmayıblar.

Yuxarıda adları çəkilən kəndlərin sakinləri yurd-yuvasından perik düşüblər. Tat kəndinin əhalisi 2850 nəfər erməni daşnakları tərəfindən qəddarlıqla, ağlasığmayan işgəncə ilə qətlə yetirilib. Qərbi Azərbaycanın, indiki Ermənistanın qədim yerli sakinlərinin azərbaycanlılardan ibarət olması gün kimi aydındır. Bunu yazılmış əsərlər, səyyahların qeydləri, tərtib edilmiş xatirələr sübut edir. Amma açıq deyim ki, bizim tarixçilər bu məsələyə dair ciddi araşdırmalar aparmamışdılar. Tarixə səyahət edək: 1813-1828-ci illərə qədər Azərbaycanın ərazisi dörd yüz on min kvadrat kilometr olub. Yəni bu ərazidə yaşayanlar da, milli tərkibcə azərbaycanlılar olublar. Zaman-zaman bu rəqəm İran, rus işğalçıları tərəfindən azala-azala 86,6 min kvadratkilometrə enib. 1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı sahəsi 9 min kvadratkilometrdi. Rusiya əsarətindən keçmiş Dərbənd xanlığı sahəsi yeddi min kvadrat kilometr, 1918-20-ci illərdə Azərbaycan Demokratik Respublikasının ərazisi yüz on dörd min kvadratkilometr olmuşdu. 1920-ci ildə Rus İmperiyasının təzyiqi ilə Ermənistanın qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərəələyəz, Dilican gürcülərin nəzarətinə verilən əhalisi sırf azərbaycanlılardan ibarət olan Borçalı Azərbaycanın tərkibindən qoparılıb. Bunları sadalamaqda məqsədim ondan ibarətdir ki, indiki Ermənistan deyilən bölgə Azərbaycan torpaqları hesabına yaranıb. 1828-1830-cu illərdə Azərbaycana İrandan 40 000, Türkiyədən 84 600 erməni köçürülərək Gəncə, İrəvan quberniyalarında ən münbit torpağı olan sahələrdə yerləşdirilmişdi. Əsrin əvvəlindən intensiv olaraq qədim Azərbaycan torpaqlarına ermənilər köçürülsə də, bu ərazilərdə yenə azərbaycanlılar çoxluq təşkil edirdilər. Gəlin, 1916-cı ildə aparılan əhalinin siyahıya alınmasına dair statistik məlumata nəzər salaq.

İrəvan qəzasında 74,2 min əhalinin 48%, Zəngəzur mahalında 119,5 min əhalinin 53%, Yeni Bəyazid qəzasında 50,7 min, Sürməli qəzasında 45 min

azərbaycanlı yaşayırdı. Ermənistanın Çöyçə, Vedibasar, Zəngibasar, Qaraqoyunlu, Ağbaba, Dərəələyəz bölgəsində də azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Hələ uşaqlıq illərində eşitdiyim və sonralar canlı şahidi olduğum hadisələr ermənilərin bizim millətə olan xəyanətini təsdiqləyir. Saxtakar erməni tarixçiləri öz uydurmaları ilə başları dumanlandırır, erməni xalqının qədimliyi barədə yalanları həqiqət kimi qələmə verməyə çalışırlar, uydurma fikirləri bizim beynimizə yeridirlər. Onlar ermənilərin sayını saxtakarlıqla artırırdılar. Bu halın 1988-ci ildə canlı şahidi olduq. Bir erməni bir neçə yerdə pasport qeydiyyatına düşmüşdülər.

Doxsan iki yaşlı Mikayıl Qaradağlı danışırdı. (Ə.M.Lələdağ)

Daşnak törtöküntüləri başda Şaumyan, Mikoyan və Andranikin davamçıları olan qriqoryanlar, markaryanlar, aqambekyanlar Azərbaycan xalqının başına olmazın müsibətlər gətirirdilər. Bolşevik pərdəsi altında xalqa divan tuturdular.

1922-ci ildə səkkiz ailə doğma yurda qayıtdıq. Bizim, Saybalının, Eyvazın, Ədilin, Mürsəlin, Hacı Əbdüləlinin, Musanın və Yadigarın ailələri. Kənddə daş daş üstə qalmamışdı. Səkkiz yüz evli Ağdü kəndini yerlə yeksan etmişdilər. Stepanın hayıfını kənddən almışdılar. Kəndi dağıtmaqla təsəlli tapmışdılar. Qısa bir müddətdə Aşağı məhəllədə "Cəlil bulağı"nın başında Stepanın abidəsini ucaldıb kəndə "Stepanguğ" (Stepankənd) adını qoymuşdular. Kəndin yuxarı məhəlləsində evlər yandırılmışdı, yol-rizi ala qanqal kükrəyib almışdı. Biz bir müddət "Çuxurbağın" güney kahalarında daldalanmalı olduq. Bolşeviklər bizə "köməк" etdilər, uçuq-sökük damları göstərib dedilər ki, hələlik yaşayın. Böyük zəhmət hesabına kəndin adamları öz dədə-baba ocaqlarını yandırırdılar. Öləndən, qalandan xəbərsiz idik. Kəndin aşağı tərəfində "Dik daş"ın altında on erməni evi bizim damlara doluşub yaşayırdılar. Onların çoxusu qonşu Üz kəndindən idilər. Biz bir az yerimizi bərkitdikdən sonra ermənilər kənddən çıxarmaq qərarına gəldik. Getdikcə kənd şənlənir, əhalinin sayı artırdı. Artıq 115 ailə qayıtmışdı. Ədil, mən, İslam və Bəyalı oğlu Eyvaz ermənilərin ağsaqqalarını çağırdıq, öz kəndlərinə- Üza getmələrini məsləhət gördük. Lakin onlar razılaşmadılar. Biz başqa cür hərəkət etdik. Ermənilər gecələr Bədəl bəyin səkkiz dirəkli qara damına yığışıb kef məclisi qururdular. Bir axşam biz Mehrəlinin Bozdarını aparıb Cəlil bulağında basdıq suya, kəndiri bağladıq Bozdarın ortasını eşdik. Gətirib bacadan buraxdıq içəri. Bozdar fırlandıqca suyu səpələndi murdar ermənilərin üstünə. Belə-belə onları

kənddən çıxarda bildik. Daşnak Stepanın abidəsini dağıtdıq, büstünü əzib quma döndərdik. Sonrakı taleyimiz bəd gəldi. Rayonda iş başına ermənilər keçdi. Milis, prokuror, təhlükəsizlik işçiləri onlardan oldu. Bolşevik partiyasına sədaqətlə qulluq edən daşnaklar bizim adamları "Xalq düşməni" adı altında bir-bir güllələdilər. Qasımov Əvəzi Aşot Qaragözyan erməni müstəntiqi Qarabulaqda güllələdi. Mührəlini siyasi dustaq elədi. Bəyalı oğlu Eyvazı gecə ilə götürdülər. Belə-belə bütün başbilənləri bircə-bircə güllələdilər. 30-cu ildə ərsəyə çatan yeniyetmələri Aşırı, Qaraşı, Xudayılı, Fəttağı bir gecədə apardılar. Məhkəməsiz-filansız hara göndərdilər xəbər olmadı. Onların ailələrini də vətəndən çıxardıb uzaq ölkələrə sürgün etdilər. Kənddə yazı-pozu bilməyən adamlar qaldılar. (Ə.M.Lələdağ)

Təkcə 1918-ci ilin mart ayında xalqımız milli bayramımız Novruzun xoş təəssuratları altında olduğu zaman erməni millətçiləri Bakıda, Şamaxıda, Muğanda, Lənkəranda bolşevik libası altında erməni bolşevik silahlı dəstələri 50 mindən çok azərbaycanlını qətlə yetirmiş, on minlərlə insanı yerindən, yurdundan didərgin salmışdılar. Mart ayının 3 günü ərzində Bakıda 30 minə qədər soydaşımız xüsusi amansızlıqla qətlə yetirililərək öldürülmüşdür. Bakı qırğınının ardınca Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 minədək adam, o cümlədən 1653 qadın, 965 uşaq qılıncdan keçirilmiş və güllələnmiş, Quba qəzasının 122 kəndi yerlə yeksan edilmiş, əhaliyə cinsinə və yaşına fərq qoymadan, qəddarcasına divan tutulmuşdur. İrəvan quberniyasında 211, Qars vilayətində 92 kənd dağıdılmış, yandırılmış və talan edilmişdir. 1918-20-ci illərdə Azərbaycan xalq cumhiriyyəti dövründə azərbaycanlılara qarşı soyqırımı faktları araşdırılmamışdır və Azərbaycan respublikasının arxivlərində saxlanılır. "Azərbaycanlılarsız Ermənistan" yaratmaq siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min olduğu halda, 1922-ci ildə o rəqəm 70 minə endirilmişdir. Erməni daşnak tör-töküntüləri işğalçılıq müharibəsini davam etdirərək Azərbaycana qarşı cinayətkar siyasətini davam etdirmişdir. Bu gün Azərbaycanımızın 20 faiz torpağı işğal altındadır. Erməni daşnaklarının başladıqları separatçılıq siyasəti nəticəsində vaxtı ilə əhalisinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarət olan Qərbi Ermənistanda silahlı təcavüzün gedişatı nəticəsində 18 mindən çox azərbaycanlı qətlə yetirilmişdir. 20 mindən çox dinc əhali yaralanmış, 50 min nəfər əlil olmuş, 4 mindən çox insan əsir və itgin düşmüş, 877 kənd, şəhər, qəsəbə yandırılıb

dağıdılmışdır. 1918-ci il azərbaycanlılar üçün yaddançıxmaz ildir. Həmin illər mətbuat səhifələrində azərbaycanlıların başına gətirilən bəlalar aşağıdakı kimi göstərilmişdir.

Erməni əsgərlərinin hamilə müsəlman qadınlarının qarnını yırtaraq, bətində artıq formalaşmış uşağı çıxarıb onun başını kəsmələrinə bənzər vəhşiliklərinin fotoşəkillərini daşnak "Aşxavator" işçi qəzetindəkiləri görmürlərmi? "Qruziya qəzeti", 25 noyabr 1918-ci il.

Hər yerdə meyidlər qıc olmuş, eybəcər hala salınmış, yandırılmış, meyidlər bəzi yerlərdə qalaq-qalaq, bəzi yerlərdə tək-tək meyidlər, kişi-qadın və uşaq meyidləri "Naş qolos" qəzeti 4 aprel 1918-ci il.

Erməni hərbi hissələri Bakıda 30 mindən çox müsəlmanı vəhşicəsinə qətlə yetirdi. Uşaqlara və qadınlara işgəncə verildi, neçə-neçə məhəllə yandırıldı, Şamaxı qəzasına dəstələr göndərildi. Onlarla kənd atəşə tutuldu, qılıncdan keçirildi, əhali qanına qəltan edildi, Bakı quberniyasının başqa yerlərində də zorakılıqlar baş alıb gedirdi. Bununla eyni vaxtda daşnaklar dünyanın hər yerinə teleqramlar yağdıraraq şivən qoparırdılar ki, müsəlmanlar ermənilər qırırlar. "Azərbaycan" qəzeti 25 sentyabr 1918-ci il.

Tarixə nəzər salaq: erməni daşnak tökünt üləri başda Mikroyan olmaqla əsrin əvvələrində Azərbaycanımıza qarşı soyqırım siyasətini həyata keçirmək üçün hiylələrə əl atırdılar. Erməni diasporları öz istəyinə nail olmaqdan ötrü dəridən-qabıqdan çıxıb məqam gözləyirdilər. 1943-cü ildə 3 dövlət başçısının iştirakı ilə keçirilən Tehran konfransında (28 noyabr 1 dekabr) sovet İran münasibətləri müzakirə edilərkən belə əlverişli məqamdan istifadə edən erməni diasporu konfrans iştirakçısı, SSRİ Xarici İşlər Naziri V.M.Molotova müraciət edərək İranda yaşayan ermənilərin erməni ədəbiyyatından, mədəniyyətindən, millətin adət-ənənəsindən məhrum olmalarını nəzərə alaraq onların SSRİ-yə köçürülməsinə icazə verməsini xahiş etmişdir. Şübhəsiz Mikoyan xarici işlər naziri Molotovun saqqızını oğurlaya bilmişdir. İ.V.Stalinlə Tehranda olan danışıqdan sonra Molotov ermənilərin SSRİ-yə köçürülməsinə içazə vermişdir. Bu fürsətdən istifadə edən erməni ideoloqları Sovet rəhbərliyindən Ermənistan SSR ərazisindən azərbaycanlıların Azərbaycan SSR-nin Kür-Araz ovalığına, güya kənd təsərrüfatına kömək məqsədi ilə köçürülməsinə icazə almışdır. Onlar yaxşı

bilirdilər ki, Muğanda əhali ancaq qışda yaşayır. Köçəri tərəkəmələr yayda allı-güllü yaylaqlara, qışda isə qışlaqlara –Arana köçürdülər. Muğanda milyard baş mal, qoyun, dəvə, at saxlayırdılar. May ayında tərəkəmələr öz dədə-baba yurdlarına-Saryer, Muradtəpəsi, Qırmızı təpə, Əyrisu, Soltan heydər dərəsi, Xanlar toxtası, Arxaşan, Təndir qaya, Leyli qaçan, Lala yurd, Qandallı yurd, Tarovluyurd, Gəlinqaya, Ağdaban, Əriməz, Əyriqar, Məmmədalı gölü, Yalyurd, Niyazdüşən, Dəvəgözü, Mahmudlu dərəsinə elat camaatı: - Tatallar, Aşıqlı, Alı Nəzərli, Allahyarlı, İmamverdilər, Murtulu, Alpənahlı, Buludlu, Muğanlı, Ovşar, Xəlfəli, Hacalmuradlı, Quru bəyli, Boçalı, Kormazlı, Araatlı, Mərcanlı, Soltanlı, Hacı Feyzulla, Hacı Fərhad, Saybalı, Şükarlı, Rəsullu, Şahsevənli, Əhmədalılar, Kürmahmudlu, Ovşar, Böyük Mərcanlı elat camaatı gələrdi. Hər obanın da öz başçısı vardı. Telli həsən (Tatallar), Qarahüseyn (İmamverdilər), Yetim İsmayıl, Talıb, Qarakişi və s. Erməni diasporu bu icazəni alarkən, yəni Ermənistan SSR-dən azərbaycanlılar tarixi etnik torpaqlarından zorla qovulanda yaxşı bilirdilər ki, heç bir normal şəraiti olmayan, ilanlar mələşən susuz yerlərə yük vaqonunda köçürülən azərbaycanlılar yollarda, yeni yerlərdə, Kürün sahilində, isti və bulanlıq sulu yerlərdə, qızdırma, vəba, qarın yatalağı xəstəliyinə tutulacaq, kütləvi şəkildə qırılacaqlar. Sonralar bunu həyat özü təsdiqlədi. 1948-53-cü illərdə sürgün edilən soydaşlarımızın 40-45 faizi qısa müddətdə məhv oldu. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947, 10 mart 1948-ci il tarixli qərarlarının həyata keçirilməsinə nail olaraq həmin illər 480-dən çox kənd boşaldıldı və xaraba qaldı. 1948-53-cü illərdə və ondan sonrakı dövrlərdə Ermənistandan mərhələ-mərhələ azərbaycanlıların qovulması, milli zəmində məhv edilməsi, yollarda, qarlı dağ aşırımlarında donması, aclıq-səfalət, əzab və işgəncələrdən məhv olunmaları dəqiq araşdırılmalı beynəlxalq aləmdə həlli yolları tapılmalıdır. 1948-53-cü illərə aid rəqəmlər isə artıq dəqiqləşdirilməlidir. Mərhələlər üzrə baş vermiş bu hadisə nəticəsində azərbaycanlılara vurulmuş maddi ziyan, viran qoyulmuş məntəqələrin sayı öyrənilməli beynəlxalq səviyyədə təminat məsələsinin yolları tapılmalıdır. 1948-53-cü illər departasiya zamanı və digər departasiyalar dövründə Azərbaycan Respublikasına və dünyanın digər yerlərinə köçmüş azərbaycanlıların sayı müəyyən edilməlidir. Xalqımızın başına gətirilmiş oyunlar təsdiq olunmaqla Azərbaycan tarixi yenidən elmi əsaslarla işlənib hazırlanmalı, orta və ali

məktəblərdə geniş tədris olunmalıdır. Mən əminəm ki, Azərbaycan respublikasının dövlət komissiyası bu tarixi vacib məsələlərin öhdəsindən uğurla gələcək. 20-ci yüzilliyin əvvələrindən sonuna qədər min bir hiylə və məkrlə qədim Azərbaycan torpaqlarında departasiyaya məruz qalan, zorla qovulan, sürgün edilən yüzminlərlə soydaşlarımızın taleyi indiyədək kifayət qədər öyrənilməmiş, tarixi həqiqətlər mütəxəssislər tərəfindən lazımı səviyyədə araşdırılmamışdır. İrəvan qəzasında dünyaya göz açmış, uşaqlıq və gənclik illərini orada keçirmiş H.Həsənov əsrin əvvələrini belə xatırlayır: - İrəvan və onun ətraf yerləri azərbaycanlıların qədim yaşayış yerlərindən biri idi. Erməni millətçiləri bir sıra dövlətlərin himayədarlığı ilə XIX əsrin axırlarında XX əsrin əvvələrində Qafqazda "dənizdən dənizə" böyük Ermənistan yaratmaq xülyasına düşmüşdü. 1920-ci ildə İrəvan şəhər adlandırılsa da, çox böyük olmayan qəsəbəni xatırladırdı. Zəngibasar tərəfdən şəhərin girəcəyində dəmiryol vağzalı vardı. Şəhərlə vağzalın arasındakı 3-4 km məsafədə bütün günü sərnişin daşıyan faytonçuların səsi eşidilirdi. O vaxt şəhər şərq libasını xatırladırdı. Şəhərin kənarları, həyətlər yaşıllığa bürünmüşdü. Azərbaycan tarixçisi İsgəndər bəy Türkan Münşin məşhur "Tarixi olan Şah Abbas"ın əsərində oxuyuruq: İrəvanda qədim Azərbaycanlı sakinləri və onlara doğma olan digər ellər, oymaqlar, burada gözəl bağlar, baxçalar salmışdılar. Bir-iki mərtəbəli evlərin qarşısında meyvə bağları, tərəvəz sahələri, azərbaycanlıların əməksevərliyindən, torpağa bağlılığından xəbər verirdi. Əhalinin əsas məşğuliyyəti bağçılıq, tərəvəzçilik və ayrı-ayrı hallarda maldarlıq olardı. Şəhərin şimalında meyvə bağları, cənubunda üzüm plantasiyaları, Zəngi çayının sol sahilində Dərəkənd deyilən yerdə tut bağları salınmışdı. Şəhərdən Dəmlə və Sərdar bağlarına gedən yol Zəngi çayının üstündəki Şah Abbas körpüsündən keçirdi. Zəngi dərəsinə enən yoxuşun sol tərəfində dəbbaxxana vardı. İrəvan sənayesi demək olar ki, bu müəssisədən ibarət idi. Şəhərin məhəlləri belə adlanırdı: Təpəbaşı, Hacı Novruzalı, Körpü qulağı, Dəmirli bulaq, Şiraçi, Müsəlman çarşısı, Müsəlman bazarı və s. hətta bu adlara bayatılar da qoşmuşdular.

İrəvan çarşı bazar,
İçində bir qız gəzər.
Əlində kağız-qələm
Dərdliyə dərman yazar.

Cəsur qardaşlar

Bazara yaxın iki karvansara və iki hamam əhaliyə xidmət edirdi. Sadaladığım məhəllələrdə əhali əsasən azərbaycanlılardan ibarət idi. O ərazidə bir dənə də olsun ermənіyə məxsus yer adı yox idi. Həmin yerləri sonra gələn ermənilər də bizim kimi adlandırırdılar. O zaman şəhərin kiçik bir küçəsində erməni sənətkarları yaşayırdı. Onlar əsasən pinəçilik edir, nalbəndlik edir və balaca dükanlarda xırdavat satırdılar. Yaxşı yadımdadır, ikinci dünya müharibəsindən sonra Vediyə, Zəngəzura, Vedibasara, Qaraqoyunluya, Ağbabaya, Göyçə mahalına, Pəmbəkə Türkiyədən, İrandan, Livandan, Suriyadan, Beyrutdan erməni karvanı gəlirdi. Onlar sərhəddən asanlıqla buraxılır, asanlıqla da yerbəyer olurdular. Xaricdən ermənilərin Ermənistana gəlməsi burdakı azərbaycanlıların sıxışdırılmasına və köçürülməsinə şərait yaradırdı. Mikoyan, Markaryan, Qriqoryan, Aqambekyan, Şahnazaryan xüsusi kəşfiyyat idarələri vasitəsi ilə xaricdə güclü təbliğat aparır və xarici ermənilərin marağını artırmağa nail olurlar. 1948-ci ildə Sisiyan rayonuna xaricdən olan xeyli erməni göndərilmişdi. Mən onlardan biri ilə həmsöhbət oldum. Hayık Hayrekyan belə deyirdi: "Bizə deyirdilər süd kranla gəlir, kolların dibində yumurta tığlanıb, dolanışıq çox yüksək səviyyədədir" və s. Sizin bir yaxşı el sözü var e, tamahkarı kim aldadar,yalançı. "Gəldıx kabab iyinə gördux eşşək dağlanır". Bir dəfə mən Naxçıvanda müəllimlərə verilən daş kömürün daşınmasına nəzarət edirdim. Oturduğum maşının sürücüsü Abrama sual verdim. O, Livandan gəlmişdi. Düzünü de, ora yaxşıdır, bura? Abrahımın elə bil yarasının qaysağını qoparıb yerinə duz basdılar. (Ə.M.Lələdağ)

-Axber (qardaş) desəm, ora yaxşıdır deyəcəksən a köpəkoğlu burada nə ölümün var? Desəm bura yaxşıdır, necə deyim, axı dilim gəlmir. Orada bizi yığıb iclas edirdilər ki, gedin böyük Ermənistanı gəzin, xoşunuz gəlməsə qayıdın geri. Burada çətin nə var ki! Biz dörd nəfər cavan oğlan danışdıq ki, gedək gəzək, xoşumuza gəlməsə qayıdaq geri. Sən demə, bunlar hamısı söz imiş, bizi geri buraxmadılar. Bax, başımıza belə-belə oyun açdı anastaslar. Bəli, bunlar hamısı həqiqət idi. Xaricdən gələn ermənilər də peşiman olmuşdu, Mikoyan isə fəaliyyətini davam etdirirdi.

1948-ci ildə azərbaycanlıların Ermənistandan köçürülməsi, daha doğrusu, sürgünü başladı. Dağlıq yerlərdə yaşayan buz bulaqların suyundan içən, təmiz dağ havasını udan azərbaycanlıları Azərbaycanın aran bölgələrinə göndərirlər. İlan

mələşən çöllərdə yaşaya bilməyən soydaşlarımızın bir çoxu məhv oldu. Həmin vaxt Vedidən sürgün edilənlərdən biri Qurban Məmmədov dərindən bir ah çəkdi və mənalı-mənalı dedi:

-Vətən həsrəti, yurd yanğısı, torpaq harayı içimi göynədir, zaman-zaman sönməyəcək bu yanğı. Üz-üzə, göz-gözə dayanan, lələ köçüb yurdu qalan, dağların əl-ətəyini bəzəyən qar, çiçəkləri məsum körpə kimi yollara boylana-boylana qalıblar. Dağdağan ağacına qonan yaylım quşları qəfil açılan namərd gülləsindən diksinirlər, sinəsi boyu şırımlanan, göz yaşları ilə yas saxlayan yaylaqlar elat yollarının sükutuna necə dözürlər, İlahi? Yetim qalmış o dağlar, o dərələr dədələrimizin diz qatdadığı müqəddəs yerlərdi, qardaş. İndi həmin torpaqlarda, kimsəsiz qalan yurdlarda qərib-qərib dolaşan ulularımızın ruhları görəsən nə düşünürlər, onları qoyub gəldiyimizə görə barəmizdə nə danışırlar?! Mənfur erməni millətçilərinin, onlara havadarlıq edən digər şovinistlərin illərlə apardıqları iblisanə siyasətin ağrı-acısını ürəyimizdə çəkmişik. Dərdimiz içimizdə pas atıb, səsimiz boğulub, harayımızı eşidən olmayıb. Etnik təmizlənmə və azərbaycanlılarsız Ermənistan yaratmaq ermənilərin şirin arzuları olub həmişə. Mən Vedidə doğulmuşam. Dağını, dərəsini, yalını-yamacını, qumunu-qumsalını qarış-qarış gəzmişəm o yurdun. (Ə.M.Lələdağ)

Sisiyan rayonunda mənim yaxından tanıdığım məzar daşları düzəldən Sərkis adlı bir erməninin gördüyü işə diqqətlə baxırdım. O, bir məzar daşının üstündə erməni əlifbası ilə yazı yazırdı. Qazıdığı hər hərifin yerinə sulfat turşusu tökürdü. Mən ondan soruşdum:

-Sərkis kirvə, bu qazıdığın hərflərin yerinə sulfat turşusunu nə üçün tökürsən?

O, cavab verdi ki, heç elə-belə daşı ağartmaq üçündü. Amma sonra öyrəndm ki, sulfat tökülən daşda hərfləri ekspert müəyyən edə bilmir ki, nə vaxt yazılıb. Bax onlar tarixi belə saxtalaşdırırdılar. İrəvan adının yaranması yenə azərbaycanlılarla bağlıdır. İstinad etdiyim mənbələrə görə İrəvan hakimi Məhəmməd xan uzun müddət xanlığı idarə edib. Buradakı qədim abidələr, qəbir daşları, yer adları azərbaycanlıların qədimliyindən xəbər verir. Lakin sırtıq erməni alimləri 1960-cı illərdən əfsanəvi bir "məkan" icad elədilər "Erebuni!". Güya qazıntı nəticəsində tapdılar ki, 2750 il bundan əvvəl belə bir şəhər olub, şəhərin əhalisi də ermənilərdən ibarət imiş. Tələm-tələsik fəaliyyətə başladılar. Bütün siqaretlərin,

konyak və araqların, mədən sularının etiketlərində "Erebuni" yazıldı. Yerevanda o vaxtkı Lenin meydanında 2750 fantan düzəltdilər. Düyməni basanda 2750 gözdən su fısqırdı. Sağ olsun "YUNESKO" onların saxta əməllərini rədd etdi, təsdiqləmədi. Bax onlar tarixi belə saxtalaşdırmaqla məşğul olurdular.

Erməni millətçiləri Dağlıq Qarabağın Ermənistanın tərkibinə keçməsi üçün bütün vasitələrə əl atırdılar. 1945-ci ildə noyabr ayında Ermənistan SSR Mərkəzi Komitəsinin birinci katibi Artunov (Atunyan) Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi barədə ÜİKİMK qarşısında məsələ qaldırmışdı. Sözsüz ki, bu təklif Mikoyanın təşəbbüsü ilə yaranmışdı. Lakin SSRİ-nin başçısı İ.V.Stalin məktubu G.M.Malinkovun üstünə yazır. G.M.Malınkov o vaxt Azərbaycana rəhbərlik edən Mir Cəfər Bağırovun təklifə rəyini bilmək istəmişdir. Mir Cəfər Bağırov o təklifin əsassız olduğunu bildirmişdi. Təklifdə deyilirdi: "Dağlıq Qarabağın ərazisi Qarabağ xanlığının tərkibində olmuş və xanlığın mərkəzi Pənahabad (Şuşa) Qarabağ xanı Pənahxan tərəfindən tikilmişdir". O qala eyni zamanda Azərbaycan xalqının həyatında mühüm rol oynamışdı. İran qəsbkarlarının başçısı Ağa Məhəmməd Şah Qacar məhz bu qalada öldürülmüşdür. Biz bu təklifə etiraz etmirik. Lakin belə olduqda əhalisi tamamilə Azərbaycandan ibarət olan Borçalı, Dərbənd, Qasımkənd, Zəngəzur rayonlarının Azərbaycana qaytarılması məsələsinə də baxılsın. Bağırovun bu sənədindən sonra ermənilərin məkrli təklifləri baş tutmadı. "İran qəsbkarlarının başçısı Ağa Məhəmməd Şah Qacar məhz bu qalada öldürülmüşdür". Fikim məni açmadı. Gəlin, bu barədə bir qədər tarixi faktlara üz tutaq. Əsli-kökü Qarabağın Qaçarlar tayfasından olan Məhəmməd Həsən xan Qacarın oğlu Ağa Məhəmməd Şah Qacar vahid Azərbaycan yaratmaq üçün parça-parça olmuş vətən torpağını birləşdirmək siyasəti ilə döyüş meydanına atılmışdır. O, Qarabağa işğalçı kimi yox, ev sahibi kimi, irsi hakim kimi gəlmişdir. Bildiyimiz kimi XVI əsrin birinci yarısından XVIII əsrə qədər Qarabağda irsi hakimlik Qacarlara məxsus olmuşdu. Digər tərəfdən Ağa Məhəmməd Şah Qacar beynəlxalq vəziyyətdən başı çıxan mahir bir sərkərdə idi. Rusiyanın Zaqafqaziyanı ələ keçirmək üçün yeritdiyi siyasət, işğalçılıq siyasəti sərkərdəni daim narahat edirdi. Ona görə də vətənin yad əllərə keçməsini özü üçün bağışlanmayan günah, keçilməyən təqsir hesab edirdi. 1775-ci ildə başda general Zubov olmaqla rus qoşunlarının Dərbəndi, Bakı və Şirvanı zəbt etməsi Qarabağ xanı İbrahim Xəlil

xanın Rusiyaya olan meyli, saray vəziri M.P.Vaqifin kömək üçün Rusiya hakim dairələrinə müraciəti Ağa Məhəmməd Şah Qacarda narahatlıq doğururdu. O bilirdi ki, belə getsə İrəvan, Gəncə, Qarabağ xanlıqlarında gözü olanların iştahları bir az da artacaq. Ona görə də o, 1794-cü ildə torpaqları azad etmək məqsədilə Qarabağa yürüş etdi. Orasını da deyim ki, İbrahim Xəlil xan erməni Melikin qızı Hürzadla evlənmişdi. Ona görə də sarayda ermənilərin sayı gündən-günə artırmış. İrəvan hakimi Məhəmməd xanla İbrahim Xəlil xan arasında çar II İraklı Ağa Məhəmməd Şah Qacara qarşı çıxmaq üçün ittifağın yaradılması İbrahim Xəlil xanın erməni meyilli olmasına dəlalət edir. Milliyyətcə azəri türkü olan Ağa Məhəmməd Şah Qacarın qoşunu da azəri türklərindən təşkil olunmuşdu. Doğma xalqın nümayəndələri başqa xalqların nümayəndələri ilə ittifaq bağlayıb özü-özünün qanını tökməyə nə ad vermək olar? Çox güman ki Ağa Məhəmməd Şah Qacar erməni terrorçuları tərəfindən qətlə yetirildi. Belə girəvədən istifadə edən Qarabağ xanlığında sığınacaq tapmış bir ovuc erməni Qarabağın erməni xanlığı kimi Rusiyanın tabeliyinə keçməsinə can atmalarının nə demək olduğunu başa düşmək çətin deyil. Torpağın azadlığı uğrunda döyüş meydanına atılan sərkərdələrin fəaliyyətini bizim tarixçilər bizə başqa səpgidə başa salmağa çalışıblar. Gəncə hakimi Cavad xan da xalqının oğlu, torpağının qeyrətli vətəndaşı idi. O da yaxınlaşan fəlakəti görürdü və bunun üçün işğalçı rus ordusuna qarşı Ağa Məhəmməd Şahla həmrəy olmuşdu. O deyirdi: "Bir gün azad yaşamaq, min il misgin qul kimi yaşamaqdan min dəfə yaxşıdır". Bunları sadalamaqda əsas məqsədim odur ki, bizim başbilənlərimiz həmişə öz şan-şöhrətlərini, taxt-taclarını qorumağa çalışıblar. Əsrin əvvələrindən üzü bəri başımıza gələnlər də, keçmiş ənənələrin əsasında yaranmışdı.

DAŞNAK TERRORÇU PARTİYADI

"Bəlkə də heç vaxt heç yerdə Erməni inqilabı federasiyası kimi terrorçuluq sahəsində zəngin təcrübəsi olan ikinci bir inqilabi partiya olmayıb. Nə rus narodovçuları, nə italyan karbonirləri bu sahədə onlara çata bilməz". EİF-si özünün daha çətin şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq ictimai aktları həyata keçirmək üçün ən yaxşı terrorçular silah, bomba, xəncər işlətməklə çoxlu sayda ustalar yetirmişdir. (Ə.M.Lələdağ "Yaddan çıxmaz günlərim") Erməni terrorçuları

yalnız türk tayfalarına qarşı deyil, o eyni zamanda erməni xalqının mənafeyini güdməyən ermənilərə qarşı da tətbiq edilir. Bu günkü erməni terrorunun keçmiş sələfi "Nenizida" əməliyyatı olub. "Nenizida" əməliyyatı qədim yunanlarda ədalət və intiqam ilahəsi olub. Bu əməliyyatın həyata keçirilməsi üçün 1919-cu ildə İrəvanda keçirilmiş 9-cu ümümdünya erməni nümayəndələrinin qurultayında terror aktlarının aparılması barədə xüsusi qərar qəbul edilmişdi. Onun icrası əsasən Türkiyə ermənisi olan Haqolder Hakopyan adlı şəxsə tapşırılmışdı. Qəbul edilmiş qərara əsasən bu şəxsin terrorçuluq fəaliyyəti və terrorçulara rəhbərliyi 1920-ci ildə başlamalı idi. Ləqəbi Şahan Natole olan N.Nakopyan öz fəaliyyətinə bir qədər sonra başlayır. Onun təşkilatçılıq fəaliyyəti 1921-ci ilin mart ayının 15-də Berlin şəhərində Türkiyənin siyasi dövlət xadimi Tələb Paşanın qətlə yetirilməsi ilə başlanıb. Tələb Paşa Soqolan Terilyan adlı bir terrorçu erməni tərəfindən qətlə yetirilir. Berlində yaşayan erməni qatil Papazyan Şahan Natolinin əməliyyatı barədə belə yazır: "Türkləri süzgəcdən keçirmək borcumuzdur". Berlində məhkəməyə verilmiş qatil Soqolan Terilyan ermənilərin külli miqdarda hakimlərə verdikləri rüşvət nəticəsində bəraət qazanır. Tarixin səhifələrində hər hansı hadisə nisbətən sonra aşkara çıxsa da, müəyyən məlumatlar əldə etmək olur. Tələt Paşanın qətlə yetirilməsi ilə əlaqədar belə bir rəsmi məlumat 1989-cu ildə Amerikada nəşr edilən "Neşil Bioqrafil" jurnalında bu jurnalın əməkdaşının yazısı nəşr olunur. Jurnalist Belqrad şəhərində bir erməni ilə tanış olur. Söhbət zamanı siyasi məsələlərdən danışarkən aydın olur ki, Tələb Paşanı qətlə yetirən bu ermənin atası olub. Jurnalist ermənіyə belə bir sualla müraciət edir: "Bu hərəkəti necə qiymətləndirmək olar?" Erməni ona belə cavab verir: "Mən atamın bu hərəkəti ilə fəxr edirəm". Erməni terrorçuları həmin illərdə yaranan Azərbaycan Demokratik Cumhuriyyətinin həyatına da qəsd edirlər. 20-ci ilin yay aylarında Fətəli xan Xoyskini, Həsən bəy Ağayevi, Firudin bəy Köçərlini qətlə yetiriblər. 1922-ci ilin avqust ayında Əfqanıstan sərhədləri yaxınlığında məhşur türk sərkərdələrindən birini Ənvər paşanı qətlə yetirmişlər. Azərbaycan Demokratik Cumhuriyyəti yaradılandan sonra bir çox ermənilər pis əməllər törətmək üçün familiyalarını, ad və soyadlarını dəyişirlər. Adlarını, familiyalarını dəyişmiş ermənilər Bakıda qalır, erməni xalqına xas olan murdar əməllərini həyata keçirirlər. Əsl vətəndaş, əsl millət, əsl insan familiyasını, adını dəyişməz. Ermənilər bu hərəkəti yalnız pis

niyyətlər məqsədi üçün, insanlara xəta yetirmək üçün edirlər. İlk növbədə belə bir hərəkəti terrorla məşğul olmaq məqsədi ilə planlaşdırırlar. O zaman Bakıda qalmış erməni terrorçuları Azərbaycan Demokratik Cumhuriyyətinin rəhbərlərini məhv etməklə gizlində terror aktlarını törətmək üçün fəaliyyətə başlayırlar. Yeni yaradılmış Azərbaycan hökümətinin nazirlər sovetinin sədri Nəsib bəy Yusifbəy oğlunu qətlə yetirmək istəyirlər, lakin əməliyyat baş tutmur. Qatillər isə tez aradan çıxırlar. Bu məsələ ilə respublikanın cinayət axtarışı şöbəsinin rəisi Fətəli bəy məşğul olur. Məlum olur ki, terror aktını hazırlayan və onu yerinə yetirmək istəyən şəxslər erməni daşnak partiyasının üzvləri Aram Budaqyans və başqaları olmuşdur. Fətəlibəyovun topladığı dəqiq məlumatlardan aydın olur ki, Bakıda yaradılan terror təşkilatının fəal üzvlərindən Qaharyan, Ambarsumyan, Mirzoyan, Mikoyan, Şahnəzərov və s. təcili surətdə Azərbaycan Dövlət Cumhuriyyətinin dövlət xadimləri, görkəmli adamları terror vasitəsi ilə məhv etmək planını çəkmişdilər. 1921-ci ilin yanvar ayının axırlarında Nəriman Nərimanovun göstərişi ilə Almaniyaya neft avadanlığı almağa göndərilən Behbudağa Azadoğlu Cavanşir yolüstü İstanbulda olarkən Malta adasında sürgündə olan dostu Əhmədbəy Ağayevə baş çəkmək üçün oraya gəlir, onun evində olur. O, gecə evdən çıxarkən daşnak partiyasının üzvü Tolpakya onu qətlə yetirir. 1922-ci ildə iyun ayının 25-də Türkiyənin ictimai-dövlət xadimi Tiflis şəhərində məsul şəxslərin gözü qarşısında iki erməni terrorçusu Petrov Terpuqasyan və Əldəşir Gevorkyan tərəfindən qətlə yetirilmişdir. Elə həmin il İtalyanın Roma şəhərində Türkiyə dövlət xadimi Səid Həlimi öldürülmüşdür. Bir az sonra 22-ci ildə Türkiyənin xarici işlər üzrə dövlət nümayəndəsi Bəyəddin Şakir və onunla birlikdə olan Caman Əzmi erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir. Əməliyyata başçılıq edən Şahan Natoli 30-cu illərə qədər terror aktlarının törədilməsində fəal olur və terrorçulara başçılıq edir. 1930-cu illərdə sovet Ermənistanını tərifləyən, ona yaxşı münasibət bəsləyən erməni din və dövlət xadimlərini də erməni terrorçuları məhv etmişlər. 1933-cü ildə Nyu Yorkda "Müqəddəs xaç" adlı erməni kilsəsində Sovet Ermənistanına müsbət münasibət bəsləyən baş keşiş Gevond Toruyanı ibadət zamanı erməni terrorçuları qətlə yetiriblər. Erməni inqilabi federasiyasının 1907-ci ildə daşnak partiyasının ümumi yığıncağı tərəfindən qəbul edilmiş nizamnaməsinin ancaq türk millətinə qarşı amansız olmaq ayrı-ayrı maddələrdə xüsusi olaraq göstərilmişdir.

ERMƏNİLƏRİN TERROR AKTLARI

Erməni terrorçuları müxtəlif adlar altında bir çox ölkələrdə türk dünyasına mənsub olan vəzifəli şəxsləri, onlara aid olan obyektləri, eyni zamanda türklərə qarşı yaxşı münasibətdə olanları hər hansı bir yolla məhv edirdilər. Terror aktlarını törədən erməni canilərini həbs edənlərə qarşı da terror aktları törədirdilər. Bəzən həbs edilən erməni terrorçularının azad edilməsi barədə bu ölkələrin başçılarına ultimatum verilir vətəndaşlarına qarşı terror aktları törədirdilər. Əldə olan rəsmi məlumata görə Beynəlxalq aləmdə fəaliyyət göstərən ən qorxulu erməni terror təşkilatı "ASALA"dır. Əli minlərlə günahsız insanın qanına batmış "ASALA" dünya terrorist təşkilatçılarının ən amansızı, ən qəddarıdır. Erməni iddeoloqları onun eybəcər simasını gizlətmək üçün müxtəlif vasitələrə əl atırlar. "Daşnaksütun" partiyasının son məqsədi nədir? Sərsəm bir ideyanın məhsulu olan özlərinin dənizdən-dənizə dövlətini yaratmaq, həm də bu alçaq niyyəti ən çox Azərbaycan və Türkiyə ərazisində həyata keçirməyə çalışırlar. Böyük "ASALA"-nın diqqəti həmişə Azərbaycan və Türkiyəyə yönəldilmişdir. Otuzdan çox türk vətəndaşının, 23 türk diplomatının, Bakıda sərnişin avtobusunun, Tiflis-Bakı, Tiflis-Ağdam-Bakı marşrutlarının, Moskva-Bakı sərnişin qatarının, metro qatarlarının partladılması və dünyanın müxtəlif qitələrini əhatə edən digər terror aktları bu təşkilatın necə böyük maliyyə imkanlarından ibarət olmasından xəbər verir. Beynəlxalq hesablamaya görə 1970-ci ildən başlayaraq bu vaxta qədər rəsmi qeydiyyatdan keçmiş terror aktı barədə olan məlumat 177-dən çoxdur. Mən 1983-cü ildən 1991-ci ilə qədər olan terror aktları barədə söz açmaq istəyirəm. 1984-cü ilin payız aylarında Bakı şəhər marşrutu ilə işləyən sərnişin daşıyan avtobusa erməni terrorçusu Vartanyan öz oğlu ilə birlikdə qoyduğu bomba partlayır. Nəticədə ölən və yaralananlar olur. İstintaq zamanı terrorçular öz ifadələrində qeyd edirlər ki, 1915-ci ildə erməni xalqına qarşı türklərin apardıqları "genosidin" intiqamını alırıq. Azərbaycanlıları görməyə gözümüz yoxdur. Bu marşrutu ona görə seçdik ki, orada çoxlu sayda azərbaycanlı vardı. Yenə həmin ildə 1984-cü ildə Bakı şəhərində hərəkət edən trelleybusda bir nəfər erməni gənc yaxalanır. Yoxlama zamanı ondan bir ədəd əldəqayrılmış bomba tapılır. Sorğu zamanı aydın olur ki, o hər hansı bir sərnişin daşıyan nəqliyyat vasitələrdən birini partatmalı idi. Bu hadisədən bir qədər sonra Bakı şəhərində öz arxitekturası ilə fərqlənən milli

mədəniyyətimizin, tarixi abidələrimizin gözəl nümunəsi olan M.F.Axundov adına opera-balet teatrı yandırılır. Yanğın heç də bədbəxt hadisə deyildi. Əsas səbəb Sarkisyan adlı bir ermənin güya teatrın binasında ocaq yandırması olmuşdu. Binada ocaq yandırılmasından əvvəl binanın yaxınlığında yanğın söndürmək məqsədilə su doldurulan beton çənlərin suyu boşaldılmış, yanğınsöndürənlər hadisə yerinə gələndə su tapmamışdılar. 1988-ci ildə baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycandan təcili köməyə göndərilən "İl-76" hərbi təyyarəsi Leninakan limanı aeroportuna çatmamış erməni terrorçuları tərəfindən vuruldu. Doqquz nəfər heyət üzvü, 69 nəfər hərbi qulluqçu həlak oldu. 1988-ci ilin yanvar ayından ilin yaz aylarına qədər yaradılan "Krunq" terror təşkilatı Hamlet Qaçoryanın başçılığı altında hərəkət edən onun yaxın dostu Qriqoryan Serjik Xorenoviç Azərbaycan əhalisinə misli görünməmiş vəhşiliklər, terror aktları törətdilər. Arası kəsilmədən heç bir təqsiri olmayan Qafan rayonu ərazisindən tutmuş Füzuli, Zəngilan rayonlarının əhalisindən yüzlərlə dinc əhalini məhv etdilər, çoxlu sayda evləri xaraba qoydular, əllərinə keçən insanlara qarşı qeyri-insani cəzalar verdilər. Hamlet Koçaryan, Serjik Qriqoryan və s. ələ keçsələr də, tez bir zamanda azad oldular. 1988-ci ilin fevralında Şuşa şəhərinə gələn su kəmərini partlatmaq istəyən terrorçular yaxalandılar. Şuşa təcridxanasında saxlanılan terrorçu Artur Ayrapetyan dindirildiyi zaman qeyd edib ki, biz təqsirkar deyilik. Biz Moskvada olarkən siyasi büronun bir neçə üzvləri ilə görüşdük. Bizə dedilər ki, gedin işinizi görün. Tezliklə "Arsak" sizin olacaq. Bu barədə mətbuatda xəbər verilmişdir. "Vişka" qəzeti, 1991 il.

1988-92-ci illərdə mətbuatın verdiyi məlumat faktlarına əsasən Azərbaycan Respublikasının ərazisində erməni terrorçuları tərəfindən yüzdən artıq terror aktları törədildi. İki minə yaxın günahsız adamlar terror qurbanı oldular. Çoxlu sayda vətəndaşlar evsiz-eşiksiz qaldılar. Əgər bu terror aktları dəqiq hesablansaydı və dünya ictimaiyyətinin nəzərinə çatdırılsaydı, bunlar da beynəlxalq terror hesabata düşərdi. Əfsuslar olsun ki, mətbuat xəbər versə, canlı şahidlər bunu təsdiq etsələr də, o zamankı dövlət aparatına soxulmuş ermənilər ermənipərəst vəzifəli şəxslər bu dəhşətli faktları dəqiqləşdırıb respublikanın ərazisindən kənara çıxara bilmədilər. Məsələ üstü örtülü qaldı. Bu illərdə dəfələrlə erməni terrorçuları Noraşen – Bakı istiqamətində hərəkət edən 69 nömrəli minik qatarında partlayış törədən terrorçular

yaxalandılar. Bir nəfər terrorçu erməni qatarı partlatmaq istədiyi üçün bomba əlində partlayaraq özü terrorçuların qurbanı olmuşdur. 1989-cu ilin yayında Ağdam-Şuşa istiqamətində hərəkət edən sərnişin avtobusu partladı. Nəticədə bir neçə nəfər ölən və ağır yaralananlar oldu. Terror aktı barədə sadəcə olaraq mətbuatda qısaca məlumat verildi. Yenə həmin ilin yayında Bakı-Tiflis marşrutu ilə işləyən "İkarus" avtobusunun oturacağı altında qoyulan bomba Yevlax rayonunda partladı, nəticədə ölən və yaralananlar oldu. 1990-cı ilin avqust ayının 16-da Füzuli şəhərində Köndələn çayı üzərində tikilən rayonun mərkəzini Dövlətyarlı kəndi ilə birləşdirən körpünün partladılması Füzuli-Ağdam-Mingəçevir-Yevlax və digər istiqamətlərdə işləyən nəqliyyat vasitələrinin işləməsini çətinləşdirirdi. Elə həmin vaxt Qar-qar çayının üstündəki körpü də partladıldı. 1990-cı il oktyabrın 8-də Şəmkir Gəncə yolunun 22 kilometrliyində Tbilisi-Ağdam istiqamətində hərəkət edən avtobus partladıldı. 20 nəfər qadın-uşaq həlak oldular. Terrorçular ələ keçmədi və terrorçuların ələ keçməməsi işi gündən-günə çətinləşdirirdi. 1990-cı ildə Gəncə şəhərində polis nəfərləri tərəfindən Tiblisə gedən avtobusda yoxlama aparıldı. Bir nəfər saqqalı şübhəli şəxs yaxalanır. Təmiz Azərbaycanca danışan bu şəxsi hətta buraxmaq da istəmişlər. Lakin sərnişinlər onun erməni olmasını bildirirlər. Yoxlama zamanı istintaqda məlum olur ki, 45-50 yaşlı bu şəxsdən 55,4 qram nəşə, 1 ədəd "F-1" markalı əl bombası tapılır. Məlum olur ki, bu həqiqətən Gəncə şəhərinin keçmiş sakini Gennadi Qartaşyan olur. Keçirilən istintaq əməliyyat zamanı o öz atasının qəbrini ziyarət etməyə gəldiyini bildirir. Lakin atasının qəbrini göstərə bilmir. Terror aktı törətmək üçün gəlməsi təsdiq olunsa da, ona icazəsiz silah və döyüş sursatı saxladığı üçün yüngül cəza verirlər. 1990-cı ildə Azərbaycan Respublikasının Qazax rayonunda Baqanıs-Ayrim kəndində erməni terrorçularının törətdikləri vəhşiliklər Azərbaycan tarixində qara xətlə qalacaq. Vəhşi terrorçular gecə saat 3-də silahlı dəstə ilə kəndə hücum edib 12 evə benzin töküb odlamışlar. Kəndi xilas etmək arzusunda olan əhalini, ev heyvanlarının, ev quşlarının hamısını yandırmışlar. Yandırılanların sırasında iki aylıq beşikdə olan uşaq da olur. Kənd tamamilə xaraba qalmışdır. 1990-cı ilin yayında Naxçıvan MR ərazisində dəfələrlə terror aktı törədənlər Naxçıvan Dövlət Vilayət komitəsinin hüquq şöbəsinin rəisini də qətlə yetirib aradan çıxmışdılar. 1990-cı ildə martın 29-da SSRİ-nin keçmiş prezidenti

M.S.Qarbaçovun dünya ictimaiyyəti qarşısında təntənəli andiçmə mərasimi vaxtı Azərbaycan Respublikasının ərazisinə soxulan terrorçu ermənilər bir neçə nəfəri qətlə yetirir və 20 nəfəri girov götürürlər. 1990-cı ilin 1 yanvarından həmin ilin may ayına qədər erməni terrorçuları arası kəsilmədən Qazax, Xocalı, Gədəbəy, Tovuz, Naxçıvan ərazilərində özləri dedikləri kimi "türk ovlamaq" şüarı ilə onlarca terror aktları törətdilər. Xeyli sayda ölənlər, yaralananlar, girov götürülənlər oldu. Lakin bu barədə nədənsə dəqiq məlumat verən olmadı. 1991-ci il noyabrın 20-də Azərbaycan Respublikası ərazisində Martuni rayonunda erməni terrorçuları tərəfindən terror aktı tarixə acınacaqlı bir səhifə kimi daxil oldu. Azərbaycanın, Rusiyanın, Qazaxıstanın ən görkəmli sülhsevər oğlanları vertalyotla sülh məramlı danışıqlara gedərkən onların uçduqları vertalyot erməni terrorçuları tərəfindən vuruldu, nəticədə Azərbaycan Respublikasının dövlət katibi, texniki elmlər doktoru Tofiq Kazım oğlu İsmayılov, respublikanın baş nazirin müavini Zülfü Saleh oğlu Hacıyev, respublika baş nazirin müavini Məhəmməd Nəbi oğlu Əsədov, rüspublika baş prokuroru İsmət İsmayıl oğlu Qayıbov, SSRİ xalq deputatı Vaqif Cəfər oğlu Cəfərov, SSRİ xalq deputatı Vəli Hüseyn oğlu Məmmədov, Azərbaycan EA-nın Nizami adına Dil Ədəbiyyat institutunun elmi işçisi Osman Mirhüseyn oğlu Mirzəyev, əməkdar jurnalist respublika kütləvi informasiya və əlaqədar ictimai rəyin öyrənilməsi şöbəsini müdiri, Qurban Hüseyn oğlu Namazəliyev, respublika xalq deputatı meliorasiya təsərrüfatı nazirinin birinci müavini, Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru İqor Aleksandroviç Plavski,Vladimir Vladimiroviç Kavalyov, DQM-nin daxili işlər idarəsinin rəisi Nikolay Vladimiroviç Jinkin, SSRİ Daxili Xidmət qoşunları generalı fövqəladə vəziyyət rayonun komendantı Şansal Dosumoviç Serikov, Alma-Ata Daxili İşlər Nazirliyinin müavini M.D.Lukaşov, SSRİ Daxili İşlər Nazirinin şöbə rəisi Oleq Nikolayeviç Koçerov, jurnalist Alı Mustafayev, Azərbaycan televiziyasının əməkdaşı Arif İsmayıl oğlu Hüseynzadə, çəkiliş qrupunun nümayəndəsi Fəxrəddin İbrahim oğlu Şahbazov, Azərbaycan televiziyası çəkiliş qrupunun əməkdaşı Vlaçeslav Vladimiroviç Domov, vertalyot heyətinin üzvü D.B.Yarovenko həlak oldular. Bu terror aktı ilə əlaqədar respublikada 21, 22, 23 noyabr matəm günləri elan edildi. Terror aktları üçün heç kim məsuliyyət daşımadı. Bu faktı bədbəxt hadisə kimi qələmə verdilər. Güya vertalyot qəzaya uğramışdı. İlk növbədə belə

xəbəri ermənilərin xeyrinə bizim "başbilənlərimiz" elan etdilər. Həmin ilin payız aylarında Azərbaycan Respublikasının Laçın rayonu ərazisində Şuşa şəhərinə gedən yolun 6 km-də jurnalist qadın Salatın Əsgərova və onunla gedən rus ordusu sıralarında qulluq edən polkovnik O. Larinov, mayor İ.İvanov, serjant N.Qoyek vəhşicəsinə erməni terrorçuları tərəfindən qətlə yetirildilər. Terror qrupunun üzvləri Mikirtiçyan, Petrosyan, Artunyan, Maqansaryan ələ keçsələr də, terrorçu kimi cəzalandırılmadılar. Onlar bir müddət islah əmək kaloniyasında qalandan sonra əsirlərin dəyişdirilməsi yolu ilə azad edildilər. Azad edilən terrorçular nə əsir düşənlər, nə də girov götürülənlərdən idilər.

Sona çatan 20-ci yüzillik bizi əsir-yesir elədi. Başımıza müsibətlər gəldi bu yüzillikdə. 1905-ci ildə on minlərlə soydaşlarımız erməni vəhşilərinin vəhşi caynaqları ilə qətlə yetirildi, 1918-ci ildə millətimizin başına olmazın oyunlar açdılar. Dünyada qeydə alınmamış işgəncə növlərini bizim millətin üzərində tətbiq etdilər. 1920-ci ildən torpaqlarımızı, Zəngəzuru, Göyçəni, Dərələyəzi, Zəngibasarı, Ağbabanı, Vedini 82 min kvkilometr ərazimizi zəbt etdilər. 1936-39-cu illərdə ləyaqətli qızlarımızı, oğullarımızı "xalq düşməni" damğası ilə məhv etdilər. Əsrin yarıdan çoxunu yaşamışam, hadisələrin canlı şahidi olmuşam. 1941-45-ci il alman-rus müharibəsində rus sovinistlərinin erməni millətçilərinin "çornı" deyib azərbaycanlılara divan tutması da, yaddaşıma həkk olunub. 1948-1953-cü illərdə yüz minlərlə soydaşlarımızı öz dədə-baba yurdlarından, isti ocaqlarından, bərəkətli bucaqlarından, buz bulaqlarından zorla köçürdülər. Susuz, heç bir şəraiti olmayan ilan mələşən çöllərdə yerləşdirdilər. Kanal, gölməçə sularını görməyən, isti havaya uyğunlaşmayan insanlar qızdırma, vəba, yatalaq, traxoma, keçəlləmə kimi xəstəliklərdən kütləvi şəkildə qırıldılar. 1965-ci ildə "genosidi" əllərində bayraq edib 24 apreli Ermənistanda matəm günü elan etdilər. Millətimizə maddi və mənəvi ziyan dəydi. 1988-ci ildə Sumqayıt hadisələrini törətdilər. Qərbi Azərbacandan bütün azərbaycanlıları deportasiya etdilər, "Azərbaycanlılarsız dövlət" yaratdılar. 1990-cı ildə xüsusi təyinatlı erməni dəstələri Bakıya gəldilər, günahsız insanları qətlə yetirdilər. Beləliklə də "Qanlı Yanvar" hadisəsini törətdilər. 1991-ci ildə millətin başbilənlırini, dövlət xadimlərini Qarakəndin üzərində məhv etdilər, 1992-ci ildə isə dünyanın ən böyük faciəsi-Xocalı soyqırımı oldu. Torpaqlarımızın 20 faizinin işğalı bu əsrdən bizə qalandır. Bir milyondan çox

qaçqının ah-naləsi göylərə çatır. Ürəklərində zindan olan dərdlərini quşlara, küləklərə, buludlara söyləyir nənələrimiz. El-obanı sönmüş ocaqları, kimsəsiz yaylaqları onlardan xəbər alırlar.

1948-1953-cü illərin departasiyası.

1948-1953-cü illərdə Qərbi Azərbaycanda azəri türklərinin deportasiyasını hiylə və ustalıqla həyata keçirdilər. Dağ havasında yaşayan insanları elindən, obasından köçürüb aranda ilan mələşən çöllərdə kütləvi şəkildə qırıblar. Azərbaycanlılarsız Ermənistan yaratmaq arzusuna 1988-ci ildə çatdı əclaflar. (Ə.M.Lələdağ "Yaddan çıxmaz günlərim")

1991-cı il tarixdə görünməmiş hadisə oldu. Yurdun qeyrətli oğlanlarını xəyanət əli ilə bir göz qırpımda verdilər bada. Qarakəndin üstündə vurulan vertalyotu deyirəm, ey!

1992-ci ildə Xocalı soyqırımı dünyanın ən böyük faciəsi, torpaqlarımızın işğalı. Dəhşətli faciələrlə üzləşib xalqımız, ancaq sərişləsiz başçılarımızın tükü belə tərpənmədi. Hətta heç nə olmayıb deyirdilər. Biz də onlara inanıb meydanlarda əl çalıb, saqqız çeynəyirdik, arxayın-arxayın əcnəbi bazarlarda gül satırdıq. Vəzifə düşgünləri, pul hərisləri vətəni, torpağı, namusu hərraca qoydular. Bişərəflər "Mersedes"lərdə gəzmək, villalar tikdirmək üçün xalqı fəlakətlərə sürüklədilər.

Düz 85 ildir ki, erməni şovinistləri "genosid" soyqırım siyasətini bayraq edib əllərində gəzdirir. Ən möhtəşəm məclislərdə onun təsdiq olunması üçün dəridən-qabıqdan çıxırlar. Halbuki 1915-ci ildə Türkiyədə 3 milyon türk həlak olub, 600 min erməni ölüb. Ermənilər zaman-zaman 600 min nəfəri 1,5 milyona qaldırıblar. Amma 3 milyon türkün qırılması barədə söz deyib, söhbət edən, məsələ qaldıran olmayıb. 1988-ci ildə Sumqayıtda 26 nəfər erməni ermənilərin xəyanəti ilə öldürülmüşdür. Hadisədən beş gün sonra Xankəndində onlara abidə ucaltdılar və dünyaya hay saldılalr ki, barbar müsəlmanlar yüzlərlə yazıq, məzlum erməni öldürüblər. Bu azmış kimi Azərbayanın pulu ilə "GENOSİD", "QLOSNODT" kitablarını nəşr etdirib hər yerə göndərirdilər.

Lakin 1988-ci ilin dekabr ayında erməni quldurları Ermənistanda azərbaycanlılar yaşayan 185 yaşayış məntəqəsinə quldurcasına basqın edib azərbaycanlılardan 400 nəfərə yaxın soydaşımızı müxtəlif işgəncə ilə öldürmüş, 25 mindən çox ailənin əmlakını, ev əşyasını talan etmiş, 400-dən çox köç maşınını

dağıtmış, 480-dən çox kənd boşaldılmışdır. Bu soyqırımın davamı 1992-ci ilin fevralında Xocalıda oldu. Qudurmuş ermənilər vəhşi havadarlarının köməyi ilə 1992-ci il fevralın 26-da dünyada analoqu olmayan Xocalı soyqırımı törətdilər. Bir gecənin içərisində 613 nəfər qətlə yetirildi. 487 nəfər şikəst oldu, 1275 nəfər əsir götürüldü, şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq olmuşdur. Səkkiz ailənin damazlığı kəsilmişdir, 150 nəfər itgin düşmüşdü. 56 nəfər dünya təcrübəsində qeydə alınmamış xüsusi işgəncə növü ilə gözün bəbəyini bıçaqla oymaq, qulağı, burunu, dili kəsmək, dırnaqların sədəfini kəlbətinlə dartıb çıxartmaq, ətlə dırnağın arasına iynə yeritmək, ayaqları nallamaq, lüt kürəyə qaynar samavar bağlamaq, qollara qələm vurmaq, sinələrə qızardılmış şişlə dağ çəkmək, daxili orqanları diri-diri yarıb çıxartmaq və s. Xocalı faciəsində 25 nəfər uşaq ata-anasını itirmiş, 230 nəfər valideynlərdən birindən yetim qalmışdır. Bundan sonra qanıqlaşmış erməni quldur dəstəsi 1992-ci il may ayının 9-da Qələbə günü Şuşanı, 8 gün sonra Laçını işğal etdilər, əhalisini pərən-pərən saldılar. 1993-cü ilin aprelindən başlanan departasiya oktyabrın 25-də başa çatdı. Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan bölgələri düşmən tərəfindən tarmar edildi, əhalisi baş götürüb qaçdı, qaçqınlıq statusu aldı. Bir milyon insan axını üz tutdu qərib-qürbət ellərə. Bu gün də onlar çadırlarda, vaqonlarda, dəyələrdə, zirzəmilərdə dözə-dözə yaşayıb gün keçirirlər. Bizim "başbilənlər" az qaldı ki, desinlər:

-Nə olub e, cəmisi beş-altı adam ölüb, hay-küy salırsınız, provakasiyaya aparırsınız. Nə isə ... Danışdıqca adamı od götürür. Ax, ax, hardan alım Andranikin Ozanyanın anasını ağlar qoyan, onun quldur dəstəsini Zabuxun dərəsində darmadağın edən Kürdhacılı Qatırçı Muradın nəvəsi Sultan bəyi!? Gorun çatlasın bəy, Abdallar oylağında azğın dığalar at çapır, meydan sulayırlar.

-Daşnak Andanik Zəngəzur mahalının Qərb hissəsini işğal edəndən sonra Qarabağa keçmək eşqinə düşür. Yerli ermənilərin köməyi ilə, heç bir maneyə rast gəlmədən Minkənd-Şəlvə-Murovdağ istiqamətində Qaqabağa keçmək qərarına gəlir. Əslində Zəngəzurda gedən hadisələrdən Sultan bəy də çox narahat idi. Xülasə yerli daşnaklar Andraniki başa salırlar ki, Zəngəzur dağlarında, yaylaqlarda elat, tərəkəmə camaatı ancaq yayda olur. Quyruq doğanda, Dəvələr ağzı arana yatanda hamı barxanasını bağlayır və köçürlər qışlağa. Dağlarda qu deyəndə, qulaq

tutulur, heç kəs olmur yaylaqlarda. Sultan bəyin də böyük təssərrüfatına başı qarışıb. Bəli, el yaylaqdan üzülüşən kimi Andronik hərbi sursatını gətirib yığır Qaragölün ətrafına. Onun məqsədi Qarabağa keçmək, orada öz dövlətini yaratmaq idi.

Qışda ovçular dağlara ova çıxırdılar. Onlar ayı, maral ovlayırdılar. Ovçu Qaraş, olçu Soltan ovçuluqda tanındıqları üçün onlara ovçular deyərdilər. Ovçular Qaragölün həndəvərində hərbi sursatı görüb şübhələnirlər. Ovçular ov etməkdən vaz keçib özlərini çatdırırlar Sultan bəyə: -Bəy, başın qarışıb təssərrüfata, düşmən gəlib oturub çənənin altında.

Onlar gördüklərini yerbəyer Sultan bəyə çatdırırdılar.

Sultan bəy qəzəblənir və deyir: -Mən bu dağlarda elə bir tufan qopardım ki, onun dalğası bütün Zəngəzuru bürüsün. Bu bəd xəbəri eşidən kimi Sultan bəy bütün qüvvələri səfərbər edir, Andronikin Minkənd-Şəlvə-Murovdağ əməliyyatının altını üstünə çevirir.

Hər şeydən əli üzülən Andronik Sultan bəylə sazişə girmək fikrinə düşür. Keşiş Andronikin göndərdiyi məktubu Sultan bəyə təqdim edir.

Məktubun məzmunu belə olur:

"Sultan bəy, bizim Şuşa yürüşümüzün təhlükəsizliyini təmin etsən, Abdallar oymağından keçib getməyimizə icazə versən, sənə istədiyin qədər qızıl verərəm. Hörmətlə: Andronik Paşa"

Sultan bəy ağıl dəryası imiş e. O, keşişə deyir ki, elə cavab məktubunu da özün yaz. Yaz ki, türk hərbi adı olan Paşa sizə yaraşan ad deyil. O ad türklərə məxsusdur. Siz isə eşitdiyimə görə ermənisiniz. Və onu da bilməlisən ki, bu yurdun övladları qeyrətlərini pula satmayıblar. O ki, qaldı Şuşa yürüşünün təhlükəsizliyini təmin etməyə, bizə 20 qatır yükü silah lazım olacaq. Danışıqlarımız baş tutsa işarəmi gözləyin. Amma bütün silahları, topları, pulemyotları söküb qatırlara yükləyin, üstünü də basdırın diqqəti cəlb eləməsin. Bu yerlərin dəliqanlı igidləri şuluq salar, biabır olarıq.

Sultan bəyin şərtinə əməl edən Andronik Ozanyan silah yüklü 20 qatırı bəyin hüzuruna göndərir.

Sultan bəy ixtisasca topçu idi. O fənd işlətməklə bir gecənin içində düşmənin silah yüklü 170 qatır karvanın ağzını Kürdhacıya döndərir. Andronkin quldur

dəstəsini, nizami ordusunu Zabuxun dərəsində darmadağın edir. Çıxış yolu tapmayan quldur Andronik Ozanyan keşişi öldürür, libasını geyinir, 5-6 yaşında bir uşağın əlindən tutub bəyə tərəf gedir.

Qələbədən məğrurlaşan Sultan bəy:

-Keşiş, hardan gəlib, hara gedirsən?

Andronik uzun əbasının balağını dəstələyə-dəstələyə:

-Bəy, başına pırlanım, bu uşağa hayıpım gəlir, deyirəm, azıb eliyər, aparım ötürüm.

O, hiylə ilə xaç çevirir, astvasa da xoş gələr, -deyir.

Sultan bəy qıçını aralayır və deyir:

-Keşiş, gəl keç.

Andronik bəyin paçasının arasından keçib gedir. Bir azdan əsgərlər xəbər gətirirlər ki, Andronik keşişi öldürüb paltarlarını geyinib aradan sıpıxıb çıxıb. Gedək onu tutaq gətirək.

Sultan bəy üzünü onlara tutur:

-Əzizlərim, Turkiyədə türklər onun qulağını kəsiblər. Burada da mənim paçamın arasından keçdi. O bir daha Azərbaycana qayıtmayacam.

Doğrudan da elə olur. Zabux məğlubiyyətindən sonra Andronik 30 nəfərlə gedib çıxır Üçmədzinə. 1923-cü ildə gedib Bolqarıstana. Oradan da özünün iki oğlunu götürüb qaçır Amerikaya və 1925-ci ildə orada gəbərir. 1927-ci ildə Fransada yaşayan daşnaklar onun sümüklərini Parisə köçürürlər. 1990-cı ildə millətçilik, şovinistlik tərbiyəsinin gözünə atmaq üçün onun qəbrindən birovuc torpağı Yerevana göndərmişdirlər.

Biz isə erməni daşnaklarının fitvası ilə Sultan bəy kimi el oğlunu "Xalq düşməni" çıxartdıq, nəslini sürgünlərdə çürütdük.

Ruhun şad olsun, ay Sultan bəy! Əmanət qoyub getdiyin torpaqları saxlaya bilmədik.

M.C.BAĞIROVUN MƏHKƏMƏSİ.

"Yaxşı yadımdadır, 1956-cı ildə M.C.Bağırovun qapalı məhkəməsi gedirdi. Həmin məhkəmədə bizim müəllimlərdən də iştirak edənlər vardı. Onlar məhkəmənin gedişindən bəzi məqamları bizə çatdırırdılar. (Ə.M.Lələdağ "Yaddan çıxmaz günlərim") Həmin məhkəmədə Azərbaycanın hakimiyyət orqanlarına

soxulmuş daşnaklardan Markaryanın, Mikoyanın, Qriqoryanın, Şahnazaryanın xalqımızın ən ləyaqətli oğul və qızlarını, dövlət və ictimai xadimlərini, ziyalılarını, şair və yazıçılarını məhv etdikləri sübuta yetirildi. Sübut olundu ki, qriqoryanlar, markaryanlar, simonyanlar Azərbaycan xalqının 300 min nəfər ən ləyaqətli oğul və qızlarını məhv ediblər. 300 min nəfərin 97 faizi milli tərkibcə azərbaycanlı olub. Onların sırasında hamımızın yaxşı tanıdığımız qələm sahibləri Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Böyükağa Talıblı, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq, Ruhulla Axundov, Ağahüseyn Rəsulzadə, Bəkir Çobanzadə, Əli Nazim, Əli Fazi, İsmayıl Katib, Məmməd Kazım, Ələkbərli, Mustafa Quliyev, Seyid Hüseyn, Salman Mumtaz, Soltam Məcid Qənizadə, Tağı Şahbazi Simruq, Hacıbaba Nəzərli, Bəhlul Əfəndi və başqaları günahsız, sübutsuz, məhkəməsiz qətlə yetiriliblər.

Azərbaycan milli diviziyasının rəhbəri general mayor Qambay Vəzirovun,onun qardaşları- Səcəddin və Heydər Vəzirovların 1918-ci ildə daşnak lideri Andranik Ozanyanın quldur dəstəsinə qarşı vuruşan, xalq qəhrəmanlarından Qara Ceyrə oğlunun, Paris universitetinin hüquq fakultəsinin məzunu Mustafa Vəkilovun, jurnalist Cavid Fərxadovun, Hüsgün Qafarovun, Cəlal Əsgərovun, igid eloğlu Sultan bəy Soltanovun erməni quldurlarını Zabuxın dərəsində məhv etdiyinə görə ailəsinin sürgün olunması bizi həmişə narahat etməlidir. Bu gün günahsız insanların ölümü bizə dərs olmalıdır. Dönməz əqidəsi, məsləki, işıqlı fikir və arzuları ilə ucalarda duran bu adamların günahı nə idi, bu adamlara kim divan tutub? Sürgünə göndərilən kim, öldüsü-qaldısı bilinməyən kim, onların çoxusu Nargin adasında qətlə yetirilib. Əgər Xəzər dənizinin dili olsaydı, boyunlarına, qollarına ağır daş bağlanmış bu dəyərli insanların skletlərinin ah-naləsini qanlı göz yaşı tökə-tökə danışardı. Bəlkə də danışır. Bəzən acıqla, qeyzlə şahə qalxan, göylərə hücum çəkən dalğaların fəryadını kim başa düşür... O qanlı illərdə Azərbaycan xalqına edilən qəsdlərdə X.Qriqoryanın müstəsna rolu olmuşdur. Daşnak 1937-ci ildə atasına çörəyin içərisində göndərdiyi məktubda bildirirdi ki, Azərbaycanın 100 nəfər qaymaq oğul və qızlarını güllələyib, 500 nəfər isə növbə gözləyir. Məhkəmədə M.C.Bağırov qriqoryanlara, markaryanlara inandığını etiraf etmiş və günahlarının bağışlanılmaz olduğunu bildirərək demişdir. "Məni dörd şaqqa edin. Mən bu murdarlara inanıb xalqıma xəyanət etmişəm".

VIII FƏSİL

27-29 FEVRAL 1988-Cİ İL HADİSƏLƏRİ.

Məlum olduğu kimi, 27-29 fevral 1988-ci il tarixdə Azərbaycan Respublikasının Sumqayıt şəhərində separatçı, millətçi, terrorçu erməni və ermənipərəst qüvvələr tərəfindən faciəli hadisələr törədilmişdir. Həmin günlərdə şəhərdə tuğyan etmiş iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400 nəfərdən çox adam bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və qismən yandırılmış, şəhərimizə o vaxtkı qiymətlərlə 7 milyon rubl və ya 10 mln Amerika dolları məbləğində maddi ziyan vurulmuşdur. Bu iğtişaşları araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən 18/55461-88 nömrəli xüsusi cinayət işi açılmış, 444 nəfər adama məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmış, bir neçəsi uzunmüddətli həbs cəzasına, bir nəfəri – Əhməd İman oğlu Əhmədov isə yüksək cəzaya – ölüm cəzasına məhkum olunmuşdur və hökm tez-tələsik yerinə yetirilmişdir. (Həsən Sadıqov və Ramazan Məmmədov "Sumqayıt milli əsarət ya səxavət")

1989-cu ilin sentyabr ayında ermənilər Sumqayıtda törədilmiş hadisələrə həsr olunmuş geniş bir mətbuat konfransı keçirmişlər. Daşnakların "Quşamatyan" adlanan Tarixi-maarifçilik cəmiyyətinin Ermənistan Jurnalistlər İttifaqı ilə birlikdə Yerevan şəhərində təşkil etdikləri konfransda 300 nəfrdən çox adam – alimlər, tarix və filologiya elmləri doktorları, professorlar, Ermənistan Ensiklopediyasının direktoru, publisist yazıçılar, ali və orta məktəb müəllimləri, mətbuat işçiləri, xarici ölkələrdən gəlmiş çoxlu sayda hüquqşunaslar, vəkillər və jurnalistlər iştirak etmişdir.

Ermənilər keçirdikləri konfransın materiallarını bir çox xalqların dillərində, o cümlədən rus dilində də 50 min tiraja «Сумгаит… Геноцид… Гласность?» adlanan kitabda nəşr etdirib dərhal antiazərbaycan, antisumqayıt təbliğat maşınına ötürmüşlər.

Mətbuat konfransını "Quşamatyan" tarixi-maarifçilik cəmiyyətinin nəzdində yaradılmış ictimai şuranın sədri V.Q.Muşeqyan açaraq demişdir: "Mətbuat

konfransının əsas məqsədi keçən ilin fevral ayında Sumqayıtda baş vermiş hadisəni işıqlandırmaqdan, ona hüquqi və siyasi qiymət verməkdən ibarətdir"

Konfransda çıxış edən Ermənistan parlamentinin deputatı, filologiya elmləri doktoru Suren Zolyan hadisələrə siyasi qiymət verərək demişdir: "Sumqayıt hadisələri 70 il Sovet Azərbaycanında hökm sürmüş milli əsarət siyasətinin təbii təzahürü idi".

Qeyd etmək lazımdır ki, Sumqayıtda törədilmiş hadisələr barədə Sovet İttifaqının və xarici ölkələrin mətbuatında dərc olunmuş, dünyanın kütləvi informasiya vasitələrində, radio dalğalarında, televiziya kanallarında səslənmiş materialların mütləq əksəriyyəti erməni mövqeli, birtərəfli, qərəzli xarakter daşımışdır. Etiraf etməliyik ki, informasiya müharibəsində erməni tərəf bizdən ölçüyəgəlməz dərəcədə fəal olmuş, həmişə bizi qabaqlamış, haqqımızda böhtan xarakterli yalanlar yaymağa müvəffəq olmuşdur. (H.Sadıqov və R.Məmmədov)

Təkcə onu göstərmək kifayətdir ki, millətçi-separatçı erməni ideoloqlarının 1989-cu il sentyabr ayının 23-də Yerevanda keçirdikləri və Sumqayıt hadisələrinə həsr etdikləri, daha dəqiq desək, bu hadisələrin əsl mahiyyətinin, səbəb və nəticələrinin təhrif olunmasına yönəlmiş nüfuzlu bir mətbuat konfransına bir növ cavab konfransını biz yalnız 11 il 5 ay 6 gün sonra keçirməyə nail ola bildik.

Yeri gəlmişkən, Sumqayıt hadisələrinin 13-cü il dönümünə həsr olunmuş konfransın keçirilməsini bəyəndikləri, yüksək qiymətləndirdikləri, şərait yaratdıqları üçün Sumqayıt Dövlət Universitetinin rektoru professor Nadir Fərrux oğlu Qəhrəmanova və o vaxt şəhərin meri vəzifəsində işləmiş Təvəkkül Yaqub oğlu Məmmədova bir daha dərin minnətdarlığımızı bildirməyi özümüzə borc sayırıq.

Həmin konfransda prof. N.F.Qəhrəmanov ilk dəfə Sumqayıt hadisələrinə siyasi və düzgün hüquqi qiymət verilməsinin təxirəsalınmaz məsələ olduğu barədə bəyanatla çıxış etdi. Professor Nadir Qəhrəmanovun bu bəyanatı konfrans iştirakçıları tərəfindən dəstəkləndi və konfransın tövsiyələrinə daxil edildi. Amma, əfsuslar olsun ki, bu məsələ hələ bugünədək öz müsbət həllini tapmamışdır.

Hörmətli oxucu, əlinizdə tutduğunuz bu kitabın yazılmasında qarşıya iki əsas məqsəd qoyulmuşdur. Birinci. Sumqayıt şəhərinin timsalında göstərmək ki, sovet

hakimiyyəti illərində Azərbaycanda yaşamış ermənilərə və digər xalqlara qarşı heç bir formada milli əsarət siyasəti aparılmamışdır.

İkinci: Tarixi faktlara və dəlillərə əsaslanaraq Sumqayıt həqiqətlərini geniş oxucu kütlələrinə çatdırmaqla saxtakar erməni terrorizminin millətçi, separatçı ideologiyasının iç üzünü açmaq.

Erməni separatçı və millətçi "ziyalılar": "70-illik Sovet hakimiyyəti illərində Azərbaycanda onlara qarşı milli əsarət siyasəti aparılmışdır", - deyə bizə həyasızcasına quru böhtan atırlar. Ona görə də, ilk növbədə açıqlamaq lazım gəlir ki, "əsarət"və "milli əsarət" anlayışları nə deməkdir.

"Əsarət" çoxmənalı anlayışdı. Əsarət olduqda bir insanı və ya bir qrup insanı məhdud həyat və fəaliyyət tərzi keçirməyə məcbur edirlər, onları sıxışdırırlar, sərbəst hərəkət etməyə qoymurlar, əziyyətə salırlar, istismar edirlər.

"Milli əsarət" dedikdə isə, əhalisi çoxmillətli olan ölkələrin ərazisində ilk dəfə məskunlaşan (aborigen, yerli) millətlər müəyyən səbəblərdən buraya sonralar gələn (diaspora, gəlmə) millətlərdən olan adamlara qarşı ayrıseçkilik siyasəti apardıqları başa düşülür, anlanılır.

Bəs, erməni "aliminin"dediyi kimi, doğrudandamı Sumqayıtda gəlmə xalqlara, o cümlədən ermənilərə qarşı milli əsarət siyasəti aparılmışdır?

Sumqayıt... Abşeron yarımadasında çox qədim və zəngin milli ənənələri olan və öz ənənələrini bu gün də yaşadan Corat və Saray kəndlərinin qonşuluğunda, Xəzər dənizinin ləpələri aramsız döyən bir qumlu səhra, söz mənşəi hələ də elmi əsasda tam açıqlanmayan ərazi "Sumqayıt" adlanır.

Əfsanəvi gözəlliyi və sağlamlıq ocağı olan bu əraziyə "Sumqayıt" adının nə vaxt, hansı səbəbdən və kimlər tərəfindən verilməsi suallarına tədqiqatçılar hələlik rəvayətlərdə cavab axtarırlar. Bugünkü reallıq isə belədir: "Sumqayıt" adını həm geniş bir coğrafi ərazi, həm Bakı – Rostov şəhərləri arasında olan dəmir yol xəttinin üstündə kiçik bir dayanacaq və qəsəbə, həm də XX əsrdə salınmış böyük sənaye, elm və mədəniyyət mərkəzi – Sumqayıt şəhəri daşıyır.

Yarım əsrdən artıq inkişaf tarixi, 300 min nəfərə qədər çoxmillətli əhalisi olan Sumqayıt şəhəri haqqında istər ictimai-siyasi və istərsə də bədii ədəbiyyatda çox az məlumat verilmişdir.

Əşir Bəşiroğlu

Bu gün Yer kürəsində elə bir ölkə tapmaq çətin olar ki, "Sumqayıt" sözü orada eşidilməmiş olsun. Bu sözü hər yanda eşitdirənlər isə bizdən daha çox, dünya xalqlarının dillərində fasiləsiz antiazərbaycan, antisumqayıt informasyası yayan erməni təbliğatı olmuşdur.

Sumqayıt haqqında azərbaycan və rus dillərində yazılmış kitabça və məqalələrdən aydın olur ki, müəlliflər, bir qayda olaraq, şəhərin sənaye kompleksi və əhalinin gözə çarpan xüsusiyyətlərini səsləndirirlər. Aysberqin görünməyən tərəfinə toxunulmur. Burada əsas leytmotiv mədhiyyəçilik olub, tərifləyici xarakter daşıyır.

Oxucuya təqdim etdiyimiz bu kitabın I fəslində "Sumqayıt" adlanan qumlu səhrada ilk tikinti təşkilatı olan və ilk sənaye obyektlərini, mənzil-məişət binalarını, maarif-mədəniyyət ocaqlarını inşa edən, fəaliyyəti hələlik tədqiqat obyektinə çevrilməmiş "Закпромстрой"- "Zaqsənayeinşaatı" – (Zaqafqaziya Sənaye İnşaatı)adlanan tikinti trestində və xüsusən də onun – "Fəhlə Təchizatı Şöbəsi"-ndə («ОРС»-«Отдел Рабочего Снабжения») 1944-1960-cı illərdə xərçəng xəstəliyi kimi yayılmış, inşaatçıların və daha sonra sənaye müəssisələrində çalışan fəhlələrin qazandıqlarını zəli kimi sormağa başlayan, "milli əsarətə" məruz qalan bəzi ermənilər haqqında qısa məlumat verilir.

Kitabın II fəslində sənaye müəssisələrindən bir nümunə olaraq, Sumqayıt Alüminium zavodunda 1954-1989-cu illərdə işləmiş ermənilər barədə məlumat verilir, onların milli əsarətə yox, milli səxavərə "məruz qalmaları" göstərilir.

Hər bir şəhərin tikilməsi və inkişaf mərhələləri onun sahibi olan xalqın tarixinin tərkib hissəsidir. Ona görə də şəhərlər haqqında yazarkən əsas meyar obyektivlik və vətəndaşlıq məsuliyyəti olmalıdır.

Müəlliflər öz doğma şəhərləri Sumqayıtın yaranma və inkişaf tarixinin bir anına müraciət edərkən xüsusi münasibət, şəxsi istək, siyasi meyl, etnik mənsubiyyət, şəxsiyyət nüfuzu, qazanc güdmək, populistik və s. kimi ümumi işə xələl gətirə biləcək hallara yol verməməyə, obyektiv olmağa çalışmışlar. Onların buna hansı dərəcədə müyəssər olduqlarını, əlbəttə, oxucu özü qiymətləndirəcək.

Fəlsəfə doktoru, professor Həsən Sadıqov və Filologiya elmləri namizədi, dosent Ramazan Məmmədovun birgə yazdıqları "Sumqayıt milli əsarət ya milli

səxavət" kitabında 1988-ci il 27 fevral hadisələri gözəl təhlil edilmişdir. Həmin kitabdan bəzi faktları ixtisarla oxuculara təqdim edirəm.

"MİLLİ ƏSARƏTDƏ" OLAN ERMƏNİLƏR.

Alüminium zavodunda işləmiş ermənilərin özlərinə minik maşınları almaq imkanları da geniş olmuşdur. Məsələn, elektrolizçi Budaqyan Qrantin QAZ-24 markalı, çilingərlər Arakelyan Rubenin və Qazaryan Eduardın "Moskviç" markalı, elektrik Martirosyan Antonun – "Juqili" markalı, Saakyan Benik və Ernest qardaşlarının "Moskviç-2140" və "Moskviç-407" markalı minik maşınları var idi.

Beləliklə, "Ermənilər alüminium zavodunda" mövzusnda aparılmış elmi-sosioloji tədqiqat işi əyani olaraq göstərir ki, ermənilər zavodda heç bir milli və sosial əsarətə məruz qalmamış, əksinə onlar zavodda və şəhərdə mümkün olan bütün imtiyazlardan geniş istifadə etmiş, azərbaycanlılara tarixən xas olan – milli səxavətdən yaxşıca bəhrələnmişlər.

SULTAN BƏYLƏR HAQQINDA

Əsrin əvvələrində Azərbaycanın Zəngəzur əyalətində üç Sultan bəy nəsli böyük fəaliyyət göstərirdi. Qafan mis mədənləri Bərgüşad çayının axarı boyu inkişaf etmiş kənd təsərrüfatı, Çalbayır maldarlıq mülkləri onların əlində idi.

Ulu Sultan bəylər nəslindən bu günlərə möhtəşəm qalalar, böyük körpülər, zəngin meşələr qalmaqdadır. İndiki Laçın rayonunun Küdhacı kəndində yaşayan Sultan bəy maldarlıq sahəsində xüsusi ad çıxarmışdı.

Sultan bəy Zəngəzurda böyük hörmət və şöhrət sahibi, müdrik kəlamlar ustadı kimi tanınmış Paşa bəyin oğludur. Paşa bəy öz övladlarından Sultan bəylə Xosrov bəyin tərbiyəsinə, onların bir şəxsiyyət kimi yetişmələrinə xüsusi səy və böyük qayğıkeşlik göstərmişdir. Onlara şərqin qəhrəmanlıq və müdrik keçmişini öyrətmişdir. Sultan bəyin hərb sənətinə, Xosrov bəyin tibb elminə yiyələnmələrinə hər cür lazımı kömək etmişdir. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Mükəmməl hərbi təhsil almış Sultan bəy rus ordusunda xidmət etməkdənsə, Çalbayırda yaşayan el, obasının qayğısına qalaraq, birinci növbədə xalqın ağır güzəranını yaxşılaşdırmağı üstün tutmuşdur. Onun Çalbayır yaylaqlarında on minlərlə davarı, qara malı saxlanılardı. Kürdhacıda tikdirdiyi yağ-pendir zavodu nəhəng qurğular sistemini xatırladırdı. Yağın və pendirin zavod üsulu ilə keyfiyyətli istehsal edilməsi xəbəri digər şərq və avropa ölkələrinə də yayılmışdır. Hacısamlı, Şəlvə, Kürdhacı meşələrinin qırmızı palıdını konyak istehsal edən zavodlara daşıtdıran Fransa tacirləri Sultan bəyin yağ-pendir zavodunun məhsullarının da əsas müştəriləriydilər.

Bu vaxtı Kürdhacı kəndi Qafqazdakı rus ordusunun yağ-pendir anbarlarına çevrilmişdir. İstehsal olunmuş yağ-pendir böyük motallara, dəmir və ağac çəlləklərə doldurulub buzlu zirzəmilərdə, soyuq kahalarda saxlanılırdı. Məhsulları uzaq yerlərə daşımaq üçün bəyliyin xeyli atı, öküzü, kəl arabaları, dəvə karvanları vardı. Əsrin əvvələrində dünya kapitalizmi Azərçbaycanın sərvətlərini acgözlüklə qarmalayırdı. Bakı nüfti, Gədəbəy, Qatar (Qafan) mis yataqları, Zəngəzur meşələri alman, fransız və ingilislərin caynağında idi.

Rusiyanın kiçik xalqları əsarət altında saxlamaq siyasəti Azərbaycanda daha dözülməz idi. Rusiya bir tərəfdən ağır vergilərlə xalqı soyub talayır, digər tərəfdən müstəmləkəçiliyin ömrünü uzatmaq üçün xalqın ziyalı və mütəfəkkirlərni Sibir sürgünlərində məhv edirdi. Əgər XIX- XX yüzıilliklərdə Sibir çöllərində ölənlərin məzarları araşdırılarsa, bu yerlərdə azərbaycanlıların yüzminlərlə qəbirləri tapılar.

O vaxt Azərbaycanı qoruyacaq vahid xalq ordusu yox idi. Ayrı-ayrı xanlıqlar, bəyliklər öz mülklərini qorumaq üçün kiçik süvari dəstələr saxlayırdı. Dinc əməklə

məşğul olan Sultan bəyin ailəsini də mühafizə etmək üçün çox da böyük olmayan silahlı süvari dəstəsi vardı.

Türk ordusunun sirlərini ingilis kəşfiyyatına satmaq üstündə qulağı kəsildikdən sonra qaçıb İrəvana gəlmiş Andranik Ozanyan davakar ermənilər başına toplayıb silahsız Azərbaycan kəndlərinə tez-tez basqınlar edirdi. Onun yaraqlı quldur dəstələrinin törətdiyi vəhşiliklər haqqında Zəngəzura da bəd xəbərlər gəlib çatırdı.

Onlar azərbaycanlı uşaqları tonqallarda yandırır, boylu qadınların qarnına xəncər soxur, adamların başına mismar çalır, kürəyinə qaynar samavar bağlayır, qız və qadınların üzlərinə süngü və xəncərlə xaç şəkilləri çəkir, cavanların ayaqlarını nallayırdılar. Quldur daşnak birləşmələri bu minvalla yüzlərlə Azərbaycan kəndlərini viran qoyur, qarət etdikləri qənimətlərin hesabına nizami ordu yaradaraq Laçın rayonunun Zabux kəndinə hücum çəkirlər. Bir gün içində Zabux və tat kəndlərini dağıdıb xaraba qoyurlar.

DAŞNAKLARIN VƏHŞİLİKLƏRİ

Daşnak ordusunun əsrin əvvələrində Zəngəzurda törətdikləri vəhşiliklərdən ən dəhşətlisi Tat qırğınıdır. Andranikin quduzlaşmış ordusunun tat kəndində törətdiyi vəhşiliklər heç bir müharibə tarixində görünməmişdir.

Bu döyüşdə tatlar baltadan, yabadan, ağacdan, daşdan istifadə edib şücaət göstərsələr də, qüvvələr nisbəti çox olduğundan düşmənin qarşısını ala bilməmişlər. Tatlar çox böyük itkilərlə məğlub olmuşlar. Daşnaklar camaatın bir hissəsini böyük kahalara doldurub ağzında gərmədən ocaq qalayıb, onları tüstüdə boğub, odda yandırıblar. Bir dəstə əsiri Zabux kəndinə gətirdikləri zaman yolda erməni dığalar bir gürzəni ağacla götürüb qolları bağlı kişinin üstünə atırlar. İlan dərhal kişinin boynuna dolanıb üz-gözünü gəmirir. Sonra qulağını ağzına alır kişi bir qədər getdikdən sonra hüşünü itirib yerə yıxılır. Daşnaklar kişinin öldüyünü güman edib başına, kürəyinə bir neçə daş salıb gedirlər.

Əsir götürdükləri qadın və qızların əvvəl saşlarını kəsdirib çatı toxutdururlar. Onlara ağlasıxmaz işgəncələr verib, çılpaq-çılpaq ağaclardan asırlar. Quldur daçnak ordusunda xidmət edən bir erməni həkiminin göstərişi ilə sağlam görünən kişi və qadınların başlarını kəsib qanlarını ayrıca qablara yığırlarmış. Yetmiş

uşağın qarnına süngü soxub yolboyu işarə daşları kimi düzürlər. Patrona qənaət etmək məqsədilə adamların başlarını daşların üstünə qoyub gürzələrlə əzərək Zabux çayına tökürlərmiş. Qədim yazılı ağır bir daşı Ermənistana aparmaq üçün 20 nəfər tat kişisini arabaya qoşurlar. Xumar adlı Tat gözəlini Andranikin çadırına apararkən Sərt döngə deyilən yerdə qız qəflətən yerdən daşı cəld götürərək başına vurub, özünü öldürür. Xumarın qardaşı İbrahimi qolu bağlı itlərin qabağına ataraq quduzlara parçalatdırır, sonra ağaça bağlayaraq sinəsinə bıçaq atırlar.

Daşnaklar törətdikləri vəhşilikləri Zəngəzur camaatı arasında yayıb vahimə yaratmaq üçün bir neçə qadın və kişilərin budlarına, kürəklərinə möhürə bənzər dəmiri qızdıraraq basıb Abdallar kəndinə tərəf buraxırlar. Xəbər Fətəlipəyə, Söyüdlü, Migidərə, Malxələf kəndlərinə çatanda camaat sel kimi axışıb köməyə gəlir. Lakin iş-işdən keçmişdi. Kəndlər tamam yandırılmış, əhali qırılıb məhv edilmişdi.

SULTAN BƏYİN ZƏKASI

Tat qırğınının axşamı Andranik Abdallardan Şuşaya keçmək üçün Sultan bəydən yol istəyir. Elçiləri vasitəsi ilə Sultan bəyə çatdırır ki, hərgah Qarabağ yürüşümün təhlükəsizliyini təmin edə bilsən sənə istədiyin qədər qızıl verərəm. Sultan bəy cavabında bildirir ki, hələ bu elin igidləri qeyrətlərini pula satmayıblar. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Xalqı yaranmış vəziyyətdən çıxarmaq üçün ciddi tədbirlər görə biləcək iti zəkaya ehtiyac var idi. Sultan bəy Şuşa quberniyasında işləyən çox ağıllı, müdrik zəkalı qardaşı general Xosrov bəylə təcili məsləhətləşdikdən sonra Andranikə bildirir ki, onun Qarabağ yürüşünün təhlükəsizliyini təmin etmək üçün bir qədər silah lazımdır.

Andranik Sultan bəyə 20 qatır yükü silah verir. Sultan bəy Andranikdən aldığı sursatla özünün suvari dəstələrini silahlandırıb Qaladərəsindən Şuşaya gedən yolda, Yeddiqatın ayağında nal şəkilli pusqu yaradır. Andranikə xəbər göndərir ki, yolda şübhə doğurmamaq üçün topları da sökdürsün və mənim işarəmi gözləsin. Andranik də belə edir. Topları sökdürüb, yükləri hazırlatdırır. Əhvalatın üçüncü gününün axşamı Sultan bəy Andranikə xəbər göndərir ki, gecə gəlib keçsin. Andranik xəbəri alandan bir az sonra silah yüklənmiş 170 qatır karvanını Şuşaya yola salır, özü isə sübh çağı ordu ilə getmək qərarına gəlir.

Eyni zamanda həmin gecə Sultan bəy bir neçə atlıya neft dolu tuluqlar verdirib tapşırır ki, Dığa, Xınzirəyə, Gorusa, Sisyana gedib Andranikin gəldiyi yollardakı bir neçə erməni kəndlərinə od vursunlar.

Gecə Andranikin silah aparan karvanı yeddiqata çatanda Sultan bəyin pusquda dayanmış suvariləri meşədən çıxıb silah yüklü qatır karvanının yönünü Kürdhacı kəndinə tərəf döndərirlər. Beləliklə, zəhmli silahlar Andranikin ordusunun əlindən çıxır.

Həmin gecə arxa kəndlərdən tez-tez çaparlar gəlib Andranikə bildirirlər ki, türklər arxadan hücuma keçib kəndləri yandıra-yandıra gəlirlər. Qayıdıb onların qabağını kəsmək lazımdır.

Gecədən xeyli keçmiş Andranikə xəbər verirlər ki, Qarabağa göndərdiyin silah yüklü qatır karvanı keçib Sultan bəyin dəstələrinin əlinə. Bu xəbəri eşidən Andranik buraxılmış səhvin nə ilə nəticələnəcəyini dərk edərək qorxu və həyəcanını gizlədə bilməyib çox bərkdən hönkürərək zarıyır. Sonra orduya geri qayıtmaq əmri verir. Andranikin ordusu geri dönüb Zabux kəndinin yaxınlığındakı ərin dərədən Dığ kəndinə keçmək istəyərkən Sultan bəyin dəstələri daşnaqları mühasirəyə alıb dərəni qabaqdan və arxadan kəsirlər.

Tarixdə daşnaqlara ibrət dərsi olsun deyə Sultan bəy quldur ordusunun 30 min əsgərini quzğunlara yedirtdirir, 61 sərkərdəsinin başını kəsdirib Hacısamlı meşəsində saxlatdırdığı şirlərə atdırır. Qocalar danışırlar ki, bir müddət Zabux çayı qan axırmış.

Mükəmməl hərbi biliyə yiyələnmiş Sultan bəyin "Dağlarda tufan", "Güllə ətdən keçib, ətdə soyumalı", "Zərbə dalınca zərbə", "Nalşəkilli mühasirə", "Üçbucaq", "Qəflətən hücum", "Güllədən leysan", "Mövqe seçmək bacarığı" kimi hərbi taktiki nəzəriyyələrindən daşnakların Zəngəzurda əzişdirilməsində çox böyük ustalıqla istifadə edilmişdir.

Andranikin quduz ordusunun Zabux dərəsində məhv edilməsi xəbəri Zəngəzur kəndlərində böyük ruh yüksəkliyinə səbəb olub. Bundan sonra hamı Sultan bəyin dəstələrinə köməyə qalxıb. Sultan bəy Zəngəzura soxulmuş daşnak quldurları təmizləmək məqsədi ilə öz dəstələrinə üç istiqamətdə hərəkət etməyə göstəriş verir: (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

1. Canqurtaran dağının ətəyində ciddi təlim keçmiş 700 atlıdan ibarət Minkənd alayı Qaragöl, Üçtəpə, Burunkənd, Gorus istiqamətində hərəkət edib Xınzirək kəndinə dolmuş daşnaklara arxadan güçlü zərbə endirilməli, haramı düzündə İrana qaçan daşnak qruplarını mühasirədə saxlayan Güləbirdli Aslanbəyin və Məzməzək igidlərinin köməyinə çatmalı idi.
2. Zabux dərəsində qələbə qazanmış dəstələr Dığ, Xınzirək istiqamətində sürətlə irəliləyib Haramı düzünə köməyə gələn İldırımbəyin dəstələrinə qoşulmalı idi.
3. Malxələf, Fərəcan istiqamətində hərəkət edib Başarat meşəsinə Haral, Xozabird tərəfindən soxulmuş Qarabağ daşnak qruplarına qarşı vuruşan Kişi Tavat, Ovçu Sultan, Pələng Rəsulun dəstələrinə kömək edib meşəni daşnaklardan təmizləməli idi.

ÇAL ASLANIN MƏSLƏHƏTİ

Sultan bəy Məlik-Əjdər türbələri yanında tikilmiş böyük çadırda Araz çayı ətrafından gəlmiş nümayəndələr ilə yaylaq məsələsini müzakirə edirdi. Görüşdə Qatar, Zəngilan, Cəbrayıl, Qubadlı bölgələrindən olan bəylər də iştirak edirdilər.

Qatar bölgəsindəki vəziyyət haqqında çıxış edən nümayəndə daşnakların Cavidan tarixi abidələrini vəhşicəsinə dağıtmalarından kədərlə danışdı.

Sultan bəy üzünü Çal Aslana tutub Qaragöl döyüşü haqqında tədbirlərini deməsini təklif etdi. Çal Aslan ağır döyüşlərdən qalib çıxmış sərkərdə təmkini ilə ayağa durub bir qədər qəzəbli nəzərlə Cavidan abidələrinin sındırılmasından danışan nümayəndəyə baxdı. Bu baxış məxfi müşavirədə iştirak edən bütün bəylərə xüsusi təsir bağışladı. O açıb deməsə də, daxilən keçirdiyi mənəvi gərginlik aydın hiss olunurdu. Baxışlarıyla soruşurdu ki, bəs hanı sizin elin kişiləri ki, ata-baba yurdlarınızı dığalar dağıdırlar? Sonra o Qaragölü Zəngəzur dağlarının üzük qaşı adlandırdı. Onun xalq təsərrüfatı üçün böyük əhəmiyyətindən danışdı. Bu göldə qiymətli balıq növlərinin yetişdirilə bilməsindən dedi. Nəhayət yaxın vaxtda Qaragöldə başlanacaq ağır döyüşlərin necə əlaqələndirilməsindən və necə idarə olunmasından danışaraq fikirlərini belə sərh etdi:

Daşnaklar Qaragöl ətrafına böyük qüvvə toplamışlar. Məqsədləri qar əriyənə kimi yaylaqları tutmaq, Minkənd, Şəlvə istiqamətində hərəkət edib Dəli dağdan Qarabağa enmək, bu yay Aran ellərimizi yaylaqdan məhrum etməkdir. Bu çox

təhlükəli bir siyasətdir. Hərgah biz aran ellərimizin mal-qarasını, qoyun-quzusunu yaylağa çıxarmasaq hamısı qızdırıb və müxtəlif xəstəliklərə tutulub qırıla bilər. Bununla düşmənlər bizim iqtisadiyyatımıza böyük zərbə vurmuş olarlar. Biz Qaragöl yaylağından düşmənləri yaxın vaxtda təmiz qovmalıyıq. Bunun üçün təklif edirəm: (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

1. Qatar, Zəngilan, Qubadlı ellərindən təşkil olunmuş dəstələr Gorusa sağ cinahdan hücum edib daşnakların şəhərdəki qüvvələrinin başını qatsınlar.
2. Bəhlul Behcətin yaratdığı Müsəlman din ordusu Kəcavə yolu ilə gəlib Yazı düzünə çıxsın. Ağdərə yoxuşundan aşıb Qarağölün Qannıca dağı tərəfindən olan sahəsini mühasirəyə alsınlar.
3. Xilaskar ovçular: Balakişinin,Əhmədin, Xəlilin, Kərəmin, Əlyanlı Sultanın dəstələri Burunkənddən Qaragölə gedən yolu kəssinlər.
4. Minkənd alayı Sisyandan gələn yolu kəsməklə hərdən arxa tərəfdən zərbə endirsin.
5. Dəli Xanların dəstəsi Xosrov bəyin Şuşadan göndərdiyi pəhlivanlar dəstəsinə qoşulub Qannıca dağından Qarağölə gələn yolu nəzarət altında saxlasın.
6. Pulemyotçular Çınqıllı dağda pusqu yaratsınlar.
7. Düşmənə əsas zərbə qaranlıq dərədən toplarla endirilsin.
8. Aşıq Abbasın təbilçi və zurnaçılar dəstələri döyüş günü tezdən Dəli Xanların dəstələrinin qabağında meydana tərəf hərəkət etsinlər. Gurz vuran, qılınc çalanları döyüşə ruhlandırsınlar.

Dünya görmüş Kərbəlayi Məmməd, Bəhlul Behcət, Qazi Çələbi Çal Aslanın çıxışına heyran qalmışdılar. Güləbirdli Aslanbəy yerindən qalxıb "döyüşün vaxtını bilmədim" – dedi. Sultan bəy özü cavab verərək bildirdi ki, Qaragöl döuyüşü may ayının onunda səhər saat dörddə başlanacaq. Bununla Məlik-Əjdər məxfi görüşü öz işini qurtardı. Hamı verilən tapşırıqları yerinə yetirmək üçün böyük məsuliyyət hissi ilə çadırdan çıxırdı. Bəhlul Behcət Sultan bəyi ilk dəfə burda gördüyü üçün ona yaxınlaşıb əl verdi. Sultan bəy ona ehtiramla baş əyib təşrif gətirməyinə təşəkkür etdi. Bəhlul Behcət Azərbaycan dilinə tərcumə edib qurtardığı "Quran" kitabının nəfis toxunmuş, üstündə qılınc şəkili olan dəsmala bükülü bir nüsxə əlyazmasını Sultan bəyə bağışladı. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

1917-ci ilin may ayının 10-da Sultan bəy döyüşə rəhbərlik etmək üçün Çınqıllı dağın döşündə tikilmiş alaçığın qabağında atdan düşüb dürbünlə daşnakların gərargahına və ətraflara bir qədər baxdıqdan sonra Sultan bəylə görüşməyə hazır dayanmış Çal Aslana əl uzatdı. Çal Aslan iki əllə Sultan bəylə görüşüb səngərlərdən yenicə gəldiyini bildirdi. Əlavə etdi ki, hər şey öz qaydasındadır. Lazımlı bütün tədbirlər görülmüşdür. Hamı sizin işarənizi gözləyir. Sultan bəy cib dəsmalını çıxarıb alaçağın qabağındakı daşın üstünə sərdi. Sol döş cibindən Bəhlul Behcətin Azərbaycan dilində verdiyi "Quran"ı dəsmalın üstünə qoyub üzü qibleyə doğru dedi: "Ey Quran", haqq işimizə görə bizə kömək elə". Sonra ehtiramla "Quran"ı götürüb cibinə qoydu. Şad təbəssümlə Çal Aslana baxıb qaranlıq dərədə yerləşən topçulara tərəf bir fişəng atdı. Bir anda topların səsi dağları lərzəyə gətirdi. Sərrast nişanlanmış topların mərmiləri düşdüyü yerlərdə daşnakların bütün sursatlarını göyə sovurdu. Güclü top atəşinə məruz qalmış daşnaklar səhərin ala qaranlığında nəinki müqavimət göstərməyə imkan tapa bilmirdilər, hətta qaçmağa belə yer yoxuydu. Hansı səmtə üz tuturdularsa, güllə yağış kimi yağırdı. Topların səsinə Gorus şəhərinin və ətraf kəndlərin camaatı da oyanmışdı.

Qaragöl döyüşündə Sultan bəy 9 uzaqvuran, 5 yaxınvuran toplardan, 40 pulemyotdan, 3 min müxtəlif növ tüfəngdən, 120 qılıncdan, 50-dən çox gürzdən, 9 minə yaxın adamdan istifadə edirdi. Döyüş axşama qədər davam elədi. Demək olar ki, düşmənin əsas hərbi sursatı məhv edilmişdi. Əsir alınanların sayı 600-dən çox idi. Böyük düz qırılan və yaralananlarla dolu idi. Qaranlıq düşənə yaxın Sultan bəy topları döyüş meydanından çıxartdırıb Gorusun qaşına apartdırdı. Bir qədər sonra Gorus şəhəri toplardan atəşə məruz qaldı. Şəhərdə ciddi qarmaqarışıqlıq yaranmışdı. Bu vaxt Xınzirək kəndinə tərəf qaçanların sayı daha çox idi. Çal Aslanın göstərişi ilə Ağaməmməd Minkənd alayı ilə Xınzirək kəndini mühasirəyə aldı.

Ağaməmməd dəfələrlə ağır döyüşlərdən zəfərlə çıxmışdı. Ona Zəngəzurun dişli qartalı deyərmişlər. Ağaməmmədin adam gəmirən atları çox daşnak başı qopartmışdı.

Sabahısı günü Sultan bəyin Qarağöl ətrafındakı dəstələri bəzi işləri səhmana saldıqdan sonra qələbə mahnıları oxuya-oxuya Xınzirək kəndini mülhasirədə

saxlayan Ağammədin dəstələrinə köməyə gəldilər. Xınzirək kəndinin camaatı müqavimətsiz Ağaməmmədin dəstələrinə qoşularaq daşnakları kənddən qovdular. Bununla Zəngəzur yaylaqlarındakı bütün təhlükələr aradan qaldırıldı. Sultan bəy Araz çayı ətrafındakı tərəkəmə ellərinə adam göndərdi ki, yaylaqlara arxayın köçə bilərsiniz.

DAŞNAKLARIN İRANA QAÇMASI.

Sultan bəyin qəfil zərbələrinə tab gətirməyin İrana qaçmaq istəyən silahlı daşnak dəstələri Araz çayı sahilindəki qamışlıqlara doluşaraq gecələr fürsət tapan kimi çaya tökülüb o taya adlayırdılar. Sahil əməliyyatında Həkəri və Bərgüşad çaylarının vadilərindəki kəndlərin camaatı və Zilanlı kürdləri xüsusi fəallıq göstərirdilər. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Zilanlı kürdləri Arazın sahilində sol cinahda Diri dağı, Xudafərin körpüsünü, sağ cinahda isə Mincivandakı sahilboyunu nəzarət altında saxlayıb Araza tökülən daşnak dəstələrini güllə-boran edib axırlarına çıxdılar.

Kürdlər donuzları neftləyib, od vurub qamışlıqlaqrda yanğınlar törədərək düşmənləri məhv edirdilər. Yanğından qaçan ermənilər Zəngilan, Məmmədbəyli kəndlərinin ətrafındakı dərələrdə kütləvi şəkildə qırırdılar. Daşnakların xaricə aparmaq istədikləri var-dövləti əllərindən alıb Azərbaycan kəndlərinə paylayırdılar. Sahil əməliyyatı zamanı ermənilərdən alınmış silahlarla Çaytumas, Mollu, Ağalı, Alaqurşaq, Xanlıq kəndlərində güclü silahlı dəstələri yaradırdılar.

Daşnakların quldur orduları Zəngəzurdan qovulub çıxarıldıqdan sonra həyat xeyli dəyişdi. Müvəqqəti də olsa dinclik yarandı. Yollar təhlükəsiz oldu, tarlalarda əkin və biçin işləri qorxusuz gedirdi. Hamı bolluğa çalışırdı. Kəndlərdə yeni abadlıq işləri görülürdü. Həyətlərdə toy mağarlarından şən musiqi sədaları eşidilirdi. Analar matəm paltarlarını dəyişdirmişdilər. Gənclər bulaqların başında yenicə məclislər qururdular. Amma bu dinclik, bu əmin-amanlıq uzun çəkmədi. Zəngəzurda yenidən tufanlar qopdu, qara yellər əsdi. Daşnaklar silah qırğınından siyasət qırğınına keçdilər.

Mikoyanın siyasəti

Əcnəbi ölkələrə qaça bilməyən bəzi daşnaklar cildlərini dəyişib Gorusda inqilabçıların sıralalrına soxuldular. Beləliklə, Zəngəzurda çox təhlükəli vəziyyət yarandı. Daha doğrusu, A.Mikoyanın, S.Şaumyanın Zəngəzur siyasətinin həyata

keçirilməsinə başlandı. Mikoyanın Zəngəzur siyasəti Zəngəzurda Azərbaycanlıları "əritməkdən" ibarət idi. Bu vaxt minlərlə adamları yenidən Gorusun türmələrinə dodurdular. Onlara ağır işgəncələr verdikdən sonra "inqilab", "yeni cəmiyyət" düşmənləri, varlılar, mülkədarlar, qolçomaqlar və s. adlar qoyaraq özlərinə qəbir qazıtdırıb gecələr saxta hökmlər oxuyaraq güllələyib cinayətin izini itirdilər. Yerə qənaət etmək üçün bəzən onlarla adamı güllələyib bir xəndəyə tökürdülər.

Bu dövr daşnakların siyasəti ilə Zəngəzurda Azərbaycanlıların azaldılması dövrüdür. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

İndiki Gorus şəhərinin təzə küçələrinin altında minlərlə günahsız öldürülmüş azərbaycanlıların sümükləri çürüməkdədir. Minlərlə qeydiyyatsız öldürülənlərdən, sürgünlərə göndərilənlərdən hələ də xəbər yoxdur. Mikoyanın başçılığı ilə Zəngəzurda azərbaycanlılarla kürdlər elə seyrəldirildilər ki, Qannıca, Üçtəpə, Qaragöl yaylaqlarında donuz tövlələri tikilməyə başlandı. Mikoyan Andranikdən daha təhlükəli hərəkət etdi. O, Zəngəzurda mal-qara saxlamaşğı bacaranlardan başqa hamını müxtəlif yollarla qırdırdı. Qocalar danışırlar ki, erməni agentlər gecələr rus əsgərlərlə gəlib Azərbaycan kəndlərindən mal-qaranı, bəzən evlərdən istədikləri şeyləri yığıb aparırdılar. Birdə görürdün ki, gecənin yarısı bir neçə erməni yanlarında rus əsgəri, təlim görmüş itlərlə varlı ailələrin sahiblərini götürüb aparırdılar. O gedən bir daha qayıtmazdı. Ermənilərin hiyləgərliyi ilə qırmızılar Sultan bəyə də sui-qəsd hazırlayırdılar. Yaranmış vəziyyətin mürəkkəbliyini dərk edən Sultan bəyAzərbaycan İnqilab Komitəsinə müraciət edir. Buradan ümüdverici cavab almadığına görə İran şahına üz tutur. Şah İranda Rusiyanın erməni agentlərinin çox və qüvvətli olduğunu bildirib Türkiyə dövlətinə müraciət etməyi məsləhət görür. Sultan bəy Türkiyə dövlətinə müraciət etdikdə türk dövləti hər iki qardaşı – Sultan bəylə Xosrov bəyi rəsmi keçidlə qarşılayıb Ərzurum vilayətində mülk və malikanə verərək təhlükəsiz həyat şəraiti ilə təmin edir.

SULTAN BƏYİN TƏQİBLƏRİ

Uzun illər sürgünlərdə olmuş Bəyim xanım ailələrinin faciəli taleyindən belə nəql edir: -Qırmızı Ruslar Zəngəzura gəldikdən sonra atama ardı-arası kəsilmədən sui-qəsdlər təşkil edirdilər. Qəsdlərin birində atama güllə də atdırdılar. İncəvardan güllə kişinin başından yox, çənəsinə dəyərək az yaralamışdır.

Cəsur qardaşlar

Atam vəziyyətin gərginliyini başa düşmüşdü. Düşmənlərdən qoruduğu vətənində özünü qorunmağına heç bir ümüd qalmamışdı.

Atam gələcəkdə vətəni yeni düşmənlərdən xilas etmək üçün xarici mühacirətə getmək qərarına gəldi. Bundan sonra bizim indiki Laçın rayonundakı mülklərimidə yaşamağa imkan vermədilər. Anam Qarabağ xanlarının nəslindən, şair Natavan nəslinin ziyalı qızlarından biri idi. Bugünkü Xankəndi mənim ana babalarımın torpağlarıdı. Biz bir qədər Qarabağdakı qohumlarımızın himayəsində yaşadıqdan sonra Bakıya köçməli olduq. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Anam ziyalı, qoçaq və bir qədər də diplomat qadın olduğundan xeyli vaxt məsul vəzifədə işlədi. Bir müddət şəhər sovetinin deputatı da oldu.

30-cu illərin həyəcanlı gecələrinin birində qapımız döyüldü, anam qapını açdı. Hərbi formada bir neçə adam icazəsiz evə girib başladılar evi axtarmağa. Evi alt-üst etdilər. Biz hələ də məətəl qalmışdıq ki,bunlar nə axtarırlar.

Demiyəsən, NKV-də işləyən daşnak agentlər çoxdan bizim evi nəzarət altında saxlayıb güdürmüşlər. Bir azdan atamın şəkili, "Quran"ı, müxtəlif lazımlı sənədləri, qiymətli əşyaları saxlanan boxçanı yükün arasından göürüb açdılar. Gələnlərdən biri erməni idi. O, atamın şəklini görən kimi həyəcanla: "Vot, vot Sultabek" deyib şəkili onunla gələnlərə göstərdi. Bir neçə dəqiqədən sonra anama bildirdilər ki, evdən heç nə götürməfən həbs olunursuz. Əynimizin paltarını da götürməyə imkan vermədilər. Gecə hamımızı gətirdilər Bayıl türməsinə. Biz türmədə eşitdik ki, Məmməd Əmin Rəsulzadənin ailəsi də buradadır. Sonra bizə dedilər ki, 700 azərbaycanlı qadını bu gücə sürgün edəcəklər. Səhərə yaxın bizi yük vaqonlarına doldurub Bakıdan çıxartdılar. Hara apardıqlarını bilmirdik. Yağışın, küləyin, günün altında bir aya yaxın yollarda qaldıq. Aclığa, susuzluğa tab gətirməyib ölənləri qatar gedə-gedə hara gəldi atırdılar. Demək olar ki, hamı üzülmüşdü. Körpə uşaqların vəziyyəti daha ağır idi. Üstümüzdə dayanan silahlılar Azərbaycan uşaqlarına düşmən uşağı kimi baxırrdılar. Hər gün gözümüzün qabağında onarla uşaq ölürdü. Bu vaxt ən dəhşətlisi ölən azərbaycanlıların məzarları üstündə ad-soyad yazmağa icazə verməmələriydi. Gələcəyə iz qalmasın deyə, qəbiristan yaratmağa qoymurdular. Azərbaycanlıları mənəvi cəhətdən ən çox sarsıdan burada da məhbusların taleyini ermənilərin ixtiyarına verilməsi idi. Azərbaycanlılar yaşayan həbs düşərgələrində ermənilər ağlasığmaz dəhşətlər

törədirdilər. Canilər qadınların üstlərindəki qızıl-ziynətləri (təsadüfi hallarda bəzi qadınların üstündə qızıl olurdu) açırdılar, hətta ağızlarındakı qızıl dişlərini də kəlbətinlə sındırıb çıxarırdılar, düşərgələr dolu idi Azərbaycanlılarla. Çox vaxt adamlar bir-birlərindən soruşurdular ki, görən Azərbaycanda heç azərbaycanlı qalıbmı? Sürgündəki adamları çox işlədirdilər. Qazaxıstanın bir çox vilayətləri sürgün olunmuş azərbaycanlıların Qarabarlı əlləri, alın tərləri hesabına abadlaşdırılmışdır. Anam qoçaqlıqda ad qazanmışdır. İşdən sonra sürgündəki azərbaycanlı uşaqlarına savad öyrətmək məqsədilə dərnək təşkil etmişdir. Uşaqlar anamı müəllim deyə çağırırdılar.

1948-ci ildə anam icazə ilə Bakıya gəlib Bağırovun qəbuluna yazılıb onunla görüşür. Ailəmizin Bakıya qayıtması haqqında icazə istəyir. Bağırov anama deyir ki, Sultan bəy nəslinin bir daha Azərbaycan torpağına ayaq qoymağına icazə verilməyəcək. Anam cəsarətlə qəbuldakıların yanlnda Bağırova deyir: "Sultan bəy xalqının qəhrəman oğludur. O, Zəngəzurda xalqımızı daşnaklardan xilas etmişdir. Tarix bunu heç vaxt unutmayacaq. Amma sən, bu gün Azərbaycan xalqını sürgünlərdə məhv edn xalq cəlladı kimi vaxt gələcək xalq qarşısında cavab verməli olacaqsan." Anam kor-peşman yenə Qazaxıstana qayıtdı. 1956-cı ilə qədər biz sürgündə qaldıq.

Biz Azərbaycana qayıdanda Bağırovun məhkəsi gedirdi. Anamı da məhkəməyə dəvət etmişdirlər. Anam bir banka qara mürəkkəb düzəltmişdi ki, məhkəmədə onun üzünə çırpsın. Lakin nə fikirləşdisə məhkəməyə getmədi.

GÖZƏL İNSAN, QAYĞIKEŞ HƏKİM

Zəngəzurda Xostovbəyi qayğıkeş həkim, vətənpərəvər general kimi tanıyırdılar. O, Şuşa quberniyasında general olmasına baxmayaraq, həftənin altıncı günləri kəndlərə gedər, müxtəlif xəstəliklərə tutulmuş adamları təmənnasız müalicə edərmiş. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Zəngəzurda Xosrov bəyə otlar alimi də deyərlərmiş. O, quberniyanın alt otaqlarından birini yaşıl aptekə çeviribmiş. Yaz, yay aylarında Qirxqiz, Lülpər, Çalbayır, Dəlidağ, Üçtəpə, Qannıca yaylaqlarından, Hacısamlı, Şəlvə, Kürdhacı, Mizmin, Kırs meşələrindən cürbəcür dərman bitkiləri yığdırıb, qış aylarında dərmanlar düzəldirmiş.

Cəsur qardaşlar

Xosrov bəyin təşkil etdiyi yaşıl aptekdə Kəlbəcər və Laçın dağlarındakı müalicə əhəmiyyətli onlarla növ mineral sular xüsusi şüşələrə doldurulub saxlanılarmış.

Xosrov bəyin həyatı haqqında maraqlı hadisələr danışırlar. Deyirlər ki, tibbi təhsil alarkən oxuduğu məktəbdə nadinc bir rus oğlanı Xosrovu duelə çağırır. Yeri gəlmişkən deyim ki, o vaxt rus məktəblərində duelə çıxmaq bir növ dəb idi. Xosrov razılaşır. Duel günü məsələni elə təşkil edirlər ki, ilk gülləni Xosrovu duelə çağıran atmalı olur. Rəqib Xosrovu sol gözündən yaralayır.

Yaralı və həyəcanlı olmasına baxmayaraq Xosrov sərrast atəşlə rəqibi biryoluq yerə sərir.

Şuşadakı General-qubernatorluq fəaliyyətindən danışarkən bircə bu faktı oxuculara çatdırmaq istəyirəm ki, qarabağlılar və zəngəzurlular Xosrovu çar generalı kimi yox, elin vətənpərvər oğlu, qayğıkeşi, xilaskarı kimi tanıyarlarmış. Sonralar Xosrov bəy Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuşdur.

Xosrov bəy tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi ürəkdən sevən ziyalılarımızdan biri imiş. O vaxtının xeyli hissəsini müxtəlif mütaliəyə həsr edərmiş. Şair və alimlərimizin yaradıcılığına böyük bir ehtiram və hörmətlə yanaşarmış. Xosrov bəyin Şuşadakı evlərindən birini şərq kitabxanası adlandırarlarmış. Deyirlər ki, Xosrov bəy quberniyanın işçilərinə bəzən şərq ədəbiyyatı, tarixi, fəlsəfəsi haqqında mühazirələr də oxuyarmış. Firdovsidən, Xəqanidən, Nizamidən, Xəyyamdan, Sədidən farsca, Həsənoğludan, Nəsimidən, Xətaidən, Vaqifdən Azərbaycanca əzbər şeirlər deyərmiş. Müasirlərindən Əhməd Cavadın yaradıcılığını daha çox sevərmiş.

Bu da məlumdur ki, Xosrov bəy Bakıda Əhməd Cavadın xəbəri olmadan onun şeirlər kitabını çap etdirmişdir. Bu xəbəri eşidən Əhməd Cavad qəzetlərin birində Xosrov bəyə qədirbilənliyinə görə təşəkkürünü bildirmişdir.

Xosrov bəyin 1923-cü ildən sonrakı həyatı Türkiyə, Almaniya, Fransa ilə bağlıdır.

Türkiyədə olarkən 1941-1945-ci illərdə sovet-alman müharibəsində əsir düşmüş Azərbaycanlıların həbs düşərgələrindən azad olmalarında böyük xidmət

göstərdiyi, Almaniyada olarkən Universitetlərdən birində professor olduğu, Fransada yaşayarkən Azərbaycan xəstəxanası açdığı haqqında söhbətlər gedir.

İTLƏRİ İTLƏRƏ BOĞDURACAM.

Şuşadan Fərzalıbəyə gizli xəbər çatdırırlar ki, daşnaklar Topxana meşəsindən Mizmin istiqamətində Kırs dağına silah daşıyırlar. Məqsədləri Sərt yoxuşundan aşıb Palantökəni tutmaqdır. Əlavə bildirirlər ki, daşnaklar özləri ilə çoxlu təlim görmüş itlər də götürmüşlər. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

İtləri ermənilərə Antantanın cənub qüvvələri bağışlamışlar. İtlər Qafandan Hadruta arabalarla gətirilmişdir. Fərzalıbəy Şuşadan gələn xəbərçiyə bildirir ki, lazımı tədbirlər görürük.

Bir axşam Maxsudlu Bəşir bəy, Ədil bəy, Şükür bəy öz dəstələri ilə Fərzalıbəyə köməyə gəlmişdilər. Tərxanlı kəndi hərbi düşərgəyə oxşayırdı. Fərzalıbəyin evində zərbəni nə vaxt və haradan endirmək haqqında məsələ müzakirə olunurdu. Fərzalıbəy deyəndə ki, daşnaklar bu hücuma təlim görmüş İngilis itləri ilə gəlirlər, Şükürbəy yerindən cəld və bir qədər əsəbi qalxıb: - itləri itlərə boğduracağam, - deyir.

O bir qədər fkirləşdikdən sonra əlavə edir ki, Sərt yoxuşdan biz tərəfə bircə yol var. Bu yol hər tərəfdən meşə ilə əhatə olunmuş böyük düzün ortasından keçir. Mən itləri uzun kəndirlərlə düzün ortasındakı ağaclara bağlatdırıb öküzləri kəsdirib tökəcəyəm qabaqlarına. Daşnaklar dərədən çıxan kimi itlər itləri görüb cumuşacaqlar. Burada boğuşma, böyük mərəkə yaranacaq. Ermənilər itləri aralaşdırmaq üçün düzə toplaşacaqlar. Onda bizimkilər də öz sözlərini deyə bilərlər.

Bəşirbəy Şükürbəyin təklifinə tərəfdar çıxdı. Bir azdan hamı bu təkliflə razılaşdı. Fərzalıbıy yerindən bir qədər gülümsər üzlə qalxdı. Mən də bu təkliflə razılaşıram, - dedi. Bu şərtlə ki, böyük taladakı mərəkəni Şükürbəy özü təşkil etsin. Şükürbəy bu işə çoxdan hazırlaşan adam kimi yerindən qalxıb dedi: - Əlbəttə, özüm təşkil edəcəyəm. O üzünü Fərzalıbəyin qardaşı Nəcəfquluya tutub təcili ona on köpək, on qancıq və altı öküzün Böyük talaya apartdırrılmasını tapşırdı. Özü isə Abbasqulu oğlu Əli ilə talanı mühasirəyə almaq üçün dəstə ilə getməyi qərara aldı. Fərzəlibəy Ədilbəyə tapşırdı ki Tərxanlı kəndinin qadın və uşaqlarını Türklər,

Fərcan, Malxələf kəndlərinə göndərtdirsin. Özü Tərxanlı qadınlarının sabahkı döyüş üçün bişirdikləri dolu ət qazanlarını, çörək fərməşlərini atlara yüklətdirib Böyük taladakı dəstələrə yola saldıqdan sonra Tərxanlı kəndinin ətrafında pusku yaradıb səhərə yaxın Böyük talaya gəldi.

Şükürbəy həmin gecə itləri düzün ortasındakı ağaclara ayrı-ayrı uzun kəndirlərlə bağlatdırıb öküzlərdən bir neçəsni kəsdirib tökdürmüşdür itlərin qabağına. Dəstələri Nal şəklində düzərək talanı meşənin icərisindən mühasirəyə aldırmışdır.

Hamı hazır dayanıb işarə gözləyirdi. Sol cinahda Bəşirbəyin dəstəsi plamyotla Böyük talanın ortasını nəzarət altında saxlayırdı. Sağ cinahda Ovçu Balakişinin beşatılanlı dəstəsi dayanmışdır. Talanın ust tərəfində Şükürbəy,qayalıqda Fərzəlibəy ümumi mühasirəyə nəzarət edirdi.

İşıqlaşanda ermənilər Sərt yoxuşundan çıxıb Böyük talaya çatan kimi yanlarındakı itlər düzün ortasındakı itləri görüb cumuşdular. Güllə səsi eşitmədiklərinə görə ermənilər boğuşan itləri aralaşdırmaq üçün düzün ortasına axışdılar. Az vaxtda hay-küyə gələn ermənilərlə düz doldu. Kimi tüfənglə, kimi ağacla boğuşan itləri aralaşdırır, bəzən fürsət düşəndə düzə bağlanmış itləri güllə ilə vururdular .

Şükürbəy: - vaxtdır, fürsəti əldən vermək olmaz. Bu böyük qüvvədir. Əzişdirə bilsək qələbə bizimlədir. Fərzəlibəy, işarə ver, - dedi.

Fərzəlibəy Böyük qayanın yanından işarə verən kimi güllələr talanın ortasına yağış kimi yağdı. Pulemyotlar talanın ortasındakı ermənilərı itlərə qatıb biçirdi. Ovçu Balakişinin dəstəsi meydandan qaçmaq istəyənləri qırırdı. Bir neçə saat davam edən bu vuruşda Fərzəlibəyin dəstəsi itkisiz qalib gəldi. Qırılmış ermənilərin silahlarını qatırlara yükləyib qələbə ilə Tərxanlı kəndinə qayıtdılar. Bu qələbə yaddan çıxmaz bir hadisə kimi danışılır. Deyirlər, sonralar Qarabağ ermənilərı Kırs dağına baxanda gözlərini yumarlarmış ki, Kırs dağı da bizə qənim oldu.

DRO VƏ NJDENİN ARZULARI.

Əsrin əvvəllərində dünya imperalizmi xammal ölkələrinə hərbi yürüşlərə başlamışdır. Onun "Qafqaz səfəri"nin bələdçiləri erməni daşnakçıları idi. Andranikin böyük ordusunun indiki Laçın rayonunun Zabux kurqanında

məğlubiyyətindən sonra daşnaklar Antantanın cənub qüvvələri ilə əlaqəyə girib yenidən baş qaldırmışdılar.

Bu vaxt daşnaklardan Dro özünü "Qafqaz qartalı", Njde isə özünü "Zəngəzur kralı" elan etdi. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Daşnak hökuməti Dro və Njdedən tələb edirdi ki, iki ay müddətinə Şamaxıda, Şuşada,Gəncədə erməni bayrağı dalğalanmalıdır. Onlar öz qüvvələrini Gorus şəhərində təcili cəmləşdirib Azərbaycana qarşı böyük hücum əməliyyatına başladılar.

Vəziyyət çox ağır idi.

Çingiz İldırım Çalbayırın dağ kəndlərini silahlandırıb təcili Bakıya qayıtdı və Bakı neft mədənlərində işləyən Zəngəzurlu fəhlələrə müraciət etdi ki, ata-baba yurdlarını qorumaq üçün vaxt itirmədən kəndlərə qayıtsınlar. Bakı mühitində oyanmış, siyasi cəhərdən bir qədər yetkinləşmiş yüzlərlə fəhlə Çingiz İldırımın çağırışından dərhal sonra Zəngəzur kəndlərinə döndü. Az vaxtda çoxlu fədai dəstələri yaradıldı.

Abdalanlı Şirin oğlu Cəbrayılla birlikdə Çingiz İldırımın tapşırığına əsasən Gorus həbsxanasından 300-dən artıq dustağı azad etdilər. Njde isə ilk növbədə dustaqları qırmaq istəyirdi...

ŞƏMİL BƏY

Çingiz İldırımın qardaşı Şəmil bəyə göndərdiyi silahlar vaxtında çatdı. Şəmilbəy həmin gecə silahları Həkəri və Bərgüşad çayları boyunca yerləşən kəndlərdəki fədai dəstələrinə paylatdırdı. Njdenin atlı dəstələrinin keçəcəyi yollarda yüzlərlə quyu və dərin çalalar qazdırdı. Məzməzək-Cicimli istiqamətində Şotlanlı kürdlərinin seçmə dəstələrindən etibarlı pusqu yaratdı. Məlik-Əjdər türbələri yaxınlığındakı böyük düzü əsas vuruş yeri seçib ona "Nəbi meydanı" adı verdi. (Səbahəddin Eloğlu "Zəngəzur hadisələri")

Dro atlı dəstəsi ilə Azərbaycan kəndlərinə, xüsusiylə Məzməzək, Cicimli, Qazdərəsi, Orta oba, Abasqışlağı, Güləbird, İrəfi və Həkəri kəndlərinə zərbələr endirmək, Mizmin meşəsindən keçib Hadruta çıxmaq istəyirdi.

Səhərin qaranlığında hücuma keçən daşnak süvariləri qoşa təpələrə çatanda gözləmədikləri tələyə düşdülər. Atlar bir-birinin ardınca quyu və çalalara düşür, üstündəki adamları yerə elə çırpırdı ki, yıxılanın bir daha ayağa qalxmağa taqəti

olmurdu. Fürsətdən bacarıqla istifadə edən Dəli Xanların dəstəsi "Nəbi meydanı"nda xüsusilə fərqləndi. Bu dəstə daşnakların böyük bir süvari ordusunun axırına çıxdı.

Doğrudur, Məlik-Əjdər türbələri ətrafındakı qədim qəbiristanlıqda yeni bir məzarıstan da yarandı. Bu, Şotlanlı kürdlərinin qəbiristanı idi.

Beləliklə, Zəngəzur fədailəri əsrin əvvəlində böyük mərdliklə, igidliklə "Qafqaz qartalı" Dronu sərçəyə, "Zəngəzur kralı" Njdeni isə bambılıya döndərib, Zəngəzurdan qovdular.

XII FƏSİL

ƏFƏNDİYEV BƏHLUL MUSTAFA ƏFƏNDİ OĞLU (Bəhlul Bəhjət)

Sən ey məğrur qartal! Sən düşmənlərlə döyüşlərdə həlak oldunsa da, mərd və qorxmaz adamların mahnısında əbədi yaşayajaqsan. Sən insanları azadlığa və işığa çağıran-yıxılmaz heykəl olaraq qalajaqsan. *(Maksim Qorki)*

Bəhlul Əfəndi haqqında yazıya başlamazdan əvvəl qeyd etmək istəyirəm ki, görkəmlli elm və din xadimi, elimizin ağsaqqalı Bəhlul Bəhçət haqqında geniş ijtimaiyyətə məlumat vermək mənim çoxdankı arzum idi. Lakin mən Bəhlul Əfəndi haqqında yazılı məlumat əldə edə bilmirdim.

Bu işdə Bəhlul Bəhçətin nəvəsi Bakı İslam Universitetini bitirmiş ali təhsilli ruhani Əfəndiyev Həmdullah Mustafa oğlu mənə köməklik etdi. Həmdullah müəllim çox zəhmətkeş və çalışqan bir insandır. O, həmişə axtarışdadır. Dövri mətbuatda tez-tez çıxış edir. Uzun müddət əzab-əziyyətdən və axtarışdan sonra Həmdullah müəllim babası haqda bəzi materiallar əldə edib və onun əsasında «Bəhlul Əfəndi Bəhçət» adlı bir kitab yazıb. Bəhlul Bəhçət təkjə Həmdullah müəllimin yox, bütün Azərbayjan xalqının ağsaqqalı və körkəmli ziyalısıdır. Az-çox yazı-pozudan başı çıxan bütün ziyalılarımız onun həyat yoluna işıq salmalıdır.

Həmdullah müəllim babasının həyat və fəalliyəti ilə bağlı bir sıra yazılar yazıb. Məsələn, 18 fevral 1995-ji ildə «Zaman» qəzetində, 8 noyabr 1997-ji ildə «Xalq» qəzetində «Bəhlul Bəhjət: ruhani üsyançı, folklorşünas» adlı yazısı ilə çıxış edib. 1998-ji il mart ayının 22-də və 1999-ju ilin mart ayının 16-17-də

radioda B.Bəhjət haqqında söhbət gedib; mart ayı Bəhlul Əfəndinin ölüm hökmü çıxarılan aydır.

Mərhum akademik Z.Bünyadov və akademik Qasım Qasımzadə bu sahədə böyük işlər görüblər.

Bəhlul Bəhjət unudulmuşlarımızdandır. Ona görə də onun həyat fəaliyyətinin bütün tədqiqatçılarına və bu sahədə az-çox əməyi olan insanlara səmimi minnətdarlığımızı bildiririk. Ədəbiyyatçılarımızdan, tarixçilərimizdən, ümumiyyətlə, tədqiqatçılarımızdan xahişim budur ki, B.Bəhjət kimi unudulmuşlarımızı yada salsınlar. Onları gənj nəslə tanıtdırsınlar. Çünki gənj nəsil onları tanımır.

Əldə etdiyim məlumata görə, Əfəndiyev Bəhlul Mustafa Əfəndi oğlu 1885-ji ildə Bərgüşad çayının sahilində yerləşən Azərbayjanın qədim vilayətlərindən olan Zəngəzur qəzasının Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur. Balaja Bəhlul dindarlar arasında böyümüşdür. O, ilk təhsilini dövrünün nüfuzlu din xadimi olan atasından və qayınatası Hajı Qasım Çələbidən almışdır. Sonra isə Nuxa şəhərinə gedib, təhsilini başa çatdırmışdır. Bəhlul Əfəndi ali təhsil almaq üçün Türkiyəyə getmiş və orada ali ruhani məktəbini bitirmişdir.

Mükəmməl dini təhsilə malik olan Bəhlul Əfəndi çox mütərəqqi bir adam idi. O, ərəbjə «sevinj və gözəllik» mənasını bildirən «Bəhjət» təxəllüsünü qəbul etmişdir. Bəhlul Əfəndi dünyəvi elmlərlə bərabər, siyasətlə də məşğul olurdu. O, həm də Azərbayjan xalq ədəbiyyatına qırılmaz tellərlə bağlı idi.

Təsadüfi deyil ki, xalq qəhrəmanı Qaçaq Nəbinin şəninə qoşulan el nəğmələrini toplamış və onun qəhrəmanlığını qələmə almışdır. Sarı aşığın bayatılarını kitab halına salmışdır. Seyid Əbülqasim Nəbatinin itib-batmaqda olan şerlərini toplamış və «Nəbati» adlı bir kitab yazmışdır. Həmin kitab 1935-ji ildə Ə.J avadın redaktorluğu ilə çap olunmuşdur.

Bəhlul Əfəndi Azərbayjan tarixinə aid bir çox əsərlər yazmışdır. Təəssüflər olsun ki, onların əksəriyyəti bu günə gəlib çatmamış və itib-batmışdır. Bu əsərlər içərisində «Qarabağ tarixi» xüsusi əhəmiyyət kəsb edir. O kitab Azərbayjanın bu günü ilə daha çox səsləşir. Azərbayjanda Sovet

hakimiyyətinin ilk dövrlərdə şifahi xalq ədəbiyyatı nümunələrinin toplanmasına xüsusi fikir verilirdi. Həmin illərdə folklorçulardan S.Müntəz, H.Zeynallı, H.Əlizadə, B. Bəhjət və başqaları kənd-kənd, oba-oba gəzərək, çoxlu folklor nümunələri toplamışlar. Onların gərgin əməyi nətijəsində bir çox dastan, aşıq ədəbiyyatı nümunələri, atalar sözləri, lətifələr toplanıb nəşr olunmuşdur. H.Araslı B.Bəhjətin şifahi xalq ədəbiyyatındakı xidmətlərini yüksək qiymətləndirmişdir. B.Bəhjət 1934-1937-ji illərdə əvvəljə Azərnəşr, sonra isə Az.FAH-nın ədəbiyyat bölməsində işləmişdir. O, 1937-ji ildə elə iş yerindəjə həbs olunmuşdur.

Hörmətli oxuju, indi də Bəhlul Bəhjətin həyat fəalliyyəti ilə daha ətraflı tanış olaq. Azərbayjanda Sovet hakimiyyəti qurulana qədər B.Bəhjət Zəngəzur qəzasının qazısı olub. Milli Demokratik Respublika yaradılandan sonra isə B.Bəhjət onun Zəngəzur qəzasında dayaq nöqtəsi oldu.

Sovet hakimiyyəti qurulandan sonra Zəngəzur mətbuatında Bəhlul Əfəndinin ünvanına çoxlu tənqidi yazılar gedirdi. Bunlardan xalq yazıçısı Əli Vəliyevi, Oruj Qüdrətovu, partiya və dövlət xadimi H.Heydərovu xüsusilə qeyd etmək istərdim. Onlar birtərəfli olaraq B.Bəhjəti tənqid edir, onun xalq qarşısında olan xidmətlərinə isə göz yumurdular. Azərbayjanın müstəqil dövlət olmasını istəməyənlər Azərbayjan ziyalılarını təqib edirdilər.

Böyük Ermənistan arzusu ilə yaşayan daşnaklar Abramyan, Şaumyan, Akopyan və Mikoyan kimi qan içənlər Mirjəfər Bağırovun adından danışaraq müsavatçı və din xadimlərini məhv etmək üçün Şamaxıda, Qubada, Zəngəzurda, Qarabağ, Laçın, Jəbrayıl və s. yerlərdə kütləvi qırğına başladılar.

Bu vaxt B.Bəhjətə qarşı iki jəbhə vuruşurdu. Birinji Azərbayjan kommunistləri, ikinji isə Zəngəzur İjraiyyə Komitəsinin sədri Saak Ter-Ayrapetyan. Onlar B.Bəhjəti real təhlükə hesab edərək, onu aradan götürmək istəyirdilər. Əslində o vaxt Azərbayjanın taleyi HKBD-də işləyən ermənilərin əlində idi. Ermənilər B.Bəhjət haqqında Mirjəfər Bağırova yalan məlumatlar verirdilər. Guya B.Əfəndi Sovet hakimiyyətinə qarşıdır. Ermənilərə inanan Mirjəfər Bağırov rus polkunu götürüb Zəngəzura gəldi və orada kültəvi qırğın törətdi. Azərbayjan Demokratik Respublikasının axırınjı dayaq nöqtəsi məhv edildi.

O vaxt Bəhlul Bəhjət öz tərəfdarları ilə birlikdə İrana keçdi. Bir ildən sonra isə vətənə qayıtdı. 1924-jü ildə on il müddətinə azadlıqdan məhrum edilərək həbs olundu. O, Bayıl həbsxanasında yatdığı müddətdə özünü çox mərd aparmış və yaradıjılıqla məşğul olmuşdu. Onun müdrik zəka sahibi olduğunu bilən həbsxana əhli ona böyük hörmət etmişdir. Qurani-Kərimin Azərbayjan dilinə ilk dəfə tam tərjüməsini B.Bəhjət etmişdir. B.Bəhjət on ildən sonra türmədən azad olunur, ona mənzil verilir və işlə təmin olunur. O, «Məhəmməd Peyğəmbərin ailəsinin tarixi» və s. dini mövzuda əsərlər yazmışdır. Onu görən ağsaqqalların dediyinə görə, B.Bəhjətin gözəl səsi və şirin avazı var imiş. İndinin özündə də Qubadlı məjlislərində onu hörmətlə yad edir və ruhuna dualar oxuyurlar. Bəhlul Əfəndi həbsdən azad olub «Azərnəşr»in tərjümə şöbəsində işlədiyi zaman özünə fikir vermir, üzünü və saçını qırxdırıb, özünü sahmana salmırdı. Bir gün agentlərdən biri ondan soruşur ki, niyə özünə fikir vermirsən, saçını, saqqalını qırxdırmırsan? O, belə javab verir: Neçə ki bu baş düşmənə xidmət edir, mən onu qırxdırmaram və ona qulluq etmərəm. Bu sözü olduğu kimi Mirjəfər Bağırova çatdırırlar. Bu sözdən M.Bağırov çox qəzəblənir və deyir, onun ayağına ağır bir daş bağlayıb Xəzərin dərin yerinə atın. M.Bağırovun bu sözündən sonra B.Bəhjəti təqib etməyə başlayırlar, onu həmişə nəzarətdə saxlayırlar.

B.Bəhjət özü sünnü təriqətindən olub. Amma o sünnü-şiyəliyi ortaya atanlara həmişə nifrət edirdi. O, sünnü-şiyəliyi aradan götürmək istəyirdi.

B.Bəhjət deyirdi: Məhəmməd Allahın elçisidir, Əli isə onun varisidir. O, öz tərəfdarlarına əsasən sünnülərə bu sözləri dönə-dönə dedirdirdi. O, sünnü-şiyəliyi aradan götürmək üçün kitab da yazmışdır. Bəhlul Əfəndinin qoşun başçısı əslən Qubadlının Gödəklər kəndindən olan qatı şiyə qoçu Təhməz idi. O, sünnü-şiyəliyi aradan götürmək üçün qəsdən onu qoşun başçısı götürmüşdü. Təhməzi «hərbi mütəxəssis» adlandırırdı.

Görkəmli partiya və dövlət xadimi Nəzər Heydərov özünün «Zəngəzur dağlarında» əsərində B.Bəhjətə bir fəsil ayrımışdır. O, həmin əsərdə Bəhlul Bəhjəti və onun çox nüfuzlu və peyğəmbər nəslindən olan qaynatası, nurlu zəka, mahalın inaj yeri olan Hajı Qasım Çələbini tənqid atəşinə tutmuşdur.

Əziz oxucu, elə bu tənqidi yazıları oxuyarkən biz onların necə böyük hörmət və nüfuz sahibi olduqlarının şahidi oluruq. Nəzər Heydərovun «Zəngəzur dağlarında» əsərindən bir neçə misal: O yazır mən Bəhlul Əfəndini ilk dəfə 1918-ci ildə Dəmirçilər kəndində gördüm. O, orada müsavatın hansısa bir cəmiyyətinə rəhbərlik edirdi. Seçkiyə hər kənd icmasından on-on beş adam çağırılmışdır. B.Bəhcət nəzərdə tutulmuş nümayəndələri elan etdi və təklif etdi ki, nümayəndələr ayrılıqda müzakirə edilsin, axırda yekun vurulsun və kimin seçildiyi elan olunsun. Mən təklif etdim ki, namizədlər elə burada bütün icmaların yığıncaqlarında müzakirə edilsin. Bu, Bəhlul Əfəndinin xoşuna gəlmədi. O, hirsli-hirsli mənə baxıb dedi:

- Siz oğlum, çox cavansınız, belə şeyləri başa düşməzsiniz.

Camaatın çoxu mənə cəmiyyətdə öz yerini bilməyən bir uşaq kimi təəccüblə baxıb dağılışdılar. İkinci dəfə mən B.Əfəndinin Teymur Müskanlı kəndində gördüm. O, Sisyandan və Qafandan gəlmiş qaçqınlara paylanan maddi yardıma göz qoymaq üçün gəlmişdi. Bəhlul Əfəndi məndən soruşdu: - Bəylərlə niyə aran yoxdur?

Mən dedim:

- Bəylər bizim sinfi düşmənimizdir.

- Niyə? Məhz sizin sinfi düşmənizdir? Ona görə ki, biz zəhmət çəkirik, bəylər isə heç nə etmirlər, ancaq bizim əməyimizin bəhrəsini yeyirlər. O, mənə baxıb öz tərəfdarlarına dedi: - Bax bundan bolşevizmin iyi gəlir.

Üçüncü dəfə mən Bəhlul Əfəndini, məni Dondarlı kəndinə gətirib döydükləri gün, qəza rəisi Sərməsbəyovla balkonda oturmuş gördüm. Bəhlul Əfəndi Türkiyədə dini təhsil almışdır. Lakin dindən çox siyasətlə məşğul olurdu. Sovet hakimyyəti qurulana qədər tutduğu qəza qazılığı ona çox böyük gəlir gətirirdi. Bundan əlavə, onun torpaq sahəsi vardı və icradarlardan çoxlu qazanc alırdı. B.Bəhcət qazı adını «Müqəddəs» Hacı Qasım Çələbinin qızına evlənəndən sonra daha da «Müqəddəsləşdirilmişdir». Bu «müqəddəs» qız onun neçə-neçə arvadlarından biri idi.

Müqəddəs sayılan piy basmış Hacı Qasım Çələbi Əfəndilər kəndində yaşayırdı. O, bir kəndə getmək istəyəndə ətrafına yığılmış məsləkdaşları «müqəddəsi» elə yola salırdılar ki, onu qarşılamaq üçün dindar kəndlilər bir

neçə kilometr qabağına çıxırdılar. «Müqəddəsin» düşdüyü kənddə qadınlar onun ayağını yuyurdular. Ətraf kəndlərin jamaatı Çələbiyə çoxlu böyük hədiyyələr: pul, qoyun, kəbə, kisə-kisə düyü, buğda gətirirdilər. Çələbi adını yaxşıya çıxartmaq üçün nadir hallarda ona gətirilən şeylərdən yetimlərə və yoxsullara paylayırdı. Bu mənfur və alçaq adam utanmadan xalqı aldadır, hər jür hiylələrlə əl atır, görünməmiş jinayətlər edirdi.

Hajı Qasım Çələbi 1922-ji ilin əvvəllərində öz tərəfdarlarına tapşırmışdı ki, kəndlilər arasında şaiyə yaysınlar ki, bu il buğdadan çox arpa əkmək lazımdır, çünki arpa bu il bol olajaq. Qəza İjraiyyə Komitəsinin sədri kimi mən, hiyləgər Çələbinin bu jür «aqrotexniki» məsləhətinin qarşısını almağı lazım bilib, qəza milis idarəsinin rəisinə tapşırdım ki, onu yanıma gətirsin. Yarım saatdan sonra qəza təşkilatının yerləşdiyi Xanlıq kəndindən altı ağsaqqal mənim kabinetimə girdi.

Onlar yalvardılar ki, Hajı Qasım Çələbini yanıma çağırmayım, yoxsa yer tərpənər və ondan da betər faji ə baş verə bilər.

Mən onları sakitləşdirib dedim ki, Çələbiyə heç nə olmayajaq, mən anjaq onunla bir az söhbət edəjəm. Çələbi həmin gün İjraiyyə Komitəsinə gəldi. Özü də tək yox, başında böyük bir dəstə. Onlar Çələbi ilə ona görə gəlmişdilər ki, əgər «müqəddəsə» bir şey olsa, onu inji dənə divan tutsunlar.

Mən bütün bunları nəzərə alıb, Çələbini qapının ağzında nəzakətlə qarşıladım, kresloda oturtdum. Ədəb xatirinə bir qədər ordan-burdan danışdım, sonra sözü gətirib ilin quraqlıq, məhsulun az olmasına çıxartdım. Eyni zamanda Çələbini başa saldım ki, belə işləri mütəxəssislər bizdən yaxşı bilirlər. Ona dedim ki, siz belə işlərə qarışmayın. O dərhal mənimlə razılaşdı. Dedi: - Oğlum, siz deyirsiniz qarışma, qarışmaram. Mən Çələbi ilə xudafizləşib onu nəzakətlə yola saldım.

1921-ji ildə Bəhlul Əfəndi Xojahan kəndində çağırılmış birinji qəza kəndlilər qurultayında iştirak edirdi. Onu bura heç kim dəvət etməmişdir. Qurultayda biz Sovet hökumətinin aqrar siyasəti haqqında məlumat verir və başa salırdıq ki, yeni iqtisadi siyasətin, bəzi torpaq sahiblərinin düşündüyü kimi, heç də torpaqdan istifadəyə dəxli yoxdur. Torpaq həmişəlik kəndlilərə verilib. Onlar keçmiş mülkədarların fitnəsinə uymasınlar.

Kəndlilər qurultayında Bəhlul Əfəndi çox fitnəkər bir çıxış edərək dedi ki, ərzaq sapalağı dövrü mülkədarların və digər varlı adamların mal-qarası əlindən alınmışdır. İndi isə yeni iqtisadi siyasətlə əlaqədar olaraq ərzaq sapalağı ərzaq vergisi ilə əvəz olunmuşdur. Sahibkarlardan alınan kiçik müəssisələr öz sahiblərinə qaytarılır.

Madam ki, belədir Sovet hökuməti yavaş-yavaş inqilabdan əvvəlki qaydalara qayıdır. Yəqin ki, torpaq da öz sahibinə qaytarılaj aq. Ona görə bu saat torpaq bölgüsü aparmaq lazım deyil. Əlbəttə, qurultayda iştirak edən kommunstlər bu bəy fitnəkarlığını pisladilər. Bütün bu tənqidlərə baxmayaraq, o, qurultayı tərk etmədi, axıra qədər oturdu.

Bəhlul Bəhj ət qaçaqları, oğruları, adam öldürənləri başına toplayıb, 400 nəfərlik bir dəstə düzəltmişdir. Bu dəstənin istinadgahı Dağtumas, Sirik, Qazanzəmi, Maşanlı kəndləri idi. Bu kəndlər Qaryakin qəzasına daxil idi. Anj aq bizim qəza mərkəzi Xanlığa yaxın yerlər idilər. Bəhlul Bəhj ət bu silahlı dəstəni saxlamaq üçün maddi yardımı Xanlıq, Çaytumas, Əfəndilər və Usubbəyin kəndlərindən alırdı. Əlyanlı meşəsində yuva salmış banditləri məhv etmək üçün gəlmiş xüsusi dəstə gedəndən sonra üsyana başlamağı qət etmişdir. Bəhlul Əfəndi Əlyanlı qaçqınları ilə də əlaqə yaratmaq fikrinə düşdü. Onların başçılarını yanına çağırdı: Kərbəlayı Məhəmməd, Babaş, Həsən, Qabil, Ədil bəy və Qəhrəman Dağtumas kəndində onun yaşadığı otağa toplaşdılar. Söhbətdə Təhməz də iştirak edirdi. Anj aq Bəhlul Əfəndi danışırdı: Siz qoçaq adamlarsınız: Sizin içərinizdə elə adamlar var ki, uzun müddət kafirlərə qarşı mübarizə etmişdir. İndi İslam dini təhlükə qarşısındadır. Bolşeviklər Allahı danırlar, heç bir dini qəbul etmirlər. Mən sünnü və şiyələri birləşdirmək üçün bu qərara gəlmişəm ki, İmam Hüseyn faj iəsinə sünnülər də ağlamalıdırlar. İndi bir çox sünnü kəndləri elə də edirlər. Təhməz o kəndlərdə olur. O, Allah şahididir. Təhməz təsdiqlədi; Dedi Əfəndi düz deyir. Bəhlul Əfəndi dedi:- Mənim dörd yüz igidim var, sizin də adamınız az deyil. Gəlin birləşib, qəzada Sovet hökumətini yıxaq. Bütün müsəlmanlar ayağa qalxaj aq. Kərbəlayı Məhəmməd Təhməzə müraj iət etdi: - Kürdlər nə fikirdədirlər? O, yalandan dedi ki, kürdlər də köməyə gəlməyə söz veriblər. Kərbəlayı Məhəmməd düz Bəhlul Əfəndinin gözünün içinə baxaraq xatırlatdı: - Bizim

ağır günümüzdə siz bizə kömək etməyə söz vermişdiniz. Lakin biz bu köməyi görmədik. İndi bizim güjümüz tükənib, biz əzillimşik. Sovetlər isə təsərrüfatı dirçəldiblər. Bütün gənjlər, hətta qojalar da sovetlərə inanırlar.

Qabil Kərbəlayı Məhəmmədin sözünü kəsib dedi: - Əfəndi, siz başlayın, biz də fikirləşərik, bəlkə kömək etdik. Bununla söhbət qurtardı. Daha doğrusu, pozuldu.

Əksinqilabçı çıxış 1922-ji il oktyabr ayının 18-də kəndlilərin naxırına quldurjasına hüjumla başlandı. Bir nəfər çoban Xanlıq kəndinə qaçıb əhvalatı söylədi. Milislər bir neçə silahlı kommunistlə köməyə getdi. Pusquda duran quldurlar onların arxasına keçdi. Milislər və kommunistlər çətinliklə bir neçə yaralı ilə Usubbəyli kəndinə çəkilə bildilər.

Bəhlul Əfəndi Xanlığa daxil olur. O vaxt mən Qubadlı dairəsinədə olmuşam. Xanlıqda olan yoldaşlar üç saat davam edən çətin vuruşdan sonra Həkəri çayının sağ sahilinə keçməli olurlar. Qəza partiya komitəsinin katibi Abbas Sultanov qəza partiya komitəsinin sənədlərinin bir hissəsini birtəhər Xanlıqdan çıxara bilmişdi. Bəhlul Əfəndi Xanlıq kəndinə daxil olur və bütün qəzada Sovet hakimiyyətini yıxajağına söz verir. Onun tapşırığı ilə Təhməz mənim evimə daxil olur. Mənim evdə olmadığımı yəqin etdikdən sonra qıfılı sındırıb mənim şeylərimi, o jümlədən içərisində şəxsi səndlərim olan portfelimi aparırlar. Biz qəzadakı bütün qüvvələri toplayıb, üçünjü gün səhərə yaxın Bəhlul Əfəndinin dəstəsini Xanlıqdan çıxartdıq. Lakin onlar kəndin üst tərəflərində təpədə yerlərini möhkəmləndirib, vuruşmanı davam etdirdilər.

Biz Bakıya teleqramma vurduq. Günortaya yaxın Səfyan dairəsindən bizə səksən nəfər silahlı atlı köməyə gəldi. İki saatdan sonra arxadan və qarşıdan açılan atəş nətijəsində üsyançılar Dağtumas kəndinə çəkildilər.

Mən Zəngəzur qəzasından kömək almaq üçün Korusa getdim. Zəngəzur qəza İjraiyyə sədrinin kabinetində Daxili İşlər İdarəsinin rəisi Saak Ter – Ayrapetyan, qəza siyasi bürosunun rəisi Nikolay Kostanyan, qəza milis rəisi Avanos Akopyan, hərbi kommisar Aşot Abramyan və başqaları var idi. Mən qəzamızda baş verən hadisələr barədə məlumat verdim və xahiş etdim ki, bizə kömək versinlər. Onlar tərəddüd edirdilər. Mən dedim ki, jamaat Bəhlul Əfəndiyə nifrət edir, onun xalq arasında nüfuzu yoxdur.

Qəza İjrayə komitəsinin sədri Baqram Artupyan Ter-Ayrapetyana müraciət etdi. XTH-dən bir dəstə yaradın, özünüzlə plamyot götürün! Sabah tezdən yola düşün: Kostanyan, Akopyan, Ağramyan və Aqabasov yoldaşlar da sizinlə ketsinlər. Qaryakindən sərhəd qoşunlarının süvari polkundan Semyanovun komandası altında altı plomyotu olan bir eskadron Xanlığa bizə köməyə gəlmişdi. Bu döyüşdə Bəhlul Əfəndi kiçik bir dəstə ilə İrana qaça bildi. O, 1923-jü ilin payızında İrandan qayıtdı və tutulub on il həbs cəzasına məhkum edildi.

Hörmətli oxucu, mən Nəzər Heydərovun sözlərini olduğu kimi qələmə almışam. Elə bu tənqidi yazıdan da nəticə çıxarmaq olar ki, o vaxt Hacı Qasım Çələbi xalq arasında neçə böyük nüfuza malik olub. Xalq həmişə ona sitayiş edib, ona böyük hörmət bəsləyib. Eyni zamanda Bəhlul Əfəndinin necə böyük nüfuza, hörmətə və güclə malik oduğunu siz bu tənqidi yazıdan yəqin ki, anladınız. B.Əfəndi dinini, dilini, vətənini, millətini canından əziz tutan bir adam olub. O təkcə Qubadlının yox, bütün Azərbaycan xalqının oğludur. Bəhlul Əfəndi deyirdi: «Ya qalib gəlib ağa olaq, ya da şəhid.»

Filologiya elmləri namizədi Bədirxan Əhmədov yazır: Bəhlul Bəhcət unudulmuşlarımızdandır, indiki gənclik onu tanımır. Anacaq o zamanın məşhur şəxsiyyətlərindən idi. Dini əsərlər yazmış, tərcümələr etmiş və folklorşünas kimi tanınmışdır. Müəllif yazır Bəhlul Əfəndi 1920-ci ilə qədər din idarələrində işləyib. 1934-jü ildə S.Mümtaz, H.Cavid, Q.Məmmədli, H.Zeynallı kimi alimlərlə bir yerdə işəlyib. Onun şifahi xalq ədəbiyyatının toplanmasındakı fəaliyyəti xüsusi qeyd edilir. B.Əfəndi «Məhəmməd Peyğəmbərin ailəsinin tarixi» əsərini 1923-jü ildə Təbrizdə olarkən çap etdirmişdir. O, şifahi xalq ədəbiyyatına çox bağlı idi. B.Əfəndi şərq ədəbiyyatını kamil bilmiş, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. O, Məmməd Əmin Rəsulzadənin yaxın dostu olmuş; o da M.Ə.Rəsulzadə kimi, bu quruluşun aqibətini yetmiş il əvvəl görmüş, o, dövrü, hadisələri düzgün təhlil etmişdir.

Bəhlul Bəhcətin oğlu Mustafa kişinin dediklərindən: «Atam Nuxada molla məktəbini bitirib, bir müddət mollalıq edib, Türkiyədə ali ruhani təhsil alıb, Şura hökuməti gələnə qədər Zəngəzur qəzasının qazısı olub. O vaxtkı

Zəngəzur qəzasına indiki Ermənistanın üçdə bir hissəsini tutan: Gorus, Qafan, Sisyan, Mehri rayonları, Laçın, Qubadlı, Zəngilan əraziləri daxil idi. Atam bu torpaqda böyük nüfuz və ixtiyar sahibi idi.

Şura hökuməti gələndə atamı ianə idarəsinə qoymuşdular. Dayım da xəzinədar idi. Üç ilə yaxın o işdə işlədi.

Atam ərəbi, farsı kamil bilirdi, həmişə mütaliə edirdi, kitab əlindən əskik olmazdı. 1923-jü ildə İrana gedəndə beş hazır kitabını aparmışdı. Üçünün Təbrizdə çap olunduğunu dəqiq bilirəm. Müsavat dövründə Zəngəzurun bütün hökumət işlərinə atam rəhbərlik edirdi. Məmmədəmin rəhmətlik ilə şəxsi münasibətləri var idi. Tez-tez bir-birinin yanına adamları gedib-gəlirdi. Atamın Türkiyədən, İrandan çoxlu qonağı olurdu.

B.Əfəndinin oğlu Mustafa kişi qeyd edir ki, o vaxt Zəngəzur bütövlükdə ermənilərin əlində idi. Az-çox bizdən olanlar da onların əlində nökər idi. Bolşevik donuna bürünmüş erməni daşnakları Zəngəzur və Qarabağla bağlı niyyətlərini həyata keçirirdilər.

Biz tərəfdən olan fəal kommunist Nəzər Heydərov idi. O, «Zəngəzur dağlarında» kitabında atama bir fəsil həsr eliyib: «Bəhlul Əfəndi Bəhjətin fitnəsi» o kitab 1986-1988-ji illərdə təkrar nəşr olundu. Başdan-axıra qədər erməni - Azərbayjan dostluğundan bəhs edir.

Bu günün gözü ilə baxıb, o kitabı təzədən oxuyan adam, Bəhlul Əfəndinin nejə adam olduğunu çox aydın görər və qiymətləndirər. O kitabda atama və Hajı qasım Çələbiyə qarşı böhtanlar çoxdu. Xanlıq əhvalatını da özündən uydurub. Atam o vaxt kommunistlərə, Sovet hökumətinə qarşı jihad elan etmişdir. Həmin jihad bəyannaməsi arxivlərdə durur və o kitabda da var. O bəyannamədə Bakıda, Naxçıvanda rus qoşunlarının dinj əhalini qırmasından yazmışdı atam. Yazmışdı ki, ya qalib gəlib, öz torpağımıza sahib olmalıyıq, ya da ölməliyik. Anjaq atam düşmənin güjünü də bilirdi. Ona görə xalqı qırğına verməmək üçün hamını evə buraxmış, əlyazmalarını da götürüb İrana getmişdir.

Atam Zəngəzurda rus-erməni bolşevik ittifaqının bədnam niyyətlərini həyata keçirməsinə mane olan yeganə güjlü adam idi. O, İrandan bir ildən sonra qayıtdı. Təzə gəlmişdi. Yayda Şükür bəy gəlib apardı. On il iş kəsdilər,

guya sərhəddi qanunsuz keçibmiş. Atam 1934-jü ildə həbsdən azad olan kimi, Azərnəşrdə iş verdilər, indiki H.Hajıyev küçəsində üç otaqlı mənzil də verdilər. Onunla durub-oturanların hamısını tanıyırdım. Mənə Bəhjətin madarı deyirdilər. Hüseyn Javidlə dost idilər.

Hənəfi Zeynallı, Əlinazim, Vəli Xuluflu, Əhməd Javad, Zülfüqar Əhmədzadə, Salman Mümtaz, Əmin Abid, Əliağa Vahid atamın xatirini çox istəyirdilər. Atam Hənəfi Zeynallı ilə birlikdə siyasi ədəbiyyatları rusjadan tərjümə eləyirdi.

Eyni zamanda, atam Əmin Abidlə birlikdə Firdovsinin «Şahnaməsi»ni fars dilindən tərjümə etmişdir. O vaxt atama «Qızıl qələm» mükafatı vermişdilər. Anjaq o, həmişə fikirli olurdu, elə bil ki, hər şeyi bilirdi.

1937-ji ilin avqustunda atamı işdən apardılar. Mən bilən kimi, evə qaçdım. Nə qədər əlyazması, kitabı var idisə, yığdım divanın içinə, yerimi açdım üstünə. Bilirdim ki, evi axtarajaqlar. Bir azdan iki nəfər gəlib əlyazmalarının yerini soruşdular. Mən dedim ki, hamısı işdədir. Onlar evi axtardılar, sonra məni durquzub, divanın içindəkilərin hamısını yeşiklərə yığıb apardılar. Analığımı və Hafizə nənəmi də atamla bir gündə həbs edib, Arxangelskə sürgün etdilər. Hər ikisi elə oradaja rəhmətə getdi. Mən öyrəndim ki, atam son gününə qədər Javid Əfəndi ilə bir yerdə olub.

Ajlıq illərində B.Bəhjətin şəxsi nüfuzu sayəsində Bakı milyonçuları Zəngəzur jamaatına ağ neft və ərzaq məhsulları göndərdilər. Bəhlul Əfəndi haqqında az yazılıb.

Səbahəddin Eloğlu, Elbrus Şahmar, Nizaməddin Şəmsizadə, Həmdullah Əfəndiyev onun haqqında mətbuatda yazılar dərj etsələr də, bu yazılar alimin şəxsiyyətini və fəaliyyətini tam əhatə etmir. Bəhlul Əfəndi tariximizdə görkəmli yer tutur. Anjaq o unudulub. Hazırkı gənjlik onu tanımır.

Bəhlul Bəhjət bütün fəaliyyəti boyu elmi ijtimaiyyətə məlum olmayan və ya az tədqiq olunan klassikləri yenidən həyata və sənət meydanına çıxaranda görəsən özünün də oxşar taleyi ağlına gəlirdimi?

Bəhlul Bəhjətin həyat və fəaliyyətinin öyrənilməsi müasir və gələjək tədqiqatsçıların təxirəsalınmaz işidir. Bəhlul Əfəndi Azərbayjan tarixinə aid bir çox əsərlər yazmışdır.

Bu gün tamamilə itib-batmış belə əsərlər içərisində «Qarabağ tarixi» xüsusi yer tutur. Bəhlul Mustafa Əfəndi oğlu Əfəndiyev 1937-ji ilin martın 15-də NKBD-üçlüyünün qərarı ilə güllələnib. 5 noyabr 1958-ji ildə işində «jinayət aktı» olmağdığına görə ölümündən sonra tam bəraət almışdır. B.Bəhjət beş bajının bir qardaşı olub, onun bir oğlu və bir qızı olmuşdur. Qızı erkən vəfat edib, oğlu Mustafanın isə iki oğlu və bir qızı olub. Oğlanları Həmdullah və Bəhluldur, qızının adı isə Məhbubdur. Həmdullahın Bəhjət adlı bir oğlu var. Bəhlulun isə iki qızı, bir oğlu var. Qızları Bənövşə, Bahar, oğlunun adı isə Amindir.

Beləliklə, Bəhlul Əfəndinin bir oğlu, bir qızı, üç nəvəsi və dörd nətijəsi olub. Oğlu və qızı vəfat edib, nəvə və nətijələri isə yaşayırlar.

Allahdan Bəhlul Bəhjətin özünə, oğluna və qızına rəhmət diləyirik, qəbirləri nurla dolsun. Nəvə və nətijələrinə isə jansağlığı və uzun ömür arzulayırıq.

BƏHLUL CAHADİ

Bəhlul Behcət dünyəvi elmlərə yiyələnmiş böyük idrak sahibi idi. O, Nizaminin yaradıcılığını elmi cəhətdən təhlil etmiş, Nizami və Qafqaz Folkloru mövzusunda monoqrafiya hazırlamış, Sarı Aşığın əsərlərini toplayıb əlyazma şəklində kitab tərtib etmiş, Qaçaq Nəbinin qəhrəmanlığına həsr olunmuş səhnə əsəri yazmış, "Quran"ın Azərbaycan dilinə tam tərcüməsini ilk dəfə başa çatdırmışdır. Zəngəzurda müsəlmanlar arasında ağır bir yaranı sağaltmağa müvəffəq olmuşdur. Məlumdur ki, əsrlər boyu sünnülərlə şiələrin ideya ayrılığı İslam dininin sürətli inkişafına böyük maneəçilik törətmişdir. Bəhlul Behcət Zəngəzurda ideya ayrılığını nəinki aradan qaldırmış, hətta əqidə birliyindən mehriban və möhkəm silahlı dəstələr yaratmışdır. Bu dəstələrin məqsədi daşnakları Qafqazdan biryolluq süpürüb atmaq idi. Bəhlulun din ordusu Laçın dağlarından Qarabağa aşa bilməyib Araza tərəf dönmüş daşnak ordusuna qarşı ən böyük sipər olmuşdur.

Bu sipəri yarmaq, dağıtmaq "Böyük Ermənistan" haqqında düşünənlərin əsas arzuları idi. Daşnaklar yaranmış vəziyyətdən bacarıqla istifadə edə bildilər. Çünki Zəngəzurdakı Azərbaycan bolşevik təşkilatının sıralarında siyasi cəhətdən yetkinləşməmiş, ehtiyac üzündən bolşevik olmuş, pul verilsə atasına belə güllə

atmağa hazır olan çoxlu agentlər vardı. Bilavasitə onların əli ilə də Bəhlulun xilaskar dəstələrini məhv edə bildilər. Burada Həzər Herdərovun "Zəngəzur dağlarında" kitabından bir epizodu oxucuların nəzərinə çatdırmaq istəyirəm.

"Biz axşamüstü Gorusa çatdıq. Zəngəzur İcraiyyə komitəsinin müavini, həm də daxili işlər idarəsinin rəisi Saak Ter-Ayrapetyan, Qəza milis rəisi Avanes Akopyan, hərbi komissar Aşot Abramyan və başqaları var idi. Mən qəzamızda baş vemiş hadisə barədə qısaca məlumat verdim və xahiş etdim ki, bizə mümkün olsa, kömək etsinlər. Birinci Ter-Ayrapetyan çıxış etdi.

O dedi: -Bu əfəndinin futnəsinin qabağını almaq bizim borcumuzdur. Avanes Akopyan təklif etdi ki, kömək edilsin. Aşot Abramyan onun sözünə qüvvət verib dedi: -Burada doğru dedilər: Fitnəkarlıqdan qorxmağa heç bir əsas yoxdur. Bu, təhlükə deyil, təhlükə işi ləngitməkdir! İndi Bəhlul əfəndi gizli deyil, açıq çıxış edir.

Baqrat, Ter-Ayrapetyana müraciətlə dedi:

-XTH-dən bir dəstə yaradın və özünlə pulemyot götürün! Hazırlıq işlərini bu gecə qurtarıb, sabah tezdən yola düşün!

"Kostanyan, Akopyan, Abramyan və Ağababov yoldaşlar da sizinlə gedecəklər. Əməliyyatın gedişi barədə tez-tez məlumat verməyi unutmayın".

Hərgah Nəzər Heydərov sağ olsaydı mən onu xalqımızı düçar olduğu bu müsibətlərlə tanış edib deyərdim: Ermənin istər daşnakı, istər bolşeviki, istərsə də kommunisti həmişə "Böyük Ermənistan" haqqında düşünmüşlər. Sizin erməni pulemyotu ilə Bəhlul ordusunu qırmağınız küçələrin işıq direklərini qırıb eli qaranlıqda qoymağa bənzəmirmi?

Daşnak agentlər çox ara qızışdırmadan sonra Mir Cəfər Bağırovun Zəngəzura gətirilməsinə nail oldular. Bəhlul Behcət haqqında Bağırova çox dəhşətli məlumatlar verdilər. Bağırovun göstərişi ilə Bəhlulu tutub 10 il Bayıl qazamatında saxlayırlar. Bəhlul Bayıl qazamatında olarkən zindanı Avropa alim və filosoflarının kitabxanasına çevirir. Bayıl qazamatında yatan məhbuslar Bəhlulun bölyük din xidməti, müdrik zəka sahibi olduğunu bildikdən sonra onun qaldığı zindanı sitayiş yeri, pərəstiş evi sayırlar. Qazamatda Bəhlula iyanə yığırlar, nəzir verirlər, evlərdən gətirilmiş ərzaq və geyimlə köməklik edirlər. On il tamam olur. Lakin Bəhlulu yenə buraxmırlar. Bəhlul Stalinə məktub yazır ki, qazamatda da

qayda-qanun olmalıdır. Mən on illik cəzamə çəkib qurtarmışam. Hərgah günahkaramsa məhkəmə yolu ilə mənə yenə də cəza versinlər. Yox əgər günahsızamsa, məni həbsdən azad etsinlər. Məktubun cavanbı Bağırova göndərilir. Bağırov Bəhlulu buraxdırır. Ona yataqxanada yer verdirib "Azərnəşr"in tərçümə şöbəsində işlə təmin etdirir. Bəhlul burada tərcuməçi işləyir. Lakin ədalətsizlikdən təngə gəlmiş el filosofu həyatdan küskün yaşayır. Özünə fikir vermir. Hətta üzünü, saçını belə qırxdırıb səhmana salmır. Bir gün agentlərdən biri Bəhluldan soruşur: -Bəhlul əfəndi, özünə niyə fikir vermirsən, başını niyə qırxdırmırsan? Bəhlul cavabında deyir: -Bu baş düşmənlərə xidmət edir. Mən ona qulluq etməyəcəyəm.

Daşnak agent bu cavabı olduğu kimi daşnak nazirə, o da xalq cəlladı Bağırova çatdırır. Bağırov göstəriş verir ki, onun ayağına ağır daş bağlayıb Xəzərin dərin yerinə atarsınız. Məqam gözləyən daşnak agentlər fürsəti əldən vermədən Bəhlulun ayağına ağır daş bağıalıb Xəzərin dərin yerinə atırlar. Beləliklə, daşnak agentlər Azərbaycanda bir işıqlı zəkanın da söndürülməsinə nail olurlar.

M.BAĞIROVUN CİNAYƏTLƏRİ.

İnqilabi çevrilişdən xeyli sonra Mircəfər Bağırov Azərbaycan xalqının taleyini NKV-də işləyən daşnak agentlərə tapşırdı. Əllərinə fürsət düşmüş daşnaklar Azərbaycan xalqının başına olmazın müsibətlərini açdılar. Onlar sərhəd rayonlarımızda daha məkrli iş görürdülər. Zəngəzurda ermənilərə qarşı dayanmış əsas qüvvələrdən biri olan Əlyanlı elinə qarşı belə bir hiylə qurdular. İrandakı daşnak agentlər əksinqilabi vərəqələr çap etdirib Əyanlı kəndlərindəki bulaqların başına, fermalara, yollara tökürdülər. NKV-dəki agentlər vasitəsilə yığdırıb Bağırova çatdırırdılar ki, Əlyanlılar farağat durmurlar. Çox ara qızışdırmalardan sonra daşnak agentlər Bağırovu rus polku ilə Zəngəzura gətirə bildilər. (S.Eloğlu "Zəngəzur hadisələri")

Camaatı xüsusi tapşırıqla Muradxanlı qəzasına yığdılar ki, sizi maraqlandıran suallara burada cavab veriləcək, narahat edən məsələlər həll olunacaq. Kimin nə təklifi varsa, burada deyə bilər. Bir sözlə, camaatı aldadıb görüşə topladılar.

Daşnaklar Bağırovun cırtdaqoz, kəmhövsələ olduğunu çoxdan bilirdilər.

Daşnaklar ağır bir cinayət törədirlər. Bağırovun köməkçisi İsmayılovu öldürüb qanının Əliyanlı camaatının üstünə tökürlər. İclas vaxtı qara xəbəri

Bağırova çatdırırlar. Bağırov yerindən dəlicəsinə qalxaraq zaldakıların hamısını həbs etmək haqqında göstəriş verir. Rus əsgərləri camaatı həbs edib Muradxanlı kəndindən bir qədər aralıdakı Dəvədərə deyilən yerə gətirirlər və burada hamısını vəhşicəsinə qırırlar. Bax burada Mircəfər Bağırov erməni daşnak agentlərinə tapşırıq verir ki, Əliyanlı elində uşaqların çarpayılarını açarsınız, hərgah oğlandırsa, bələkdə güllələyərsiniz.

İndiyə qədər Andranikin, Njdenin, Dronun hərbi basqınarına qarşı igidliklə dayanan Əliyanlı eli acığa düşərək koçub, dağılıb getdilər. Bundan sonra Qarabağdakı daşnaklar boş qalmış Azərbaycan kənlərini təcili tutaraq özlərinə yeni məskənlər salıb, Dağlıq Qarabağla Ermənistan sərhədlərini xeyli yaxınlaşdırdılar.

SİRANUŞUN QAYITMASI

Nəsibin bacısı dedikləri: - Mən hər səhər dədəmgilin obasına tərəf baxırdım, heç kəsi görmür, səhəngi götürüb Nəzir bulağına gedir, oradan Təhlicəyə baş çəkir, qəbir üstə oturub ürəyimi boşaldır geri qayıdırdım. Bir dumanlı çiskinli havada elə bil ki, ürəyim yerindən çıxmaq istəyirdi. Özümlə bacara bilmədim, elə bil məni yeni bir bədbəxtçilik gözləyirdi. Ürəyim çırpınırdı. Artıq hiss edirdim ki, dözə bilmirəm. Səhəngi götürüb bulağa endim. Qatı duman, Qara quzeyi elə tutmuşdu ki, elə bil dünyanın ən zülmət gecəsidir, göz-gözü görmürdü. Bax onda mən hiss etdim ki, qaranlıq zülmət nə dəhşətli imiş. Cığırı tapıb cığırla gedirəm. Qorxdum ki, cığırdan çıxam, yolu azam. Çox ehtiyyatlı gedirəm. Hər kolların yanından keçəndə kəklik, qırqovul, turac ayağımın altından uçur, yaxın məsafəyə qonurdular. Qara quzeydən çıxıb Oğuz düzünə çıxanda elə bil qaranlıq bir kainatdan çıxıb işıqlı bir kainata düşdüm. Hər şeyi unutdum. Dünyanın ən xoşbəxt bəndəsi idim. Nəzirə baxdım, bax Nəzir dərəsi, qatı dumanda elə gizlənmişdir ki, ancaq bulud layları görsənirdi. Qalan Oğuz düz elə bil günəşli idi ki, adam baxmaqdan doymurdu. Bir qədər fikirləşdikdən sonra, hiss etdim ki, bax qaranlıq bir kainatın da bir işıqlı dünyası var imiş. Demək, insanların dərdli-qəmli dövründən başqa sevincli günləri də olurmuş. Axı mən qaranlıq bir kainatdan işıqlı bir dünyaya çıxmışam. Onda insana nə qədər sevinc bəxş edir, ilahi. Bax onda özüm-özümə belə dedim:

Yoxluğunun qəmi çökdü gözümə,

Sizsizliyi dərd elədim özümə.
Əbəs imiş vurulmağım özümə
Həsrət məni dağlar etdi, ay dədə.

Anam bu beyti deyib bir an duruxdu (Famil Süleymanov "Anam niyə ağlayırmış"). Nə isə xatırlamış kimi yenə gözlərindən yaş axıtdı. Mən anamın gözlərini bu qədər qorxunc görməmişdim. Düzü baxa bilmirdim o qara gözlərə. Gözləri elə bil dərin bir quyuya düşmüşdür. Elə bil kiçilmişdi, o parlaqlıq yox olmuşdur. Yenə sözünü davam etdirib, elə bil anam harasa tələsir, kimsə ona deyir, aç qəlbini, ürəyində o dünyaya aparma: "Hə, sözüm axı yarımçıq qaldı". "Hə, ana de görək, qaranlıq bir dünyadan çıxıb, işıqlı bir dünyaya çıxdın. Ancaq bu çox sürmədi. Dədəm elini başsız görəndə və qəbrə yaxınlaşanda elə bil sevinc dünyam yox oldu, onun əvəzinə kədərli dünyam əmələ gəldi. Qəbrin üstündə oturub bir qədər şivən etdim. Gözümü ətrafa gəzdirəndə birdən dədəmgilin alaçığından bir dünya gözəli çıxdı, mənə yaxınlaşdı. Ağ geyimli bu insanı görəndə canımda bir üşütmə gəzdi. Axı o vaxtlar hal qadını deyilən bir gözəgörünməz məxluq var idi. Ən çox zahı qadınları onlardan qoruyurdular və eşitmişdim ki, əgər o gözəgörünməz hal qadının üstünə sancaq, ya iynə taxırdılarsa, onda onu tutub evdə işlədirdilər. Düzü bunu mən görməmişdim. Ancaq bax obalarda beləcə danışırdılar. Tez yaxamdan sancağı açdım, fikirləşdim ki, mənə yaxınlaşanda onun üstünə taxım və bizdə də hal qadını olsun, işləsin bizimçün. O mənə yaxınlaşdıqca bu dağlar qızının gözəlliyinə vuruldum. Nədənsə bu üz mənə tanış gəlirdi. Gözləri də çox tanış idi. Qız yaxınlaşdı: "Məni tanımadın, axı mən Allah təala tərəfindən Nəsibə göndərilən payam. Nə olsun ki, mən gavuram. Bəyəm gavur olanda onun eşqi, məhəbbəti olmur? Yox, mən artıq müsəlmanam. Bax ayrıldığım bu dörd ildə müsəlmanların ziyarət etdikləri Kərbəlaya, Məkkəyə gedib, dinimi dəyişib müsəlman oldum, təkcə Nəsibə görə. Mən Siranuş idim, indi isə Sürəyya olmuşam". Tez oturub qəbrin üstündə dua oxudu. Yaxasından asılmış kiçik Quranı açıb ondan oxudu, mən isə hey ona tamaşa edirəm. Bu rüsvayçılıqdır axı. İndi obaya səs düşəcək ki, Nəsibin yanına gavur qızı gəlib. Bax onda beynimə bir bənd şeir düşdü:

Yayıldı aləmə bir acı xəbər,
Bu sirri yaydılar da açıq bildilər.

Dedilər: Can eşqin ucundan
Divanə olmuşdur gözəl bir cavan.

Siranuş dedi: Ay bacı, axı bu dörd ildə mən yaşamamışam. Hər an mən ölü kimi olmuşam. Nəsibin eşqinə çatmaq, onun ağuşunda olmaq istəmişəm. Bax ona görə də öz dinimdən əl çəkib müsəlman olmuşam. Axı Sizin "Leyli və Məcnun"əfsanəsi var. Bax mən o Leylidən də çox sevmişəm. Onun eşqi mənimki kimi ola bilməz. Axı hər an mən ölüyəm. Mənim vücudum sağdır. Bax, bacı Məcnundan soruşurlar ki, eşqi şəhdi urvanın taleyi sənə dərs olmayıb? Məcnun cavab verir: "Urva bir dəfə ölüb, mən isə hər gün ölürəm". Sevgidən adam bircə dəfə ölərmi? Bax görürsən, sevmək nə deməkdir. Sevən adam hər gün ölür. Indi mən gəlmişəm öz dünyamı görürəmş. Allah təalanın mənə bəxş etdiyi sevgilimi görəm. Bir saat bir dəqiqə onunla oturam,söhbət edəm. Onun güclü qolları arasında əbədiyyətə qovuşam. Onun o bir cüt qara gözlərinə baxa-baxa yuxuya gedəm. Əgər o mənim bu sevgimi qəbul etməsə,qalıb onun yanında kənizlik edərəm, təki onu hər gün görüm. Hər sabah onu qartal tək duruşuna baxım. Axı mən də insanam. Mənim də sevgi dünyam var. Axı mən Nəsibi görəndən sonra onun eşqi ilə yanıram, qovruluram, heç bilmirəm nə edim,

Bu sevgiyə atəş deyim, köz deyim,
Haçanacan bu qəlbimə "döz" deyim.

-deyib sinəsinə çırpdı. Bax mən neçə gündür ki, bu Oğuz düzündə nalə çəkirəm, Nəsibi axtarıram. İndisən də qadınsan, yəqin ki, mən başa düşərsən. Məgər sən sevməmisən? Məgər sənin ürəyin yoxdur? Bəs hardadır Kəblə Səkinə? Axı o mənə söz verçişdi. Məni arxayın edib yola salmışdı ki, get ara düzəlsin, gələrsən. Mən də onun sözündən həmişə təsəlli tapmışam. Ona arxayın olub gücələr öz atəşimlə yanmışam. Ona görə də gəldim bu obalara, bu düzlərə, Nəsibin eşqi ilə. Axı o özü hiss etmədən belə mən onu Leyli sevgisi ilə sevdim, onu göylərdəki atəşə bənzətdim. O mənim nurum, bax iki gözümdür. Yazıq anam isə heç dinmir, susur. Bircə o qara gözlər susmur. O qara gözlərdən ağ damcılar axırdı. İstəyir ki, bu nakam məhəbbətindən hər şeyi gizlətsin. Onu ovundursun. Ancaq elə bil ki, onun dili tutulub, nə qədər edirsə səsi çıxmır. Hətta öz müvazinətini itirir, yıxılamasın deyə daşın üstündə oturur. Bunu hiss edən Siranuş nalə çəkir, irəli yeriyib: De dillən, bəlkə Nəsibin başına bir iş gəlib. Mən onda bax onun eşqinə burada onun

məzarı üstündə özümü öldürüb külümü onun torpağına qarışdıracağam. Artıq mən dözə bilməyib tez ayağa durdum. Nə olun ki, məgər Nəsib ölüb? Dəli olmusan? Ay qız bu payız günü obaların bir tərəfinə qatı dümanlıq, bir tərəfi şəffaf günəş olduğu havada qardaşımı niyə öldürürsən? O sevincək boynumu qucaqlayıb hönkür-hönkür ağladı.

- Bax, səhərdən mən bunu səndən eşitmək istəyirdim. Axı mənim qəlbimə dammışdı ki, artıq mənim eşq dünyam yoxdur və mənim əlim ona heç vaxt ona çatmayacaq. Ancaq sən mənə dünyaları verdin. Mənim sönməz eşqimi alovlandırdın. Anam qıza baxıb bir qədər fikrə getdi və bir beyti söylədi:

Payız bu tufanı qurduğu anda,
Qəlbi yaralandı ilk məhəbbətin.

Tez Siraniş dedi: Mənim qəlbim həmişə yaralı olub. Ona məlhəm ancaq Nəsbin məhəbbəti ola bilər. Bax Leyli öldü. ...Leyli gözəl Leyli torpağın oldu. Sərv yıxıldı çəməni boş qaldı. Allahın kəraməti ilə Məcnundan başqa Leyliyə heç kəsin eşqi məlhəm olmadı. Bax onu verdilər böyük, varlı bir adama. O adamın var-dövləti göz qamaşdırırdı. Qızıla bükdülər Leylini. Dedi: Yox, qəlbim yanır gümüşə bükdülər, dedi: Ürəyim yanır. Qu tükündən rahat yorğan-döşəyə qoydular. Dedi: Yox, qəlbim deşilir. Leylini səhrada qumsal bir yerdə Məcnunun dizi üstə uzandırdılar. Leyli onda dərindən ah çəkib dedi: Ey ulu Tanrı, sənin varlığına şükür, yerim nə qədər rahatdır. Bu rahatlığı sən mənim əlimdən alma. Yalnız bu zaman Leyli öz taleyindən razı qaldı. Məgər eşq var – dövlətlədirmi? Xeyr. Eşq iki insanın bir –birinə verdiyi məhəbbətdir. Bax mənimsə məhəbbətim Nəsibdir. Mənim ruhum da, canım da Nəsibin əlindəki eşq camındadır. Bu yanar qəlbimi ancaq bircə Nəsibin baxışı ilə soyuda bilərəm. Məgər sən sevməmisən? Axı sevənlər bilər bu sevgi nədir. De indi nədir mənim günahım? Əgər siz deyirsinizmi mən gavuram, bax indi bu eşqimin əsiri olub dini də qəbul etdim. İndi nədir mənim günahım? Məni Allah təala dünyaya gətirəndə məgər mən bilirdim ki, mən bu eşqin bəlasına düşəcəyəm? Deməli, Allah təala mənə bir yandan xoşbəxtlik verib, digər yandan bu sevginin odunu mənim yanar ürəyimə salıb ki, mən sonsuz bir məhəbbətlə sevə biləm. Məgər bu mənim günahımdır ki, mən gavuram? Ancaq mən özüm də bilmədən bu bəlaya düçar oldum. İndi məni başa düş, axı sən də qadınsan. Mənə köməklik et. Tab Nəsibi ver mənim əlimə, qoy o məndən qaçsın,

ona elə kənardan baxım, tamaşa edim. Elə bu mənə bəsdir. Səni and verirəm o Allahın tək adına mənə köməklik et. Bax məni bu günə salan o qara gözlü qardaşındır. Axı qardaşın sirrini bacı bilməlidir. Get qardaşın Nəsibə de:

Qoyub ağlar gözümü gözləri şəhla kimilər,
Doqaqları bal, sözləri əla kimilər,
Görəsəən olmayacaq sevənlərdə bir insaf?
Belə olmuş əzəldən zülfüqarı kimilər.
İndi bilirəm niyə düşüb səhraya Məcnun.
Ona avara salıb sevdiyi Leyli kimilər.

Bax indi bilərsən ki, mən Nəsibin eşqi ilə ölkələr gəzib, Kərbəlaya və Həcc ziyarətinə gedib, dinimi-imanımı dəyişmişəm, Quran kəlamını oxuyub, bütün vücudumdan o gavur ləkəsini götürmüşəm. Allah təalanın o gur işığında Məhəmməd Peyğəmbərin kəlamlarını oxuyub ona din-iman gətirmişəm. Bax indi söylə görüm mən nə etməliyəm, onu da edim. Tək mən öz eşqimə -o dünyama çatım. Mən bəlkə də öz atəşimlə Əsli Kərəm kimi yanacağam. Hə, bacım, səni and verirəm bax bu əlimdəki müqəddəs Qurana məni çatdır Nəsibə. Artıq anam dözmür və öz-özlüyündə "İlahi, bu bədbəxtçiliyi də gördük", - deyərək Suranuşun əlindən tutub Təhlicədən Şoruçaya, oradan da Qaraqaşlı obasına gedirlər. Siranuş hey suallar verir. Anam isə sualları cavabsız qoyur, bircə onu bildirir ki, nənəm Kərbəlayı Səkinə Həcc ziyarətindən qayıtmayıb. Nəsib isə uzaq səfərdədir. Gedək Telli nənəm evdədir. Narahat olma, şər qarışır, anam da istəyirdi ki, heç kəs bunları görməsin, çünki obaya səs yayılardı ki, gavur gəlib. Mal sağına gələndə artıq Telli qızı Fatmanı və yad bir gəlini görəndə təəcübləndi:

-Ay qız, bu vaxtı haradan gəlirsən?

-Heç ana. Elə belə gəldim ki, görüm necəsən.

Telli:

-Bəs bu qız uşağı hansı qohumlardandır?

-Qoy keçək içəri, sonra bilərsən ana.

Telli narahat-narahat içəri keçib, yad qonağa "xoş gəldin" dedi. Birdən qıza baxıb:

-Siranuşsan? Sən hara, bura hara?

Tez anam dilləndi:

-Ana o Siranuş deyil, müsəəlmançılığı qəbul edib, artıq Sürəyyadir.

Bu an anam Telli dözməyib bir nalə çəkdi.

Ah çəkərəm,deyərsən ki dağlara,
İnanmıram dağlar dözə dərdimə.
Qurban olum, o boyuna, buxununa
Kədərlənmə, ondan ötrü qəm etmə.

Bu an Siranuş Tellinin ayaqlarının altına yıxıldı:

-Düzünü de ana, mənim ürəyimi üzmə.

Ana həqiqəti dedi. Artıq evdə şivən idi. Ana və bacılar bir-birinə qarışıb göz yaşları tökürdülər. Sürəyya artıq hiss edirdi ki, Nəsib dünyada yoxdur. Onda Sürəyya yalvardı ki, məni onun qəbri üstə aparın "heç olmasa onun soyuq məzarı ilə danışım. Bəlkə mən eşqimin xətrinə onun ruhu ilə danışa bildim". Qaranlıqda ana-bacı və artıq sevgi məcrasından çıxmış Leyli sevgisinə bənzər Sürəyya qəbirstanlığa sarı addımlayırdılar. Artıq Sürəyya (Siranuş) hiss edirdi ki, indi Nəsibin ağuşuna girəcək və isti nəfəsi ilə onu isidəcək. Hamı durur. Ana qəbir daşını qucaqlayıb həzin-həzin ağlayır. Qaranlığın içərisində vahiməli bir səs hamını sakitləşməyə məcbur edir. Bu səs adi səs deyil. Bu Leylinin səsi idi. Bax bu səs qara daşa dəyib yenə geri qayıdır və Həkərinin səsinə qarışaraq Araza gedirdi. Hamı diqqətlə qulaq asaraq, bu yanıqlı səsdən qorxmuş kimi dinməyirdi. Qaranlıq gecə özü də qəbirstnalıq. Nə qədər vahiməli olsa da, bu səs, vahimələri geri qoyurdu. Sürəyya özünü soyuq məzarın üstünə sərərək torpağı yalayırdı: Eşit ey mənim ulu və əbədi sevgilim! Artıq mən səninəm, dur məni də öz əlinlə yanında dəfn et. Bəlkə bundan sonra mənim qəlbim sakitləşə. De söhbət et. Axı mən sənə baxmışamsa da sən bircə dəfə də olsun gözünün ucu ilə baxmamısan. Məni öz məhəbbət baxışına həsrət qoymusan. İndi mən sənin ağuşundayam. Bax, mən də sənlə o soyuq məzarda o quru nəfəsinlə isinmək istəyirdim. İndi də mənə baxmaq istəmirsən. Yox, artıq mən burdan geri dönən deyiləm, - deyib bir misra ürək yanğısı ilə qəzəl dedi:

Olmasın qəmli könül qəmdən azadə görüm,
Qəlbimi istə, könlümü soyuq məzarda verim,
İstəmirəm təxti-tacı quru nəfəsi bəsdir,
Tək səni sevgilim cənnəti-rizvanda görüm.

Cəsur qardaşlar

Qaranlıq gecədə soyuq məzar üstə bir an dörd bacı nalə çəkir. Ancaq bunların içərisində Sürəyyanın naləsi dağı-daşı yandırır. İnsana elə gəlir ki, bu nalə Həkəri çayının o sürətli axınını dayandırır. Artıq dözmək olmur. Sakitcə Telli Sürəyyanın qolundan tutub: hə, gəl gedək, sübh açılır. – Nə olub, məgər sübh açılanda nə olar? Qoy heç olmasa mən o dünyada da olsa Nəsiblə danışım. Məgər bu soyuq məzarla danışmaq da qəbahətdir? Yox, yox siz mənim məhəbbətimi nə hiss edə bilərsiniz, nə də duya bilərsiniz. Çünki sizin ürəyinizdə o atəşli sevgi yoxdur. İnsanın ürəyində sevgi hissi oyanmamış, ruhu yaranmamış, istəmədiyi biri ilə, həyat qurursa, bax bunun özü ən böyük bəladır. Axı yüz il sevmədiyin insanla yaşamaqdansa, bax bircə gün sevdiyin adamın bu soyuq məzarıyla danışmaq daha yaxşıdır. Onun üçün də gərək sevib, seviləsən, ana. Qoy məni də bax burada, bu soyuq məzarda Nəsibin yatdığı bu torpaqda ölüm. Burada ölsəm yəqin ki, o dünyada onun ruhu ilə yaşayacağam və əminəm ki, xoşbəxt olacağam. Məni bu xoşbəxtlikdən uzaq etmə. Ey mənim ulu, böyük anam, çünki sən Nəsibi dünyaya gətirmisən, sən ona işıqlı dünya bəxş etmisən. Doqquz ay sən onu bətnində saxlamısan, doqquz ay sən ona süd verib ilk dəfə sən onun ayağını torpağa basmısan. Bax ana nə qədər müqəddəsdirsə, sevgi də elə müqəddəsdir. Qoy məni qalım burada nə olur.

-Yox, yox qızım deyirsən ki, el içində xar olaq? Ola bilməz, gəl gedək, yoxsa gedib hökümətə xəbər verərlər ki, hökümətin düşməninin məzarı üstündə ağlayırıq. Bizi o saat Sibirə göndərərlər. Bax onda mən də, sən də gəlib bu soyuq məzarı ziyarət edə bilmərik, - deyib qızın qolundan tutub obaya sarı getdilər.

Sübh açılanda elə bil Sürəyyanın bənizi ağarmış, sanki on il qocalmışdır. Tez Telli:\

-Qızım, əgər sən çay-çörək yeməsən, bax onda Nəsibin ruhu səndən, həm də məndən inciyər ki, mənim əmanətimi anam saxlamadı. Dur əl-üzünü yu, çörəyini ye, Allah Kərimdir.

Bunu eşidən Sürəyya könülsüz halda əl-üzünü yuyub süfrəyə oturur və elə hey gözlərini bir nöqtəyə dikib xəyala gedir, gözlərindən axan göz yaşları əlindəki tikəyə qarışır. Bax beləcə günləri keçirirdik. Obada isə heç kəs Sürəyyanın kim olduğunu bilmirdi. Anam hər gün bizə tapşırır ki, Sürəyyanın kim olduğunu heç harda deməyin. Axı deyərlər ki, qismətdən artıq yemək olmaz. Hərənin öz tale

yazısı var. Bir neçə il idi ki, dədəmgili yaylağa çıxmırdı. Ancaq bu il böyük qaynım bilirdi ki, əgər Telligilin köçü yaylağa getməsə, onda biz də getməyəcəyik. Bunu eşidən nənəm dağa getməyə razılıq verdi. Neçə illər idi ki, nənəmgil dağlara getmirdi. Onun üçün də mən yaylağda olanda hey Arana baxıb gələn adamlardan atamgili soruşurdum. Axı o vaxtlar Aranda qalan adamların dalağı şişir mvə payız olan saat dünyalarını dəyişirdilər. Və yaxud da qızdırma xəstəliyi olurdu. Bunun üçün anamgilin yaylağa getmələri mənə bir sevinc bəxş etdi. Bizim yurd yerimiz müəyyənləşdirildikdən sonra Qasım dedi:

-Bu il quraqlıqdır. Bata bata çox tez gedib qara kolun ətrafına düşək. Ora bizim elə dədə-baba yurdumuzdur. Mikayıl əminin yurdudur. Ora düşək, su boldur.

Bəli, intizarlı günlər gəldi. Yazın ortalarında köçümüz Qanlı gölün ətrafındakı Mikayıl yurduna düşdü. Ancaq nədənsə anamgilin köçü gəlmirdi. Hər gün Xəlili yanıma alıb Burun kəndinin üstünə qədər gedib hey gələnlərdən bizim köçün nə vaxt gələcəyini soruşurdum. Bir qədərdən sonra anamgili gəldi. Səbəb o imiş ki, Sürəyya yalvarıb deyirmiş ki, mən qalım burada. Elə hər gecə Nəsibin ruhu ilə danışım.

-Axı siz məni niyə başa düşmürsünüz ki, mən bu soyuq məzarla danışanda onun torpağını əlimə alanda ruhum bir qədər sakitləşir, öz dünyama qayıdıram. O qan ağlayan ürəyim də sakitləşir. Bunun üçün mən yalvardım anama. Anam isə elə bil məni başa düşmür. Məgər Lüylinin Məcnunu sevməsi bəyəm alçaqlıqdır? Xeyr, Leyli eşqini göylərə ucaltdı. İnsanlar bildirdi ki, eşq, məhəbbət- ülvi və müqəddəsdir, kim o müqəddəsliyin ucalığına çatırsa, o ölmür. O diri ikən ölür. Ancaq o daim yaşayır və ən müqəddəs bir arzuya qovuşur. Ancaq mən isə əvvəllər Nəsibsiz yaşaya bilmədiyim kimi, indi də Nəsibin o soyuq məzarını hər gecə yuxumda görürəm. Sən gəl məni başa düş, qoy mən gedim Arana bəlkə ürəyim sakitləşə.

Anam o qəmli gözlərə baxıb:

-Sən bir az döz, anama deyərəm, hər ikimiz birlikdə gedərik, - dedi.

Ancaq bir neçə gündən sonra sübh tezdən evdən çıxan Sürəyya bir də evə qayıtmadı. Üç gün, üç gecə axtardıq, nə öldüsünü, nə qaldısını bilmədik. Bu da bizə bir dərd oldu. Ancaq üç gendən sonra Qanlı gölün kənarında paltar yuyurduq. Gölün ortasında bir qara kəlağayı gördük. Hamımız o kələğayıya baxırdıq. Tez

gedib anama xəbər verdik. Kələğayı elə bil hiss edirmiş kimi, bizə sarı gəlirdi. Bir qədərdən sonra kələğayını sudan çıxartdım. Sürəyyanın kələğayısı olduğunu gördük. Kələğayının ucu düyünlü idi və o düyüncəkdə qızıl medallyon var idi. Medalyonu açanda kiçik kağız parçasını tapıb ərəbcə yazını Məşədi Bağdada verdik ki, oxusun. Məşədi Bağdad ehtiyatla kiçik kağızı açıb diqqətlə oxuyur və gözlərindən yaş axırdı:

Çəkdiyim ahları söylə dağlar
İnanmıram dağlar dözə dərdimə,
İçimdəki atəşi söndürmədi küləklər,
Qərq oluram bəlkə sular söndürə.

Artıq hamımız bildik ki, Sürəyya Nəsibin yoxluğuna dözmədiyi üçün özünü o soyuq, buz tək Qanlı gölə atıb ki, qoy onun içərisində yanan atəşi sönsün. Həmin gün bax onun ehsanını verdik. Obaya bildirmədik ki, o Nəsibin vüsalına çatmaq üçün əbədiyyətə qovuşdu. Dedik ki, Arazqırağı qohumlarımızdandır, əmanət idi, əmanəti saxlaya bilmədik. Bax Sürəyya ilə Nəsibin teleləri belə oldu. Hə oğul deyəsən mənim son günlərimdir. Bax yenə sizə vəsiyyət edirəm, bax məni qəbirə dayım oğlu Allahverdi qoysun və gözümə torpağı o töksün. Bir də bu gümüş papağı papağı sinəmə qoyun. Yusifin (müharibədə həlak olmuş bacısı oğlu) şəkli ilə birlikdə - deyib bir qədər göylərə baxdı. O gözündəki parlaqlıq artıq artıq yox olurdu. Hiss edirəm ki, anam qürub edən günəş kimi solur (Famil Süleymanov). Tez böyük qardaşım və onun həyat yoldaşı içəri girib nalə çəkdi. Qardaşım anamın üstə uzanıb göz yaşı tökdü, ancaq anam heysiz, hissiyyatsız idi. Bədənki buz tək soyuyurdu. 1977-ci il mart ayının on dördündə anam dünyasını dəyişdi. O gün mən anamın yoxluğunu hiss etdim və anasız olduğum üçün elə bil dünyam ölmüşdür. Axı insan üçün həmişə itirilmiş şey əziz olur. Bax ana da itirəndə, torpağı da itirəndə insan nə qədər mənəvi əziyyətlər çəkir. Anasız dünya kimə gərəkdir. İnsan həmişə öz yaxın qohum və dostunu axtaranda heç vaxt şadlıq mərasimində axtarmır. Çünki belə məclislərdə deyilən sözün çoxu təmənnalı olur, onların dostluq naminə dediyi o saxta sözlərin kökü elə məclis qurtaran an bitir. Ancaq məzar başında göz yaşı tökənləri görəndə insan dərk edir ki, qohum, qardaş, bacı nə deməkdir. Bax cənazə yerdən götürüləndə kimlər cənazəyə girib ta qəbirstanlığa qədər çiyinlərində aparırdılar ki, öz borclarından çıxsınlar. Səni məzara sallayanda

artıq mən elə hiss edirəm ki, yer-göy başıma fırlanır. Ancaq onu hiss edən yalnız qohum-əqraba oldu. Birdə gördüm ki, hər iki qolumdan tuturlar. Nədənsə mən ağlaya bilmirdim. Ancaq qohumların gözlərindən yaş necə axırdı. Mən isə özüm-özümü danlayırdım ki, mən niyə ağlamıram. Ancaq bədənim heysizləşib, sanki yer üzündə deyildim. Ana məni bağışla. Hey xəyallarımda sənə acılı-şirinli xatirələrini fikirləşirdim ki, görəsən anam o soyuq məzarda da göz yaşı tökəcəkmi? Bax onda sənə bir bənd şeir həsr etmişdim; qəbir daşının üstünə yazdırım bəlkə. Ona görə göz yaşı tökə bilmirdim. Həmin an fikirləşdiyim bənd belə idi:

Dərdini bilirdim, dərdlisən ana.
Acı xəyallarla yaşadın, ana.
O qara gözlərin buludlu oldu,
Bu soyuq məzarda ağlama, ana.

XIII - FƏSİL

KİŞİ TAVATIN İGİDLİYİ.

Tavat xanım Qubadlı rayonunun Başarat elində böyük ad-san qazanmış Kərbəlayı Məmmədin qızıdır. Kərbəlayı Məmmədin nəsli xeyirxah əməlləri ilə elin rəğbətini qazanmış nəsillərdəndir. (S.Eloğlu "Zəngəzur hadisələri")

Ömrünün ahıl çağında Kərbəlayı Məmməd məktəb açmaq arzusuna düşür. O, oğlanlarına Fərəcan kəndində məktəb tikintisinə başlamağı tapşırıb,özü dərs vəsaiti hazırlamaqla məşğul olur. Bəhlul Behcətə məsləhət görür ki, dərsliyi "Quran"ın ayələri, Firdovsinin "Şahnamə", Nizaminin "Xəmsə", Sədinin "Gülüstan" və "Bostan" əsərləri əsasında tərtib etsin.

Kərbəlaıyı Məmmədin oğlanları Xozabird kəndindən erməni bənnalar gətirdib məktəbin tikinltisinə başlatdırdırır. Hər iki sahədə yaxşı iş gedirdi: həm məktəb tikintisində, həm də dərs vəsaitinin hazırlanmasında. Lakin belə xeyirxah iş erməni bənnalarını narahat edir. Səbəb də bu idi ki, bu elm ocağı gələcəkdə azərbaycanlı uşaqlarının gözlərinin açılmasına, elmə yiyələnmələrinə kömək edə bilər. Buna görə xain ermənilər aranı qarışdırmağa başladılar.

Cəsur qardaşlar

Ermənistanla Dağlıq Qarabağın sərhədlərini biri-birinə yaxınlaşdırmaq üçün Xozabirddən sərhəd direklərini çıxardıb gətirib Fərəcan kəndinin yaxınlığındakı Topağac deyilən yerdə basdırdılar.

Həsənalı Bakıya gəlib yaranmış vəziyyəti lazımlı yerlərə xəbır verdi. Məsələdən duyuq düşən erməni agentləri təcili Həsənə və Həsənalıya tələ qurdular. Xozabirddən iki qızı Həsənin və Həsənalının dalınca qaldırıb onları ələ aldılar. Bir az sonra qızlar hər iki qardaşı Xozabirddə eyş-işrət məclisinə dəvət etdilər. Məclisdən sonra onlara xüsusi yerlər saldırıb yuxuya verib silahlarını götürürlər.

Halbənd Sərkis həmin gecə hazırladığı nalı səhər Həsənin və Həsənalının ayağına mıxlayır. Qızardılmış şişlərlə gözlərini oyur. İti balta ilə əl-ayaqlarını oduntək doğrayır. Hərə onların növbə ilə bədənindən bir tikə kəsib köhnə palazın üstünə tullayır. Hadisədən on gün sonra məsələnin üstü açılır. Xəbər Başarat elinə çatır. Bu dəhşətli xəbər Kərbəlayı Məmmədi kövrəldirsə də, o, təmkinini itirmir. Bu vaxt Başaratlılarla Xozabirdlilər arasında başlaya biləcək qanlı qırğın Kərbəlayı Məmmədin bir işarəsindən asılı idi.

Gənc Tavat atasının qarşısında baş əyib qardaşlarının qanını özü alacağını bildirir. Kərəbəlayı Məmməd qızına təsəlli verib deyir ki, hələ Başarat eli sağdır. Onun igidləri at belində, fədailəri dağ keçidlərindədir.

Tavat xanım inadından dönmədi. Öz üzərində məşqlər etdi. Meşədə uçan quşlara güllə, ilxıda bərk qaçan atlara kəmənd atdı, özünü tam sınaqdan keçirtdikdən sonra Xozabirdlilərin meşədən odun yığıb apardıqları yolları kəsməyə başladı.

Bir gün Sərkisin öz oğlu ilə odun qığmağa getdiyini görən Tavat xanım fürsətdən istifadə edib dar keçiddə özünə əlverişli pusku düzəltdi. Ermənilər hədəfə çatan kimi Tavat xanım güllə ilə hər ikisini qatırdan saldı. Oğlunun əlindən düşmüş tüfəngi götürmək üçün çabalaya-çabalaya özünü kolluğa salmaq istəyən Sərkisə Tavat xanım bir patron da boşaltdı.

"DALĞA" VƏ "QARTAL" KƏŞFİYYATI.

Bu qırğının günahkarları S.Şaumyan və A.Mikoyan idi. Andranikin böyük ordusunu Gorus-Xınzirək-Dığ-Zabux-Abdallar-Şuşa istiqamətində Njde və Dronun Gorus-Xınzirək-Cicimli-Qaradağlı-Hadrut istiqamətində Zəngəzurdan Qarabağa aşa bilmədiklərini görən S.Şaumyan və A.Mikoyan üçüncü "dəhliz" yolu açmaq

fikrinə düşdülər. Bu dəfə "Martunidən Dəli Nəzərin dəstəsini Xozabirdə, Hadrutdan Tevonun dəstəsini Tağ kəndinə gətirtdirib ciddi təlim keçdikdən sonra Xozabird-Minmin-Qalalı-Güləbird-Xınzirək-Gorus istiqamətində hərəkət etmək tapşırığı verdilər.

Çingiz İldırımın Xəzər dənizində "Dalğa", Zəngəzurda "Qartal" kəşfiyyat ı hazırlamışdı. "Dalğa"kəşfiyyat mərkəzi Çingiz İldırıma xəbər verdi ki, İrandakı daşnaklar S.Şaumyanın ünvanına göndərdikləri silahları Ənzəli limanından qaytarıb Xudafərin körpüsündən keçirərək Xozabirtdəki dəstələrə çatdırmağı planlaşdırıblar. (S.Eloğlu "Zəngəzur hadisələri") Çingiz İldırım "Dalğa" kəşfiyyatının üzvü, faytonçu çopur Əlini yanına çağırtdırıb axşam Qubadlıya getmək üçün iki at hazırlamasını tapşırdı və özünün də getməsini təklif etdi. Çopur Əli razılığını bildirib Çingiz İldırımdan ayrıldı.

Zəngəzurdakı "Qartal" kəşfiyyatının üzvlərindən Ağa Şirin (onun ləqəbi "Çalağan" idi) vaxtı ilə Nargin adasında dustaq saxlanılardı. Çingiz İldırım onu gəmi ilə sahilə qaçırtdırmışdı. Bir də "Əliyanlı Sevdimalı (o "qızıl quş" ləqəbi ilə fəaliyyət göstərirdi) Çingiz İldırıma Zəngəzurdakı vəziyyət haqqında xəbər gətirmişdi. Hər ikisi Bakıya atlı, silahlı gəldiklərini bildirdilər. Onlar məlumat verib bildirdilər ki, daşnakların əsas qüvvələri Yal yurddan Dərə yurda, oradan Ziyarət dağına, Tiliş daşa tərəf meşəyə soxulublar. Bu əməliyyatda Arpagədik, Tağ, Tuğ, Tezxarab ermənіləri də iştirak edirdilər.

Çingiz İldırım soruşur ki, bəs bizimkilər nə tədbir görüblər? Ağa Şirin cəbhənin genişliyi barədə qısa məlumat verərək dedi ki, Ağ dəyirmandan ta Əliyanlının üstünə qədər geniş ərazidə hücumu davam etdirirlər. Hümbət Şərif oğlunun Qozlu dərədə vurulmasından sonra döyüş ciddi xarakter almışdır.

Çingiz İldırım Ağa Şirinin sözünü bir qədər tez kəsərək nigarançılıqla soruşdu: Bəs onlara qarşı kimlər və nə ilə vuruşurlar? Sevdimalı sözə qoşularaq iti-iti danışıb dedi ki, Məzməzəklilər Papıllı yaldan Maxsudlu düzünə qədər sahəni Cicimli, Qaz dərəsi, Bayramuşağı, Malxələf, Türklər kəndinin camaatı ilə birləşib mühasirəyə alıblar. Həkəri dərəsi istiqamətində Əliyanlı elləri hərəkət edib Mizmin meşəsində böyük səngərlər yaratmışlar. Ağa Şirin sevincək əlavə elədi ki, Pələng Rəsul cəbhənin bir tərəfində tək durur. Çingiz İldırımın könlünü açmaq üçün bir qədər gülümsər halda: "Çingiz əmi, - dedi – bilirsiniz, Pələng Rəsul kənddən bir

qucaq papaq yığıb aparıb daşların, koların üstünə qoyub, gah oradan, gah da buradan güllə ataraq ermənilər Şiş yurddan qovdurub". Ermənilər elə biliblər ki, doğrudan da burada böyük bir dəstə var. Çingiz İldırıb bir qədər gülümsünüb: - Sağ olsun, tanıyıram, çox igid adamdı, - dedi.

Hava qaranlıqlaşırdı. Çopur Əli təcili içəri girib bildirdi ki, hər şey hazırdı. Çingiz İldırım, Sevdimalı, Ağa Şirin, Çopur Əli Qubadlıya yola düşdülər. Onlar gecədən xeyli keçmiş Qarasu kəndinin kənarındakı çayxanaya döndülər. Atdan düşüb içəri girmək istəyərkən qoca, nurani bir kişinin ağladığını görüb təəccübləndilər.

Çingiz İldırım qocaya yaxınlaşıb bikef olmasının, qəmli-qəmli ağlamasının səbəbimi soruşduqda qoca kövrələrək daha da bərkdən hıçqırıb ağladı. Bir azdan gözünün yaşını silib dedi ki, indicə iki atlı kəndlərə xəbər apardı ki, ermənilər Şamaxı yaxınlığında 700-dən artıq Azərbaycanlını qırıblar. Qırğına deyirlər inqilabçı Şaumyan rəhbərlik edirmiş. Danışırdılar ki, o üç gün Mərəzə kəndi yanında hadisəyə istiqamət verirmiş. Qoca danışdıqca qəzəblənən Çingiz İldırım cibindən qələm çıxarıb nəsə yazdı, sonra kağızı Sevdimalıya verib tapşırdı ki, təcili çatdırsın Xudafərin körpüsündən Qarabağa silah aparmaq istəyənləri Qumlaq kəndində izləyən Zilanlı kürd dəstəsinə.

Çingiz İldırım Ağa Şirin ilə Sevdimalını yola salıb, Şaumyanla hesablaşmaq üçün Çopur Əli ilə təcili Bakıya qayıtdı. Dəniz kənarındakı evlərinə çatanda yenicə işıqlaşırdı. Əlini "Dalğa" kəşfiyyat mərkəzinə göndərib tapşırıq verdi ki, Şaumyanın Bakıya qayıtmasını nəzarət altına alsınlar. Özü sakit iş otağına girib yol paltarını dəyişdi. Dənizə tərəf pəncərəni açıb dəhlizdə bir qədər o tərəf bu tərəfə getdikdən sonra kəşfiyyait mərkəzinə zəng vurdu. Əlinin ora gəlib çıxmasını soruşdu. Telefon söhbəti sərt və çox qısa oldu. Əli kəşfiyyat mərkəzinə giəndə balıqçı Qulam Çingizin telefonla çox qəzəbli danışdığını ona bildirdi. Əlavə elədi ki, mən birinci dəfədi Çingiz İldırımın belə qəzəbli danışdığını eşitdim. Əli Şaumyanın Şamaxı ətrafında Azərbaycanlıları qırdırması əhvalatını yoldaşlarına çatdırdı. Kəşfiyyat təcili Bayıl, Lokbatan, Biləcəri, Balaxanı, Razin, Zıx yollarına nəzarətçi qoydu. Bütün gün yollarda qalan kəşfiyyatçılar gecəni də qalmağa razılaşdılar. Gecədən xeyli keçmiş Şaumyanın bir dəstə adamla Sulutəpədən Bakıya gəldiyini bildilər. Onları görüb Çəmbərkənddə Şaumyanla gələn

ermənilərdən birini tutub zibilli dərədə gizləyib vəziyyəti Çingizə xəbər vermək üçün Bayıla gəldilər. Çingiz bütün gecəni yuxusuz, gündüzü həyəcanlı idi.Qırçı Rzabala ilə çörəkçi Tələt içəri girib Şaumyanın bir dəstə adamla Sulutəpə tərəfdən gəlmələrini və onlardan birini Çəmbərkənddə evinə çata-çatda qəflətən yaxalayıb oğurladıqlarını bildirdilər. Çingiz İldırım həmin ermənini təcili yanına gətirmələrini tələb etdi. Rzabala ilə Tələt qayıdıb bir azdan ermənini Çingizin yanına gətirdilər. Erməni əvvəlvə Çingizə məlumat verməkdən imtina etdi. Çingiz Tələtə işarə etdi ki, ermənini "isladıb" gətirsinlər. Bir saatdan sonra hər şeyi boynuna alan ermənini yenidən Çingizin yanına gətirdilər. Çingiz bütün informasiyaları aldıqdan sonra Rzabalaya əli ilə bildirdi ki, aparıb o dünyaya göndərsinlər.

Çingiz mizin üstündəki xəritəsində bir gəmi şəkili çəkib oxla dənizn dərinliyinə apardı. Sonra yerindən cəld qalxıb "Qartal" kəşfiyyatından alınan məlumatlarla tez-tez onu tanış etmələrini bildirib getdi. Qapıdan çıxanda Ağa Şirinin Nargin adasında adamların ayağına ağır daş bağlayıb gecələr dənizə tökdüklərini söylədiyi yadına düşdü. Geri qayıdıb Nargin adasındakı hadisələri izləmək üçün tapşırıq verdi.

"Qartal" kəşfiyyatı Araz çayı sahilində olan Qumlax, Məmmədbəyli, Zilanlı, Ağalı, Xanlıq, Fədai dəstələrinə xəbər verdi ki, Xudafərin körpüsündən Xozabirdə daşnakların silah aparacaq dəstəsini nəzarətə alsınlar. Mümkün qədər tərgisilah etməyə çalışsınlar. Qalalı ətrafına lazımlı qüvvələrin çatdırmamasına görə, Tevonun dəstəsi gecə qəflətən hücum edib Qalalı camaatını qırıb, mal-qaranı yığıb apararkən Əliyanlı igidləri Sarı yoxuşda onları mühasirəyə alıb, hamısını qırıb malları əllərindən alırlar. Ardıclı yolda Pələng Rəsul o qədər güllə atır ki, qarşısında kiçin giliz kolu yaranır. O vaxt Rəsulu görənlər danışırlar ki, tüfəngin tətiyini çəkməkdən barmaqlarının əti də getmişmiş. Məhz Əliyanlı igidlərinin qəhrəmanlıqları sayəsində Zəngəzurdan Qarabağa üçüncü "dəhlizin açılması" da boşa çıxdı.

Bu vaxt Çingiz İldırım belə bir qənaətə gəlmişdir ki, hazırkı vəziyyətdə xalqı daşnak fəlakətindən xilas etmək əsas məsələdi. Tarix gec tez Çingiz İldırımın Zəngəzurda və Bakıda daşnaklara qarşı apardığı qəhrəmanlıq mübarizəsini üzə çıxaracaq.

İTDƏ VƏFA VAR, ERMƏNİDƏ YOX.

Ermənilərlə qonşu, yoldaş, dost olanlar axırda belə nəticəyə gəliblər ki, itdə vəfa var, ermənilərdə yox. (S.Eloğlu "Zəngəzur hadisələri")

Dorhun – Andaraşad kəndində ilk dəfə yaşayış məskənini azərbaycanlılar salmışlar. Dorhunlu azərbaycanlılar gözəl, yaraşıqlı evlər tikdirməyi çox sevərdilər. Kənddəki evlərin əksəriyyəti ikimərtəbəli, geniş aynabəndli, böyük zallı otaqlardan ibarət idi. Bu evləri görənlər həmişə fərəh hissi keçirərdilər. Azərbaycanlılar bu evləri çox vaxt erməni ustalarına tikdirərdilər. Bağ-bostan üçün bərəkətli torpağı, gözəl təbii mənzərəsi, şəffaf saf sulu bulaqları olan bu yer görənləri məftun edərdi. Bu yerlərə gələnlər ilk görüşdən burada ev tikib qalmaq arzusuna düşərdilər.

Erməni ustaları azərbaycanlıların evlərini tikib qurtardıqdan sonra imkanlı azərbaycanlılara yalvarırdılar ki, dolanmaq üçün kiçik bir daxma tikməyə torpaq versin. Təmiz ürəkli, böyük səxavətli azərbaycanlılar nəinki torpaq verərdilər, hətta evin bütün tikinti materialına köməklik edər, üstəlik ermənilərə bir balalı inək də bağışlayırdılar ki, qoy qatığından, südündən istifadə etsinlər.

Ümumiyyətlə, özlərini "sədaqətli" nökər kimi tanıtdırmağı bacaran ermənilər azərbaycanlıların qılığına girib özlərinə Dorhunu kəndində xeyli ev tikə bildilər. Bu evlərin sayı zaman keçdikcə artmağa başladı.

XIX əsrin axırlarına yaxın ermənilər yenə "erməni xəstəliyinə" tutuldular. Ara qarışdırmağa, dələduzluğa başladılar. Çöldə azərbaycanlıların mal-qarasını oğurladılar, kənddə bir kişinin ot tayasını yandırdılar. Hər yerdə azərbaycanlıların ayağından çəkməyə başladılar.

XX əsrin əvvələrində Tayqulaq Andranikin quldur ordusu Zəngəzura gələndə vəfasız ermənilər daşnaklara bələdçilik edib, gətirib doldurdular Dorhunu kəndinə və başladılar azərbaycanlıları hədələməyə, təngə gətirib bezdirməyə.

Bir gün Dorhunu kəndinin erməni "ağsaqqalları" azərbaycanlıları yığıb deyirlər ki, ara sakitləşənə kimi gedin aşağı kəndlərdə qalın. Biz sizin mal-qaranızı, ev-eşiyinizi qoruyub saxlayırıq. Ara sakitləşəndən sonra yenə qayıdıb gələrsinin öz evlərinizə. Təmiz qəlbli azərbaycanlılar bu təklifə inanırlar. Hətta kəndin ortasında böyük palıd ağacının kölgəsində bir neçə qoyun kəsdirib, gözəl süfrə açdırıb, bir yerdə çörək kəsirlər. Sən demə alçaq ermənilər azərbaycanlıları aldadırlarmış.

Dorhunu kəndinin Qrikor, İsak, Aşot kimi "ağsaqqalları" da azərbaycanlıları salamat ötürmək üçün gedənlərə qoşulurlar. Yolda daşnaklar birdən şuluqluq edər deyə özləri ilə kənddən bir neçə silahlı köməkçi aparırlar.

Kənddən xeyli aralanıb dərəyə enəndə vicdansız, yediyi çörəyə xayın çıxan ermənilər azərbaycanlıları mühasirəyə alıb üşaqlı, böyüklü vəhşicəsinə qırırlar. Bir neçə cavan azərbaycanlı oğlanların qollarını bağlayırlar. Köçüb gedənlərin dolanışıq üçün götürdükləri ləvazimatları və qiymətli əşyaları böyük bağlamalara yığıb qolları bağlı azərbaycanlıların kürəyinə şələləyirlər ki, aparıb meşədə gizlətsinlər. Yolda Qaraş adlı bir qoçaq oglan yavaş-yavaş qollarını açır. Yoldaşlarına sakitcə bildirir ki, mən qolumu açmışam. Bir azdan bizi aparan silahlı ermənini vurub silahı əlindən alacağam. Sizin əllərinizi də açacağam. Diqqətli və cəld olarsınız. Meşənin dərinliyinə çatanda Qaraş qəflətən şələni kürəyindən atıb ermənіyə mökhəm bir kəllə vurur. Cəld tüfəngi əlindən alıb, süngünü onun qarnına soxur və dəsmalı ağzına basır. Yoldaşlarının bağlı qollarını açır və bir-birlərinə qoşulub qaçırlar. Qabaqda görürlər ki, iki erməni bağda bostanı suvarır. Qəflətən cumub ermənilərin ikisini də tuturlar. Silahlarını alıb o dünyalıq edirlər. Qaraşgil Qubadlıya gəlib hadisəni camaata çatdırmaq istəyirlər. Yolda gedərkən bir qız uşağının fəryadlı qışqırtısını eşidirlər. Yoldan çıxıb səs gələn tərəfə gedirlər. Bir də görürlər ki, dərədə azərbaycanlıları qıran dığalar bulağın üstündə bir-birləri ilə tutaşıblar. Özləri də sərxoşdular. Kənarda qolları bağlı üç azərbaycanlı qızını incidirlər.

Qaraş hadisə yerini diqqətlə izləyib ağaca bağlanıb başları kəsilmiş iki azərbaycanlı oğlanı yoldaşlarına göstərir. Sonra ermənilərin silahlarının harada olmasını müəyyənləşdirib kimləri qabaqca vurmağı yoldaşlarına tapşırır. Özü ağaclardan asılmış silahlara baxan ermənini nişan alır. Tez yüyürüb silahları yığışdırır. Bir qədər aralıda kola töküb qayıdır. Görür ki, sağ erməni qalmayıb.

Qaraş yaxınlaşıb qızların əllərini açır. Silahları götürüb qaçıb girirlər meşəyə. Qaraş görür ki, qızların yol getməyə taqətləri yoxdur. Silahları yoldaşlarına verib qayada onları gizlədir. Özü Qubadlıya gəlir. Bütün gecəni yol gələn Qaraş səhərə yaxın özünü Qubadlıya yetirir. Şəmil bəy Qubadlı camaatını tez ayağa qaldırır. Böyük bir dəstə silahlanıb ətraf kəndlərlə birlikdə meyidləri gətirmək üçün qırğın yerinə gəlir. Qaraş qayada gizlənmiş qızları tapıb Qurdqalağı kəndinə göndərtdirir.

Sonra öldürülənlərin meyidlərini götürmək üçün gedirlər. Hadisə yerinə çatanda görürlər ki, ermənilər gediblər. Amma vəhşi heyvanlar meyidlərə ciddi zərər vurublar. Qəflətən bir ayı kolluqdan çıxıb camaatın üstünə cumur. Onu vurub öldürürlər. Sonra bilirlər ki, gecə ayı meyidi daşıyıb torpağa basdırıb.

Basdırmaq üçün müyidləri götürərkən görürlər ki, bir oğlan uşağı meyidlərin altında salamat qalıb. Uşağı götürüb göndərirlər Qubadlıya. Meyidləri ətraf Azərbaycan kəndlərinin qəbristanlıqlarında dəfn edirlər. Axşam Qubadlılar bir neçə erməni kəndini dağıdıb viran qoyurlar. Bu hadisəni qələmə alanda mənə dedilər ki, meyidlərin altından tapılan üşaq hazırda yaşayır. Nurani bir qocadır. Mən onunla görüşməyə çalışdım. Lakin işimin çoxluğu imkan vermədi.

OVÇU SULTAN

Ovçu Sultan hər iki gözü ilə nazik çöpü belə asanlıqla nişan alan mahir bir ovçu kimi tanınmışdı. Gəncliyində kəndlərinin qalın meşələrindən kəndə basqın edən ayılardan, mal-qaranı canavarlardan, əkinləri donuz sürülərindən qoruyaraq elin rəğbətini qazanmışdır. Ovçu Sultan əliyə su içəndə, kəkliyə yuva üstdə güllə atmazdı. O, əliyə sürətlə qaçanda, kəkliyə sürü ilə göydə üçanda güllə atardı. Vaxtıyla kəndləri vəhşi heyvanların basqınından qoruyan ovçu Sultan indi gözləmədiyi, ağlına gəlmədiyi dəhşətli hadisələrlə qarşılaşmalı olurdu. Belə ki, indi çörək kəsdiyi, şad günündə qəlb açıqlığı süfrəsində oturduğu qonşusu Arama güllə atmalı idi. Çünki Aram dünən axşam başına yığdığı bir dəstə ilə kəndin mal-qarasını oğurlayıb aparmış, bulaqdan su doldurub evlərinə qayıdan qız uşağının başını kəsib yolun üstünə atmışdır. (S.Eloğlu "Zəngəzur hadisələri")

Bir gün axşamçağı kənddə qəflətən dəhşətli qışqırtı böyük çaxnaşma qopdu. Xəbər gəldi ki, Xozabirdlilər Qarabağ daşnaklarına qoşulub Başarat kəndini yandırmağa gəlirlər. Xəbər ovçu Sultana çatan kimi tüfəngini götürüb Başarat kəndinə tərəf gəldi. Ovçu Sultan gördü ki, onların əllərində tüfəmglə bərabər kəndi yandırmaq üçün məşəllər də var. Ovçu Sultan üzünü göylərə tutub "Allahım keç günahımdan" deyib sinəsini qayaya söykədi. Bir anda bu böyük quldur dəstəsini elə gülləborana tutdu ki, quldurlar nəinki geri çəkildilər, hətta meydanda qalmış onlarla ölülərini də götürməyə macal tapmadılar. Daşnaklar ovçu Sultanı girov götürmək üçün dəfələrlə müxtəlif hiylələrə əl atmışlar. Bir gün 12 nəfər ovçu

Sultanın həmişə ov ovladığı yerə gəlir. Pusquda dayanıb gözləyirlər. Ovçu Sultan atəti üzrə meşəyə gəlir. Atdan düşüb xurcunundakı ikinci kəməri belinə bağlayarkən ov üçün gətirdiyi tula yaxında hənirti duyub cumaraq hürməyə başlayır. Ovçu Sultan elə bilir ki, vəhşi heyvanlardan hansısa ona tərəf gəlir. Bir də görür ki, iki erməni əllərində kəndir lap yaxınlaşıblar onu tutmağa. Cəld tüfəngi üzünə alıb hər ikisini yerə sərir. Uzaqda dayanmış ermənilər güllə səsini eşitcək dolurlar meşəyə. Ovçu Sultan ermənilər yaralı burda qoyub tez meşənin çıxacağındakı dar yolu kəsir. Xeyli gözlədikdən sonra bir də görür ki, on erməni meşədən çıxıb Başarat kəndinə tərəf gəlir. Özünə yaxın mövqe seçmiş ovçu Sultan beşatılanı ayağa çəkib ermənin onunu da vurub başlarını kəsir. Kərməşov çubuğu ilə atın quyruğuna bağlayıb gətirir kəndə.

Bu hadisədən sonra ermənilər bir daha bu yerlərdə görünmürlər.

OVÇU BALAKİŞİ

Zəngəzurda ovçu Balakişini xeyirxah adam kimi tanıyarlarmış. O ovladığı əlik, ceyran, turac, kəkliyi yaxınlığındakı Azərbaycan kəndlərinə, donuz, qaban, ayı və başqa ov heyvanlarını erməni kəndlərinə çox vaxt müftə paylayarmış.

Balakişi quş qədər sərvaxt, şir qədər cəsarətli imiş. Deyirlər ki, onun qaçışında ceyran sürəti varmış. O, yol gedərkən çox vaxt arxların, çalaların, xəndəklərin üstündən tullana-tullana yeriyərmiş. Bəzən elə sürətlə qaçarmış ki, görənlər heyrətdən yerində donarmış. Onun Həmzəli kənd yaxınlığındakı böyük yoxuşu atla çıxmağa səbri çatmazmış. At yavaş gedir deyə çox vaxt yoxuşu piyada çıxarmış. (S.Eloğlu "Zəngəzur hadisələri")

Zəngəzur qocaları bu mahir ovçu haqqında maraqlı hadisələr danışırlar. Söhbətlərin birində deyirlər ki, Qubadlı rayonunun Qayalı kəndindən sifariş göndərirlər ki, Quru dərədə canavarlar nəinki heyvan otarmağa imkan vermir, hətta adamların bu yerlərdən gediş-gəlişinə də maneçilik törədir. Xəbəri eşidən ovçu Balakişi səhərisi günü Sınıq yoxuşunun döşündə otlayan bir öküzün başına ip salıb onu həmin yerə aparır. Öküzü dərənin sakit yerinə ötürüb özü daşın dalında gizlənir. Bir azdan canavarlar kolluqlardan çıxıb öküzə tərəf cummağa başlayırlar. Balakişi ova gedərkən həmişə özü ilə iki tüfəng götürərmiş. Tüfənglərdən biri ilə yaxın, o biri tüfəngi ilə uzaq məsafələrdəki ovu vurarmış. Bunun bir səbəbi də varmış. Silah təhlükəli anda birdən xarab oldu deyə ehtiyatlı tərpənərmiş. Bu dəfə

də iki tüfəng götürübmüş. O əvvəlcə yaxındakı canavarları nişan alır. Bir anda ikisini vurub, o biri tüfəngi götürür. Qaçmaq istəyən canavarlardan beşini də vurur. Sonra canavarların ölənlərini daşların üstünə qoyub Həmzəli kəndinə qayıdır. Gecə burada qalıb səhəri yenə Quru dərəyə qayıdır. Quru dərədən adlayıb Qayalıya getmək istəyərkən bir yalquzaq koldan Balakişinin üstünə atılır. Balakişi kordanı yalquzağın başına çaxıb özünü birtəhər qoruyur. Tüfəngi üzünə alıb yalquzağı yerə sərir. Qayalıya gəlib hadisəni nağıl edir. Qayalılar gəlib Quru dərədə öldürülmüş canavarları görəndə Balakişiyə minnətdarlıqlarını bildirirlər.

Bir dəfə də Həkəri kəndindən sifariş göndərirlər ki, Balakişi, Qalalı dərəsində qoz, fındıq, zoğal yetişibdir. Amma uşaqlar ayının qorxusundan gedib yığa bilmirlər. Balakişi sifarişi alandan bir az sonra Həkəri kəndinə gəlir. Axşam camaatla görüşüb sabah tezdən hazırlaşmalarını tapşırır. Tezdən Balakişi camaatın qabağına düşüb Qalalı deyilən yerə gətirir. Bütün gün burada çoxlu meyvə yığırlar. Axşam şad, sağ-salamaq qayıdıb gəlirlər. Meyvə çox olduğuna görə camaatın xahişi ilə ovçu Balakişi bu gecə də Həkəri kəndində qalıb səhər yenə camaatı meyvə yığmağa gətirir. Meşədə camaat meyvə yığarkən bir atlı gəlib Balakişini soruşur. Deyirlər ki, buradadır. Atlı Balakişini tapıb görüşür. Balakişiyə həyəcanlı-həyəcalı deyir ki, papaqlı yalından gələrkən gördüm ki, yekə bir ayı camışı süpürləyib yerə yıxdı. Tez atı çapıb aradan çıxdım. Balakişi hadisəni camaata bildirməyib atlı ilə tez hadisə yerinə gəlir. Atlını aralıda qoyub ağaclığa girir. Bu vaxt camışın belini sındırıb qanını içən ayı Balakişini görüb üstünə cumur. Balakişi ayının kəlləsini nişan alır. Güllə ayını yaralayır. Qəzəblənmiş yaralı ayı Balakişini süpürləyir. Balkişi cəld gordanı ayının ağzından boğazına soxur. Ayı pəncəsiylə Balakişini möhkəm vurur. Balakişi çiynindən ağır yara alır. Bu vaxt ayının balası arxadan cumub Balakişinin ayağından dartır. Yer sürüşkən olduğundan ayılar Balakişini yıxırlar çalaya. Gorda ayının ağzında olduğuna görə ağzı ilə Balakişiyə zədə yetirə bilmir. Balakişi üstünə atılmış balanı xəncərləyib yerə aşırır. Bir qədər kənara tullanıb dalbadal böyük ayının başını güllələyir. Ayıları çalada qoyub, atlı dayandığı yerə gəlir. Atlı görür ki, Balakişinin üst-başı qan, paltarları cırıq-cırıqdır. Balakişi hadisəni atlıya danışır. Onlar meşədə meyvə yığan camaatın yanına gəlirlər. Camaat əhvalatdan halı olur. Balakişinin yaralarını bağlayıb ayını

öldürdüyü yerə gəlirlər. Camaat öldürülmüş ayıları öküzlərə qoşub gətirir Həkəri kəndinə.

Balakişinin hörməti və şöhrəti artdıqca ermənilərin xainlığı tutardı. Ümumiyyətlə, ermənilər Balakişidən çox qorxardılar. Erməni qadınları isə Balakişinin qoçaqlığının, mərdliyinin, gözəlliyinin pərəstişkarları idilər. Balakişi hansı erməni kəndinə gəlsəydi vurduğu ovlardan kasıblara paylayardı. Bu vaxt onlarla erməni qadını Balakişini görmək üçün müxtəlif bəhanələrlə yola çıxardılar.

Balakişi həqiqətən heyranedici bir görkəmə malik imiş. Deyilənə görə, erməni qadınlarından Balakişi ilə könüllü görüşənlər də varmış.

Bir gün Dığ ermənіləri Balakişini aradan götürmək haqqında Gorusun "naçalnik"inə gileylənirlər. Sonra bildirirlər ki, Balkişi bizim namusumuza toxunur. Gorsuda Balakişini qəflətən tuturlar. Araqarışdıran deyə Sibirə sürgün edirlər.

Sibirdə Balakişinin mahir ovçu olduğundan qazamatın rəisi xəbər tutur. Bir gün Balakişini yanına çağırtdırıb özü ilə ova aparır. Balakişi Sibir meşələrinə qənim kəsilir. Ova gələnlər Balakişinin cəldliyinə, sərrast güllə atmağına heyran qalırlar. Ovçuluq, qazamatın rəisilə Balakişi arasında mehriban münasibət yaradır. Hər dəfə ova gedəndə əlidolu qayıdırlar. Qazamatın rəisi Balakişinin həqiqətən günahsız sürgün olduğunu biləndə onun qaçmasına şərait yaradır. Milliyyətcə osetin olan qazamatın rəisi Balakişiyə tapşırır ki, məsələnin üstü açılsa deyərsən özüm qaçmışam.

Balakişi salamat Zəngəzura qayıdır. O indi meşələrdə heyvan yox, erməni kəndlərindən erməni ovlayır. Dığ ermənіləri Balakişinin Sibirdən qaçıb Zəngəzurda erməni ovlaması haqqında yenə Gorusun "naçalnik"inə məlumat verirlər. Xüsusi göstərişlə Balakişini tutub Gorus qazamatında xeyli ac saxlayır, böyük işgəncələr verdikdən sonra ayağına qandal vurub, boynuna da 12 kq kündə bağlayıb Gorusdan Gəncə qazamatına qədər piyada apartdırırlar.

BAMƏZƏ XOCA ABDULLA

Yüz illiyin sonlarında Zəngəzurun qədim Qaradağlı kəndində yaşamış hikmətli lətifələr ustadı Xoca Abdulla çox bamәzə adam imiş. Onun kəlamları bu gün də el söhbətlərinin bəzəyidi. Xoca Abdullanın ermənilərlə bağlı bir neçə əhvalatını danışırlar. (S.Eloğlu "Zəngəzur hadisələri")

Cəsur qardaşlar

Bir adət olaraq Həkəri, Bərguşad çayları ətrafındakı kəndlərin camaatı istilər düşəndə Çalbayır, Qannıca, Qaragöl, Üçtəpə yaylaqlarına köçürlər. Bir dəfə Xoca Abdulla yaylaqda alaçığı qurur, qoyun-quzu üçün arxac, mal-qara üçün ağıl düzəldib, bütün işlərini səhmana salandan sonra arana qayıdır ki, uşaqlara bağ-bostan məhsulları aparsın. Xoca Abdulla aranda olarkən bir axşam qədim Burun kəndindən qalxan qaranlıq duman Qaragöl ətrafındakı yaylaqları bürüyür. Çobanlar sürüləri bir yerə toplamağa imkan tapmırlar. Sürülərdən biri dumanda azıb gedib çıxır ermənilərin arxacına. Ermənilər həmin gecə sürüləri yaylaqdan endirirlər Gorusun bazarına, başlayırlar satmağa. Bazara gəlmiş Məzməsəkli çobanlar Xoca Abdullanın qoyunlarını tanıyırlar. Amma məsələnin üstünü açmayıb gəlib əhvalatı Xoca Abdullanın çobanlarına danışırlar.

Çobanlar hadisənin izinə düşüb eşitdiklərini dəqiqləşdirirlər. Xoca Abdulla arandan qayıdanda məsələni ona bildirirlər. Xoca Abdulla uşaqlara tapşırır ki, çadırlardan bir neçə pişik tutub xurcunlara yığıb hazırlasınlar. Cavanlara tapşırır ki, bir tuluq neft götürsünlər. Axşam ermənilərin arxaclarına gedəcəyik. Axşam Xoca Abdulla bir neçə atlı cavanla ermənilərin arxaclarına gəlir. Hər şeyi yerli-yataqlı ölçüb-biçir və oturub gözləyirlər. Gecədən xeyli keçəndən sonra Xoca Abdulla pişikləri neftləyib, od vurur və buraxır erməni sürülərinin içinə. Alışmış pişiklər özlərini sürülərin içinə saldıqca sürülər ürküşüb gecənin qaranlığında dağılışırlar. Xoca Abdulla rahatca böyük bir sürünü qabağına qatıb səhərə qədər yol gəlib çıxır Minkəndin bazarına. Sürünü cavanlara verib ki, ucuz qiymətə satsınlar. Özü bir qədər aralıda oturub təsbeh çevirir. Bazara gələnlər qoyun-quzunun belə ucuz satıldığını gördükdə təəccüblənirlər. Səbəbini soruşduqda cavanlar deyirlər ki, gedin o kişidən soruşun. "A kişi, qoyunları niyə belə ucuz satırsan?" deyə soruşanlara Xoca Abdulla başını ehmallıca qaldırıb baməzə halda: - Aparın yeyin. Ermənin malıdı, - deyir.

XOCA ABDULLANIN KƏLƏYİ

Xoca Abdulla bir dəfə bağ-bostan məhsullarından yığıb yaylağa göndərərkən, yolda ermənilər uşaqların qabağını kəsib yaylağa apardıqlarını əllərindən alırlar. Uşaqlar yoldan qayıdıb evə gəlirlər. Əhvalatı Xoca Abdullaya danışırlar. Xoca Abdulla axşamlar camaatın yığışdığı yerə gəlib deyir ki, bu axşam gedəcəyik ermənin xırmanlarından taxıl gətirməyə, ehtiyacı olanlar bizimlə gedə bilərlər.

Bir neçə atlı axşam hazır vəziyyətdə Xoca Abdullanın yanına gəlir. Xoca Abdulla bostandan bir neçə qarpız, yemiş qırıb xurcuna qoyur və bağlayır atın tərkinə. Gecə gəlirlər erməni xırmanlarına. Xoca Abdulla yoldaşlarını kənarda qoyub tanınmamaq üçün üz-gözünü bağlayır və sol çənəsinə pambıq qoyur ki, güya dişi ağrıyır. Bir yaxşı yemiş qoltuğuna vurub gəlir xırman qaravulçusunun yanına. Bildirir ki, taxılla dəyişməyə yaxşı yemiş gətirmişəm. Tez yemişi kəsib bir dilim ermənіyə verir. Yemiş ermənіnin xoşuna gəlir. Erməni taxılın yemişə dəyişdirilməsinə razı olur. Xoca Abdulla qaravulçunun tək olub olmamasını bilmək üçün deyir:

-Uşaqlardan birini qoş mənə, yükü aralıda düşürmüşəm, gedək yükləyib gətirək. Qaravulçu bildirir ki, təkdi.

Xoca Abdullaya da bu lazım idi ki, bilsin erməni qaravulçusu təkdir, yoxsa yox. Qaravulçunun təkliyini bilən kimi gündüzdən çəkib külünü yığdığı dəsmalı cibindən çıxarıb açır və hazır vəziyyətdə sol əlində saxlayır. Papirosdan birini yandırıb ağzına qoyarkən qaravulçu yaxınlaşır. – Kirvə papirosundan birini ver mən də yandırım. (S.Eloğlu "Zəngəzur hadisələri")

Xoca Abdulla papirosu ermənіyə verib özü əlində yanan papirosu ona tərəf uzadır. Erməni başını Xoca Abdullaya tərəf əyib papirosu yandırmaq istəyərkən dəsmaldakı külü üfürür ermənіnin gözünə. Erməni gözlərini ovuşdurarkən Xoca Abdulla başqa bir dəsmalı onun ağzına basıb qollarını bağlayıb, torbanı başına keçirib, ayaqlarını çidarlayır. Yoldaşlarına işarə edir ki, gəlin. Yoldaşları gəlib görürlər ki, Xoca Abdulla qaravulçu ermənіnin əl-qolunu bağlayıb yıxıb xırmanın qırağına.

Tez atları yükləyib qaravulçunu da götürüb gəlirlər kəndə. Ermənini qaranlıq zirzəmidə gizlədib biçin qurtarınca burada saxlayırlar. Biçin qurtarandan sonra bir gecə aparıb gözləri bağlı buraxırlar ermənіnin anadan olduğu kəndə. Səhər açılanda qaravulçunun kəndin ortasıyla ayağını sürüyə-sürüyə getdiyini görüb tanıyırlar. Əl-qolunu açıb əhvalatı soruşurlar. Qaravulçu soruşanların hamısına yanıqlı-yanıqlı deyir:

-Gözümə kül üfürdülər.

AŞIQ ABBAS

Cəsur qardaşlar

Zəngəzur məclislərinin hikmətli söz ustadlarından biri də Picənisli Aşıq Abbas olmuşdur. Elin qəm-kədəri, sevinci-fərəhi ilə yaxından bağlı olan, keçirdiyi məclislərdə gəncliyə müsbət təsir edəcək nəğmələri daha çox oxuyan Aşıq Abbas xalq qəhrəmanı Sultanbəyin yaxın məsləhətçisi olmuşdur. XX əsrin əvvəllərində Zəngəzurda daşnak fəlakətinə qarşı mübarizənin fəal iştirakçılarından biri olan Aşıq Abbas öz sazı, sözü ilə vətənpərvərləri düşməni qırmağa ruhlandırmışdır. (S.Eloğlu "Zəngəzur hadisələri") Sultanbəyin, Çal Aslanın, Fərzalı bəyin, Ağaməmmədin mürəkkəb əməliyyatlarında döyüşkən dəstələrin önündə getmişdir. O, elin igid oğlanlarına həsr olunmuş çoxlu şeirlərin müəllifidir.

Çağırın igidləri girsin meydana,
Gavurun başını batırsın qana,
Dağlar arxa dursun böyük Sultana,
Düşmənin başını əzəcəyik biz,
Ulqumun bədəndən üzəcəyik biz.

Həyat və yaradıcılığının tədqiqinə ehtiyac duyulan bu ağsaqqalın maraqlı lətifələri, gözlənilməz atmacaları, bədahətən, yerində deyilmiş və kəsərli cavabları zəngəzurluların yaddaşında yaşamaqdadır.

PLOV QAZANI YOXA ÇIXIR

Bir dəfə Sultan bəylə Aşıq Abbası Şuşaya qonaqlığa dəvət edirlər. Sultan bəy bilir ki, Qarabağ bəyləri nəsə bir iş törədəcəklər. Məclisdə Aşıq Abbas oxuduqca Qarabağ bəyləri müxtəlif atmacalar ataraq Sultan bəylə Aşıq Abbası pərt etmək istəyirlər. (S.Eloğlu "Zəngəzur hadisələri")

Aşıq Abbas oxuyub qurtardıqdan sonra eşiyə çıxır ki, bir qədər havasını dəyişsin. Onlarla gedən nökərə tapşırır ki, aşbazı güdsün, fürsət olanda bişirdiyi plov qazanını götürüb gizlətsin. Nökər aşbazı güdür. Fürsət olan kimi plov qazanını götürüb bağçada gizləyir. Yemək vaxtı qazanı çox axtarırlar. Lakin tapmırlar.

Başlayırlar süfrədəki çörəkləri gileylənə-gileylənə yeməyə, Aşıq Abbas deyir ki, biz bulaq üstə yemək üçün plov bişirtdirib götürmüşük. İstəyirsiniz gətirtdirim yeyin. Acımış bəylər məmnuniyyətlə razı olurlar. Aşıq Abbas nökəri çağırır ki, o plov qazanın gətir bu bəylər yesinlər. Bərk acıyıblar.

Nökər dolu plov qazanını gətirir. Qarabağ bəyləri girişib plovu yeyirlər. Məsələdən duyuq düşən aşbaz gəlib deyir ki, plovu mən bişirmişəm. Bu mənim qazanımdı.

Aşıq Abbas ciddiləşir, bizim qazandı. Qarabağ bəyləri deyirlər. Sultan bəy, biz uduzduq. Plov bizim olsa da sizin plov kimi yedik. Aşıq Abbas Sultan bəyə işarə edir ki, öz evlərində gördün nə elədim? Sultan bəy həmən günü Aşıq Abbasa Şuşa qalasından bir dəstə çox bahalı məclis geyimi alır.

ƏKBƏRLƏ KAZIMIN BARIŞMASI.

Piçənisli Əkbər Sultan bəyin üstünə adam göndərib bildirir ki, Sarıbaba yaylağında, səfalı bir bulağın üstündə alaçıq qurub istirahət edirəm. Əmlik quzularım da çoxdur. Erməni daşnakların yurdumuza basqını yediyimi zəhər edib, yuxum ərşə çəkilib, rahat ola bilmirəm. Hərgah razı olsanız mən də gəlib sizin dəstənizdə düşmənlərə qarşı vuruşaram. Xəbər Sultan bəyə çatan kimi bildirir ki, bizə Əkbər kimi oğullar lazımdı. Deyin gəlsin. Sultan bəy Əkbərin qoçaq, igid, mərd, sərrast güllə atan bir adam olduğunu çoxdan bilirdi. Təsadüfən əlindən xəta çıxmışdı, ona görə də utandığında çox vaxt eldən, obadan aralı yaşayırdı. Yaranmış vəziyyət Əkbərdə vətəni qorumaq üçün daxili vüqar oyatmışdı. (S.Eloğlu "Zəngəzur hadisələri")

Əkbər gəlib Sultan bəyin kəşfiyyatçı Tağımına qoşulur.

Bir gün xəbər gəlir ki, daşnaklar Turşsu yaylağına qoşun cəmləşdirirlər. Sultan bəy ermənilərin strateji əhəmiyyətli bu yerə yığılmalarından narahat olur. Ermənilər vurub oradan qovmaq üçün təcili tədbirlərə əl atır. Oradakı qüvvələri müəyyənləşdirmək üçün iki kəşfiyyatçı göndərilməsini məsləhət görür. Səhər təlimindən sonra Sultan bəy kəşfiyyatçılar qarşısında çıxış edərkən bildirir ki, kim Turşsu yaylağındakı erməni qüvvələrindən mənə dəqiq və tez xəbər gətirsə ona bir beşatılan tüfəng, bir yəhərli at bağışlayacağam. Sıra ilə dayanmış kəşfiyyatçılar içərisindən birinci Əkbər qabağa çıxıb Sultan bəyə deyir ki, mən o mükakfatlar olmasa da getməyə hazıram. İkinci Vağazinli Kazım qabağa çıxır. O da çox karlı adam imiş. Kazımın Əkbərlə kəşfiyyata getməsi bəzilərində narahatçılıq doğurur. Çünki, taqımdakı kəşfiyyatçıların çoxu bilirdi ki, Əkbərlə Kazım bir-birinə düşməndirlər. Yoldaşları qorxurdular ki, onlar gedib bir-birini öldürərlər. Bir azdan

Teymur yüzbaşı Sultan bəyə bildirir ki, Əkbərlə Kazım bir-birinə düşməndi. Gedib birdən xoşagəlməz hərəkətlər edərlər. Sultan bəy Kazımla Əkbəri yanına çağırıb vəziyyəti aydınlaşdırarkən hər iki kəşfiyyatçı yerindən cəld qalxıb Sultan bəyin gözü qarşısında bir-birini qucaqlayıb öpürlər. Sultan bəyə deyirlər ki, indi bizim düşmənimiz ermənilərdi. Arxayın ol. Əkbərlə Kazımı kəşfiyyata yola salırlar. Onlar Turşsu yaylağına çatan kimi Kar qayadan ermənilər gülləyə tuturlar. Ermənilər elə bilirlər Sultan bəyin dəstələri hücuma keçib. Hamısı Turşsu yaylağından özünü Kirs dağının ətəklərinə tərəf tökürlər.

Zəngəzurlular dar gündə vətən naminə Kazımla Əkbərin barışıb döyüşə getmələrini bu gün də hörmətlə danışırlar.

XIV FƏSİL

HAJI QASIM ÇƏLƏBİ

Hörmətli oxucu, belə çətin və məsuliyyətli mövzunu qələmə almaq mənim öz elimə, obama bağlı olmaq istəyindən doğur.

Hajı Qasım Çələbi, Bəhlul Əfəndi, Mir Sədi Ağa kimi işıqlı zəkalarımız daim elimizə-obamıza ağsaqqallıq edib, onlara düz yol göstəriblər.

Şıx Hajı Qasım Çələbi haqda yazıya başlamazdan əvvəl mən istəyirəm öyrənək görək şıx və çələbi sözləri dilimizə hansı mənbələrdən daxil olub və o sözlərin mənası nədir. Bəzi ədəbiyyatçılar bu sözün kürd və ya monqol dilinə aid olduğunu, digərləri isə yunan sözü olduğunu iddia edirlər.

Məşhur səyyah İbn Bətutənin fikrinjə, «çələbi» sözü yunan dilində, fars və ərəb dillərində olan «mövlana», «seyyidi» və «seyidanə» mənasını bildirir.

Böyük Azərbayjan alimi Məhəmmədəli Tərbiyyənin fikrinjə, yunan dilində işlənən «çələbi» sözü çox güman ki, onların dilinə həmişə təmasda olduqları skif türklərindən keçibdir. Alimin fikrinjə, «çələbi» sözü fars dilində «mövlanə» (allahın dostu), ərəb dilində övliyullah (allahın dostu) sözlərinə sinonim kimi işlənmişdir. Bu gün də Orta Asiyadakı bir çox türk tayfaları adlı-sanlı, işıqlı adamlara çələbi deyə mürajiət edirlər.

Azərbayjan türkləri arasında bu söz XII-XIII əsrlərdən başlayaraq geniş yayılmışdır. Məsələn: Mövlanə Ruminin müridi olmuş urməvi türkü Hüsaməddin çələbi bu sözü bir şair kimi özünə təxəllüs qəbul etmişdir.

Deməli, XII-XIII əsrlərdən başlayaraq Azərbaycanda hörmətli, savadlı, işıqlı adamları «çələbi» adlandırmışlar.

İndi də öyrənək görək şıx sözü dilimizə hansı mənbələrdən keçib.

Qədim kitabalərdə «mürşüd» kimi işlənən söz ərəbcə «şeyx», «həzrət», farsca pir, azərbaycanca baba, ağa, şıx sözləri ruhani alimlərə, təriqət başçılarına, bir sözlə, vəzifəli, adlı-sanlı adamlara verilən adlardır. Şıx sözü şeyx sözünün dilimizdə işlənən formasıdır. XII-XIII əsrlərdən başlayaraq, şıxlar Azərbaycan türkləri arasında ən nüfuzlu şəxslər olmaqla yanaşı, ölkənin iqtisadi-siyasi, sosial-mədəni həyatında yaxından iştirak edirdilər. XX əsrin ikinci yarısından başlayaraq, başa bəla ziyalılarımız nədənsə şıx sözünü şeyx kimi deməyə və yazmağa başladılar. Məsələn, şıx Nizami oldu şeyx Nizami.

Şıx Hacı Qasım Çələbi Nəqşbəndi təriqətinə mənsubdur.

İndi öyrənək görək, Nəqşbəndi təriqəti nə deməkdir? Tarixi mənbələrin yazdığına görə, bu təriqətin əsası XIV əsrdə böyük Övlüyya Buxaralı şıx Bəhaəddin Məhəmməd tərəfindən qoyulmuşdur. Bəzi din tarixçiləri isə bu təriqətin tarixini daha da irəli atırlar. Onlar iddia edirlər ki, bu təriqət Təbrizdən Buxaraya keçmişdir. Anjaq öz yüksək təşəkkülünü şıx Bəhaəddinin başçılığı zamanı tapmışdır. Din alimlərinin dediyinə görə Şıx Bəhaəddinin özü danışırmış ki, «Atam, anam və mən naxışlı taxta toxuduğumuz üçün bizə «Nəqşbənd» adı verilmişdir». Digər din tarixçiləri isə iddia edirlər ki, bu ad Buxara şəhəri yaxınlığında yerləşən Nəqşbənd kəndinin adından götürülmüşdür. Şıx Bəhaəddin həmin kənddən olduğu üçün təriqət «Nəqşbəndi» adlanmışdır.

Bu təriqət ilk dövrlərdə müsəlmanlara tərkidünyalığı və ilahi məhəbbət ideyalarını təbliğ etmişdir. O, yoxsulluğun əlehinə olmuş və onu aradan götürmək istəmişdir. Nəqşbəndi təriqəti Qafqaza rus işğalı zamanı gəlmişdir. Əsas məqsədi Qafqazda yaşayan müsəlmanları islam bayrağı altında birləşdirmək və ölkəni işğalçılardan təmizləmək olmuşdur. XIX əsrin əvvəllərində Nəqşbəndi təriqətini Qafqaza gətirən ilk şəxs Şıx Əfəndi (Seyid-Nigari) olmuşdur. Bu təriqətin davamçısı şıx əfəndidən sonra böyük Şıx Hacı Alı Çələbi olmuşdur. Böyük Şıx Hacı Alı Çələbi sünnü-şiyəliyi aradan

götürmək istəmişdir. O, oğlu Qasımı sevib oxşayarkən həmişə deyərmiş mənim həyata keçirə bilmədiyim işləri bu balam həyata keçirəjəklir.

Şıx Hajı Qasım Çələbi 1858-ji ildə anadan olub. O, XX əsrin əvvəllərində Nəqşbəndi təriqətini ən yüksək zirvəyə qaldırıb. Şıx Hajı Qasım Çələbi, ilk növbədə, «Qurani-Kərim»in jamaat arasında yayılmasına və öyrənilməsinə diqqət vermişdir. Nətijədə Allah kəlamı olan «Qurani-Kərim» xalq arasında şifahi xalq injiləri kimi dillər əzbəri olmuşdur.

Ərəb dilini və ərəb əlifbasını bilməyən insanlar şıx Hajı Qasım Çələbinin gərgin əməyi və səyi nətijəsində «Qurani-Kərim»i səhvsiz, nöqsansız əzbərləmişlər.

Şıx Hajı Qasım Çələbi sünnü-şiəliyi aradan götürmək istəyirdi. O, mollalara, axundlara tövsiyə edirdi ki, bütün məjlislərdə «müaviyəyə lənət» oxunsun. «Müaviyəyə lənət» oxumayan mollaların, axundların özlərinə lənət oxuyurdu. Parçalanmağı və təəssübkeşliyi rədd edın «Qurani-Kərim»də sünnü-şiəliyə yer yoxdur. Bunu doğuran səbəbə lənət var.

Hajı Qasım Çələbinin təlimi bu gün daha böyük əhəmiyyət kəsb edir.

Bu gün bu təlimin öyrənilməsi həm sünnü-şiəliyi aradan qaldırar, həm də vahabizmi inkar edər. Hajı Qasım Çələbinin təliminin öyrənilməsi Azərbayjan jəmiyyətini şovinist və dağıdıjı islam təriqətlərindən, xristianlığı təbliğ edən jəmiyyətlərdən qorumaq deməkdir.

Azərbayjanda Sovet hakimiyyəti qurulandan sonra Hajı Qasım Çələbi, onun oğlu Alı Çələbi, kürəkəni ömrü boyu bir əlində «Quran», bir əlində azadlıq yolunda qılınj tutan, həmişə ermənilərə qarşı amansız olan Bəhlul Əfəndi təqib olunurdu. Nəhayət, 1924-jü ildə Bəhlul Bəhjəti həbs edib, ona on il iş verdilər.

Şıx Hajı Qasım Çələbinin və oğlu Alı Çələbinin təqibi isə davam edirdi. Bütün bu yersiz təqiblərə və işgənjələrə dözməyən şıx Hajı Qasım Çələbi 1928-ji ildə dünyasını dəyişdi. Allah rəhmət eləsin. Alı Çələbi Şıx Hajı Qasım Çələbi oğlu uzun sürən təqiblərdən sonra 1937-ji il 8 avqustda həbsə alınmış, əks-inqilabi mürid qrupunun rəhbəri kimi beşi sentyabr 1937-ji ildə güllələnmişdir. Ölüm yeri də bilinmir.

Şıx Hajı Qasım Çələbinin sevimli kürəkəni Bəhlul Bəhjət 1934-jü ildə həbsdən buraxılıb, ona «Azərnəşr»də iş verilmiş, indiki H.Hajıyev küçəsində üç otaqlı mənzil də ayrılmışdır. Lakin onun təqibi ermənilər tərəfindən davam etmiş və Mirjəfər Bağırova yalan məlumatlar verilmişdir. Odur ki, 1937-ji ilin avqustunda Bəhlul Əfəndini iş yerində həbs etdilər. O 1938-ji il martın 15-də NKVD üçlüyünün qərarı ilə güllələnmişdir. 1958-ji il noyabrın 5-də işində «jinayət aktı» olmadığı üçün ölümündən sonra tam bəraət almışdır.

Şıx Hajı Qasım Çələbi atası Şıx Alı Çələbinin ölümündən sonra təriqət davamçısı və rəhbəri kimi bu yolda çox böyük işlər görmüşdür. Hajı Qasım Çələbi deyirdi: «Müsəlmanın nə sünnüsü nə şiəsi». O, bu yolda daha jiddi addımlar atmağa başladı. Hajı Qasım Çələbi Qubadlının Həmzəli kəndindən olan savadlı, adlı-sanlı bir adamla - şiəməzhəb Hajı Həsən Hajı Mehdi oğlu ilə bir yerdə həjjə gedibmiş. O Kəbənin qapısından keçərkən Hajı Həsəndən soruşur: «Hajı Həsən, kəbənin neçə qapısı var»? Hajı Həsən javab verir ki, «əlbəttə bir». Hajı Qasım Çələbi deyir: Onda biz nə üçün sünnü-şiəyə bölünməliyik? İslamda təfriqə salmaq, ziddiyyət yaratmaq, məzhəb ayrıseçkiliyi yaratmaq, vallah, ağılsızlıqdır. Hajı Həsən javab verir: Ya Şıx Hajı Qasım Çələbi, sənə iman gətirməyənə lənət. Bununla da Hajı Həsən Hajı Mehdi oğlu sünnü-şiəliyi inkar edir və Hajı Qasım Çələbiyə qoşulur. Şıx Hajı Qasım Çələbinin və onun müridlərinin «müaviyəyə lənət» şüarı altında sünnü-şiəliyə qarşı apardığı təbliğat kompaniyası sonda öz nətijəsini verdi. Hajı Qasım Çələbi və onun müridlərinin əhatə dairəsində yerləşən Qubadlı, Jəbrayıl, Zəngilan və Laçın rayonlarında, demək olar ki, məzhəb ayrıseçkiliyi aradan götürülmüş, sünnülər də, şiələr də bir bayraq altında birləşmişlər.

Şıx Hajı Qasım Çələbinin ölümündən sonra onun övladları, müridləri, tərəfdarları və ardıjılları DTK zirzəmisinə atılmış, sorğu-sualsız güllələnmişlər. Kəndin əhalisinin çoxu Sibirin, tundranın jəhənnəmi xatırladan çöllərinə sürgün edilmişdir. 1960-jı ilə qədər Çələbilər kəndində yaşayış olmamışdır. Qonşu ölkələrə getmək istəməyən və gedə bilməyənlər DTK-dan jan qurtara bilməmiş və qırmızı terrorun günahsız qurbanları olmuşlar. Hətta Şıx Hajı Qasım Çələbi kimilərin irsinin öyrənilməsi də istilaçı dövlət tərəfindən yasaq edilmişdir.

İndiki müstəqillik dövründə Hajı Qasım Çələbinin və onun ardıjıllarının irsini öyrənmək sünnü-şiəliyi yaşadanlara layiqli javab olardı. Sözdən işə keçməyin vaxtıdır. Bu, İslam birliyini pozanlara klassik rus siyasətçilərinə, daşnaqsütun partiyasının ifşa edilməsinə, şiəliyə millətçilik kimi baxan şovinizmin layiqli javabı olardı.

POLKOVNİK NÜSRƏT NAMAZOV

Qubadlı tarixən qəhrəmanlar diyarı olmuşdur. Qubadlı torpağı Q.Nəbi, Q.Həjər kimi xalq qəhrəmanları yetişdirmişdir. Qubadlılar tarixin bütün sınaqlarından alnıaçıq, üzüağ çıxmışlar. Onlar həmişə vətənə sadiq olmuşlar. Qaçaq Nəbinin kiçik dəstəsi vaxtilə Çar Rusiyası və İran hökuməti kimi iki böyük dövlətə qarşı vuruşmuşlar. Bu iki dövlət Qaçaq Nəbinin kiçik dəstəsinin öhdəsindən gələ bilmirdi.

Ermənilər 1988-ji il fevral ayının 27-28-də Sumqayıt faji əsini özləri qəsdən törətdilər. Eyni zamanda dünyaya bəyan etdilər ki, Azəri türkləri ermənilərə qarşı soyqırımı edir. Bu hadisədən istifadə edərək əvvəljə Ermənistanda yaşayan iki yüz mindən artıq azərbayjanlıları soyqırıma məruz qoyaraq, vəhşijəsinə Ermənistandan qovdular. Ermənilərə havadarlıq edən Qarbaçov hökuməti 1988-ji ilin birinji yarısında Azərbayjandan ov tüfənglərinin yığılması haqqında qərar qəbul etdi. Ermənistanda isə nəinki ov tüfəngləri, heç ağır silahlar da yığılmadı. Sərhəd kəndlərimizə hüjum başlandı. Ermənilər Qubadlıya iki tərəfdən Ermənistan və Dağlıq Qarabağ tərəfdən hüjum edirdilər. Qubadlının qəhrəman oğulları ayağa qalxdı. Onlar bilirdilər ki, Moskvanın sözü ilə oturub-duran respublika rəhbərliyindən kömək olmayajaq. Rayon ağsaqqalları yığılıb məsləhətləşdilər. Gənjlərdən Əlyar Əliyev, Balakişi Hüseynov, Ələkbər Əliyev, Şahbaz Quliyev və başqaları özünümüdafiə dəstələri yaradılması təklifini verdilər. Onların təklifi ağsaqqallar tərəfindən bəyənildi. Beləliklə, bütün sərhəd boyu özünümüdafiə dəstələri yaradıldı.

Xalqımızın igid oğlu, tanınmış güləşçi Əlyar Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ərazi özünümüdafiə taboru yaradıldı. Əlyar Əliyev Dağbəyi Məhyəddinovu tobora komandir məsləhət bildi. Özü isə komandir müavini, həm də kəşfiyyat dəstəsinin komandiri oldu.

Milli ordu formalaşmağa başlayanda Dağbəyi Məhyəddinov başqa işə keçirildi. Onun yerinə isə Əlyar Əliyev təyin olundu. Qubadlı möhkəm müdafiə olunurdu. Təjrübəli hərbiçi polkovnik Nüsrət Namazovun Qubadlıya briqada komandiri təyin olunması isə bu müdafiəni daha da möhkəmlətdi. Əslən Qubadlı olan, uşaqlığı ana vətəni Seytas kəndində keçən polkovnik Nüsrət Namazov ərazinin hər qarışına bələd idi.

Onun Qubadlıya gəlişi ilə jəbhədə yaxşılığa doğru böyük dönüş yarandı. Briqada komandiri polkovnik Nüsrət Namazovun göstərişi ilə əlverişli mövqelərdə hava hüjumundan müdafiə istehkamları yaradıldı. Bütün postlar müasir səviyyədə quruldu. Nizam-intizam möhkəmləndirildi. Kadrlar düzgün seçilib yerləşdirildi. Bütün bunlardan xəbərsiz olan düşmən, həmişə olduğu kimi, yenə də rayon mərkəzini və sərhəd kəndlərini raket və artilleriya atəşinə tutdu. Polkovnik Nüsrət Namazovun əmri ilə Ermənistanın Gorus və Qafan şəhərləri raket və «qrad» atəşinə tutuldu. Zərbələr dəqiq olduğu üçün hər iki şəhərdə çoxlu sayda dağıntı və insan tələfatı oldu. Ermənilər matəm elan etdilər. Həm də Qubadlı rəhbərliyi ilə danışıqlar aparıb, atəşin dayandırılmasını xahiş etdilər. Yerevan radiosunun Azərbayjan dilində olan verilişlərində deyilirdi: «Təkjə Qubadlı Azərbayjanın Ermənistana vurduğu ziyandan çox ziyan vurub». Qubadlının alınmaz qala olduğunu görən ermənilər hiyləyə əl atdılar. Dedilər ki, bizim sizinlə işimiz yoxdur, sizin də bizimlə işiniz olmasın. Biz qarışmırıq, Qarabağ ermənilər özləri bilər.

Nəhayət, təxribat nətijəsində Şuşa və Laçın əldən getdi. Əfsanəvi qəhrəman Əlyar Əliyev Müdafiə Nazirliyinə və Respublika rəhbərliyinə bildirdi ki, əgər biz Laçını qaytara bilməsək, qələbədən söhbət gedə bilməz.

Respublikanın taleyi Laçından asılıdır. 1992-ji ilin payızında briqada komandiri polkovnik Nüsrət Namazovun göstərişi və bilavasitə rəhbərliyi ilə Əlyar Əliyevin başçılıq etdiyi taborun igid döyüşçüləri Laçın şəhərinin azad olunması uğrunda yürüşə başladılar. Qısa müddət ərzində otuzdan artıq erməni postu dağıdıldı. Üç gün ərzində on dörd yaşayış məntəqəsi azad olundu.

Düşmən tələfat verərək geri çəkildi. Laçının 4 km-də döyüş gedirdi. Gorus-Laçın yolu bağlanmışdı. Bu yolun kəsilməsi ermənilər üçün ağır idi.

Çünki onlar hava yolu ilə ağır hərbi texnikanı apara bilmirdilər. Yenə də xəyanət öz işini gördü. Qələbə astanasında Əlyar Əliyev gözlənilmədən vuruldu. Sərkərdənin ölümü döyüşçülərdə ruh düşkünlüyü yaratdı, bundan istifadə edən Əlikram Hümbətovun komandiri olduğu tankçılar taboru Əlyar Əliyevin taboruna kömək etməyib geri çəkildi. O hətta general Nurəddin Sadıxovun əmrinə də məhəl qoymadı. General Əlikramın hərəkəti barədə müdafiə naziri Rəhim Qazıyevə məlumat verdi. Nazirin javabı isə belə oldu: «Əlikramla işiniz olmasın». Xəyanət nəticəsində hücumu davam etdirə bilməyən igid döyüşçülər geri çəkilib, Muradxanlı və Güləbird kəndlərində mövqelərini möhkəmlətdilər.

Laçının işğalından sonra Qubadlıya çoxlu yük maşınları göndərib, əhalinin çıxmasını tələb etmişlər. Müdafiə nazirinin müavini Şahin Musayev qubadlılara müraciət edərək, təcili rayondan çıxmalarını tələb etmişdir; səbəbi isə bu olmuşdur ki, respublikaya «Zemlya-zemlya» raketləri gətirilib. Şuşa şəhəri raket atəşinə tutulacaq. O, raketlərdən səhvən Qubadlıya da düşə bilər, ona görə də əhali rayondan çıxmalıdır. Təcrübəli hərbiçi polkovnik Nüsrət Namazov dedi ki, yaxşı olar ki, o raketlər Qubadlı yüksəkliklərində qurula. Atəş zamanı əgər səhvə yol verilərsə o raketlər Şuşadan keçib Xankəndinə düşsün.

Kələyinin baş tutmadığını görən Şahin Musayev hədə-qorxuya keçdi və dedi: «Laçınlılar da sizin kimi deyirdi, axırı nə oldu». Ş.Musayevin sözlərində xəyanət olduğunu başa düşən qubadlılar onu həbs etdilər. Bu hadisəni eşidən Rəhim Qazıyev çox qəzəbləndi. O, üç qırıcı vertalyotun müşaiyəti ilə Qubadlıya gəldi. Camaatı qorxutmaq üçün şəhərin üzərində bir neçə dəfə dövrə vurub yerə endi. R.Qazıyev əvvəlcə qubadlılara hərbə-zorba gəldi, bunun xeyiri olmadığını gördükdə isə hiyləyə əl atdı. Dedi: «Xəyanətkarı aşkar etdiyiniz üçün sizə öz adımdan və hökumət adından təşəkkür edirəm. Mən özüm onun cəzasını verəcəm. Beləliklə, nazir Ş.Musayevi apardı. Sonra onun Moskvaya qaçmasına şərait yaratdı.

Bu hadisədən sonra R.Qazıyev qubadlıları cəzalandırmaq qərarına gəldi. O, briqada komandiri N.Namazovu müşavirə adı ilə Yevlağa çağırdı, onu vəzifəsindən götürüb, həbs olunması üçün göstəriş vermişdir. Səbəbi də bu

olmuşdur ki, Ermənistanın Gorus və Qafan şəhərlərində çoxlu dağıntıya və tələfata səbəb olub. Polkovnik N.Namazovu həbs etməklə ürəyi soyumayan müdafiə naziri onu erməni ilə bir kameraya saldırdı.

Bundan sonra R.Qazıyevin göstərişi ilə yerli kadrlardan ibarət olan tabor və tağımlar başqa bölgələrə göndərildi, onların yerinə isə bu əraziyə bələd olmayan başqa bölgələrin tabor və tağımları gətirildi.

Əfsanəvi qəhrəman böyük sərkərdə Əlyar Əliyevin vurulması, təjrübəli komandir polkovnik N.Namazovun işdən uzaqlaşdırılması rayonda vəziyyəti pisləşdirmiş və şaşqınlıq yaratmışdır.

Rayon ijtimaiyyətinin təkidi və tələbi ilə 1993-jü il avqust ayının 22-də polkovnik N.Namazov yenidən Qubadlıya briqada komandiri təyin edildi. Lakin o, üç böyük çətinlik qarşısında qaldı. Birinji, onu öz vəzifəsinə iş-işdən keçəndən sonra qaytarmışlar. İkinji, əraziyə bələd olan tabor və tağımlar çıxarılmışdır. Onların yerinə Əlikram Hümbətovun komandir olduğu tankçılar taboru kimi təxribatçı ordu göndərilmişdir. Üçünjü, ən böyük maneə isə polkovnik N.Namazovun Qubadlıya briqada komandiri göndərilməsini eşidən baş nazir Surət Hüseynov qəzəblənmiş və onun səlahiyyətlərini azaltmışdır. Pis vəziyyətdə qalan komandir tez-tez Bakıya teleqram vurub kömək istəyirdi. Baş nazir Surət Hüseynovun göstərişi ilə Horadizdən kömək gələjək deyə onu aldadırdılar. 1993-jü il 23 avqustda Qafan, Gorus, Laçın, Hadrut və Jəbrayıl istiqamətlərində Qubadlıya hüjum oldu. Hüjumun qarşısı alındı. Avqustun 28-də Gorus istiqamətdə yenə də Qubadlıya hüjum olundu. Düşmən sayja çox olsa da, məğlub oldu.

1993-jü il avqustun 30-na keçən gejə əvvəljə təxribatçı qüvvələr, sonra isə N.Namazova tabe olmayan qoşun hissələri rayonu tərk etdilər. Çaş-baş qalmış bəzi döyüşçülər isə ürəkdən vuruşmadılar. Əhalini köməksiz qoyub rayondan çıxdılar. Qoşun çıxandan sonra üç tərəfdən mühasirədə qalan Qubadlılar mərdliklə müqavimət göstərə-göstərə rayonu tərk etmək məjburiyyətində qaldılar. Bax belə. Qubadlı təxribatın qurbanı oldu.

MİR SƏDİ AĞA

Dünyanı anjaq namusla idarə etmək olar.
Dövlət və bayraq anjaq namusla ujalar.

Nizami

Mir Sədi Ağa haqqında çox yazılıb. Rayonumuzun ən güjlü yazarlarından və ziyalılarından biri olan şair, nasir və ürnalist Tarıyel Gahangirin Mir Sədi Ağa haqqında yazdığı kitabı isə mən çox yüksək qiymətləndirir və onu ən güjlü mənbə hesab edirəm.

Çünki Tarıyel müəllim o ailənin yaxın dostu olmuş, Mir Sədi Ağanın sevimli oğlu Mir Məhəmməd Ağa ilə uzun müddət yoldaşlıq və dostluq etmişdir. Tarıyel müəllimin ana babası tanınmış din xadimi Dünyamalı kişi və onun ömür-gün yoldaşı Səlbinaz nənəsi Nəqşibəndi təriqətinin iki böyük mürşidi Hajı Qasım Çələbinin və Mir Sədi Ağanın müridləri olmuşlar.

Mir Sədi Ağa Əlini Mola Dünyamalının kürəyinə vurub deyərmiş ki, sağ ol Dünyamalı, dinimizi bütün injəliklərinə qədər bilir və düzgün təbliğ edirsən. Sən olmasaydın, mən heç bir mollanı tanımazdım.

Bütün bunlardan başqa, Tarıyel müəllim 1999-ju ilin soyuq qış günlərindən başlayaraq, keçmiş DTK-nin müstəqil respublikamızın MTN-ə miras qalmış arxivini araşdırmağa başlayaraq, Mir Sədi Ağanın həbsləri haqqnda olan sənədləri üzə çıxarmış və onlara aydınlıq gətirmişdir. O, arxivlərdə uzun müddət işləmiş və çox əzab-əziyyət çəkmişdir. Mir Sədi Ağanın özü də Tarıyel müəllimin xətrini çox istəmiş, onu öz sevimli oğlu Mir Məhəmməddən seçmirmiş. Tarıyel müəllim bütün bunlarla kifayətlənməmiş, Mir Sədi Ağanın təmasda olduğu adamlarla görüşmüş və onların xatirələrini qələmə almışdır.

Mən mübağiləsiz deyərəm ki, o, şeyxin həyat və fəaliyyətini yüz faiz işıqlandırmışdır. Bütün bunları sadalamaqda məqsədim odur ki, heç kəs Mir Sədi Ağanın və Mir Məhəmməd Ağanın həyat və fəaliyyətini Tarıyel müəllim qədər düzgün və dolğun əhatə edə bilməz.

Anjaq mən yazdığım xatirə kitabında Hajı Qasım Çələbiyə və Bəhlul Əfəndiyə bölmə ayırıb, Mir Sədi Ağanın və Mir Məhəmməd Ağanın adını çəkməyə bilmirəm. (Ə.Bəşiroğlu "İşıqlı şəxsiyyətlər unudulmur") Əldə etdiyim materiallara əsaslanaraq deyə bilərəm ki, Mir Sədi Mir Ziyəddin oğlu 1898-ji ildə keçmiş Zəngəzur qəzasının Qubadlı rayonunun Mirlər kəndində anadan olmuşdur. Çox təəssüflər olsun ki, həmin il qırmızı imperiyanın yaradıjısı

olan Kommunist partiyasıda meydana gəldi. Balaja Mir Sədi sürətlə böyüyür, əqli və kamalı ilə ətrafa nur saçırdı. O, ilk təhsilini atasından və ustadı şıx Hajı Qasım Çələbidən almışdır.

Şıx Mir Sədi Ağa 1906-jı ildə Ağdaş rayonunun Zeynəddin mədrəsəsinə qəbul olmuş və 1916-jı ildə onillik ruhani təhsilini başa vurmuşdur. Bu mədrəsə ölkədə tanınmış elm ojağı idi. Çünki oranın zəngin tədris bazası, adlı-sanlı ilahiyyat alimləri, savadlı müəllimləri var idi. Mir Sədi Ağa mədrəsəni bitirəndə onun rəhbərliyi və müəllim heyəti Ziyəddin Ağaya razılıq etmiş və oğlunun parlaq gələjəyi olduğunu söyləmişlər.

Nəqşibəndi təriqətinin mürşidi Hajı Qasım Çələbi də öz sevimli və istedadlı müridini yüksək qiymətləndirərək demişdir: «Mir Sədi Ağa İslam səmasında parlaq bir ulduza çevriləjək, böyük şeyx olajaq. Heyif ki, pis dövrə düşəjək». Ustadı və müəllimləri nejə demişdi, eləjə də oldu. Sovet hökuməti din xadimlərindən və açıq fikirli ziyalılardan çox qorxurdu. İslam dini ilə bağlı ziyarətgahlar nəzarət altına alınır, məsjidlər bağlanır, onlardan anjaq anbar kimi istifadə olunurdu. Qırmızı imperiya bilirdi ki, Mir Sədi Ağa bu quruluşu istəmir və ona nifrət edir. Ona görə də onu həmişə nəzarətdə saxlayır, bir addım da olsun gözdən qoymurdu. Xalqın qəzəbini qazanmamaq üçün din məsələsini bir kənara qoyur, «xalq düşməni» və «antisovet» sözlərini işlədirdilər. Bu sözlərlə onlar şeyxi gözdən salmaq istəyirdilər. Din, xüsusilə İslam dini təhlukəli hesab olunurdu. Təsadüfi deyil ki, din və din xadimlərinə qarşı hüjumlar 1937-ji il represiyasından çox-çox əvvəl başlanmışdır.

Azərbayjanda ən dəhşətli həbs 1929-ju ildə başlandı. Bu, kolxoz quruluşunun yaranması ilə bağlı idi. Onlar din xadimlərinin kolxoz quruluşuna mane olajağını əvvəljədən görürdülər. Belə təbliğat aparılırdı ki, Sovet hökuməti xalqın və fəhlə kəndlinin hökumətidir. Xalq öz hökumətini sevməli, onun qurulmasına mane olanları aradan götürməlidir. Guya o quruluş xalqı azadlığa çıxarajaq və kommunizmə aparajaqdır.

Mir Sədi Ağa böyüyüb yaşa dolduqja onun ad-sanı, şan-şöhrəti ölkə hüdudlarından kənara çıxırdı. Bu, qırmızı imperiyanı qorxudur və narahat edirdi. Azərbayjanda vəziyyət daha qorxulu idi. Günahsız adamlar

«troyka»nın qərarı ilə tutulur, bəzilərinə ailə üzvlərinin və jamaatın gözü qarşısında xalq düşməni adı verilərək güllələnirdi.

Həbs olunanların bir çoxunu (iqlim dəyişikliyinə məruz qoymaq üçün) Sibirə və Rusiyanın soyuq yerlərinə sürgün edirdilər. Mir Sədi Ağa altmış üç illik ömrü ərzində üç dəfə həbs olunmuş və üst-üstdə on yeddi il iş almışdır.

Onun birinji həbsi 1930-ju ildə oldu. Hara aparıldığı da bilinmədi. Sən demə onu isti Azərbayjandan 40-50^0 şaxta olan Murmansk şəhərinə sürgün ediblərmiş. Orda Mir Sədi Ağanı beş il dəmir yolunda fəhlə işlətmişlər. Buz bağlamış relslər arasında aj-susuz işləyib ölməyən insanı anjaq Allah eşqi saxlaya bilərdi.

Həmin vaxtlar Tarıyel müəllimin ana babası, savadlı molla olan Dünyamalı Gülmalı oğlu da həbs olunmuşdur. O, həbsdən sonra çox yaşamadı, dünyasını dəyişdi. Mir Sədi Ağa həbsdən qayıdandan sonra Dünyamalı kişinin ölümünə heyfsilənmiş və demişdir: - İmamzadəni ziyarət edəndə Dünyamalını da ziyarət edin.

Beşillik həbsdən sonra şeyx vətənə qayıtdı. Mir Sədi Ağanın xalq arasında böyük nüfuza malik olduğunu görən qırmızı imperiya təşvişə düşür və onu bir an da gözdən qoymurdu. Şeyx özü də bilirdi ki, Sovet hökuməti beşillik həbslə kifayətlənib ondan əl çəkməyəjək.

Ona görə də o, ehtiyatla hərəkət edir, hər addımını ölçüb-biçirdi. Buna baxmayaraq, 1943-jü il aprelin 9-da o, ikinji dəfə həbs olundu. Onun həbs olunması üçün qərara imza atanlar DTK adından Yemelyanov və adından R.Markaryan olmuşdur. Mir Sədi Ağa Ermənistan SSRİ xüsusi xidmət orqanlarının «faktları»na əsasən həbs olunmuşdur. Şeyx həbs olunajağını əvvəljədən bilirdi. Ona görə də şam süfrəsinin tez açılmasını tapşırmışdı. Yeməkdən sonra səbəbini soruşanlara dedi:

- Qoxmayın, bir ildən sonra qayıdajağam. Allaha təvəkkül, o məni qoruyar. O, ailə üzvləri ilə görüşüb qurtaran kimi qapı döyüldü. Qapını özü açdı, onu maşına oturtdular. Anjaq maşın hərəkətə gəlmədi.

Ürəyində az- çox Allah xofu olanlardan biri yalvardı: - Seyid sizi apara bilməsək, bizim evimizi yıxajaqlar. Mir Sədi Ağa üzünü sürüjüyə tutub dedi: - Sür, maşınında nasazlıq yoxdur. Maşın işə düşdü. Bu dəfə onu İrəvana

apardılar. Ermənistan DTK-nın türməsində saxladılar və işi erməni müstəntiqləri aparırdı. Guya hadisələr Ermənistan ərazisində jərəyan edib. Ermənistanın Qafan rayonu ərazisində yerləşən Azərbayjan kəndlərində yaradılan antisovet təşiklatına rəhbərlik etməkdə onu günahlandırırdılar.

1944-jü ilin mayında Mir Sədi Ağa həbsdən buraxıldı. Nəinki Qubadlı, ətraf rayonlardan da Ağanı ziyarət etməyə gəlirdilər. Bu, əlbəttə, qırmızı imperiyanı narahat etməyə bilməzdi.

Mir Sədi Ağa haqq yolunda idi, onu heç bir qüvvə bu yoldan döndərə bilməzdi. Haqq yolundan çıxmayan, mənəviyyatı, insanlığı uja tutan insanlar və bu insanların yaşadığı dövlət uzunömürlü olurlar. Osmanlı imperatorluğu buna ən yaxşı misaldır. Mir Sədi Ağanı yenə də gözdən qoymurdular. O, özü də ehtiyatlı hərəkət edir, onu ziyarətə gələnlər də jamaat yatandan, işıqlar sönəndən sonra gəlirdilər. Buna baxmayaraq, DTK bunu bilir və öz ağalarına xəbər verirdilər. İrəvan həbsindən buraxılandan sonra Mir Sədi Ağa ailə həyatı qurmuşdu. 18 fevral 1946-jı ildə Mir Məhəmməd Ağa dünyaya gəldi. Şeyxin həbsdən buraxılmasına, müharibənin qurtarmasına, Mir Məhəmməd Ağanın dünyaya göz açmasına xalq çox sevinirdi. Üç qat bayram idi. Təəssüflər olsun ki, bu sevinj uzun sürmədi. 1948-ji il aprel ayının 8-də Mir Sədi Ağa yenidən həbs olundu. Həmin ayın 22-də onu rus dilində yazılmış qərarla Azərbayjan DTK Nazirliyinin müstəntiqi tanış etdi. Guya o, Sovet hökumətinin və kolxoz quruluşunun əleyhinə olmuş, bu barədə kolxozçular arasında antisovet təbliğatı aparmış, məktəblilər və əhali arasında dini təbliğ etmişdir.

Tarıyel müəllim qeyd edir ki, mən üçünjü həbsin istintaq materiallarını araşdırarkən, Mir Sədi Ağanın yalandan üzünə durmuş, ona böhtan atmış şəxslərin iç üzünü açmaq və onları el içində rüsvay etmək fikrinə düşmüşdüm.

Lakin Mir Sədi Ağa ojağının layiqli davamçısı, babasının adını daşıyan Mir Məhəmməd Ağanın oğlu gənj Mir Sədi Ağa verdiyi məsləhət məni bu fikirdən daşındırdı. O, mənə dedi: - Əmi, babamın işi ilə əlaqədar arxivlərdə axtarış aparırsan, xahiş edirəm, babamın işini aparan müstəntiqlərin və şahidlərin adlarını çəkməyəsən. Heç babamın özü də bu barədə heç kəsə, hətta ailə üzvlərinə də bir söz deməyib. O vaxt ən çox günahkar quruluş olub.

Şeyx üçünjü dəfə on il müddətinə azadlıqdan məhrum olundu. O, 1958-jı ildə həbsdən azad olub, doğma evinə qayıtdı. Qırx ildən sonra ona bəraət verdilər. Amma nə faydası. Bütün bu əzab-əziyyətlər, təqiblər, işgənjələr, əlbəttə, onun səhhətinə mənfi təsir etməyə bilməzdi. Odur ki, Mir Sədi Ağa 1961-jı il fevralın 4-də dünyasını dəyişdi. Jəmi altmış üç il yaşadı. O bütün insalığa örnək olan bir ömür yolu keçdi. Allah Mir Sədi Ağanı hər jəhətdən gözəl yaratmışdır. Onun ümumi görkəmi də, xasiyyəti də gözəl idi. Mir Sədi Ağanın dörd övladı olmuşdu: Gözəl, Ətifə, Məleykə və Mir Məhəmməd Ağa. Allah hamısına rəhmət eləsin, qəbrləri nurla dolsun.

MİR SƏDİ AĞANIN MÖJÜZƏLƏRİ

Yaşlı kişinin dedikləri

Tarıyel müəllim söhbət edir ki, institutu qurtarandan sonra, dağ kənldlərinin birində müəllim işləyirdim. Bir yaşlı kişi hərdənbir axşamlar mənzilimə gəlib, mənimlə söhbət edirdi. (O mənə kəndini və adını deməməyi xahiş edib). Bir axşam söhbətini bütövlükdə Mir Sədi Ağa ojağına həsr elədi. O dedi: - Tarıyel müəllim, mən bilirəm ki, sizin ailə Mir Sədi Ağa ojağına çox bağlıdır. Ona görə də bu sirri birinjı dəfə sizə açıram. Müharibə təzə qurtarmışdıı. Bir gün işdən ötrü rayon mərkəzinə getmişdim. Hava çox isti idi. Qərara aldım ki, gündüzü çay qırağında keçirim, axşamüstü kəndə qayıdım. Bərgüşad çayının sahilində bir kölgəlik tapıb oturdum. Özüm də tək idim. Axşamüstü gördüm ki, çay yuxarı bir dana gəlir. Onu da deyim ki, ajlıq illəri idi. Tamah mənə güj gəldi, şeytan məni yoldan çıxartdı. Gözlədim təmiz qaranlıq düşəndən sonra danaya yaxınlaşdım. Onun başındakı çatının ujundan tutub qabağıma qatdım. Mən evə çatanda gejəyarı idi. Qorxudan tez dananı kəsib soydum. Ətindən 5-6 kq doğrayıb bir qazana tökdüm. Arvada dedim: «Qaynat, qoy uşaqlar yesin».

Qalan ətdən xarab olmasın deyə yaxın qohumlara da payladım. Sonra arvada dedim ki, ət xeyli vaxtdı qaynayır, tök teşdə uşaqları da durquz qoy yesinlər. Birdən gördüm arvadın sifəti ağappaq ağarıb. O, mənə dedi:

- A kişi, sən qazana ət tökməmişdin?

Dedim:

- Nejə tökməmişdim, 5-6 kq olardı ki, tökmüşdüm.

Arvad dedi:

- Qazanda ət yoxdur, bütöv qan laxtalarıdır.

Mən qazanı teştdə tökdüm, gördüm ki, ət yoxdur, hamısı qan laxtasıdır. Mən məətəl qaldım

Dedim:

- Yaxşı, bəs sümükləri nejə oldu?

Ət payladığım qohumlarımın evinə getdim, gördüm bizim başımıza gələnlər onların da başına gəlib. Ətin hamısını qaynatdıq. Hamısı da qan oldu. Səhərə yaxın mən elə paltarlı uzanıb yuxuya getdim. Yuxuda gördüm ki, bir yaraşıqlı, nurani kişi mənə baxıb gülümsəyir. Dedi: - Məni tanımadın? Mən Mir Sədi Ağayam, seyidəm, heç mənim haqqımda eşitməmisən?

Dedim: - Çox eşitmişəm, anjaq sizi birinji dəfədir görürəm. O, mənə dedi ki, şeytan səni aldadıb, sən oğurluq etmisən. Oğurladığın bizim danadır. Ətini yeyə bildinizmi? Bu dəfə keçirəm. Bir də belə iş tutma. Yuxudan ayılıb, əhvalatı yoldaşıma və qohum-əqrəbaya danışdım. Mənə məsləhət gördülər ki, elə bu saat Mir Sədi Ağanın yanına gedim. Mən inəyimizin başına həmin dananın çatısını salıb, körpə balası ilə birlikdə Mir Sədi Ağagilə getdim. Ağa məni gülər üzlə qarşıladı. O, həmin yuxuda gördyüm nurani kişi idi.

Mən inəyi qapıda bağlayıb, Mir Sədi Ağanın əllərini öpüb, dizlərini qujaqladım. Dedim:

- Ağa, məni bağışla, bir qələtdi eləmişəm.

O, mənə dedi: - Mən səni elə yuxuda bağışlamışam. Bir də belə iş tutma.

Mən ağanın nəsihətlərindən sonra bir dəfəlik oğurluqdan əl çəkdim. Mən vidalaşıb evə gəlmək istəyəndə o, məni buraxmadı.

Dedi: - Yol gəlmisən, yorulmusan, həm də ajsan, çörək ye, sonra get.

Mən Ağa ilə birlikdə çörək yedim. O mənimlə xeyli söhbət etdi. Adam onun söhbətlərindən ayrılmaq istəmirdi. Mir Sədi Ağa inəyi də götürmədi, geri qaytardı.

Çərəli kənd sakini Kamilin dedikləri

1959-ju ilin yazı idi. Çərəli və Mirlər kəndindən bir neçə ailə Qızıldaş yaylasında istirahət edirdi. Atam Əli Qara oğlu və anam Qəndili tez-tez Mir Sədi Ağanı ziyarət edirdilər. Atam hər görüşdən sonra deyirdi:

-Ağa, nə qulluğun olsa de, yerinə yetirək.

Ağa isə hər dəfə eyni javab verirdi:

- Sağ ol ay Əli, lazım gəlsə, əziyyət verərik.

Bir gün yenə atam təkidlə xahiş edir:

- Ağa bizə bir qulluq.

Mir Sədi Ağa gülümsəyərək deyir:

- Yaxşı, Qara oğlu, Kamil bizim heyvanları da sizinkilərə qatıb otarsın.

Nejə olursa, atam Mir Sədi Ağaya söz vermir. Deyir: - Ağa, qadan alım, uşaq öhdəsindən gələ bilməz, heyvanlar gedib zəmiyə girər, ermənilər bizi injidər.

Şeyx deyir: - Düz deyirsən Əli, onsuz da bizim heyvanlar özü gedib otlayıb gəlir.

Həmin gejə atam səhərə qədər yata bilməyir, boynu ağrıyır. Səhər görürlər ki, kişinin boynu şişib. Anam deyir:

- Evin yıxılsın, dağ boyda kişinin sözünü yerə salanda bilmirdin ki, belə olajaq. Dur gedək kişidən üzr istə.

Anam atamı Mir Sədi Ağanın yanına aparır. Ağa onları gülər üzlə qarşılayır. Əlini atamın boynuna çəkir. Həmin gün şiş də çəkilir, ağrı da.

Tarıyel müəllimin dedikləri

1973-jü ilin payızı idi. Mir Sədi Ağa on iki il idi ki, dünyasını dəyişmişdi. Mən Bakı Ali Partiya məktəbində oxuyurdum. İmtahanlara hazırlaşırdım. Anjaq rus dilini pis bildiyim üçün həyəjan keçirirdim. Bir gejə Mir Sədi Ağa ilə Mir Məhəməd Ağa yuxuma girdilər. Şeyx mənə dedi:

- Özünü üzmə, onsuz da öz dilində dərsini gözəl bilirsən. Sən anjaq dördünjü süalı əzbərlə. Həmin sual bir düsturdan ibarətdir. Müəllim deyəjək ki, düsturu lövhədə yaz və izah et. Belə olduqda rus dilində yaxşı bilməyə ehtiyaj olmayajaqdır. Yuxudan duranda saata baxdım, saat üç idi. Mən

sevindiyimdən qonşu otaqdakı yoldaşım Böyükağanın yanına getdim. O da seminara hazırlaşırdı. Yuxumu ona danışdım. Dedi: - Gözəl yuxudur.

Həmin günün səhəri seminar başladı. Nurəddin müəllim mənə dördüncü sualı verdi və «əla» qiymət yazdı. Hörmətli oxucu, mən Mir Sədi Ağanın ancaq üç möcüzəsi haqda danışdım. Onun yüzlərlə belə möcüzələri var. Onun möcüzələrinin hamısını yazsan, bütöv bir kitab olar.

MİR MƏHƏMMƏD AĞA

Mir Sədi Ağanın sevimli oğlu Mir Məhəmməd Ağa 1946-cı ildə Qubadlı rayonunun Mirlər kəndində anadan olub. Balaca Miri körpə ikən anasını itirmiş, iki yaşında isə atasını üçüncü dəfə həbs etmişlər. Mir Məhəmməd Ağanı Çərəli kəndindəki yaxın qohumları Şahsuvar baba və Züleyxa nənə müvəqqəti himayəyə götürüb, əzizləyib saxlamışlar.

Mir Sədi Ağa həbsdən qayıdandan sonra sevimli oğlunu evinə gətirmiş və onun tərbiyəsi ilə özü məşğul olmuşdur. O vaxt balaca Mirinin səkkiz yaşı var idi. Mir Məhəmməd Ağa 1962-ci ildə Dondarlı kənd orta məktəbini bitirmiş, elə həmin ildə Azərbaycan Tibb İnstitutuna qəbul olunmuşdur.

1968-ci ildə İnstitutun müalicə-profilaktika fakultəsini bitirmişdir. Bir müddət Çardaxlı və Xocahan kəndlərindəki tibb müəssisələrinə başçılıq etdikdən sonra Qubadlı rayon Mərkəzi xəstəxanasında əsəb həkimi işləmişdir. Mir Məhəmməd Ağa gözəl həkim, kəramətli seyid kimi hamının hörmətini qazanmışdır. Həmişə onun amalı xalqına xidmət etmək, xeyirxah işlər görmək və qurub yaratmaq olmuşdur. (Ə.Bəşiroğlu "İşıqlı şəxsiyyətlər unudulmur")

Qubadlı rayonunda Bərgüşad çayının üzərindən iki körpü salmış, Sarı Aşığın sevgilisi Yaxşının uçub dağılmaqda olan qəbrini düzəltmiş və ona gözəl bir abidə qoymuşdur. Mir Məhəmməd Ağa da atası Mir Sədi Ağa kimi həmişə elinə-obasına sadiq qalmış, onların bütün problemlərinin həllində yaxından iştirak etmişdir.

Xeyirxah insan, gözəl ailə başçısı, sədaqətli dost və mehriban ata olan Mir Məhəmməd Ağa Mir Sədi Ağa oğlu çox gənc yaşında 1982-ci il may ayının 15-də dünyasını dəyişdi. O, cəmi otuz altı il yaşadı. Mir Məhəmməd

Ağanın bir-birindən gözəl, ağıllı səkkiz yadigarı ata həsrəti ilə yaşayır. Saleh, Mir Sədi, Ziyəddin, Rəhnurə, Gülüm, Müntəxab, Nürayən və Meraj.

Hal-hazırda onun ağıllı, gözəl-göyçək nəvələri böyüyür. Onların tərbiyəsi ilə anaları - elimizin hörmətini qazanmış, həmin ojağa layiq olan Akifə xanım məşğul olur.

İndi bu ojaqda Mir Sədi Ağanın da, Mir Məhəmməd Ağanın da adını daşıyanlar var: gənj Mir Sədi Ağa və balaja Mir Məhəmməd. Allah onların hamısını xoşbəxt etsin. Adlarına layiq böyüsünlər! – Amin!

MƏKİRLİ, HİYLƏGƏR ERMƏNİLƏR

İmkansız, köməksiz, arxasız olanda, bütün kin-küsurətlərini, məkrli, alçaq niyyətlərini gizli saxlayaraq, qonaqpərvər, beynəlmiləlçi, ürəyiyumşaq azərbaycanlılarla üzdə dost, mehriban qonşuluq əlaqələri yaradan, kirvə olan, qapılarımızda yallanan ermənilər əllərinə girəvə düşəndə həmişə başımızın üstünü almış, bizi min bir fəlakətə düçar etmişlər. Bəli, tarixən belə olmuşdur və bu dəfə də belə oldu. Əllərinə fürsət düşdüyü üçün 1988-ci ilin fevral ayında Dağlıq Qarabağ problemini qaldıraraq bütün dünyanı "yazıq, başıbəlalı, əzabkeş ermənilərə" köməyə çağırdı. Ermənilər rus imperiyasına, xarici havadarlarına və dünya erməni lobbisinə arxalanaraq "Ermənistan" iddiası ilə torpaqlarımıza soxulur, nahaq qanlar tökür, qadınlara, qocalara, uşaqlara belə rəhm etmirdilər. Düşmən hər yerdə meydan sulayır. Ermənistan ərazisində yaşayan azərbaycanlılara divan tutur, söyür, təhqir edir, nəhayət, onları doğma yurdlarından zorla köçürürdü. Ermənilər getdikcə azğınlaşır, Dağlıq Qarabağda – Azərbaycanın öz ərazisində azərbaycanlıları sıxışdırır, qovur, dinc adamları qırır, onları köçməyə, qaçmağa məçbur edirdilər. Xalqın səbri tükənir, əsəbləri tarıma çəkilirdi. Nankor, məkrli düşmən Azərbaycan türklərini qorxutmaq məqsədilə müxtəlif hiylələrə əl atır, 20 yanvar Bakı qırğınını törədir, Xocalı faciəsini təşkil edir, Azərbaycan qadınlarını girov aparır, tarixən ən qeyrətli, namuslu, döyüşkən bir xalq kimi tanınmış Azərbaycan xalqının namusunu ləkələyirdi. Zülm, vəhşilik ərşə dayanırdı. (T.Cahangir "Vətən oğul istəyəndə")

Azərbaycanın hər yerində Cavanşir ürəkli, Babək qeyrətli, Koroğlu nərəli, Nəbi hünərli oğullar ayağa qalxıb silaha sarıldılar: "Oğul mənəm! Oğul mənəm!"

dedilər. İgidlər məkanı, qəhrəmanlar diyarı, Nəbi, Həcər yurdunun – Qubadlının qeyrətli oğlu Əliyar Yusif oğlu Əliyev yumruğunu havada oynadıb dedi: "Oğul mənəm!" Rayon kəndlərindən aşıb Əliyarın ətrafına yığışan qurd ürəkli, şir biləkli oğullar onun səsinə səs verdilər: "Oğul mənəm! Oğul mənəm!.." Xalqımızın qeyrətli oğlu Əliyar Əliyevin təşəbbüsü ilə könüllü ərazi müdafiə taboru yaradılmağa başladı. Əliyarın başçılıq etdiyi idman cəmiyyətinin pəhləvanları güləş üzrə Avropa çempionu Məhəmməd Məmmədov, ustalığa namizədlər Sadiq Paşayev, Ziyafəddin Məmmədov, Heydər Məmmədəliyev, Şakir Babayev, Böyükağa Paşayev, Dağbəyi Məhyəddinov bu taborun ilk üzvləri oldular.

MİLLİ QƏHRƏMAN ƏLİYAR ƏLİYEV

Əliyar Yusif oğlu Əliyev 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qəzyan kəndində anadan olmuşdu. 1975-ci ildə orta məktəbi fərqlənmə attestatı ilə bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna qəbul olmuşdu. 1979-cu ildə institutu fərqlənmə diplomu ilə bitirdikdən sonra Dondarlı Orta Məktəbində müəllim işləmişdi. 1980-1982-ci illərdə sovet ordusu sıralarında xidmət etmişdi. Hərbi xidməti başa vurduqdan sonra güləşçi kimi tanınmış gənc Əliyarı Saranski şəhərindəki Dövlət Universitetində müəllim işləməyə dəvət etmişlər. Ə.Əliyev iki ilə yaxın həmin universitetdə müəllimlik edəndən sonra 1983-cü ildə atasının vəfatı ilə bağlı olaraq doğma rayona qayıtmışdı. Qəsəbə Orta Məktəbində müəllim, "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətinin Rayon Şurasında məşqçi işləmişdi. 1985-ci ildə isə Həmkarlar İttifaqı Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyəti Rayon Şurasının sədri seçilmişdi. Gənc pəhləvan respublikanin ən güclü, tanınmış, adlı-sanlı güləşçilərindən, məşqçilərindən biri idi. Dəfələrlə klassik güləş üzrə respublika, keçmiş Ümumittifaq və beynalxalq yarışların qalibi olmuşdu. O, bir sıra yarışlara, turnirlərə hakimlik, baş hakimlik etmişdi. Əliyarın səkkiz yetirməsi Respublika və keçmiş SSRİ çempionu, bir nəfəri isə olimpiya yığma komandasının üzvü olmuşdu. Məşhur idmançı ictimai-siyasi sahədə də böyük fəaliyyət göstərmişdi. O, rayonda xalq hərəkatının başçısı, xalq cəbhəsinin yaradıcısı və lideri, demokratik qüvvələrin rəhbəri olmuşdu. Qarabağ hadisələri başlanan ilk günlərindən Vətənin çağırışına ilkin səs verən qeyrətli oğullarımızdan biri olmuş, rayonda ilk taborun yaradılmasına təşəbbüs göstərmişdi. Rayonun qeyrətli oğullarını bir yerə toplayıb tabor yaratsa da

təvəzökarlıq göstərib, onun komandiri olmamışdı. Onun təklifi ilə Dağbəyi Məhəddinov həmin taborun ilk komandiri seçilmişdi. Əliyar tabor kəşfiyyatı bölməsinin komandiri təyin edilmişdi. İlk ərazi özünümüdafiə taborunun igid döyüşçüləri rayonun Ermənistan və Dağlıq Qarabağla sərhəd olan kəndlərini müdafiə etməyə başladılar. Onlar erməni quldurlarının bütün hücumlarının qarşısını dərhal alır, düşmənin xeyli hərbi texnikası və canlı qüvvəsini məhv edirdilər. Burnu ovulan ermənilər geri çəkilməyə məcbur olurdular.

1991-ci il noyabrın 15-də ermənilər Seytas, Əyin və Aşağı Cibikli kəndlərini, Yazı düzündəki postları güclü top və raket atəşlərinə tutduqdan sonra yazı düzünə hücuma keşmişdi. Əliyar və onun döyüşçü dostları iki saatdan artıq davam edən döyüşdən sonra düşmən üzərində tam qələbə qazanmışdılar. Quldurlar xeyli itki verərək geri çəkilməyə məcbur olmuşdular. Əliyar öz dəstəsi ilə Əyin, Seytas və Aşağı Cibikli kəndlərinə köməyə getmiş, bu mövqelərdə düşmən qüvvələrini darmadağın edilməsinə nail olmuşdu.

Düşmən 1991-ci il dekabr ayının 28-də Fərcan və Köyyal kəndlərinə hücum etmişdi. Köməyə vaxtında çatan Əliyarın dəstəsi fədakarlıqla vuruşaraq düşməni məğlub etmişdi. Səkkiz erməni dığası gəbərəndən sonra düşmən döyüş meydanında xeyli hərbi texnika qoyaraq qaçmağa başlamışdı.

1991-ci ilin sonu, 1992-ci ilin əvvəlində ermənilər tez-tez Seytas kəndinə basqın edirdilər. 1992-ci ilin fevralın 6-da onlar böyük qüvvə ilə Seytas kəndini tutmağa təşəbbüs göstərdilər. Əliyar Əliyevin komandir olduğu kəşfiyyat dəstəsi həmin kəndə köməyə göndərildi. Bacarıqlı komandirin göstərişi ilə kəndə girən yollar, cığırlar minalandı. Düşmənin bir neçə hərbi maşını minaya toxunaraq sıradan çıxdı. Əliyargil pərən-pərən düşən düşmənləri güclü atəşə tutdular. Onların bir çoxunu qırıb, 14 nəfərini əsir götürdülər. Düşmənin xeyli hərbi texnika və sursatını da qənimət kimi ələ keçirdilər. Son döyüşdə göstərdiyi igidliyə görə Əliyar Əliyev taborun təchizat işləri üzrə rəisi təyin edildi. (T.Cahangir "Vətən oğul istəyəndə")

1992-ci ilin aprel ayında Dağbəyi Məhyəddinov başqa işə keçdiyinə görə taborun komandirliyi Əliyar Əliyevə tapşırıldı. Yeni komandir Ermənistanın Qafan, Gorus və Dağlıq Qarabağın Hadrut rayonları ilə sərhəd kəndlərimizin ətrafında lazımi yerlərin minalanması, postların və mövqelərin

möhkəmləndirilməsini təşkil etdi. Kəşfiyyatın verdiyi məlumata görə, Başarat kəndinə və onun ətrafındakı yüksəkliklərə düşmənin güclü hücumu gözlənilirdi. Buna görə tabor komandiri həmin kənd və yüksəkliklərdəki mövqeləri möhkəmləndirdi. Burada güclü döyüş gedəcəyini nəzərə alan Əliyar Əliyev Başarat kəndinə gəldi. Bütün post və mövqeləri yoxladıdan sonra Topağac yüksəkliyində komandirlərin, zabitlərin kiçik bir yığıncağını keçirtdi, onlara lazımi göstərişlər verdi. Xatırlatdı ki, düşmən ya gecə, ya da obaşdan hücuma keçə bilər. Ona görə də ayıq-sayıq olmaq lazımdı. Unutmayın ki, Başarat kəndi ətrafındakı yüksəkliklər böyük strateji əhəmiyyətə malikdir. Düşmən bunu yaxşı bilir. Ermənilər bu yüksəklikləri ələ keçirib təkcə Qubadlını deyil, eyni zamanda Cəbrayıl və Zəngilan rayonlarını da təhlükə altına almaq istəyirlər. Siz ki bunu yaxşı bilirsiniz. Burada bizim ölüm-dirim məsələmiz həll olunur. Biz mütləq qələbə çalmalıyıq.

Düşmənin taktikasını dərindən öyrənən tabor komandiri yanılmamışdı. Düşmən obaşdan Topağac yüksəkliyini güclü arpilleriya atəşinə tutdu. Tabor komandirinin başçılıq etdiyi kiçik bir dəstə böyük strateji əhəmiyyəti olan yüksəkliyi göz bəbəyi kimi qorudu. İki saata qədər davam edən şiddətli döyüş düşmənin tam məğlubiyyəti ilə qurtardı. Ermənilərin çoxlu hərbi texnikası və canlı qüvvəsi məhv edildi, xeyli hərbi sursat ələ keçirildi. Düşmən geri çəkilməyə məcbur oldu. Həmin günün səhəri ermənilər daha böyük qüvvə ilə genişmiqyaslı hücuma keçdilər. Polis işçiləri Əliyargilə köməyə gəldi. Dörd saatdan artıq davam edən şiddətli döyüş bizimkilərin qələbəsi ilə başa çatdı. Başarat kəndi və onun ətrafındakı yüksəkliklərdə düşmən qüvvələri darmadağın edildi.

Bu cür parlaq qələbədən sonra Əliyara acı bir xəbər verdilər: Şuşa düşmən əlindədir. Gənc tabor komandiri sarsıldı. Ürəyində özümüzkiləri lənətlədi: "Alçaqlar Şuşanı xəyanətlə veriblər. Bu böyük qala tarixən düşmənə təslim edilməyib. Qubadlını qorumaq çətindir. Şuşanın ki, bircə yolu va idi..."

Bir neçə gündən sonra Əliyara ikinci qara xəbər çatdırıldı: "Laçın əlimizdən çıxıb." Hədsiz dərəcədə sarsılan Əliyar fəryad qopartdı: "Bu da ikinci xəyanət." O , həmin gün komandir və zabit heyətini yığıb fikrini onlara yığcam şəkildə çatdırdı: "Növbə Qubadlınındır. Biz Qubadlını, bütövlükdə Azərbaycanı qorumaq üçün Laçını mütləq qaytarmalıyıq". Sonra o, müqəddəs Quranı-Kərimi üç dəfə öpüb

gözlərinin üstünə qoydu və and içdi ki, son damla qanınadək vuruşacaq. Düşmən yalnız onun meyidinin üstündən keçib Qubadlını tuta bilər.

Əliyar Əliyev işğal olunmuş Laçın torpaqlarını azad etmək məqsədiilə ciddi hazırlıq işləri görməyə başladı. 1992-ci il sentyabr ayının 30-da onun komandirlik etdiyi tabor Laçın torpaqları uğrunda güclü hücum əməliyyatına başladı. Qısa müddət ərzində 30-dan artıq möhkəmləndirilmiş mövqelərdə düşmən qüvvələrini darmadağın edərək Laçın şəhərinə doğru müzəffər yürüşü davam etdirdi.

Son döyüşü 1992-ci il oktyabrın 3-də Laçın şəhərinin 2 kilometrliyindəki Şurum yüksəkliyində olmuşdu. Həmin gün qanlı döyüşlər getmiş, düşmənin saysız-hesabsız canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdi. Tabor komandiri Əliyar Əliyev və onun sürücüsü Əlisadət Ağayev döyüşdə qəhrəmanlıqla həlak olmuşdular.

Bülbül gül bərabəri,
Maral çöl bərabəri,
Burada bir igid ölmüş,
Vətən, el bərabəri.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə ölkəmizin suverenliri və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi igidlik və şücaətə görə Əliyar Yusif oğlu Əliyevə Azərvaycanın Milli Qəhrəmanı adı verildi. Əliyarın təşəbbüsü ilə Qubadlıda yaradılan ilk tabor onun adı ilə əbədiləşdirildi. Qırxı çıxmamış rayon mərkəzində qəhrəmanın abidəsi qoyuldu. Azərbaycan xalqı qəhrəman oğlunun əbədi heykəlini öz qəlbində ucaltdı. Ölkəmizin hər yerində Əliyar Əliyevə böyük məhəbbət hissi bəslənilir, onun adı dillər əzbərinə çevrilir, xatirəsi əbədiləşdirilir. İndi bir çox evlərdə, müəssisələrdə, kabinetlərdə Əliyarın portreti, büstü və barelyefini görmək olar. Xalqımız qeyrətli oğlu Sumqayıt çörək-qənnadı kombinatının direktoru Tofiq Gülmalı oğlunun şəxsi təşəbbüsü ilə zavodun həyətində və kabinetində yaradılan barelyef buna parlaq misaldır. Rüspublikamızda onun xatirəsinə həsr olunmuş idman yarışları, turnirlər keçirilir.

...Dağlar qartalsız, göylər şahinsiz, milli ordumuz Əliyarsız qaldı. Azərbaycan xalqı öz qəhrəman oğlunu itirdi. Amma şair gözəl demişdir: Ölüm sevinməsin qoy! Azərbaycanın qəhrəmanlıq tarixinə, cavnşirlər, babəklər,

koroğlular, nəbilər, kərəmlər sırasına bir qəhrəman da əlavə olundu: Əliyar Əliyev! Ölüm sevinməsin qoy! Azərbaycanın döyüşçülük, sərkərdəlik tarixinin qızıl səhifələrinə qəhrəman bir döyüşçü, adlı-sanlı bir sərkərdənin də adı əlavə olundu: Əliyar Əliyev! Ölüm sevinməsin qoy! Azərbaycanın döyüşçülük sənətinə, sərkərdəlik elmi ocağına bir məktəb də əlavə olundu: Əliyar məktəbi!

İndi Əliyar Əliyevin həyat yoldaşı Pəri Hüseyn qızının himayəsində ata həsrəti ilə üç övlad böyüyür: Pərvanə, Elçin, Yusif. Əliyarın yadigarlarından birincisi Tomris qeyrətli, Nigar ismətli, Həcər ürəkli bir qəhrəman, ikincisi və üçüncüsü Babək əqidəli, Nəbi hünərli, Əliyar şücaətli bir igid olmaq arzusu ilə yaşayırlar. Ruzgar Yusif oğlu Əliyev hazırda cəbhədə qardaşı Əliyarın əməllərini ləyaqətlə davam etdirir.

XV FƏSİL

JƏBRAYIL UZBAŞI

«Böyük Adam əbədi körpədir, o öləndə
böyük körpəliyin dünyaya miras qoyur»
F.Taqor

1888-ji ilin baharında Həkəri çayının axarlı-baxarlı, güllü-çiçəkli sahilində Azərbayjanın qədim güşələrindən olan Zəngəzur qəzasının, Qubadlı rayonun Qaçaq Nəbi, Qaçaq Həjər kimi xalq qəhrəmanlarını yetişdirmiş Aşağı Mollu kəndində sayılan seçilən kişilərdən biri olan Kəblə Budaq kişinin evində bir körpə dünyaya gəldi. (Ə.Bəşiroğlu "İşıqlı şəxsiyyətlər unudulmur")

Körpənin adını Jəbrayıl qoydular. Balaja Jəbrayılın tərbiyəsi ilə dayələr məşğul olmağa başladı. O böyüyür, hamının sevimlisi olurdu. Hələ uşaqlıqdan balaja Jəbrayıl ağıl kamalda, fərasətdə tay-tuşlarından seçillirdi. Jəbrayılın atası Kabla Budaq kişi xüsusi müəllim tutdu. Jəbrayıl dünyəvi elmləri öyrəndi. Rus dilində mükəmməl təhsil aldı. O, həddi buluğa çatıb, gözəl bir oğlan oldu. Atası Kabla Budaq oğlunu adlı-sanlı nəsillərdən olan, gözəllikdə, ağılda, kamalda tayı bərabəri olmayan Sitarə xanımla evləndirdi.

Dövrünün gözüaçıq, savadlı adamı olan Jəbrayıl, bəy rütbəsi aldı. Savadına, fərasətinə görə Jəbrayıl bəyi uzbaşı seçdilər. O, uzun müddət uzbaşı işləyib. İşlədiyi müddətdə həmişə xalqına, elinə-obasına arxa, dayaq olub və haqsız yerə heç kəsin təhqir olunmasına yol verməyib. 1917-20-ji illərdə

Zəngəzur qəzasında ajlıq olmuşdur. Həmin ajlıq illərində o, xalqa əlindən gələn köməyi əsirgəməmişdir. Həmin qıtlıq illərində Jəbrayıl bəy dəfələrlə İrandan əlli-altmış qatır yükü taxıl gətirmiş, jamaata pulsuz paylamışdır. O, həmin taxılı İrandakı dostu və qardaşlığı Əmirərşad bəydən təmənnasız almış və jamaata pulsuz paylamışdır. Jəbrayıl bəy elin bütün dərd sərinə şərik olar və imkanı dairəsində onlara kömək edərmiş. O, qanlılığı, düşmənçiliyi aradan götürər və barışıq edərdi. Ətraf rayonlardan da kim çətinə düşsə, onun yanına gələrdi. Jəbrayıl bəy heç kəsi naümüd yola salmazdı. Hamıya bajardığı köməkliyi edərdi. Ağsaqqalların dediyinə görə, indiki Jəbrayıl rayonunun kəndəlirndən birində bir nəfərin Gorusda məhkəməsi imiş. Həmin adam bir nəfəri qətlə yetirdiyi üçün onu ömürlük Sibir sürgünü gözləyirmiş. Həmin məhbusun adamları Jəbrayıl bəyin evinə gəlib, ondan xahiş edirlər ki, onlara kömək etsin. Jəbrayıl bəy ağsaqqalların sözlərini yerə salmır. Gorusa gedir və həmin adamı məhkəmə zalından azad etdirir. Özü də o, bu işi təmənnasız görür.

Sonra Jəbrayıl bəy həmin məhbusun öldürdüyü adamın ağsaqqalları ilə görüşür, barışıq əldə edir və qanbahasını da özü verir. Bu işdən razı qalan jəbrayıllılar Jəbrayıl bəyin evinə gəlir və ona bir xurjun (heybə) Nikolay pulu gətirirlər.

Jəbrayıl bəy pulu götürmür. Deyir mənə heç nə lazım deyil. Gəlin, dost olaq. Onlar dost olurlar. Jəbrayıl bəyin həyatında belə hadisələr yüzlərlədir.

Jəbrayıl bəyin qardaşı Məşədi Balajanın oğlu Hüseyn də ömrü boyu onunla bir yerdə yaşamışdır. Eyni zamanda Jəbrayıl bəyin baldızı Güllü xanımla evlənmişdir.

Onu da qeyd edim ki, nə Jəbrayıl bəyin, nə də Hüseyin bəyin övladı olmayıb. Hüseyin bəyin anası seyid Xeyri xanım təxminən 1945-46-jı illərdə vəfat edib. Seyid Xeyri xanımı mən də görmüşəm (Ə.Bəşiroğlu).

Jəbrayıl bəyin əmisi oğlu Bəylər bəyin Qafan rayonunda mis mədəni olub. Deyilənə görə, Bəylər bəy Nikolayın büro üzvü imiş. Jəbrayıl bəyin babası İsaq bəy də uzun müddət uzbaşı olub. Bəylər bəyin nəvələri, Abbas bəyin oğlanları Bahadır, Nüsrət və Mansur Sovet hökumətinin təqibindən qorxaraq, hərəsi bir rayonda yaşayıb. Məsələn, Bahadır Saatlıda, Nüsrət isə

Bərdədə yaşayırdı. Mansur isə İrana getmişdir. Abbas bəy İrana qaçanda oğlu Mansuru özü ilə aparıb. Anjaq nejə olubsa, Bahadır ilə Nüsrəti apara bilməyib.

Mətləbdən çox uzaqlaşdıq, mən yenə də hörmətli oxujularımın diqqətini Jəbrayıl bəyə yönəltmək istəyirəm. Yuxarıda dediyim kimi, Jəbrayıl bəy elin sözü keçən, sayılan-seçilən ağsaqqallarından olub. 1930-ju ildə Mir Jəfər Bağırov Qubadlıya gəlir. O soruşur ki, burada hörmətli, sözü keçən adam kimdir? Deyirlər ki, Jəbrayıl bəydir. Mir Jəfər Bağırov Jəbrayıl bəyi yanına jağırır və ona deyir ki, qaçaqların tərksilah olunmasında mənə köməklik et. Onu da qeyd edim ki, Hüseyn bəy əmisi Jəbrayıl bəyi tək burxamır. O da əmisi ilə birlikdə M.J .Bağırovun yanına gedir. M.J .Bağırov Jəbrayıl bəyə deyir ki, biz bu saat gedək Əlyanlı meşəsinə. Deyirlər ki, qaçaqlar orda yuva salıb. Onları tərksilah edək. Sonra da kəndbəkənd düşək, bütün silahlıları tərkisilah edək.

Jəbrayıl bəy Bağırova məsləhət görür ki, belə getsək, sizi vura bilərlər. Gəl bir yerdə düşərgə salaq, kəşfiyyat aparaq, sonra gedək. Bu sözdən M.J .Bağırov qəzəblənir və deyir ki, bizi heç kim vura bilməz. Onlar qoşunun qabağında, qoşunsa arxalarınja yola düşdülər. Elə bu vaxt güllə açılır və M.J .Bağırovla qoşa gedən onun adyutantı İsmayılovu vururlar. O, yerindəjə keçinir. Bu hadisədən sonra M.J .Bağırov Jəbrayıl bəylə razılaşır, deyir sən nejə desən, elə də edərik. Onlar bir yerdə düşərgə salırlar. Jəbrayıl bəy M.J .Bağırova deyir ki, yoldaş Bağırov, ijazə ver Hüseyn uşaqlardan bir-iki nəfər götürüb, meşəyə getsin, həm kəşfiyyat aparsınlar, həm də quş vurub gətirsinlər, sizə quş ətindən kabab verək. M.J .Bağırov razılaşır. Hüseyn bəy quş vurmaq adı ilə meşəyə gedir, həm quş vururlar, həm də qaçaqların başçılarına xəbər göndərirlər ki, üstününzə güjlü qoşun gəlir. Gejə ikən Arazı keçib İrana gedin. Qoşun gejə düşərgədə qalır, səhər bütün kəndləri, meşələri gəzirlərsə də, bir nəfər də olsun silahlı adama rast gəlmirlər. Jəbrayıl bəy M.J .Bağırova deyir ki, sizin qoşunla gəldiyinizi eşidib, gejə ikən İrana keçiblər.

Jəbrayıl bəyin mərdliyi, igidliyi M.J .Bağırovun xoşuna gəlir. Jəbrayıl bəyə bir onatılan bağışlayır. Həm də öz yanına buraxılmaq üçün buraxılış

kağızı verir. M.J .Bağırov J əbrayıl bəyə tapşırır ki, mənim yanıma gələrsən, sənə yaxşı bir iş verəj əm.

Bağırov gedəndən sonra iranlılar gəlib, bizim sərhəd kəndlərindən birini yandırıb, var-dövlətini qarət edirlər. Bu xəbər M.J .Bağırova çatır. O gedib həmin hadisəni gözləri ilə gördükdən sonra bərk qəzəblənir. Bağırov qoşun götürüb İrana keçir. O da İranda bir kəndi yandırır, var-dövlətini qarət edərək geri qayıdır. Bu hadisəni eşidən İran hökuməti Bağırovu beynəlxalq məhkəməyə verir. Bu hadisəni bilən Stalin İran hökumətinə xəbər verir ki, onun j əzasını özümüz verərik. O, Bağırovu yanına çağırır və onu iki ay Moskvada saxlayır. J əbrayıl bəy Bakıya Bağırovun yanına getsə də, onu tapa bilmir. Onu da hörmətli oxuj ularımıza çatdırmaq yerinə düşər ki, Hüseyn bəy heç j ürə Sovet hökumət ilə barışmaq istəmir. Bu vəziyyət J əbrayıl bəyə pis təsir edir.

Elə bu vaxtlar bir neçə milis J əbrayıl bəyin yanına gəlib, yalandan ona deyirlər ki, bizi göndəriblər ki, səni tutaq. Biz isə səni tutmarıq, ona özləri hazırladıqları saxta möhürlü kağız göstərirlər.

Bağırovu tapa bilməyən J əbrayıl bəyin əlaj ı kəsilir. Deyir bir az gözləyin. O, qardaşı oğlu Hüseyn bəylə İrana gedir. Orda dostu və qardaşlığı Əmirərşad bəyin köməkliyi ilə altmış ev hazırlayırlar.

J əbrayıl bəy İrandan gələndən sonra yenə də Bağırovu görmək üçün Bakıya gedirsə də, onu tapa bilmir. Kəndə gəldikdə yenə də həmin naçalnik milislər onun yanına gəlib deyirlər ki, bizə göstəriş veriblər ki, səni tutaq. Biz isə papağımızı yerə vurarıq ki, səni tutmarıq. Gəl bir yerdə İrana qaçaq. Hörmətli oxuj ular, onu da nəzərinizə çatdırım ki, həmin naçalnik milisyələrin hamısı bəy idi. Onlar gözəl bilirdilər ki, bu vəzifə onların başını qatmaq üçün verilib. Gej -tez Sovet hökuməti onları tutaj aq.

Həm Hüseyn bəyin Sovet hökuməti ilə barışmaması, həm də bu vəzifəli şəxslərin yalandan ona dedikləri söz J əbrayıl bəyi çıxılmaz vəziyyətdə qoyur. Nəhayət, o açıb deyir ki, İranda Təbriz yaxınlığında altmış ev hazırdır. J əbrayıl bəyin bu sözündən bəylər çox sevinir. Nəhayət, altmış nəfər evlərinin çəkidə yüngül, qiymətdə ağır şeylərini götürüb İrana gedirlər. Məndə olan

məlumata görə, onların arasında Məhərrəm bəy, Abbas bəy, Baba bəy, Ədil bəy, qaçaq Qabil və s. olublar.

Aşağı Molludan isə kasıb olmalarına baxmayaraq, Əsgər və Hüseyn də onlarla gedir. Bu dəstəni İranda yaxşı qəbul edib yerləşdirirlər. Elə bu vaxt İran xanı vəziyyəti öyrənmək üçün J əbrayıl bəyi yanına çağırır. J əbrayıl bəy xanın yanına gedərkən qardaşı oğlu Hüseyni dəstənin başçısı kimi yanına çağırır və hətta Qurana da and içdirir ki, mən gələnə kimi Arazın o tayına keçməyin.

J əbrayıl bəy gedəndən sonra Hüseyn bəy dözə bilmir və həmin dəstə ilə birlikdə sərəhəddi keçir. Zəngilanın Sabi kəndinin kənarında bir çəmənlikdə öküz kəsib kabab edirlər. Hüseyn bəy sovetin qoşun başçısı Slavinkiyə bir məktub yazıb bildirir ki, gəl müharibə edək. Eyni zamanda zastavaya hücum edirlər. Zastavanın qoşununu qırırlar. Sonra onların kiçik dəstəsinin üstünə güclü qoşun yeridirlər. Çoxlu rus qoşunu qırılır, bunlardan da ölən olur. Bu müharibədə Hüseyn bəy ağır yaralanır. Hüseyn bəy meşəbəyi işlədiyi üçün meşəbəyi paltarında olub. Hüseyni özlərininki bilib, götürmək istəyəndə bir milis deyir ki, onu götürməyin, bu qoşunun başçısı odur, mən onu tanıyıram.

Genaral Slavinkiyə xəbər çatır. O deyir baxım görüm o neçə alamdır ki, jürət edib mənə məktub yazıb. Onu öz əllərimlə öldürəcəm. General Slavinski yaralı Hüseyn bəyin yanına gəlir, ona baxır. Sonra tapancasını çıxarıb Hüseyini vurmaq istəyəndə Hüseyn bəyin huşu hələ başında imiş. O altında gizlətdiyi tapancasını çıxarıb Slavinskiyə atır. Hər iki komandirin gülləsi eyni vaxtda açılır. Elə oradaca hər ikisi ölür.

General Slavinskini aparıb sərhəddə dəfn edirlər. Hüseynin meyidini isə gecə yoldaşları gizlicə aparıb, kənd qəbiristanlığında torpağa tapşırırlar. Bu hadisədən sonra Aşağı Molludan olan Əsgər və Hüseyn utandıqlarından İrana, J əbrayıl bəyin yanına qayıtmırlar, kəndə gedirlər. Bir müddət gizlənib, sonra üzə çıxırlar. Sonra onları tutub hərəsinə on il iş verirlər. Onlar türmədən qayıtmırlar. Öldü-qaldıları da bilinmir.

Hüseyn bəyin dəstəsindən sağ qalanları İrana gedib, əhvalatı J əbrayıl bəyə danışırlar. Hüseynin ölümü ona pis təsir edir. J əbrayıl bəy xəstələnib yorğan-döşəyə düşür.

Dostları ona nə qədər qayğı göstərsələr də, xeyiri olmur. Nəhayət, təxminən 1939-ju ildə İranda dünyasını dəyişir. Onu Təbriz yaxınlığında, öz yaşadığı kəndin qəbiristanlığında dəfn edirlər. Allah rəhmət eləsin. Belə adamlar yüz ildən bir yetişir.

Bəylər bəyin nəvəsi Abbas bəyin oğlu səksən yaşlı Nüsrət kişinin dedikləri

Babam Bəylər bəyin Qafanda mis mədəni olub. Həmin mədəni o, erməni Xaçatur bəydən alıb. Bəylər bəyin Şuşada da böyük mülkü olub. O, həmin mülkü Javanşirovlardan alıb. Babamın Şuşadakı mülkü böyük sahəni əhatə edib. Sovetləşmədən sonra həmin mülkdən sanatoriya kimi istifadə olunub.

Atam Abbas bəy çox savadlı adam olub. O, Gürjüstanda gimnaziya, Peterqradda isə texnologiya institutunu bitirmişdir. Atam İranda mühəndis işləyib. O, Zəngilan rayonunun Vənətli kəndində adlı-sanlı bəy olan Abbas bəyin qızı Zərövşən xanımla evlənib. 1932-ji ildə atam, anam, böyük qardaşım Bahaduru, ortanjıl qardaşım Mansuru və sonbeşikləri olan məni də götürüb İrana gedirlər. Bir qədər İranda qalandan sonra anam məni və Bahaduru götürüb Azərbayjana qayıdır. Bundan sonra sərhəd qoyulur, gediş-gəliş kəsilir, beləliklə, atam və qardaşım Mansur İranda qalır, anam, mən və böyük qardaşım Bahadur Azərbayjanda qalırıq. 1937-ji ildə biz, yəni anam, qardaşım Bahadur və mən Qazaxıstanın Çalaquran kəndinə sürgün olunmuşuq.

1950-ji ildə Stalinin qərarı ilə sürgündən azad olunub, Azərbayjana qayıtdıq. Anamla mən Bərdə də, Bahadır isə Saatlıda məskunlaşdıq. Qardaşım Mansurun İranda altı uşağı olub, biri vəfat edib, beş uşağı isə yaşayır. Onun uşaqlarının dördü oğlan, biri isə qızdır. Oğlanları ali təhsilli mühəndis, qızları isə dərzidir. Qardaşım Mansurun nəvəsi Bəylərniya Əli Bəhram oğlu tibb elmləri doktoru, professordur. O, ürək və jiyər üzrə tanınmış jərrahdır. Hal-hazırda onun otuz yaşı var. Mənim ana babam Ağa bəyin oğlu Ələsgər də İranın Tehran şəhərində yaşayıb. Onun beş qızı olub. Qızlarının üçü Amerikanın Meçiqan şəhərində Dövlət Universitetində müəllim işləyir. Onlar alimdirlər. İki qızları isə Almaniyanın Münxen şəhərində yaşayırlar. Onlar

pedaqoci institutu qurtarıblar. Orta məktəbdə müəllim işləyirlər. Mənim beş uşağım: üç oğlum və iki qızım var. Qardaşım Bahadurun səkkiz uşağı olub, ikisi vəfat edib, altısı isə hal-hazırda yaşayır. Onların üçü oğlan, üçü isə qızdır.

Atamız Abbas bəy Zəngilanın Mirzə Həsənlilər kəndində yaşayıb. O kəndin bünövrəsini babamız Mirzə Həsən bəy qoyduğu üçün kənd onun adı ilə Mirzə Həsənlilər adlanır. Onu da qeyd edim ki, bizim əslimiz Qubadlı rayonunun Aşağı Mollu kəndindəndir. Qardaşım Bahadur 1990-jı ildə Saatlıda vəfat edib. Qardaşım Mansur isə 2001-ji ildə İranda vəfat edib.

Jəbrayıl bəylə Hüseyn bəyin arvadları iki bajı olan Sitarə və Güllü xanımlar Bəylərbəyin qızlarıdır. Jəbrayıl bəylə Bəylər bəy həm də yaxın qohum olublar. Atam qardaşım Mansuru Jəbrayıl əmimə və Sitarə bibimə oğulluğa vermişdi. Mansur ömrü boyu onlarla bir yerdə yaşayıb,

Onu da qeyd edim ki, babamız Bəylər bəy Mirzə Həsən bəyin oğludur. Mirzə Həsən bəy çox dövlətli və adlı-sanlı adam olub. İsaq bəy isə Bəylər bəyin babasıdır.

YELMAR MƏMMƏDOV

Böyük xeyriyyəçi Hajı Zeynalabdin Tağıyevin davamçısı, javan olmasına baxmayaraq «el atası» adlanan Yelmar İsbəndiyar oğlu Məmmədov 1957-ji ildə Həkəri çayının sahilində Qaçaq Nəbi və Həjər xanım kimi xalq qəhrəmanları yetişdirmiş Qubadlı rayonunun Aşağı Mollu kəndində kolxozçu ailəsində dünyaya göz açmışdır. Çox kiçik yaşlarından anasını itirmişdir. Anadan yetim qalan balaja Yelmar körpəlikdən həyatın ajılarını dadmış, zəhmətin nə olduğunu öyrənmişdir. (Ə.Bəşiroğlu "İşıqlı şəxsiyyətlər unudulmur")

Y.Məmmədov orta məktəbi bitirəndən sonra Bakıya gəlir, ali məktəbə imtahan verir, anjaq müsahibədən keçə bilmir. 1975-76-jı illərdə Bakıda qalıb zavodda fəhlə işləyir. 1976-jı ildə əsgər gedir. Əsgəri xidmətini Çita şəhərində başa vurur. Əsgəri xidmətdən sonra, özünün dediyinə görə, təsadüf nətijəsində Daşkəndə gəlir. Şəhər və adamları onun xoşuna gəlir. Bir müddət Daşkənddə qalıb fəhlə işləyir, eyni zamanda Milis məktəbinə daxil olur. Sonralar isə Moskva hüquq institutunun qiyabi şöbəsində oxuyur. Komi Respublikasının Uxta şəhərinə gəlir. Yelmar Məmmədovun özünün dediyinə görə, Uxta

şəhərinə ehtiyaj üzündən gəlir. O qeyd edir ki, dedilər orda aylıq əmək haqqı yüksəkdir. Ayda min manatdan çox qazanmaq olur. Yelmar Məmmədov Uxta şəhərində Neft Kəşfiyyatı idarəsində işə girir. Əvvəljə fəhlə, sonra usta, mühəndis, şöbə rəisi və baş mühəndisin müavini olur.

1988-ji ildə sahibkarlıq haqqında qanun çıxması onun ürəyinjə olur. O, lazımi yerlərə müraj iət edib, əvvəljə dörd nəfərlik bir kooperativ açır. İlk işləri bir zavodun damını örtmək olur.

Bu işdən əldə olunan gəlirlə yeni avadanlıq alır, əlavə işçi qəbul edir.

Bir ildən sonra onun işçilərinin sayı artıq min nəfər olur.

1990-jı ildə «Mariya» Assosiasiyasını təsis edir. Bundan sonra fəaliyyətləri genişlənir. Bir neçə şəhərdə filialları yaranır. Bir neçə bank açırlar. Rusiya televiziyası ilə göstərilən «Mariya Assosiasiyası» adlı sənədli filmdən sonra hər yerdə tanınmağa başlayır.

Uzun ayrılıqdan sonra Y.Məmmədovun vətən yadına düşür. O, 1992-ji ilin avqust ayında Azərbayjana gəlir. Özünün dediyinə görə jəbhədəki məğlubiyyətlər ona pis təsir edir. Məhz buna görə də bir təyyarə ijarəyə götürür, jəbhə üçün paltar, müxtəlif ərzaq malları yükləyib Bakıya gəlir.

Azərbayjanda vəziyyətlə tanış olandan sonra görür ki, jəbhəyə humanitar yardım yox, həqiqi kömək lazımdır.

Elə buna görə də Bakıda «Yelmar interneyşil» koperasiyasını yaradır.

Həmin koperasiyaya üç tikinti idarəsi, bank, tijarət mərkəzi, sığorta şirkəti və s. daxildir. Orda üç mindən çox Adam işləyir.

Əziz oxujular, burda bir haşiyə çıxmaq istəyirəm. «Xalq» qəzetinin müxbiri Ziyəddin Sultanov Qarabağ müharibəsinin qaynar nöqtələrində olmuş, «Qarabağ gündəliyi», «Qarabağın qara günləri», «Xojalı fajiəsi», «Ağdərədən gələn var» kitablarının müəllifidir. Eyni zamanda onun «Burdan bir atlı keçdi» kitabı çapa hazır idi. Özü yazır ki, kitabımı çap etdirmək üçün vəsaitim yox idi. «İşıq» nəşriyyatında mənə məsləhət gördülər ki, özünü H.Z.Tağıyevin davamçısı adlandıran Yelmar Məmmədova müraj iət edim. Bu kitabın sponsoru o ola bilər. 1994-jü ilin yanvar ayında mən Yelmar Məmmədovun yanına gəldim. Fikrimi bilən kimi razılıq verdi. Beləliklə,

«Burdan bir atlı keçdi» kitabım Y.Məmmədovun vəsaiti hesabına işıq üzü gördü.

Hörmətli oxujular, Ziyəddin Sultanovun məqaləsindən bir hissəni olduğu kimi sizə çatdırmaq istəyirəm. O yazır: Böyük xeyriyyəçi H.Z.Tağıyevin nəjib ənənələrini ləyaqətlə davam etdirən Yelmar Məmmədovun xeyirxah əməllərinə aid bir neçə misal: indiyə kimi şəhid ailələrinə yüz əlli milyon rubl pul paylayıb. Respublika Daxili İşlər Nazirliyinin qoşunlarına qırx yeddi milyonluq hərbi geyim, (rubl), teleradio şirkətinə altı milyon rubl dəyərində avtobus, ayrı-ayrı redaksiyalara üç video kamera bağışlayıb. Gürjüstandakı Azərbayjan məktəbləri üçün iyirmi beş min nüsxə dərslik alıb. «Bakı Tayms» qəzetinin xərjini öz boynuna götürüb. Respulikada çıxan bir neçə qəzetə maddi yardım göstərib. 1993-jü ildə otuz dörd, bu il isə əlli tələbəyə hərəsinə iyirmi beş min rubl, Bakı dövlət Universitetinin üç qaçqın tələbəsinin hərəsinə əlli min rubl təqaüd verib. Üç gənji təhsil almaq üçün Çinə göndərib.

Hörmətli oxuju, bunlar anjaq bir məqalədə göstərilənlərdir. Belə misallardan çox çəkmək olar.

Y.Məmmədov Bakıya gələndə H.Z.Tağıyevin qızı Sara xanım çox ağır xəstə idi, həm də qulaqları eşitmirdi. Pis ev şəraitində yaşayırdı. Dava-dərman və ərzaq almaq üçün pulu yox idi. Y.Məmmədov Sara xanıma baş çəkdi, onun ev şəraitini yaxşılaşdırdı. Eyni zamanda onun bütün xərjlərini öz üzərinə götürdü. Y.Məmmədov özü deyirdi ki, nəinki Azərbayjandakı, mən Rusiyadakı müəssisələrimin gəlirini də Azərbayjana xərjləyirəm. Təki müharibə bizim xeyrimizə qurtarsın. O gileylənirdi ki, müharibə bir qrup adamlar üçün deyil. Vətən, topaq hamınındır. Fəhlə də, milyonçu da, nazir də, alim də öz övladlıq borjunu verməlidir. Bizdə isə müharibədə bir nəfər də olsun rəhbər işçinin övladı vuruşmur.

Javan olmasına baxmayaraq, «el atası» sayılan, ağsaqqal, müdrik, əliaçıq, alijənab insan olan Yelmar Məmmədov çox yaşamadı. O, 12 aprel 1995-ji ildə Daşkənddə həyat yoldaşı ilə birlikdə müəmmalı şəkildə vəfat etdi. Guya gejə bunlar yatandan sonra qaz sızıb və qazdan boğulub ölüblər. Nə isə… allah hər ikisinə rəhmət eləsin, qəbirləri nurla dolsun. Y.Məmmədov

özünün qısa ömründə çox iş gördü. O, həmişə onu sevənlərin ürəyində yaşayajaqdır. Yelmarın dörd övladı – iki qızı, iki oğlu ata həsrəti ilə böyüyürlər.

QEYRƏTLİ QADINLARIMIZ.

Xalqların sayca böyük-kiçikliyindən asılı olmayaraq onların yetişdirdikləri böyük şəxsiyyətlər cismən həyatdan köçsələr də yaşayırlar və ən azı məxsus olduqları xalq nə qədər yaşasa onlar da yaşayacaqdır. Hər xalq özünün belə oğul və qızları ilə fəxr edib, onların adlarını həmişə fəxrlə çəkiblər.

Bizim xalqında oğlanları ilə bərabər belə qəhrəman qızları da olub. Kim unuda bilər 2500 il bundan əvvəl yaşamış qüdrətli dövlətimizin başçısı, Kir-Keyxosrov kimi Fatehi diz çökdürən Tomris ananı? Minnətdarlıqla, qurur hissi ilə adını çəkdiyimiz XV yüzilliyin görkəmli diplomat qadını Sara xatunun adını xalqımız heç zaman unutmaz. XX əsrdə də bizim belə qəhrəman qadınlarımız olub, indi də var və gələcəkdə də olacaqdır. Onlardan xalq qəhrəmanı Həcər xanımı, kişi Tavatı, Kərbəlayı Səkinəni, Kilə xanımı və başqalarını misal göstərə bilərik.

Əhməd xanın oğlu Ağayi Niyazi var-dövlətinə, şan-şöhrətinə güvənərək Həcər xanımı ram etmək istəyir. O, Həcər xanımın gizləndiyi evin qapısını döyərkən igid el qızı ona belə cavab verir:

Könlümü vermişəm bir mərd igidə,
Ona tay olarmı sən kimi gədə?
Nəbini sevərlər hər bir ölkədə,
Dov gəlməz aslana qorxaq tülkülər,
Batırmaz günəşi qara bürkülər.

***

Mənəm əzrayılın allam canını,
Sel kimi tökərəm düzə qanını.
Yığıb töksən əgər İran xanımı,
Dov gəlməz aslana qorxaq tülkülər,
Batırmaz günəşi qara bükülər.

Bu nəğmələr o taylı- bu taylı bütün Azərbaycana yayılmış, ustad aşıqlar tərəfindən oxunmuş və indi də oxunmaqdadır.

Dastanın süjetindən ən gərgin məqamlar Arazın o tayında vaqe olan Həcərin, Mehdinin, Nəbinin İranda həbs edilməsi, Təbriz qazamatından onların xilas edilməsi, xan oğlunun Həcər xanım tərəfindən öldürülməsi, Qarabağ qalasında qırx günlük mühasirə Hüseynəli xanla İran zabitinin əli-qolu bağlı mağaraya salınması və nəhayət çar və şah hökümətinin hiyləgər, alçaq tədbiri ilə Nəbinin İranda Larni məntəqəsində öldürülməsi xalqın bədii yaddaşında əbədi həkk edilmişdir.

Nəbinin çar və şah qurğusu ilə xəyanət əlinin, casus tüfənginin güllələri ilə şan-şan olmuş cəsədini torpağa tapşırarkən ağsaqqal atalar, ağbirçək analar ağı deyib ağlayır, gəlinlər-qızlar gizlincə saç yolub fəryad qoparır, aşıqların telli sazları közərib sızlayır, ürək parçalayan el nəğmələri dağda-daşda əks-səda verir.

Qara yurdu görüm xaraba,
Dağıldı urumda böyük bir oba.
Qoç Nəbi batıbdı ayılmaz xaba,
Darayın saçını, tellər ağlasın,
Yerisin üstümə ellər ağlasın.

***

Gözüm dəydi taxçadakı yəhərə,
Yellər əssin xəbər versin Həcərə.
Qanlı köynəyini versin Yetərə,
Darayın saçını, tellər ağlasın,
Yerisin üstümə ellər ağlasın.

***

Şüşəyə salsa da şahlar canını,
Qoç Nəbinin ellər alar qanını.
Dağıdar xanların xanımanını,
Darayın saçını, tellər ağlasın,
Yerisin üstümə ellər ağlasın.

Göründüyü kimi ustalarımızın yaratdığı bu nəğmədə intiqam andı ifadə edilmişdi.

DAĞ MAŞANLI GİLƏ ARVAD

Yazıçı-publisist Əlisahib Əroğul Gilə arvadın igidliyini çox gözəl təsvir etmişdir.

Həmidova Gilə Allahverdi qızı 1860-cı ildə Cəbrayıl qəzasının Dağmaşanlı kəndində dünyaya göz açıb. 3 oğul 3 qız anası olub. Həyat yoldaşı Fərhad Əhməd oğlu kəndin sayılan kişilərindən olub. Qaramal naxırı, qoyun sürüləri adla deyilib. Gənclik illərində, 1915-ci ildə kiçik oğlu Abbası südəmər çağı taun xəstəliyindən dünyasını dəyişibdi. Ərini vaxtsız itirən yoğun biləkli, iri gövdəli Gilə arvad özünü itirməyibdi. Oğullarına, qızlarına həm ata, həm də ana olan kişi qeyrətli bu qadın ərindən qalma təsərrüfatın da nizamının pozulmasına imkan verməyibdi. Ərinin paltarlarını əyninə geyib. Qəmər atına minib, ərindən qalma beşatılan tüfəngini-"Süzənini" də çiyninə salıbdı. Muzdur çobanları himayəsinə alıb, işdən əllərini soyutmağa qoymayıbdı. Qoyun sürülərini, qaramal naxırını arana-yaylağa özü çəkibdi. Qışı qışlaqda, yazı yazlaqda, yayı yaylaqda, payızı əfsanəvi Gəyən düzündə at belində sürü qabağında keçiribdi. Davarların, qaramalın baş sayını artırıb, təsərrüfatı daha da genişləndiribdi.

Deyirlər bir gün Qarakilsə yaylağında çobanları Gilə arvada xəbər çaltdırırlar ki, bəs gecələr sürüdən 1-2 qoyun yox olur, nə işdisə baş açа bilmirik. "Çörək sizi tutmasın, yəqin sürüyə ayı dadanıbdı" deyən Gilə arvad kişi paltarı geyinib,çiyninə kürkü salır, əlinə silah alıb arxaca gedir. Qaravula durur, qoyunların arasında yatır. Gecənin bir aləmi hənir alır, sürüyə qaraltı yaxınlaşdığını görür. Gələnin ayı olmadığını görüb tüfəngin lüləsini aşağı salır. Pusquya çəkilir. Qoyuna əl atan oğrunun üstünə atılır. Onu boğmalayır, öz ipi ilə oğrunun əl-ayağını sarıyır. Cıqqır çıxarmağa imkan vermir. Bu zaman başqa bir səmtdən ikinci bir qaraltını sürüyə yaxınlaşan görür. Birinci kimi onu da ələ keçirib əl-ayağını bağlayır və hər iki oğrunu arxacda saxlayır. Səhər açılanda məlum olur ki, hər iki oğru qonşu obanın çobanlarıdı. Sürüyə dadamal düşüblər. Əvvəllər oğurladıqları qoyunların geri qaytarılması müqabilində Gilə arvad oğruların əl-qolunu açıb buraxır.

Qonşudakı obadakılar, çobanlar Gilə arvaddan çox yanıqlı idilər. Qolunu bükə, özünə yaxın düşə bilmədikləri bu azman qadının öhdəsindən gələ bilmədiklərinə görə qınağa düşmüşdülər. Onlara dov gələn kişi cüssəlli Gilə arvaddan heyif çıxmağa girəvə gəzirdilər. Bir gün çobanların səhlənkarlığı

ucbatından Gilə arvadın sürüləri qonşu obanın xamını basır. Xam yiyələri, qoruq sahibləri çobanları döyüb əldən salırlar. Bununla kifayətlənməyib sürünü də paralayıb bir bölüyünü at döşü edirlər. Ələ keçirdikləri mal-qaranı qarət etmək fikrinə düşürlər. İş-işdən keçməmiş çobanlar dabanlarına tüpürüb Gilə arvada xəbərə qaçırlar. Həmin an tulum aşıb yağ tədarükü ilə məşğul olan Gilə arvad xəbəri eşitcək üççatma arxasından cəld ayağa qalxır. İri toppazlı zoğal çomağını əlinə alıb örükdən açdığı qəmərin belinə aşır. Hadisə yerinə çapır. Qarətçilərlə çomaq davasına girir. Çuxa doladığı qolunu qalxan edib çomaqla qarətçilərdən üçünü yaralayır. Yoldaşlarını başı qanlı görən digər iki qarətçi isə qaçıb aradan çıxır. Gilə arvad sürüdən bölükləndirib aparılan qoyunları əldən saldırır və geri qaytarır.

Gilə arvadın yaylaq qonşuları bir dəfə də səhər-səhər bulaqdan sənəklə su gətirməyə gedəndə onun ustünə boyunlarından gümüşü zınqırovlar asılmış canavarçıl iki çoban iti buraxıllar, daha doğrusu qışqırdırlar. Gilə arvad nə qışqırır, haray-həşir salır, nə də qorxub itlərin qabağından qaçır. Üstünə atılan itləri ağır mis sənəyi ilə elə bir güclə vurur ki, hər iki it elə ilk zərbədəncə yerə sərələnirlər. İtlərin boynundan zıngırovları açan Gilə arvad onları əlində səsləndirə-səsləndirə hadisə yerindən uzaqlaşır. Deyilənə görə Gilə arvad ömrünün son günlərinədək həmin zıngırovları öz dəmir sandığında saxlayırmış. Kişi qeyrətli Gilə arvadın həyatında bu kimi əhvalatlardan çox danışardılar. Ən böyük qəhrəmanləğı isə işğalçı XI qızıl ordu əsgərlərindən aldığı intiqam olmuşdu. Gilə arvad sarıqulaqların (bizim tərəflərdə rus əsgərlərinə dədə-babadan sarıqulaq deyərdilər) qənimidir deyirdilər. Hadisə kollektivləşmə zamanı, 1929-30-cu illərdə baş vermişdi.

Stalin hökümətinin elliklə kollektivləşmə haqqındakı qərarına bütün ölkə ərazisində olduğu kimi Azərbaycanda da ciddi dirənişlər gostərən tavanalı və ortabab kəndli ailələri olmuşdu. Onlar birləşərək kəndli hərəkatı şəklində qərarın yerinə yetirlməsinə müqavimət göstərmişlər. Silaha sarılanlar isə qaçaq dəstələri qismində Sovet hakimiyyəti ilə açıq-gizli yolla silahlı döyüşə girirmiş, üsyanlar törətmişlər. Gilə arvad da Stalin hökümətinin bu qərarını narazılıqla qarşılayan ortabab kəndlərindən biri olur. O da nə at minən, qılınc oynadan, silah tutan, el namı çəkən igid kimi yetişdirdiyi böyük oğlu Əhmədi, nə də təhsilli görmək

istədiyi, Qubadlıdakı rus-tatar məktəbində oxutduğu ortancıl oğlu Hümbəti qaçaq hərəkatına qoşulmalarına mane olmadı. Əhməd Fərhad oğlunun özü Dağmaşanlı icmasında fəaliyyət göstərən qaçaq dəstəsinə rəhbərlik etdi. Dağmaşanlı qaçaqları hökümət üçün bölgənin ən təhlükəli qaçaq dəstələrindən biri hesab olunurdu. Qarakilsənin Qızılcıq kəndindən olan qaçaq Qardaşxanın, Sirikli qaçaq Nazarın dəstələri ilə birləşən Dağmaşanlı qaçaqları Əhməd Fərhad oğlunun rəhbərliyi altında çayparanın ən möhtəbər və varlı şəxslərindən sayılan, dostu Hacı Cəbrayılın çağırışına qoşulurlar. Yusifbəyli kəndində kollektivləşməyə qarşı üsyan qaldıranlar təşkil edilmiş qırmızı partizan bölüyünü demək olar ki, tam məğlubiyyətə uğradırlar. Artıq avanqard milis bölüyünə 42 saylı Cəbrayıl sərhəd dəstəsinin bazasında yaradılan əlahiddə nizami rus əsgərlərindən ibarət çevik batalyon da Dağmaşanlı qaçaqlarının izinə salınır. Bir neçə dəfə Dağmaşanlı kəndinə hücumlar edirlər. Kənddə tutqular aparsalar, yanğınlar törətsələr də, qaçaqlardan bir kimsəni ələ keçirə bilmirlər. Gilə arvadın tədbirləri və köməyi, Əhməd Fərhad oğlunun şəxsi şücaəti sayəsində hökümət qüvvələri ilə döyüşən qaçaqlar sağ-salamat kəndi tərk edib aradan çıxa bilirlər. Tumas dağındakı gizlinc yerlərinə çəkilirlər.

Bir gün isə hökümət nümayəndələrinin ələ aldığı yerli muzdlular öz işini görür. Qaçaqların yerini dəqiqliyi ilə onlara xəbər verir. Əlahiddə hissə Tumas dağının ən hündür zirvələrindən biri olan "Qaramərəkənin" quzeyindəki sıx meşə massivində qaçaqları mühasirəyə alır. Qızğın döyüş gedir. Yerin relyefinə daha dərindən bələd olan qaçaqlar mühasirəni yararaq aradan çıxıb meşənin təhlükəsiz yerlərinə üz tuturlar. Lakin həmin döyüşdə Hümbət Fərhad oğlu həlak olur. Ruslar Əhmədin qardaşının meyitini götürməsinə imkan vermirlər. Bundan xəbər tutan Gilə arvad axşam qaranlıq düşəndə kiçik oğlu Abbasla şaxvan və çatı götürüb çətin keçidlərlə, sıldırımlı yollarla Hümbətin meyitini götürməyə gedir. Meyiti tapır. Onu şavxana büküb çatı ilə kürəyinə şəlləyir. Ana balasının meyitini çox çətinliklə olsa da, gətirib mərəyə qoyur. Üstünü samanla örtür. Cırıxlanmış, şuruğu çıxmış paltarlarını dəyişir, əyin-başını sahmana salır. Gözünün acısını ayaq üstə alır. Sübh tezdən enkevede işçiləri qapısını kəsdirir. Qaçaq Əhmədi axtarırıq deyərək, bu bəhanəylə əslində Hümbətin meyitinin yerini müəyyən etmək, öyrənmək üçün həyət-bacaya baxış keçirirlər. İçindən qan ağlayan ana üzdən təhər-tövrünü

pozmadan onları müsafir kimi qarşılayır. əhməddən neçə günlərdi xəbər olmadığını, ondan nigaran qaldığını deyir və sonda bu qansız insanları çay-çörək süfrəsinə təklif edir. Meyitin bu həndəvərdə olmasından bir sudur anlamayan enkevede işçiləri kor-peşman qalır, gəldikləri kimi də əli boş çıxıb gedirlər. Gilə arvad isə ürəyinin qanını axıda-axıda axşamın düşməsini gözləyir. Gecə yarısı o, özünə simsar bilib xəbər verdiyi kəndin bir neçə adamı ilə birgə Hümbətin cəsədini kənd qəbristanlığında torpağa tapşırırlar.

Gilə arvadın gecəsi-gündüzü yox idi. Oğul deyə ah-fəğan edirdi. Yata bilmirdi. Yuxusu ərşə çəkilmişdi. Ancaq və ancaq gavur adlandırdığı sarıqulaqlardan- rus əsgərlərindən oğlunun qisasını almaq barədə düşünürdü. Fikir döyüşdürürdü. Bu vaxt, gecənin bir əyyamı yavaşcadan qapı döyüldü. Ana bildi ki, gələn Əhməddir. Qapını açdı. Ana-bala bir-birinə sarıldılar. Göz yaşı axıtdılar. Əhmədin gözlərindən qan damırdı. Ana Hümbətin meyitini gətirməsindən, necə dəfn etməsindən danışdı. Oğul isə anasına sabah ağır döyüş olacağını xəbər verdi. Deyir ki, üstümüzə qırmızı partizan dəstələri ilə bərabər əlahiddə hərbi hissə də gələcək. Mən qardaşımın qanını almaq üçüçn son damla qanımadək düşmənlə döyüşəcəm. Səndən bu gecə vaxtı halallıq almağa gəlmişəm. Ana oğluna ancaq ehtiyatlı olmağı, qırğına çox yol verməmək arzusunu bildirdi. Özünün isə düşmənlə döyüşmək fikrində olduğunu bir kimsəyə belə sızdırmadı. Əhməd anasıyla vidalaşıb "Alapaça" atının tərkinə qalxdı və gecənin qaranlığına bürünüb gözdən itdi. Gilə arvad həmin gecəni çimir almadı. Səhəri diri-gözlü açdı. Əziz balasının – Hümbətin intiqamını sarıqulaqlılardan almağın məqamıydı. Girəvəni əldən vermək olmazdı. Həm də istədiyi itkiyə məruz qoya bilsəydi,düşmən pərən-pərən düşərdi. Əhmədin də nəinki sağ can qurtarmasına, habelə gücü-gücündən üstün olan sarıqulaqların mövqeyinə həmlə etməsinə və böyük uğur qazanmasına yol açmış olardı. Hümbətinin qisasını almaq üçün alışıb-yanan ana fikirləşdiyi qaydada-ancaq bir özünə məlum olan, xəyalən cızdığı və qəbul etdiyi plan üzrə hərəkət etdi. Beşaçılanı uzun koftası altdan çiyninə saldı. Güllə dolu balaca dağarcığı əlinə alıb günəş gözün çərtməmiş kənddən çıxdı. Hərbi hissənin gəlib keçəcəyi dağ bərəsindəki əvvəlcədən pəsədlədiyi səngər daşın oyuğuna girdi. Səsini içinə çəkdi. Kürəyindən nəfəs ala-ala özünə qəddar düşmən sandığı sarıqulaqların yolunu gözlədi. Oraq-çəkicli qırmızı ulduz nişanlı əsgərləri olan

hərbi hissənin ön cərgədəkilərini lap yaxına buraxıb Gilə arvad onların topasını qarovula alıb tətiyi çəkəndə Günəş çatı boyu göy üzünə qalxmışdı. İntiqam hissiylə içi dolmuş ana uf demədən 3 sıra, 5 sıra Süzəninin ehtiyat hissəsinə güllə doldurub sarıqulaqları gülləbaran edirdi. Əlahiddə batalyan əsgərlərinin pərən-pərən düşdüyünü uca dağ zirvəsindən müşahidə edən dəstəsini həmləyə səsləyən Əhməd Fərhad oğlu sanki bu hadisəni gözləyirmiş kimi Koroğlu sayaq necə qışqırdısa dağa-daşa səs düşdü. Bir onu qəlbən duydu ki, nəfəsinə əlavə nəfəs, gücünə güc verən, bu tövqəl hadisəni törədən anasıdır. Düşmən əsgərləri dağ ətəyində yarımmühasirə vəziyyətində tələyə düşdüklərini zənn edib yala-yamaca, dağa-daşa, havaya atəş açа-açа bərədən can qurtarmağa çalışdılar. Bərə-keçid ağzına baxmadan, əsgər meyitlərini götürməyə səy göstərmədən hədəfdən yayınmağa, tələdən uzaqlaşmağa can atdılar. Gəyən düzünə səpələndilər. Dağ gəzlərindən, o üz-bu üz gədiklərdən basmapapaq qaçaqları da üstlərinə şığıyan görüb tamam-kamal özlərini itirdilər. Dağ bərəsindən 4-5 verst uzaqlaşdıqdan sonra topqarlana bildilər. Bir onu dərk etdilər ki, kifayət qədər itkilərlə üzləşiblər. Bu döyüşdə sınıq düşdüklərini anlayıb qaçaqlarla atışa-atışa bir tərəflərini qaçaraq qoyub Qubadlı istiqamətində geri çəkilməyi özlərinə yeganə nicat yolu sandılar. Qaçaqlar rus əsgərlərini Xanlığın qaşı adlanan əraziyədək qovdular. Həmin gün öz ölümlərindən belə çəkinməyən, qisas qiyamətə qalmaz deyən ana-bala ruslara kifayət qədər sarsıdıcı zərbələr vurdular. İşğalçı ordu əsgərlərindən 40-50 nəfəri cəhənnəmə vasil edildi. Sonralar danışırdılar ki, sarıqulaqlıların 19-20 nəfəri ancaq Gilə arvadın gülləsinə tuş gələnlər olmuşdu.

Həmin hadisədən sonra Dağmaşanlı qaçaqlarının məhv edilməsi məsələsinə Azərbaycan SSR-in Baş Siyasi İdarəsində baxıldı və nəzarətə götürüldü. Qərarın yerinə yetirilməsi baş idarənin yüksək çinli rəhbəri R.Markaryana həvalə edildi. Dağmaşanlı kəndinə çevik hərbi hissə yeridildi. Kənd camaatına elan edildi ki, qaçaq Əhməd və onun dəstəsi ələ verilməsə, hər evdən bir nəfər güllələnəcək. Deyilənə görə, bu zaman Dağmaşanlı kəndinin də daxil olduğu Dağtumas kənd Sovetinin sədri işləyən Üzeyir Molla Nəbi oğlu sinəsini açaraq rus zabitinin qarşısına çıxır və qorxmadan bəyan edir ki, yerli hökümətin nümayəndəsi kimi əvvəl məni güllələyin, ondan sonra bu amansız akta əl atın, fağır-fugaranı güllələyin. Üzeyir Molla Həbi oğlunun sərt, mərdanə hərəkətindən sonra rus zabit

güllələmə üçün toplanan insanları evlərinə buraxır. Lakin onun göstərişi ilə Əhməd Fərhad oğlu başda olmaqla 7 silahdaşının evinə od vurulur və əmlakları talan edilir. Bundan sonra qaçaqları korşutmaq, anlara təsir etmək, mübarizədən çəkindirmək üçün ən çirkin, alçaq yollara əl atırlar.

Aldadılaraq xəyanət yolu ilə tərksilah edilən və ələ keçirilən Əhməd Fərhad oğlunun başçılıq etdiyi və özü də daxil olmaqla 8 nəfərdən ibarət Dağmaşanlı qaçaqları (dəstə üzvlərindən 1 nəfəri Cəbrayıl qəzasının indiki Qubadlı rayonunun Yusifbəyli kəndindən olmuşdur) Azərbaycan SSR XDİK-nin rəhbər orqanında yuva qurmuş daşnak Ruben Markaryanın düzüstü göstərişi əsasında 1930-cu il iyulun 28-də 42 saylı Cəbrayıl sərhəd dəstəsinin hərbi şəhərciyində güllələnərək quyulandılar. Həddi-buluğ yaşına çatmayan kiçik qardaşı Abbas Fərhad oğlu isə 5 il müddətinə Murmanski şəhərinə sürgün edildi. 2 oğlu güllələnmiş, son beşiyi sürgünə göndərilmiş Gilə arvad ömür yolunda çox böyük faciələrlə üzləşsə də, əyilsə də, dözümünə, dəyanətinə sığınaraq sınmadı. Qapısından toyla-düyünlə, halallıqla ər evinə 3 qız köçürtdü, güllələnmiş oğlanlarının başsız qalmış ailələrinə həyan oldu. Qayğılarını çəkdi. Qorxu-hürkü bilmədən sürgün edilmiş oğlu barədə aramsız olaraq yuxarı orqanlara sorğularla müraciətlər etdi, onun sahibsiz olmadığını daim diqqətə çatdırdı, kimsəsiz bir "düşmən elementi" kimi tələf edilməsinə imkan vermədi. Cəza müddətini başa vurub qayıdan oğlunu Bakı şəhərində qarşılayan ana onun yeni həyata uyğunlaşmasına qayğı göstərdi. Uzun illər qanundakı qadağalara görə Cəbrayıl rayonundan kənarda yaşamalı olsa da, Abbas Fərhad oğlu həyatının qalan hissəsini əmin-amanlıq şəraitində keçirdi, ailə qurdu, Dağmaşanlı kəndinin sayılıb-seçilən kişilərindən biri kimi ömür sürdü. Gilə Allahverdi qızı da Tanrı verən ömürü yaşadı (deyilənə görə 110 il), sanılı gününü oğlu Abbas Fərhad oğlunun ocağı başında tamama yetirdi. O, 1964-cü ildə haqq dünyasına köçdü.

Allah rəhmət eləsin! Amin!

XVI FƏSİL

SULTAN BƏY İRSİNİN ARAŞDIRILMASI

Cəsur qardaşlar

Sultan bəyin öz xalqı qarşısında gördüyü vətənpərlik işlərinə görə dəyərini 90 il bundan öncə alıb və onu sözün həqiqi mənasında indi də xalq qəhrəmanı hesab edirlər və gələcəkdə də belə olacaqdır. Bununla yanaşı o, dövlət səviyyəsində hələ də layiq olduğunun yolunu gözləyir.

Ziyadxan Nəbibəyli qeyd edir:

Zəngəzurun, Laçının, Yuxarı Qarabağın və sair bölgələrimizin tarixini araşdıran, xeyli elmi kitabların, müxtəlif yazıların, ermənilərlə bağlı faciələrin araşdırıcısı kimi, mənəvi haqqı olan bir vətəndaş kimi böyük məsuliyyətlə deyə bilərəm ki, Sultan bəy irsinin araşdırılması, onun müasir zamanda bəlkə də hər gün təbliği Azərbaycan üçün çox gərəklidir. Bu isə ən çox tarixi sənət və sübutlara söykənən dəlillərlə, təkcə Azərbaycan xalqına deyil, bütün dünyaya çatdırılmalıdır. Çünki, Azərbaycan xalqının, Azərbaycan dövlətinin, onun dostlarının, geniş ictimaiyyətin buna böyük ehtiyacı vardır.

Sevindirici odur ki, 29 yanvar 2011-ci il tarixdə Prezident Aparatının məsul əməkdaşı Rövşən müəllim və Laçın rayon icra başçısı Ramiz Cəbrayılovun rəhbərliyi ilə laçınlı ziyalıların, mətbuat işçilərinin, digər insanların, Sultan bəyin yaxın qohumlarının iştirakı ilə Sultan bəyin anadan olmasının 140 illiyinə həsr olunmuş ilk yığıncaq keçirildi, insanlar öz fikirlərini bölüşdülər. Məlum oldu ki, tədbir və gələcəkdə görüləcək digər işlər Respublika rəhbərliyinin siyasi iradəsinin nəticəsidir.

Sultan bəyin əməyinin dəyərləndirilməsi üçün, mənim şəxsi fikrimcə, onun əhatəsi, yaşadığı, mühit və bölgə, keçdiyi yollar, göstərdiyi xidmətlər tarixi sənədlərə söykənən məlumatlar əsasında olmalıdır və bu barədə kifayət qədər sənədlər vardır. Burada bir məsələni də diqqətdə saxlamaq lazımdır ki, o da onun qardaşı Xosrov bəyin keçdiyi yol, atası Paşa bəyin, İbrahim bəyin, Cəlil bəyin, xanımının qohumları olan dəyərli bəylərin xidmətləri ilə birlikdə aparılan araşdırmalar olmalıdır. Digər vacib məsələ Azərbaycan xalqının 300 illik qatı düşməni, Azərbaycanın əzəli torpaqlarında məskunlaşan, havasını udan, suyunu içən, çörəyini yeyən, bu xalqdan qayğı görən, lakin kürəyimizə arxadan xəncər saplayan, qızlarımızı, gəlinlərimizi zorlayan, döşlərini kəsən, gözünü çıxardan, dərisini soyan, diri-diri quyulara dolduran, məscidlərə yığıb yandıran, çılpaq kürəyə qaynar samavar bağlayan, körpələri nizəyə keçirən, parçalayan və s.

insanlığa yad olam əməllər törədən ermənilərin hansı qüvvələrlə Sultan bəy və onun tərəfdarları ilə üzbəüz, gəlməsi məsələləridir.

Sultan bəyin böyüklüyünü təkcə 1918-ci il Zəngəzur hadisələri ilə çərçivələndirmək olmaz. O, müxtəlif illərdə müxtəlif şəhər və kəndlərin, əhalisinin müdafiəsində əvəzsiz xidmətlər göstərmiş şəxsdir.

Tarixi sənədlər, müxtəlif cürə qeydə alınmış hadisələr, real həqiqətlər göstərir ki, ermənilərin istər Cənubi Azərbaycanın şəhər və kəndlərində, istər Şimali Azərbaycan torpaqlarında, Qərbi Azərbaycanda (indiki Ermənistanda), Naxçıvanda, Borçalıda, Dərbənd vilayətində, Zəngəzurda, Kür-Araz və Kars Demokratik Cümhuriyyəti torpaqlarında ermənilərə layiq olduqları cəzaları Sultan bəy səviyyəsində və həcmində heç kim verməmişdir.

Budur Sultan bəyin böyüklüyü!

Sultan bəy çox cavan yaşlarından atası Paşa bəylə, Araflıdan olan İbrahim bəylə Şuşada, Yuxarı Qarabağda, Zəngəzurda, Laçın bölgəsinin həm Qərb və həm də Şərq hissələrində ermənilərlə sərhəd kəndlərində erməni qımdaxlarına qarşı müdafiə işlərində fəallıq göstərmişdir.

1902-1907-ci illər arasında demək olar ki, ermənilər Azərbaycanın hər yerində əhaliyə silahlı basqınlar, qırğınlar, dağıntılar törətmişlər. Ruslar Rusiyanın özündə xüsusi mərkəzlər təşkil etmişlər ki, burada erməni qımdaxanalar qımdax hazırlıqları keçir, silah-sursatdan və digər vasitələrdən istifadəni öyrənib Azərbaycana göndərilirdi.

Artıq 1904-cü ildə Bakıda, 1905-ci ildə İrəvanda, Naxçıvanda, Təbrizdə, Xorasanda, Şuşada, Şuşa ətrafı kəndlərdə, Tiflisdə, Gəncədə, 1905-ci ilin oktyabr ayında yenidən Bakıda, 1906-cı ildə Qarabağın, Malıbəyli, Xankəndi, Qaybalı, Pirəmikidə, Xələflidə, Paprəvənddə, Əsgəranda, Gülablıda, Abdalda, Qacarda, xüsusən də aşağı Zəngəzurda – onun Qarakimsə (Sisyan), Vağadü, Molla Əhmədlidə, Quşçuda, Fərəcanda, Əliyanlıda, 2-ci Fərəcanda, Qaragöldə, Hacılarda, Güləbirddə, Mığrıda, Mədəndə, Sadınlarda, Cicimlidə, Qarakilsədə, Ağbulaqda, Fərraşda, İrçəndə və s. yaşayış məntəqələrində ermənilər silahlı qırğınlar törədir, kəndləri yandırır, kəndlərin var-dövlətlərini talan edir, ələ keçən insanları insanlığa yaraşmayan üsullarla, yandırmaqla məhv edirdilər. Sultan bəy bu "qaynar qazan"ın içində idi. Bu dövrlərdə yerli hakimiyyətin zəif olmasından,

rusların ancaq müsəlmanları günahlandırmağı, silahsız və hətta silahdan istifadəni hamının bilməməsi çox faciəli nəticələrə gətirib çıxarırdı. Zəngəzurun mərkəzi Gorusda isə hakimiyyəti təmsil edən azərbaycanlılar qovulmuş, oradakı müsəlman əhali tam məhv edilmişdi. Bu dövrlərdə insanlara ən böyük köməyi Mir Möhsüm Nəvvabın və digərlərinin yazdığına görə Zəngəzurda, Şuşada, Laçında və Qarabağın bir çox yerlərində ermənilərə layiq olduqları cəzanı Laçının Araflı kəndindən olan İbrahim bəy Alməmməd bəy oğlu, Paşa bəy Murad oğlunun sərkərdəliyi ilə özlərinin yaratdığı dəstələr olmuşdur. Təbii ki, bu döyüşlərdə Sultan bəy də arxa cəbhədə fəallıq edir, əlaqələndirici qismində iştirak edirdi. İbrahim bəyin başına isə ermənilər qiymət qoymuşdular.

Ümumilikdə bir çox tarixi məqamlarda Laçın əhalisi arasından çıxmış xeyli sayda xalq qəhrəmanları olmuşdur. Bunlardan biri də Sultan bəyin dostluq etdiyi İbrahim bəydir. 1906-cı ilin iyul ayında Şuşa şəhərində erməni-müsəlman davası zamanı Şuşada şəhərin ermənilər tərəfindən mühasirəsini 1-ci yaran İbrahim bəy olmuşdur. Onun ardınca Sultan bəy şəhərə girmişdir, (Mir Möhsüm Nəvvab).

Bu döyüşdə İbrahim bəy şəhid olaraq böyük hörmətlə xalq qəhrəmanı kimi Gövhər Ağa Məscidi həyətində dəfn edilmişdir. Sultan bəylə Paşa bəy İbrahim bəyin rəhbərlik etdiyi igidləri öz dəstləri arasında yerbəyer edərək Şuşanı erməni qəsbkarlarından azad etmişlər. Paşa bəy bu və ya digər müharibə meydanlarında vuruşa-vuruşa böyük sərkərdə və xalq qəhrəmanı səviyyəsinə yüksəlmişdir. Nəvvab qeyd edir ki, "sonralar bu işə Paşa bəy və Sultan bəy də qoşulmuşlar, torpaq uğrunda böyük mübarizlik göstərmişlər (Yəni İbrahim bəy və digər bəylərdən sonra)". Sultan bəy atası Paşa bəyin və digər insanların söylədiklərindən də məlumatlı idi.

Sultan bəyə yaxşı məlum idi ki, 1877-ci ildə ermənilər üçkilsədə (Eçmiədzində) pul kəsən maşın tapıb, 9 milyon qəlp əskinaz pul kəsdikdə, 48 yaşlı Cəbrayıl bəy (Zəngəzurun Sultanı, Qarabağ qoşunlarının rəhbəri) dövlətə yardımçı olaraq, qəflətən tökülüb həmin pulları və çap maşınını müşadirə etməkdə, pulkəsənləri və kəsdirənləri tutub dövlətə təhvil verməkdə ad çıxarmışdır. Sultan bəy bölgədə gedən və əvvəllər törədilmiş erməni qırğınları, onların havadarları haqqında da məlumatlı idi.

1918-ci il yayın axırı və payızda erməni daşnağı, qulağı kəsik Andranikin qoşunları Cənubi və Şimali Azərbaycanın, Türkiyənin, Gürcüstanın bir çox yerlərində bacardığı qədər faciələr törətdikdən sonra öz qoşunlarını aşağı Zəngəzurda cəmləmişdi. Məqsədi Zəngəzurla Aran Qarabağı birləşdirmək, Şaumyanın məktubuna uyğun olaraq Azərbaycan türklərini bir yolluq məhv etməklə dənizdən-dənizə böyük ermənistan yaratmaq planını həyata keçirmək idi. Bu plan çoxdan var idi və erməni kilsəsindən idarə edilir, məsləhətlər verilirdi. Andranik sadə hərbiçi deyildi, Türkiyədə döyüşlərdə iştirak etmişdi, Rusiyada oxumuş və hərbi təcrübə keçmişdi, general-mayor hərbi rütbəsini almışdı, qatı millətçi idi, türkü görməyə gözü yox idi. Qriqoryan kilsəsindən "xeyir-dua" almışdı, o dövrün hərb qaydalarını yaxşı bilirdi. Qeyd edək ki, həmin dövrlərdə tarixən Qarabağ xanlığına, Gəncə, Təbriz bəylərbəyliyinə daxil olan Zəngəzur parçalanmış, Arazdan cənuba olan torpaqlar Tehrana tabe idi, yuxarı hissə isə iki-üç hissəyə bölünmüşdü və Yuxarı Zəngəzura Hacısamlı dərəsi adı verilmişdi. Qarabağın general-qubernatoru Xosrov bəyin qardaşı Sultan bəy Hacısamlı sahəsinin bəyi idi. 1918-ci ildə bu torpaqlarda ümumi vəziyyət də erməni basqınları səbəbindən acınacaqlı idi. İnsanlar təsərrüfatları ilə məşğul ola bilmir, Aran Qarabağ elatının dağa çıxa bilməmələri ucbatından Qarabağın həm aranında, həm də dağında, ümumilikdə Zəngəzurda, o cümlədən Laçın bölgəsində vəiyyət ağır idi, heç yerdən də kömək yox idi. Orada silah, silahdan istifadə edəcək insanlar yetərincə deyildi. Qarabağla əlaqə kəsilmişdi, Qarabağın qubernatoru ancaq Şuşa, Ağdam, Cəbrayıl və s. yerlərdəki faciələri yoluna qoymaqla məşğul idi və Zəngəzura kömək iqtidarında deyildi, qüvvələr yetərincə deyildi. Zəngəzurda isə tayqulaq Andranikin və digər erməni qruplaşmalarının vəhşiliklərinin həddi-hüdudu yox idi. Sultan bəy də bu işlərin içində idi, bir tərəfi müdafiə edəndə 2-ci tərəfdən ermənilər tam silahlanmış güclü ordu ilə hücuma keçirdilər. İnsanlar da vahimə içərisində yaşayırdılar. Sultan bəyin öz dəstəsi ilə Gorus-Abdallar (Laçın)-Şuşa yolunun müdafiəsində olduğundan istifadə edən ermənilər Hacılar, Qaragöl, Minkənd tərəfdən hücuma keçərək bir neçə kəndi viran qoymuş, insanları vəhşiliklə qətlə yetirmiş, girov götürmüş, insanların var-dövlətini, heyvanlarını aparmışdılar.

Cəsur qardaşlar

Sultan bəyin hansı faciələrlə üzbəüz dayandığını dərk etmək üçün Laçının Daşbulaq deyilən hissəsində baş vermiş faciəni missal göstərə bilərik.

Burada ermənilər bir həyətdə əli silahsız dörd kişini ağaca sarımış, cavan əliuşaqlı gəlini növbə ilə zorlamış, sonra suyu qaynayan isti samovarı onun çılpaq kürəyinə sarımış, döşünün birini kəsərək körpənin ağzına tıxamış, gəlinin əllərini sarıyarpaq ayağında sicimlə hörükləmişlər. Gəlin hörükdən xilas ola bilməmiş, qaynayan samovar onu öldürənə qədər çırpınaraq ah-nalə çəkmişdir. Anaya və bu kişilərə verilən cəzalardan biri də, bələkdə olan körpə uşağı onların gözü qarşısında söyə-söyə nizəyə taxmış və nizənin 2-ci tərəfini yerə basdırmaqla, nizəyə taxılmış körpə göydə qalmışdır. Sonra kişilərdən üçünün qolunu, ayaqlarını, başını ayrıca kəsərək bədənlərini ağaca sarınmış saxlamışlar. Dördüncü kişinin isə ayıb yerini kəsərək ağzına tıxamış, gözünün birini çıxarmış, sağ əlinin içinə atəş açmışlar. Sultan bəyin köməyə gələn dəstəsi hadisənin şahidi olmuş, digər məqamları isə can üstə olan kişi başa salmaqla həyatını dəyişmişdir. Hadisə insanları dəhşətə gətirmiş, hətta bəziləri özünü saxlaya bilməyib, hönkürtü ilə ağlamışdır.

Həmin ərəfədə Sultan bəy Araflıda Alməmməd Sultanın (Zəngəzurun sultanı) nəvəsi Mirzə Həmid bəyin evində idi və özünü müdafiə dəstələri düzəltməklə məşğul idi. Yuxarıda dediyimiz faciəni yaxşı bilən Sultan bəy göstəriş verir ki, gəlinə, uşağa və parçalanmış kişilərə heç nə etmədən, necə var eləcədə gətirsinlər Araflıya (Alaflıya).

Sultan bəy Mirzə Həmid bəyin tövləsinə ermənilərlə döyüşdən yayınan xeyli adam da saldırmışdı. Sultan bəy meyitlərə bir-bir diqqətlə baxdıqdan sonra göstərir ki, fərariləri Mirzə Həmid bəyin xırmanının ətrafına dairəvi şəkildə düzsünlər. Sultan bəylə onun bir neçə dəstə başçısı Əvil bəy, Ədil bəy, Xosrov bəy, Camal bəy və s. fərarilərin qarşısına çıxırlar. Mirzə Həmid bəy də əlində ipək parçaya bükülmüş Quranla birlikdə Sultan bəyin sağında dayanır. Mirzə Həmid bəy həm də Məşədi idi, islamı yaxşı bilirdi, əsl Allah adamı idi.

Sultan bəy fərarilərə müraciət edərək deyir ki, mən sizə heç nə deməyəcəm, heç bir cəza da nə indi, nədə ki, gələcəkdə verməyəcəyəm, inanmasanız Mirzə Həmid bəyin Quranına da and içəcəm. Amma, indi sizlərə bir şey göstərəcəklər, baxıb dağılışarsız evlərinizə. Sultan bəy göstəriş verir ki, o kilimlərlə-cecimləri gətirin qoyun bəyin xırmanın ortasına.

Elə də edirlər. Ətrafdakı insanlar döşü kəsilmiş, kürəyində samovar olan qadını və nizəyə taxılmış bələkdəki uşağı, eybəcər hala salınmış və bir-birinə qarışmış kişi qollarını, başlarını, qılçalarını və s. gördükdən sonra çox pis hala düşürlər və bir-bir Sultan bəyə baş əyərək Mirzə Həmid bəyin əlindəki Qurani-Kərimə əl basaraq and içirlər ki, bu qan yerdə qalmayacaq, hamı bir nəfər kimi ölənə qədər döyüşəcəklər. Bu hadisə bütün təfərrüatı ilə Hacısamlıya, Yuxarı Zəngəzura yayılır. Hadisədən sonra bir çox insanlar öz xoşları ilə Hacısamlı özünü müdafiə dəstələrinə qoşulurlar.

Sultan bəy üçün çox çətin idi. Silah yox, təcrübəli ordu yox, insanlar silah olanda da ondan istifadəni bacarmır, qardaşı Xosrov bəydən yardım ala bilmir, Cümhuriyyətdən heç bir silah-sursat və əsgəri qüvvə ala bilmir, Zəngəzurun bütün çevrəsi erməni silahları, təlim görmüş ordu ilə əhatələnmişdi. Belə bir şəraitdə bu çevrəni yarıb çıxmaq da sual altında idi. Sultan bəyin yeganə çıxışı Laçın əhalisi və onun qeyrəti idi.

Daşnak Andranikin qoşunlarının kifayət qədər silahları, o cümlədən topları da var idi. İndi olduğu kimi Fransa, İngiltərə, Yunanıstan, Rusiya, ABŞ və s. dövlətlər ermənilərı silahla, paltarla, pulla, qida ilə təmin edirdilər və ADR-nın dirçəlməsinə imkan verməк istəmirdilər.

Sultan bəyin Laçın bölgəsinin bir çox kəndlərində apardığı görüşlər, sayəsində, top və dövrün yaxşı silahlarını almaq üçün insanlar Sultan bəyin dəstəsinə kömək etməyə başlayırlar. Qaratel xanım Paşa bəy qızı danışırdı ki, Sultan bəyə bir "ətək" qızıl-gümüş verdik ki, top ala bilsin. Bu yardım sayəsində Sultan bəy bir ədəd top alıb Qaragöl tərəfdə qoymaqla Andranikin qoşunlarını Laçın (Abdallar kəndi) şəhərinin ətəyindəki Zabux çayında məhv edənə qədər Gorus şəhərini nəzarətdə saxlamaqla mümkün olmuşdur. Elə bu top da Andraniki məcbur etmişdir ki, Sultan bəylə danışığa getsin. Həmin vaxtlarda aşağı Zəngəzurda 1918-ci ilin ancaq yayın axırı və payızda müsəlmanların başlarına gətirilən faciələri isə Azərbaycan Cümhuriyyəti Fövqəladə Təhqiqat Komissiyasının Gəncə Quberniyasına aid olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzası üzrə müsəlman kənd və insanlarının ermənilər tərəfindən başlarına gətirilən faciələri araşdıran komissiyanın üzvü Mixaylovun üzdən-üzdən tərtib etdiyi və bütün faciələri tam əks etdirməyən məruzəsində deyilir:

Cəsur qardaşlar

“Hazır ki, məruzədə Sizə Qarabağın Cavanşır, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında baş vermiş faciəli bədbəxt hadisədən məlumat verəcəyik. Deməliyik ki, oktyabr 1918-ci ilə kimi Azərbaycan Respublikasının Bakı, Quba, Şamaxı, Lənkəran və s. qəzalarında ermənilərin yerli müsəlman əhalisinə verdikləri dəhşətli qırğınlar azalsa da Gəncə Quberniyasının dörd qəzasında – yəni Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında bu faciələr hələ də davam etməkdədir. Bu qəzalarda insan təfəkküründə sığışmayan vəhşilikləri yerli ermənilərlə yanaşı İrəvan quberniyasından gələn ermənilər və silahlı əsgərlər, Türkiyə vilayətlərindən gətirilmiş silahlı, böyük silah-sursata malik Andranikin rəhbərlik etdiyi nizami erməni qoşunları və bu torpaqları, onun insanlarını, Erməni Respublikasına tabe etdirmək istəyən və erməni hökumətinin təşkil etdiyi erməni hərbi birləşmələri törətməkdə davam edirlər. (Mixaylovun məruzəsindən açıqca görünür ki, Sultan bəy hansı erməni qüvvələri ilə üzbəüz idi). Zəngəzur qəzası hazırda dediyimiz dörd qəzadan daha da ağır vəziyyətdə olanıdır. Belə ki, ermənilər Zəngəzuru Cəbrayıl və Şuşadan ayırıblar və hiss edirlər ki, onlar silah-sursatdan, əsgəri qüvvədən müsəlmanlarla müqayisədə çox üstündürlər və bu imkandan bəhrələnərək Zəngəzurun kəndlərini yandırmaq, qarət etmək, insanlarını məhv etməklə torpaqları ələ keçirmək niyyətindədirlər. Bununla yanaşı Andranik, erməni hökuməti ilə birləşərək, Ermənistan hökumətinin imzaladığı direktivi də əsas sənəd kimi müsəlman kəndlərinin boşaldılaraq Ermənistana tabe olmağı tələb edirlər. Savadsız kəndliləri aldadaraq toparlayıb vəhşiliklə məhv edirlər, guya xristianlığı qəbul etdirmək məqsədi ilə məscidlərə yığdıqdan sonra yandırırdılar. Onlar müsəlman kəndlərinin bir-biri ilə əlaqəsini kəsdiyindən heç yerlə əlaqələri yoxdur, onları müdafiə edən qüvvələrə malik deyillər, əhalinin özü silahsızdır. Ermənilər öz hökumətlərinin torpaq sahələrini genişləndirmək üçün hətta öz evlərini, malını-mülkünü ataraq qaçanlara da aman vermir, boş evləri belə, tam yandırmadan əl çəkmirlər. Müsəlman kəndlərindən Sisiyan (Qarakimsə) mahalının 1-ci polis sahəsi, 2-ci sahənin əksəriyyəti, 3-cü, 4-cü və 5-ci polis sahələrinin hamısı tam məhv edilmişdir. Ermənilər tutduqları bu torpaqlarda hətta təcili müəyyən əkin işləri də aparırlar.

Bu kəndlərdən olan əhalinin sayı bizdə 50 mindən çox olan və sağ qalmış müsəlmanlardır ki, onlar da Cəbrayıl qəzasının 4-cü sahəsində acınacaqlı

vəziyyətdədir, məhv olmuş və adları siyahıya düşmüş müsəlman kəndlərinin sayı 115-dir.

Mixaylovun yazılarından da görünür ki, Qarabağın dilbər guşələrindən olan Zəngəzur sultanlığı hansı faciələr görmüş və Laçın əhalisi, onun müdafiəçisi Sultan bəy hansı cəsarət sahibi olmuşlar. Sultan bəyin erməni silahlı qüvvələrinə qarşı atdığı addımlar və onların nəticələri onu Azərbaycan tarixində unudulmayan çox böyük bir xalq qəhrəmanı səviyyəsinə yüksəltsə də biz hələ də onun layiq olduğu dəyərini verməmişik. O, çoxdan yüksək səviyyədə təbliğ olunmalı idi. Onun adına bütün bölgələrdə küçələr olmalı idi, onun adı ilə mükafat təsis olunmalı, Sultan bəy ordeni, medalı olmalı idi, istirahət parkları salınmalı idi, yeni tikilən kənd və qəsəbələrə onun adı verilməli idi, mətbuatda, televiziyalarda həmişə ona həsr olunmuş verilişlər verilməli idi, görkəmli bir yerdə əzəmətli heykəli qoyulmalı idi və sairə. Bunun sayəsində də gənc nəsl vətənpərvərlik ruhunda təlim almaqla, Sultan bəy ruhlu olmağı arzu edərdilər. Yeri gəlmişkən təklif olaraq demək istərdim ki, yeni istifadəyə veriləcək avtovağzal, yaxud Dərnəgül metrostansiyalarından birinə Sultan bəyin adının verilməsi onun anadan olmasının 140 illiyinə çox gözəl töhvə olardı. Maraqlı orasındadır ki, Sultan bəyin nəvəsi Elburus bəy uzun illərdir bu metroda məsul vəzifədə çalışır.

Bu yazının müəllifi bir neçə il öncə Sultan bəyin qardaşı-həkim, Zaqafqaziya seyminin, Azərbaycan Parlamentinin üzvü, AXC dövründə ilk hərbi nazir, ikinci hökumətdə əkinçilik naziri, Qarabağın general-qubernatoru, Müsavat hökümətini dəstəkləyən "İttihad" partiyasında başqan müavini, mühaciratda "İttihad"ın sədri – siyasətçi, 2-ci dünya müharibəsində öz qohumu olan Sovet hərbiçisi İsrafil bəyin vasitəçiliyi ilə türk-müsəlmanı alman əsirliyində olan insanların sobalarda yandırılmasının qarşısını alanlardan biri və ən nəhayət öz əziz canını ancaq vətəninə qurban verən Xosrov bəyi araşdırdıqca, Sultan bəy haqqında insanlarımıza məlum olmayan xeyli məlumatlar ortaya qoymuşdur. Bu məlumatlar da Sultan bəyin 1905-1923-cü illər arasında vətəni uğrunda, Qarabağ, Zəngəzur, Cənubi Azərbaycan, Qərbi Azərbyacan uğrunda ermənilərlə apardığı bir çox mücadilələrlə tanış olmaq imkanı yaradıb. Deyilən bölgələrin hamısında Sultan bəyin dostları, qohumları, həmfikirləri olmuşdur ki, onlar da Vətən savaşında Sultan bəyə yardımçı olmuşlar.

Cəsur qardaşlar

Sultan bəyə, Xosrov bəyin 1919-cu il 21-30 martında Əsgəran döyüşündə daşnak generalı Dronu məğlub etməsi, hələ də ermənilərin Laçına basqının davam etməsinin qarşısını almaqda böyük dayaq olmuşdur. Azərbaycanın daxilində bolşevik-daşnaq qoşunlarının, Qərbdən isə Ermənistanın şeytan qüvvələrinin bu bölgədən əl çəkmədikləri hər iki qardaşa gün kimi aydın idi.

Sultan bəy mütəmadi Xosrov bəylə-çətin də olsa əlaqə saxlaya bilmişdi. Bu işdə Sultan bəyə Laçının Araflı bəyləri, Arduşdu və Haxnəzər kəndinin insanları yardımçı olurdularsa, Şuşadan Xosrov bəyin müavini, Laçın qəzasının Qubadlı yaşayış məntəqəsindən olan Çingiz bəy (Çingiz İldırım) fəaliyyətdə idi. Bu əlaqələndirmə hər iki qardaşa böyük faydalar vermişdir. Ümumi işin xeyrinə olsun deyə bu işlərə Şuşanın qəza rəisi Camal bəy Sultanov, Cavanşir qəzasının rəisi Bəhram bəy Məlik – Abbasov da öz imkanları ilə hər iki qardaşı qabaqcadan məlumatlandırırdılar.

Sultan bəy və Xosrov bəyə çətinlik yaradan amillərdən biri də ingilislərin indi olduğu kimi ikibaşlı siyasət aparmaları, Andranikin tərəfini saxlamaları, Zəngəzuru və bütövlükdə Dağlıq Qarabağı Erməni Milli Şurasına təhvil vermək istəkləri idi. Digər bir amil isə Sultan bəyin ixtiyaratında qoşunun olmaması və hətta AXC qoşunlarının tabeçiliyinin Xosrov bəyin səlahiyyətində olmaması idi. Xosrov bəy bu məsələ uğrunda da AXC ilə inandırıcı söhbətlər aparmalı idi. Hətta, məsələ o, yerə gəlib çıxmışdır ki, Xosrov bəy istefa vermək məsələsini qaldırmışdı.

Xosrov bəy daha sonra hərbi hissələri Zəngəzura yeritmək, eyni zamanda ermənilərin İrəvandan Azərbaycan torpaqlarına hərəkətinin qarşısını kəsmək üçün də hökumətdən icazə istəmək məcburiyyətində qalmışdı. Belə bir vəziyyətdə Sultan bəyin ancaq yerli əhalinin gücünə, torpaqları ölənə kimi döyüşməklə saxlamaqdan başqa bir yolu yox idi. Bütün bunlar xalq qəhrəmanından böyük iradə, inadkarlıq və əzimkarlıq tələb edirdi və belə də oldu.O, öz iradəsini axıra kimi saxlaya bildi. Dağlıq Qarabağ ermənilərı ilə Andranik və Ermənistan qoşunları və bu qüvvələrin daşnak bolşevik S.Saumyan qoşunları ilə birləşməsinin qarşısı alındı. Sultan bəyin, onun müdafiə dəstələrinin hesabına ermənilər məğlub edildi, Qarabağ və Zəngəzurun xeyli hissəsi 1992-ci ilin 18 mayına kimi Azərbaycan Respublikasının tərkibində saxlanıla bildi. İndi isə bir yox, bir neçə Sultan bəy və Xosrov bəy yetişdirmək gərəkdir ki, təkcə Qarabağı, Zəngəzuru yox

bütövlükdə Qərbi Azərbaycanı daşnaklardan azad etməklə, Naxçıvan torpaqları ilə qucaqlaşaq, ermənilərin dənizdən-dənizə torpaqlarımızın tutmasına imkan verməyək.

Mixaylovun məruzəsinə əsasən Andranik Zəngəzurda 115 kəndi insanları ilə biryolluq məhv etdiyi (bəzi mənbələrdə bu kəndlərin sayı 164-dür) tarix 1918-ilin yayın axırı – payız aylarına düşürdü.. Onun məqsədi, həm də becərilmiş məhsulların kəndlilərin evlərinə yığması ilə əlaqəli olmuşdur. ABŞ-dan, Fransadan, Rusiyadan və s. gələn qida məhsulları orduya çatmırdı, Ermənistan özü isə ac idi, Andranikə ordusunu yedirmək üçün tam kömək edə bilmirdilər. Ermənilər tarixən kənd məhsulları yetişdirməyə meyilli olmamışlar. Ata-babaları qaraçı olduğundan dilənmək ermənilərin səcərə peşələri olmuşdur və bu xislət indi də davam etməkdədir. Bunu yaxşı bilən Andranik Qarabağa, oradan da Gəncəyə yürüş etmək istədiyindən, Zəngəzuru məhv edərkən, istəyinin biri də əhalinin evlərinə yığdığı məhsulu mənimsəmək, ordunu yaşatmaq idi. (Bu siyasət 1992-ci ildə Laçının işğalı zamanı da ermənilərin karına gəlmişdir.) Xosrov bəyin Qarabağa general-qubernator təyin edilməsini isə dəqiq bilmirdi.

Sultan bəyin isə bu məsələlərdən xəbəri var idi. Bu məqsədlə də Sultan bəy əsasən müdafiə olunmağa üstünlük verməyə məcbur idi. Xosrov bəyin təyinatı ancaq 15 yanvar 1919-cu ildə baş tutur və quberniyanın mərkəzi olan Şuşaya 12 fevral 1919-cu ildə gəlir, ilk müşavirəsini isə 15 fevral 1919-cu ildə həyata keçirə bilir. Söylənilən tarixi həqiqətlər də bir daha sübut edir ki, Sultan bəy hansı çətin şəraitdə mərdlik, mübarizlik, sərkərdəlik qabiliyyəti göstərməklə xalqına, vətəninə xidmət etməkdən geri çəkilməmiş, Laçın əhalisini tam olaraq öz ətrafında toparlaya bilmişdir.

Bu dövrlərdə bütün Qərbi Azərbaycan (indiki Ermənistan), Naxçıvan, Zəngəzur, Yuxarı Qarabağ qan içində idi. Belə bir mühitin mərkəzində Zəngəzurun bir parçasını müdafiə etmək hər sərkərdəyə nəsib olmur. Sultan bəyə dayaq ola biləcək Xosrov bəy, yalnız 1919-cu ilin avqust ayında Qarabağ ermənilərinin yığıncaq keçirərək Azərbaycan hökümətinə tabe olması qərarını qəbul etdirə bilmişdi. AXC 23 noyabr 1919-cu ildə ABŞ-ın köməyi və vasitəçiliyi ilə erməni-müsəlman münaqişəsinə son qoyulması məqsədilə Azərbaycan hökuməti ilə Ermənistan arasında müqavilə bağlanılır. Lakin, bağlanmış müqavilədən az sonra

ermənilər Zəngəzurda və Qarabağda azərbaycanlılar yaşayan kəndlərə yenidən hücumlar edirlər. Heç bir qayda-qanunu qəbul etmək istəməyən nə Andranik, nədə ki, Ermənistan ən azı Zəngəzurla Qarabağı birləşdirmək fikrindən çəkinməmişlər. Andranik növbəti kələyinə əl atır və Sultan bəylə əlbir olmaq istəyir, onun yanına elçi adı ilə xəfiyyə nümayəndəsi göndərir. Sultan bəy Andranikin növbəti hiylə işlətdiyini dərk etdiyindən çox əsəbləşir və nümayəndələri məhv etmək istəyir. Lakin, təbiətcə çox sakit, hövsələli olan Paşa bəy, oğlu Sultanı sakitləşdirir və "elçiləri" qayda-qanunla yola salmağı və möhlət istəməyi məsləhət görür, elə də edirlər. Onlardan sonra Paşa bəy oğlu Sultan bəyə müraciətlə bildirir ki, bu işi təkbaşına görmək olmaz. Çünki, sənin gücün bu camaatdadır. Sultan bəy sakitləşir və Paşa bəyin tədbirini gözləməli olur. Paşa bəy münasib bildiyi insanlardan 8 nəfərini Sultan bəyin "aran otağı" adlanan və Şəlvə çayın sahilində Böyük Zəngəzurun rəhbəri, Qarabağ qoşunlarına rəhbərlik etmiş Cəbrayıl bəy Vəli bəy oğlunun mülkü ilə üzbəüz çay axarının solunda olan evinə toplayır. Sultan bəyin, bir neçə digərlərinin və deyilən 8 nəfərin iştirakı ilə böyük bir məşvərət yığıncağı keçirirlər. Fikirlər haçalaşır, mülahizələr çoxalır, qəti qərar çətinləşir. Paşa bəy sakitlik yaratdıqdan sonar qohumluq əlaqələri olan Almәmməd sultanın qaradaşı nəvəsi, 16 il Bağdadda ali ruhani təhsili almış Odessa Tibb Universitetini bitirmiş, Böyük Zəngəzura rəhbərlik etmiş, Şeyx Şamillə dostluq etmiş, Azərbaycandan Şeyx Şamilə müxtəlif vasitələrlə yardım etmiş Azərbaycandan yeganə şəxs Cəbrayıl bəyin oğlu Cəlil bəyə müraciət edərək, onun da öz fikrini söyləməsini istəmişdir. Cəlil bəy təbiətcə çox sakit adam idi, Sankt-Peterburqda Texniki Universiteti bitirmişdi. Bakıda neft sənayesində çalışmışdı, Paşa bəyin Bakıda neft sənayesində işləyən oğlu Rüstəm bəylə dostluq etmiş, eyni sahədə işləmişdir. Cəlil bəy bir az fərqli düşündüyünü bildirir və məclis əhlinə üzrxahlıq edib öz düşündüklərini açıqlamışdır. (Bu barədə Araflı bəyi Süleyman bəyin "Bəyliyin tarixi" əsərində ətraflı məlumatlar var). O, bildirmişdir ki, ermənilər Sultan bəyə nə təklif edirlərsə növbəti görüşdə onu ikiqat artırmaq və qəbul etmək lazımdır. Ancaq ən böyük şərt Andranikin qoşunlarının silahlarının sökülərək çuvallara yığılıb elə erməni əsgərlərinin öz atlarına yüklənməsini təklif etmək gərəkdir. Qoy hər bir əsgər öz atının cilovundan yapışaraq aparsın. Bizim atmağı yaxşı bacaran adamlarımız isə Zabux dairəsindən Goruş tərəfdə olan Dik qayadan başlamış,

Abdalları (indiki Laçın şəhərini) keçməklə Qaladərəsi kəndinə qədər erməni əsgərlərinin sağ-salamat keçməsini öz boynuna götürsün. Bununla yanaşı ən vacib yerlərdə pulemyotçularımız da gizlənmiş halda, marıqda durmalıdırlar. Ermənilər Abdallara (Laçın) çatanda, onların istiqaməti Şuşa tərəfə deyil, bizim tərəfə Pircan tərəfə yönəldilməlidir. Hər yüklü atın yanında erməni əsgəri ilə yanaşı bizim də silahlı adamımız olmalıdır. Ermənilər həqiqəti başa düşənə qədər çox sakitcə, mehribanlıqla bu iş davam etdirilməlidir. Ermənilər tərəfdən təşviş başlandıqda hər bir silahlı adamımız onun əlində olan ermənini məhv etməli və Abdallar poçtundakı pusquda duranımız, çayın o biri tayındakı adamlarımıza işarə olaraq göyə atəş açmalıdırlar. Bu zaman Dikqayada və Ab dallar poçtunda yollar bağlanmaqla ermənilər atəşə tutularaq məhv edilməlidirlər.

Təklif Paşa bəyə o dərəcədə xoş gəlir ki, durub Cəlil bəyi qucaqlayaraq öpür və hündürdən deyir: "A kişi dedim axı danış, sən bəksən, (Paşa bəy bir az şirindanışan idi) sən danış, Sultan bək gördün, bax bu başqa məsələ..."

Ümumi razılıqdan sonra Sultan bəy Andranikə xəbər göndərir, yığıncağın yekun qərarı öz qaydası ilə həyata keçirilir.

Andranikə gəldikdə isə əsl həqiqət bu idi ki, o təcrübəli, yol keçmiş hərbiçi idi, üstəlik erməni idi. Andranik əsgərlərini qabaqca yola salır, özü isə qazalaqla-bir dəstə əsgərlərlə hamıdan axırda gəlir. O, hiss etdikdə ki, Zabux yolu kəsilib, atəş gedir-geri dönüb Gorusa tərəf qaçmağa başlayır. Sultan bəyin bir neçə adamları Andranikin ardınca xeyli getsələr də əsas məqsəddən yayınmamaq üçün öz yoldaşlarına köməyə dönməli olurlar.

Əvvəldə qeyd edildiyi kimi, son 300 illik tariximizdə ermənilərə qarşı aparılan döyüşlərin ən effektlisi, ən böyüyü və ermənilərin ən çox əsgər, silah-sürsat itirdikləri döyüş bu döyüş – Sultan bəyin döyüşü olmuşdur. Burada Dikqayadan Abdallara (Laçına) qədər olan uzun bir məsafədə heç bir erməni əsgəri canını Sultan bəyin döyüşçülərinin əlindən qurtara bilməmişdir. Qırğının ən çox olduğu məkan isə Zabux çayından körpüdən keçən yerdə – körpünün hər iki sahilində olmuşdur. Sultan bəyin dəstəsi çox az itki vermişdir. Laçın rayonunun ən uzunömürlü 1-ci katibi, işləmiş Cabbarov Muradxan söyləyirdi ki, mənim atam Zabux körpüsünün alt tirlərindən yapışmaqla 24 saaata yaxın orada asılı vəziyyətdə qalmışdır. Onu çox çətinliklə oradan xilas edə bilmişlər. Yəni, Zabux dərəsində

çox ciddi döyüşlər baş vermişdir. Bununla da ermənilər geri çəkilməyə məcbur olmuşlar. Özündən çox müştəbeh olan Andranik bu heyfi çıxmaq üçün Azərbaycanın digər əlisilahsız bölgələrinə hücum etmək məqsədilə qoşun toplamağa başlamışdır. Məğlubiyyətə uğramış Andranik Ermənistanın yeni rəhbərliyi ilə də "dil" tapa bilməmiş, Şaumyana əli çatmamış və beləliklə Azərbaycanın ayrı-ayrı torpaqlarında soyqırım aparan erməni qüvvələri onun kimi tədricən dağılmağa başlamışdır.

Laçınlı Sultan bəyin Azərbaycanın ən qəddar düşmənlərindən biri, ermənilərin isə çox böyük önəm verdiyi Andranik üzərindəki qələbəsi hərb tariximizin çox şərəfli səhifələrindən biridir.

Sultan bəyin və qardaşı Xosrov bəyin xidmətlərindən biri də Zimistan Həsənovun və Məhəmməd Nərimanoğlunun 2001-ci ildə çap etdirdikləri "Kəlbəcər Azərbaycanın qala qapısı" kitabında göstərdikləri- Goycə mahalından ermənilər tərəfindən faciələrlə qovulan və Kəlbəcərlə Basarkeçərin dağ aşırımında kütləvi şəkildə öldürülən məsələlərlə, Basarkeçərin və Kəlbəcərin müdafiəsində gördükləri işlərdir.

Göyçə, Kəlbəcər, Basarkeçər bölgələri ilə bağlı digər bir mənbə "Qəbələ" qəzetinin 13 aprel 2000-il tarixli "Onlara güzəşt oluna bilməzdi" yazısıdır. Kəlbəcərli Müslüm Şahüseynovun bu yazısından məlum olur ki, Göyçədə, Basarkeçərdə və Kəlbəcərdə Andraniklə 2-ci erməni generalı Silikov çox böyük qırğınlar törətmiş, insanları qaçqın salmışlar. Ermənilərin qarşısını almaq, onları cəzalandırmaq üçün gələn Sultan bəy və onun silahlı dəstəsini Zar və Zəyilik əhalisi qarşılamışlar. Sultan bəy bu insanları silahlandırmış və Göyçəyə istiqamət götürmüşdür. Məsələdən xəbər tutan ermənilər Zodda olan Alban kilsəsinə doluşaraq ağ bayraq qaldırırlar. Zodlu ağalar isə qan tökülməsini istəmirlər, ürəyiyumşaqlıq göstərirlər. Ermənilər azad buraxılır, bu bölgələr Sultan bəy tərəfindən azad edilir və o, Laçına qayıdır. Lakin, çox keçmədən Andraniklə Silikovun qoşunları bu bölgələrə dönür və böyük qırğınlar törədirlər, Göyçənin 32 kəndini yandıraraq məhv edirlər Basarkeçərdə isə demək olar ki, əhali qalmır. Sağ qalmış göyçəliləri öz torpaqlarına qaytarmaq üçün Məşədi Cəmil adlı bir mülkədar Sultan bəyə və Xosrov bəyə müraciət etməklə, xeyli silah-sürsat əldə edirlər və

ermənіləri bu bölgələrdən sıxışdırmaqla erməni generalı Silikovu Basarkeçərin Qumlu bulaq deyilən ərazisində keştəkli döyüşçülər tərəfindən öldürülür.

Deyilənlərə onuda əlavə edək ki, indiki Kəlbəcər bölgəsinin, Basarkeçər və Göyçə torpaqlarının xeyli hissəsi Qarabağ xanlığı yaranarkən Zəngəzur torpaqlarına qatılmış və əvvəldən də Zəngəzur sultanı olmuş, xanlığın ilk baş sərkərdəsi Murtuza bəyin olmuşdur. Murtuza bəyin oğul-uşaqlarının Araflı ətrafında, Qara göldə, Haçısamlıda 35-dən artıq yaşadıqları yaşayış məskənləri olmuş, bir çox yerlərdə torpaqları olmaqla – heyvandarlıqla, əkinçiliklə, qoyunçuluqla, atçılıqla məşğul olmuşlar.

Bu əhalinin xeyli hissəsi dediyimiz torpaqlara – yaylaqlara çıxmış, xeyli adamlar məskunlaşaraq orada qalmışlar. İndiki, Laçın bölgəsindən getmiş bu insanlar Laçında yaşadıqları kəndlərin adını Kəlbəcərdə məskunlaşdıqları yerlərə vermişlər. Bunlara nümunə kimi Bəylik, Ağcakənd, Qaracanlı, Seyidlər, Alıbəyli, Vəlibəyli, Nəbili və s. kəndləri göstərə bilərik. Yuxarıda söylənilən Göyçə-Basarkeçər və s. döyüşlərində də fəallıq göstərənlər arasında əslən laçınlı olanlar çoxluq təşkil etmişdir.

Daşnak Andranik heç nə ilə razılaşmır, əli hər yerdən çıxdıqdan sonra bolşevik rusiyası ilə danışıqlar aparır, dəstək alır, yeni silahlı dəstə yaratmaqla Zəngəzuru, Qarabağı və Gəncəni tutmaqla yenidən S.Şaumyan bolşevik-daşnak hərbi hissələri ilə birləşərək Şimali Azərbaycanda erməni hakimiyyətini genişləndirmək istəyi bu dəfə də Sultan bəy və Xosrov bəy qardaşlarının səyi ilə heçə endirilir.

Məlum olduğu kimi xarici və daxili qüvvələrin basqıları altında AXC hökuməti 1920-ildə hakimiyyəti bolşeviklərə verməli oldu. Bununla da Şimali Azərbaycanda ağaların, bəylərin, mülkədarların, islam din xadimlərinin faciəli günləri başladı. Təbii ki, Azərbaycan xalqına çox baha başa gələn bu proses, digər bəylərlə yanaşı Sultan bəy və Xosrov bəydən də yan keçmədi. Ermənilərin məlumatları əsasında bu qardaşlarla yanaşı, ermənilərlə mübarizə aparmış, öz xalqına mərdanəliklə xidmət etmiş insanlar və bu döyüşdə iştirak edən digər insanlar ən yaxşı halda Sibirə, Qazaxıstana və digər yerlərə sürgün edildilər.

Sultan bəyə, Paşa bəyə və əslində öz xalqına, vətəninə xidmət etmiş Cəlil bəy də bolşeviklər tərəfindən tutularaq, millətçi kimi, müsavatçı kimi Laçın şəhərinin yuxarı hissəsində, Laçındağda üçlük tərəfindən güllələnmişdir.

Sultan bəy bolşeviklərə qarşı da xeyli mübarizə aparmışdır. Hətta, Sultan bəyə öz yaxını, qohumu vasitəsi ilə sui-qəsd də təşkil etmişlər. Bütün bunlara baxmayaraq Sultan bəy vətənini tərk etmək istəmirdi və onun bolşeviklərlə əməl birliyi yaratmaq səyi də baş tutmadı. Ermənilərin şikayəti əsasında tutulan Xosrov bəy Sultan bəyə ölkəni mütləq tərk etməyi vacib bildi, həbsdən çıxdıqdan sonra İrana keçdilər. İranın Azərbaycan türkünə tarixi münasibətini dərk edən qardaşlar, Türkiyəyə keçməli oldular. Xosrov bəy orada siyasi fəaliyyətini davam etdirmiş, Sultan bəy isə təsərrüfatla məşğul olmağa üstünlük verdi və hər iki qardaş ömürlərini qardaş Türkiyədə başa vurmuşlar.

XVII FƏSİL

AXIR Kİ, SULTAN BƏY YADA DÜŞDÜ

1871–1955-ci illər arası yaşamış xalq qəhrəmanı Sultan bəy nəhayət ki, yada düşdü. Laçın rayon icra hakimiyyəti "Sultan bəyin anadan olmasının 140 – illik yubileyi"nin qeyd edilməsi haqqında 01 dekabr 2010- cu il tarixli 80 saylı sərəncam imzaladı. Tapşırıq Sultan bəy və Qarabağ general-qubernatoru olmuş Xosrov bəy haqqında mövcud sənədlərə əsaslanmaq şərti ilə tarixi sənədləri əldə etməklə, onların öz xalqları, dövlətləri qarşısında xidmətlərini işıqlandırmağı nəzərdə tutur. Bu münasibətlə 28 yanvar 2011-ci ildə ziyalıların, Sultan bəylərə yaxın insanların Laçın icra hakimiyyətinin təşkilatçılığı ilə görüş keçirilmiş, müzakirələr aparılmışdır. Qeyd edilmişdir ki, Sultan bəyin, Xosrov bəyin adının əbədiləşdirilməsi, qəbrlərinin abadlaşdırılması, hərbi sahədə müvəffəqiyyətlərə görə "Sultan bəy" adına mükafatın təsis edilməsi və s. məsələlər həyata keçirilməsi tövsiyə olunsun.

Sultan bəyin də, Xosrov bəyin də Vətən qarşısında xidmətləri yetərincədir. Lakin, bunlardan ən diqqət çəkənləri 1905–1906 və 1918–1920-ci illər arasındakı erməni qırğınları ilə bağlıdır.

Sovetlərin gəlməsi ilə əlaqədar qardaşlar İrana, oradan da Türkiyəyə keçməli olmuşlar. Onlar fəaliyyətlərini Azərbaycandan kənarda da davam etdirmişlər.

Türkiyənin Qars vilayətinin Köçqoy kəndində məskunlaşan Sultan bəy, Zəngəzurdakı kimi şəxsi təsərrüfatla məşğul olmuşdur. Burada əslən Azərbaycanlı türklər üstünlük təşkil edir və Laçın bölgəsindən də insanlar olmuş, onların arasında Sultan bəyə görə gedənlər də var idi. Xosrov bəy isə siyasi fəaliyyətini bir az da genişləndirmiş, Türkiyə ilə yanaşı Avropada da Vətənin müqəddəratı ilə sıx məşğul olmuşdur. Xosrov bəy Türkiyənin müxtəlif şəhərlərində, xüsusəndə Trabzonda yaşamışdır.

Azərbaycan zaman-zaman müxtəlif işğallara məruz qalmış, bu torpaqlarda müxtəlif adda dövlətlər yaradılmış, Səfəvilərdən sonra bütöv bir ölkə 20 xanlığa bölünmüşdür. Bütün bunlara baxmayaraq torpaq – torpaqlığında qalmış, sadəcə bir hissəsi – bir, digər hissəsi ikinci bir rəhbərliyə tabe olmuşdur.

Rusiyanın Azərbaycanı parçalayaraq Şimal hissəsinə ata torpağı kimi deyil, düşmən torpağı kimi baxmasından sonra bu vilayətlərdə Azərbaycan türkləri olmazın faciələrlə qarşılaşmış, torpağının xeyli hissəsini itirmişdir. Belə ki, ruslar Qərbi Azərbaycana ermənilər gətirərək məskunlaşdırmış, digər hissəsini gürcülərin səlahiyyətinə, başqa bir hissəsini isə Dağıstana bəxşiş etmişdir. Lakin, zorən Qərbi Azərbaycana yerləşdirilmiş ermənilər ruslar və digər xristian ölkələri silahlandıraraq günümüzdə olduğu kimi xalqımızın üzərinə göndərmişlər. Başqa tərəfdən isə ruslar Azərbaycan insanlarından silahları məcburən almış, bu insanların oxumasına, inkişaf etməsinə əngəllər törətmiş, bir sözlə bu torpaqlarda zaman-zaman baş vermiş soyqırıma rəhbərlik etmiş, əhalinin doğma torpaqlarından, ev-eşiklərindən Qazaxıstana, Sibirə, uzaq vilayətlərə köçürülməsinə sərəncamlar vermişlər.

XX əsrin əvvəllərində "dişi qana batmış" erməni – qurdlar Azərbaycanın Qərb hissəsində, Qarabağda, xüsusən də Zəngəzurda çox böyük qırğınlar törətmiş, bütün kəndləri yandırmış, insanlarını məhv etmiş, mal-mülklərini talan edib İran ermənilərinə satmış, tarixdə heç bir müqayisəsi olmayan, insanlığa yaraşmayan vəhşiliklər törətmişlər.

Qulağı kəsik Andranik burada digər ermınilərlə müqayisədə daha çox vəhşiliklər müəllifi olmuş, güclü və təcrübəli ordusuna, arxasında dayanan ruslara, fransızlara, ingilislərə, farslara, yunanlara güvənərək Zəngəzurun şimal hissəsindən, hazırda Laçın koridoru adlanan nahiyədən Şuşaya, Qarabağa keçib

silahlı Qarabağ ermənilər və daha sonra Gəncə ilə Bakıya nəzarət edən digər daşnak S.Şaumyanla birləşməklə Şimali Azərbaycanı Tiflis qarışıq işğal etməklə "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq arzusunu reallaşdırmaq istəyirdi.

İstər-istəməz böyük mütəfəkkir – şair Sədi Şirazi demişkən:

"Ermənidir yer üzünün Əhrimanı
İnsanlığın düşmənidir, düşməni"

Burada "Əhriman" – "Şər və zillət mənbəyi" deməkdir.

Arxasını doğma elinə, Laçın bölgə insanlarına, buranın ağsaqqallarına, qəhrəman eloğullarına söykəyən Sultan bəy Andranik qoşunlarını məhv etməklə ermənilərin bu arzularını ürəklərində qoymuşdur. Bu hadisədən sonra xalq qəhrəmanı adını eldən alan Sultan bəy vətənpərvər el oğlu, türk oğlu olmaqla müxtəlif el deyimlərində, şeirlərdə, bayatılarda adı xoş məramla dilə gətirilmişdir. Ona ilk qiyməti verənlər də laçınlılar olmuşlar.

"Paşa bəy ədaləti ilə, Sultan bəy cəsarəti ilə" ifadəsi xalq arasında kəlama çevrilmişdir.

1992-ci il 18 may tarixində, hansı səbəbdənsə Laçın ermənilərin əlinə keçdi, Sultan bəyi unutmayan ermənilər boş qalmış Laçın torpaqlarına üç gün ayaq basmaqdan çəkindilər.

Alicənab insan, etibarlı dost, "Humay" milli mükafatı sahibi Fətulla Fəcri Zəngəzur və Qarabağ haqqında Ziyadxan Nəbibəylinin yazılarının oxucusu olaraq riqqətə gələrək "Vətən" adlı gözəl bir şeir yazmışdır.

Vətən oğlu, demə ki, "Bir quru dağ – daşdı Vətən!"
Üz tutub qürbət elə, köçmə ki, nimdaşdı Vətən.

Üzü gülməz qəribin, cənnət ola qürbət əgər,
Tanrının millətə bəxş etdiyi ağuşdu Vətən

Üz tutub qürbət elə, uyma vətənsiz "vətənə",
Çünki insan nə qədər varsa, ömürdaşdı Vətən.

Mübarək Ramazan ayının gündəlik dualarının 3-cü günün duasında deyilir: "İlahi bu gün mənə yaxşı düşünmək və ayıq fikir ver. Məni ağılsız və səfeh

işlərdən uzaq et. Bu gün öz səxavətinlə hasil etdiyin hər bir xeyirdən mənə pay ayır. Ey səxavətlilərin səxavətlisi!"

Bu duaya əbəs yerə müraciət etmədik. Yaşadığımız günümüzdə nöqsanımız da çoxdur, günahımız da. Ən başlıcası bir-birimizə qiymət verməkdə çox diqqətsizik. Əgər, kənar xalqlar, dövlətlər bizə yaxşı qiymət verərsə, bəlkə də ayıla bilərik. Yaxud, tarixi bir şəxsiyyətimiz, milli bir kişimiz sağdırsa – biz ona adi gözlə – adi qiymətdə verməyə meyilli olmuruq. O, şəxs ölür, uzun illərdən sonra ayılırıq. Onda da artıq gec olur. Deməli, milliləşməyə hələ də çox ehtiyacımız var. Biz niyə beləyik?! Ona görə də deyilən duaya gəlin diqqətli olaq. Sultan bəyin, Xosrov bəyin keçdiyi yollar, çəkdiyi əziyyətləri dərk etdikcə, fikirləşirsən İlahi bu insanlara nə üçün öz dəyərini lazımınca qiymətləndirə bilməmişik.

Günümüzdə bizimlə qoşa addımlayan kifayət qədər milli düşüncəli, özünü, ailəsini unudaraq xalqın ağrı-acısı ilə yaşayan çox dəyərli ziyalılarımız, yazarlarımız, mütəxəssislərimiz və siyasətçilərimiz var. Amma, bunları "görmürük". Niyə?! Qadınlarımız var, xalq deyimi ilə desək "kişi qeyrətli". Mənsə deyərdim elə "türk qadını qeyrətli". Deyirlər fəlsəfi yol kişi yoludur. Etiraf edək ki, bu yolla və böyük addımlarla addımlayan qadın qardaşlarımız da var. "Sultan bəy və Xosrov bəy qardaşları" kitabının müəllifi Ziyadxan Nəbibəylinin dedikləri.

Xeyli müddətdir tanıdığımız, özünə, sözünə, sənətinə dəyər verdiyimiz bir xanımın yaradıcılıq gününə, Yazıçılar Birliyinin Natəvan evində toplaşmışdıq. Onun bir neçə kitabı eyni vaxtda təqdim edilirdi. İlk çıxış edən mən oldum (Z.Nəbibəyli). İmkan olsa idi elə özüm axıra kimi təkcə danışardım. Onun "Eyb qeyb olmur" ifadəsi və Qarabağa həsr edilmiş neçə-neçə kitabı bədənimə "qızdırma" salmışdı. Bu xanım Sultan bəy, Xosrov bəy şəcərəsinə aidiyyatı olan Mahirə xanımdı, Mahirə Abdulladı. Hadisələri çox qeyri-adi şərh etmiş, yaradıcılıqda yeni üsul tapmış, Qarabağ faciəsinin ən dərin şüuraltı qatlarını qaldırmış, qana həris, qaniçən, yırtıcı xislətli, amansız, insanlıq sırasının vəhşisi hayların ziyakarlıq üsullarını dərin psixoloji, həm də çox sadə dildə – "Zəngəzur şivə"sində oxucuna təqdim etmişdir.

Adi söhbətdə də digərlərindən "öz xüsusiyyətilə" seçilən Mahirə xanımdan bir neçə kəlmə: – "Yurd ağrısını boylu qadın kimi çəkməli. Çəkib, çəkib, günlərin bir günü ondan azad olmalısan". Sultan bəylər, Xosrov bəylər, Murtuza bəylər,

Cəsur qardaşlar

Alməmməd bəylər, İbrahim bəylər, Cəbrayıl bəylər bu ağrıdan öz iradələri ilə vaxtında azad oldular, torpaqlarımızı XX əsrin əvvəllərinə kimi biz övladlarına salamat çatdırdılar. Bəs biz!...

O, deyir "Ayrılıq, həsrət yükünü yerə qoymasan, axırın çatıb....".

Vaxt var idi laçınlılar Qaragöl uğrunda uzun illər mübarizə aparırdılar. Bəziləri də deyirdi "Qaragöl getdi – Laçın getdi...". Lakin, onlara dayaq duran olmadı, sözlərini eşitmək istəmədilər. Sonra dedilər – "Laçın getdi – Qarabağ getdi...". Bu fikirə də biganə qalan çox oldu. Hazırda da deyirik – "Qarabağsız Azərbaycan yoxdur....". Bu doğrudan da belədir.

Mahirə xanım deyir: "...Əsl məhəbbət qərəzsiz, məqsədsizdir, o ki qala könlünün sultanı, başının tacı, döyünən ürəyin, görən gözün, danışan dilin, qeyrətin, namusun, həyatın özü Vətən ola. Vətən dünyadır. Bu Vətənin bir qumu gedəndə çiyinlərin boş qalır, gözlərin kor olur, qolların budanır, qədəmlərin qırılır".

İçimdə kainat boyda yurd ağrısı var. Bir sualdan asılmışam: "Nə üçün? sualının cavabını axtarıram. Sən demə, illərlə bu həsrətlə yol gəlirəmmiş".

İndi "kişilərimiz" zəhmət çəkib Mahirə xanıma cavab tapsınlar...

Kişilərimizin çox gücə düşməməsi üçün Mərkəz Qacarın – Böyük şəcərənin nümayəndəsinin bir fikrini xatırlatmaq yerinə düşər.

Axı əldən gedir qeyrət, arımız.
Şirə qahmar duraq gərək hamımız.
Sükanı hərəmiz bir yana çəksək,
Yüz yerə bölünə bu meşə gərək.

Qarabağla, Zəngəzurla, onun bir parçası olan Laçınla bağlı bütün məlumatları uzun illərdir toplayıram. Təsadüfən mənə qismət olan laçınlı Bənövşə Daşdılının "Səndən aralı" kitabı tam olaraq Laçına, Vətənə həsr olunmuşdur.

Bu yazılar mənim hissimə çox yaxın olsa da, onun ancaq "Qaçqınlara!" şeirini seçdim. Səbəb isə bu işlərlə məşğul olmağım, onların ağrı – acılarını onlarla birlikdə çəkməyim olub. Bu hiss məndə o dərəcədə sehrli olmuşdur ki, Qaçqınlar Komitəsinə sədr göndərilmədən etiraz etmişəm.

Mənə qaçqın söyləmə, bu söz başımın daşı,
Əsir qalan yurdumun, kaş olaydım bir daşı.

Yaxud:

Qaçqın düşəndən bəri fikir verən yox yaşa,
Qaçqınlar tez ölürlər, ömrü vurmadan başa .

Sultan bəy torpağının vətəndaşı "qaçqındı", bu özlüyündə bu torpağa böhtandı.....

Sovetlər birliyi dövründə bəylərin, ağaların, mülkədarların, din xadimlərinin adını çəkmək, onun haqqında yazılar yazmaq, nəğmələr qoşmaq müşkül məsələ idi. Amma, laçınlılar arasında belə işləri ürəklərinin tələbi ilə yazıya alanlar tapılırdı. Bunlardan biri də Laçının Şəlvədərəsi adlanan torpaqlarından olan Kərəm Arxuddur. Aşağıda Sultan bəyə aid hissəsini verəcəyim şeir "Laçınım mənim" adlanır.

Əfsanə deyilmiş bilin nağıllar,
Tarixən tökülmüş çox nahaq qanlar.
Soltan qeyrətlidir səndə oğullar
Qeyrətdən qalasan Laçınım mənim,
Səni var olasan Laçınım mənim.

Qarabağda, Zəngəzurda, Laçında millətini, dövlətini, xalqını sevən tarixən çox insan olmuşdu. Bunlardan biri də Qarabağ xanlığının yaranmasında böyük işlər görmüş Murtuza bəyin nəticəsi Cəbrayıl bəy olmuşdur. O, Tatef və Zəngəzur bölgəsinə rəhbərliyi zamanı özünü milli bir şəxsiyyət kimi göstərmişdir. Azərbaycandan yeganə şəxsdir ki, çox gənc yaşında Şimali Qafqaza gedərək Şeyx Şamillə görüşmüş ona yardım etmişdir. Şeyx Şamil (1798 – 1877) çox dindar olmuşdur, Cəbrayıl bəy də digər təhsillə yanaşı dini təhsil də almışdı. Bu torpaq Sultan bəylə, Xosrov bəylə yanaşı belə kişilərdə Vətənə ərmağan etmişdi.

Şeyx Şamil bu günkü gəncliyə, idarə etmə masalarının sahiblərinə bir örnəkdir. Şamil Şimali Qafqazın yarım əsrlik şanlı mübarizə tarixinin qəhrəmanıdır. Qafqazın ecazkar rəhbərinin həyat və fəaliyyətinə həsr olunmuş əsərlərinin sayına görə Napalyon Bonaportdan sonra dünyada ikinci yerdə durur.

Şeyx Şamil hər şeydən əvvəl otuz il Rusiya imperiyasına dağıdıcı zərbə vuran güclü dövlətin İmamətinin başçısı idi. Onun ilk və son sözləri "la ilahə illallah" olan fəallarının azad diyarını susdurmaq imperiyaya uzun illər, hədsiz qanlar hesabına başa gəlmişdi. Qafqaz müharibəsinin qurtarması xəbəri Peterburqa

çatanda, o vaxtkı müdafiə naziri A.İ. Çernişev demişdi: "Allaha şükür, daha Qafqaz ildə 25 min rus əsgərini udmayacaq. Rusiyanı üzüb əldən salan yaralardan biri də qaysaq bağlamağa başlayır".

Odur ki, Sultan bəyin, Xosrov bəyin, Murtuza bəyin, Cəbrayıl bəyin, Şeyx Şamilin keçdiyi mübarizə yollarını təbliğ etməklə Azərbaycan xalqını ayağa qaldırıb torpaqlarımızı azad etmək günümüzün əsas məsələsidir.

Şamilin qələbələrinin əsası insanların ona inamı idi. Şamilin yaşıl bayrağı altında qırxdan yuxarı xalqı birləşmişdi. Şeyx Şamili düşmənləri də yüksək qiymətləndirmişlər. Şimali Qafqazda görmüş rus zabiti V.S. Krivenko yazırdı: "Əgər, Hacı Murada qarşı general Passek və Slensovu qoya bilərdinsə, Şamilə bərabər adam isə bizdə yox idi".

Azərbaycan da bu tarixi məqamlardan yararlanmalıdır. Xalq qəhrəmanlarının nümunəvi xüsusiyyətlərinin təbliği Azərbaycana hava, su kimi lazımdır.

İmam Şamil deyirdi: "Yüksəldikcə ciddi ol, gücləndikcə rəhmli!" Biz belə bir gözəl ifadəni təkcə əsgərlərimizə, polisimizə deyil, məkrəblilərimizə də öyrətməyə borcluyuq. Qafqazın müstəqilliyi uğrunda görkəmli mübariz Şeyx Şamil bütün müsbət keyfiyyətləri özündə cəmləşdirmişdi. O, İlahiyyatın sirlərinə dərindən yiyələnmiş, fəlsəfə, hüquq, məntiq elmlərinin, Şərq əlbəyaxa döyüş növünün mahir bilicisi idi.

1870-ci ildə Məkkə səfərinə gedən İmam Şamili Türkiyədə – limanda Sultan Abduləziz əyanları ilə qarşılayır. Onu qarşılamağa çıxmış əhli ətəyini, keçdiyi yolu öpərək ağlayırdı. Bu Şeyx Şamilin öz Vətən mübarizəsi yolunda qazandığı hörmətin nəticəsi idi. Hətta, Sultan Abduləziz Şeyx Şamilin dünyadakı hörmətindən istifadə edərək, Misirlə Türkiyə arasında müharibə həddinə çatmış ziddiyyəti aradan qaldırmaqda vasitəlik etməyi ondan xahiş edir. Misirlə Türkiyənin münasibətlərini layiqincə bacaran Şamil, hər iki sultan arasında qohumluq əlaqələri yaratmağa da nail olmuşdur.

Uzun illər xalq qəhrəmanlarımızı yada salmamaq bizlərə xələl gətirmişdir. Xalq həmişə tarixi qəhrəmanları ilə nəfəs almalıdı, ona oxşamağa çalışmalıdır. Xalq qəhrəmanları xalqa nümunədir, onu milli köklərə kökləyəndi, insanların fəxarətidir.

Əşir Bəşiroğlu

SULTAN BƏYİN HƏYATINA AYDINLIQ

Uzun illərdir qəlblərdə, bir neçə aydır Azərbaycanda, Türkiyədə, xüsusən Azərbaycan mətbuatında tez-tez haqqında yazılar verilən xalq qəhrəmanı Sultan bəy yad edilir, qürur hissləri yaşadılır. Lakin, bu yazıların əksəriyyəti eyni cümləli, eyni sözlüdür. Yəqin ki, bunun da səbəbi Sultan bəy, onun kimliyi, fəaliyyəti, keçmişi haqqında arxiv sənədlərinin azlığı, yaxud az araşdırıldığı və eyni fikirlərin əksər tərəfindən çeynənilməsidir. Burada tarixin özünün də "günah" var desək, fikrimizcə qəbahət etmərik. (Z.N.)

Məlumdur ki, Qafqazda Zakfederasiya qurumu dağıldıqdan sonra, Azərbaycan müstəqilliyini elan etsə də bir çox çətinliklərlə, çəkişmələrlə, siyasi oyunlarla, müharibələrlə, torpaq itkiləri ilə üzləşdi. Həmin dövrün öncül təbəqəsini təmsil edən Sultan bəy, Xosrov bəy, Cümhuriyyət öncülləri, eyni ilə bu təbəqənin yaxın silahdaşları və qohumları çox böyük iztirablarla qarşılaşmış oldu. Sultan bəy də bunlardan xali deyildi. O, öz vətənində – doğma Zəngəzurda, İranda və hətta Türkiyədə pünhan yaşamağa məcbur olmuşdu. Odur ki, onun öz dilindən izhar oluna biləcək və onun ermənilərə qarşı fəaliyyəti haqqında istər Azərbaycanda, istərsə də Türkiyədə məlumatlar verilmədi. O, özü də bunu lazım bilmirdi. Çünki, Türkiyədə də ermənilər yetərincə var idilər. Ermənilərin də xislətləri cəmiyyətimizə gün kimi aydın olduğundan, məsələnin xırdalıqlarına getməyə ehtiyac duymuruq.

Söylədiyimiz və söylənilməsini bilmədiyimiz səbəblərdən Sultan bəy haqqındaki məlumatlarda bir çaşqınlıq, qeyri səlistlik, hətta xeyli həqiqətlərə uyğun olmayan fikirlər mətbuata ayaq açmışdır. Həqiqətlərə uyğun gəlməyən, dövlətimizə və dövlətçiliyimizə gərəksiz olan, Sultan bəyin soyuna aid olmayan, dövrün həqiqətlərini özündə düzgün əks etdirməyən və təbii ki, bizə məlum olan bəzi məqamlara aydınlıq gətirmək istərdik.

Bunlardan biri 2007-ci ildə Bakıda çap edilmiş Azərbaycan toponimlərinin ensiklopediyası 2-cildlik lüğətidir. Onun 1-ci cildində Sultan bəy, onun yaşadığı yurd – onun qısa tarixi, coğrafiyası, iqlimi, əhalisi, iqtisadiyyatı, mədəniyyəti haqqında xeyli məlumatlar verilmişdir. Məsələnin qoyuluşu özü-özlüyündə çox yaxşıdır. Bütövlükdə bu yazıdakı məlumatları alqışlayır və bəzi aydınlıqlar gətirməyi ozümüzə vətəndaşlıq borcu hesab etdik. Deyilən mənbədə Sultan bəyin

kəndinin adına yanaşma istiqaməti pis olmasa da, reallığı tam əks etdirmir. Əvvəla onu deyək ki, Sovetlər dönəmində Qurdgəzi kəndinin adı "Kürdhacı" kimi göstərilmişdir. Z.Nəbibəyli özünün "Zəngəzurun altun tacı Laçın kitabında göstərir ki, "... heyvandarlıqla məşğul olan qədim türk tayfaları həm yaylağa gedəndə və həm də yaylaqdan qayıdanda burada müvəqqəti yurd salardılar. Yaylaq yolları üstündə çox əlverişli coğrafi məkanda yerləşdiyindən çalışardılarki Qurdgəziyə 1-ci çatsınlar, heyvanlarını buranın təbii yemi ilə 1-ci yedizdirsinlər, sonar yaylağa çıxsınlar. At yəhərinə oxşar dağlar arasındakı bu alçaq yerin ətəyində məskən salan maldarlar mütləq ocaq çatıb od yandırmalı idilər. Bu yolla onlar qoyun-quzunu özlərindən yuxarıdaki gəzdə məskən salan qurdlardan (canavarlardan) xilas edə bilirdilər. Qaranlıq olsa idi qurdlar heyvanlara hücum edib boğub atardılar. Ocaq yandırmağın əsas mənası bu idi. Təpənin, dağın ortası iki tərəfdən açıq, digər iki tərəfi hündür olan yerlərə gəz deyirlər, ağacı gəzləmək, kotanın boyunduruğunda, onun samısında və digər işlərdə belə gəzləmə əməliyyatı aparardılar. Qurdgəzidə isə dediyimiz kimi qurdlar gəzdən işıq olanda aşağı düşüb ov edə bilmədiklərindən orada ulaşırdılar. Bu səbəbdən də buranı qurdgəzi deyə çağırmışlar. Burada ilk məskunlaşan ailə əslən indiki füzuli bölgəsindən olan türk mənşəlidir, XIX əsrin ortalarında daimi yaşayış yerinə çevrilmişdir. Lakin sonralar buraya Ərikli, Büləvli, Qarasaqqal, Naxçıvan, Qarakilsə (Sisyan) bölgələrindən gələnlər də olmuş və hazırda hamısının adı Qurdgəzili çağrılır."

Sultan bəyin babası çalvadar Murad isə Ərikli kəndində məskunlaşan Cənubi Azərbaycandan gəlmiş bir türk əsilli səcərədəndir. Pənahəli xanla bu nəslin heç bir yaxın ünsiyyəti olmayıb və ayrı-ayrı əsrin insanlarıdırlar. Qurgəzi kəndinin və onun ətraf kəndlərinin əhalisi bu sözü yerli şivəyə uyğun səsləndirmişlər-Qurdqaji.

Təbii ki, Qurdqaji şifahi səslənmə olduğu halda, yazılışda bu söz öz həqiqi adında – Qurdgəzi şəklində olmalıdır.

Ensiklopedik lüğətdə çox düzgün olaraq göstərilir ki, " qədim dövrlərdə türkləri qurd adlandırmışlar. Əbülqasım Firdovsi isə öz dövründə türklərin yaşadığı ölkəni "Qurdlar ölkəsi" adlandırmışdır. Beləliklə, lap qədimdən qurd türk millətinin onqonu sayılmışdır. Türkdilli xalqlar arasında qurd sözü bildiyimiz kimi igid, mərd, qoçaq, ərən mənasında işlənib. Bu söz bizim dilimizdə öz mənasını bu

günə qədər də saxlamaqdadır. Bu kəndin adının Qurdqaji (Qurdgəzi) olduğunu sübut edən sənəd Respublika Dövlət tarix arxivində 123-cü fondun 7-saylı işin 155-169-cu səhifələrində özünü qoruyub saxlayır. Bu qeydiyyat 1848-ci ildə qeydə alınmışdır".(Z.N.)

Onu da qeyd edək ki, bütün Laçın, Zəngəzur bölgəsində olduğu kimi, Qurdgəzi kəndi ətrafında da Azərbaycanın Alban dövləti dövrünə aid qədim abidələr və kilsələr mövcud idi. Burada hətta atəşpərəstlik dövrünə, orta əsir mədəniyyətinə aid də abidələr var idi. Sultan bəyin təmsil olunduğu Hacisamlı kəndinin adı isə qədim türk tayfalarından olan samlılarla əlaqəlidir. Sultan bəyin şəxsi mülkü (aran evi) isə Qurdgəzidən bir neçə kilometr aşağı Şəlvəçay axarındadır. Bütün fərqlərə baxmayaraq Sultan bəyin atası Paşa bəyin məzarı Qurdgəzi qəbiristanlığında idi. Sultan bəyin təhsili ilə əlaqədar qeydlərin bəziləri ayrı-ayrı müəlliflər tərəfindən fərqli mülahizələrlə yazılıb və reallıqdan kənarları xeylidir.

Qafan mis mədənləri, Bərguşad çayının axarı boyu inkişaf etmiş kənd təsərrüfatının Sultan bəyə məxsusluğunun da heç bir tarixi kökləri yoxdur. Deyilən təsərrüfatlar başqa-başqa bəylərə, mülkədarlara mənsubdur və bu haqda kifayət qədər tarixi sənədlər mövcuddur. Bəziləri bəy dedikdə ilk öncə dünyanın ona mənsubluğunu güman edirlər. Sultan bəyin ünvanına qeyri düzgün məlumatlar aid etmək, heç də ona xüsusi qayğının nəticəsi hesab edilməməlidir. Əksinə, ona xələl gətirən fikirlərdir. Yaxud, hansısa yaylaqdakı mülk məsələsi də bu işlərin mahiyyətini, o bölgəni tanımamağın, bilməməyin məhsuludur. Adəti üzrə heç bir yaylaqda mülk salınmır, xüsusəndə kiçik Qafqazda, onun Çalbayır yaylağında.

Bu yaylağında Sultan bəyə mənsubiyyəti yoxdur. Ora ancaq ən çoxu yayın üç isti aylarında heyvanatı təbii yemlə təmin etmək üçündür və maldarlar da alaçıqlarda yaşıyardılar. Çünki onlar yaylaqda da bir hissəni otardıqdan sonra, başqa sahəyə köçməli olduqlarından daimi yaşayış mülkləri salmağa ehtiyac qalmır.

Minkənd, Sadınlar, Hacılar, Farmaştəpə bölgəsində ermənilərlə döyüşlər əsasən 1902-1907-ci illəri əhatə edir. O dövrdə Yuxarı Qarabağın, Zəngəzurun, indi Laçın bölgəsi adlanan torpaqların müdafiəsinə rəhbərliyi əsasən Şuşada şəhid olmuş İbrahim bəy etmişdir. Onun ətrafında çox da böyük olmayan, lakin hamısı

bəyliyi təmsil edən insanlar olmuşlar. Bu insanlar gündəlik silah gəzdirən olmaqla, silahdan istifadəni gözəl bilirdilər. Bu insanlardan Alı bəy, Məhəmmədhəsən bəy, Ağakişi bəy, Bağır bəy, Cabbar bəy, Həsən bəy, Paşa bəy, Əbdülləzim bəy, Nəbi bəy, Rüstəm bəy, Ağa bəy, Şahverdi bəy, Əbil bəy, Cavad bəy, Əli bəy, Əvil bəy, Mikayıl bəy, Cəfərqulu bəy, və s. döyüşçülərin adı məlumdur.

Laçının qərbində sonralar 1914-1918-ci illər arasında ara-sıra erməni-müsəlman döyüşləri lokanik xarakterli olmuş və yerli əhali ermənilərin cavabını mərdliklə vermişlər. 1918-ci ilin yayın sonu və payızda Cənubi Zəngəzurda çox dəhşətli erməni müsəlman döyüşləri olmuş, bu bölgənin bütün silahı olanlar döyüşə qoşulmuşlar və Naxçıvanda, Qərbi Azərbaycanda, Qarabağ və Yuxarı Qarabağda böyük hünərlər göstərən insanlar olmuşlar. Bu haqda AXC hökməti komisiyasından geniş və dəqiq məlumatlar arxivdə saxlanılır. Sultan bəy isə daha tədbirli el ağsaqqallarının, qardaşı Xosrov bəyin fikirləri ilə uzlaşan siyasət yürütmüş, gücləri nəzərə alaraq özünü müdafiəyə daha çox üstünlük vermişdir.

Bu isə öz bəhrəsini vermiş, kiçik güclə böyük qüvvəyə və böyük məkrə qalib gəlməklə nəticələnmişdir. Burada, artıq Sultan bəy hamıdan qabaqdadır, hamıdan üstündür.

1920-ci ildən sonra Sultan bəy sovet hökümətini təmsil edən adi insanlarla deyil, hətta bəy səcərələri olan və sovetləri təmsil edən insanları ilə də öz hüquqlarını bərpa edə bilməmişdi. Əsas səbəb isə Sultan bəyin bəy olması və sovetlərin məqsədi isə bəyləri, seyidləri, mülkədarları və s. bir sinif kimi məhv etməsi zərurəti olmuşdu. Bolşeviklər Sultan bəyə qohum olan bir nəfəri ələ almaqla onu yaralamışlar. Bəzilərinin yazdığı Hacısamlının "Gorgahat" yox, Göykaha daxilində Sultan bəy üç gün qalmış, sonra onu Laladağda hər kəsin gedə və girə bilməyəcəyi kahaya aparmışlar. O, burada sağalana yaxın uzandığı yerin yanına kahanın daxili damından bir qaya düşdükdən sonra bu sözləri söyləmişdi:

Mən aşiqəm yarğana
Yar sözünü yar qana
Dünyaya sığmaz başım
Sığınıbdır yarğana

Sultan bəy bu hadisədən çox ruhlanmış və demişdir ki, "... Allah mənimlədir, mənə daha ölüm yoxdur, hazırlaşın – biz burdan getməliyik." Bu ifadəni onu yola

salan və Arazdan keçirən, əslən Haxnəzərdən olan Sultan bəyin dostunun oğlu söyləmişdir.

Sultan bəyin məhvinin əsas təşkilatçıları ermənilər idi. Ermənilər bu işi Moskvadan təşkil edir və Moskva Bakıya göstəriş deyil, öz əmrlərini qətiyyətlə bildirirdilər.

Sultan bəy vətəndən, doğma yurddan ayrılarkən Qurdgəzi kəndinin ərazisində ən uca zirvə, "Qarapalçıq" adlanan dağın zirvəsinə qalxır, oradan Qırxqız yaylaqlarını, dağları son dəfə seyr edir və bir neçə bayatı çağırır.

Sultan bəy Araz çayını keçərkən o, arxa tərəfə göz gəzdirib bu bayatını demiş və Arazı keçmişdi.

Mən aşiq dolan gözüm,
Dol gözüm, dolan gözüm.
Gedərsən qayıtmazsan,
Vətəni dolan gözüm.

1923-ci ildə Qars Vilayətinin Köçqoy kəndində Sultan bəyə mülk və malikanə verilməsi də həqiqətləri əks etdirmir. Avropada Xosrov bəylə bir neçə dəfə görüşən və geniş söhbətlər aparan, həm də qohumluq əlaqələri olan İsrafil bəyin dediklərinə görə Sultan bəy Azərbaycanı tərk edərkən özü ilə xeyli qızıl da aparmışdı və Köçqoydakı bütün təsərrüfatları özü almış, kimliyini uzun müddət heç kimə bildirməmişdi. (Z.N.)

Bir məsələni də xatırlatmaq gərəklidir. Belə ki, Qars vilayəti və onun Köçqoy kəndi Azərbaycan torpaqlarıdır, tarixin müxtəlif dönəmlərində ya Osmanlı türklərində, yaxud Azərbaycan türkləri dövlətinə tabe olmuşdur. Odur ki, bu yerlərdə Azərbaycanın müxtəlif bölgələrindən, xüsusən də Yuxarı Qarabağdan-Zəngəzurdan olanlar çox idi. Deyilən məsələ də Sultan bəyə məlum idi. Elə bu səbəbdən də Sultan bəy Qarsı seçmişdi.

Sultan bəyin, Xosrov bəyin və digər vətənpərvər insanlarımızın növbəti çətinliyi Rusiya bolşeviklərinin 1920-ci ildə Azərbaycanı işğal etməsi və millətin öncüllərinin məhvi, cürbəcür ittihamların irəli sürülməsi idi.

Həmin günlərdə də N.Nərimanovun sərt mövqeyinə və bəzi məqamlarda qətiyyət göstərməsinə baxmayaraq Sovet Rusiyası Xalq Xarici İşlər Komissarlığı tərəfindən müəyyən edilən Azərbaycanın gözdən salınması siyasətinə üstünlük

verdi. 1920-ci ilin 20 iyulunda N.Nərimanova göndərdiyi təcili diplomatik teleqramda Çiçerin hikkəli formada yazırdı: "İndiyə qədər nə siz, nə də oradakı kommunistlər bizə izah edə bilirsiniz ki, nə üçün Rusiya qoşunlarının Qarabağı və Zəngəzuru tutmasının əleyhinə, bu ərazilərin Azərbaycana birləşdirilməsini dönmədən tələb edirsiniz. Biz Ermənistanla işlərimizi qaydaya qoymalıyıq. Türkiyə bizə qarşı çevrildiyi təqdirdə hətta daşnaq Ermənistanı belə türk hücumuna qarşı bizim ön istehkamımız, forpostumuz olacaq".

Göründüyü kimi tarixin istənilən dönəmində ruslar ermənilərin tərəfini saxlamış, onlara üstünlük vermiş və ermənilər Azərbaycana, Türkiyəyə qarşı qoymuşlar, Azərbaycanın adlı-sanlı adamlarına qeyri türk adlarını peyvənd etməyə cəhd göstərmişlər, Azərbaycan türkü adını qəbul etməmişlər.

Sultan bəyi ruslar və ermənilər XX əsrin əvvəllərində bir xalq düşməni türk kimi qələmə verdikləri halda, sonralar tatar, müsəlman və nəhayət kürd deməklə nöqtə qoymuşlar. Bu təbliğata uyan bəzi insanlar isə Sultan bəylə yanaşı, digər, cəmiyyətdə nüfuz sahibi olanları da türk kimi görmək istəməmişlər, baxmayaraq ki, kürdlərin də qədim kökü Qurd türk tayfaları ilə bağlıdır.

Z.Nəbibəyli özünün "Zəngəzurun altun tacı Laçın" kitabında yazır: "Azərbaycanı istəməyən ermənilər və bəzi kürd əsilli lakin tarixi bilməyənlər ermənidən eşitdiyi fikirləri təkrar etmişlər. Bunlardan biri də rəhmətlik Şamil Əsgərovdur ki, Qurdgəzi kəndinin yaxınlığında Sultan bəy Sultanovun mülkü olduğundan onu da kürd kimi başa düşmüşdür. Onun bu fikrinə etirazını bildirən Məcid bəy Bülövlüklü dostluq etdiyi Şamil Əsgərova şeirlə sərt cavab vermişdir və əslində Sultan bəy əslən Qurdgəzi kəndindən deyil. Həmin şeirdən qısa nümünə:

Zəngəzur qartalı o sultan bəydir,
Sultana kürd demək qəlblərə dəydi.
Səni doğru yoldan söylə, kim əydi?
Vallahi kürd deyil Sultan, ay Şamil,
Çox yaman bəladır böhtan, ay şamil.

Lənət olsun nifaqi ortalığa atana,
Lənət olsun yuxuda igidliyə çatana,
Lənət olsun ortalığa şər atıb, şər qatana,
Lənətə düçar olsun birdə Şeytan, ay Şamil!!

"Yaxşı" eksponatdı, qoy müzeyə qəzeti,
Azərbaycan öyrənsin belə bir "həqiqəti",
Kimdir düşmən eyləyən iki qardaş milləti?
Vallahi kürd deyil Sultan, ay Şamil.

Görmürsənmi dağlarda belə tufan, ay şamil.
Türk dillidir, kürd deyil, bəydi Sultan, ay Şamil.
Sağalmaz bir yaradır açıq böhtan, ay Şamil!"
Vallahi kürd deyil Sultan, ay Şamil.

Bolşeviklərin Azərbaycanı işğalının ilk günlərində ermənilər Zəngəzur əhalisinin əsasən ermənilərdən və bir az da kürdlərdən ibarət olduğunu bəhanə edərək onun Ermənistana birləşdirilməsini tələb edirdilər.

N.Nərimanovun Zəngəzurun və Naxçıvanın Ermənistana verilməsini bəyan edəndən (1923-cü ildə N.Nərimanovun Leninə yazdığı məktubda öz səhvini etiraf etmişdi) iki gün sonra, 1920-ci ilin 2 dekabırında Gümrü müqaviləsinə alternativ kimi imzalanan Rusiya-Ermənistan hərbi-siyasi müqaviləsində Zəngəzur qəzasının Ermənistanın tərkibinə keçdiyi tanınırdı. Hansı ki, inqilab astanasında rusların keçirdiyi əhali sayına görə Zəngəzur qəzasında 123095 nəfər müsəlman (yəni türk), 99257 nəfər erməni yaşayırdı.

Zəngəzurun bir hissəsinin Ermənistana verilməsindən sonar Qarabağ və Zəngəzurun fövqəladə komissarı Şamil Mahmudbəyov 24 dekabrda Nərimanova göndərdiyi və onun tapşırığı ilə surəti Orconikidzeyə (Azəzrbaycanın qatı düşmənlərindən biri) göndərilən məruzəsində yazırdı: "4 sahədən ibarət olan Aşağı Zəngəzurun nümayəndələri mənim yanıma gələrək Azərbaycan Sovet hakimiyyətinin idarəçiliyində qalmaq istədiklərini qəti olaraq bildirirlər. Əgər onların təklifi nəzərə alınmazsa, onlar xahiş edirlər ki, bu əhalinin hara köçürüləcəyi yer müəyyənləşdirilsin"

Şamil Mahmudbəyov 1920-il 30 dekabrda N.Nərimanova və Həmid Sultanova göndərdiyi növbəti məktubunda Zəngəzurda Sultan bəydən, Xosrov bəydən sonra erməni daşnakların dahada fəallaşdıqlarını söyləyir və qeyd edir ki, əgər Mərkəz (Moskva) siyasi mənada bu diyarda hər şeyin uğurlu olacağına əmin

olub yüz verstlərlə sahədən orduları çıxarırsa, onda bizim özümüzə icazə versin Qarabağ və Zəngəzuru gözlənilməz hücumlardan qorumaq üçün öz qüvvələrimizi səfərbər edək. O, əlavə edir ki, biz bunu mümkün və zəruri hesab edirik.

1921-ci ilin 15 fevralında Ş.Mahmudbəyov 24 dekabr məruzəsinə əlavə olaraq N.Nərimanov, Həmid Sultanov və Əliheydər Qarayevin adına məlumat göndərir. O, daşnakların daha da azğınlaşdığını yazır, Qarabağın və Zəngəzurun müsəlman əhalisini erməni taranlarından qorumaq üçün Bakıdan yardım istəyirdi. O, təklif edirdi ki, Qarabağ və Zəngəzurda böyük nüfuzu olan Sultan bəyin imkanlarından istifadə etmək lazımdır. Bunun yeganə yolunu isə o, əvvəl Qarabağ və Zəngəzurun general-qubernatoru olmuş, azərbaycanlı əhalinin erməni qırğınlarından qorunmasında müstəsna rol oynamış, ermənilərin təkidi ilə həbs edilmiş Xosrov bəy Sultanovun həbsdən azad olunmasında görürdü. Hətta, Ş. Mahmudbəyov məlumatın sonuna öz əl yazısı ilə əlavə etmişdir ki, "Xosrov bəy Sultanov azad ediləcəyi təqdirdə onun etibarlılığına şəxsən cavabdeh olacaq, onun bütün hərəkətləri üçün məsuliyyəti öz üzərinə götürəcək"

Göründüyü kimi, tarixən ermənilər ruslarla, digər xristianlarla, türk dünyasını istəməyən istənilən qüvvələrlə birləşərək Azərbaycanı məhv etməyi qarşılarına məqsəd qoymuşlar və bu siyasət hazırda da davam etməkdədir. Azərbaycanın çıxışı sıx milli birlik yaratmaqla öz doğma torpaqlarını azad etməyə nail olmaqdır.

Gəlin payız buludları kimi boş-boş guruldamayaq....

XVIII FƏSİL

PROFESSOR Z.NƏBİBƏYLİNİN DEDİKLƏRİ

XX əsrin 60-cı illəri idi. Ali təhsilimin ilk illəri idi. Atam mənə Əli (Alməmmədi) müəllimi görməyi tapşırmışdı. Onların hər ikisinin özləri də ailələri də bolşeviklərdən çox əziyyətlər çəkmişlər. Əli müəllim böyük tarixi şəxsiyyət olsa da, ailəni əsasən rəssamlıqla, fotoqraflıqla dolandırırdı. Atamın tapşırığını heç kim bilməməli idi. O, tapşırmışdı ki, Əli müəllim bacarsa Xosrov bəy Sultanovun şəklini onun üçün tapsın. Atamla Xosrov bəy Almaniyada tapışmışdılar və hər ikisi eyni amal uğrunda mübarizlik etmişdilər. Atamın cavan, Xosrov bəyin isə ağsaqqal vaxtı olub.

Mən, Əli müəllimin Muxtadir küçəsindəki evinə (o, əvvəllər içəri şəhərdə yaşayıb) gəlib həyət qapısını açanda onun özü ilə qarşılaşdım. Görüşdük, istədim

atamın tapşırığını söyləyim. Elə bilirdim elə o dəqiqə şəkli alıb gedəcəm. Amma, belə olmadı. Sözün var, soruşdu. Əli müəllim demişdim ki, sözümü kəsdi. Darıxma, gedək bulvara, orda kişilər məni gözləyir, sözünü onlardan sonra deyərsən. Mən isə şəkli tez alıb getmək istəyirdim. Bilirdim ki, Əli müəllimin görüşləri çox olacaq və bütün gün evə dönməyəcək. Bütün şəhər onu tanıyırdı. Çarəsiz qalıb onunla bərabər bulvara yollandıq. Getdiyimiz yol boyu onu tez-tez saxlayır, müxtəlif sözlər soruşur, suallar verir, bəzən də zarafatlar edirdilər. Mənsə səbirsizliklə hər dəfə söhbətlərin sonluğunu gözləməli olurdum. Nəhayət ki, indiki Kukla teatrının yanına çatdıq. Əli müəllim ayaq saxlayıb əlini gözünün üstünə qoyub ətrafı seyr etməyə başladı. Bir müddətdən sonra mən tərəfə dönüb gəl dedi, kişilər gəlir. Kişilərin kimliyini bilmirdim, soruşmamışdım, mənim üçün tez getmək vacib idi. Odur ki, heç nəyə fikir vermirdim.

Birdən, Əli müəllim əl çantasını mənə uzadıb, bunu tut dedi.Özü işə Alman istehsalı olan şəkilçəni qarşı tərəfə tuşladı. Bu məqamda əli arxasında çarpazlaşmış Süleyman Rəhimovu, solunda Alı dayını (Əli Vəliyevi) və Bayram Bayramovu cərgəylə dayandıqlarını gördüm. Əli müəllim onların şəklini çəkdikdən sonra onlarla görüşdü və mənə də onlarla görüşməyə işarə etdi. Əmim nəvəsidir, yaxşı oğlandı, tələbədi, başdı oğlandı – dedi.

Əlbəttə mən bu böyük şəxsiyyətlərin üçünü də tanıyırdım, Süleyman Rəhimovun əsərlərini yaxşı bilirdim, elə Əli Vəliyevin əsərlərin də, Bayram Bayramovu tanısamda əsərləri haqqında müfəssəl məlumatlı deyildim. Süleyman Rəhimov həmin illərdə də çox məşhur idi, onu və əsərlərini tanımayanlar yox idi. Hər yerdə çox hörmətlə qarşılanardı. Zəhmli kişi idi, çox hündür və dolu bədənli insan idi. Çox səliqəli geyimi, səliqəli saçları, heç kiminkinə bənzəməyən bığları var idi.

Heç bir düşünülmüş, razılaşdırılmış mövzulardan söhbət getmirdi, zarafatlarından da qalmırdılar. Şuxluq yaradan bu növ söhbət xeyli çəkdi. Mən isə içimdə çəkirdim. Elə ki, bu görkəmli şəxslərin söhbətləri ciddiləşdi, onların özləridə ciddiləşdi. Hamı gözləyirdi ki, mövzuya münasibəti birinci olaraq Süleyman Rəhimov bildirsin. Həm də Əli Vəliyevlə Bayram Bayramov az danışardılar. Əli müəllim isə onlardan da az danışardı. Bu söhbət tədricən siyasətləşdi, cəmiyyətdə olan əyər-əskikdən getdi, hamısı eyni fikirli oldular, biri-

digərini tamamladı. Partiya işçilərinin qeyri-etik davranışından, hədiyyə almalarından, qohumbazlıq-yerlibazlıqdan söhbət düşəndə Əli müəllim söhbətə zarafatyana müdaxilə etdi.

O, dedi: – "Süleyman müəllim mənim işim sizinlədi. Bax, çox görkəmli, təmiz əqidəli, hökumətdə işləmiş, uzun müddət cəmiyyətin əyrilikləri ilə barışmayan bir kommunist olmusunuz və elə də var. İndi isə kommunistlərin əleyhinə danışırsınız, üstəgəl bəyləri – mülkədarları o ki, var tənqid ləmisiniz. Bu Sultan bəyin günahı nə idi ki, onu o günə salmısınız". Süleyman Rəhimov daha da ciddi görkəm alıb, bir addım qabağa çıxdı. Əli elə bilirsən özümü, özümkiləri beynimdən keçirmirəm. Əli – sən öl, sən öl mən "Şamo"nu yazanda bu günkü vəziyyət olsa idi, ömrümdə heylə bir əsər yarada bilməzdim. Əli biz bu işin dalınca gedəndə elə bilirdik ki, kommunistlər nə deyirlərsə heylədə olacaq. Düzdüyü hamı istəyir, hətta oğrular – əyrilərdə. Düz deyirsən, mən ömrümdə heç bir əyriliklə, pis əməllərlə barışmamışam. Elə indinin özündə də beləyəm, özün bilirsənki. Mən ömrümdə ağlıma gətirə bilməzdim ki, cibində kommunist partiyasının sənədini gəzdirəsən, özündə rüşvət alasan, yaxud ayrı yerdə ikinci arvad saxlayasan, bunları gördükcə dəli oluram. Əli, qaldı ki, Sultan bəyə – onun üçün qəm yemə. Bilirəm sən də bəysən istəmirəm ki, bəylərə toxunulsun. Amma, bil və agah ol. Əli Süleyman Rəhimov Sultan bəyə elə bir əzəmətli heykəl qoymuşdur ki, belə bir heykəli heç kim qoya bilməz. Bir də bil ki, Sultan bəyin bu heykəlini heç kim sökə bilməyəcək, Şamonu yaxşı oxu, bir də oxu! Bil ki, Süleymanın Şamosu dünyanın 60 dilinə tərcümə olunub, sil görüm bu tarixi necə siləcəksən. Süleymanı çox yaxşı başa düşməyib, dalımca danışıblar. Üzbəüz gələndə isə boğazları quruyub. İki kəlmə sözü bir-birinin ardınca deyə bilməyiblər. Belə adamların arasında Süleymanın boyu hamıdan uzun, üzü hamıdan ağdır. Bax belə işlər əmioğlu....

Əli Vəliyev (Alı dayı) söhbətə müdaxilə etdi. Süleyman, çox düz buyurursan. Sən öl, heç sən deyəni mən fikirləşməmişəm, doğrudan da əzəmətli bir heykəldir. Beləliklə, Bayram Bayramov və Almməmməd bəy də Süleyman Rəhimovun fikirlərini təsdiqlədilər, bəyəndilər və bir daha kommunistlərin "əməlləri" haqqındakı söhbətlərini davam etdirdilər.

Biz birlikdə bulvar boyu indiki Muğam evinə qədər gəldik. Süleyman Rəhimov xeyli müddət Laçında işləmişdi. Gördüklərindən, bildiklərindən, kimin

haqlı, kimin qərəzli olduqlarından xeyli danışdı. Amma, heç kim onun sözünü kəsmirdi...

KİM GÜNAHKARDI M.C.BAĞIROV, SULTAN BƏY YOXSA MÜSEYİB BƏY?

Azərbaycan tarixinin müxtəlif dövrlərində müxtəlif cür hadisələr yetərincədir. Təəssüf ki, Azərbaycan dövlətinə, onun dövlətçiliyinə və Azərbaycanın kütlədən ayrılıb qabağa çıxmış insanlarına bu kimi hallar çox baha başa gəlmiş, itkilərimiz heç də az olmamışdır. Belə bir namünasib hadisə Zəngəzur qəzasında da olmuşdu. Belə ki, XX əsrin birinci qərinəsində Zəngəzur qəzasının torpaqları əvvəlki sərhədləri çərçivəsində qalmamış, müəyyən hissə İrana, müəyyən hissə Qarabağın digər bölgələrinin tabeçiliyinə verilməklə, bir hissəsində isə erməni vəhşilikləri tüğyan edirdi. Söyləyəcəyimiz hadisə isə bilavasitə Azərbaycanda Cümhuriyyətin iqtidardan getməsi və Qırmızı imperiyanın Azərbaycanı işğalı ərəfəsinə təsadüf edir. Tarixən Zəngəzurun tabeçiliyi Gəncədə, Şamaxıda, Bərdədə, Beyləqanda, Şuşada olmasından asılı olmayaraq, Zəngəzur bir növ öz "müstəqilliyini" saxlayırdı. Soltanlıq, Mahal, Qəza statusunda fəaliyyət göstərirdi, əsas mərkəzlərindən biri də Goruş yaşayış məntəqəsi olmuşdur. Bəzən Zəngəzur sultanlığı tam müstəqil fəaliyyət göstərsə də, əksərən Qarabağ torpağı olmuş, və Qarabağ Bəylərbəylik, Vilayət, Sancaq, Xanlıq dövrlərində bu dövlətin paytaxtından idarə edilmişdir. Qarabağ xanlarının, Gəncə bəylərinin tarixən Zəngəzurda şəxsi torpaq sahələri və yaylaq yerləri olmuşdur. Zəngəzur sultanlığının ən böyük torpaq sahəsi əsasən XVIII əsrin ortalarında Qarabağ xanlığının yaranmasına təsadüf edir. Qarabağ xanlığından əvvəl Zəngəzurun sultanı Murtuza bəy olmuş, Qarabağ xanlığının yaranmasında müstəsna zəhməti olduğundan, xanlığa tabe olsa da onun səlahiyyətlərinə xeyli torpaq verilmişdir. İran şahının yanından qaçan Pənahəli, bir il Zəngəzurda başının dəstəsi ilə birgə Murtuza bəyin qonağı qismində yaşamış, bu müddətdə Murtuza sultan silah-sürsat və canlı qüvvə təşkil etməklə müstəqil Qarabağ xanlığını yaratmağa nail olmuşlar. Pənahəli ilə Myrtuza bəyin dostluğu Zəngəzur sultanlığının sərhədlərinin indiki İran dövlətinin Qaradağ, şimalda isə Göyçə mahalına qədər genişləndirməyə imkan vermişdir. Nəbibəylilərin uzun müddət bu sultanlığa rəhbərlik etmələrinin çox dərin kökləri var, amma onların Qızılbaşlardan əvvəl və Pənahəli xanla isti

münasibətlərindən sonra da XX əsrin əvvəllərinə kimi hakimiyyətlərini qorumaqda Ziyadoğulları və Qacarlarla yaxın qohumluq əlaqələrinin də əhəmiyyəti az olmamışdır. Böyük Zəngəzur Nəbibəylilərdən sonra parçalanmış, yuxarı hissə Hacısamlı (və ya Hacıxanlı) adı ilə fəaliyyətdə olmuş və onun hər iki hissəsi yenə də Qarabağın tərkibində olmuşdur. Elə həmin illərdə də Yuxarı Qarabağa yox, Yuxarı Zəngəzura siyasi rəhbərliyi Sultan bəy Sultanov etmişdir. Sultan bəyin demək olar ki, Azərbaycandakı ömrü at belində və keşməkeşli olmuşdur. Cümhuriyyət dövründə isə onun qardaşı xosrov bəy Qarabağın genera-qubernatoru olmuş, Zəngəzur isə şimallı-cənublu yenə də Qarabağ tabeçiliyində fəaliyyət göstərirdi. Bu dövrlərdə Nəbibəylilərin Qarabağda, Xankəndində, Gorusda, Qafanda, Ağcabədidə(taxta körpü), Zəngilanda, Təbrizdə, Xoyda, Gəncədə, Ərdəbildə mülkləri, qohum-qardaşları, çoxlu miqdarda torpaqları, mədənləri və s. olsa da, Murtuza bəyin öz övladlarının törəmələri Araflı və onun ətrafında bir-birinə yaxın 35-dən artıq yaşayış məskənlərində, Kəlbəcərin çox hissəsində yaşamaqda davam edirdilər. Bu yaşayış məntəqələrindən biri də Bülövlük kəndi idi. Bülövlük kəndi də XVIII əsrin sonları, XIX əsrin əvvəllərində yurd yerindən daimi yaşayış məskəninə çevrilmişdir. XX əsrin əvvəllərinə isə bu kənddə yaşayan bəylər, qədim qaydalarına zidd olaraq ətraf kəndlərdən olan Ərikli, Piçənis, Qurdgəzi, Arduşlu, Ağcakənd, Qoşasu, Qaraçanlı, Alpoud, Kəlbəcərin bəzi kəndlərindən olan, amma əsilzadə olmayan insanlarla qohumluq əlaqələri qurmuş, qız verib, qız almışlar. Vəziyyət o yerə çatmışdır ki, bu bəylərdən XX əsrin əvvəlinə əsilzadəliklərini saxlayan, bülövlükdə Bərxudar bəy və onun xanımı, Alıquluda isə Böyük Zəngəzurun axırıncı sultanı ixtisasca həkim Cəbrayıl bəyin kiçik oğlu Cəlil bəy və onun xanımı yaratdıqları iki ailə istisnalıq təşkil edirdilər.

Sultan bəyə gəldikdə isə babası çalvadar olmuş, sonralar isə bu kəndlərlə qohumluq yaratmış, bu qohumluqdan istifadə edərək Murtuza bəyin Araflıda yaşayan törəmələrinin köməkliyi ilə bəylik titulu qazanmışlar. Sultanlılar kəndindəki bəylərin kökü isə İrəvanqulu xanının və Nəbibəylilər səcərəsinin (II Almməmməd bəy) bir qolunun törəmələridir. Son fikirlərin mənbəyi Araflıda yaşamış, anası və arvadı Qurdgəzi kəndindən olan yüzbaşı və pristav işləmiş, Nəbibəylilərin səcərə tarixinin 4-cü kitabının bir hissəsini qeydə almış Süleyman

bəy Nəbibəylidir. Belə məlumatı ikinci dəfə yazıya alan beynəlxalq əlifbanın müəllifi Əli (4-cü Almәmməd bəy) Nəbibəylidir. Atası gözəl xəttat olub, "Quran" ı ərəb dilindən sətri tərcümə edib, yazılarından Əlyazmalar institutunda saxlanılır. Sultan bəyin atası Paşa bəy savadsız olsa da, çox ağıllı insan olub, oğlu Xosrov bəyi də Cəbrayıl bəy Nəbibəylinin Odessada oxuduğu tibb institutuna da Cəbrayıl bəyin həyat və fəaliyyətindən xoşu gəldiyi üçün göndərmişdir. Xosrov bəy də Paşa bəyin ümidlərini doğrultmuş, nəinki Cəbrayıl bəy kimi Zəngəzurun sultanı və Qarabağ xanlığının baş sərkərdəsi, o, bütövlükdə bütöv Qarabağın general-qubernatoru olmuş, "İttihad" partiyası fraksiyası kimi Müsavat hakimiyyətində təmsil olunmuş, sonralar türkiyədə artıq "İttihad"partiyasının sədri kimi Məmməd Əmin Rəsulzadə ilə sıx təmasda olmuş, Müsavatın Azərbaycanda yenidən hakimiyyətə gələcəyi təqdirdə hakimiyyətdə təmsil olunacağını razılaşdırmışdır. İkinci Dünya Müharibəsinin əvvəllərində Cəbrayıl bəyin nəvəsi İsrafil bəylə Almaniyada bir neçə dəfə görüşmüş, öz tərəfdaşları ilə birlikdə bir çox azərbaycanlıları, Orta Asiya və digər müsəlman SSRİ əsgərlərini Hitler konslagerlərindən azad etmişlər. Bu haqda Milli Təhlükəsizlik Nazirliyinin qəzetində və digər qəzetlərdə məlumatlar verilmişdir. 1915-20-ci illərədə Şuşa şəhər polisində fəaliyyət göstərən Müseyib bəyin ailəsi Laçın bölgəsinin Bülövlük kəndində məskunlaşmışdır və həm də Qurdgəzi kəndi insanları və Sultan bəylə qohumluqları var idi. Müseyib bəy çox yaraşıqlı, qoçaq, cəngavər, el-obanı istəyən, yeri gələndə əl tutan və sözübütöv olmaqla öz dövrünün məşhurlarından olmuşdur. Yaxşı at, yaxşı silah, xəncər həvəskarı olmuşdur. XX əsrin ilk on illiyində bəylik deyilən törəmədə və Laçın bölgəsində yaşayanlar arasında II Almәmməd Sultan və Cəbrayıl bəydən sonra qızıl alışqan, qızıl qəlyan ancaq Müseyib bəydə olmuşdur. Elə vaxt olurmuş ki, "Aynalı" və "Beşaçılan"ı eyni vaxtda istifadə edə bilirmiş. Əliaçıq, qonaqpərvər, dost yolunda ölümə hazır adam imiş. Həm də, sadəlövh, hər şeyə tez inanan, tez qızışıb-tez də soyuyan adam olmuşdur. Bəzən kasıblar arasında bəy paltarının üstündən köhnə, nümdaş paltarlar geyər, özünü sadə apararmış ki, ətrafdakı insanlar narahatlıq keçirməsinlər. Bəzən də kasıbların tərəfini saxladıqda, onları müdafiə etdikdə "başağrısı" çəkərmiş. Belə bir hadisəyə görə bir dəfə Pircan kəndində "oturan" (o bina sonralar məktəb oldu) pristav nümayəndəliyi onu tutub cəzalandırmaq istəyirmiş. Bu məqəsdlə də Bülövlükdəki evini gecə ikən polislər

mühasirəyə alırlar. Müseyib bəy polisləri inandırır ki, özü sərbəst gəlib rəislə danışacaqdır, hər məsələdə xətir-hörmətlə bitəcəkdir. O, elə də edir. O, hamıdan əvvəl Pircana çatır və çox zəhmli və cəld olduğundan onu qarşılayanlar da, rəisin özü də tutulur, ona heç nə deyə bilmirlər. Müseyib bəy rəisə müraciət edir ki, məni görmək istəmirdiniz, mənlik nə qulluğunuz var, buyurun, mən sizin hüzurunuzda. Rəis bu gəlişin və müraciətin o dərəcədə gözlənilməz olduğundan, Müseyib bəyin zəhmindən-ancaq "yoxyox, bəy heç nə, sizin sağlığınız" kəlmələrini dil-dodağı əsə-əsə deyə bilir. Müseib bəy isə sağollaşıb, cəld də otaqdan çıxır. Rəis özünə gələndə Müseyib bəy tək ağac deyilən yeri artıq keçmişdi. Ona nə atılan güllə, nə də at çata bilməzdi. Bu hadisədən sonra Müseyib bəy onunla Gorusda görüşür və dostlaşırlar.

Müseyib bəyin ölümü ilə nəticələnən görüş isə Şuşada baş vermişdir. Bolşeviklər çox böyük bir gizli təbliğata başlamışdılar, onun da mərkəzi Tiflis şəhəri idi. Ən çox Azərbaycan bolşeviklərinə göstəriş oradan gələrdi. Mir Cəfər Bağırov seyid olsa da, qatı bolşevik idi. Kommunist ideyalarına inanırdı, Tiflisdə çoxlu gürcü bol şevik dostları da var idi. Çaparidze, Djerjinski, Beriya, Stalin və sairlər də bu sırada idilər və bu şəxslər bolşeviklər arasında böyük nüfuza malik idilər. M.C.Bağırov heç də onlardan geri qalmırdı, bir çox məsələlərdə isə hətta onlardan qabaqda idi. M.C.Bağırov bir dəstə bolşeviklərlə Qarabağın bir çox yerlərində, gizli təşkilatlarla görüşür, tapşırıqlarını verir. Lakin, o, Şuşa şəhərində ələ keçir. Bir müddət Şuşa həbsində yatdıqdan sonra və Qarabağın general qubernatoru (milliyətcə rus olub) Gəncədə oturduğundan göstərişlə onu qubernatora təhvil vermək zərurəti yaranır. Müseyib bəy haqqında yuxarıda dediyimiz xüsusiyyətləri nəzərə alınaraq, bu işi ona həvalə edirlər və tələb edirlər ki, M.C.Bağırovun cənab qubernatora təhvil verilməsi haqqında, onun imzası ilə sənəd gətirməlisən. Qazalaqlar hazır olur, dörd nəfər də polis əməkdaşları Müseyib bəyin rəhbərliyi ilə Gəncəyə üz tuturlar. Yolda imkan düşən kimi Bağırov Müseyib bəyin qoçaq adam olduğunu, bəy oğlu olduğunu eşidib, xasiyyətindən də xəbərdar idi, proletariatı müdafiə etdiyini də bilirdi. Müseyib bəyi Bağırov inandırır ki, bolşeviklər mütləq qalib gələcək və o halda Müseyb bəyə heç kim heç nə edə bilməyəcək, çünki Müseyib bəy bolşevikləri, Azərbaycan proletarlarını müdafiə etmədə öz əməyi və zəhməti olmuş bir şəxs kimi təqdim edilə bilər və sənədli-

sübutlu faktda vardır. Müseyib bəy isə ona bir qamçı çəkərək kəs səsini bolşevik köpək oğlu cavabını verir və sürücüyə Yoluğa (Yevlax) sür əmri verir. Onlar Yevlax dəmir yol məntəqəsinə kimi danışmırlar (Şuşada Müseyib bəyi başa salmışdılar ki, Bağırov çox böyük bolşeviklərdəndir, həm də o da qoçaq adamdır, ehtiyatlı ol yolda qaça bilər). Yevlaxda isə Müseyib bəy ətrafındakı polisləri yeməkxanaya aparıb, onlara çay-çörək alır və qeyd edir ki, çörəklərini rahat-ayxayın yesinlər. O, özü Bağırovun qarovulunda duracaqdır. Müseyib bəy Bağırovun əl-qolunu açır, bəyə layiq onu yedizdirir və Yevlax-Bakı qatarına bilet alıb onu yola salır. Bağırov isə bir kağız parçası taparaq yazır: "Bütün kommunistlərə – Müseyib bəy əsl kommunist, proletariatın dayağıdır, Bağırovun xilaskarıdır. Mir.Cəfər ." Sonra Müseyib bəyə Bağırov bildirir ki, sən bu gündən bolşevik partiyasının üzvüsən, yerli bolşeviklərlə əlaqə qur, onlara dayaq dur, kim səni incidərsə, sənə verdiyim kağızı ona göstərərsən. Bu həm də sənin partiya biletindir. Onlar ayrıldıqdan sonra Müseyib bəy adamlarını götürərək Gəncəyə üz tutur. Yevlax-Gəncə yolunda böyük bir sahədə biçilmiş taxıl zəmisinə rast gələndə qazalağı saxlatdırır və göstəriş verir ki, iki nəfər küləş toplasın, diğərlər isə zəminin içində bir xəndək qazsınlar. Yığılmış küləşi qazılmış xəndəyə tökdürür və qızıl alışqanı ilə ona od vurur. Sonda küləş külünün üstü torpaqla basdırılır və baş daşı yerinə "burada qatı bir bolşevik əclafı basdırılıb" sözləri yazılmış taxtanı qoyurlar və o ətrafındakı adamlara müraciətlə "gördünüz də, qaçmağa cəhd edən qatı bolşeviki öldürdük, yandırdıq və üstünü də torpaqladıq" deyir. Hamı Müseyib bəyin sözlərini təsdiqləyirlər. O, cibindən xeyli pul çıxarıb onları mükafatlandırır və yollarını davam edirlər. Gəncəyə çatdıqda isə iki nəfər polisi yanında götürərək qubernatorun yanına girir və əhvalatı yuxarıda qeyd edildiyi tərzdə şərh edir, yanındakı polisləri də şahid qismində təqdim edir. Sonra Şuşadan gətirdiyi qubernator "töhvəsini" də ona təqdim edir və xahiş edir ki, ona bir sənəd verilsin ki, həqiqətən M.C.Bağırovu Müseyib bəydən təhvil almışdır. Qubernator Şuşa polis idarə rəisinə öz imzası ilə bir sənəd verir və həm də göstəriş verir ki, Müseyib bəyin yoldakı bu şücaətinə görə onu mükafatlandırsınlar. Bu hadisə M.C.Bağırovla Müseyib bəyi çox yaxınlaşdırır. Yaxınlıq əlaməti olaraq M.C.Bağırov Müseyib bəyə bir qızıl cib saatı və bir ədəd də zərə tutulmuş gümüş qınlı xəncər bağışlayır. Deyilən dövrlərdə Azərbaycan hələ də gürcülər, farslar, ruslar və xüsusən də

ermənilərlə ortaq məxrəcə tam gələ bilməmişdilər. Rus bolşeviklərlə erməni daşnak (üzdə bolşevik) qoşunları Azərbaycanı demək olar ki, işğal etmişdilər. Zəngəzurda, Şuşa və Şuşa ətrafı kəndlərdə, Laçının Gorusla, Qara göl, Minkənd, Xankəndi üstü Nərdivandağ erməni kəndləri ilə sərhəd torpaqlarda hələ də atışma davam edirdi. Digər tərəfədən də həm ermənilər və həm də ruslar tərəfindən bolşevikləri Yuxarı Qarabağa buraxmayan Sultan bəyə hər gün bir elçi, bir canlı və yazılı ultimatumlar göndərilirdi. Ermənilərin indiki Laçın şəhərinin aşağı hissəsində Zabux körpüsü deyilən yerdə ağır zərbə alması, Andranik silahlı qüvvələrinin məğlubiyyəti Sultan bəyə çox böyük şərəf və şöhrət gətirmişdi. Onu da qeyd edək ki, Azərbaycan insanlarının ermənilərlə döyüşündə ermənilərin bu miqyaslı 2-ci bir məğlubiyyəti olmamışdır. Bunun da səbəbi ermənilərin müəyyən məqamlardan istifadə ertmələri, xaricdən silah-sürsat, canlı qüvvə yardımları ilə bağlıdır. Yəni bizim məğlubiyyətlərimizin heç də ermənilərin döyüşkənliyinə aidiyyatı yoxdur. Andraniklə bu döyüşdə bütün Laçın əhalisi çox böyük birlik və həmrəlyik, vətənpərvərlik, ən başlıcası isə əsl milli qeyrət nümayiş etdirmişlər. Təbii ki, burada Araflı (Alaflı), Yal kəndi, Alıqulu, Bülövük, Sultanlar, Yenqıca, Beşbulaq, Dündül, Bağırbəyli və s. yaşayış məntəqələrinin bəyləri daha çox öndə gedən olublar, hərəsi bir "əsgər" birliyinin başında dayanırdı. Bunun da səbəbi onların hamısının silah sahibi, imkan sahibi və silahdan yaxşı istifadə etmə qabiliyyətləri olmuşdur. Əhali Sultan bəyə nəyə gümanları gəlirdisə, onunla yardım etmişlər. Andranikə qarşı mübarizədə Paşa bəyin yanında məşvərət qrupunun səkkiz nəfərindən biri olan və hamıdan cavan olan Cəlil bəyin (Peterburqda təhsil almış) xanımı Qaratel xatunun 1958-ci ildə bir məclisdə dediyinə görə, o ailə Sultan bəyə Türkiyədən top almaq üçün bir ətək qızıl-gümüş vermişdir. Yəni, əhali eyni hava ilə nəfəs almış, hamının nəbzi vətən üçün eyni cürə döyünmüşdür. Mən deyərdim ki, Laçında 1988-1992-ci illərdə də həmin ab-hava hökm sürürdü, heyif ki...

Başda rus şovinist bolşevikləri, bolşevik paltarı geymiş daşnak ermənilər və bolşevik ideyasına inanmış siyasi savadsız Azərbaycan insanları birlikdə Yuxarı Qarabağda, Zəngəzurda, onun Laçın bölgəsində Sultan bəyi aradan götürmək qərarını verirlər. Bu, dağlarda, bu eldə asan iş deyildi və Laçının bir neçə adamlarını çıxmaq şərti ilə, digərləri bolşevizm nə olan bir məfkurədir bilmirdilər.

Odur ki, həmişə olduğu kimi bizə qarşı hiyləyə əl atdılar. M.C.Bağırov Müseyib bəylə əlaqə saxlayacağına qərar verdi, adam göndərdi, hər cür yardıma və digər məsələləri boynuna çəkdi. Əlbəttə bu vədlərin içində hədə qorxu da var idi. Müseyib bəy seçim qarşısında qalmışdı. Hansı tərəfə üstünlük versəydi nəticəsi eyni cür alınmalı idi. Onu da xatırlatmaq vacibdir ki, bolşevik qoşun növlərinin tərkibində olan millətlərin, hətta, Azərbaycana olan münasibətindən asılı olmayaraq bolşeviklər artıq işğal qüdrətində idilər. Hər bir bölgəmizə müdaxilə edə bilir, istədiyinə böyük qırğınlar bahasına olsa da, nail olurdu. Bu baxımdan Müseyib bəy ikibaşlı oyun oynamaq istədi və tərəddüdü uzun çəkdi, heç kimlə də məsləhətləşmədi, bir sözlə tək başına qərar verdi. O, fikirləşirdi ki, Sultan bəyi yaralamaqla bolşevikləri neytrallaşdırar. Sultan bəysə ya çıxıb gedər, yaxud ağsaqqal-qarasaqqalla barışıqlıq yaradar. Əlbəttə, bu çətin məsələ idi. Heç kimi güllə atandan sonra səni öldürmək fikrim olmayıb deməyə inam yaratmaq çətindir. Yaxşı olardı ki, Müseyib bəy elə Sultan bəyin özü ilə açıqdan-açığa danışıb, ikilikdə bir qərara gələydilər. Bu baş vermədi, Müseyib bəy Sultan bəyi yaraladı, həm də ağır yaraladı, baxmayaraq o, ürəyində bunu istəmirdi. Dərin yaralanmağın səbəbi isə Sultan bəyin oturduğu yerdə aşağı əyilməsi olmuşdur. O, çox əziyyət çəkdi, dağda, mağarada yaşadı, yaxşı dostların sayəsində müalicə olundu, nə bolşeviklərin və nə də ki, ermənilərin əlinə keçdi. Sultan bəy Müseyib bəyin bu hərəkətini heç cürə bağışlamadı. Sultan bəy Müseyib bəyin bu hərəkətini ona qəsd kimi qiymətləndirdi və tədbirini də gördü. Müseyib bəyin Alıyanlı kəndində yaşayan dostlarını ələ aldı, onun aradan götürülməsinə qərar verdi. Sultan bəy qardaşı Xosrov bəylə artıq İrana keçmişdi, amma hərdənhərdən vətəninə məxvi yollarla gəlirdi, uzaq səfərə-Türkiyəyə gedəcəyindən bir çox işlərini, o cümlədən Müseyib bəy məsələsini də "yoluna" qoymaq istəyirdi və etdi də. Alıyanlıdan olan Müseyib bəyin dostları onun yanına gəlmədilər, ardınca harasa getmədilər, pusqu qurmadılar. Sadə bir məktub yazıb, onun içinə bir Quran ayəsi vərəqi qoyub, Müseyib bəyə bildirdilər ki, sən bu Quran durma tez bizə gəl sənlə bir vacib işimiz var. Əlbəttə, Müseyib bəy nə qədər sadəlöv insan olsa da məktubdan şübhələndi, çox ağıllı, təmkinli xalası oğlu olan Əvil bəylə məsləhətləşdi. Əvil (Evil) bəy o dəqiqə Müseyib bəyə bildirdi ki, səni çağırırlar öldürməyə, baxmayaraq ki, o, Müseyib bəyin Sultan bəyə güllə atdığını bilmirdi.

Müseyib bəy onda Əvil bəyin onunla getməsini istədi. Əvil bəy özü getmədi, başqalarında onunla getməsinə qəti etiraz etdi. Müseyib bəy onu qorxaq adlandırdı. Əvil bəy isə cavabında bildirdi ki, "ağıllı igid külək əsəndə, ağacın yarpaqlarının xışıltısından da diksinməli, ehtiyat etməlidir..." Müseyib bəy bir neçə nəfərlə məsləhətləşsə də, hamı Əvil bəy dediyi qənaətdə idilər. Bərk əsəbiləşən Müseyib bəyə dəqiq atəş açma məsələsində heç kim çata bilmirdi, çox güclü və cəld idi, bir sözlə özünün gücünə, qüdrətinə özü də inanırdı, istənilən vəziyyətdə qorxu bilməz adam idi. Həm də onun ailəsi Quran oxuyan, oruc tutan, namaz qılan idilər, Allaha yetərincə sitayiş edirdilər. Müseyib bəy öz qüdrətinə inandığı kimi, getməməyi də Qurana hörmətsizlik kimi dəyərləndirirdi. Yəni üzbəüz heç kim Müseyib bəyə əl qaldırmağa cürət edə bilməzdi, heç bacara da bilməzdi. Amma, yolda təsadüf etdiyi köhnə tanışlarından birini Müseyib bəy özü ilə götürə bilir və onu məlumatlandırır, psixoloji hazırlayır. Qardaşlar Müseyib bəyi həmişəkindən daha da yaxşı qarşılayırlar, yeyib-içirlər, yatmaq məqamı gələndə Müseyib bəy yanındakı adamı başa salır ki, mənə bir saat yatmaq gərəkdir, silahımda yanımda olacaq. Bir saat sən yatma, silahın da əlində hazır olsun, bir saatdan sonra sən məni durğuzarsan, mən sənin qarovulunu çəkərəm, mən ayıq olanda heç kimin bizə əl qaldırmağa cürəti çata bilməz. Hərçənd ki, bu belə olmadı, qarovulda duranı yuxu tutdu və bunu izləyən qardaşlar öz adamları ilə birlikdə Müseyib bəyi, onun tanışını yatdıqları yerdə güllələdilər. Sonra gecə ikən meyitləri öz kəndlərindən kənarda – Şuşaya gedən yolun kənarında, hamının görə biləcəyi bir yerə atdılar.

Müseyib bəyin qətlə yetirilməsi çox böyük sürətlə hər yana, hətta Dağıstana, Gürcüstana, İrana, Qarabağa, Zəngəzura, Naxçıvana, İrəvana və s yerlərə yayılmışdı. Hadisəni İranda eşidən Sultan bəy bir az rahatlansa da, vətənindən, ailə üzvlərindən çox böyük nigarançılıqla Türkiyəyə üz tutdu. Sultan bəyin, Müseyib bəyin hər ikisinin vətənləri, ailələri, təsərrüfatları bolşeviklər tərəfindən min bir əzab-əziyyətə düçar oldu. Sultan bəyin nəyi var idisə, hamısı müsadirə olundu, məhv edildi, təhqir olundu. Bolşevizm çox güclü təbliğ edilir, doğma qardaşlar ayrı-ayrı ideoloji cəbhələrdə bir-birinə qarşı döyüşür, vuruşurdu. Sultan bəyin də ailə üzvləri hətta öz yaşadıqları yerdə qohumları tərəfindən təhqirlərə məruz qalırdı, ev-eşikləri dağıdılırdı. Sonralar Əvil bəy söyləyirmiş ki, Sultan bəyin Nağdalı deyilən (Sultan bəyin buradakı yaylaq yaşayış məskənləri, "Sves" adlı

çoxlu mal-qarası əsasında əvvəlcə "Nağdalı" heyvandarlıq sovxozu yaradılmış, daha sonra isə ona Kirovun adını verməklə-Kirov adına maldarlıq sovxozu demişlər və bu sovxoz sovetlər 1991-ci ildə dağılana qədər fəaliyyətdə olmuşdur.) mülkündə bolşeviklər, hətta onların arasında olan Sultan bəyin nökər-naibləri də burada özlərini yaxşı aparmadığına və əndazələrini ötdüklərinə görə qeyrətim qəbul etmədi, oraya getməli oldum. Baxmayaraq ki, xalam oğlu Müseyib bəyi Sultan bəy öldürtmüşdür. Orada nə görsəm yaxşıdır, dünənki nökər-naiblər xəncərlərini yorğan-döşəyə, yastığa, mütəkkəyə soxaraq cırır və qu-quşunun tükləri aləmi bürümüşdü, ağız deyəni qulaq eşitmirdi, mənə də fikir verən yox idi. Çarəsiz qalıb havaya bir güllə atdım və dedim ki, ay bədbəxtlər, bu yastıqların günahı nədir?! Öz yastıqlarınızın içini samanla doldurursunuz, bundansa, bu yastıqları, yorğan-döşəkləri öz aranızda bölüşdürün. Bu sözdən sonra Sultan bəyin Nağdalıdakı ev əşyalarının üstündə dava-dalaş başlandı. Mən isə buradan uzaqlaşmağa üstünlük verdim.

Müseyib bəyin ölüm əhvalatı M.C.Bağırova çatanda o artıq "ÇK" deyilən qurumun rəhbəri idi. Bağırovun həmin dəqiqələrdə keçirdiyi hisləri başa düşmək çətin olsa da bu məsələ ilə bağlı onun gördüyü tədbirlər nəyi isə dərk etməyə imkan yaradır. Belə ki, Bağırov kifayət edəcək qədər "ÇK" silahlılarını seçdiyi gecələrin birində Alıyanlı kəndi ətrafında düzür. Onlara əmr edir ki, kəndə girənlərə və arvad-uşaqla işiniz olmasın. Amma, gözə görünən və kənddən çıxmaq istəyən hər bir kişi güllələnməlidir. Əmr verildiyi kimi icra edilir, Alıyanlıda xeyli kişi, günahı oldu-olmadı məhv edilir.

Mərkəz qaşısında məsələyə şərh verən Bağırov bəyin əsl bolşevik (biletsiz), əsl kommunist, əsl Leninçi və proletarların müdafiəçisi olduğunu bildirir, onun şəxsində çox böyük bir kommunisti itirdiklərini urək ağrısı ilə söyləyir. O, sözünün sonunda qeyd edir ki, gərək bu kəndi tam məhv edəydik, lakin, biz dədəbabadan arvad-uşağa əl qaldırmağı özümüzə rəva bilməmişik.Hesab edirəm ki, elə burada oturanlar da mənimlə həmfikirdilər,baxmayaraq ki, Müseyib bəy kimi kommunistə də əl qaldıran,onunla bir süfrədə çörək yeyən, dostluq edən bu kişiləri həmin əl dəymədiyimiz qadınlar bu dünyaya gətirmişlər. Amma, Laçında Müseyib bəylə M.C.Bağırovun bu münasibətlərini demək olar ki, heç kim bilmirdi. Odur ki Müseyib bəyin ailəsi də bütün qohum-övladaları kimi çox pis günə qalmışdı,

yaşayış yerləri tam məhv edilmişdi. Hətta sirf əkin-səpinlə, yaxud cüzi mal-qara təsərrüfatı ilə məşğul olan və bəy adını öz soy adının sonunda eşitməkdən, yaxud xeyir-şərə gedəndə, yeganə bəy paltarını əyninə keçirməkdən başqa heç nəyin sahibi olmayan bəylər də hədəfdə idilər. Qaçanlar qaçmış, tutulanlar tutulmuş, öldürülənlər öldürülmüş, digərləri bəyliyini danmış, hansının digər nəsillərlə qohumluqları varsa-oralı olduğunu sorğu-sualda bildirməmiş, soy adlarını danmış, bir sözlə nəsl səcərələrindən etiraz etmişlər. Bəzən də torpaqlarını, heyvanlarını, mülklərini könüllü olaraq hökümətə, kolxoza verəndə belə, onları kolxoza götürməmişlər. Bu əziyyətlərə dözməyən Müseyib bəyin xanımı (Sultan bəyin qohumu) Xurşud xanım dünyasını dəyişəndə, iki kiçik yaşlı-Zeynəblə, Kamran kiçik bir daxmada yiyəsiz qalırlar. Müseyib bəyin ata qohumlarından olan Əbdülkərim bəy "ÇK"nın sorğu sualından iflic olub, yorğan döşək xəstəsi olmuşdur. Ona qulluq etməyə bir insanın gücü çatmırdı. Amma, qohum-övladı sağ olsunlar. Gündüz gələ bilməyənlər, gecə gəlib kişiyə baş çəkir, əlindən gələni edirlər. Zeynəblə Kamran da buraya gələr, Allah verəndən dadar, bəzən də elə burada da gecələyərdilər. Belə gecələrin birində uşaqlara yazığı gələn Əbdülkərim bəy və xanımı Əsli xanım arasında Müseyib bəylə Bağırovun əlaqəsindən qorxa-qorxa olsa da, söhbət gedir. Zeynəb böyük uşaq idi, özü də atası kimi qorxu nədi bilməzdi. Səhərisi gün evlərindən 2-3 km aralıda "Kiş pəyələri"adlanan yerdə yaşayan başqa bir qohumugilə gedir və bildirir ki, məni aparın M.C.Bağırovun yanına, mən ona bizim günahsız olduğumuzu deyəcəyəm. Qohumlar pərişan olsalar da Zeynəbə söz verirlər, havalar işıqkən qardaşının yanına qayıtmağı tövsiyə edirlər. Zeynəbdən sonra burada qərara alınır ki, M.C.Bağırova əhvalat haqda bir məktub yazsınlar və bəlkə də bu məktubu digər qohumlar üçün də xeyri oldu. Elə də edirlər. Araflıda qalan yeganə yazıb-oxumağı bacaran qohumun yanına gələrək Zeynəbin fikrini ona çatdırırlar. Həmin şəxs Zeynəbin adından uşaq xəttinə bənzər xətlə sadə bir məktub yazıb, Bağırovdan kömək istəyirlər və məktubu gecəynən gətirib Şuşadakı poçt məntəqəsinin qapısından asılmış qutuya atırlar. Bir müddətdən sonra Laçın rayon partiya təşlikatının katibi, polisi, icarəyə komitəsinin sədri xeyli ərzaq, pal-paltar və s. ilə gəlirlər. Bülövlük kəndində, kolxozun sədrini, komsomolu da oraya çağıtdırırlar. Yerindəcə uşaqların vəziyyəti ilə tanış olurlar, digər insanlarla söhbət aparırlar. Buradakı adamlar Laçının

katibinə bildirirlər ki, bəylikdən heç kim və heç nə qalmayıb, burada qalanları da bir-bir yoxlaya bilərsiz. Yığışmış insanlar bir–bir özlərini təqdim edirlər ki, məsələn mən Piçənis kəndindənən, buraya gəlin gəlmişəm, özüm də yetimdaram, nə ərim qalıb, nə də ki, ərimin digər qohumları. Amma, bizi də bəy kimi tuturlar, incidirlər, heç bir əsas olmadan harasa uzaqlara göndərirlər. Kiçik yaşlı uşağın təşəbbüsü ilə və Bağırovun göstərişinə əsasən bu kənddə xeyli müddət əmin-amanlıq olur. Lakin, bu da uzun çəkmir. Ətraf yaşayış yerindəki insanların siyasi savadsızlığı və ya səviyyəsizliyi ucbatından orda-burda gizlənmiş bəyzadələrin əməyə qayıdışı onlara baha başa gəlir. Biri kolxozda biçin biçdiyi yerdən, digəri xırman döydüyü yerdən, başqa birisi isə gecələdiyi evdən sorğu-sualsız aparılmış, xüsusəndə oxumuşlar, bir daha ev-eşiklərinə dönməmişlər. Onu da deməliyik ki, söylədiyimiz axırıncı hadisədən sonra Laçında Müseyib bəylə Bağırovun münasibətləri hər yerə yayılır və Laçına yeni katib gələndə də Müseyib bəyin oğlu Kamran bəyə və qızı Zeynəb xanıma hər hansı qüsurlarına görə cəza verməkdən çəkinmişlər. M.C.Bağırovu, Sultan bəyi və Müseyib bəyi ittiham etməyiisə buraxırıq oxucunun və zamanın səlahiyyətinə...

XIX FƏSİL

XOSROV BƏYİN FƏALİYYƏTİ HAQQINDA

Qarabağ bütövlükdə, xüsusən də dağlıq əraziləri dünyanın möcüzəli bölgələrindən biridir. Cənublu-Şimallı Bütöv Azərbaycanın hər guşəsində olduğu kimi Qarabağda da insan yaşayışının bütün dövrləri yaşanmışdır. Xosrov bəy də belə bir torpağın yetişdirməsidir. Xosrov bəy çox kiçik yaşlarından evlərində ailələrində gedən söhbətlərdən ən azı Zəngəzurda olan savadlı ailələr, bəylər, mülkədarlar və tanınmış din xadimləri haqqında gedən söhbətləri eşitmişdi. Sonra, təhsil aldı, mütəxəssis oldu, siyasi səhnədə seçilən şəxslərdən birinə çevrildi.

Bir məqamı xatırlatmaq yerinə düşər. XX əsrin əvvəllərində bütün Şərqdən, bir neçə qitələrdən öncə, Şimali Azərbaycanda qurulan Xalq Cümhuriyyətini quran insanlar əsilli-nəsilli insanlar olmaqla yanaşı, həm də yüksək mənəviyyatlı ziyalılar olmuşlar. Bunlardan biri də Xosrov bəy idi. Eyni zamanda Xosrov bəyi bu vətənpərvər insanlardan fərqləndirən cəhətlər də mövcud idi. Çünki o, Zəngəzurlu

idi, onun bir guşəsi olan Hacısamlıdan idi. Bu insanlar ermənin kimliyini, hansı xislətin sahibi olduqlarını yaxşı bilirdilər.

Xosrov bəy gənc yaşlarında Şuşada, Gəncədə oxuyarkən Qarabağın ayrı-ayrı bölgələri, sərhədləri, adət-ənənələri, onun insanları, tarixi keçmişi ilə mütəmadi maraqlanmışdı. O, tarixçi olmasa da Azərbaycan tarixini, milli xüsusiyyətlərimizi bir çox ziyalılarımızdan daha yaxşı bilən əsl vətəndaş idi.

Xosrov bəy 1879-cu il martın 10-da Zəngəzur qəzasının Hacısamlı bölgəsində işıqlı dünyaya göz açmışdır. Odessada – Cəbrayıl bəyin qurtardığı Tibbi Universitetini Paşa bəyin tövsiyəsi ilə bitirmişdir.

Günümüzdə hamıya bəlli olduğu kimi AXC-nin ilk müdafiə naziri-general, AXC-nin ikinci kabinetində əkinçilik naziri, 1919-cu ilin 15 yanvarından 1920-ci ilin aprelin son günlərinə kimi Şuşada Qarabağın general-qubernatoru olmuşdur.

Xosrov bəyin Zəngəzuru, xüsusəndə Qarabağın ermənilərdən müdafiə edilməsində zəhməti heç də qardaşı Sultan bəydən az olmamışdır.

Belə ki, o, 1919-cu il 21-30 martında Əsgəran döyüşündə daşnak generalı Dronu məğlub edib. Bu işdə Zəngəzurun Araflı bəyləri ona daha çox yardımçı olmuşlar. 1919-cu ilin iyununda Azərbaycan Elmlər Akademiyasının Xəbərlər jurnalının verdiyi arxiv sənədlərinə görə Şuşaya ermənilərin silah gətirənlərini və erməni Milli Şurasının üzvlərini həbs elətdirib. Burada da Xosrov bəyə Zəngəzurun qəza rəisi Camal bəy Sultanov, Laçının Araflı bəyləri, Haxnəzər kəndindən olanlar və müavini Çingiz İldırım etibarlı adamları kimi xeyli yardımçı olmuşlar.

Xosrov bəy, eyni zamanda müstəqilliyimizə, xalqımıza sədaqətli, hər kəsin dəyərini düzgün qiymətləndirməyi sevən bir şəxs olmuşdur. Bütün çətinliklərə baxmayaraq o, vaxt tapıb, Əhməd Cavad şəxsiyyətinə və yaradıcılığına hörmət əlaməti olaraq şairin şeirlər kitabını da çap etdirmişdir.

Tarixi sənədlərə görə, 1919-cu il yanvarın 15-də AzərbaycanDemokratik Respublikası Hökumətində keçirilən iclasında əsas məsələ Zəngəzur və Qarabağda yaranmış ağır vəziyyət idi. Həm də hər iki bölgənin eyni qubernatorluğunun yaradılması məsələsi gündəmdə dururdu. Əsas səbəb Xosrov bəyin əslən Qarabağın Zəngəzur bölgəsindən olması, bölgələri yaxşı tanıması, ən əsası isə Xosrov bəyə dayaq dura biləcək qardaşı Sultan bəyin yuxarı Zəngəzurun

Hacısamlı hissəsinin səlahiyyətli bəyi olması, onun xeyli silahlı dəstəsinin olması və silah-sursat, nizamlı-təcrübəli orduya malik daşnak-erməni generalı Andranikin qarşısında dayana bilməsi idi. İstər Yuxarı Qarabağdakı, istərsə də nisbətən Aşağı Qarabağdakı ermənilər havadarları olan ingilislərin, rusların,fransızların, ABŞ-ın və s. köməkliyi sayəsində azərbaycan hökumətinə tabe olmaq istəmirdilər. Ermənilər istəyirdilər ki, ilk növbədə Zəngəzurla Qarabağı, daha sonra Gəncəni ələ keçirməklə S.Şaumyan qüvvələri ilə birləşib ümumilikdə Şimali Azərbaycanın varlığına son qoymaqla "Dənizdən-dənizə" "Böyük Ermənistan" yaratsınlar. Zəngəzurda isə Zəngəzur qəzası üzrə orada ermənilərin törətdiyi faciələri araşdıran dövlət komisiyanın üzvü Mixaylovun yazdığı kimi Andranikin Türkiyədən, Rusiyadan, Ermənistandan, Zəngəzurdan, İrandan topladığı təcrübəli erməni qoşunları ilə Zəngəzurun 160 kəndini viran qoymuş, insanlara olmazın əzablar vermiş, insanların mal-mülkünü qamarlamışdı. Növbəti hədəf indiki Laçın bölgəsi idi.

AXC-i özünün həm 15, həm də 29 yanvar tarixli yığıncaqlarında Qarabağ general-qubernatorluğunun yaradılmasını və bu vəzifəyə Xosrov bəyin təyin edilməsinə yekdilliklə qərar vermişdir. Bu qərarla Xosrov bəy Sultanov Zəngəzur,Cavanşir, Şuşa və Cəbrayıl inzibati ərazisinin rəhbəri, Çingiz İldırım isə onun müavini olmuşdur.Hər iki şəxs 1919-cu il fevralın 12-də quberniyanın mərkəzi olan Şuşa şəhərinə gəlmiş və özlərinin ilk müşavirəsini fevralın 15-də keçirmişlər. Bu yığıncaqda polis təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, qaçqınların öz torpaqlarında məskunlaşdırılması, əkin sahələrinin gücləndirilməsi, təhsil, tibbi işlər, poçt və teleqraf, hərbə çağrış və cari məsələlər diqqət mərkəzində olmuşdur.

Xosrov bəy öz fikrini bildirdikdən sonra müşavirədə Şuşanın qəza rəisi Abış bəy Qalabəyov, Zəngəzurun qəza rəisi Camal bəy Sultanov və Cavanşir əzasının rəisi Bəhram bəy Məlik Abbasov və digərləri çıxış edərək mövcud vəziyyət, ondan çıxış yolları haqqında öz fikirlərini bildirdilər.

Zəngəzur qəzasının rəisi Camal bəy öz çıxışında qəzada olan ağır vəziyyəti, ABŞ-ın, İngiltərənin, Rusiyanın və sair ölkələrin Andranikə həm hərbi, həm pul, həm də ərzaq yardımlarından danışdı.

Qeyd edək ki, Xosrov bəyin bu vəzifəyə təyinatını ermənilər istəmirdi. Onun qardaşının da ermənilərə qarşı mübarizə etdiyini bilirdilər. Ona görə də erməni mətbuatı və xarici işlər nazirliyi bir çox dövlətlərə müraciət edib öz narahatçılıqlarını bildirirdilər. Hətta, onlar Qarabağ qubernatorluğunun ləğv olunması üçün xarici havadarlarından kömək istəyirdilər. Ermənilər Qarabağda İngilis qubernatorluğunun yaradılmasını xahiş edirdilər. Bununla əlaqədar AXC-nin Xarici Işlər Nazirliyi bir neçə nota vermiş və Qarabağın, Zəngəzur qəzasının qədim Azərbaycan-türk torpağı olduğunu bildirmişlər. Üç aprel 1919-cu il tarixində tarixi həqiqətlər qarşısında aciz qalan ingilis komandanlığı bəyanət verərək Andranikin qoşunlarının buradan çıxarılmalı olduğunu və Xosrov bəyin Qarabağın general-qubernatorluğunu qəbul etdiklərini bildirmişlər.Lakin, ingilislər günümüzdə olduğu kimi az sonra verdikləri bu bəyanatdan üz döndərmiş, ermənilər müdafiə edərək hər vəchlə bölgədə hakimiyyətin Erməni Milli Şurasına verilməsini və Xosrov bəyin vəzifəsindən uzaqlaşdırılmasını istəmişlər. AXC-nin Xarici İşlər Nazirliyi 25 iyun 1919-cu il tarixində Ermənistana Ədilxan Ziyadxanovun imzası ilə 224 saylı nota vermişdir. Notada deyilir: – "Mən hökumətimiz adından, onun tapşırığı ilə sizə xəbərdarlıq edirəm ki, X.Sultanov Azərbaycan Respublikası hökumətinin 1919-cu il 15 yanvarında Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Zəngəzur, Şuşa, Cavanşir və Cəbrail qəzalarının generalqubernatoru təyin edilmiş və o, aprel ayının 3-də rəsmən tanınmışdır. Ermənistan Respublikasının Hökumətinin X.Sultanovun fəaliyyətinə və göstərilən qəzalarda Azərbaycan qoşunlarının yerləşdirilməsinə qarşı etirazları, Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq sayılır. Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun apardığı ciddi tədbirlər nəticəsində Şuşada qaydaqanun yaradılmış və həyat qismən normal ahəng almışdır. Xosrov bəyin rəhbərliyi və səlahiyyətində olan Zəngəzur qəzasında isə Andranik öz qoşunları ilə oturmuşdu, 160-dan artıq kəndi xarabazarlığa çevirmişdi, xarici ölkələrdən gətirilən ermənilərı bu torpaqda məskunlaşdırırdılar. Həmin dövrdəki prosesləri ermənilər hazırda da eyni qaydalarla təkrarlayırlar. Xosrov bəyin elə bir silahlı qüvvəsi yox idi ki, Andraniki Zəngəzurdan çıxarsın. AXC-nin də belə bir imkanı yox idi ki, Xosrov bəyin tələbələrini yerinə yetirə bilsin. Ölkədə çox acınacaqlı

vəziyyət hökm sürürdü. Zəngəzur məsələsində ancaq qardaşı Sultan bəy onun karına gəlirdi.

Xosrov bəy 2 aprel 1919-cu il tarixində və başqa-başqa vaxtlarda Nazirlər Şurasına ünvanladığı məktublarda yazırdı ki, sondərəcə ağır şərait yarandığı bir vaxtda hərbi hissələrin ona tabe olmaması daha ağır nəticələrə gətirib çıxaracaqdır. Səbəb isə zəruri məqamlarda o, hərbi qüvvələrə göstəriş verə bilmir və ya yaranmış vəziyyət barədə nazirlər şurası ilə, eləcə də müdafiə nazirliyi ilə ortaq məxrəcə gələ bilmirdi. Xosrov bəy hökumətdən tələb edirdi ki, ordu üzərində onun səlahiyyətləri olmalıdır və qubernatorluğun ərazisində olan hərbi qüvvələr onun göstərişləri ilə hərəkət etməlidirlər. Xosrov bəy onun tələbləri müsbət həll olunmadığı halda istefa verəcəyini də dilə gətirmişdi. O, "geciksək Zəngəzur və digər qəzaları itirə bilərik, Azərbaycanda hərc-mərclik yaranar"– demişdir.

Xosrov bəy rəhbərlik etdiyi bölgələrdə gedən prosesləri yaxşı dərk edir, ölkənin taleyini ermənilərdən və yadellilərdən xilas etmək üçün bütün mümkün vasitələrə əl atırdı.

Xosrov bəy çalışırdı ki, təxirə salınmadan hərbi hissələr Zəngəzura yeridilsin və İrəvandan Azərbaycan torpaqlarına ermənilərin hərbi yürüşlərinin qarşısı alınsın.

Xosrov bəy istəyirdi ki, Dağlıq Qarabağda yaşayan ermənilərə Azərbaycan hakimiyyətini tanımaq barədə ultimatum verilsin və onlara altı gün vaxt qoyulsun. Eyni zamanda bütün ermənilərə Azərbaycan bölgələrindən getməyi təklif etmək və ultimatum müddətində onlarla bütün əlaqələrin kəsiləcəyini bildirmək. Ultimatumu yalnız Şuşa şəhəri üçün bir istisna olaraq qəbul etmək nəzərdə tutulurdu. Xosrov bəy tələb edirdi ki, Azərbaycan hökuməti altı gün müddətində ermənilər tərəfindən tanınmazsa, yeddinci gün hərbi əməliyyatlara başlamaq və bunun məsuliyyətinin tam olaraq erməni əhalisi rəhbərlərinin üzərinə düşəcəyini bildirmək gərəkdir.

X.Sultanov general-qubernator kimi fəaliyyətə başlayarkən yaranmış vəziyyətlə əlaqədar bildirmişdir ki, öz həyatını xalqının azadlığına, Azərbaycan torpaqlarının bütövlüyünə qurban verməyə hazır olan bir dövlət adamı kimi, ancaq qanun və ədalətə xidmət edəcəkdir. Bu bölgədə olan hakimiyyət Azərbaycana məxsusdur və hər kəs milliyyətindən asılı olmayaraq bərabərdir, qanunlara tabe olmayanları isə ciddi cəza gözləyir.

Cəsur qardaşlar

Xosrov bəy Baş Nazir N.Yusifbəyliyə göndərdiyi məktubunda yazır: - ".... Ermənilərin hərəkətlərindən görünür ki, onlar hücum üçün hazırdırlar. Ona görə xahiş edirəm hərbi nazirə göstəriş verərsiniz ki, hərbi çağırışdan əvvəl əsgərlərin geyim hazırlığı olsun. Yerli batalyonda ayaqqabı və geyim çatışmamazlığından narazılıqlar olduğundan mən dünən işə qarışmalı oldum, əks halda bu ciddi xarakter alardı. Hələlik qəzaların dördündə də sakitlikdir. Onu da deyim ki, vəd olunmuş patronları da almamışam". Xosrov bəy öz vəzifəsinə çox ciddi yanaşır, heç nədən geri çəkilmirdi. Şuşa şəhərinin özündə ermənilər atışmadan əl çəkmirdilər. Özləri də hamılıqla silahlı idilər. General- qubernatorun tapşırığına məhəl qoymayan ermənilər üçün o, demişdir: "...Bundan sonra atışma bir daha təkrar olarsa, erməni Milli Şurasının üzvləri Şuşadan sürgün edilsin, əks təqdirdə zor tətbiq etmək məcburiyyətində olacam"... Xosrov bəyin bu fikrindən sonra ingilislər erməni Abetisyanı,Tumanyansı və İşxanyanı nəinki Şuşadan, eyni zamanda Azərbaycandan sürgün etdilər. Bu məsələdən sonra da ermənilər Xosrov bəydən beynəlxalq təşkilatlara şikayət etməyə başlayırlar. Xosrov bəyin ciddi cəhdi, Andranikin silahlı qüvvələrinin Sultan bəy tərəfindən Laçın bölgəsinin zabux dərəsində məhvi yuxarı Qarabağda nisbətən sakitlik yaratmağa imkan yaradır və erməni əhalisi Azərbaycan hökumətini tanımağa qərar verməyə məcbur olurlar. Ümumilikdə erməni insanları ancaq güc qarşısında təslim olurlar. 1919-cu ilin avqust ayında Qarabağ ermənіləri yığıncaq keçirir və Azərbaycan hökumətinə tabe olurlar. 23 noyabr 1919-cu ildə isə ABŞ nümayəndələrinin təşəbbüsü və vasitəçiliyi ilə münaqişələrə son qoyulmasına dair Azərbaycan və Ermənistan arasında müqavilə imzalanır. Müqavilə bağlamalarına baxmayaraq bu imza mərasimindən az sonra ermənilər Zəngəzurda və Qarabağda azərbaycanlılar yaşayan kəndlərə hücumlar edirlər. Ona görə də Xosrov bəy 1919-cu ilin dekabr ayında bir neçə dəfə Azərbaycan hökumətinə, Azərbaycan Xarici İşlər Nazirliyinə bu barədə məlumat verməklə yanaşı, kömək də istəmişdir. Hətta, böyük qüvvə mümkün olmasa, heç olmasa Zəngəzurda azərbaycanlıları müdafiə üçün onun sərəncamına Qaryagin (Füzuli) bölgəsində yerləşən 600 türk əsgəri ilə birlikdə iki pilamyotla üç nəfər zabit verilsin. Bu müraciət yerinə yetirilmədiyindən Xosrov bəy 1919-cu il dekabrın sonlarında Azərbaycan hökumətindən tutduğu vəzifəsindən azad olunması haqqında xahiş etmişdir.

Xosrov bəy çox böyük vətənsevər olaraq təkcə Qarabağın ona tabe olan torpaqlarında deyil, ermənilərə qarşı başqa bölgələrimizdə də mübarizə aparan insanlarımıza yardımçı olmuşdur. Bunun bariz nümunəsi olaraq Göyçə, Basarkeçər və Kəlbəcərdə eyni zamanda baş verən və bir-biri ilə əlaqəli olan bir erməni vəhşiliyini misal gətirmək olar. Məlum olduğu kimi ermənilər Birinci Dünya müharibəsi illərində Osmanlı Türkiyəsində və Şimallı-Cənublu bütün Azərbaycanda, xüsusəndə Qərbi Azərbaycanda, Yuxarı Qarabağda, Zəngəzurda daha çox, daha uzunmüddətli və daha çox faciəvi qırğınlar törətmişlər.

Xosrov bəy və Sultan bəy qardaşlarının, Araflı, Alıqulu bəylərinin, ümumiyyətlə Laçın bölgəsi insanlarının ermənilərlə mübarizə tariximizdə Azərbaycan dövləti qarşısındakı xidmətləri misilsizdir.

Məlum olduğu kimi Laçın, Kəlbəcər, Basarkeçər, Göyçə mahalları Qərbi Azərbaycan torpaqlarının bir hissəsi olmaqla bir-birlərinə söykənən vəziyyətdədirlər. Sultan bəy də təkcə Laçının müdafiəsi ilə məşğul deyildi. Adı çəkilən bölgələrə də yardımçı olurdu. Andraniklə yanaşı, digər erməni generalı Silikov Türkiyədə döyüşmüş erməni hərbiçilərdən ibarət çoxsaylı erməni ordusu ilə Göyçəyə, Basarkeçərə, Kəlbəcərə, indiki Laçın bölgəsinin şimal hissəsinə tez-tez basqınlar etməklə Aran Qarabağa girmək istəyirdilər. Sultan bəy də imkanı çərçivəsində bu bölgələrə hərbi yardımlar edirdi. Ermənilərin növbəti basqılarının birində ermənilərin Göyçəni məhv edərək Basarkeçərə üz tutduqlarını Sultan bəyə çatdırırlar. Kəlbəcərli Məşədi Cəmil ilə Sultan bəy yaxın idilər. Məşədi Cəmilin məlumatı əsasında Sultan bəy Kəlbəcəri müdafiə edərək, Basarkeçərə istiqamət götürür. Zimistan Həsənovun, Məhəmməd Nərimanoğlunun və Elburus Şahmarın yazdıqlarına görə 5 aprel 1918-ci il tarixində ermənilərin deyilən bölgələrdəki hücumlarının qarşısını almaq üçün Sultan bəyin bir dəstəsi Hacısamlıdan Kəlbəcərə doğru hərəkətə başladı. Onu da qeyd edək ki, bu tarixdə Xosrov bəy Qarabağa general-qubernator təyin olunmamışdı, Andranik aşağı Zəngəzurda bütün bölgəni məhv etmişdi, Şuşada, Əsgəranda, Füzulidə erməni silahlıları tüğyan edirdilər və Zəngəzurla – Andraniklə birləşmək istəyirdilər. Bütün bunlara baxmayaraq Sultan bəy ilk olaraq Kəlbəcərin Zar-Zəylik kəndinə gələrək yerli əhalini cəm etmiş, onları silahsursatla təchiz etmişdir. Sonra o, Göyçə tərəfə üz tutur, Basarkeçəri ermənilərdən təmizləmək istəyir. Sultan bəyin gəlişini

ermənilərə xəbər verirlər. Zod kəndində ermənilərin çox olduğunu bilən Sultan bəy onları ilk olaraq məhv etmək istəsə də Zod əhalisinin başbilənləri buna yol vermək istəmirlər, qantökmə tərəfdarları olmurlar. Sultan bəy onları başa salır ki, gələcəkdə basarkeçər erməni quldurlarının hücumuna məruz qala bilər. 4 may 1918-ci ildə bu bölgədəki ermənilər əlavə olaraq Andranikdən yardım almaqla bu bölgənin kəndlərinə eyni zamanda hücum etməklə müdafiəsiz kəndləri yandırır, əhalisini məhv edirlər. Sultan bəy haqlı olur. Bölgənin Kəvər, Bayazut, Gözəldərə, Haçalı, Yarpızlı, Əzizli, Tüsgülü, Yuxarı Zağa, Aşağı Zağa, Kərkibaş, Qanlı, Qırxbulaq, Aşağı Məzrə, Yuxarı Məzrə, Daşkənd, Aşağı Sorca, Yuxarı Sorca, Sarıyaqub, Qayabaşı, Zərkənd, Ağkimsə, Tənbeh, Nərimanlı, Ağyoxuş, Qaraqoyunlu, Göysu, Canəhməd, İnəkdağı, Şişqaya, Sorcasu, Toxluca, Zod və s. qırxa yaxın kəndləri ermənilər darmadağın etdilər, əhalisi eybəcər üsullarla məhv edildi. 1918-ci ilin qışında isə ermənilər Kəlbəcərin şimal hissəsində yerləşən Göycənin 32 kəndinin əhalisini qışın çovğununda öz ev-eşiklərindən qovaraq Kəlbəcər tərəfə istiqamətləndirməklə kəlbəcərliləri də vahiməyə salmaq istədilər. Bu insanların əksəriyyəti sonralar sümüklü dərə adlanan və Dikyurd və Söyüdlü yaylaqlarına yaxın olan bir dərədə məhv edildi. Burada 20 minə yaxın Göyçəli həyatları ilə vidalaşmalı oldular.

Yenidən bu bölgələri müdafiə üçün gələn Sultan bəy xeyli səy göstərsə də qardaşı Xosrov bəyin Məşədi Cəmilə yardımı məsələni bölgə insanlarının xeyrinə həll etdi.

Belə ki, Xosrov bəyə 14 qatır yükü yağ-bal gətirən Məşədi Cəmilə o, xeyli silah-sursat verir və yağla-balın dəyərini isə pulla ödəyərək, bu pulları insanların özlərinə paylamağı tapşırır. Yardım alan Məşədi Cəmil Xosrov bəyin fikirlərinə əməl etməklə və Sultan bəydən aldığı yardımla birləşdirməklə, yerli əhalinin gücünə ermənilərin hücumlarının qarşısını ala bilir.

Sağ qalan göyçəlilərin öz yerlərinə qaytarılması və ermənilərə layiq olduqları cavabı alması yolunda XVIII əsrin ortalarında Zəngəzurun Sultanı olmuş Qara Murtuza bəyin Laçın bölgəsindən gələrək Kəlbəcərdə məskunlaşan törəmələrinin də zəhməti çox olmuşdur. Onlar Laçında yaşadıqları kəndlərin adlarını da Kəlbəcərdə yaşadıqları yurdlarına vermişlər. Bunlardan Bəylik, Keştək, Qoturlu, Qılınclı, Kiş, Qaraçənli, Bağırbəyli və s. yaşayış məntəqələrini misal göstərə

bilərik. Bu insanların vətənpərvərliyi nəticəsində,Xosrov bəyin yardımı sayəsində həmin ildə də ermənilər Göyçənin bütün müsəlman kəndlərindən qovulur və erməni general Silikov Basarkeçər bölgəsinin Qumlu bulaq adlanan yerində keştəkli döyüşçüləri tərəfindən öldürülür və sağ qalan göyçəlilər öz kəndlərinə dönürlər.

Xosrov bəyin Vətən qarşısındakı xidmətləri söylənilənlərlə bitmir.O, 1920-ci il 28 aprel bolşevik işğalından sonra da 1923-cü ilə kimi Azərbaycanda yaşamışdır. Xosrov bəy Azərbaycanlı bolşeviklərdən xeylisi ilə tanış olsa da onun Azərbaycanda qalması mümkün olmur, yaxşı ki, bu belə də olur. Ermənilərin təşkilatçılığı ilə Qarabağdan 70 erməni qadını adından mərkəzə şikayət edilərək bildiririk ki, guya Xosrov bəy bu erməni qadınları ilə yaxın olmuşdur.

Təbii ki, Xosrov bəyə başqa bir nöqsan tapa bilmirdilər. Çünki,Xosrov bəy Qarabağın erməni əhalisinə də çox humanistcəsinə yanaşmışdır və erməni qadınlarına salam verməyə nə onun vaxtı,nə həvəsi və nədə ki, mənəvi imkanı yox idi.

Xosrov bəyi həbs edirlər, Bakıya gətirirlər. Onun azad edilməsində qardaşı Sultan bəyin dostları, Xosrov bəyin öz dostları, qardaşı – neftçi Rüstəm bəyin, Rüstəm bəylə birlikdə Bakıda neft sənayesi sayəsində işləmiş, ailənin yaxını və qohumluq əlaqəsi olan Cəlil bəyin böyük zəhməti olmuşdur. Xosrov bəyi Bakıdan müxtəlif yollarla Laçına aparan xeyli insanlar arasında Kişdən olan Mikayıl oğlu Rüstəm bəy onu Bakıdan Hacısamlıya qədər müşayiət edənlərdəndir.

Xosrov bəy ixtisasca həkim olsa da, çox uzaqgörən siyasətçi,vətənpərvər, dövlətini və xalqını sevən bir şəxs olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti yerini bolşeviklərə verəndən sonar bir çox narahatçılıq məqamları olsa da, Sultan bəy vətəni tərk etmək fikrində olmamışdır. Onun əksinə olaraq Xosrov bəy Bakının Bayıl türməsində yatdığı zaman qardaşı Sultan bəyə xəbər göndərmişdir ki, Azərbaycanı tərk etsin. Sultan bəy isə, əlbəttə istəmiş olsaydı belə, Xosrov bəyi qoyub getməzdi. Belə də oldu. Lakin, Xosrov bəy Laçına gəldikdən sonra getməyin vacib olduğunu hər ikisi dərk etdi. Bununla yanaşı, qardaşların hər ikisi hesab edirdilər ki, bu hakimiyyət möhkəmlənə bilməyəcək və yerini təzədən AXC-nə verəcəkdir. Odur ki, Sultan bəy ailəsini özü ilə aparmadı. Digər tərəfdən o vaxtın psixologiyası belə idi ki, heç kəs arvad-uşağa toxunmaz. Belə işlər kişiliyə

sığmaz. Bu fikirlə Xosrov bəy Sultan bəylə Azərbaycanı tərk edərək, böyük bir ürək ağrısı ilə 1923-cü ildə Cənubi Azərbaycana keçdilər. Orada da hiss etdilər ki, qardaşları nə ermənilər, nədə ki, farslar rahat buraxmayacaqlar. Hər iki qardaş İrandan Türkiyəyə getmək məcburiyyəti qarşısında qalırlar. Cümhuriyyət tarixindən məlum olduğu kimi, Xosrov bəy "Itdihad" partiyasının rəhbərliyində ikinci şəxs idi. Xosrov bəy Cümhuriyyətin bərpası yolunda bu partiya vasitəsi ilə siyasi fəaliyyətini İranda, Türkiyədə və Avropanın bir sıra ölkələrində özəklər yaradaraq işini davam etdirməkdə idi.

İkinci Dünya müharibəsi illərində Xosrov bəyin siyasi fəaliyyəti daha da güclü və qələbənin yaxın olması iddiasında idi. Həqiqətən də Almaniyanın Rusiyaya qalib gəlməsi halında bu daha da inandırıcı görünürdü. Almanların qələbələri bütün siyasi mühacirlərdə olduğu kimi, Xosrov bəyə də böyük ilhamlar verirdi və o, fəaliyyətini daha da genişləndirmişdi. Bu fəaliyyətlərdən biri də İsrafil bəyin Avropada, xüsusən də Almaniyada SSRİ-ni təmsil edərkən Xosrov bəylə tanışlığı və qarşılıqlı fəaliyyətləri olmuşdur. Onu da qeyd edim ki, İsrafil bəyin fəaliyyəti haqqında Dövlət Təhlükəsizlik Nazirliyinin "Sərhəd" qəzetində onun xidmətləri haqqında iki yazı verilmişdir. İsrafil bəyin Xosrov bəylə və M.Ə.Rəsulzadə ilə İkinci Dünya müharibəsi getdiyi dövrdə tanış olmaları barəsində "Son Söz"qəzetində də (3-10 aprel 1999-cu il) yazı verilmişdir. Həmin dərci tam olmasa da burada vermək həm Xosrov bəy və həm də İsrafil bəy ruhu qarşısında bir borc hesab edirəm. Yazı, sırf danışıq qaydasında danışıldığı tərzdə olduğu kimi qələmə alınmışdır.

Z.Nəbibəylinin "Xosrov bəy həmvətənlərimizin xilaskarı kimi"yazısında Azərbaycan Respublikası öz müstəqilliyini 2-ci dəfə elan etmək ərəfəsində idi. Ermənilər Qazax və Laçın bölgələrində sərhədlərimizi tez-tez pozur, atəş açırdılar. Laçın dəhlizinə rus əsgərləri nəzarət edirdi. Laçında yerli əhali ilə rus əsgərləri arasında narazılıqlar əmələ gəlmiş, yerli özünümüdafiə dəstəsi yaranmış və get-gedə bu dəstə möhkəmlənməkdə idi. Mən də tez-tez Laçınla əlaqə saxlayır, get-gəl edirdim. Laçın əhalisi çox fəallıq göstərirdilərsə də, buna mərkəzdə o qədər də əhəmiyyət vermirdilər. Yerli özünümüdafiə batalyonu inkişaf edərək rus ordusundan qabağa getmişdi. Dəstədə çox böyük ruh yüksəkliyi, vətənpərvərlik,

döyüşkənlik, nizam-intizam, səliqə-sahman hökm sürürdü.Amma, bununla yanaşı batalyonun silaha, paltara, bütövlükdə hərbi sursata böyük ehtiyacı var idi.

Belə çətinliklərin hökm sürdüyü günlərin birində Laçın özünümüdafiə batalyonundan Bakıya xəbər gəldi ki, filan-filan şeylərə çox böyük ehtiyac var, Bakıdan kömək gəlməsə Laçında vəziyyət ağırlaşa bilər. Bakıdakı, Sumqayıtdakı əslən Laçınlı ziyalılar və digər vətənpərvər insanlar imkanları daxilində kömək etməyə çalışırdılar. Lakin, bu insanların maliyyə çətinliyi də kifayət qədər idi. Biz əlimizdən gələn hər cür köməkliyi edir, sən-mən, siz-biz söhbəti etmirdik. Kimin əlindən nə gəlirdisə onu da edirdi. Lakin, özünümüdafiə batalyonunun bu dəfəki çağırışına fəallıqla girişib xeyli iş görsək də aldığımız sursatlara pulumuz çatmırdı. Kimin üstündə, evində, dostunda, tanışında nəyi var idisə, hamısını bir yerə yığsaq da yenə də lazım olanı ödəmirdi. Birdən yadıma düşdü ki, atam İsrafil bəyin bir neçə aylıq təqaüdünü qabaqcadan almaq olar. Üz tutdum kişinin yanına, ondan da əvvəl poçtdakı tanışımla onun təqaüdünün verilməsinin mümkünlüyünü razılaşdıq, – bir şərtlə təqaüdü kişi özü qol çəkib almalı idi.

Məsələnin məğzini qısaca da olsa İsrafil bəyə çatdıra bildim. O, cavabında – "ə, bala, nə vaxtdan mən sənin əlinin üstünə əl qoymuşam?" belə işlərə lazım gələrsə, kişi evini-malınıda satıb ödəməlidir. Mənim o ayaqqabılarımı ver mənə, kömək elə gedək. Kişi nasaz idi, amma dinməz-söyləməz mənimlə getdi və pulu alıb verdi. Bu pulun məbləği bir şey olmasa da, çox karımıza gəldi və lazımi şeyləri alıb Laçına, Arif Paşayevə göndərə bildik.

İşimizdə olduğu kimi, evimizdə də bütün söhbətlər erməniazərbaycan, rus-azərbaycan, yer-yurd, haqq-nahaq söhbətləri idi.

Evdə adamların az olduğu bir məqamda kişi dedi (mən onu beləcə çağırırdım) – "hə, bu xəmir hələ çox su aparacaqdır, dünya müharibəsi yadıma düşdü, Allah sənə rəhmət eləsin Xosrov". Kişi, Xosrov kimdir, – dedim. Paşa bəyin oğlu Xosrov bəyi deyirəm. Kişi, o haradan sənin xəyalına gəldi. Qardaş (o, məni qardaş, balaca qardaş çağırardı) cavanlığım yardıma düşdü, mən onunla Avropanın ayrı-ayrı ölkələrində, şəhərlərində görüşmüşəm, müharibənin qızğın çağında, almanların fanat vaxtında. Kişi, bu söhbətləri heç mənə deməmisən. Necə deyəydim, ay bala, elə özümdən çox səndən qorxurdum, bir də kişinin ağzı nə qədər möhkəm olsa, bir o qədər yaxşıdır.

Beləcə söhbət uzandı və kişidən bilmədiyim bəzi məsələləri öyrəndim.

Söhbətin qısa məzmunu belə idi ki, İsrafil bəy tez erkən komsomola qəbul olunmuş, komsomol fəalı olduğundan da öz könlü ilə vaxtından əvvəl əsgərliyə getmiş, Leninqradda xidmət etmiş, yaxşı əsgəri xidmətə görə elə oradaca xüsusi təyinatlı məktəbə getmiş, elə kursantlıqdan Rus-Fin müharibəsinə göndərilmiş, orada yaralandıqdan sonra öz oxuduğu məktəbə qaytarılmış, vaxtından əvvəl zabit çini almış və yoldaşlarından xeyli qabağa çıxa bilmişdi. Xüsusi məktəbdə xüsusi dil – alman dili də öyrədirdilər.

Boy-buxunum, bayavoyluğum, yaralanmağım və alman dilini yaxşı öyrənməyim bir növ başıma bəla oldu. Məni xüsusi məktəbin xüsusi institutuna göndərdilər. Yorulmaq bilmirdim, fiziki normaları, silahlardan istifadə və "Avropa qaydası"nı çox dəqiq yerinə yetirə bilirdim. Arada, elə oxuya-oxuya Ukraynaya hərbi təlim təcrübəsinə göndərildim və çox yaxşı zəmanətlə geri qayıtdım. Elə bu da mənim Avropaya göndərilməmin axırıncı etapı imiş. Xeyli adam idik,əksəriyyəti bir-birini tanımırdı. Elə bir nəqliyyat növü olmadı ki, bizi ona mindirməsinlər, hər bir adamla ayrıca məşğul olur, təlim keçirdilər. Biznən olan söhbətləri heç kimə açmamaq məqsədi ilə "xüsusi formaya" qol çəkmişdim. 25 il müddətində mənimlə olan söhbətləri hər kimə açsaydım, məhkəməyə ehtiyac yox idi, əlli-ayaqlı getməli idim, amma mən 50 ildir susmuşam və təbii ki, bundan sonra da demərəm.Bir məqamı isə deyəcəm, sən də bilsən yaxşıdır, lazım olar.

O dövrdə Avropada demək olar ki, hamı alman dilində danışırdı, hətta incə dilli fransızlar da.

Kişinin "dili" açılmışdı. Məəttəl qalmışdım. Fikirləşirdim ki, ayə, bu kişi nələrə qadir imiş, deməli "solaxay" İsrafilin solaxaylıq sirri bu imiş / o, çəngəli sol əli ilə tuturdu, məclislərdə isə çalışırdı sağ əlində tutsun, yaxud əli ilə yesin/.

Mənə ayrılmış marşurutların hamısına baş çəkmişdim, işlərim səhmanda idi, fədakarcasına işləyirdim. Xəbər gəldi ki, alman düşərgələrindən, orada olan vəziyyətdən, "satqınlardan" məlumat toplayım. Bu minvalla doğma işimə bir işdə əlavə olundu. Bu gün alman düşərgələri haqqında məlumat dünyada bəllidi. Lakin, elə məqamlar var ki, gərək özün şahidi olasan. Almanlara çox böyük hörmətim olsa da, faşistlər elə doğrudan da faşist idilər, bircə ermənilərdən geri qalırdılar. Düşərgələrdə hər cür əzablar verilsə də, alman səliqə-sahmanı hər yerdə hökm

sürürdü, onu pozmaq heç bir almanın ağlına da gəlmirdi. Düşərgələrdə ruslardan çox digər millətlərin oğulları var idi, Orta Asiya, Qafqaz, Ukrayna. Nədənsə, almanlar ukraynalılara nisbətən diqqətli idilər. Amma, əvvəlcə onu sübut etmək gərəkdi. Elə bil bütün türkdilli xalqları Rusiyadan seçib bu düşərgələrə doldurmuşdular. Bu əhalinin əksəriyyəti dil bilmirdi və savadsız idilər, siyasətdən başları çıxmırdı.

Yəhudilər özlərini gizlətməyə çalışsalar da mümkün olmurdu,onları "satırdılar". Satqınlıq əsasən ruslara, ermənilərə aid idi, bəziləri də bilməməzlikdən "satqınlıq" edirdilər.

Hətta, ermənilər erməni olduqlarını sübuta yetirmək üçün Amerikada, Fransada olan məşhur ermənilərin adlarını çəkər, bu kara gəlməyəndə şalvarlarını açıb sünnətsiz olduqlarını göstərməyə çalışırdılar.

Müsəlman əsgərlər də isə heç bir sübuta çalışqanlıq yox idi. Mənə məlum oldu ki, sünnətlə bağlı azərbaycanlıları və müsəlman əsgərləri yəhudi kimi düşərgələrdən seçib aparıb məhv edirlər. Hətta, əsir düşmüş sovet əsgərlərinin birinin başqasından xoşu gəlməyəndə, xüsusən qarabuğdayı insanları yəhudi kimi – alman zabitlərinə çatdırırdılar. Çoxlu miqdarda əsgərlər yəhudi millətinin nümayəndəsi kimi məhv edilirdi. Məlumatı aidiyyatı məntəqələrə ötürsək də nəticəsi olmamışdı, cavan-cavan insanlar məhv olurdu.

Adətən, Türkiyə ilə bağlı məsələlərdə mən iştirak etmirdim.Səbəbini bildirdim, sadəcə üstümə götürmürdüm, götürməkdə olmazdı. Buna baxmayaraq eşitmişdim ki, almanlar qalib gələrlərsə, Azərbaycana Rəsulzadə adlı bir nəfər rəhbər göndərilməlidi. Onun kimliyini, nəçiliyini aydınlaşdıranda bütün məsələlər gün kimi mənə aydın oldu. Mən onu axtarırdım, görüşməyə də ürək etmirdim.

Növbəti tapşırıqda bizə rəhbərlik edən və təlimat verən, bizlərə oxşayan bir şəxs idi və o, mənə onunla qalmağı təklif etdi. Biz birbirimizlə yaxınlaşdıq. O, ukraynalı idi, səmimi adam olsa da tərsliyi vardı. Mənə əvvəlcədən heç bir məlumat vermədən bir qrup adamla görüşə aparmışdı. Söhbətdən məlum oldu ki, bu adamlar Sovetlərə qulluq edirlər və almanlardan, türklərdən məlumatlar toplayırlar.

Cəsur qardaşlar

Görüşlərin birində bunlardan bir-birilə azərbaycanca danışığın şahidi oldum və ukraynalı söhbəti yazdığından, mən bir də diqqətlə sözlərə fikir verdim. Beləliklə, mən birbaşa bunlarla əlaqə saxladım.

Bir çox məlumatları onlar əvvəlcə mənə verir, saf-çürük etdikdən sonra meydana çıxarırdıq. Bir-birimizə inam yaranmışdı.Mən onlara azərbaycanlıların, müsəlmanların yəhudi adı ilə məhvi məsələsini söylədim. Onlar da çox tələş keçirdilər. Elə o,gündən də bu yolda fəaliyyətə birgə başladıq. Çox canfəşanlıqdan, çətinlikdən sonra onlara – Məmməd Əmin Rəsulzadəni istiqamət verdim. Bu insanların fikirləri mənimki kimi tamam çevrilmişdi. İndi biz nə olursa-olsun, insanlarımızı xilas etməli idik. Dostlar bütün Avropanı, Türkiyəni bir-birinə vurduqdan sonra Məmməd Əmin Rəsulzadəni tapıb mənim qoyduğum məsələni ona çatdırmışdılar. Məmməd Əmin Rəsulzadə ilə məni görüşdürmək fikrinə də gəlmiş və ondan razılıq almışdılar. Mən isə razılıq vermədim, zamana ehtiyacı var dedim. Bu səbəbdən də Məmməd əmin Rəsulzadə mənim Azərbaycanın hansı bölgəsindən olmağımı aramış və mənə bəraət qazandırmışdı. Bir müddət keçdikdən sonar həmin əlaqələndiricilər mənə general qohumunu tapmışıq dedilər və bizi görüşdürdülər. Əlbəttə, görüşdük, amma generalı tanımadım. Həmsöhbətim yer-yurd adlarını, özünün və mənim adlı-sanlı qohumlarımın adını çəkdikdən sonra və gözünün birindəki şəkki gördükdən sonra onu tanıdım. İkimiz də ayağa durub qucaqlaşdıq və Xosrov bəy, sizi xoş gördük, – dedim. Yaşlı görünsə də sifətdən çox təravətli idi. Azərbaycanca təmiz danışa bilmirdi, türk, alman və fransız dillərində yaxşı danışırdı, xalq aforizmlərindən istifadə edirdi. Alman dilini nə gözəl bilirsən, qardaşoğlu, o dağlar hara, alman hara – deyə mənə mürciət etdi. Kənd – kəsəklə, Hacısamlı, Şuşa, Azərbaycan, Sovet quruluşu barədə, xüsusən Stalin,M.Bağırov və ermənilər barəsində olan suallarının ardı-arası kəsilmirdi. Hər görüşdə də bu qəbildən olan suallar təkrar olurdu. Adımı çəkmirdi, "qardaşoğlu" çağırırdı məni.

Mən Almaniyada, onun hüdudlarından kənarda olan azərbaycanlı və Sovet əsirləri haqqında Xosrov bəyə, onun təsəvvür edə bilməyəcəyi məlumatlar verdim. Amma, bütövlükdə birinci məsələ əsirlikdə olan Azərbaycan və islam əsgərlərinin taleyi, onların yəhudi adı ilə məhv olunmalarından xilas olmalarını qoydum. Xosrov bəy Avropanı yaxşı tanısa da, çox dost və tanışları olsa da,ilk vaxtlar heç

nə edə bilmirdi, çox əsəbiləşirdi. Mən onun fikrini Məmməd Əmin Rəsulzadəyə yönəltdim, almanlarla türklərin yaxşı münasibətdə olmalarını xatırlatdım. O, yuxudan ayılmış kimi oldu. Çox düz yoldasan, belə olan halda mən getməliyəm. Bu çox yerinə düşdü. Bilirsən, qardaşoğlu, azərbaycanda sənə nazir vəzifəsi məndən. Mən təəccüblənəndə – qardaşoğlu, Məmməd Əmin mənə iki nazir vəzifəsini təklif edib. Deyib seç ya səhiyyə və social təminat naziri, yaxud xarici işlər naziri vəzifəsini. Qəm yemə, gün o gün olsun ki, evlərimizdə üzbəüz oturaq, qalanları düzələr.

M.Rəsulzadənin müdaxiləsi ilə Türkiyə Xarici İşlər Nazirliyi Alman dövləti qarşısında müsəlmanların yəhudi kimi məhv edildiyi məsələsini qaldırdı. Türk və alman nümayəndələrinin iştirakı ilə xüsusi qrup yaradıldı və M.Rəsulzadə Xosrov bəy Sultanovu gələcək Azərbaycan dövlətinin səhiyyə naziri və bir həkim – mütəxəssis kimi bu qrupda iştirakına nail oldu.

İki dövlətin – dövlət nümayəndələri ilə yanaşı Xosrov bəy müsəlman və yəhudi sünnətinin fərqini sübuta yetirdi. Almaniya dövləti Türkiyə dövlətinə bu yardım üçün təşəkkürlərini bildirirdi və Türkiyəyə icazə verdilər ki, öz bayraqlarını asmaqla əsirlərə türkcə müraciət etsinlər, öz millətlərini ölümün pəncəsindən xilas etsinlər. Bu belə də oldu. SSRİ dövləti də bu məsələdən dünya səviyyəsində siyasi bir məqam kimi istifadə etməkdə idi. Almanlar da həqiqəti anlamışdılar.

Alman əsirliyində olan minlərlə soydaşlarımız faşist peçlərində yandırılmaqdan azad olsalar da, SSRİ-yə qayıdan kimi güllələndilər,yaxud Sibirə sürülərək məhv oldular.

Xosrov bəylə İsrafil bəyin doğma xalqı qarşısındakı missiyaları öz humanistliyi ilə də qiymətli olsa da tale onların bu missiyanı axıra kimi yerinə yetirməyə imkan vermədi. Xosrov bəy vətən həsrəti ilə qardaş Türkiyə Respublikasının Bursa şəhərində torpağa gömüldü. İsrafil bəysə ali təhsildən, general çini almaq ərəfəsində polkovnik çinindən, sovetlərin qəhrəmanı adından məhrum edilərək, hərbi tərcüməçi "tacı" ilə kifayətlənməli olub, əlli il elə susmalı oldu ki, ailəsinin də bu işlərdən xəbəri olmadı".

İkinci Dünya müharibəsi qurtardıqdan sonra da Xosrov bəy siyasi fəaliyyətindən əl çəkməmişdi. Azərbaycan uğrunda mübarizə aparan Xosrov bəyin fəaliyyəti bir çox vətənsizlər kimi, çox geniş və ruhlu olmuşdur. Tarixi

məlumatlarda onun ailə və uşaq sahibi olması haqqında heç bir yazılı mənbəyə təsadüf etməmişəm. Amma,şifahi olaraq insanlardan eşitmişəm ki, o, azərbaycanda olarakən bir nəfər qarabağlı xanımı ilə evlənmiş və uşaqları olmadığından həmin xanım onu tərk etmişdir. Atam, İsrafil bəyin dediyinə görə, Xosrov bəy bir müddət Polşada yaşamış və orada bir polşalı qadınla evlənsə də uşaqları yox idi. Polşanı tərk edib Türkiyəyə qayıdan Xosrov bəy tək qayıtmış və bir daha Polşaya dönməmişdir.

Elburus Şahmarın və digərlərinin yazdıqlarına görə Azərbaycanın Laçın bölgəsini təmsil edən və əslən türk oğlu – türk olan bu qardaşlar Türkiyədə dünyalarını dəyişmişlər. Sultan bəy 1955-ci ildə Türkiyənin Göçgöy kəndində, bəzi mənbələrdə isə sadəcə Ərzurum bölgəsində vəfat etdiyi bildirilir. Azərbaycan türklərinin böyük oğlu Xosrov bəy isə 1956-ci ildə Bursa şəhərində torpağa gömülmüşdür.

Xosrov bəy Azərbaycan türk xalqını təmsil edən bir şəxs kimi özünün şirin canını vətənə həsr edən alicənab fəaliyyəti bu günkü gəncliyə bir örnəkdir. Dərk edilməlidir ki, dağlı-aranlı Qarabağ torpaqlarının 1993-cü ilə kimi Azərbaycan dövlətinin əlində qalması bilavasitə Laçınlı Xosrov bəy və Sultan bəy qardaşlarının fəallığı sayəsində mümkün olmuşdur. Sultan bəyin oğlu-qızı və hazırda da onların törəmələri, davamçıları vardır. Onlardan tələb olunan isə ata və babalarının, əmiləri Xosrov bəyin yolunu davam etdirmək, nəsl səcərəsinə yeni-yeni qəhrəmanlıqlar imzası atmaqdır.

Xosrov bəyin isə övladı olmamışdır, vətən qarşısında xidmətləri isə yetərincədir. Qalan odur ki, Azərbaycan dövləti, Azərbaycan xalqı onun adını əbədiləşdirsin, layiq olduğu bir məkanda heykəli ucaldılsın, adına küçələr, prospektlər olsun, hansısa bir təşkilata onun adı verilsin, vətənpərvərliyi lazımlı səviyyədə dövlətimiz naminə təbliğ edilsin.

XX FƏSİL

XOSROV BƏY HAQQINDA YAZILANLAR

Ermənilər istisna olmaqla, Xosrov bəy haqqındakı bizə məlum yazılı və şifahi məlumatlar xoş məramlıdır. Harada hansı vəzifədə, hansı dinə və millətə məxsus olmalarından asılı olmayaraq insanlarla Xosrov bəyin təmasları müsbət və

xeyirxah istiqamətlidir. İstər o, İranda, istərsə də Türkiyədə və Avropanın bir çox şəhərlərində yaxınlıq etdiyi bütün insan təbəqələri ilə dil tapa bilmiş, heç kimlə münaqişəyə şərait yaratmamışdır. Onun Almaniyada İsrafil bəylə, M. Ə. Rəsulzadə və s. insanlarla işi haqqında söhbət açdığımızdan burada digər insanların yazıya düşmüş fikirlərinə az da olsa müraciət edəcəyik.

Münhendə çıxan "Azərbaycan" jurnalının 2-ci sayında vaxtı ilə Azərbaycan Xalq Cümhuriyyətinin aparıcı insanlarından biri olmuş Əkbər ağa Şeyxülislamzadə öz xatirələrində Xosrov bəy Sultanov barədə yazır ki, "AXC-nin elan olunma aktına imza atan 26 nəfərdən biri də Xosrov bəy Sultanov olmuşdur.

1918-ci il may ayının 29-da Fətəlixan Xoyskinin təşkil etdiyi 1-ci hökumətdə Xosrov bəy Sultanov hərbi nazir təyin olunmuş, həmin gün də Nəsib bəy Yusifbəyli və Şəfi bəy Rüstəmbəyli ilə Gəncəyə əmin-amanlıq yaratmağa göndərilmişdir".

Təbii ki, Azərbaycanda Cümhuriyyət tarixini azdan-çoxdan bilənlərə deyilən məsələ çoxdan məlumdur.

Hərbi jurnalist Xanlar Bayramov yazır: "Xosrov bəy Paşa bəy Sultanov 1919-cu il yanvarın 15-də Qarabağın general-qubernatoru təyin edilmiş, həmin ilin mart ayının 21-dən 30-dək olan Əsgəran döyüşlərində daşnak generalı Dronun quldur dəstələrini darmadağın etmişdir. İyun ayının əvvəllərində gizli yolla Şuşaya silah gətirən erməni milli şurasının üzvlərini həbs edib onların Qarabağ hüdudlarından çıxarılmasına nail olmuşdur.

Xosrov bəy Zaqafqaziya seyminin və Azərbaycan parlamentinin üzvi idi.

1918-1920-ci illərdə daşnakların Qarabağ və Zəngəzurdan təmizlənməsində qardaşı Sultan bəylə birgə misilsiz xidmət göstərmişdir".

Şəmistan Nəzərli – "Cümhuriyyət generalları" kitabında göstərir: "İttihad"ın siyasi lideri Xosrov bəy Sultanov partiyanın xarici ölkələr bürosunu formalaşdırmaq və bütün ittihadçıları bir təşkilat ətrafında cəmləşdirmək istəyirdi.

Xaləddin İbrahimli – "Azərbaycan Siyasi Mühacirat" kitabında yazır: "1936-cı ildə Xosrov bəy Sultanov Türkiyənin Trabzon şəhərinə qısa müddətə dincəlməyə gəlir. Erməni kəşfiyyatı duyuq düşür ki, Qarabağın qubernatoru, Xankəndi ətrafında erməni quldur dəstələrini darmadağın edən Xosrov bəy Sultanov Trabzondadır".

Cəsur qardaşlar

Ermənilər Xosrov bəyi öldürmək istəyirlər. Otel xidmətçisi məsələni Xosrov bəyə çatdırır. Xosrov bəy dostlarının köməyi ilə vaxtsız ölümdən xilas ola bilir. Bunun da dəqiqliyi belədir ki, Xosrov bəyin Trabzonda kifayət qədər yaxınları var idi və onu ermənilərin güddüyünü bilirlər. Xosrov bəyin qaldığı məkanı elan etdikləri ünvandan dəyişirlər. Xosrov bəy Trabzonda ömründə oteldə qalmamışdır. Olsa-olsa, ancaq müəyyən görüşlər, yığıncaqlar ola bilərdə.

İsrafil bəyin dediyinə görə, onlar Almaniyadan başqa Polşada,Fransada və Finlandiyada da görüşmüşlər. Ancaq onlar lazımı yerlərə ayrı-ayrılıqda gedərmişlər. Hər kəsində işi başqa-başqa olarmış. Əlbətdə onları birləşdirən xeyli məsələlər də olmuşdur. Lakin, İsrafil bəy bu məsələlər haqqında açıqlama verməyi xoşlamazdı. Onların birgə əməliyyatları əsasən SSRİ tərəfindən vuruşaraq əsir düşmüş türk və müsəlman insanlarının fiziki məhvinin qarşısını almaq olmuşdur.

SSRİ-ni təmsil edən İsrafil bəy bu işdə öz rəisindən və Moskva rəhbərlərindən xeyli bəhrələnə bilmişdir. Bu məsələdə SSRİnin də marağı olmuşdur. Berlin qurumunun sənədlərinin ermənilər tərəfindən İngiltərəyə və ABŞ-a ötürülməsinə qədər bu işlər çox ciddi aparılmışdır. Erməni satqınlığından sonra Berlin qrupu məhv edilməsə də, Moskva onlara çox da ciddi tapşırıqlar verməmişdir.

Xosrov bəy bir çox dövlət xadimlərindən və siyasətçilərindən fərqli olaraq təmsil olunduğu "İttihad" partiyasına, Azərbaycan Xalq Cümhuriyyətinə, rəhbərlik etdiyi Qarabağ general-qubernatorluğuna öz sədaqətliliyi ilə seçilən insanlardandır.

Azərbaycanda və mühacirətdə olarkən bütün həyatını xalqının azadlığı və səadətinə həsr edən bu görkəmli sərkərdənin və ictimai siyasi xadimin məşəqqətli, keşməkeşli, çox mürəkkəb, əzablı, lakin şərəfli həyatının hərtərəfli öyrənilməsi və işıqlandırılması bizə qədər geniş tədqiqatını tapmamışdır. Bizim də onun keçdiyi yolun tam işıqlandırılmasına imkanimiz yoxdur.

Hamıya məlum olduğu kimi 70 il xalqımızın bu böyük oğlunun və digərlərinin adının çəkilməsinə imkan verilməmişdir.

Maraqlı məlumatlardan biri də Xosrov bəylə N.Nərimanovun yaxın olması məsələsidir. Onların hər ikisi tələbə vaxtından tanış olmuşlar və dostluq etmişlər. Lakin, onların siyasi əqidəsi bir-birlərindən fərqli olmuşdur. Xosrov bəy cümhuriyyətə, N.Nərimanov isə bolşeviklərə sadiq qalmışlar. Hər ikisi vətən yolunda öz canlarını qurban vermişlər.

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Xosrov bəy vətənindən heç yerə getməmişdir. Bolşeviklər cümhuriyyətin seçilən bir şəxsiyyəti kimi Xosrov bəyi həbs edərək Bakıya gətirmişlər. Bununla ürəkləri soyumayan və sifətlərini tez-tez dəyişməyi bacaran ermənilər mərkəzə nə yazsalar da, Xosrov bəyin ermənilərə pis olması haqqında heç bir sənəd əldə edə bilməmişlər. Əlləri həryerdən kəsilən ermənilər digər bir alçaqlığa, 70 erməni qadınının adından ərizə yazaraq onların namusuna Xosrov bəyin toxunmasını bildirmişlər. Əlbətdə, bu bayağı ittihama heç kim inanmamışdır. İstənilən halda bolşeviklərin Xosrov bəyi buraxmaq rəyləri olmamışdır. Bunu yaxşı başa düşən N.Nərimanov öz dostunu Bayıl türməsindən qaçırda bilmişdir və bu haqda arxiv sənədləri də Azərbaycanda saxlanmaqdadır.

Diqqəti cəlb edən fikirlərdən biri də Xosrov bəyin öz dövründə "Azərbaycan" qəzetinə verdiyi müsahibədir. İstər-istəməz onun fikirləri ilə tanışlıqdan, onun şəxsiyyəti və kimliyi haqqında oxucuda müəyyən fikir formalaşır.

Xosrov bəy deyir: "----- hər halda belə bir fakt böyük təəssüf doğurur ki, Qarabağda milli qarşılıqlı münasibətlərin düzgün işıqlandırılmaması,Qarabağda məskunlaşmış millətlər arasında yaranmış tamamilə əngəlsiz mehriban qarşılıqlı münasibətlərə nəticələri çox çətinliklə aradan qaldırıla biləcək zərər vura bilər.

Qarabağ əhalisindən ötrü ən çox arzu olunan hakimiyyət elə bir hakimiyyətdir ki, onların ac-susuz və lüt-üryan qalmasına yol verməsin, onların həyat və əmlakları üçün qorxu yaradan təhlükələrdən qorusun.

Fəal siyasi mübarizədə iştirak etməkdən ötrü Qarabağ əhalisi həm milli, həm də sosial xarakterli müxtəlif eksperimentlərdən çoxlu bəlalar çəkmişdir.

Təəssüf ki, özlərini demokrat adlandıran, xalqın demokratiya anlayışları ilə nə ruhən, nə də mənən heç bir əlaqəsi olmayan siyasi partiyaların bəzi nümayəndələri hətta terorizm əməllərindən çəkinmədən öz məqsədlərinə nail olmaqdan ötrü özlərinin düzgün hesab etdikləri yol ilə xalqı dönmədən, durmadan irəliləməyə məcbur etməyə çalışırlar.

Əhali üzərində aparılan eksperimentlərin əsasını ən yaxşı halda partiya xarakterli nəzəri mülahizələr, ən pis halda şəxsi maraq və mənafelər təşkil edir. Son iki ay ərzində ermənilər Qarabağın müsəlmanlar yaşayan bölgələrinə tamamilə təhlükəsiz surətdə gəlirlər. Digər tərəfdən isə biz görürük ki, müsəlmanların erməni kəndlərinə getmələri heç də təhlükəsiz deyil və müsəlmanlar öz işləri ilə əlaqədar

onlara baş çəkməyə çox nadir hallarda risk edirlər. Bunun təqsirini mən xalq kütlələrində deyil, kütləni öz terroru altında saxlayan və onu öz proqramında həyata keçirməyə məcbur edən ayrı-ayrı şəxsiyyətlərdə görürəm.

Qarabağın erməni əhalisi iqtisadi baxımdan müstəsna dərəcədə ağır vəziyyətdədir. Əgər Qarabağın müsəlmanlar yaşayan düzənlik hissəsi ermənilər bolluca taxılla təmin etməsəydi, ermənilərin yaşadığı rayonu aclıq bürüyərdi.

İqtisadi baxımdan bölünməz bir vahid olan Qarabağ, siyasi baxımdan da bölünə bilməz. Bütün Qarabağ bölünməz bir vahiddir,bədəni başdan, başı da bədəndən ayırmaq və bütün vücudun sağsalamat qalmasını arzulamaq olmaz.

Qarabağın ermənilər yaşayan dağlıq hissəsini müsəlmanlar yaşayan hissəsindən ayırmaq arzusunda olan adamlar ya utopist, ya da öz xalqının düşməni hesab edilə bilər.

Qarabağ haqqında məsələni bütövlükdə iqtisadi və siyasi bir vahid kimi danılmaz bir həqiqət olaraq qəbul etməklə onun bu və ya digər dövlət vahidinə münasibəti barədə məsələni asanlıqla həll etmək olar.

Yevlaxdan başlayaraq biz müsəlman əhalisinin geniş zolağını müşahidə edirik. Dağətəyi zonaya yaxınlaşdıqca həmin zolağı müsəlman və erməni əhalisindən ibarət qarışıq zolaq əvəz edir.

Dağlara qalxdıqca biz demək olar ki, erməni əhalisinə daha çox rast gəlirik. Amma, bu Zəngəzura, Hacısamlıya, Kəlbəcərə və hətta Göyçəyə aid deyildir. Deyilən zolaqlardan sonra isə Naxçıvan müsəlman zolaqları gəlir. Ermənistan dediyimiz yerlərdə də müsəlmanlar əhalinin əksəriyyətini təşkil edir və erməni rayonu müsəlman rayonlarının əhatəsində qalır.

Bundan başqa üç qış ayı ərzində Naxçıvandan Zəngəzura, həm də Naxçıvandan Ermənistana gedən yol tamamilə bağlanır.

Aydın məsələdir ki, Qarabağ rayonlarının belə bir topoqrafik vəziyyətində onları Ermənistana birləşdirmək istəyi ağılsızlıqdır.

1923-cü ildən general Xosrov bəy Sultanovun həyatında mühacirət dövrü başlanmışdır. O, Türkiyədə, İranda, daha sonar Fransa və Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışmışdır. Bundan sonra, 1936-cı ildə Türkiyəyə qayıdan Xosrov bəy SultanovTrabzonda məskunlaşmış, 1947-ci ildə

vəfat etmişdir. Xosrov bəyin ölüm tarixi 1941-ci, bəzi mənbələrdə isə 1956-cı il kimi göstərilir.

Xosrov bəy adı və qəhrəmanlıqları dillərdə əzbər, Zəngəzurda erməni quldur dəstələrinə qarşı mərdliklə vuruşmuş, xalq arasında "laçınlı Sultan bəy" kimi çağrılan məşhur Sultan bəy Sultanovun kiçik qardaşıdır. Bu qardaşlar ümumi işin xeyrinə hətta illərlə qan düşməni olduqları bəylərin ayağına gedərək, onları bütün gücləri birləşdirməyə, birgə mübarizəyə səsləyiblər. Sultanovlar var-dövlətlərini Türkiyə və İrandan silah-sursat almağa sərf eləmiş, Zəngəzur qazısı Bəhlul Behcət tərəfindən yazılmış Cihad Bəyannaməsi ilə xalqı düşmənə qarşı cihada qaldırmışdılar. Ümumiyyətlə, onların Azərbaycan Xalq Cümhuriyyətinin qorunması yolunda müstəsna xidmətləri var.

Xosrov bəy doğrudan da, Qarabağda həm müsəlman, həm də sadə erməni əhalisi arasında böyük nüfuza malik idi. Əksinə, o dövrün və indinin xəstə milliyətçi ermənilər isə Xosrov bəyi nifrət və hikkəylə, ermənilərin ən qatı düşməni kimi xatırlayırlar. Məsələn, 1919-cu ildə Şuşada erməni qoşununda döyüşmüş Zare Məlik-Şahnəzərov adlı bir erməni əsgərin "Şuşanın süqutu" adlı xatirəsindən oxuyuruq. "Şüşanın süqutundan əvvəl mənim yaddaşıma daha bir hadisə həkk olunub. Mən Müsavatçı qubernatorla təsadüfən üz-üzə gəldim. Ermənilərə düşmən olan bu qəddar adam Xosrov bəy Sultanov idi. Məhz bu adam Qarabağda erməni qırğınları təşkil eləmişdi".

Hər işdə olduğu kimi ermənilər Xosrov bəyə münasibətdə də tarixi faktları təhrif edirlər.

Xosrov bəy Qarabağa general-qubernator təyin olunanda onun vəzifə borclarına "erməni hərəkatı ilə mübarizə və bu hərəkatın tamamilə məhv edilməsi, qayda-qanunun bərpa olunması, məcburi köçkünlər arasında gəzən epidemiyalarla mübarizə, onlara yardım" kimi məsələlər daxil idi. Sultanovun vətənpərvərliyindən və qətiyyətindən xəbərdar olan Qarabağın erməni milli yığıncağı Xosrov bəyin təyinatına etiraz olaraq tərtib elədikləri məktubda yazılmışdı: "Qarabağın erməni milli yığıncağı Azərbaycan hökuməti tərəfindən təyin olunan general-qubernatorla bağlı bildirir ki, onlar heç vaxt bu faktla barışmayacaqlar".

Ancaq Xosrov bəy də öz hüquqlarını və vəzifə səlahiyyətlərini yaxşı bilirdi. O, da öz növbəsində erməni milli yığıncağından tələb etmişdi ki, nəzarətində olan

silahlı dəstələri buraxsın və Qarabağda əmin-amanlığın təmin olunmasına maneçilik törətməsin.

Maraqlıdır ki, həmin illərin arxiv materiallarını və mətbuatı izlədikcə ermənilərin eynən ötən əsrin 80-ci illərin sonlarında tətbiq elədikləri üsullara əl atdıqlarının şahidi oluruq. Məsələn, 1919-cu il fevralın 28-dən martın 4-ə qədər Qarabağ ermənilərinin 8-ci qurultayı adlandırılan qeyri-legitim bir qurum general-qubernatoru Şuşada, Xankəndində və Əsgəranda "günahsız ermənləri" qırmaqda ittiham edirdi.

Ermənilər bu yalançı bəyənatı əlləri çatdıqları yerlərə və dövlətlərə, həmçinin Azərbaycan hökumətinə göndərmişdilər. Həmin ilin martın 8-də isə Azərbaycanın güzəştə getdiyi torpaqlar hesabına dövlət qurmuş Ermənistan Azərbaycan Cümhuriyyət rəhbərliyinə nota göndərir: "Xankəndi və Ağdamda Azərbaycan hərbi hissələri tərəfindən 400-ə yaxın dinc əhali qətlə yetirilmişdir. Ağdam, Şuşa yolu erməni əhalisinin üzünə bağlıdır və bu əhali iqtisadi təcridə məruz qalıb".

Ancaq Fətəli Xan Xoyskinin bu notaya cavabından görürük ki, ermənilər baş vermiş olayları özlərinin əbədi və əzəli xislətlərinə xas şəkildə şərh etmişlər.

Xosrov bəy Sultanov həm də Bakı müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil idi.

Bu təşkilatların müharibə dövründəki fəaliyyətləri barədə xeyli sənədlər, teleqram və məktublar mövcuddur. Məsələn, general Tamamşevin 4 iyun 1916-cı ildə Xosrov bəy Sultanovun adına göndərdiyi teleqramda deyilirdi: "Rəhbərlik etdiyiniz Cəmiyyətin nəzdində neçə yetimxananın mövcudluğu və onlarda nə qədər kimsəsizin yerləşməsi, habelə onların hökumət tərəfindən tam təmin olunması və ya cəmiyyətinizin də köməyinə ehtiyac olması haqqında mənə məlumat verməyinizi xahiş edirəm".

Azərbaycan Sovet hakimiyyəti qurulduqdan sonra general Xosrov bəy Sultanov əvvəlcə Türkiyədə, İranda, sonra Fransa, Almaniyada və Polşada yaşayıb. Türkiyəyə qayıdan Xosrov bəy Sultanov yenidən Trabzonda məskunlaşıb".

Böyük iftixar hissi ilə deməliyik ki, Xosrov bəylə yanaşı Laçın torpağının yetişdirmələri olan general Nurməmməd bəy Şahsuvarov,türk ordusunda orgeneral rütbəsi qazanan Firidun bəy Daryalı da öz sücaətləri ilə təkcə Laçının deyil, bütöv Azərbaycanın fəxri sayılan insanlarıdırlar.

Əşir Bəşiroğlu

PAŞA BƏY EL AĞSAQQALI İDİ

Azərbaycan Respublikası öz müstəqilliyini elan edəndən sonra, Azərbaycanda unudulmuş, yaxud Sovetlər birliyində araşdırma qadağası qoyulmuş mövzulardan biri də bəy nəsillərinin, onların elinə-obasına fəxarət gətirə biləcək fəaliyyətləri sahəsi olmuşdur.

Müstəqilliyimizin ilk illərində insanlarımızın əsas qayğı və fikirlərinin Qarabağ müsibətləri, erməni vəhşilikləri ilə daha çox çulğalanması bu növ araşdırmaları, müəyyən mənada "kölgə"də qoymuşdu. Müharibə gedişatının "dondurulma"sı, insanlarımızı qəhrəman axtarışına istiqamətləndirdi. Odur ki, son illər Azərbaycanın bütün bölgələrində dövlətinə, millətinə, insanlığa və hətta nəsl səcərəsinə hörmət qoymuş kişilər yad edilir, onlar haqqında hərə öz bacardığını qələmə alır. (Z.N.)

Mənim isə hörmətli oxucularıma təqdim edəcəyim mövzu,mənim özüm üçün yeni deyil, illərdir ki, Sultanovlar nəsli ilə əlaqəli hər bir məlumatı, xüsusəndə bir yazılı mənbəyə əsaslananlarını toplamışam. Kiçik vaxtlarımda da bu səcərə ilə bağlı söhbətlər ailəmizdə də, yaşlı nəsl insanlarının bir-birlərinə söhbətlərinə də çox təsadüf etmişəm. Bu mənada XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Zəngəzur qəzasında daha çox sayılıb-seçilən üç Sultanovlardan biri olan Yuxarı Zəngəzurun Hacısamlı bölgəsindən, hazırda Laçın rayon ərazisi kimi tanınan sahəsində yaşamış və el arasında bütün Zəngəzurda, Aran Qarabağda və Qərbi Azərbaycanda ağsaqqal kimi tanınmış Paşa bəydən söhbət açacağam. Əslində onun adı sənədlərdə Əlipaşa kimi gedir. Amma, el arasında hamı onu Paşa bəy kimi çağırırdı.

Paşa bəyin nəsl səcərəsi ilə tanışlıq göstərir ki, bizdə olan mənbələrin hamısı eyniyyət təşkil etmir. Lakin, bununla yanaşı mənbələrin əksəriyyətində bu və ya digər tərzdə uyğun gələn məqamlarda az deyildir. Onlardan bir neçəsini olduğu kimi verməyi daha doğru yol kimi seçdim.

K.Alməmməd – "Sultan bəy kimdir?" yazısında ("Azərbaycan"qəzeti, №13(76), 30 mart 1991-ci il) göstərilir: "Azərbaycan torpağının dünyaya bəlli görkəmli oğulları çoxdur. Babək qeyrətli, Koroğlu cürətli, Nəbi hünərli ərənlərdən biri də Sultan bəylər nəslindən olan Sultan bəy Laçınlıdır. Bu nəslə bəylik rütbəsi çar imperatorluğu tərəfindən XVIII əsrin sonu – XIX əsrin əvvəllərində

verilmişdir.Azərbaycanın Yelizavetopol quberniyasına daxil olan Zəngəzur mahalı iki sultanlıqdan ibarət idi. Birinci Hacısamlı, ikinci Qaraçorlu sultanlığı adlanırdı. Hacısamlı sultanlığı indiki Laçın və qismən Kəlbəcər rayonunu əhatə edirdi. Burada 1-ci və 2-ci Alməmməd Sultan hakimlik edirdi. Qaraçorlu Sultanlığı isə indiki Gorus, Qafan (Mədən) rayon ərazilərini, qismən Laçın rayonunun qərb hissəsini əhatə edirdi. Orada isə Həmzə Sultan və onun oğlu Əsəd Sultan hakimlik edirdi. Bu iki sultanlıq arasında qohumluq əlaqələri də vardı. O zamanlar Alməmməd Sultanın kiçik oğlu Qara Murtuza bəy hər iki Sultanlığın ordusuna başçılıq edirdi. Onun sərkərdələrindən biri də Sultan bəyin babası Xanmurad olmuşdur. (Əslində isə bu belə deyildi. Z.N.) Xanmurad Əsəd Sultanın qızına elçi göndərib onunla evlənmək istəmiş, Əsəd Sultan isə elçiləri geri qaytarmış, əsilzadə və bəylik rütbəsi olmayan adama qız verməkdən imtina etmişdir. Bunu özünə sığışdıra bilməyən Xanmurad Əsəd Sultanın razılığı olmadan qızı qaçırmış və onunla evlənmişdir. Uzun müddət qəzəblənmiş Əsəd Sultan onunla barışığa razılıq verməmişdir. Minnətə gəlmiş hörmətli el ağsaqqallarına da yox cavabı vermişdi. Xanmuradın Paşa və Əmir adlı iki oğlu olmuşdur. Əsəd Sultanın bu nəvələrini də tanımaması II Alməmməd Sultanı da narahat etmiş, öz sarayında Xanmurada bəylik rütbəsi vermək qərarına gəlmiş, lazım olan sənədləri düzəltdirmişdi. O vaxtın qanunlarına görə xalq arasında xüsusi hörməti olan şəxslərə üç nəfər köklü ("yazılma" bəy olmazdı) əsilzadənin zəmanəti və əsilzadələrin birinə qohumluq sənədi tələb olunurdu. Bəylik komissiyası Tiflisdə yerləşirdi. II Alməmməd Sultan hazırlanmış sənədləri bəylik komissiyasına təqdim edir və oradan təsdiq üçün Peterburqa-imperatorun sərəncamına göndərir. İmperatorluq sənədlərlə tanış olur, lakin Xanmurada yox, onun – əsilzadə qızından doğulmuş oğlanlarına bəylik rütbəsi verilməsi haqda fərman verir.

II Alməmməd Sultan bir neçə kərə Əsəd Sultanla bu barədə söhbət edir. Sonuncu söhbətlərin birində Əsəd Sultanın sarayında böyük bir məclisdə süfrə arxasında Əsəd Sultanla çəkişir. Şərt də bundan ibarət olur ki, hər kim uduzsa, mərci ödəsin. İki il çəkişmə davam edir, çox qüvvətli hafizəyə malik olan bu iki hakimin heç biri mərci udmağa nail ola bilmir. Bir gün çoxlu qar yağır, yollar kəsilir. Xüsusilə dağ keçidlərindən aşmağa imkan olmur. Bu çovğunlu gündən istifadə edən II Alməmməd Sultan yaxşı bəslənmiş köhlən atına güvənərək

Ağoğlan dağ keçidini aşır, Əsəd Sultan yaşayan kəndə yaxınlaşır. Yolunu qəsdən dəyişdirib, yol olmayan yamacla atını sürür və haray çəkir: "borana düşmüşəm", "kömək edin", "yolu azmışam". Uzaqdan səsi eşidib, borana düşmüş atlını görənlər Əsəd Sultana xəbər verirlər, ora kömək üçün adamlar göndərilir. Borana düşmüş adamı xilas edirlər, üzü-gözü sarılmış adam özünü Əsəd Sultana yetirir. Sarıqlar açılarkən bu adamın II Alməmməd Sultan olduğunu bilirlər, çox böyük heyrətlə "a kişi, nə olub", "bu nə gündür" soruşmağa macal vermədən "bəs bilmirsən başıma nə gəlib?!" deyə atın cilovunu Əsəd Sultana verir. Özünü itirmiş Əsəd Sultan atın cilovunu onun əlindən alır. Alməmməd Sultan hündürdən "apardım" deyir. Məsələ aydın olur, saray adamları hamısı gülüşür, evə daxil olurlar. II Alməmməd Sultan arxayınca Xanmurad və onun uşaqlarına, Əsəd Sultanın nəvələri Paşaya və Əmirə bəylik verilmə sənədlərinə Əsəd Sultana imza etdirir. Fərman imzalanır və barışıq da başa çatır...."

Paşayev Rüstəm Kamal oğlu özünü Paşa bəyin qohumlarından sayır və bu yazının müəllifi ilə görüşündə bildirmişdir ki, "... Paşa bəyin atası gil üç qardaş olublar – Xanmurad (Paşa bəyin atası), Şahmurad və Gülmurad Xanmuradın oğlanları Paşa bəy birinci arvaddan,Əmir bəy 2-ci arvaddan olan övladıdır və Əmir bəyin anası Əsəd Sultanın qızıdır. Paşa bəyin 7 oğlu, 3 qızı olub. İkiarvadlı olur. Birinci xanımı Bəyim xanım Qarabağın (hazırda Ağcəvədi rayonu) Pəroğulları bəylərinin qızlarındandır. Bəyim xanımdan olan övladlar – Sultan, İsgəndər, Xosrov, Rüstəm və bacıları Avtabdır. Paşa bəyin ikinci xanımının adı Ağaxanım olub və Seyid Mirəzizin (Qarabağın bütün bölgələrində məşhur olan bütün seyidlər də bu səcərədən olmaqla Cənubi Azərbaycandan Murtuza bəy tərəfindən yerləşdirilmiş və sonralar bu yurd "Böyük Seyidlər" adlanmışdır. (Z.Nəbibəyli-"Laçın-85", 2009-cu il, s. 73-84)) qızıdır".

Paşa bəyin Seyid Mirəzizin qızı Ağaxanımdan dünyaya göz açan övladları – Zülfüqar, İsrafil, Bahadur, Ziba və Məhbub olmuşdur.

Z.Nəbibəyli özünün "Laçın-85" kitabında Paşa bəy, Sultan bəy və Xosrov bəy haqqında qısa da olsa məlumat vermişdir. O,yazır: "...Paşa bəy özü çox ağıllı, tədbirli bir el ağsaqqalı olmuşdur.Müəyyən bir məsələni həll edəndə tanınmış insanların ağsaqqallığı və ya, fikirlərini öyrənməklə qərar verərmiş. Ədalət naminə, yeri gəldikdə oğlanlarını da danlayar və ya tutduqları qeyri ciddi mövqedən

çəkindirərmiş. Laçında Paşa bəyin adı həmişə yaxşılıqda çəkilən bir insan olmuşdur".

Z.Nəbibəyli "Zəngəzurun qısa tarixi və coğrafiyası" haqqında ilk elmi kitab yazan bir araşdırıcı kimi – Qarabağa, Zəngəzura və onların bir parçası olan Laçın bölgəsinə aid yazdığı elmi yazıların xeyli hissəsində, xüsusən də Xosrov bəyə, Sultan bəyə həsr edilmiş iri həcmli yazılarında Paşa bəy haqqında da yeni-yeni məlumatlar vermişdir.

Laçın rayonu Şamkənd Sovetliyinin Çorman kəndində yaşamış Məhərrəmov Məhərrəm özünü Paşa bəy nəslindən sayır və soyadının əslində Muradov olmalı olduğunu bildirir. Onun söylədiyinə görə Paşabəylər və onun qardaşları Muradov, yaxud Muradlı olmalıdır. Məhərrəmə görə Laçının Çorman kəndi Paşa bəyin dədə-baba kəndidir, onların Qurdgəzi (Qurdqajı) kəndinə heç bir aidiyyatı yoxdur. Hazırda 72 yaşı olan Məhərrəm kişi bildirir ki, Paşa bəyin dağ otağı Çorman kəndindən yuxarı, Qırxqız dağının ətəyində Sarımsaqlı ilə üzbəüz Qətl ağacında olmuşdur. Oğlu Sultan bəyin dağ otağı da atası Paşa bəyin evinin qarşı tərəfində – Sarımsaqlıda olmuşdur. Əslində isə bu torpaqlar və yurdlar qabaqlar Qarabağ xanlığının sərkərdəsi Nəbinin olmuşdur.

Paşa bəy aşıq musiqisini çox sevərmiş. Bu mənada Laçının Peçeneq (Piçənis) bölgəsinin Subad yaşayış məntəqəsindən olan Aşıq Abbası tez-tez evinə dəvət edərmiş. Aşıq Abbas həm də çox hazırcavab bir aşıq olmuşdur. Aşıq Abbasın nəvəsi Cənnət Paşa bəyin oğlu Xosrov bəylə yaxın olmuşdur. Bu fikir də Məhərrəmin dediklərindəndir. Məhərrəm kişi onu da qeyd etdi ki, Əmir bəy Paşa bəyin ögey qardaşıdır, Əsəd Sultanın qız nəvəsidir.

"Soy" adlı elmi-kütləvi dərginin Baş Redaktoru Ənvər Çingizoğlunun araşdırmalarına görə Paşa bəyin atası Xanmurad Qasımuşağı obasında doğulmuşdur, onun Əlipaşa, Mehralı, Şahmurad,Əmirmurad adlı oğlanları və Mehriban adlı qızı olmuşdur.

Əlipaşa (Paşa bəy) bəy1837-ci ildə Qasımuşağı obasında dünyaya göz açmışdı, mədrəsə təhsili alıb, əsas məşğuliyyəti maldarlıq olmuşdur.

Bəzi mənbələr isə Qasımuşağı nəslinin babalarının cənubi Azərbaycandan bu yerlərə gəlmələrini göstərir. Bu fikiri XIX əsrdə yaşamış, Bağdadda təhsil almış, anası və arvadı Paşa bəyin nəslindən olan, Araflıda yaşamış Süleyman bəy özünün

"Bəyliyin tarixi" kitabında vermişdir. Z.Nəbibəyli Süleyman bəyə və Mir Mövsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı kitabına istinadan yazır ki, Laçınlılardan (XX əsrin əvvəllərində) Şuşa, onun kəndlərini, Zəngəzurun bir çox kəndlərini, Laçının özünə mənsub kəndlərini ermənilərdən müdafiə edən, ermənilər cəzalandıran əsasən İbrahim bəy Alməmməd bəy oğlu olmuşdur. Sonralar bu işə Paşa bəy və oğlu Sultan bəy də qoşulmuşlar, torpaq uğrunda böyük mübarizlik göstərmişlər... 1906-cı ilin iyul ayında Şuşa şəhərində baş vermiş erməni-müsəlman davası zamanı Şuşanın müdafiəsini 1-ci yaran İbrahim bəy olmuşdur.Onun ardınca Sultan bəy şəhərə girmiş, erməni quldurlarına lazımi cavablar vermişlər. Lakin, bu davada İbraim bəy qəhrəmanlıqla həlak olmuşdur....."

Qurdgəzili Sona xanımın söylədiyinə görə, Paşa bəy keçəl Xanmuradın (el arasında belə deyərdilər) oğludur. Paşa bəyi Muncuqlu çayının ətrafına ova aparırlar və bu dövrdə Paşa bəy hələ bəy adı almamışdı. Paşa bəy Muncuqlu çayının ətrafındakı qayadan qızıl tapır və o, bir az da sərbəstləşir. Paşanın anası öləndə atası keçəl Xanmurada Əsəd Sultanlılardan bir bəyin qızını gəlin gətirirlər və qadının yanında Əmir adlı oğlu olur. Laçının Arduşlu kəndindən olan Paşa bəyin bir dostu ilə Qarabağın mərkəzi şəhəri, quberniyanın mərkəzi olan Gəncəyə təşrif buyuran dostlar Qubernatorun (rus) iki kiçik oğlunun hər birinə bir yüzlük verirlər və Əmir bəyin (Paşa bəyin ögey qardaşı) sənədlərindən istifadə etməklə – bəyalma sənədlərini Qubernatorun vasitəsi ilə Tiflisə göndərərək Paşa bəy bəylik alır.

Sona xanımın dediyinə görə Paşa bəyin anası Hətəmlər kəndindən, atası isə Qurdgəzi kəndindəndirlər. Sona xanımın özü isə Araflı bəyləri səcərəsinin bir qolundan olmaqla, Hətəm bəyin oğlu Paşa bəyin qızıdır. Hətəm bəyin atası 2-ci Bərxudar bəydir,1-ci Bərxudar bəy isə hazırda dünya şöhrəti tapmış böyük sərkərdə,Qarabağ xanlığını yaradanlardan biri, Zəngəzur mahalının Sultanı Murtuza bəydir. Sonra xanımın ərinin və qaynatasının da anaları bu səcərədəndirlər və Qurdgəzi kəndində yaşamışlar.

Paşa bəyin özü də gəncliyində atası Xanmurad kimi çodarlıq (çarvadarlıq) etmişdir. İstənilən halda, Paşa bəy öz ətrafı arasında – yəni bəylik adı almamışdan

əvvəllərdə də və istərsə də bəylik aldıqdan sonra da yüksək hörmət sahibi olmuşdur.

Paşa bəy, oğlu Sultan bəyi evləndirəndə gəlini Aran Qarabağdan gətirəndə göstəriş vermişdir ki, gəlini birinci olaraq Cəbrayıl bəyin qapısına gətirsinlər və bəyin xanımı Qızyetər xanımın xeyirduasını alsınlar. Qızyetər xanım çox cəsarətli, mərd, kişi xasiyyət bir qadın olmuş, heç nədən çəkinməzmiş. Bununla yanaşı əri Cəbrayıl bəy kimi xeyirxah, əlidüşərli olmuşdur. Böyük Zəngəzur parçalandıqdan sonra ailə Alıqulu kəndindəki mülklərində yaşamışdır. Digər tərəfdən Cəbrayıl bəyin keçdiyi yol, aldığı təhsil Paşa bəy üçün bir örnək idi. Dostluq və qohumluq əlaqələri var idi. Qızyetər xanım gəlini və onu gətirənləri çox yaxşı qarşılayır, bəyə bir kəhər at, gəlinə isə biriliant qaşlı bir qolbağı və el adətinə görə kəlağayi bağışlayır. Bu həyətdə xeyli çal-çağır məclisi keçir, cavanlar isə baş üstə at çapırlar, at kəlləsinə güllə atmaqla şənlənirlər.

Cəbrayıl bəy öz dövrünün çox böyük ziyalısı, dövlət xadimi,sərkərdəsi olmaqla insanlar arasında çox böyük nüfuz sahibi idi. O, Tatef və Zəngəzur mahalının başçısı olarkən kəndləri bir-bir gəzər,kasıb insanlara əl tutar, toxum verər, öküz, cüt verər və tapşırarmış ki, yaxşı çalışsın, çörək üçün heç kimə əl açmasınlar. Kənd ağsaqqallarına və varlılarına isə tapşırarmış ki, gələn payız gələcəm, elə edin ki, kəndinizdə çörəyə möhtac olan adam olmasın. O, 16 il Bağdadda ali dini-ruhani təhsili almış, Odessa Tibb Universitetini bitirmişdi. İnsanların özləri ilə yanaşı, at və öküzlərini də müalicə edərmiş, özünü xalq arasında çox sadə apararmış. Cəbrayıl bəy Azərbaycandan yeganə şəxsdir ki, 25 il ruslara qarşı, vətəninin azadlığı uğrunda çarpışan Şeyx Şamilə silah-sursatla, atla, pulla yardım göstərmişdir. Şeyx Şamillə ikinci görüşündə – təsadüfən qolundan yaralanmışdır. Bu haqda Şeyx Şamilin mirzəsi, "Yeni Musavat"qəzeti, Süleyman bəy Nəbibəyli "Bəyliyin tarixi" kitabında və Dağıstanın bir çox qəzetlərində müxtəlif illərdə yazılar vermişlər.

Zəngəzurun təbiəti, insanları, oranın yaşayış tərzi, tarixi şəxsiyyətləri, bəyləri, ağaları haqqında xeyli elmi və publisistik yazılar yazılmışdır.

25 iyul 1921-ci ildə Sultan bəyin evi Ə.Qarayev və Şuşa Qəza İcraiyyə Komitəsinin sədri S.Mahmudbəyov tərəfindən müsadirə olunur".

Professor M. Qasımlı göstərir ki, 1930-cu ildə Azərbaycan hökümətinə daxil olan məlumatda Sultan bəyin Azərbaycanda olan qaçaqlara İran vasitəsi ilə kömək etdiyi xəbərini verirlər.

Azərbaycan təhlükəsizlik təşkilatlarına daxil olan bəzi məlumatlara görə, Cənubi Azərbaycanın Larıcan kəndində Sultan bəyin 250 nəfərlik silahlı dəstəsi sərhəddi keçməyə hazır imiş. Sovet hökümәti Sultan bəyin həbs olunması və ya İrandan çıxarılması üçün İran hökümətinə nota verir. Bundan sonra Sultan bəy İranı tərk edərək Türkiyəyə keçməyə məcbur olur.

Paşa bəyin oğlu Xosrov bəy çox vətənpərvər, siyasi savadlı, humanist fikirli bir insan olmuşdur. Əvvəllərdə qeyd etdiyimiz kimi Azərbaycan Cümhuriyyətinin Ensiklopediyasının 2-ci cildində Xosrov bəy haqqında xeyli məlumatlar verilmişdir. Burada onun1903-cü ildə Novorossiyski Universitetinin Tibb fakültəsini bitirdiyi də qeyd olunur.

Xosrov bəy 28 aprel 1920-ci il işğalından sonra iki həftə Qarabağ hərbi İnqilab Komitəsinin sədri olur. 1920-ci ilin 12 may tarixində XI Qızıl Ordunun Xüsusi Şöbəsinin müdürünün əmri ilə həbs olunur və 1920-ci ilin 9 avqustunda onun şəxsi işi Ali Tribunala verilir. L.Şüküroğluna görə Xosrov bəyin həbsdən azad olunmasına Azərbaycan XKS sədri, tələbə dostu N,Nərimanov və Şuşada onun müavini olmuş Çingiz İldırım kömək etmişdir. Professor İ.Musayev isə Xosrov bəyin həbsdən azad olunmasını qardaşı Sultan bəylə əlaqələndirir.

Qardaş Türkiyədə özünə sığınacaq tapan Xosrov bəy Vətən uğrundakı mübarizəsini ömrünün son günlərinə qədər davam etdirmişdir. O, qəriblikdə "İttihad" partiyasının sədri seçilmiş, Müsavat başqanı M.Ə.Rəsulzadə ilə Türkiyədə, Almaniyada, Polşada fəaliyyətdə olmuş, Sovet hərbiçisi İsrafil bəyin təşkilatçılığı və M.Ə.Rəsulzadənin təklifi ilə Türkiyə Tibbi Komissiyasının tərkibinə daxil olmaqla SSRİ müsəlman əsirlərinin faşist ölümündən azad edilməsində bir həkim kimi fəaliyyət göstərmişdir.

Sultanovlar ailəsinin digər üzvü, Sultan bəyin qardaşı Rüstəm bəy Sultanov haqqında məlumatları tədqiqatçı-jurnalist L.Şüküroğlunun 2000-ci ildə çap edilmiş "Cümhuriyyət hökümәti repressiya məngənəsində"yazısında tapırıq. Bu mənbədən aydın olur ki, Rüstəm bəy Sultanov 1875-ci ildə Zəngəzurun Qurd Qaji (Qurdgəzi)kəndində anadan olub,1935-ci ildə həbs edilərkən Bakıda neft

mühəndisi vəzifəsində işləyib". Onu da qeyd edək ki, Rüstəm bəy ömrünün xeyli hissəsini Bakı neft mədənlərində mühəndisliyə həsr etmiş, heç bir siyasi fəaliyyətdə olmamışdır. "Azərbaycan" qəzeti 5 aprel 1919-cu il.

Göründüyü kimi Xosrov bəy müsahibəsində çox mülayim, insani dəyərlərə uyğun və qəddar düşmənə də xoş məramla yanaşması onun kimliyindən xəbər verir. Düşmən düşmənçiliyindən, pis əməllərindən çəkinmir, biz isə öz alicənablığımızdan. Hər halda deyilənlər tarixi bir həqiqətdir, amma dünya həqiqətlərlə yaşayırmı?..

İlham Tumas yazır: "Birinci Cümhuriyyətin Qarabağa generalqubernator təyin elədiyi Xosrov bəy daşnak və bolşevik qüvvələrinə qarşı qeyri-bərabər döyüşlərdə qalib oldu, ermənіyə bir qarış torpaq belə vermədi. Həmin ilin yayında əlinə silah alıb Qarabağ havasına havalanan ermənilər diz çökdürüldü, hamısı bir nəfər kimi Azərbaycan Hökumətini tanımağa məcbur oldular. Onun qətiyyəti və hərbi şücaəti sayəsində Şuşadakı gizli daşnak komitəsinin üzvləri bir nəfər kimi qaçıb dağılmaqdan savayı yol görmədilər.

Ona görə də, əllərindən bir iş gəlməyən daşnaklar bolşevik əhval-ruhiyəli müsəlmanların köməyi ilə şayiə yaymışdılar ki, guya Cümhuriyyətin Hərbiyyə Naziri bu adamı general qubernatorluqdan geri çağırır. Bu məqsədlə Üzeyir bəy Hacıbəyov "Azərbaycan" qəzetinin 1919-cu il 24 iyun tarixli sayında yazırdı: "Həqiqətən, o, Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücudə malik olan kimi sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni cəmaəti tərəfindən dəxi möhtərəm sayılan bu zat Qarabağın hökuməti başında olmasa idi, burası–Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital olmuşdu".

Unudulmaz Üzeyir bəyin barəsində yazdığı bu qəhrəman insane Qarabağın general-qubernatoru Xosrov bəy Paşa bəy oğlu Sultanov idi....

Sultan bəy qardaşları Xosrov bəy və İsgəndər bəylə 1923-cü ilin ortalarında İrana mühaciət etmişdir.

XXI FƏSİL

CƏSUR QARDAŞLAR

O cəsur qardaşlar Paşa bəyin oğlanları Sultan bəy və Xosrov bəy 1923-cü ilin ortalarına kimi Azərbaycanın ermənilərlə olan sərhədlərini qoruyub saxlaya bilmişdir. Bu istək onların amalı olmuşdur. Elinə, obasına, millətinə, xalqına sonsuz xidmət göstərən Paşa bəyin bu cüt oğulları canı, qanı bahasına igidliklə qoruyub saxladığı Azərbaycanın igidlik yuvası sayılan Laçında yaşaya bilmədilər.

Qızıl Ordu Azərbaycanı işğal etdikdən sonra, Paşa bəy oğlanlarının ağır günləri başlandı. Onların sürgün edilməsi, hətta xalq düşmənləri olmaları haqqında məkrli sənədlər hazırlandı. Nəticədə Sultan bəy əvvəl İranda, sonralar Türkiyə dövlətində mühacir həyatı yaşamağa məhkum edilir.

Sultan bəy Türk tarixində böyük qiymətə layiqdir. Ermənilər azərbaycanlıların tarixi düşmənidir-bunu heç bir Türk oğlu yaddan çıxartmamalıdır. Ermənilər tarix boyu ən ağır dərsi Sultan bəydən aldılar. Sultan bəy Türkiyədə mühacir həyatı yaşayarkən də, öz böyük qürurunu itirməmiş, yeri gəldikcə ətrafında olan Zəngəzurlulara maddı köməklik göstərmiş, ömrünün sonuna qədər onların ağsaqqalı olaraq qalmışdır. Bu günkü gənclərimiz belə şəxsiyyətlərin ömür yolundan necə yaşamağı və Vətəni necə sevməyi öyrənməlidirlər. Sultan bəyin Türkiyədə sığınacaq tapmaq məqsədi ilə etdiyi müraciətə Atatürk belə cavab vermişdir: "Ermənilərə verdiyiniz tarixi dərslərə görə Türkiyənin qapıları həmişə üzünüzə açıqdır!"

Hazırda böyük Türk dünyasının qəhrəman oğlanlarının həyat səlnaməsinin araşdırılması, göstərildiyi tarixi qəhrəmanlıqların nümunələri biz Türkləri sevindirir. Bu gün bu tarixi zərurətdir. Çünki Azərbaycanımızın ərazi bütövlüyü pozulmuşdur. Tarixi torpağımız olan Dağlıq Qarabağ, Zəngəzur erməni işğalındadır. Gənclərimiz tarixi sima, böyük sərkərdə olan xalq qəhrəmanlarımız Sultan bəy və Xosrov bəy qardaşlarının keçdiyi yoldan ibrət götürərək Qarabağı azad edəcəyimiz haqqında hər gün fikirləşməlidirlər.

Xosrov bəy Sultanov Qarabağa general qubernator təyin olunanda onun vəzifə borcuna "erməni hərəkatı ilə mübarizə və bu hərəkatın tamamilə məhv edilməsi, qayda-qanunun bərpa olunması, məcburi köçgünlər arasında qayda-

qanunu bərpa etmək, onlara yardım" kimi məsələlər daxil idi. Sultanovun bacarığından və qabiliyyətindən xəbərdar olan Qarabağın erməni milli yığıncağı Xosrov bəyin təyinatına etiraz olaraq tərtib etdikləri məktubda yazılmışdı: "Qarabağın erməni milli yığıncağı Azərbaycan hökuməti tərəfindən təyin olunan general qubernatorla bağlı bildirir ki, onlar heç vaxt bu faktla barışmayacaqlar".

Ancaq Xosrov bəy Sultanov da qanuni hüquqlarını və vəzifə səlahiyyətlərini gözəl bilirdi. Ona görə də, o da öz növbəsində erməni milli yığıncağından tələb etmişdi ki, nəzarətinizdə olan silahlı dəstələri buraxın və Qarabağda əmin-amanlıq yaratmağa mane olmayın.

Xosrov bəy Sultanov həm də Müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Xosrov bəy Sultanov əvvəlcə İranda,Türkiyədə sonra Fransa və Almaniyada yaşayıb. O, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışıb. 1936-cı ildə Türkiyəyə qayıdan Xosrov bəy Sultanov Trabzonda məskunlaşıb və 1947-ci ildə vəfat edib.

1920-ci il 12 mayda Ermənistan Xarici İşlər Nazirliyi Azərbaycan hökümətinə yazırdı: "erməni qırğınlarının təşkilatçısı X.Sultanov qırmızı lent taxaraq yenə də hakimiyyətdədir". Xosrov bəy üçün hansı hakimiyyətin iş başında olmasından asılı olmayaraq eyni məsuliyyətlə işinə sədaqətli idi. Onun mübarizəsi yurd uğrunda idi, torpaq uğrunda idi, vətəninin, dövlətinin bütövlüyü uğrunda idi. Xosrov bəy ermənini tanıyırdı. Azərbaycan torpağına göz dikənlər, onu parçalayanlar, insanlarını məhv edənlər onun düşmənləri idilər. Xosrov bəy qardaşı Sultan bəylə Zəngəzurun azad edilməsi planını işləyib hazırlamışdı. Lakin, bu tarixi fürsəti, elə tarixin özü pozdu, milli hökümət çökdü, bütün işlər alt-üst oldu.

ERMƏNİ TƏXRİBATI

Ermənilərin növbəti təxribatı Kürdlər haqqında idi. Kürdləri Azərbaycandan ayırıb ayrı dövlət etmək istəyirdilər. Azərbaycan türklərinin qanını içən Dronu Zəngəzurda erməni Sovet qoşunlarının komandanı təyin etmişdilər. Azərbaycanda isə ermənilər və onların havadarları ruslar tərəfindən ortaya atılmış "Qırmızı Kürdüstan" avanturasını əlində "əsas" kimi tutaraq Xosrov bəyi millətçilikdə günahlandırıb həbs etmiş, Sultan bəyi isə vətənindən qaçaq salmışdılar. Həqiqətdə isə Musa Urudun yazdığı kimi kürd əhalisi dövlət qurmaq iqtidarında deyildi.

Kürdlər Zəngəzura XVII əsrdən sonra gəlmiş və indiki Laçın, Qubadlı və Zəngilan bölgələrinin bir neçə kəndində məskunlaşmışdılar.

O, daha sonra yazır: " Zəngəzur kürdünü dövlət qurmaqdan çox, əmin-amanlıq şəraitində mal-qarasını otarıb külfətini dolandırmaq düşündürürdü. İkinci bir tərəfdən, Kürdlərin Azərbaycandan ayrılmasının nə siyasi-ideoloji, nə də tarixi-coğrafi əsası yox idi. Daşnak Andranik və onun qaniçən davamçıları Azərbaycan türkləri ilə yanaşı, kürdləri də qanına qəltan etmişdi. Digər tərəfdən hələ Anadoluda kürdlərlə ermənilər arasında milli etnik və dini zəmində başlamış dərin düşmənçilik unudulmamışdı. Eyni zamanda müsəlman kürdlərin öz dindaşlarından ayrılıb xaçpərəst ermənilərə sığınmağı da ağlasığan deyildi". Bütün bunlar ermənilərin növbəti təxribatından başqa bir şey deyildi.

Soverlərin Azərbaycanı işğal edərək, onun milli və vətənpərvər insanlarını məhv etməsi, ölkədən uzaqlaşdırması da Zəngəzurun ermənilərə verilməsinə şərait yaratmışdı. Bu işdə N.Nərimanov da səhvə yol vermiş və sonradan səhvini düzəltmək istəmişdisə də xeyiri olmamışdır.

N.Nərimanov V.İ.Leninə yazırdı: - "Həmişə Denikini müdafiə edən Ermənistan müstəqillik qazanır və əlavə olaraq Azərbaycan torpaqlarını alır. Azərbaycan isə həm müstəqilliyini, həm də ərazisini itirir. Azərbaycanın indiki vəziyyəti elədir ki, Mirzəyanlar heç bir maneəsiz onun taleyini həll edir.

ORDU QURUCULUĞU

1918-ci ilin iyul ayının 6-da Azərbaycan Demokkratik Respublikası hökümətinin pullu hərbi mükəlləfiyyət haqqında sərəncamına müvafiq olaraq iyul ayının 11-də milli orduya çağırış haqqında əmr verildi və 1894-1899-cu illərdə anadan olmuş 24-29 yaşlı oğlanlar səfərbər edildi. Maliyə çətinliklərinə baxmayaraq milli zabitlər hazırlamaq məqsədi ilə Gəncədə hərbi məktəb yaradıldı. Görülən tədbirlər nəticəsində öz vaxt ərzində 40 minə yaxın əsgəri olan milli ordu yaradıcılığına başlandı. O vaxt orduda 24 min süngü, 6 min piyada, suvari, topçu və sairə qoşun növlərindən ibarət olan və ən müasir silahla silahlanan canlı qüvvə, Xəzər dənizindəı kiçik bir donanma var idi. Orduda hərbi intizamı möhkəmləndirmək məqsədi ilə hərbi nazirliyin yanında hərbi məhkəmə fəaliyyət göstərirdi. Cənubda təhlükəsizliyi qorumaq üçün Lənkəranda ehtiyat batalyonu və "yardım olayı" – milis polku yaradıldı. Azərbaycan Demokratik Respublikasını

mühafizə etmək məqsədi ilə xüsusi bölmə, respublikanın ərazisində asayişi qorumaq üçün mobil dəstələr təsis edildi. Onların tərkibinə iki artileriya briqadası, bir yüngül artileriya diviziyası, üç bronlu poezd, beş aeroplan, bir neçə hidroaeraplan, altı ağır və yüngül bronlu avtomobil daxil idi.

1918-ci ildə Gəncədə yaradılmış hərbi məktəb 1919-cu ilin noyabr ayında hərbi uçilişə çevrildi. Uçilişin üç şöbəsində-ümumi, topçuluq və mühəndislik şöbələrində 250 dinləyici oxuyurdu. 1919-cu ilin sonunda, 1920-ilin əvvələrində kovalyer, topçuluq snayper uçilişləri yaradıldı. Bu tədris müəssisələrində dərs demək üçün mütəxəssislər dəvət edildi. 1918-1920-ci illərdə türk və rus zabitlərinin köməkliyi ilə piyada və atlı polklar, artileriya briqadası, diviziyası yaradıldı. 1919-cu ilin sonunda milli ordunun tərkibində 2 piiyada diviziyası var idi. Birincim Tatar, ikinci Qarabağ və üçüncü Şəki atlı polkları bazasında kavaleriya diviziyası yaradıldı. Azərbaycan Demokratik Respublikası az müddətdə bu qədər işlər görmüşdür.

Elbrus Muradovun dedikləri

Hazırda Bakı Metropolitenində baş mühəndiz işləyən Sultan bəyin nəvəsi Elbrus Muradov bir müddət əvvəl "lent.az"a verdiyi mühasibəsinmdə Xosrov bəy Sultanovun gözünün birindən necə məhrum olması barədə xatirələrini bölüşüb.

Elbrus bəy bildirir ki, Xosrov bəy Odessa Tibb Universitetində Nəriman Nərimanovla tələbə yoldaşı olub. Tələbəlik dövründə küçədən keçərkən bir rus zabitin yoldan keçən bir qıza sataşdığını görən Xosrov bəy qızı müdafiə edir və bu müdafiə duellə nəticələnir. Birinci gülləni Zabit atır və güllə Xosrov bəyin gözünü zədələyir. Amma yaralı Xosrolv bəy özünü itirmir, o ikinci gülləni sərbəst ataraq zabiti öldürür. Sonradan məlum olur ki, həmin qız Odessa Universitetinin rektorunun qızıdır. Həmin qızla evlənən Xosrov bəyin ondan Murad adlı bir oğlu olsa da, uşaq yaşlarında dünyasını dəyişir.

ZƏNGƏZURUN ERMƏNİSTANA VERİLMƏSİ

Rusiyada sovetləşmə çox şirin vədlər versə də işğalın sonrakı – yəni 1920-ci ildən sonrakı dövləri Azərbaycana – xüsusən Zəngəzura, Yuxarı Qarabağa və Qərbi Azərbaycana çox ağır itgilər gətirdi və Zəngəzur 1920-ci ilin bir dekabrında yeni yaradılan Sovet Ermənistanına qeydsiz-şərtsiz hədiyyə edildi.

Əşir Bəşiroğlu

1921-ci il iyulun 20-də Ermənistan SSR Xalq komissarları Soveti respublikanın ərazi bölgüsünü 9 qəzadan ibarət olmaqla təsdiq etdi. Doqquzuncu qəza indiki Sisyan, Qafan, Gorus rayonları və Mığrı rayonunun bir hissəsinin ərazisindən ibarət olan Zəngəzur qəzası elan olundu.

Zəngəzurun Ermənistana verilməsi prosesi təəssüflər olsun ki, sonrakı illərdə də davam etdirildi. 1927-ci ildə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Azərbaycanın Mığrı-Cəbrayıl qəzasının 27 kəndi, Zəngəzur qəzasının isə 10 min desyatindən çox yaylaq ərazisi Ermənistana verildi. 1929-cü il fevralın 18-də isə Zaqafqaziya MİK Rəyasət Heyətinin M.Sxakayanın sədrliyi, Azərbaycan nümayəndələrindən isə D.Bünyadzadə, M.Bağırov və S.Yağubovun iştirakı ilə keçirilən iclasın qərarı ilə Zəngilan rayonunun daha 3 kəndi-Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verilməklə Zəngəzurda daha bir erməni rayonu –Mığrı rayonu təsis edildi.

Sovet hakimiyyəti qurulandan sonra Zəngəzur iki yerə parçalandı. Böyük bir hissəsi (Qarakilsə, Gorus, Mehri, Qafan) qondarma Ermənistan dövlətinə verildi. Zəngilan, Qubadlı, Laçın Azərbaycanın tərkibində qaldı. Bununla da həm böyük bir mahalın – Zəngəzurun sinəsinə çalın-çarpaz dağ çəkildi, həm də qədim Naxçıvan öz doğma anasından – böyük Azərbaycandan ayrı düşdü. Sovet hakimiyyəti ermənilərin arzularının böyük bir hissəsinin gerçəkləşdirmiş oldu. Azərbaycan torpaqları üzərində hayların ilk dəfə rəsmi olaraq Ermənistan adlanan dövləti yaradıldı. Amma "Böyük Ermənistan" yaratmaq istəyən ermənilər yenə də öz torpaq iddialarından əl çəkmədilər. Onlar "dənizdən dənizədək" (Qara dənizdən Aralıq dənizinədək) böyük Ermənistan yaratmaq iddialarından indi də əl çəkmirlər.

İndi də Sultan bəy haqqında

Bəzi müəlliflər Sultan bəyi Kürdhacı kəndi ilə bağlayırlar. O kənd XVIII yüzillikdə boş sahə olub. Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir bu sahəni Xorasan əyalətindən gəlmiş Hacısamlı camaatının Qasımuşağı tayfasına verib. Həmin tayfa orada bina salıb. Xan onları Həmzə Sultan Qaraçorlunun dördüncü oğlu Nəbi bəyə rəiyyət kimi bağışlayıb. Nəbi bəyin Xıdır bəy adlı oğlu, Xıdır bəyin Xanmurad bəy adlı oğlu, Xanmurad bəyin isə Əlipaşa bəy adlı oğlu olub. Sulan bəy Əlipaşa bəy oğlu 1871-ci ildə Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Qasımuşağı obasında doğulub.

Cəsur qardaşlar

O əvvəl Molla yanında oxuyub, sonra Gəncə gimnaziyasında orta təhsilini başa vurub. Sultan bəy o vaxtın ən önəmli məktəbi olan Sank-Peterburq hərbi akademiyasına daxil olur, lakin Akademiyada azərbaycanlılara olan münasibət onu qane etmir. O, Akademiyanı buraxıb doğma elinə qayıdır, maldarlıqla məşğul olur, doğma elinə yararlı bir insana çevrilir.

Gələni-gedəni çox olarmış Sultan bəyin. Xahişə gələn, şikayətini bildirən, kömək istəyən və s. Tapşırarmış ki, onu soruşan olanda, evdə olmasa da, heç vaxt deməsinlər ki, Sultan bəy evdə yoxdur. Desinlər ki, buralardadır, gələcək indi. Bu minvalla gələnləri yerbəyer eləsinlər, onlara çay-çörək versinlər. Əgər evdə yoxsa, yoxluğunu bundan sonra bildirsinlər. «Bura dağ yeridir, uzaq yoldan gələn olar, bilməzsiniz, ac qayıdar. Sonra mənəm, sizsiniz».

Sultan bəy 1955-ci ildə Qars ətrafında, Köçkoy kəndində vəfat edib.

Sultan bəy Teymur bəy Həsənbəyovun qızı Dilruba xanımla ailə qurmuşdu. Ənvər bəy, Çingiz bəy, Yusifkamal bəy adlı oğulları və Bəyim xanım adlı qızı vardı.

Ənvər bəy Xalisə xanım Məhəmməd qızı ilə ailə qurmuşdu. Elbrus bəy, Bahadur bəy adlı oğulları, Səriyə xanım, Validə xanım və Maya xanım adlı qızları var.

Elbrus Muradov 1939-cu ildə doğulub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olub. Elektrotexnika fakültəsini bitirib. Hazırda Azərbaycan Metropolitenində baş mühəndis işləyir. Prezidentin fərmanı ilə «Əməkdar mühəndis» adını alıb.

Elburus Muradovla söhbətləşirik:-Babamın qəbrini axtarmaq üçün uzun illər çalışdım. Dost və qardaş Türkiyəyə gedən hər tanışımdan soraqlamağı xahiş etdim. Gələnlərdən soruşdum. Gördüm deyən olmadı. Nəhayət, internet araçılığı ilə axtarışlarımı davam etdirdim. Qars vilayətinin Köçqoy kəndində hələ XIX yüzildən laçınlıların məskunlaşdığını öyrəndim. Adil Laçın adlı bir nəfərlə yazışıb, telefon nömrəsini öyrəndim. Zəngləşib vədələşdik ki, mən Türkiyəyə gəlim. 15 may 2006-cı ildə Türkiyəyə uçdum. Adil bəy məni Esenboğa hava limanında qarşıladı. Səhər saat 6-da Qarsa tərəf yola çıxdıq. Maşınla bir neçə saat yol qət etdik. Yolboyu həyacanlıydım. Görəsən, doğurdanmı babamın qəbri ordadır, yoxsa

başqa variantlar kimi bu da özünü doğrultmayacaq?! Sultan bəyin Ərzurumda, Konyada dəfn olunması haqda versiyalar mövcuddur.

Nəhayət, Köçqoy kəndinə yetişdik. Molla çağırıldı. Kənd əhalisinin seçmə ağsaqqalları ilə qəbrstanlığa getdik. Qəbrstanlıqda sadə bir qəbri göstərib «Sultan bəyin məzarıdır» söylədilər. Tutuldum. İnanmamağa əsasım yox idi. Amma qəlbimdə şübhələr vardı. Ağsaqqallar babamı olduğu kimi təsvir edib şübhəmi dağıtdılar. Qəribədir ki, Köçqoy kəndində yaşayan adamların çoxu bizim soyun insanlarına bənzəyirdilər. Mən hətta öz oxşarımı da orda tapdım.

Elburus Muradov bildirir ki, bu ilin yayında yenidən Türkiyəyə gedəcək. Niyyəti var ki, babasının adına layiq bir başdaşı ucaltsın.

Sultan bəy Azərbaycan xalqının milli qəhrəmanıdır. Fikirləşirik ki, niyə onun qəbri Azərbaycana köçürülmür? Düşüncəmizi Elburus Muradovla bölüşürük. Razılaşmır. Bildirir ki, Sultan bəy çətin vaxtlarında Türkiyəyə pənah aparmışdı. Ona qucaq açıb nazını çəkmişdilər. Oranı özünə ikinci vətən bilmişdi. Doğmalarının arasında dəfn olunub. Ruhunu incitməyək BÖYÜK BƏYIN!

SULTAN BƏY VƏ XOSROV BƏY HAQQINDA YAZILANLAR

XIX əsrin əvvəlləri ermənilərin əli ilə Rus imperiyası Şimali Azərbaycanı, onun xanlıqlarını işğal etdi və bu haqda Rusiya ilə İran arasında 1806, 1813 və 1828-ci illərdə Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələri bağlanmaqla Qarabağ, İrəvan və Naxçıvan xanlıqları rus işğalçılarının əlinə keçdi. Əlbətdə Azərbaycan həmin illərdə Dərbənd və Borçalı bölgələrini də itirmişdi.

Rusların idarəçilik qaydalarına uyğun olaraq 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradılmaqla onun tərkibində çox böyük sahəyə malik Zəngəzur qəzası da öz təsdiqini tapdı.

Rusiyada sovetləşmə çox şirin vədlər versə də, işğalın sonrakı – yəni 1920-ci ildən sonrakı dövrləri Azərbaycana – xüsusən Zəngəzura, Yuxarı Qarabağa və Qərbi Azərbaycana çox ağır itkilər gətirdi və Zəngəzur 1920-ci ilin bir dekabrında yeni yaradılan Sovet Ermənistanına qeydsiz-şərtsiz hədiyyə edildi.

Zəngəzurun Laçın bölgəsindən olan Sarı Aşıq demiş:

Bu qala, yaman qala,
Düşmüşəm yaman qala.

Cəsur qardaşlar

Rəvamı, Yaxşı ölə,
Yerində yaman qala?!

Belə olarmı?! Amma olub, bu reallıqdır. Son dövrlər tarixçi alimlərimizlə yanaşı digər yazarlarımız, vətənpərvərlərimiz, publisistlərimiz Zəngəzur, onun tarixi şəxsiyyətləri, bu torpağa bağlı qalmayanlarımızı özlərinə məlum səviyyədə mətbuatda işıqlandırırlar. Bu isə çox yaxşıdır. Onların hər birinə diqqət yetirdikdə hansısa bir yeniliyə də rast gəlmək olur. Bu da bizləri sevindirir.

Əslən Qubadlıdan olan dost və həmyerli Rauf İlyasoğlu Vətənlə, Qarabağla bağlı xeyli şeirin, yazıların müəllifidir. O, söyləyir: "Özümü heç vaxt öyməmişəm, sadəcə Qarabağla Qarabağı dəyişik salan insanları ayılmağa, torpağı, Vətəni sevməyə çağırmışam". O, "Şeytan erməni" şeirində xalq qəhrəmanını belə xatırladır:

Fəxr edirsən, tək qulaq, qürrələnmə,
Bizim Koroğlumuz, Babəkimiz var.
Sultan bəy ruhundan vahimələnmə,
Əlyar, Alı, Şirin tək igidim var.

Digər bir şeirində Rauf Vətənə öz arzularını belə bildirir.

Füzulimiz, dərd əlindən, alına,
Cəbrayılda nur ocağı, qalana,
Qarabağda, bir Vağzalı çalına,
Elim, obam, Laçınıma, yol sala,
Bayrağımız, Kırs dağında ucala.

Otuz kitab müəllifi Dəmir Gədəbəyli erməni keşişə deyir:

Günlərin bir günündə,
Sultan bəyin önündə,
Özün buladı baban.
Paça altından keçib,
Çəkmə yaladı baban.

Əslində Sultan bəy öz vətəndaşlıq borcunu yerinə yetirmişdir. Xalq isə ona öz dəyərini vermişdir, dövlət isə xalqın fikrini təsdiqləməlidir.

Əli ibn Əbutalib deyib: "Dilini nəyə öyrətsən onu da sənə qaytaracaq".

Uzun illərin kədərindən Zahir Laçınsız yazır:

Laçınsızam, saçlarıma düşüb dən,
Vay o günə dönüb dost ola düşmən,
Görməyən gözünə qurban olum mən,
Gündə salan yoxsa səni get-gələ,
Bu dünyada sən nə görmüsən hələ?

Şair Zahir Abbas yazır:

Allah ömrümüzə gəl ömür cala,
Qoyma ümüdlərim puç olub sola.
Durub təkbaşına düzəlib yola,
Bir gecə yurduma qayıdacağam.

***

Bu dərdi, kədəri talamaq üçün,
O daşı, torpağı yalamaq üçün.
Sönmüş ocaqları qalamaq üçün,
Bir gecə yurduma qayıdacağam.

Fətulla Fəcri isə daha qətiyyətlidi:

Zəngəzurum, Qarabağım erməninin dustağı,
Göyçəm, Şuşam millətimə göz dağıdır, göz dağı!
Tanrı bizi bağışlamaz, lənət ilə qəhr elər,
Yağılardan arıtmasaq zəbt olunmuş torpağı!

F. Ruzvelt yazır: "Siyasətdə heç nə təsadüfən baş vermir. Əgər bir hadisə olarsa, əmin ola bilərsiniz ki, bu, əvvəlcədən planlaşdırıldığı üçün baş verir". Bunu bilməyən insan millətə atalıq iddiasında olmasın. Uzun illərdir Azərbaycana qarşı erməninin, rusun, ingilisin, fransızın, farsın, yunanın, ABŞ-ın və s. mövqeləri bəllidir. Belə olduğu halda, məyər əl-qolumuzu yanımıza salıb nəyisə gözləməliyik? Əlbətdə yox! Artıq, Azərbaycan axırıncı fitvanın qurbanı ola bilər, bizi nə vaxt gözləyir, nə də ki, hansısa ümid.

Əli ibn Əbutalib demiş: "İnsanlar öz zamanlarına ata-babalarından daha çox oxşayırlar". Amma lazımdır ki, zamandan çox ata-babalarımıza oxşuyaq, Sultan bəylərə oxşayaq.

Cəsur qardaşlar

Azərbaycan torpağı Borçalının türk oğlu türk Abbas Abdulla vətən üçün, türk dünyası üçün, Urum Kırım arası üçün yazıb yaradan, yanıb yaxılan "Vay halına" şeirində yazır:

Türkə düşman olanların
Vay halına, vay halına.
Sonra peşman olanların
Vay halına, vay halına

Məhəmməd Peyğəmbər (a.s.) buyurmuşdur: "Adi adamlar dirikən ölü kimidirlər, elmlilər isə öldükdən sonra da yaşayırlar". Peyğəmbərimizin fikrindən çıxış edərək, Fikrət Sadıq və digər ziyalılarımızın, alimlərimizin göstərə biləcəkləri yollardan, fikirlərdən, məsləhətlərdən istifadə etməklə Qarabağımızı, Zəngəzurumuzu, Laçınımızı, Qubadlımızı və başqa torpaqlarımızı azad etməliyik. Bizim torpaqlarımızı ancaq özümüz azad etməliyik, kənardan nəyi isə axtarmaq ömründə fayda verməyəcək.

Bu arzumuza şərik çıxan Fətulla Fəcri "Od püskürərək" yazısında bunu çox gözəl cavablandırır.

Yandıqca Vətən qalxır ahım göylərə yerdən,
Başım nə bəla çəkmədi kərtənkələlərdən?!

Xaç ölkələri dal-dala vermiş kürəyində,
Haylar qudurub, qüdrət alır kələlərdən?!

Düşməndə kini, lövğalığı, hikkəni gör sən,
Atəşkəsə atəşlər açan silsilələrdən!

Üçlük oyununda nə oyun getməyir, Allah!
Kim qurtaracaq bizləri sərsəmləmələrdən?!

Xaç hiyləsidir, guya ki, dərman tapacaqlar,
Canım boğaza gəldi gülünc vəlvələlərdən!

Qubadlının Saray kəndindən olan Hacı Nərimanoğlunun bu şeiri gözəl sənətkarımız Məhəbbət Kazımovun "Laçınım" mahnısından təsirlənərək yazılıb,

bu şeir bir çox kitablara salınıb, qəzetlərdə dərc olunub, özü də həzin bir nəğməyə çevrilib.

Oxu, Məhəbbət

Şuşa hayqır, Laçın çağır, harayla,
Bu yaranı qoyma qaysaq bağlaya
Bəlkə səsin sinəmizi dağlaya
Bar səsinlə titrət bizi, Məhəbbət,
Oyat bizi, inlət bizi, Məhəbbət!

***

Yurd, yuvamız yağılara qalıbdı
Ağır ellər gözü yolda qalıbdı,
Dağ, qayalar bu səbrə mat qalıbdı,
Yağılara girov qalan qəbrimiz
Bağışlamaz, oxu, daşsın səbrimiz.

***

Gör nə vaxtdı qan ağlıyır Həkəri
Perik düşdü bu ellərin ərləri,
Yurd dərdindən yoxdu dərdin betəri
İçimizə yanğı, ağrı, acı təp,
Zəngulə vur, yaramıza sən duz səp.

***

Yollar bizə yol verərmi dönməyə,
Ağuşunda yer verərmi ölməyə,
Bir umuddu qoymur ömrü sönməyə,
Nəfəsinlə titrət bizi, Məhəbbət
Səksət, oyat, inlət bizi Məhəbbət.

***

Qərib yetim təki sızlayır vətən
“Laçınım” de, o dağları çağır sən
Bəlkə sənin haray çəkən səsindən
Tüstüləyən ocağımız od ala
Mürgü döyən qeyrətimiz oyana.

BUNLARI BİLMƏK MARAQLIDIR

Əziz oxucu, bugünkü Ermənistanın ərazisinin 82 faiz Azərbaycan torpaqlarıdı. Bu torpaqları ruslar 1828-ci il Türkmənçay müqaviləsindən sonra müxtəlif vaxtlarda, müxtəlif yollarla Azərbaycandan qoparıb ermənilərə vermişlər.

Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmsəddin və Göyçə mahalları, Göyçə gölü bizim ata-baba yurdlarımızdı. Bu ərazidə 15-dən çox inzibati rayonun, 10 böyük şəhərin, 11 şəhər tipli qəsəbənin, yüzlərlə kəndin adlarını dəyişmişlər.

İNZİBATİ RAYONLAR.

Göyçə mahalı (Vardenis), Basarkeçər (Vardenis), Qəmərli (Artaşat), Cəlaloğlu (Stepanavan), Hacı Nəzər (Kamo), Molla Dursun (Şaumyan), Qurduqlu (Oktemberyan), Karvansaray (İncivan), Ağababa (Amasiya), Atgül (Ani), Ellər (Abovyan), Allahverdi (Tumanyan), Düzkənd (Arxuryan), Çəmbərək (Krasnoselsk), Üçkiləsə (Eçmiədzin), Uluxanlı (Masis) və s.

BÖYÜK ŞƏHƏRLƏR.

Ellər (Abovyan), Sərdarabad (Oktemberyan), Kəvər (Kamo), Qəmərli (Artaşat), Gümrü (Leninakan), Qarakilsə (Kirovakan), Cəlaloğlu (Stepanavan), Hamamlı (Spitak), Üçkiləsə (Eçmiədzin), Göyçə (Sevan) və s.

QƏSƏBƏLƏR

Uluxanlı (Masis), Alagöz (Araqas), Arpaçay (Axuryan), Ağababa (Amasiya), Vedi (Ararat), Ortakilsə (Mnasyan), Göyçə (Maralik), Əbilkənd (Kalinino), Basarkeçər (Bardenis), Talıboğli (Lusakert), Tovuzqala (Berd), Allahverdi (Tumanyan) və s. (S.Eloğlu "Zəngəzur hadisələri")

Bu qədim torpaqlarımızda xalqımızın başına açılmış faciə və müsibətləri gələcəkdə dünya xalqlarına çatdırmaq üçün mənə köməklik edəcək oxuculara qabaqcadan minnətdarlığımı bildirirəm.

ERMƏNİLƏR HAQDA DEYİLƏNLƏR.

Bu xalq istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır. Bunlar daim romalılara nifrətdən, parfiyalılara isə həsəddən az qala partlayırlar. Tasit

Ermənilərin eyibi: bədfel, kundəbədən, oğru, gözügötürməyən bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küky salan, vəfasız, riyakar, söyüş

söyən, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan ayağa müsbətdən çox, mənfiyə yaxındırlar. Qobusnamə (XII əsr)

Ermənilər ağ dərili qulların ən pisidir. Onların abırları yoxdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər. Adam Mets, İsveçrə şərqşunası.

Ləzgilər Şılda kəndinə basqın edərkən kəndin başçısı Dodayevin evinə soxulurlar. Bu adamın Yefrem Sukyazov adlı bir erməni katibı varmış. Döyüşün şiddətli yerində o xilas olmaq arzusu ilə özünü ölülüyə vurub yerə yıxılır. Ləzgilərdən biri ona ilişir və onun sol qolunu kəsir. Erməni qorxusundan cınqırını da çıxarmır. Ləzgi çolə çıxarkən səhvini başa düşür. Sol əli kəsdiyi üçün xəcalət çəkir. Qayıdıb erməninin sağ əlini də kəsir. Aleksandr Duma, "Qafqaz səfəri" əsərindən.

Külrd xaqanı demişdir: "Mən əsir düşmüş ermənilərə Birsütun qayalarını çapdırıb əbədiqalar məskənlər saldırdım. Ermənləri taqətdən düşənə qədər işlədib sonra öldürmək lazımdır". Birsütun rəvayətlərindən.

XATİRƏLƏRDƏ YAŞAYAN İNSAN.

Sultan bəy xidmətçilərinə tapşırıbmış ki, yanına gələnləri çörək yedirtməyincə evdə olub-olmadığını deməsinlər. "Birdən uzaqdan gələnlərə deyərsiniz ki, evdə yoxdur, ac qayıdarlar. Dağ yeridir, yaxşı olmaz".

Ağanuz ətrafındakı vuruşda Sultan bəyin dəstəsi dörd yüzdən artıq erməni qadınını əsir alır. "Onlarla necə davranaq?" – deyə Tərxanlı Fərzalıbəy soruşduqda Sultan bəy deyir: (S.Eloğlu "Zəngəzur hadisələri")

-Buraxın getsinlər. Biz də qadın öldürsək, onda ermənilərdən nə fərqimiz?"

***

Tat dərəsi ətrafındakı vuruşda Sultan bəy görür ki, yaxınlıqdakı topçulardan biri xaç çeviririb topu aşağı, yuxarı atır. Arxadan tullanıb həmin tipçunu vurur. Özü daşnakların hücuma keçdiyi sahəni nişan alıb düşməni geri oturtdurur. Sonradan məlum olur ki, həmin topçunun anası erməni imiş, daşnaklara casusluq edirmiş

***

Sultan bəy deyərmiş: "Ermənilər Qafqazlı deyillər. Onlar dünya ölkələrndən qovularkən bu yerlərdə özlərinə sığınacaq tapmışlar. Onlar Qafqaza gələndən bəri

Qafqaz xalqarı narahatdır. Biz ermənilərin Qafqazda qalıb-qalmamalarını Qafqaz xalqları ilə birlikdə müzakirə etməliyik”.

***

Üçtəpə, Qannıca, Qaragöl ətrafındakı vuruşlarda Sultan bəy ayağına çarıq geyib ağır topları çox vaxt özü idarə edərmiş.

Sultan bəy deyərmiş: “Vətənpərvər üçün vətənin daşı, qayası da silahdır”.

***

Sultan bəy Çalbayır igidləri arasında tez-tez atıcılıq yarışları keçirərmiş. Qalib gələnlərə bir at, bir tüfəng, bir xəncər bağışlarmış. Zabux dərəsindəki qələbədən sonra Sultan bəy Çalbayırda silah zavodları tikdirmək istəyirmiş. O, silahları Çalbayırlılara nəinki müftə paylayır, hətta təlimçilər gətirtdirib necə atmağı da öyrətdirərmiş.

Sultan bəy Türkiyədən gətirtdiyi topçulara ayda onlar istədiyindən əlavə bir ovuc qızıl pul verərmiş.

***

Ermənilər əxlaqsız xəstə bir qadını Sultan bəyin kəndlərindən birinə göndərirlər ki, kişilərlə əlaqəyə girib yoluxdursun. Məsələni eşidən Sultan bəy qadını tutdurur. Həmin kəndin yaxınlığında ocaq qalatdırıb, qadını ora gətirtdirir. Camaatın gözü qarşısında qadına tövbə elətdirib göndərir Gorus şəhərindəki erməni kəşfiyyatına.

Bununla Azərbaycan kəndlərində erməni qadınlarının əxlaqsızlıqlarına uzun illər son qoyuldu.

***

Andranikin göndərdiyi elçiləri Sultan bəy özü qəbul edərmiş. Sultan bəyin göndərdiyi elçiləri Andranik qəbul edərkən onu tanımasınlar deyə araya pərdə çəkdirib danışarmış.

***

Çalbayırlıların maldarlıqda böyük səriştəsi var. Sultan bəyin fermalarında hər cür rəngdə on minlərlə mal varmış. Yaylaqlarda sağılmış süd Kürdhacı yağ-pendir zavoduna dağların döşü ilə saxsı borularla axıdılarmış. İsveçrədən yeni mal cinsini Azərbaycana ilk dəfə Sultan bəy gətirtdirmişlər.

***

Sultan bəy vətəndən gedərkən Kürdhacı kəndi yaxnlığındakı dağa çıxır. Zəngəzur dağlarına nigaran-nigaran baxaraq bu bayatını çağırır.

Mən aşiq, dolan gözüm,
Dol gözüm, dolan gözüm.
Gedərsən, qayıtmazsan,
Vətəni dolan, gözüm.

XXII FƏSİL

ERMƏNİLƏR ÖZLƏRİ HAQQINDA

Biz "Haylar" kiçik, azsaylı, zəif və çox hallarda özgələrinin hakimiyyəti altında yaşayan xalqıq.(Ə.Bəşiroğlu "Pələng, Şir və ayı" kitabından)

Moisey Xoranatsi, V əsr tarixçisi

Erməni dili hibrid (calaq) dildir. O biri yandan erməni qəbiləsi də hibriddir. Urartu və başqa qonşuları assimilyasuya etmişdir.

Akademik M.Aqanbekyan

Mən ermənilərin sakin olduğu bir çox yerləri gəzmişəm. Daima xalis ermənicə olan bir şey duymağa çalışmışam. Təəssüf ki, bu arzum indiyə qədər yerinə yetməmişdir.

Mikael Nalbadyan

Qədim erməni tayfaları Zaqafqaziyada deyil, məhz yuxarı Fərat vadisində məskunlaşmışlar.

"Erməni xalqının tarixi" kitabından

Qarabağın dağlıq hissəsində yaşayan ermənilər Türkiyə və İrandan gəlmiş qaçqınlardır. Azərbaycan torpağı onlar üçün təqiblərdən və təhdidlərdən sığınacaq yeri olmuşdur.

Erməni tarixçisi B.İşxanyanın "Qafqaz xalqları" kitabından.

Mənə elə bir muasir dil məlum deyildir ki, yeni erməni dilinin qədim erməni dilindən fərqləndiyi qədər fərqlənsin. Heç bir dil mənim üçün qədim erməni dili qədər çətin olmamışdır.

Xaçatur Abovyan

Cəsur qardaşlar

Antik dövrdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada-yəni Rusiyadan xeyli kənarda yerləşirdi.

Erməni tarixçisi B.İşxanyan

Erməni xalqı üçün nə daimi dost, nə daimi düşmən yoxdur. Onlar üçün ancaq mənafe var.

Erməni tarixçisi Leon

E.ə. VII-VI əsrlərdə meydana gələn hind-Avropa xalqı olan haykların gəlişindən qabaq, indiki Ermənistan adlanan ərazidə Urartu mənşəli Koldis və ya Xaldes xalqı yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı.

Erməni tarixçisi H.Pastermaçanyan

1831-ci ildə İrəvan şəhərinin 18 min 766 nəfər əhalisinin 15 min 992 nəfəri, 1866-cı ildə 27 min 246 nəfərindən 23 min 626 nəfəri, yəni 85,2 faizi azərbaycanlı olmuşdur.

Ermənistan Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə nəşr olunmuş məlumatı

Ermənistanda olan 2310 kənddən iki minindən çoxunda azərbaycanlılar yaşayırdı. XIX əsrin əvvəllərində İrəvanda yaşayan 10 min nəfər əhalinin 7 min nəfəri azərbaycanlı idi. 49 bəy, sultan və məlikdən 41-i azərbaycanlı olub. İrəvan xanlığını idarə edən 49 nəfərin hamısı azərbaycanlı olub.

Erməni alimi Zaven Korkodyanın 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanının əhalisi 1831-1931" adlı statistik məlumat kitabından.

Osmanlı türk imperiyasının hər dövründə biz ermənilər dövlətə xidmət etmiş, ən yüksək vəzifələr tutmuş və xoşbəxt yaşamışıq. Həm Osmanlı dövründə, həm də cumhiriyyət dövründə heç vaxt özümüzü yabançı hiss etməmişik, türklər bizə heç vaxt yabançı gözü ilə baxmamışlar. Ancaq içimizdən çoxlu xainlər də çıxmışdır.

Doktor Andreasyan, 1969.

Osmanlı tarixinin hər dövründə bir erməni paşasına, bir erməni səfirinə, bir erməni müdirinə rast gəlmək mümkündür. Təəssuf ki, bir çox xarici dövlətlər ermənilərin bu bəxtiyarlığını qısqanmış və öz mənafeləri üçün türk-erməni qardaşlığını pozmağa çalışmız, bizim ermənilərə silah vermiş, onların arasına

agentlər, missionerlər, zabitlər göndərmiş və Anadoluda ermənilərə xəyali vədlər verərək onları üsyana təşviq etmişlər.

Prof. Karapet Aüman, 13 iyul 1978

Daşnaklar Şərqi işğal etməkdə qabağa düşüb rus burjuaziyasına yol açır, onun proqramını həyata keçirir, onun yanında əsil buyruqqulu rolunda çıxış edirdilər.

M.Vardanyan, "Həyat səhifələri". 1927, səh. 18

Daşnak hökuməti qonşularla ümumi dil tapmağa, onlarla yanaşı, əmin-amanlıqla yaşayıb-yaratmaq yolunu tutmağa qadir olmadı. Yumruğunu düyünləyərək dünyaya meydan oxuyurdu... ciliz millətçilik psixologiyasından əsla əl çəkmək istəmirdi.

Arşavir Melikyan, "Karmir astığ" ("Qızıl ulduz"), 1992, N-74.

24 aprelin Beyrutdakı erməni kilsəsi tərəfindən genosid günü kimi elan edilməsi hamımızı dərin kədərə qərq etdi. Çox yaxın bir keçmişdə Türkiyənin xarici işlər naziri Qabriel Noradunkyan deyildimi? İmperiya dövründə maliyyə və xəzinə naziri Nakop paşa deyildimi? Post və teleqraf naziri Oskan əfəndi deyildimi?...

Ey qafillər, siz hansı keçmişdən danışırsınız? Biz hansı keçmişi unutmuşuq? Keçmişdə bir soyqırım hadisəsi olmayıb. Dövlətin qanunlarına qarşı çıxan bütün vətəndaşlar kimi ermənilərə o zaman qanunlara uyğun olaraq bəzi cəzalar verilmişdir, vəssalam.

Hakop Keşişyan, tacir.

Biz ermənilər din qardaşlarımız olan xristianların zəhərli vədlərinə inanaraq böyük türk dövlətinə qarşı üsyan etdik. Daha doğrusu, vətənə xəyanət etdik. Acı olsa da gerçək budir. Bütün bunlara baxmayaraq yenə də böyük türk milləti bizi öz bağlarından barındırır. Unutmayaq ki, türklərin düşməni bizim də düşmənimizdir.

Levon Dobbağyan, jurnalist.

"Yeganə mənbəyi olan ərəb və fars dilinə, müdrikliyin, elmin və digər dərin düşüncələrə müsəlmanlar arasında hörmət Allaha inam və düzgünlükdən irəli gəlir.

Hətta orta əsrlərdə qədim dillər haqqında belə fikirlər söylənirdi. Ancaq öz poetizminə, səslənməsinə və axarına görə qrammatik nöqteyi-nəzərdən tatar dili (Azərbaycan dili) bütün başqa dillər arasında yeganə dildir".

X.Abovyan. Seçilmiş əsərləri. V cild, Yerevan, 1950, Səh. 174 (erməni dilində).

"Erməni xalqı tatar (Azərbaycan) dilindən çox söz və ifadə götürüb, hansı ki, bu gün də istifadə olunur".

(Yenə orada, səh 48)

"Mən bayatımı ona görə yazmışam ki, ermənilərdə, erməni dilinin şirin səslənməsi naminə, erməni dilində belə şeirlər oxunsun, hansılarını türklər (azərbaycanlılar) stol arxasında, bu və ya digər məclislərdə oxuyurlar. Şeir və mahnı kimi heç nə dili şirinləşdirmir. Mən ümid edirəm ki, xalqım ən yaxşı nümunələr yaradacaq".

X.Abovyan. Əsərlərinin tam külliyyatı. II cild. Yerevan. 1948, səh. 189 (erməni dilində).

"Hər dəfə qonaqlığa gedəndə, şəhərdə gəzəndə, fikrimi toplayıb diqqətlə xalqın nədən şənlənib həzz aldığına fikir verirəm. Və hər dəfə mən görürəm ki, onlar meydanda Kor Aşığın oxumağına qulaq asıb heyrətlənirlər, hətta ağızlarının suyu axır.

Toyda və başqa məclislərdə sazəndəsiz, saz çalan olmasa yeməyə başlamaq olardımı? Deyilənlər türk dilində olardı, çoxları heç bir söz də başa düşmürdü, lakin bunu görən və qulaq asan hər bir insanın qəlbi elə bil cənnətə gedirdi".

X.Abovyan. Erməni yaraları. Yerevan 1939, səh. 9 (erməni dilində)

"Bizim yeni dilimizin (aşxabarlar) yan hissəsi türk və fars dilindən olan sözlərdən ibarətdir. Bu dillər bizim xalqın zövqünü elə oxşayıb ki, ermənilər öz dilini qoyub türkcə oxumağa, nağıl, atalar sözləri danışmağa davam edirdilər, səbəb? Çünki onlar buna öyrəşiblər".

(Yenə orada. Səh. 80-81)

Aşxarabar (xalq dili) öz məzmunu və formasına görə qədim erməni dilindən (qrabar) tamamilə fərqlənir və hər cəhətdən tatar (Azərbaycan) dilinə bənzəyir. Adi söhbət zamanı ermənilər nəinki tək sözləri, hətta tam cümlələri və ifadələri türk dilində söyləyirlər".

(Yenə orada, səh. 41-42)

"Türk dili bizdə elə geniş yayılıb ki, onu hətta qadınlar və uşaqlar da başa düşür. Ona görə də xalq arasında hər birinin tatar (Azərbaycan) dilində şeirlərin yaradılması və oxunması adi hala çevrilib".

X.Abovyan. Naxaşaviq. Yerevan. 1940, səh. 48 (erməni dilində)

"Qədim və yeni erməni dilini biri-birindən fərqləndirən danışıq manerası və sintaksis quruluşudur. Bu nöqteyi-nəzərdən qədim erməni dili (qrabar) Avropa dillərinə oxşayır, yeni erməni dili (aşxabar) türk (Azərbaycan) dilinə".

(Yenə orada, səh. 45).

Kim bilmir ki, insanın qəlbi qaralanda, heç bir qılınc, heç bir dərman, yuxu-söz, xüsusən də oxşama ifa aşıq havası və bayatı kimi təsir etmir.

X.Abovyan. Seçilmiş əsərlər. III cild. Yerevan. 1948, səh. 144 (erməni dilində).

"Aşıqlar Kərəm, Aşıq Qərib, Keşişoğlu haqda saz havası çalıb, mahnı ifa edib onlar haqda rəvayətlər danışıb yenidən sazda çalmağa başlayanda məclisdə hamını valeh ediblər, heç kəs daha yemək, içmək istəmirdi...

X.Abovyan. Əsərləri toplusu. IV cild. Yerevan. 1947, səh. 3 (erməni dilində).

"Bu gün türk (azərbaycanlı) və erməni demək olar ki, bir diyarda yaşayır. Bu xalqlar eyni təbiətin təsirinə məruzdurlar. Yaxın zamanlara qədər demək olar ki, bir dövlətin himayəsində idilər. İkisi də Asiyadadır, ikisi də Şərqdəndi, xasiyyətcə, danışıq maneraları sarıdan oxşardırlar, səbəb isə asiyalı olaraq eyni şəraitdə yaşayırlar. Milləti adı və dini ilə seçən insanlar təbii-psixioloji səbəbi başa düşə bilməzlər. Türk erməninin şikayət dolu, kədərli havasına qulaq asıb həzz alır, erməni isə türkün (azərbaycanın) ifasından həzz alır. Və onların hər ikisi üçün Bethovenin simfoniyaları, Motsartın "Don Juan"ı "səhrada bir səs" kimi səslənir. Hər birisi min dəfə "Durna hardan gəlirsən", Koroğlunun "Eyvazın gümüş kəməri" mahnısına, eləcə də Kərəmin və Aşıq Qəribin mahnılarını ifa etməyə üstünlük verirlər".

M.Nalbadyan Əsərlərinin tam toplusu. III cild. Yerevan. 1940, səh. 183-184 (erməni dilində)

"Qədim melodiyalar və mahnılar" ... havaların böyük hissəsi türklərdən götürülüb. Ermənilər yaşayan bir çox yerlərdə olmuşam, hər dəfə çalışırdım ki, təmiz erməni sözü eşidim. Ancaq bu günə kimi bu sözü eşidə bilməmişəm".

M.Nalbadyan... Əsərlərinin Tam toplusu. I cild. Yerevan. 1945, səh. 276 (erməni dilində)

Elə türk sözləri var ki, bütün millət (ermənilər) tərəfindən istifadə olunur.

Bu sözlərin mənası qədim erməni dilində olmasına baxmayaraq, türk sözləri xalqın danışıq dilində özlərinə elə yer eləyiblər ki, onları öz dialektlərindən "qoparıb" özlərinin çoxdan yaddan çıxmış xalq üçün artıq mövcud olmayan sözlərini dialektlərinə qaytara bilmirlər.

M.Nalbadyan, Əsərlərinin tam toplusu. III cild, Yerevan, 1940, səh. 183-184 (erməni dilində).

"Erməni dilinin qrammatikası türk qrammatikasına çox bənzəyir, erməni xalqı, aşıqlar onun öyrənilməsində, sonra isə hətta türk dilində danışmaqda çətinlik çəkmirdilər. Hətta indi də bir çox erməni yazıçı var ki, türk (azərb) dilində çox gözəl danışırlar, uzaqda yaşamalarına baxmayaraq, ermənilər üçün türk dili əziz, doğma dil kimidir. Onu qeyd etmək istəyirəm ki, türk (Azərb) dilində ermənilərin asanlıqla mahnı ifa etməyi ondan irəli gəlir ki, iki dilin forması və düşüncə tərzi eynidir".

Yazıçı, pedaqoq Qazaras Ağayan. Seçilmiş əsərləri. III cild. Yerevan. 1940, səh. 331. (erməni dilində)

Erməni aşıqları "mahnıları (şeirləri) erməni dilində yox, türk dilində bəstələyirdilər. Erməni dilində oxumaq adəti bizim aşıqlar arasında yayılmayıb".

(Yenə orada, səh 25-26).

O vaxtların mahnıları arasında "bayatı ən əsas və ən çox yayılmış idi, əlbəttə ki, elə mahnılar var ki, yalnız aşıqlar bilirdi, ancaq elələri də var ki, aşıq olmayanlar bilirdi. Ancaq bayatını hamı bilir: balacadan böyüyə kimi, qadınlar da, kişilər də. Öz kədərlərini, qəmlərini, qayğılarını bayatıyla ifadə edirdilər; sevgini, xəyallarını, ayrılığı, şikayətlərini, ölənləri üçün göz yaşları, bütün fikir və hisslərini bayatı ilə ifadə edirdilər".

(Yenə orada, səh. 325).

Bayatıda "birinci, ikinci və dördüncü sətir eyni sözlə bitir. Bu söz birinci sətirdə müəyyən deyil, ikinci və üçüncü sətirdə müxtəlif mənalar daşıyır. Ona görə bayatı türk dilində deyilir, çünki türk dilində sözün bir neçə mənası ola bilər, erməni dilində belə imkanlar yoxdu".

(Yenə orada, səh. 325).

"Koroğlunun qəhrəmanlığı ölkəmizin bütün xalqları arasında yayılmışdır. Türklər (azərbaycanlılar) onu türk sayırlar, kürdlər-kürd, ermənilər isə azərbaycanlılaşmış erməni sayırdılar. Onun kürd və türk dilində olan mahnılarını yalnız ermənilər ifa edirlər, digər xalqlar isə onun mahnılarını öz dillərində ifa edirlər".

"Daraz" jurnalı, 1893.

"Açıq söz" qəzeti 14 may 2012-ci il

№ 513. Səhifə 7.

ERMƏNİLƏRİN ETİRAFI

İndi də Sumqayıtda "milli əsarət"illərini yaşamış ermənilərə söz verək və onlardan bir neçəsini dinləyək:

Sumqayıtın 2 nömrəli tikinti-təmir idarəsinin partiya təşkilatınn büro üzvü çilingər Akopyan qəzet redaksiyasına göndərdiyi məktubda yazırdı: "Mən milliyətcə ermənіyəm. Sumqayıtda törədilmiş o ağır məqamda mən və ailə üzvlərim çıxılmaz vəziyyətdə qalmışdıq. Bizə köməklik göstərənlər mənim azərbaycanlı qonşularım oldu. Onlar mənim çoxsaylı ailəmə öz darısqal mənzillərində sığınacaq verdilər. Biz onların ürəklərinin hərarəti ilə, köməkləri və qonaqpərvərlikləri ilə qızındıq" ("Kommunist Sumqaita", 2 mart 1988).

Şagen Avakyan: "Mən Dağlıq Qarabağın Hadrut rayonunun Domi kəndində anadan olmuşam. 1952-ci ildən Sumqayıtdayam. Azərbaycan boru-yayma zavodunda işləmişəm və hazırda pensiyaçıyam. Mənim oğlanlarım Gerkules və Xaçatur da mənim zavodumda işləyirlər. Ona görə də Sumqayıt mənim və mənim oğlanlarımın Vətənidir" ("Kommunist Sumqaita", 11 mart 1988). Sual olunur: "Milli əsarət"də yaşayan erməni Sumqayıt şəhərini özünün və uşaqlarınınvətəni sayardımı? (H.Sadıqov və R.Məmmədov "Sumqayıt milli əsarət ya milli səxavət")

Armen Aovsesyan: "O ağır günlərdə bizim etibarlı dostlarımız, qonşularımız həmişə bizimlə bir yerdə idilər. Solmaz İbrahimova, Böyükağa Ağayev, Sultan

Ümidov və bir çox başqaları bizi müdafiə etdilər". ("Kommunist Sumqaita", 16 mart 1988).

Kimya sənayesi Müəssisələri İstehsalat Birliyinin elektrik quraşdırıcısı M.Qaracanyan milli mənsubiyyət məsələsinə həsr olunmuş açıq partiya iclasında çıxış edərək şəhər sakinlərinin hisslərini belə ifadə etmişdir. "Mən 40 ilə yaxındır Sumqayıtda yaşayıram. Burada çoxlu dostum var. Adamları milli mənsubiyyətinə görə ayırmaq fikri bizim heç birimizin heç vaxt ağlına belə gəlməmişdir". ("Kommunist Sumqaita", 24 mart 1988).

B.Oqanyan: "Mənə qardaşlıq köməyi göstərdilər" adlanan məqalədə yazmışdır: "İnsanların hamısını bir arşınla ölçmək pis işdir. Əgər kimsə bir iş törədibsə, ona görə bütün xalq haqqında ümumi nəticə çıxarmaq düzgün olmazdı. O ağır günlərdə mənə və ailəmə kömək əllərini uzadanlar azərbaycanlılar oldu. Bizə böyük köməklik göstərən Superfosfat zavodunun direktoru Nərçə Bəhman oğlu Ağayev oldu". ("Kommunist Sumqaita", mart 1988).

Vladimir Ovakyan, bədən tərbiyəsi sağlamlıq dispanserinin baş həkimi: "Mən Sumqayıtın yerli sakiniyəm. 32 ildir ki, həkim işləyirəm. 21 ildir ki, çoxmillətli mehriban bir səhiyyə təşkilatına rəhbərlik edirəm. Heç kəs bizi düz yoldan çıxara bilməz. Biz həmişə olduğu kimi bundan sonra da xalqlar dostluğunu göz bəbəyi kimi qoruyacağıq" ("Kommunist Sumqaita", 3 aprel, 1988).

K.Mavetosyan. "Mən dördüncü ildir ki, boru-yayma zavodunun mexaniki-təmir sexində işləyirəm. Dostlarım arasında gürcü, azərbaycanlı, ruslar vardır. Biz hamımız burada böyümüşük, özümüzü sumqayıtlı bilirik. Fəlakət bizi ayıra bilməz". ("Kommunist Sumqaita", 02 aprel, 1988).

Aida Saruxanyan. "Dostlar, sizə müraciət edirəm" adlı məqaləsində yazmışdır: "Mən 22 ildir ki, Azərbaycan Boruyayma zavodunda işləyirəm. Sumqayıt, milliyyətindən asılı olmayaraq, başqalarının şəhəri olduğu kimi, mənim də doğma şəhərimdir. Biz bir yerdə yaşamalığıq. Azərbaycanlı və erməni dostlar, mən Sizə müraciət edirəm. Bizim şəhərimizdə törədilən hadisələrdən istifadə edərək gərginliyi qızışdıranlar var. Onlar bizim düşmənlərimizdir. Gəlin əvvəlki illərdə olduğu kimi, yenə də dost və mehriban qonşuluq münasibətlərində yaşayaq. ("Kommunist Sumqaita", 22 may 1988).

N.Kaprielov – diş poliklinikasının həkimi. O, "Dostluq hər şeydən qiymətlidir"adlı məqalədə yazmışdır: "Şərq müdrikləri demişlər ki, Vətən valideynlərin qəbri olan yerdir. Mənim babam, dədəm Azərbaycan torpağında uyuyurlar. Mən də həmin torpaqda anadan olmuşam, böyümüşəm və bu günə qədər də yaşayıram. Bura mənim Vətənimdir. Bir vaxt mənim qızım ağır xəstələndi və ona təcili qan lazım oldu. İlk köməyə gələnlər azərbaycanlılar idi. Ona görə də hər gün, hər saat qan qardaşları olmuşuq" ("Kommunist Sumqaita", 29 may, 1988).

H.Kasparyan: "O faciəli günlərdə təmiz, saf, vicdanlı adamlar provokatorlara, təhrikçilərə qoşulmadılar. Mənim qonşuların Kamal və Tamara Abdullayevlər, Malik Həsənov, Zöhrab Əliyev, Səmayə Hacıyeva, Zara Şabilova, Şirin Səfərov, İmran Cəfərov və bir çox başqaları bizə təcili köməyə gəldilər" ("Kommunist Sumqaita", 22 iyun, 1988).

M.Qazarov: 01 iyul 1988-ci il tarixdə "Kommunist Sumqaita" qəzetində "Bizim dostluğumuz müqəddəsdir" adlı məqalə dərc etdirmişdir. Məqalədə oxuyuruq: "Mən Ermənistanın Gorus rayonunda Gorundzor kəndində anadan olmuşam. Bizim kəndimiz üç tərəfdən Laçın rayonunun azərbaycanlı kəndləri Cicimli, Qazı dərəsi və Zabuxla həmsərhəddir. Onlar bizim dilimizi yaxşı bilir, biz də onların. Biz həmişə çox mehriban qonşuluq şəraitində yaşamışıq. Mən 50 ildən çoxdur ki, Azərbaycanda işləyirəm. Mənim ailəmin və dostlarımın azərbaycanlılarla çoxillik dostluq həyatı mənə ixtiyar verir ki, üzümü Qarabağ ermənilərinə tutub deyim. Mənim əzizlərim, Qağlıq Qarabağ sakinləri! Mən inanıram ki, ağıl və bizim xalqların əsrlər boyu sülh, əminəmanlıq istəkləri qalib gələcək. Sizi millətçilik toxumu səpənləri lənətləməyə, onları dəf etməyə çağırıram.

İ.Tamrazyan "Qırğına qədər bizim azərbaycanlılarla münasibətlərimiz çox yaxşı idi. Mən heç vaxt təsəvvür etməzdim ki, belə hadisə ola bilər. Mən hətta azərbaycanlılarla "kirvə" olub qohumlaşmışdım. Bir ailə kimi dostcasına yaşayırdıq. Biz özümüz başa düşə bilmirik ki, bu necə ola bilərdi". (Yuriy Pompeyev. «Кровавый омут Карабаха» - "Qarabağın qan girdabında", Bakı, 1992, s.61)

Beləliklə, aydın olur ki, uzun illər Sumqayıtda azərbaycanlılarla qonşu olmuş, əmək kollektivlərində birgə işləmiş ermənilər ancaq yaxın dostluqdan, yoldaşlıqdan, mehriban qonşuluqdan, "kirvə" olmalarından danışırlar, heç bir güley-güzar etmirlər. Amma bir dəfə də olsun Azərbaycanda, Sumqayıtda olmamış separatçı, millətçi, öz xalqının da düşməni olan erməni "başbilənləri" Azərbaycanda "milli əsarət" siyasəti aparılmışdır deməklə bütövlükdə Azərbaycan xalqına, o cümlədən Sumqayıt şəhərinə və onun çoxmillətli əhalisinə xas olmayan fikir söyləyir, qara yaxır, böhtan atırlar. Əslində isə, bütün Azərbaycan Respublikasında, o cümlədən xalqlar dostluğu şəhəri olan Sumqayıtda da ermənilərə qarşı qayğı, mehribançılıq, xüsusi milli səxavət göstərilmişdir.

Yuxarıda yazılanlardan göründüyü kimi, Sumqayıtda sənaye obyeklərinin və şəhər binalarının ilk bünövrə daşını qoymuş "Zaqsənayeinşaatı" tikinti trestinin 1944-1958-ci illərdə (14 il) fəaliyyət göstərmiş "Fəhlə Təchizatı Şöbəsi"-nin "Ticarət", İctimai-iaşə", "Məişət xidməti" şəbəkələrinə dolmuş ermənilərin şəhərdə qorxmadan-çəkinmədən törətdikləri hiyləgər əməlləri açıqlamaq məqsədi ilə apardığımız kiçik bir sosioloji tədqiqat nəticəsində erməni milli mentalitetinə xas olan bəzi cəhətlər üzə çıxdı. Bu cəhətlərdən bir neçəsini qısaca ümumiləşdirək.

Birinci. 1988-ci ildə Sumqayıtda özləri təşkil etdikləri hadisələrdən sonra separatçı-millətçi və terrorçu ermənilər hay-küy salırlar ki, "70-illik Sovet hakimiyyəti illərində Azərbaycanda milli əsarət siyasəti aparılmışdır. Sumqayıt hadisələri isə həmin siyasətin təbii nəticəsidir".

Məlumdur ki, ermənilər Sumqayıtda terrorçuluq hadisələri təşkil edənə qədər xalqlar dostluğu şəhəri kimi geniş tanınmış Sumqayıtda 84 millətin və azyaşlı etnik qrupların nümayəndələri çox mehriban yaşayırdılar və bugün də mehriban yaşayırlar. Həmin xalqın nümayəndələrindən olan adamların heç biri demir ki, Azərbaycanda, Sumqayıtda 70 il onlara qarşı "milli əsarət" siyasəti aparılmışdır.

Tədqiqatımızın nəticələri göstərir ki, Sumqayıtda digər millətlərdən olan adamlardan, hətta azərbaycanlıların özlərindən də artıq hörmət, qayğı və kömək ermənilərə göstərilmişdir. Bunun səbəbi isə, abırsız-həyasız ermənilərin hiyləgərlik bacarığı, vəzifəli azərbaycanlıların isə, tamahkarlığı və maymaqlığı olmuşdur.

İkinci. Ermənilər Sumqayıtın sənaye müəssisələrində adətən, müdir yox, baş mühəndis, baş mühasib, şöbə müdiri, xəzinədar, direktorun sürücüsü, katibəsi,

makinaçısı işləməyi üstün tuturdular. Ticarətdə, iaşədə, məişət xidməti şəbəkələrində isı əksərən müdir olmağa can atmışlar. Hiyləgər ermənilər sənaye müəssisələrində müdir işləmək istəmirdilər, ona görə ki, müdirlər məsuliyyət daşıyırdı, onlardan plan tələb olunurdu. Sonra isə sovet dövrü müəssisə, idarə, təşkilat rəhbərlərinin iş vaxtının çoxu komsomol, həmkarlar, partiya iclaslarında,bürolarda, plenumlarda, sessiyalarda keçirdi. Yerlərdə isə əsas işləri görənlər baş mühəndislər, baş mühasiblər idi ki, həmin vəzifələri də ermənilər tuturdu. Ticarətdə, iaşədə, məişət xidməti sahələrində müdir vəzifələrində işləyənlər ortajda yeyib, qıraqda gəzdikləri üçün, o şəbəkələrdə, demək olar ki, bütün təsərrüfat ermənilərin əlində olmuşdur.

Üçüncü. Müəssisə, idarə və təşkilatda ilk dəfə işə qəbul olunan ermənilər dərhal mənzil, telefon, maşın, bağ, mebel, qaraj növbəsinə dayanıb onları əldə etdikdən sonra sənajye və tikinti müəssisələrini tərk edir, ticarət, iaşə, məişət xidməti göstərən müəssisələrə axışırdılar. Onların da böyük əksəriyyəti azsavadlı qadınlar idi. Kişilər isə o zaman dəbdə olan "sezonnaya rabota" – "mövsüm işi" adı ilə Sumqayıtdan çıxıb iqtisadi baxımdan daha təmiz olan respublikalara, vilaıyətlərə, şəhər və kəndlərə gedirdilər və çoxları geri qayıtmırdılar. Onların ardınca isə oğlanları və qızları oxumağa gedirdilər və geri qayıtmırdılar.

Dördüncü. Şəhərin mənzil-kommunal idarələrində yuva salmış erməni qadınları – katibələr, mühasiblər, makinaçılar, pasport qeydiyyatı ilə məşğul olanlar şəhərin yaşayış evlərində boşalan keyfiyyətli mənzillərin ermənilərin əlinə keçirilməsində fəal rol oynayırdılar.

Beşinci. Şəhərdə erməni oğlanları slavyan xalqlarından olan qızlarla, qızları isə əksərən azərbaycanlı oğlanlarla ailə-nigah münasibətlərinə girməsi prosesi şəhər həyatının bütün sahələrində ermənilərin əl-qol açması üçün geniş imkan yaradırdı.

Altıncı. Sumqayıtda doğulan, uşaq baxçasında böyüyən, rus dilində orta məktəbi bitirən erməni uşaqlarının əksəriyyəti keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə ali təhsil almağa gedirdilər. Onların çoxu ali məktəbi qurtarandan sonra geri qayıtmırdı.

Yeddinci. Şəhərin tabitə qovşağı təşkilatında məskən salmış erməni qızları Sumqayıt haqqında lazım olan informasiyanı marağında olan yerlərə asanlıqla ötürürdülər.

Səkkizinci. Sumqayıtda ermənilər yaşayan mənzillərin əksəriyyətinə telefon xətti çəkilmişdi. Odur ki, şəhərin sənaye və ərzaq dükanlarına keyfiyyətli ərzaq məhsulları və defisit mallar gələn kimi bir-birinə xəbər verirdilər, azərbaycanlılar və digərləri xəbər tutana qədər, hamısını alıb aparırdılar.

Doqquzuncu. Ermənilər "erməniçilik" ideologiyasına xas olan bütün çirkli, alçaq əməllərə əl atmaqla yüksək vəzifəli azərbaycanlı məmurların sürücüsü, katibəsi, makinaçısı işləyirdilər. Bəzən azərbaycanlıların özlərinin də problemlərini həll etməkdə ermənilər kömək göstərirdi.

Onuncu. Bütün günahları, təqsirləri ermənilərin üstünə yıxmaq, əlbəttə, səhv olardı. Öz günahlarımız daha çox olmuşdur. Sovet hakimiyyəti illərində Sumqayıtda ermənilərə yaşıl işıq yandıranlar maymaq, tamahkar, hayquşların-vayquşların toruna düşmüş azərbaycanlılar olmuşdur.

Hörmətli oxucu!

Müstəqil Azərbaycan Respublikasının hərtərəfli və dinamik inkişaf etməsinə bu gün maneə törədən əsas faktor iki qonşu xalqdan birinin aktivliyi (məkrliliyi) və digərinin passivliyi (unutqanlığı) şəraitində tarixən yaranmış Ermənistan – Azərbaycan münasibətləri problemidir.

Ermənistan –Azərbaycan münasibətləri erməni tərəfin Türkiyə, Azərbaycan, Gürcüstan və Rusiya torpaqları hesabına "Böyük Ermənistan dövləti yaratmaq" xülyasından törənmiş və XX əsrdə xalqımızın başına 1905, 1918-1920-ci illər qırğınları, 1948-1953-cü illər deportasiya, 1988-ci il Əsgəranda və Sumqayıtda törədilmiş hadisələri, 1992-ci il Xocalı soyqırımı kimi dəhşətli faciələri gətirmişdir. XXI ərsin astanasında Azərbaycan Respublikasının ərazisinin 20%-i zəbt edilmiş, bir milyondan artıq adam öz ata-baba yurdlarından qovulmuşdur.

Sumqayıtda törədilmiş hadisələrin səbəbi nə dostluq şəhəri Sumqayıtla, nə də burada yaşayb-yaradan 80-dən artıq müxtəlif millətlərdən olan insanların – Sumqayıt əhalisinin millətlərarası münasibətləri ilə bağlı deyildir.

Həm xarici ölkələrdə, həm də Moskvada ən yüksək dairələrdə vəkillik edən ermənilər M.S.Qorbaçovun "yenidənqurma" adı altında SSRİ-ni parçalamaq

siyasətindən istifadə edib Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirmək qərarına gələrək, Moskvanın razılığı ilə Qarabağ uğrunda ümummilli erməni hərəkatına güclü təkan vermək üçün ictimai-siyasi bəhanə rolunu oynaya biləcək antierməni iğtişaşlarının törədilməsi məqsədilə Azərbaycanın cavan şəhəri Sumqayıtı əlverişli yer kimi seçmişlər.

Sumqayıtda törədilmiş 1988-ci il fevral hadisələrindən mümkün qədər çox bəhrələnmək, dünya ictimaiyyəti nəzərində azərbaycanlıların zalım, qəddar, qaniçən, barbar obrazını yaratmaq və güya bu səbəbdən də onlarla birgə yaşamağın qeyri-mümkünlüyü haqqında fikir formalaşdırmaq məqsədi güdən erməni millətçiləri dəridən-qabıqdan çıxır, hər cür vasitələrə əl atırlar.

Bunun əksinə olaraq Azərbaycanda heç bir zaman antierməni təbliğatı aparılmamış, hətta erməni millətçi və separatçıların tarixi saxtalaşdırmaq siyasətinin əleyhinə belə düşünülmüş, ardıcıl, sistemli təbliğat işi aparılmamış, onun son dərəcə vacib olduğu dərk edilməmiş, "unudulmuşdu".

Tarixi unutqanlıq sosial bəladır. Bu bəlaldan xilas olmaq lazımdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyeb 31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına 29 mart 2000-ci il tarixli müraciətində tarixi unutqanlığımıza son qoyulmasının vacibliyi fikri xüsusilə vurğulanır: "Biz bütöv xalqlara qarşı düşmənçilik təbliq etmək fikrindən uzağıq. Bu yolun perspektivi yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımızın taleyüklü tarixi problemlərinin həllinə keçilməz maneələr yarada bilər. Bunların dərslərini mənimsəmək, nəticələrini aradan qaldırmaq, indiki və gələcək nəsilləri xalqımıza qarşı fəaliyyət göstərən düşmən qüvvələrə və planlara qarşı ayıq-sayıqlıq ruhunda düzgün tərbiyə etmək bizim vəzifəmizdir".

SON SÖZ

Laçın rayon İcra hakimiyyəti Sultan bəyin anadan olmasının 140 illik yubiletinin qeyd edilməsi haqqında 01.12.2010-cu il tarixli 80 saylı sərəncam imzalamışdı. Bu münasibətlə 28.01.2011-ci il tarixdə Laçın rayon İcra hakimiyyətində görüş keçirildi. Bu görüş bir Azərbaycan vətəndaşı kimi məni çox sevindirir. Mən nə vaxtsa bu şəxsiyyətin öz layiqli qiymətini alacağına inanırdım. Bu gün həqiqət bərpa olunur. Sultan bəyi xarakterizə etmək olduqca çətindir, həm

də şərəflidir. Çətindir ona görə ki, o, özünə xas olan hər tərəfli fitri istedadlı bir şəxsiyyətdir. Şərəflidir ona görə ki, hər bir Türk oğlu ona oxşamağa çalışır, onun həyat yolunu öyrənir, ondan qürurlanır, onu ürəkdən sevir.

Sultan bəy vətənpərvərdir. O, doğulduğu obanı, eli, onun yaylaqlarını, meşələrini, göz oxşayan buz bulaqlarını, bir sözlə flora və faunasını, təbii sərvət deyilən hər bir nemətlərini sevir. Çərçivəli, asılı rus zabiti olmaqdan bəylik qürurunu üstün tutan Sultan bəy Peterburqda ali hərbi təhsilini yarımçıq qoyaraq doğma vətəninə qayıtmışdır. Bundan sonra Laçında dövrünə görə müasir tipli zavodlar tikdirərək əhalini işlə təmin etmiş, bəzi xarici dövlətlərlə ticarət əlaqələrini yaratmışdır.

Ermənilər mütəmadi olaraq 1905, 1906, 1918-1920-ci illərdə Qarabağa, Zəngəzura məkrli planlarla hücum etmişdilər.Bu hücumların dəf edilməsində Sultan bəy Paşa bəy oğlu Laçınlı igidləri öz vəsaiti hesabına silahlandırmaqla erməni-rus birləşmələrini darmadağın etmişdir. İlk dəfə 1906-ci ildə Şuşanın azad edilməsinə nail olmuş, onun dəstəsi 500-dən çox erməni öldürmüş, 300 nəfəri yaralamışdır. Andronikin əsas fikri Laçından keçməklə Qarabağı Ermənistanla birləşdirmək idi. Onun bu planını da puç edən Sultan bəy Sultanovdur.

Tarixdə bu əməliyyat Zabux əməliyyatı ilə özünə yer almışdır. Bu əməliyyatda ağıllı, istedadlı, igid Türk oğlu Sultan bəyin müharibə taktikası nəticəsində Andranikin qoşunu son nəfərə kimi darmadağın edilir. Sultan bəy Sultanov və Xosrov bəy Sultanov qardaşları doğma obasını, elini, mənsub olduqları Türk soyunu ürəkdən sevmiş, Azərbaycan torpaqlarımın bütövlüyünü qorumuş və bu yolda həmişə mübarizə aparmışdılar.

Azərbaycan Sovet hökuməti qurulandan sonra da bir müddət Xosrov bəy Şuşa İnqilab Komitəsinin sədri işlədi. Bu ermənilər narahat eləməyə başladı. 1920-ci il 12 mayda Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycan Şura hökümətinə Xosrov bəy Sultanovla əlaqədar göndərdiyi notada "erməni qırğınlarının təşkilatçısı Sultanov qırmızı lent taxaraq yenə də hakimiyyətdədir" – yazırdı.

Təbii ki, Xosrov bəyə hansı hakimiyyətin iş başında olmasının çox da böyük fərqi yox idi. ADR dövründə general-qubernator olanda da, Şuşa İnqilab Komitə sədri olanda da, eyni məsuliyyətlə işinə sədaqətli idi. Onun mübarizəsi yurd uğrunda idi, torpaq uğrunda idi, vətəninin, dövlətinin bütovlüyü uğrunda idi.

Xosrov bəy ermənini taniyırdı. Azərbaycan torpağına göz dikənlər, onu parçalayanlar, insanlarını məhv edənlər onun düşmənləri idilər. Xosrov bəy də, Sultan bəy də özlərinin müqəddəs mübarizələrini mərdi-mərdana aparmaqda israrlı idilər.

AXC-i dövründə Xosrov bəy Gorusa girmək, Zəngəzuru daşnaklardan təmizləmək üçün icazə istəmişdi. Lakin, Xosrov bəyə heç bir icazə və lazimi köməklik edilməmişdi. Bütün bunlara baxmayaraq 1920-ci ilin martında X.Sultanov Novruz bayramı ərəfəsi ermənilərin Şuşada qaldırdığı qiyamı dəf etdi.

Elimizin qəhrəman oğlulları Sultan bəy və Xosrov bəy haqda kitab yazmaq çox şərəflidir, ancaq şərəfli olduğu qədər də məsuliyyətlidir. Mən bu kitabı yazmazdan əvvəl arxiv sənədlərini araşdırmış, oxu zallarında günlərlə oturub bu cəsur qardaşları haqda yazılarla tanış olmuşam. Eyni zamanda aşağıda göstərilən ədəbiyyatlardan istifadə etmişəm:

1. Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası,
2. Səbahəddin Eloğlunun "Zəngəzur hadisələri" kitabı,
3. Şair-publisist Əvəz Lələdağın "Yaddan çıxmaz günlərim" kitabı,
4. Publisist yazıçı Famil Qaracallının (Süleymanov) "Anam niyə ağlayır" və "Qu quşunun nəğməsi" kitabları,
5. Professor Ziyadxan Nəbibəylinin "Sulltan bəy və Xosrov bəy qardaşları" kitabı,
6. Sumqayıt Dövlət Universitetinin fəlsəfə kadedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor Həsən Şirəli oğlu Sadıqov və Sumqayıt Dövlət Universitetinin rus dili kafedrasının müdiri filologiya elmləri namizədi, dosent Ramazan Salam oğlu Məmmədovun birgə yazdıqları "Sumqayıt milli əsarət ya milli səxavət?" kitablarından və internetdən əldə etdiyim bəzi məlumatlardan istifadə etmişəm.

Sadladıqlarım ədəbiyyatlardan istifadə edərək nəyə nail olmuşamsa onu oxucularım deyəcəklər, publisist-şair Əşir Bəşiroğlunun 12 kitabı oxuculara təqdim olunmuşdur. O kitablar oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Ümüd varıq ki, "Cəsur qardaşlar" adlanan bu 13-cü kitabı da oxucular tərəfindən qəğbətlə qarşılanacaqdır.

Cəsur qardaşlar

Əşir Bəşiroğlu "Qızıl qələm", "Xalqın nüfuzlu ziyalı", "Azərbaycan bayrağı", "H.Z.Tağıyev", "Həsən bəy Zərdabi" və "Şərəf" media mükafatları diplomu laureatıdır.

Azərbaycan KİVİNİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüdür.

ƏŞİR BƏŞİROĞLUNUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI

Sıra N-si	***Kitabın adı***	***Nəşriyyatın adı***	***Nəşr tarixi***	***Səhifə***	***Nüsxə***
1.	Xatirəyə dönən günlər	Memar nəşriyyatı	2005	225	300
2.	İşıqlı şəxsiyyətlər unudulmur	Memar nəşriyyatı	2006	300	500
3.	Dağlar ağladı	Min bir mahnı nəşriyyatı	2007	340	300
4.	Mətanət	Hərbi nəşriyyatı	2008	184	250
5.	Mənim ana dilim	Hərbi nəşriyyatı	2008	196	300
6.	Yarımçıq ömür	Hərbi nəşriyyatı	2008	176	400
7.	Nəbi yurdu	Hərbi nəşriyyatı	2009	420	300
8.	Qəm karvanı	Hərbi nəşriyyatı	2011	424	300
9.	Dünya düzəlməz	Təknur nəşriyyatı	2011	304	250
10.	Pələng, şir və ayı	Təknur nəşriyyatı	2012	350	300
11.	Hamının sevimlisi	Təknur nəşriyyatı	2012	200	300
12.	Ağır faciə	Təknur nəşriyyatı	2012	304	300
13.	Cəsur qardaşlar	Təknur nəşriyyatı	2013	520	350

İnternet ünvanı: www.anl.az